

*Bu gün biz azad Qarabağdayıq.*
*Bu gün biz azad Zəngəzurdayıq.*
*Biz - bu torpaqların sahibləri bu torpaqlara qayıtmışıq və*
*bundan sonra biz bu torpaqlarda əbədi yaşayacağıq.*
*Azərbaycan xalqının mənim sözlərimə inamı*
*məni daha da çox inandırırdı ki, biz buna nail olacağıq.*
*Xalqımız birləşdi, bir amal uğrunda, bir müqəddəs ideya uğrunda*
*birləşdi və istədiyinə nail oldu.*

**İLHAM ƏLİYEV**

*Azərbaycan Respublikasının Prezidenti*

ISSN 2309-1347

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası

# DÖVLƏT İDARƏÇİLİYİ:

## NƏZƏRİYYƏ VƏ TƏCRÜBƏ

**2021**
**4 (76)**

**DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**
**BAKI – 2021**

*Demokratik cəmiyyətdə dövlət idarəçiliyinin, yerli özünüidarəetmənin nəzəriyyəsi və təcrübəsi üzrə tədqiqatlar*

**REDAKSİYA ŞURASI:** ***Samir Nuriyev*** *(sədr)*

***Anar Ələkbərov, Fərəh Əliyeva, Kərəm Həsənov, Zeynal Nağdəliyev, Fuad Ələsgərov, Hikmət Hacıyev, Şahmar Mövsümov, Natiq Əmirov, Ramiz Mehdiyev, Urxan Ələkbərov***

**REDAKSİYA HEYƏTİ:** ***Urxan Ələkbərov***
*(redaktor)*

***Əlikram Abdullayev***
*(redaktor müavini)*

***Elman Nəsirov***
*(məsul katib)*

***Əli Nuriyev, Namiq Əliyev, Ziyafət Həbibova, Elçin Əhmədov, İsaxan Vəliyev, Xatirə Hüseynova, Gülnarə Qurbanova, Rəcəb Rəhimli, Sevil Məmmədova, Firdovsiyyə Əhmədova, Yusif Ağayev***

*Elmi-nəzəri jurnal 2003-cü ildən nəşr olunur. İldə dörd dəfə çıxır.*

*Jurnal AAK-ın rəsmi qeydiyyatdan keçirilmiş və elmi nəşrlər siyahısına daxil edilmişdir.*

*Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə.*
*Elmi-nəzəri jurnal. 2021, №4(76).*
*Bakı, Dövlət İdarəçilik Akademiyasının (DİA) nəşri, 2021, 336s.*

*© Dövlət İdarəçilik Akademiyası, 2021*

ISSN 2309-1347

The Academy of Public Administration
under the President of the Republic of Azerbaijan

# PUBLIC ADMINISTRATION:
## THEORY AND PRACTICE

2021
4 (76)

ACADEMY OF PUBLIC ADMINISTRATION

BAKU – 2021

*Research Dedicated to the Theory and Practice of Public Administration and Application of Decentralized Governance in Democratic Society*

**EDITORIAL COUNCIL:** ***Samir Nuriyev*** *(chairman)*

***Anar Alakbarov, Farah Aliyeva, Karam Gasanov, Zeynal Naghdaliyev, Fuad Alasgarov, Hikmat Hajiyev, Shahmar Movsumov, Natiq Amirov, Ramiz Mehdiyev, Urkhan Alakbarov***

**EDITORIAL BOARD**: ***Urkhan Alakbarov***
*(editor-in-chief)*

***Alikram Abdullayev***
*(deputy editor)*

***Elman Nasirov***
*(executive secretary)*

***Ali Nuriyev, Namiq Aliyev, Ziyafet Habibova, Elchin Ahmadov, Isakhan Valiyev, Khatira Huseynova, Gulnara Gurbanova, Rajab Rahimli, Sevil Mammadova, Firdovsiyya Ahmadova, Yusif Agayev***

*Journal of Public Administration: theory and practice is published since 2003. Quarterly.*

*The journal is officially registered at the Supreme Attestation Commission (SAC) and is included in the register of national scientific publications.*

*Public Administration: theory and practice*
*Scientific and theoretical journal. 2021, №4(76)*
*Baku, Publication of Academy of Public Administration (APA), 2021, 336p.*

*© Academy of Public Administration, 2021*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FƏALİYYƏTİNİN QISA XRONİKASI

*Oktyabr–noyabr–dekabr 2021-ci il*

## Oktyabr

**2 oktyabr**
- İspaniyanın EFE informasiya agentliyinə müsahibə vermişdir.

**3 oktyabr**
- Tərtər rayonuna səfərə gəlmişdir.
- Tərtər şəhərinin mərkəzində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Tərtər rayonunun Suqovuşan qəsəbəsinə və Talış kəndinə gedən avtomobil yollarının açılışını etmişdir.
- Tərtər rayonunda Talış-Tapqaraqoyunlu-Qaşaltı-Naftalan avtomobil yolunun təməlini qoymuşdur.
- Tərtər rayonunun Talış kəndində Azərbaycan bayrağını ucaltmışdır.
- Sonra Talış kəndində ermənilər tərəfindən dağıdılmış alban-udi kilsəsində olmuşdur.
- Daha sonra kənddəki rus-pravoslav kilsəsində olmuşdur.
- Tərtər rayonunun Suqovuşan qəsəbəsində Azərbaycan bayrağını ucaltmışdır.
- Sonra burada çıxış etmişdir.
- Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra açılışında iştirak etmişdir.
- Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin "Smerç" raketləri ilə hücumu nəticəsində Tərtər şəhərinin sakini Sahib İsmayılovun dağılmış evinə baxmış və onun əvəzinə inşa edilən yeni evdə yaradılan şəraitlə tanış olmuşdur.
- Sonra Tərtər şəhərinin mərkəzində Ermənistan silahlı birləşmələri tərəfindən rayona müxtəlif tipli reaktiv yaylım atəşi sistemləri və artilleriya qurğularından atılmış mərmilərə baxmışdır.
- Bərdə rayonuna səfərə gəlmişdir.
- Bərdə şəhərinin mərkəzində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Bərdə Peşə Liseyinin açılışında iştirak etmişdir.

**4 oktyabr**
- Cəbrayıl rayonunda səfərdə olmuşdur.
- "KamAZ" ASC ilə "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyinin birgə servis mərkəzinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Şərqi Zəngəzur iqtisadi rayonunda yaradılacaq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoymuşdur.
- Cəbrayıl rayonunda 110/35/10 kilovoltluq "Cəbrayıl" yarımstansiyasının açılışında iştirak etmişdir.
- Cəbrayılda Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışını etmişdir.
- Sonra zirehli döyüş avtomobilini idarə etmiş, "Harop" pilotsuz uçuş aparatlarına baxmışdır.
- Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimində iştirak etmişdir.
- Cəbrayıl şəhərində akademik Mehdi Mehdizadə adına tam orta məktəbin təməlqoyma mərasimində iştirak etmişdir.
- Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak etmişdir.
- Cəbrayıl ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, görüşdə çıxış etmişdir.
- Cəbrayıl Memorial Kompleksinin təməlini qoymuşdur.
- Cəbrayıl şəhərinin təməl daşını qoymuşdur.

**6 oktyabr**
- Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Petr Mixalkonun etimadnaməsini qəbul etmişdir.
- Ölkəsinin Baş naziri kimi fəaliyyətə başlaması münasibətilə Yaponiyanın Baş naziri Fumio Kişidanı təbrik etmişdir.

**7 oktyabr**
- Birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva ilə birlikdə Bakı Zooloji Parkının yenidənqurmadan sonra açılışında iştirak etmişdir.
- İtaliyanın "La Repubblica" qəzetinə müsahibə vermişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edərək, onu ad günü münasibətilə təbrik etmiş, ona Rusiyanın inkişafı və firavanlığı naminə dövlətçilik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Bəluçistan əyalətində baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar ilə əlaqədar Pakistan İslam Respublikasının Prezidenti Arif Alviyə başsağlığı vermişdir.

**9 oktyabr**
- Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Tuğ kəndinə səfər etmişdir.
- Hadrut qəsəbəsində yeni məscidin təməlini qoymuşdur.
- Hadrut-Cəbrayıl-Şükürbəyli, Tuğ-Hadrut və Füzuli-Hadrut yollarında aparılan tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

• Yeni "Hadrut" qovşaq yarımstansiyasının təməlini qoymuşdur.
• Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, görüşdə çıxış etmişdir.
• Sonra Xocavənd ictimaiyyətinin nümayəndələri ilə birlikdə Tuğ kəndinə yola düşmüşdür.
• Tuğ kəndini gəzmiş və ictimaiyyət nümayəndələri ilə söhbət etmişdir.

**11 oktyabr**
• Serbiyanın paytaxtı Belqradda Qoşulmama Hərəkatının 60 illiyinə həsr edilmiş Yüksək Səviyyəli Toplantının rəsmi açılış hissəsinə sədrlik etmişdir.
• Sonra toplantıda videoformatda çıxış etmişdir.

**12 oktyabr**
• Türkiyə Respublikasının ətraf mühit və şəhərsalma naziri Murat Kurumu qəbul etmişdir.

**15 oktyabr**
• Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasında iştirak və çıxış etmişdir.

**17 oktyabr**
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Füzuli rayonunda səfərdə olmuşdur.
• Füzuli-Ağdam avtomobil yolunun təməlini qoymuşdur.
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Füzuli rayonunun Dövlətyarlı kəndində yeni salınacaq "Ağıllı kənd" layihəsi ilə tanış olmuşdur.
• Dövlətyarlı kəndində yeni salınacaq "Ağıllı kənd"in təməlini qoymuşdur.
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olmuşdur.
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Füzuli şəhərində Rəqəmsal Stansiya İdarəetmə Mərkəzinin təməlqoyma tədbirində iştirak etmişdir.
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Füzulidə yaradılacaq Mərkəzi Şəhər Parkında ağac əkmişdir.
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Füzuli şəhərində salınacaq çoxmənzilli yaşayış məhəlləsinin təməlqoyma mərasimində iştirak etmişdir.
• Füzuli şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməlini qoymuşdur.
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüş, görüşdə çıxış etmişdir.
• Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Füzuli Memorial Kompleksinin və Füzuli şəhərinin bərpasının təməl daşını qoymuşdur.

**18 oktyabr**
• Müstəqilliyin bərpasının 30-cu ildönümü münasibətilə Azərbaycan xalqına müraciət etmişdir.
• Qətər Dövlətinin Baş nazirinin müavini, xarici işlər naziri, Qətər-Azərbaycan Hökumətlərarası Komissiyanın həmsədri Məhəmməd bin Əbdülrəhman Al Taninin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
• Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri Vedat Bilgini qəbul etmişdir.

**19 oktyabr**
• Slovakiyanın xarici işlər və Avropa naziri İvan Korçoku qəbul etmişdir.
• Avropa İttifaqının xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir.
• Xorvatiyanın xarici və Avropa işləri üzrə naziri Qordan Grliç Radmanı qəbul etmişdir.
• "Baykar" şirkətinin İdarə Heyətinin sədri Özdemir Bayraktarın vəfatı ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı vermişdir.

**20 oktyabr**
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan rayonunda səfərdə olmuşdur.
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə rayonun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış olmuşdur.
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanış olmuşdur.
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan rayonunda Rəqəmsal Yarımstansiyanın təməlqoyma mərasimində iştirak etmişdir.
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyasının açılışında iştirak etmişdir.
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.

**21 oktyabr**
• Ölkəsinin milli bayramı münasibətilə Macarıstanın Prezidenti Yanoş Aderi təbrik etmişdir.

**22 oktyabr**
• Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Milli Gimnastika Arenasının yeni məşq binasında yaradılan şəraitlə tanış olmuşdur.
• Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Bakıda DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılışında iştirak etmişdir.

**25 oktyabr**
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Qubadlı rayonunda səfərdə olmuşdur.
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində iştirak etmişdir.
• Birinci xanım Mehriban Əliyeva ilə birlikdə sistem əhəmiyyətli 110/35/10 kV-luq "Qubadlı" yarımstansiyasının açılışında iştirak etmişdir.

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.
- Özbəkistan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə Prezident Şavkat Mirziyoyevi təbrik etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Çex Respublikasının Prezidenti Miloş Zemanı təbrik etmişdir.

**26 oktyabr**

- Ölkəsinin milli bayramı – Respublika Günü münasibətilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı təbrik etmişdir.
- Füzuli Beynəlxalq Hava Limanında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşılamışdır.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak etmişdir.
- Füzuli Beynəlxalq Hava Limanının rəmzi açarları onlara təqdim edilmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Füzuli Beynəlxalq Hava Limanında yaradılan şəraitlə tanış olmuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış olmuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Zəngəzur dəhlizinin – Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlini qoymuşdur.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Zəngilan rayonunda “Dost Aqropark”ın təməlqoyma mərasimində iştirak etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə əvvəlcə aqroparkın ərazisində çinar ağacı əkmişdir.
- Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Anadolu Agentliyinin Vətən müharibəsini özündə əks etdirən fotosərgisinə baxmışdır.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ön sözünü yazdığı və Anadolu Agentliyi tərəfindən hazırlanan “Qarabağ Zəfəri” kitabını ona təqdim etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə "Dost Aqropark"ın təməlini qoymuşdur.
- Zəngilanın Ağalı kəndində rəsmi qarşılanma mərasimindən sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olmuşdur.
- Zəngilanın Ağalı kəndində Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata birgə bəyanatla çıxış etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə birlikdə Zəngilan rayonunun Ağalı kəndində həyata keçirilən “Ağıllı kənd” layihəsi çərçivəsində görülən işlərlə tanış olmuşdur.
- Rəsmi səfəri başa çatdığına görə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı Füzuli Beynəlxalq Hava Limanında yola salmışdır.

**28 oktyabr**

- Qırğız Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kayrat Osmonaliyevin etimadnaməsini qəbul etmişdir.
- Rumıniyanın Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vasile Soarenin etimadnaməsini qəbul etmişdir.

**29 oktyabr**

- Türkiyənin Diyanət İşləri İdarəsinin sədri Ali Erbaşı qəbul etmişdir.

## Noyabr

**1 noyabr**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə İsmayıllı rayonunda səfərdə olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin İsmayıllı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə İsmayıllıya səfər çərçivəsində Lahıc qəsəbəsində olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə qəsəbəni gəzmiş, sakinlərlə söhbət etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Lahıcdakı Bədöyün məscidində aparılan bərpa-təmir işləri ilə tanış olmuşdur.
- İsmayıllı rayonunda başlanğıcını Muğanlı-İsmayıllı yolunun 17-ci kilometrliyindən götürən Basqal-Sulut avtomobil yolunun açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə İsmayıllı şəhərində Uşaq və Ailələrə Dəstək Mərkəzinin yeni binasının açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə İsmayıllı şəhər Natiq Behdiyev adına 6 saylı tam orta məktəbin yeni binasının açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şamaxı rayonunda səfərdə olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Şamaxı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şamaxıda "Azərişıq" ASC-nin Şimal-Qərb Regional SCADA İdarəetmə Mərkəzinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şamaxı şəhərində Gənclər Parkında görülmüş işlərlə tanış olmuşdur.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə şəhid Samir Kaçayevin valideynləri ilə görüşmüşdür.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Heydər Əliyev Fondunun dəstəyi ilə Şamaxı şəhərində inşa edilən 7 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şamaxı şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Yaradıcılıq Mərkəzinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şamaxı şəhər stadionunun açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şamaxı Üzüm Tingçilik Mərkəzinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şamaxı rayonunda akademik Heydər Hüseynov adına Çarhan kənd tam orta məktəbinin yeni binasının açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şamaxıdakı Pirsaat Baba ziyarətgah-məscid kompleksinin bərpa və yenidənqurma işlərindən sonra açılışında iştirak etmişdir.

**3 noyabr**

- Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri Vayra Vike-Freyberqanı və İsmail Serageldini, keçmiş dövlət və hökumət başçılarını, Mərkəzin İdarə Heyətinin üzvlərini qəbul etmişdir.
- Xorvatiya Respublikasının sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul etmişdir.
- Səudiyyə Ərəbistanının Kral Faysal Araşdırma və İslami Tədqiqatlar Mərkəzinin İdarə Şurasının sədri Turki Al Faysalı qəbul etmişdir.
- Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviçlə görüşmüşdür.

**4 noyabr**

- Onun himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "COVID-19-dan sonrakı dünya" mövzusunda növbəti Qlobal Bakı Forumunun açılış mərasimində iştirak və çıxış etmişdir.
- İsrailin sabiq xarici işlər naziri Tzipi Livnini qəbul etmişdir.
- Ukraynanın sabiq Prezidenti Viktor Yuşşenkonu qəbul etmişdir.

**5 noyabr**

- Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi qəbul etmişdir.
- Türkiyə Respublikasının sabiq Baş naziri Binəli Yıldırımı qəbul etmişdir.
- ABŞ Dövlət katibinin köməkçisinin Qafqaz məsələləri, regional münaqişələr və Cənubi Avropa məsələləri üzrə müavini Erika Olsonu qəbul etmişdir.
- İnauqurasiya günü ərəfəsində Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə telefonla zəng edərək, onu ölkə Prezidenti seçkilərində inamlı qələbə münasibətilə səmimi təbrik etmiş, özbək xalqının əmin-amanlığının və firavanlığının təmin edilməsi işində ona uğurlar arzulamışdır.
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Kambocanın Kralı Əlahəzrət Norodom Sihamonini təbrik etmişdir.

**7 noyabr**

- Özünün rəsmi feysbuk, tviter və instaqram səhifələrində 8 Noyabr – Zəfər Günü ilə əlaqədar paylaşım etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşa şəhərinə səfərə gəlmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə əvvəlcə Füzuli rayonunda Zəfər yolunun açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşa Radio-Televiziya Yayım Stansiyasının təməlqoyma mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada Daşaltı məscidinin təməlini qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimində iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada Aşağı Gövhər Ağa məscidində Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Şuşada Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə VIII Qlobal Bakı Forumunun Şuşaya səfər edən iştirakçıları ilə söhbət etmişdir.
- Sonra dövlətimizin başçısı qonaqlarla birlikdə Cıdır düzündə xatirə şəkli çəkdirmişdir.
- Xalqımızı möhtəşəm Qələbəyə aparan 44 günün şərəfinə ölkə üzrə 44 min ağac əkilməsi aksiyası çərçivəsində Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Cıdır düzündə ağac əkmişdir.

**8 noyabr**

- Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Şuşada hərbçilər qarşısında çıxış etmişdir.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ona telefonla zəng edərək, onu Zəfər Günü münasibətilə təbrik etmiş, qardaş Azərbaycan xalqına sülh, əmin-amanlıq və firavanlıq arzularını çatdırmış, Vətən müharibəsində həlak olmuş şəhidlərimizə Allahdan rəhmət diləmişdir.

- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ona telefonla zəng edərək, bu ilin aprel ayında Bakıda iki prezident arasında danışıqların gedişində əldə edilmiş razılaşmaların reallaşmasının gedişini nəzərdən keçirmiş, Azərbaycan ərazisində genişmiqyaslı qarşılıqlı faydalı layihələrin reallaşmasında Belarus şirkətlərinin iştirakının perspektivlərini müzakirə etmişdir.

**9 noyabr**
- Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- Özünün rəsmi feysbuk və tviter səhifələrində 9 Noyabr – Dövlət Bayrağı Günü ilə əlaqədar Şuşa dağlarının və üçrəngli Dövlət bayrağımızın görüntüsünü əks etdirən fotonu paylaşmışdır.

**10 noyabr**
- Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkməni qəbul etmişdir.

**11 noyabr**
- BP qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul etmişdir.
- Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə görüşündə iştirak etmək üçün Türkiyə Respublikasına səfərə gəlmişdir.

**12 noyabr**
- İstanbulda Qırğız Respublikasının Prezidenti Sadır Japarovla görüşmüşdür.
- İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının katibliyinin yeni binasının açılış mərasimində iştirak etmişdir.
- Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə iştirak edən dövlət və hökumət başçıları ilə birlikdə gəmi vasitəsilə İstanbulun Demokratiya və Azadlıqlar Adasına gəlmişdir.
- Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə iştirak etmişdir.
- Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən ona Türk Dünyasının Ali Ordeni təqdim edilmişdir.
- Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə çıxış etmişdir.
- İstanbulda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın adından Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv olan ölkələrin dövlət və hökumət başçılarının şərəfinə verilən rəsmi ziyafətdə iştirak etmişdir.

**13 noyabr**
- Türkiyə Respublikasına səfəri başa çatmışdır.

**15 noyabr**
- Latviya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Prezident Egils Levitsi təbrik etmişdir.
- Oman Sultanlığının milli bayramı münasibətilə Sultan Əlahəzrət Heytəm bin Tariq Al Səidi təbrik etmişdir.

**18 noyabr**
- Azərbaycan Uşaqlarının V Ümumrespublika Forumunun iştirakçılarını təbrik etmişdir.

**19 noyabr**
- “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin (QSC) yeni Biləcəri lokomotiv deposunun açılışında iştirak etmişdir.

**22 noyabr**
- Koreya Respublikasının Prezidenti yanında Şimali İqtisadi Əməkdaşlıq Komitəsinin nazir statusunda sədri Çong Soo Parkı qəbul etmişdir.
- Portuqaliya Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Jaime Van Zellerin etimadnaməsini qəbul etmişdir.
- Nigeriya Federativ Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yakubu Santuraki Suleymanın etimadnaməsini qəbul etmişdir.
- Uqanda Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Muhammad Tezikuba Kisambiranın etimadnaməsini qəbul etmişdir.
- Finlandiya Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Kirsti Narinenin etimadnaməsini qəbul etmişdir.

**23 noyabr**
- Banqladeş Xalq Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qousal Azam Sarkerin etimadnaməsini qəbul etmişdir.
- Filippin Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Maria Elena Alqabrenin etimadnaməsini qəbul etmişdir.
- Kamboca Krallığının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Henq Measın etimadnaməsini qəbul etmişdir.
- Çili Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rodriqo Arkosun etimadnaməsini qəbul etmişdir.

**24 noyabr**
- Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul etmişdir.

**25 noyabr**
- Rusiya Elmlər Akademiyasının prezidenti Aleksandr Sergeyevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**26 noyabr**
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə gəlmişdir.
- Soçidə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə üçtərəfli görüşü olmuşdur.
- Soçidə Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə Bəyanat imzalamışdır.
- Sonra Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan ilə birlikdə mətbuata bəyanatla çıxış etmişdir.
- Soçi hava limanında "Rossiya-1" telekanalında efirə gedən "Kreml. Putin. Moskva" verilişinə müsahibə vermişdir.
- Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfəri başa çatmışdır.

**28 noyabr**
- İqtisadi Əməkdaşlıq Təşkilatının 15-ci Zirvə Toplantısında iştirak etmək üçün Türkmənistana səfərə gəlmişdir.
- Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olmuşdur.
- Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XV Zirvə Toplantısında iştirak və çıxış etmişdir.
- Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun adından İqtisadi Əməkdaşlıq Təşkilatının XV Zirvə Toplantısında iştirak edən dövlət, hökumət və nümayəndə heyətləri başçılarının şərəfinə verilən rəsmi naharda iştirak etmişdir.
- Aşqabadda Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi ilə görüşü olmuşdur.
- Aşqabadda Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə görüşü olmuşdur.
- Aşqabadda İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə görüşü olmuşdur.
- Sonra İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə "İran İslam Respublikasının ərazisindən təbii qazın tranzit şərtlərini müəyyənləşdirən Saziş"inin imzalanmasında iştirak etmişdir.
- Sazişin imzalanmasından sonra İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi ilə birlikdə İranın kütləvi informasiya vasitələrinə müsahibə vermişdir.
- Aşqabadda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olmuşdur.
- Türkmənistana səfəri başa çatmışdır.

**29 noyabr**
- Birləşmiş Ərəb Əmirliklərinin müstəqilliyinin 50-ci ildönümü münasibətilə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Xəlifə bin Zayed Al Nəhyanı təbrik etmişdir.

**30 noyabr**
- Pakistan İslam Respublikasının müdafiə istehsalatı naziri, Azərbaycan-Pakistan Birgə Komissiyasının həmsədri xanım Zobaida Cəlalı qəbul etmişdir.
- Xızı rayonu ərazisindəki "Qaraheybət" aviasiya poliqonunda Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində həlak olan heyət üzvlərinin ailələrinə başsağlığı vermişdir

## Dekabr

**1 dekabr**
- Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarı qəbul etmişdir.
- Qazaxıstanın Birinci Prezidenti - Elbası Nursultan Nazarbayevə telefonla zəng edərək, onu Qazaxıstan Respublikasının Birinci Prezidenti Günü münasibətilə təbrik etmiş, ona fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.

**2 dekabr**
- Türkiyə Respublikasının Ali Təhsil Şurasının sədri Erol Özvarı qəbul etmişdir.
- ABŞ-ın Şimali Karolina Universitetinin biokimya və biofizika fakültəsinin professoru, Kimya üzrə Nobel mükafatı laureatı, DNT sahəsində mühüm kəşfləri ilə tanınan, ABŞ Milli Elmlər Akademiyasının üzvü, dünyaşöhrətli alim Əziz Səncəri qəbul etmişdir.
- ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayeri qəbul etmişdir.
- Ölkəsinin milli bayramı münasibətilə Tailandın Kralı Maha Vaciralonqkorn Bodindradebayavaranqkunu təbrik etmişdir.

**3 dekabr**
- Ölkəsinin milli bayramı – Müstəqillik Günü münasibətilə Finlandiya Respublikasının Prezidenti Sauli Niinistöni təbrik etmişdir.

**6 dekabr**
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Quba rayonuna səfər etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Ulu Öndər Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoymuşdur.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Quba Olimpiya İdman Kompleksində yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra yaradılan şəraitlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə kompleksin ərazisini gəzmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə kompleksdəki 340 tamaşaçı yerlik üzgüçülük hovuzu, 6600 tamaşaçı yerlik futbol stadionu, Şahmat Mərkəzi və otellə tanış olmuşdur.

- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə "Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsinin açılışında iştirak etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Heydər Əliyev Fondu tərəfindən Qubanın Birinci Nügədi kəndində inşa olunmuş 1 nömrəli tam orta məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə yeni məktəbin sinif otaqlarını, fənn kabinetlərini gəzmişdir.
- Quba-Qonaqkənd avtomobil yolunun açılışını etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə Qubanın Qonaqkənd qəsəbəsində yeni inşa olunan Mədəniyyət Evində yaradılan şəraitlə tanış olmuşdur. Mədəniyyət Evi ilə tanışlıqdan sonra Birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ilə birlikdə qəsəbə sakinləri ilə görüşmüşdür.
- Birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Qonaqkənd sakinləri ilə birlikdə Ulu Öndər Heydər Əliyevin qəsəbənin mərkəzində ucaldılan abidəsinin önünə gül dəstəsi qoymuşdur.

**7 dekabr**

- Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.
- "TOTAL Energies" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Arnaud Breuillacı qəbul etmişdir.

**9 dekabr**

- Ölkəsinin Federal Kansleri kimi fəaliyyətə başlaması münasibətilə Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şoltsu təbrik etmişdir.

**12 dekabr**

- Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət etmiş, Ulu Öndərin məzarı önünə əklil qoymuşdur.
- Sonra Birinci xanım Mehriban Əliyeva ilə birlikdə Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri qoymuşdur.
- Daha sonra dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin xatirələrini yad edərək məzarları üstünə gül dəstələri düzmüşdür.
- Özünün rəsmi tviter səhifəsində Ulu Öndər Heydər Əliyevin anım günü ilə bağlı Ümummilli Liderin "Mənim üçün öz həyatımdan, öz canımdan artıq Azərbaycanın müstəqilliyini qorumaq, onu saxlamaq, onu əbədi etməkdir" sözlərinin yer aldığı paylaşım etmişdir.

**13 dekabr**

- UEFA Konfrans Liqasında pley-off mərhələsinə yüksələn "Qarabağ" futbol klubunun üzvlərini qəbul etmişdir.
- Qazaxıstan Respublikasının müstəqilliyinin 30-cu ildönümü münasibətilə Prezident Kasım-Jomart Tokayevi təbrik etmişdir.
- Bəhreyn Krallığının milli bayramının 50-ci ildönümü münasibətilə Bəhreynin Kralı Şeyx Həməd bin İsa Al Xəlifəni təbrik etmişdir.
- Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərə gəlmişdir.

**14 dekabr**

- Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşmüşdür.
- Brüsseldə, Alyansın mənzil-qərargahında NATO-nun Baş katibi Yens Stoltenberq ilə birgə mətbuat konfransı olmuşdur.
- NATO-nun Baş katibinin dəvəti əsasında Alyansın Baş katibi Yens Stoltenberq ilə görüşü olmuşdur
- Belçika Krallığının paytaxtı Brüsseldə keçirilən NATO-nun Şimali Atlantika Şurasının iclasında iştirak etmişdir.
- Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə birgə görüşü olmuşdur.
- Brüsseldə İspaniyanın "El Pais" qəzetinə müsahibə vermişdir.

**15 dekabr**

- Brüsseldə Moldova Respublikasının Prezidenti xanım Maya Sandu ilə görüşü olmuşdur.
- Brüsseldə Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olmuşdur.
- Ölkəsinin milli bayramı münasibətilə Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tanini təbrik etmişdir.

**17 dekabr**

- Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul etmişdir.

**21 dekabr**

- Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladzeni qəbul etmişdir.
- Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Fatih Dönməzi qəbul etmişdir.

**22 dekabr**

- İran İslam Respublikasının xarici işlər naziri Hüseyn Əmir Abdullahianın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**23 dekabr**

- Bosniya və Herseqovina Nazirlər Şurası sədrinin müavini və xarici işlər naziri Bisera Turkoviçi qəbul etmişdir.

**24 dekabr**

- Birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev ilə birlikdə Xocavənd rayonunun Hadrut qəsəbəsinə səfər etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev ilə birlikdə Hadrut qəsəbəsində hərbi hissənin açılışında iştirak və çıxış etmişdir.
- Birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev ilə birlikdə hərbi hissənin ərazisində ağac əkmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev ilə birlikdə şəhidlərin xatirə guşəsinin önünə gül qoymuş, hərbi hissənin qərargahında, idman zalında, yeməkxanada, zabitlər üçün evlərdə yaradılan şəraitlə tanış olmuşdur.
- Daha sonra Birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev ilə birlikdə təlim mərkəzi ilə tanış olmuş və hərbçilərin nümunəvi çıxışlarına, "pusqu", "basqı", "sızma" əməliyyatlarına baxmışdır.
- Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə Hadrut qəsəbəsinə səfərdən sonra Şuşa şəhərinə gəlmişdir.
- Şuşanın məşhur Cıdır düzündə çıxış etmişdir.
- Sonra Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri ilə birlikdə Yuxarı Gövhər Ağa məscidini ziyarət etmişdir.
- Rusiya Federasiyasının Prezidenti Vladimir Putin telefonla zəng edərək, onu yubileyi münasibətilə təbrik etmiş, ona fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon telefonla zəng edərək, onu yubileyi münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev telefonla zəng edərək, onu yubileyi münasibətilə təbrik etmiş, ona möhkəm cansağlığı və dövlətçilik fəaliyyətində uğurlar arzulamışdır.
- Qırğız Respublikasının Prezidenti Sadır Japarov telefonla zəng edərək, onu yubileyi münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı diləmişdir.
- Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev telefonla zəng edərək, onu yubileyi münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulamışdır.
- Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev telefonla zəng edərək, onu yubileyi münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan telefonla zəng edərək onu yubileyi münasibətilə təbrik etmiş, ona Azərbaycanın firavanlığı və inkişafı naminə fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulamışdır.
- Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko telefonla zəng edərək onu yubileyi münasibətilə təbrik etmiş, ona ölkəmizin inkişafı naminə prezidentlik fəaliyyətində uğurlar, möhkəm cansağlığı arzulamışdır.
- Gürcüstanın Baş naziri İrakli Qaribaşvili telefonla zəng edərək onu yubileyi münasibətilə təbrik etmiş, ona fəaliyyətində uğurlar arzulamışdır.
- Ukrayna Prezidenti Volodimir Zelenski telefonla zəng edərək onu yubileyi münasibətilə təbrik etmiş, ona prezidentlik fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.

**25 dekabr**

- Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko telefonla zəng edərək, onu yubileyi münasibətilə təbrik etmiş, ona fəaliyyətində uğurlar və möhkəm cansağlığı arzulamışdır.

**28 dekabr**

- Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının görüşündə iştirak etmək üçün Sankt-Peterburq şəhərinə səfərə gəlmişdir.
- Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilən MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmişdir.
- Sankt-Peterburq şəhərində keçirilən MDB dövlət başçılarının qeyri-rəsmi naharında iştirak etmişdir.
- Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə səfəri başa çatmışdır.

**29 dekabr**

- Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) Hövsan və Yasamal Yaşayış komplekslərində inşa edilmiş binalarda hərbçilər üçün nəzərdə tutulmuş mənzillərlə tanış olmuşdur.
- Ölkəsinin milli bayramı – Azadlıq Günü münasibətilə Kuba Respublikasının Prezidenti Migel Dias-Kanel Bermudesi təbrik etmişdir.

**30 dekabr**

- Birinci xanım Mehriban Əliyeva ilə birlikdə "Nizami Gəncəvi" adına mədəniyyət və istirahət parkında əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olmuşdur

**31 dekabr**

- Özünün rəsmi feysbuk və tviter səhifələrində 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar üzərində "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni iliniz mübarək!" sözləri yazılan fotonu paylaşmışdır.
- Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciət etmişdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RƏSMİ QƏBULLARI

***Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Petr Mixalkonun etimadnaməsinin qəbulu***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Petr Mixalkonun etimadnaməsini qəbul edib.

Azərbaycan Prezidentini salamlayan səfir Petr Mixalko dedi:

- Zati-aliləri, hörmətli cənab Prezident İlham Əliyev.

Bu gün Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişel və Avropa Komissiyasının prezidenti xanım Ursula Fon der Lyayen tərəfindən imzalanmış və mənim Avropa İttifaqının Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin olunmağımla bağlı etimadnaməni Sizə təqdim etməkdən şərəf hissi duyuram.

Son səfərlərdə, o cümlədən prezident Mişelin səfərində vurğulandığı kimi, Azərbaycan Avropa İttifaqı üçün önəmli tərəfdaşdır. Biz iqtisadiyyat, innovasiyalar, ticarət, enerji, investisiyalar, infrastruktur və əməkdaşlıq kimi mühüm sahələrdə güclü tərəfdaşlıq şəraitində birlikdə işləməyə hazırıq. Avropa İttifaqı ilə Azərbaycan arasında yeni hərtərəfli Sazişin imzalanması bizim əsas prioritetimiz olacaqdır. Biz əminik ki, bu, nəinki bizim ikitərəfli əməkdaşlığımızın genişləndirilməsinə kömək edəcək, eyni zamanda, Azərbaycan iqtisadiyyatının daha da güclənməsinə xidmət edərək onun çiçəklənməsi və şaxələnməsini artıracaq.

Avropa İttifaqı "Şərq tərəfdaşlığı" Proqramı çərçivəsində sabit, təhlükəsiz və çiçəklənən Cənubi Qafqazın olmasında maraqlıdır. Biz nəzərdə tutulan Şərq Tərəfdaşlığı Sammitinə hazırlıq prosesində Azərbaycanın fəal iştirakını və töhfəsini səbirsizliklə gözləyirik. Biz, həmçinin ATƏT-in Minsk qrupuna əlavə olaraq etimadın artırılması və sülhün qurulması prosesində üzərimizə rol götürməyə də hazırıq. Tərəflərin marağı olarsa, biz layihə imkanlarından istifadə edərək sərhədlərin delimitasiyası və demarkasiyası kimi sahələrdə təcrübəmizi bölüşməyi təklif edirik.

Avropa İttifaqı COVID-19 pandemiyasının təsiri kontekstində sosial və iqtisadi artım üçün və iqtisadi dirçəliş, dayanıqlılıq naminə birlikdə işləmək məqsədilə Azərbaycana dəstək verməyə davam edəcəkdir.

Zati-aliləri, Avropa İttifaqının Azərbaycan Respublikasına səfiri kimi təyin olunmaq mənim üçün şərəfdir. Mən qarşılıqlı faydalı əməkdaşlıq və ümumi maraqlarımız naminə səylərimi əsirgəməyəcəm. Vəzifələrimin icrasında Zati-alilərinin və Azərbaycan Respublikası hökumətinin dəstəyinə güvənərək ondan faydalanacağıma əminəm və buna görə Sizə minnətdaram.

Prezident İlham Əliyev: Təşəkkür edirəm.

Səfir Petr Mixalko etimadnaməsini Azərbaycan Prezidenti İlham Əliyevə təqdim etdi.

Sonra xatirə şəkli çəkdirildi.

Səfiri salamlayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dedi:

- Cənab səfir, Azərbaycana xoş gəlmisiniz. Sizə ölkəmizdə xoş vaxt keçirməyi arzu edirəm. Həyatınızın bir hissəsi bizim ölkəmizlə bağlı olacaqdır. Ümid edirəm, siz nəinki indi haqqında danışdığınız məsələlərin təşviqində bir səfir kimi fəal olacaqsınız, eyni zamanda, sizin ətrafı görmək və Azərbaycanı daha da yaxşı tanımaq imkanınız olacaqdır ki, Brüsselə və ya hər hansı başqa bir yerə geri döndükdə özünüzlə yaxşı xatirələr aparasınız. Siz qeyd etdiyiniz kimi, əməkdaşlığımızın, uzunmüddətli əməkdaşlığımızın çox geniş gündəliyi var. Bu, çox səmərəli və uğurlu əməkdaşlıqdır. Sizin qeyd etdiyiniz sahələr, əslində, bizim əməkdaşlığın prioritet sahələridir və prezident Şarl Mişelin bu yay səfəri zamanı biz bu məsələləri geniş müzakirə etdik. Bizim ikitərəfli münasibətlərimiz, regional inkişaf, postmüharibə vəziyyəti ilə bağlı baxışlarımız tamamilə üst-üstə düşür. Biz Avropa İttifaqına səylərin səfərbər olunması və postmüharibə vəziyyətinə töhfə verilməsi prosesində böyük tərəfdaşımız və dürüst vasitəçi kimi güvənirik. Bizim ənənəvi əməkdaşlıq sahələrimiz yaxşı məlumdur və biz böyük nailiyyət əldə etmişik. On il bundan əvvəl bu binada Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa, enerji təhlükəsizliyinə dair Bəyannamə imzalandı. Bu, Cənub Qaz Dəhlizinin icrası istiqamətində çox mühüm addım idi. Bundan sonra əməli addımlar atıldı və ötən ilin son günündən bu yana biz artıq əməli nəticələri görürük. Azərbaycan qazı artıq Avropa bazarındadır.

Əlbəttə ki, bizim böyük layihə olan Cənub Qaz Dəhlizinin tamamlanması ilə bağlı planlarımız bununla məhdudlaşmır. Biz görürük ki, Avropa İttifaqının bir çox başqa üzvlərinin də təchizatçısı ola bilərik. Biz təchizatımızın coğrafiyasını genişləndirmək üçün Avropa İttifaqı ilə birgə işləməyi planlaşdırırıq – xüsusilə indi, qışda hər kəs görəndə ki, alternativ marşrut baxımından alternativ mənbə məhz enerji təhlükəsizliyidir.

Avropa Komissiyasının bizim nəqliyyat sektorumuza böyük əhəmiyyət verməsi məni çox qane edir.

Prezident Şarl Mişelə səfəri zamanı ona bizim Dəniz Ticarət Limanının, Azad İqtisadi Zonanın imkanları təqdim olundu. Biz Avropa təsisatlarının bu sahəyə ciddi yanaşmasını görürük. Bu, təkcə iqtisadi, nəqliyyat sahəsində əməkdaşlıq baxımından deyil, həm də ümumilikdə regionda sabitlik və təhlükəsizlik baxımından həqiqətən də çox ümidverici sahə ola bilər. Çünki əməkdaşlıq ölkələri birləşdirir, onları bir-birindən asılı edir, onlar faydanı paylaşa bilir. Həmin səbəbdən də bu, hər hansı yanlış anlaşılma risklərini minimuma endirir. Siz bəlkə də bilirsiniz ki, biz Azərbaycanda nəqliyyat infrastrukturu şəbəkəsinin bütün vacib elementlərini tamamlamışıq və biz hazırıq, artıq bu potensialdan istifadə edirik.

Sizin qeyd etdiyiniz digər sahələr də çox mühümdür. Humanitar, təhsil, sözsüz ki, Azərbaycanın demokratik inkişafı ilə bağlı bütün bu məsələlər bizim gündəliyimizdədir və biz Avropa İttifaqı ilə sıx şəkildə işləyirik.

Əlbəttə, indi düşünürəm ki, ən mühüm sahələrdən biri postmüharibə dövründə inkişafın, davamlı sülhün və əməkdaşlığın bərqərar olmasına Avropa İttifaqının töhfəsidir və biz buna hazırıq. Siz bəlkə də mənim bununla bağlı bəyanatlarımı eşitmisiniz. Mən nəzərdə tutduğumu deyirəm, bu, bizim siyasətimizdir. Biz səhifəni çevirmək, qonşumuz Ermənistanla əlaqələr qurmaq istəyirik. Biz sülh razılaşması, delimitasiya, kommunikasiyaların açılması ilə bağlı danışıqlara başlamağa hazırıq. Bu proses qismən başlayıb. Lakin düşünürəm ki, əgər Avropa İttifaqı fəal iştirak etsə, -mən belə bir istəyin olduğunu görürəm, – bu, bir çox sahələrdə bizə kömək edə bilər. Ümumilikdə Cənubi Qafqazda vəziyyət 30 il ərzində olmayan tamamilə yeni bir miqyas ala bilər. Bu da sabitlik, proqnozlaşdırılma və sülhün çox mühüm amili ola bilər.

Əminəm ki, siz çox məşğul olacaqsınız, çünki görüləsi çox iş var. Mən sizə və ailənizə uğurlar, Azərbaycanda yaxşı vaxt keçirməyi arzulayıram.

Səfir Petr Mixalko qarşılıqlı səmərəli əməkdaşlığın nəticə verməsi üçün çox fəal şəkildə işləməyə hazır olduğunu dedi. Vurğuladı ki, Prezident İlham Əliyevin qeyd etdiyi sahələr onlar üçün də böyük əhəmiyyət kəsb edir. O, gələcəkdə əməkdaşlıq üçün çoxlu imkanların yaranacağına əminliyini ifadə etdi.

### *Türkiyənin ətraf mühit və şəhərsalma naziri Murat Kurumun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Türkiyə Respublikasının ətraf mühit və şəhərsalma naziri Murat Kurumu qəbul edib.

Nazir Murat Kurum Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Türkiyənin dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Görüşdə ölkələrimiz arasında ikitərəfli dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Türkiyənin ətraf mühit və şəhərsalma nazirinin ölkəmizə səfərinin Azərbaycan və Türkiyənin müvafiq qurumları arasında əlaqələrin genişləndirilməsinə töhfə verəcəyinə ümidvarlıq ifadə olundu.

Söhbət zamanı işğal dövründə ermənilərin Azərbaycan torpaqlarında təbiətə böyük ziyan vurması, meşələri kütləvi surətdə qırması, çayları çirkləndirməsi barədə danışıldı.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

### *Qətər Dövlətinin Baş nazirinin müavini Məhəmməd bin Əbdülrəhman Al Taninin başçılıq etdiyi nümayəndə heyətinin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Qətər Dövlətinin Baş nazirinin müavini, xarici işlər naziri, Qətər–Azərbaycan Hökumətlərarası Komissiyanın həmsədri Məhəmməd bin Əbdülrəhman Al Taninin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaq, Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taninin salamlarını Azərbaycan Respublikasının Prezidentinə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətər Dövlətinin Əmirinə çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla Qətər arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Qətər Dövlətinin Baş nazirinin müavini, xarici işlər naziri Məhəmməd bin Əbdülrəhman Al Taninin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin və regional məsələlərin müzakirəsi üçün yaxşı imkanlar yaratdığı bildirildi. Eyni zamanda, Bakıda keçiriləcək birgə hökumətlərarası komissiyanın iclasının əhəmiyyətinə toxunularaq, iqtisadi və ticarət sahələrində əməkdaşlığın genişləndirilməsinin, qarşılıqlı ticarətin həcminin artırılmasının vacibliyi vurğulandı. Qarşılıqlı investisiya, eyni zamanda, üçüncü ölkələrə investisiya qoyuluşu üçün böyük potensialın olduğu qeyd edildi.

Söhbət zamanı, həmçinin postpandemiya dövründə turizm sahəsində əməkdaşlığın perspektivləri də müzakirə olundu.

### *Türkiyənin əmək və sosial müdafiə naziri Vedat Bilginin qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri Vedat Bilgini qəbul edib.

Nazir Vedat Bilgin Türkiyə Respublikası Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlərdə uğurla inkişaf etdiyi qeyd olunaraq, Türkiyə Respublikasının əmək və sosial müdafiə nazirinin səfərinin ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi bildirildi.

Görüşdə digər sahələrdə olduğu kimi, sosial çalışma sahəsində də yaxşı iş birliyinin mövcud olduğu vurğulanaraq, bu sahədə təcrübə mübadiləsinin əhəmiyyətinə toxunuldu. Eyni zamanda, əmək bazarının tənzimlənməsi, Türkiyədə çalışan Azərbaycan vətəndaşlarının, Azərbaycanda çalışan Türkiyə vətəndaşlarının sosial müdafiəsi məsələlərinin müzakirəsinin də önəmi qeyd olundu.

### *Slovakiyanın xarici işlər və Avropa naziri İvan Korçokun qəbulu*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da Slovakiyanın xarici işlər və Avropa naziri İvan Korçoku qəbul edib.

Görüşdə Azərbaycanla Slovakiya arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə edildi, siyasi təmasların fəal şəkildə olduğu bildirildi. Bu baxımdan qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olundu.

Slovakiyanın xarici işlər və Avropa naziri İvan Korçok ölkəsinin Azərbaycanı iqtisadi əməkdaşlıq üçün yaxşı imkanlara malik olan bir ölkə kimi qəbul etdiyini vurğuladı və bildirdi ki, Slovakiya tərəfi Azərbaycanla iqtisadi əlaqələrin inkişafı istiqamətində səylərin Prezident İlham Əliyev tərəfindən dəstəklənməsinə böyük önəm verir. Qonaq iqtisadi əməkdaşlığın genişləndirilməsi ilə bağlı hüquqi bazanın təkmilləşdirilməsinin əhəmiyyətinə toxundu. İvan Korçok Slovakiya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində quruculuq və yenidənqurma layihələrində yaxından iştirak etməkdə maraqlı olduqlarını bildirdi.

Qonaq qeyd etdi ki, Slovakiya dövlətlərin ərazi bütövlüyü və suverenliyi prinsiplərinə sadiqdir və bu əsasda ölkəsi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir.
Oktyabrın 4-də cəbrayıllıları və bütün Azərbaycan xalqını mən bu xoş müjdə ilə sevindirmişdim - Cəbrayıl şəhəri azad edilmişdir! Bir il bundan əvvəlki dövrə qayıtsaq Qələbəmizin əzəmətini bir daha görərik. Çünki müharibə getdiyi zaman, əlbəttə, bizim gündəlik fəaliyyətimiz qələbəni möhkəmləndirmək, işğal edilmiş bütün torpaqları azad etməkdən ibarət idi. Yəni, əldə edilmiş uğurları təhlil etmək üçün heç vaxt yox idi və buna heç gərək də yox idi. Amma bu gün müharibədən və Cəbrayılın azad olunmasından bir il keçməsindən sonra bunu daha dəqiq və aydın təhlil edərkən görürük ki, bu Qələbənin çox böyük əhəmiyyəti olmuşdur. Eyni zamanda, məhz burada, bu ərazidə düşmən bir neçə xətdən ibarət istehkamlar qurmuşdu və bu istehkamları yarmaq çox böyük qəhrəmanlıq və fədakarlıq tələb edirdi. Bizim əsgər və zabitlərimiz, sözün əsl mənasında, ölümə gedirdilər. Biz şəhidlərimizin canı-qanı bahasına öz doğma torpaqlarımıza qayıtmışıq. Fürsətdən istifadə edərək bir daha əziz şəhidlərimizin xatirəsini yad etmək istəyirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Cəbrayıl əməliyyatının əhəmiyyəti, eyni zamanda, ondan ibarət idi ki, Cəbrayıl azad olunandan sonra o vaxt işğal altında olan bizim digər rayonlara uğurlu addımlarımız mümkün olmuşdur. Cəbrayıldan sonra Zəngilan, ondan sonra Qubadlı və Laçın rayonunun cənub hissəsi işğalçılardan azad edildi. Beləliklə, Laçın dəhlizini biz tam nəzarətə götürə bildik. Mən demişəm, bir daha demək istəyirəm ki, Soltanlı və Əmirvarlı kəndləri uğrunda bir neçə gün çox şiddətli döyüşlər gedirdi və bu, o yerlərdən biri idi ki, Ermənistan ordusu orada dirəniş göstərmişdi və orada böyük istehkamlar qurulmuşdu.

Yəni bir neçə gün bizə lazım oldu ki, strateji əhəmiyyət daşıyan o kəndləri azad edək və ondan sonra artıq Zəngilanın azad edilməsi labüd idi. Deyə bilərəm ki, Zəngilan şəhərini Ermənistan ordusu demək olar ki, az müdafiə edirdi. Artıq onların gözlərini qorxu o qədər tutmuşdu ki, onlar silahları yerə qoyub qaçırdılar. Eyni zamanda, Füzuli, Cəbrayıl əməliyyatlarından sonra Hadruta yolumuz açıldı. Oktyabrın 9-da Hadrut qəsəbəsi azad edildi və Şuşaya yolumuz açıldı. Həm də Cəbrayıl əməliyyatının çox böyük əhəmiyyəti var idi və deyə bilərəm ki, həlledici əhəmiyyəti var idi. Çünki biz düşmənin müdafiə xəttini məhz bu istiqamətdə yara bilmişik.

Cəbrayılın azad olunması artıq beş il bundan əvvəl başlamışdı. Aprel döyüşləri nəticəsində Cocuq Mərcanlı kəndinə insanları qaytarmaq üçün imkanlar əldə edildi. Strateji yüksəkliklər işğalçılardan azad olunandan sonra Cocuq Mərcanlıya həyatın qayıtması artıq mümkün olmuşdur və bu, bizim önəmli qələbəmiz idi. Çünki bu, uzun fasilədən, atəşkəsdən sonra ilk böyük qələbəmiz idi. Düzdür ermənilər o vaxt bu qələbəni kiçiltmək istəmişdilər. Hətta bəyan edirdilər ki, bu, o qədər də böyük əhəmiyyət daşıyan ərazilər deyil və sanki Ermənistan tərəfi qalib gəlmişdi. Mən hələ o vaxt deyirdim ki, biz gəlmişik, onların qazdıqları səngərlərdə yerləşmişik, necə ola bilər ki, Ermənistan burada qalib gəlib?! Biz o vaxt böyük ərazini, əlbəttə ki, o vaxt üçün böyük ərazini - bir neçə min hektarı azad etmişdik və təqribən 9-10 min hektar əraziyə nəzarəti əlimizə keçirmişdik. Təkcə bu istiqamətdə yox, eyni zamanda, Ağdərə istiqamətində çox önəmli strateji yüksəklikləri biz o vaxt götürdük ki, İkinci Qarabağ müharibəsində bu yüksəkliklərin çox böyük əhəmiyyəti olmuşdur. O vaxt biz haqlı olaraq Aprel döyüşlərindəki qələbəni

Ordumuzun şanlı Qələbəsi kimi qeyd edirdik və bizim qayıdışımızın da başlanğıcı məhz o vaxt olmuşdur. Cocuq Mərcanlıya qayıdış Böyük Qayıdışın başlanğıcı idi. Mənim xatirimdədir, o vaxt Dövlətqaçqınkomun sədri Əli Həsənovdan soruşmuşdum ki, belə bir fikrim var, Cocuq Mərcanlı sakinlərini öz kəndinə qaytaraq. O vaxt orada bir ailə - Oktay Həziyevin ailəsi yaşayırdı. Dedim ki, siz öyrənin görün gəlmək istəyirlər, istəmirlər? Artıq uzun müddət keçib, bəziləri Biləsuvarda, bəziləri Bakıda işləyirlər, indi iş yerləri var, qayıtmaq istəyirlər, yoxsa yox? Bir müddət keçəndən sonra Əli müəllim mənə dedi ki, demək olar onların hamısı qayıtmaq istəyir. Bu, məni çox sevindirdi. Çünki o vaxt müxtəlif fikirlər var idi ki, torpaqlar azad olunarsa, məcburi köçkünlər qayıdacaq, qayıtmayacaq, onların bir çoxları o yerləri görməyiblər, onların uşaqları, nəvələri. Ancaq o sözlər bir daha göstərdi ki, xalqımız nə qədər böyük xalqdır.

Dərhal göstəriş verdim və Dövlətqaçqınkom qısa müddət ərzində böyük bir qəsəbəni saldı və mən 2017-ci ildə o qəsəbənin açılışına gəlmişdim. O vaxt mərhələli şəkildə 150 evdən ibarət qəsəbə salındı, məktəb, tibb məntəqəsi tikildi. Şuşa məscidinin bənzəri olan məscid inşa edildi, iş yerləri üçün imkanlar yarandı. Mən Cocuq Mərcanlıda olarkən demişdim ki, bu gün Şuşa məscidinin – Gövhər ağa məscidinin bənzərini biz burada inşa etmişik, bu, rəmzi məna daşıyır. Şuşa işğaldan azad olunandan sonra ermənilər tərəfindən dağıdılmış bütün məscidlərimizi bərpa edəcəyik. Dörd il keçəndən, daha doğrusu üç il keçəndən sonra artıq bu sözlər həyatda öz yerini tapmışdır.

Yəni, bizim Böyük Qayıdışımız Cəbrayıldan başlamışdır və İkinci Qarabağ müharibəsindəki birinci ciddi uğurumuz da məhz Cəbrayıl şəhəri ilə, Cəbrayıl rayonu ilə bağlıdır. Bu, ölkəmizin tarixində əbədi qalacaq bir hadisədir. Çünki İkinci Qarabağ müharibəsindəki Qələbəmiz tarixi qələbədir. Buna bənzər Qələbə xalqımızın çoxəsrlik tarixində olmamışdır. Bütün xalq bu Qələbəni əldə etmək üçün birləşdi, Ordumuzun arxasında durdu və Ordumuz Ali Baş Komandanın əmrlərini ləyaqətlə yerinə yetirdi. Bir daha demək istəyirəm ki, qəhrəmanlıq, fədakarlıq göstərərək, qan tökərək, şəhidlər verərək biz tarixi ədaləti bərpa etdik, düşməni öz torpağımızdan qovduq, düşmənə lazımi dərsi verdik. Düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı və bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib xalq kimi yaşayacaq.

Biz həm beynəlxalq hüququ, həm tarixi ədaləti, həm insani ədaləti bərpa etdik. Çünki bax, bu dağıntıları törədən insan deyil, buna insan demək olmaz. Bunu törədən Azərbaycan xalqına o qədər nifrət etməli idi ki, bax, bu çirkin əməllərə əl atsın. O Azərbaycan xalqına ki, ermənilərə vaxtilə qucaq açıb. O Azərbaycan xalqına ki, vaxtilə çar Rusiyası tərəfindən İrandan köçürülmüş ermənilərə burada yer verib. Düzdür, Cəbrayıl rayonunda ermənilər yaşamayıb, heç bir faiz də erməni əhalisi olmayıb. Mən arayışa baxdım, işğaldan əvvəl Cəbrayılda cəmi 10 erməni yaşayırdı. Ancaq Qarabağın digər yerlərində Azərbaycan xalqı onlara yer verdi. Sənə çörək verənə qarşı belə nankorluq, belə qəddarlıq, bu qədər vəhşilik hesab edirəm ki, dünya tarixində misli-bərabəri olmayan barbarlıq və vandallıqdır. Bu gün Ermənistanın havadarları, bax, bunu görməlidirlər. Görmək istəməsələr də, görməlidirlər və görəcəklər. Bütün dünya görür. Biz artıq kitablar nəşr etməyə başlamışıq. Biz təqdimatlar keçirməyə başlamışıq. Biz bütün dünyaya erməni vəhşiliyi ilə bağlı dolğun məlumatın verilməsinə nail olacağıq. Bu prosesə start verilib. Bütün dünya görməlidir ki, biz təkcə özümüzü müdafiə etməmişik, öz ərazimizi bərpa etməmişik, biz erməni faşizminin belini qırmışıq. Erməni faşizmi bu bölgədə qol-qanad açıb və xarici havadarlarının dəstəyinə arxalanıb bizim ərazimizi otuz il ərzində işğal altında saxlamışdı.

Biz hərbçilərimizlə haqlı olaraq fəxr edirik və fəxr edəcəyik. Onlar əsl qəhrəmandırlar. Biz bütün xalqımızla fəxr edirik. Çünki bu 44 gün ərzində göstərilən həmrəylik, göstərilən birlik bütün dünyaya Azərbaycan xalqını çox ləyaqətli və böyük xalq kimi təqdim etdi. Bizim Qələbəmizin rəmzi olan yumruq təkcə güc rəmzi deyil, bu, birlik rəmzidir. Biz birləşdik və istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik. Baxın, görün, Ermənistan indi hansı bəyanatlar verir? Otuz il ərzində uydurulan mifologiyadan əsər-əlamət yoxdur. Bəs, haradadır onların "müzəffər" ordusu? Haradadır "yenilməz" erməni əsgəri? Bizə qarşı otuz il ərzində çirkin təbliğat aparan, Azərbaycan xalqının ləyaqətini alçaltmağa çalışan artıq öz payını aldı, öz dərsini aldı. Daha heç kim dünyada "müzəffər erməni əsgəri" haqqında bir söz demir. Çünki on min fərarisi olan orduda hansı şücaətdən, hansı qəhrəmanlıqdan söhbət gedə bilər? Heç kim "yenilməz Ermənistan ordusu" haqqında danışmır. Ermənistan ordusu yoxdur. Biz onu məhv etmişik, dibdən-kökdən məhv etmişik. Onların otuz il ərzində yığdıqları bütün texnikanı darmadağın etmişik. Onun bir hissəsi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Canlı qüvvəsini məhv etmişik. Bunu Azərbaycan xalqı edib və öz üstünlüyünü göstərib.

Ona görə bu mifologiyaya son qoyuldu. Bizə qarşı olan bütün digər erməni iddialarına tədricən son qoyulmalıdır. Mən bunu demişəm və mən söz deyəndə elə-belə söz demirəm. Bu günə qədər nəyi demişəmsə, hamısını da etmişəm. Ona görə bundan sonra da Ermənistan cəmiyyətində real vəziyyətin düzgün təhlili getməlidir. Artıq mifologiyadan əl çəkməlidirlər. Böyük Ermənistan xülyasından əl çəkməlidirlər. Dənizdən-dənizə qədər mifik Ermənistan xülyasından əl çəkməlidirlər. Azərbaycana və Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməlidirlər və əl çəkəcəklər. Bunun başqa yolu yoxdur. Məcbur edəcəyik onları.

Əgər kimsə hesab edir ki, müharibə bitdi və indi hər şey necə deyərlər, əvvəlki məcraya düşəcək, səhv edir. Müharibə bitdi, biz qalib gəldik, yeni reallıq yaratdıq, hər kəs bu reallıqla hesablaşmalıdır və hesablaşacaq. Mən deyəndə ki, biz imkan verməri̇k Ermənistanda yenə də bizə qarşı hansısa təxribat hazırlansın, mən bunu nəzərdə tuturam. Bizim legitim hüququmuzdur, əgər təhlükə görsək, əgər təhlükənin kiçik bir təzahürünü görsək, biz lazımi addımı atacağıq və heç kim bizi dayandıra bilməz, heç kim bizim qabağımızda dura bilməz. İkinci Qarabağ müharibəsi dövründə Ermənistanın havadarları bizim işimizə müxtəlif yollarla əngəl törətməyə çalışdılar - bəziləri bəyanatlar verməklə, bəziləri başqa yollarla onlara praktiki kömək göstərməklə. Ancaq bunun heç bir xeyri olmadı, bundan sonra da olmayacaq.

Ona görə İkinci Qarabağ müharibəsinin bitməsi o demək deyil ki, region əvvəlki vəziyyətə qayıdacaq. Heç vaxt əvvəlki vəziyyət olmayacaq. Bunu hər kəs bilməlidir. Bilirəm ki, bəziləri bundan narahatdır. Bəziləri hesab edirlər ki, onlar indi gələcək proseslərdən kənarda qaldılar. Onların öz işidir. Biz hər halda bütün qonşu ölkələrə əməkdaşlıq platformasını təqdim etdik. Türkiyə Prezidenti tərəfindən təklif olunan əməkdaşlıq platformasına Azərbaycan birinci ölkə olaraq öz dəstəyini göstərmişdir. Əgər bu, kimisə qane etmirsə, o platforma bizə də lazım deyil.

Hazırda regionda real praktiki əməkdaşlıq çərçivələri müəyyən olunur. Türkiyə-Rusiya əməkdaşlığı regionumuzun sabitliyinin təminatçısıdır. Bu yaxınlarda Türkiyə və Rusiya prezidentlərinin görüşü zamanı Ermənistan-Azərbaycan münasibətləri müzakirə olundu və həm Türkiyə, həm Rusiya ilə biz daim təmasdayıq. Mən Prezident olaraq daim təmasdayam. Bölgədə bu gün sabitliyin bərqərar olmasında Türkiyə və Rusiyanın rolu çox böyükdür. Yəni, bizə bu format kifayətdir. Ermənistan da bu formata qoşulacaq. Çünki başqa yolu yoxdur. İndi reallıq bundan ibarətdir. Son vaxtlar Türkiyə-Ermənistan əlaqələrinin normallaşdırılması ilə bağlı verilən ifadələri də biz dəstəkləyirik. Biz açıq demişik ki, biz bunu dəstəkləyirik. Hesab edirik ki, bu, region üçün lazımdır. Yəni, artıq bu, müharibənin hər hansı bir riskini aradan götürmək üçün lazımdır. Yəni, bizim üçün bu format kifayətdir - Türkiyə-Rusiya-Azərbaycan-Ermənistan. Kim istəyir qoşulsun, kim istəmir özü bilər. Hər halda, bu gün Azərbaycanın razılığı olmadan bu bölgədə hər hansı bir təşəbbüs gerçəkləşə bilməz. Bunu hər kəs bilməlidir.

Biz xoş niyyət göstəririk. Amma bu, o demək deyil ki, biz özümüzə qarşı əsassız ittihamları qəbul edəcəyik. Mən bunu burada – Cəbrayılda, bax, burada Araz çayının kənarında deyirəm, Azərbaycan xalqına və bütün dünyaya, bizə qarşı əsassız ittihamlar cavabsız qalmayacaq. Biz bu ittihamları rədd edirik, qəbul etmirik və sübutlar tələb edirik. Bilirsiniz, bu yaxınlarda İranın hansısa əyalət mollası ağzını açıb Azərbaycana qarşı iftiralar uydurmuşdur. Mənə məlumat verildi, mən dedim ki, fikir verməyin. Hansısa əyalət mollasının sözləri ilə biz indi bu fikirlərə əhəmiyyət verəsi deyilik. O kimdir ki?! Sadəcə olaraq, əhəmiyyət verməyin. Amma sonra əfsuslar olsun ki, rəsmi şəxslər bizə qarşı əsassız ittihamlar irəli sürməyə başlamışlar. Guya ki, Azərbaycan bu bölgələrə İsraili gətirib. Gözlərini açsınlar, görsünlər. Onlar İsraili burada harada görüblər?! Burada bir adam da yaşamır. Burada bir bina da yoxdur. Sübutlar var? Yoxdur. Sübutlar yoxdursa, hər kəs gərək dediyi sözlərə görə cavabdehlik daşısın. Biz imkan verə bilmərik ki, bizə qarşı kimsə əsassız iftira uydursun.

Azərbaycan müstəqil siyasət aparan ölkədir. Bunu hər kəs bilir və birinci il deyil ki, müstəqil siyasət aparırıq. Qonşularımızla və bütün başqa ölkələrlə münasibətləri müstəqil siyasət əsnasında qururuq. Heç kim bizim daxili işimizə qarışmasın. Biz hansı ölkə ilə hansı səviyyədə münasibətlər qururuq, bizim öz işimizdir. Axı, biz Ermənistan ilə sıx dostluq əlaqələri olan ölkələrə qarşı iddia qaldırmırıq. Görün, Ermənistanın nə qədər havadarı var, İkinci Qarabağ müharibəsi bunu göstərdi. Görün, bu gün Ermənistanı dəstəkləyən nə qədər ölkə var. Yəni, biz bu ölkələrlə düşmən olaq? Yox. Bu, ölkələrin suveren hüququnu biz qəbul edirik. Onların suveren işidir. Bəli, haradasa daxili aləmimizdə bundan narahat ola bilərik, bizi incidə bilər, xüsusilə yaxın olan ölkələr Ermənistanla münasibətlərdə xüsusi canfəşanlıq edəndə. Amma biz bunu heç vaxt dilə gətirmirik. Biz hər bir ölkənin suveren hüquqlarına hörmətlə yanaşırıq və tələb edirik ki, bizim suveren hüquqlarımıza hər kəs hörmətlə yanaşsın, bizim daxili işlərimizə müdaxilə etməsin. Belə cəhdlər əvvəllər də olub, onların hamısı uğursuz olub. Bir daha demək istəyirəm, rəsmi qaydada bizə qarşı səsləndirilən ittihamlar sübuta yetirilməlidir. Gəlsinlər, tapsınlar bir xarici vətəndaş var bu bölgədə?

Biz 130 kilometr Azərbaycan-İran sərhədini işğalçılardan təmizlədik. 130 kilometr Ermənistanın işğalı altında idi. O vaxt burada hansı proseslər gedirdi, onu gərək araşdırsınlar. Hansı əlaqələr var idi, bunu biz indi araşdırırıq. Yoxsa durduğu yerdə Azərbaycanı ittiham etmək ki, Azərbaycan hansısa ölkəni Azərbaycana gətirib. Guya Azərbaycanı Azərbaycan xalqı yox, Azərbaycan dövləti yox, hansısa kənar qüvvə idarə edir. Bu, bizə qarşı hörmətsizlikdir. Biz bunu heç vaxt qəbul edə bilmərik. Hər kəs də bunu bilməlidir. Bundan sonra da Azərbaycan öz xarici əlaqələrini və daxili işlərini bildiyi tərzdə planlaşdıracaq. Heç kim bizim işimizə burnunu soxmasın.

O ki qaldı, regionun gələcək inkişafı ilə bağlı, biz əməkdaşlığa hazırıq. Bu yaxınlarda Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşmüşdülər. BMT Baş Assambleyasının sessiyası əsnasında, o cümlədən onların arasında ikitərəfli görüş olmuşdur. Mənə bizim xarici işlər naziri məruzə elədi və bildirdi ki, görüş

konstruktiv keçib. Biz də elə bunun tərəfdarıyıq. Eyni zamanda, yəqin Azərbaycan ictimaiyyəti bilir, bu yaxınlarda mən demişdim ki, Ermənistan baş naziri ilə görüşməyə hazıram. O da demişdi ki, hazırdır. Yəni, bu, nəyi göstərir? Bu, onu göstərir ki, bizim gündəliyimiz artıq burada qəbul olunur. Bəziləri yəqin ki, bundan narahatdır. Amma əsas odur ki, Azərbaycanla Ermənistan arasında barışıq olsun, yəni sülh müqaviləsi imzalansın. Biz bunu istəyirik. Sərhədlərin delimitasiyası həyata keçirilsin. Yoxsa, kimsə bizi ittiham edir ki, biz bölgədə sərhədləri dəyişdirmək istəyirik. Nəyin əsasında bizə qarşı bu ittiham səsləndirilir? Bizim sərhədlərimiz 30 il ərzində pozulmuş vəziyyətdə olanda nədənsə Ermənistana qarşı belə ittihamlar irəli sürülmürdü. O qəbul idi? Biz heç kimin sərhədini pozmamışıq. Biz Laçın və Kəlbəcər rayonlarında Ermənistanla həmsərhəd olan bölgələrə 30 ildən sonra gəlmişik. Qar əriyəndən sonra gəlmişik, may ayında. Qar tez ərisəydi, tez gələrdik. Yəni, 30 il ərzində bu sərhəd ermənilərin əlində idi. Əgər sərhəd oradan keçirdisə, qoruyardılar da bu sərhədi. Əgər biz sərhədi pozmuşuqsa, gəlib çıxarardılar da bizi oradan. Gəlib hücum edərdilər. Barışıblar axı onlar bununla, barışıblar. İndi Ermənistan bununla barışdığı bir dövrdə kimsə gəlir deyir ki, biz kiminsə sərhədini pozmuşuq. Biz heç kimin sərhədini pozmamışıq. Xəritələr var, 1920-ci ilin xəritələri, çar Rusiyasının xəritələri. Gəlsinlər görsünlər sərhəd haradan keçir. Biz harada yerləşmişik oranı Azərbaycan ərazisi sayırıq və düz də edirik. İndi Ermənistan rəhbərliyi ən yüksək səviyyədə açıq-aydın bəyan edir ki, Azərbaycan Gorus-Qafan yolunun müəyyən hissəsində haqlı olaraq yerləşib. Çünki sovet dövründəki xəritələr bunu göstərir. Biz öz ərazimizdəyik. İndi Ermənistan bunu deyir. Başqası deyir ki, biz kiminsə sərhədini pozmuşuq, gülməlidir. Ona görə regionda yeni dövr başlayır. Biz hesab edirik ki, bu dövrü müsbət istiqamətə yönləndirmək lazımdır. Hər halda Ermənistanla Azərbaycan arasındakı bu ədavət əbədi olmamalıdır. Bütün bu dağıntılara, barbarlığa, vəhşiliyə baxmayaraq, biz gələcəyə baxmalıyıq. Azərbaycanla Ermənistan arasında sərhədlərin delimitasiyası, sülh müqaviləsi, bir-birinin ərazi bütövlüyünün tanınması istiqamətində, ondan sonra iqtisadi əlaqələrin bərpası, nəqliyyat kommunikasiyalarının açılması, bütün bunlar gündəlikdə olan məsələlərdir. Azərbaycan tərəfində siyasi iradə var. Ermənistan tərəfində də olarsa, hesab edirəm ki, iki ölkə özləri heç bir vasitəçisiz bu məsələləri həll edə bilər və bölgədə uzunmüddətli sülh ola bilər.

Bu gün Cəbrayıl rayonunun inkişafı ilə bağlı çox önəmli gündür. Çünki bu gün artıq bir neçə obyektin təməli qoyuldu. Bu obyektlərin inşası və inşaatından sonra fəaliyyəti zamanı bir çox sosial-iqtisadi məsələlər öz həllini tapacaq. İlk növbədə, təhlükəsizliklə bağlı tədbirlər. Bu gün mən Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissəsinin açılışını etdim. Orada nümayiş etdirilən ən müasir silahlar, sursatlar bizim sərhədlərimizi möhkəm, lazımi səviyyədə qorumaq üçün bizə imkanlar yaradacaq. Bu gün iqtisadi fəallıq üçün önəmli addımlar atıldı. “Araz Vadisi İqtisadi Zonası”nın təməli qoyuldu. Bu, 200 hektarı əhatə edən böyük bir layihədir. Artıq ilkin maliyyə vəsaiti ayrıldı. İlkin investorlar da müəyyən olundu. Bu gün “KamAZ” şirkətinin vitse-prezidenti və Rusiyanın Tatarıstan Respublikasının Baş nazirinin müavini xüsusi olaraq Azərbaycana gəlib və mənimlə bərabər “KamAZ” regional xidmət mərkəzinin açılışında iştirak etmişlər. Bu da çox önəmli hadisədir. Artıq Rusiya şirkəti də bu bölgəyə investisiya qoymağa başlayıbdır. Bildiyiniz kimi, Türkiyə şirkətləri də artıq Zəngilan rayonunda böyük kənd təsərrüfatı layihəsinə investisiya qoymağa başlamışlar. Bizim iki dost, qonşu ölkəmiz Azərbaycana bax, bu münasibəti bəsləyir. Azərbaycan da onlara eyni xoş münasibət bəsləyir. Eyni zamanda, sosial obyektlərin təməli qoyuldu. Xəstəxana, məktəb, bütün bunlar buraya insanların qayıdışı üçün əsas şərtlərdir.

Biz Cəbrayıl rayonunun elektrik təchizatının artıq demək olar ki, bütün işlərini gördük. Bu gün Cəbrayıl yarımstansiyası istifadəyə verildi. Laçın və Kəlbəcər rayonlarında hazırda su elektrik stansiyalarının bərpası işləri gedir. Artıq bir neçə stansiya işə başlayıb, o cümlədən Tərtər rayonunda Suqovuşan Su Elektrik stansiyaları. Mən tapşırıq vermişəm, ermənilər tərəfindən, - onlar qaça-qaç dövründə, Kəlbəcəri, Laçını tərk edən dövrdə, - dağıdılmış stansiyaların 10-nu biz gələn il, qalan 20-dən çoxunu isə ondan sonrakı illərdə bərpa edəcəyik. Yəni, Cəbrayıl rayonunun elektrik təchizatı artıq var. Bu, əsasdır. Çünki bu olmasa, heç nə etmək mümkün olmayacaq.

İndi gəldiyiniz yola da yəqin ki, fikir verdiniz. Görün, nə gözəl yol çəkilir. Cəbrayıla 4-6 zolaqlı yol çəkilir. Vaxtilə Ermənistan rəhbərliyi Cəbrayıla yol çəkmək istəyirdi. O da yarımçıq qaldı, onların bütün arzuları kimi. İndi biz Cəbrayıla yol çəkirik. Bizim haqqımız var. Ən gözəl yollardan biri olacaq. Mən xüsusi tapşırıq verdim ki, geniş olsun, həm Cəbrayıla gələn vətəndaşlar rahat gəlsinlər, həm də buradan keçən Zəngəzur dəhlizi də bu yoldan istifadə edəcək. Bu gün birinci yaşayış binasının təməli qoyuldu. Artıq bu binanın da inşasına start verilir. Bu bina hazır olan kimi Cəbrayıl şəhərinin birinci sakinləri orada yerləşəcək. O vaxta qədər həm xəstəxana olacaq, məktəb olacaq, iş yerləri olacaq. Rayonun bütün kəndlərinin tədricən bərpa edilməsi proqramı da təsdiq edildi. Bu gün, eyni zamanda, Zəfər və İşğal muzeylərinin təməli qoyulacaq. Hesab edirəm, ən önəmlisi odur ki, Cəbrayıl şəhərinin baş planı siz cəbrayıllılara təqdim ediləcək. Biz bu plana bərabər baxacağıq. Əgər razılığınız olarsa, bu planı da təsdiq edəcəyik. Bizim planlarımız bundan ibarətdir. Biz müharibəni Zəfərlə başa vurduq. İndi sülh dövrünü də zəfərlə başlamışıq, zəfərlə başa vuracağıq. Sizi ürəkdən salamlayıram. Sizin simanızda bütün cəbrayıllıları

qucaqlayıram, öpürəm. Allah sizə cansağlığı versin. Bundan sonra cəbrayıllılar Cəbrayılda yaşayacaqlar. Sağ olun.

* * *

Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, Baş nazirin sabiq müavini Əli Həsənov dedi:

-Çox hörmətli cənab Prezident. Sizi bu gün Cəbrayıl torpağında görməkdən buradakıların qismində bütün cəbrayıllılar qürur və şərəf hissi keçirirlər. Siz 2003-cü il oktyabrın 1-də cəbrayıllılarla prezident seçkisi qabağı ilk seçicilərlə - cəbrayıllılarla görüşdünüz. Azad edilən ilk kənd Cəbrayıl kəndi, ilk şəhər - rayon mərkəzi Cəbrayıl olub. Deyə bilmərəm, bu təsadüfdür, ya təsadüf deyil, ancaq onu deyə bilərəm ki, Cəbrayıl əhalisi tarixən dövlətə sadiq olub, sadiqdir və bu sadiqlik daim davam edəcək. Yəqin ki, burada təsadüfi hal yoxdur. O ki qaldı, 44 günlük Vətən müharibəsinə, bu 44 günün hər biri möhtəşəm, hər bir saatı Qələbə saatıdır. Siz insanları elə öyrətmişdiniz ki, hamı gözləyirdi, hər dəqiqə nə isə deyilməlidir, hər saat nə isə deyilməlidir. Yəni, bir anlığa 28 illik həsrəti yaddan çıxarırdılar, unudurdular ki, 28 ildir biz həsrət içindəyik.

Cənab Prezident, Siz bu torpağın sahiblərinin, sakinlərinin 28 illik itirilmiş sakinliyini, sahibliyini özünə qaytardınız. Bu elə bir Qələbədir ki, bunun dünya tarixində bənzəri olmayıb və olmayacaq. O hərbi əməliyyatların dünya hərb tarixində də bənzəri yoxdur və olmayacaq. Olmayacaq ona görə deyirəm ki, bu gün dünyada 70-ə qədər belə münaqişə var. Əgər kimsə bunu edə bilərdisə, hansı dövlət başçısı bunu həll edə bilərdisə o münaqişələri həll edərdilər, çünki o cür dövlət başçısı, o cür dövlət rəhbəri hansı ki, o xasiyyət, o qabiliyyət, o bacarıq, o siyasət, o dünyagörüşü, o mərdlik, o cəsarət Sizdə var, onlarda yoxdur, olsaydı edərdilər. Bəlkə bundan sonra ola bilər kimsə həvəsə düşsün, amma düşməsin, uduzacaq, onların heç biri İlham Əliyev ola bilməz. Elə bilməsinlər ki, bu, asandır.

Siz hərb tarixinə yenilik gətirdiniz. Siz Azərbaycana çox yenilik gətirmisiniz, artıq çox Azərbaycan modelləri var, bütün o brendlər ki var, onların hamısının müəllifi Sizsiniz. Dünya hərb tarixinə yeni bir model - Azərbaycan modeli gətirdiniz. 44 günlük hərbi əməliyyatlar yeni hərbi brenddir, o, cənab İlham Əliyevin brendidir. Ona görə, böyük Qələbəmiz münasibətilə Sizi bir daha təbrik edirik, Sizə möhkəm cansağlığı, yeni-yeni uğurlar, qələbələr arzu edirik. Biz əminik ki, bu, belə də olacaq.

2003-cü ildəki görüşdə Siz dediniz ki, mənim bir arzum var, hesab edirəm, bu, hamının arzusudur. Torpaqları işğaldan azad edib, Cəbrayıla gəlib, sizin qonağınız olacağam. Düzdür, bu gün bir balaca fərqli oldu, biz Sizin qonağınız olduq. Görünür, belə də olmalı imiş.

O ki qaldı, 10 noyabr Bəyanatına, düzdür, onu siyasətçilər geniş təhlil edirlər, ancaq mən hesab edirəm ki, o da Sizin siyasətinizin gücü idi – üç ölkənin bir yerə gəlməsi, Rusiyanın vasitəçilik etməsi. Hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanla Sizin Şuşa Bəyannaməniz də tarixi hadisədir. Özünüz də qeyd etdiniz ki, həqiqətən son 100 ildə Türkiyə ilə Azərbaycan arasında belə milli birlik, qardaşlıq olmayıb. Bu, son 17 ildə Sizin, o cümlədən cənab Rəcəb Tayyib Ərdoğanın prezidentlik fəaliyyətiniz dövründə daha yüksək zirvəyə qalxdı. Bu gün biz hər şeyi açıq deməliyik. Bu gün gənc nəsil bilməlidir ki, biz haradan haraya gəlmişik. Siz bu tövsiyələri həmişə edirsiniz. Çünki çox təəssüflər olsun, bugünkü gənc nəslin beynini korlayanlar da var. Ona görə də, nə olub, hansı nailiyyətlər olub, necə qazanılıb, Ulu Öndərin 1969-cu ildən gördüyü işləri hamı bilməlidir. Əslində, bu hazırlıq 50 ildir gedirdi, amma Siz onu 17 ildə bu zirvəyə çatdırdınız.

O nə millətdir ki, onun dini rəhbəri faşizm ideologiyasını təbliğ edir. Bundan millətmi olar? Dünyada bu cür ikinci millət harada var ki, gənclərinin beynini, ruhunu faşizm ideologiyası ilə korlasın. Siz bunların hamısını məhv etdiniz. Ermənilərin qaməti bundan belə heç vaxt düzəlməyəcək. Bizim əyilmiş qamətimizi düzəltdiniz. Biz başıaşağı gəzirdik, başımızı dikəltdiniz. Siz elə bir şöhrət qazanmısınız, elə bir Qələbə çalmısınız, Azərbaycan xalqına elə bir sevinc bəxş etmisiniz ki, onun əvəzi yoxdur, olmayacaq, bənzəri də dünya tarixində olmayacaq.

Var olun, sağ olun, Sizə möhkəm cansağlığı, yeni qələbələr, yeni uğurlar arzulayırıq.

Sonda mən öz sözümü deyirəm, bir cümlə deyəcəyəm, 10 saniyə vaxtınızı alacağam. 2001-ci ilin noyabr ayında Yeni Azərbaycan Partiyasının II qurultayı idi. Orada çıxışımın sonunda bir cümlə işlətdim, qurultaya aidiyyəti də yox idi. Dedim, bütün Azərbaycan xalqı deyir ki, Şuşasız Qarabağ olmaz, Qarabağsız Şuşa olmaz, mən isə deyirəm ki, Əliyevlərsiz Azərbaycan olmaz və olmayacaq!

Prezident İlham Əliyev: Sağ olun.

* * *

Cocuq Mərcanlı kəndinin sakini, 1-ci dərəcəli "Əmək" ordenli Oqtay Həziyev dedi:

– Cənab Prezident, əvvəlcə mən Sizi bütün cəbrayıllılar adından salamlayıram. Bütün cəbrayıllılar adından Sizə böyük təşəkkürümü bildirirəm. Çox sağ olun, cənab Prezident.

Siz 2017-ci ildə Cocuq Mərcanlıya gələndə bizim ailənin qonağı oldunuz və dediniz ki, Qarabağ torpağı qarışına qədər azad olunacaq. Biz Sizin sayənizdə bunun bariz nümunəsini gördük. Sizin rəhbərliyinizlə yaradılmış yenilməz Azərbaycan Ordusu və Sizin dəmir yumruğunuz, Sizin qətiyyətiniz sayəsində torpaqlarımız işğaldan azad olundu. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Qazilərimizə şəfa diləyirik ki, onlar tez bir zamanda sağalıb həyata qayıtsınlar.

Çox sağ olun, cənab Prezident. Siz əsl sərkərdə, əsl Ali Baş Komandan kimi tarix yazdınız. Sizin bütün xidmətləriniz Azərbaycan xalqının gözü önündədir. Çünki işğaldan azad olunmuş bütün ərazilərdə ən yüksək səviyyədə quruculuq-abadlıq işləri gedir. Noyabrın 10-da mənim Şuşa şəhərində yaşamağımın bir ili tamam olacaq. Orada və Qarabağın bütün ərazisində böyük, möhtəşəm, bənzəri olmayan quruculuq işləri gedir. Bu, Sizin sayənizdədir. Yəni, müharibədən çıxmış bir ölkənin bu qədər genişmiqyaslı quruculuq işləri aparması dünya tarixində görünməyib.

Sağ olun, cənab Prezident. Sizin Azərbaycan xalqı qarşısında danılmaz, böyük xidmətləriniz var. Siz əsl sərkərdəsiniz. Siz əsl Ali Baş Komandansınız. Var olun. Sizə nə qədər təşəkkür etsək, azdır. Allah Sizin canınızı sağ eləsin. Ailənizlə, balalarınızla xoşbəxt yaşayasınız. Allah-Təala Sizi həmişə zirvədə saxlasın, Azərbaycan xalqının başı üzərində Ali Baş Komandan kimi, sərkərdə kimi qalasınız.

* * *

Prezident İlham Əliyev: Çox sağ ol, Oqtay, təşəkkür edirəm. Oqtay Həziyev o insanlardandır ki, heç nəyə baxmadan, heç kimdən qorxmadan təkbaşına öz ailəsi ilə Cocuq Mərcanlıda 20 ildən çox yaşayıb. Mən sonra xəbər tutdum. Biz Cocuq Mərcanlının ətrafını təmizləyəndən sonra mən Əli müəllimdən soruşanda, dedi ki, belə bir ailə var, orada yaşayır, heç yerə getməyib. Hətta orada böyük təsərrüfatla məşğuldur və ordumuza da kömək göstərir, ərzaq göndərir. Öz əlinin zəhməti ilə əldə etdiyi imkanları ordu ilə bölüşür. Dedim, gör nə qədər böyük bir şəxsiyyətdir. Cocuq Mərcanlıya gələndə o vaxt mən “Əmək” ordenini təzə təsis etmişdim və onu heç kimə vermirdim. Halbuki namizədlər var idi, dedim ki, yox, mən onu o kişiyə verəcəyəm. Mən birinci ordeni o kişiyə verdim və evində də təqdim etdim, qucaqladım, öpdüm. Doğrudan da Azərbaycan Oqtay kimi insanların üstündə dayanır. Sağ ol, Oqtay, sağ ol.

* * *

Milli Məclisin deputatı Ceyhun Məmmədov dedi:

-Çox hörmətli cənab Prezident. Mən də cəbrayıllılar adından Sizi salamlayıram. Biz çox sevinirik ki, bu gün Sizi Cəbrayıl torpağında qarşılayırıq. Bu gün Sizin rəhbərliyinizlə Azərbaycan öz tarixinin ən şərəfli, qürurlu günlərindən birini yaşayır. Son 200 ildə Azərbaycan ilk dəfə torpaq itirmədi, itirilmiş torpaqlarını bərpa etdi. Mən hesab edirəm ki, bunu yalnız Siz edə bilərdiniz. Bu siyasətin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Siz bu uzaqgörən və müdrik siyasəti davam etdirdiniz və Azərbaycanı xoş günlərə gətirib çıxardınız.

Bu gün dünyada çoxlu sayda ölkələr var. Eləsi var, onun 50-100 il müstəqillik tarixi var, ancaq onlar bu gün nə dövlət qura biliblər, nə də ordu qura biliblər. Amma Siz Azərbaycanda bütün sahələrdə böyük inkişafa nail oldunuz. Mən xatırlayıram, 1993-cü ilin iyun ayı idi. Biz hamımız televizorun qarşısında idik. Ulu Öndərin Azərbaycana qayıdışından söhbət gedirdi və hamı deyirdi ki, Azərbaycanın bir nicat yolu var, o da Ulu Öndərin Azərbaycana qayıdışıdır və həqiqətən də belə oldu. Ulu Öndər gəldi, Azərbaycanda sabitlik təmin olundu və sonra da Siz bu siyasəti davam etdirdiniz.

Eyni zamanda, bu gün mən bir məsələyə də toxunmaq istəyirəm. Siz Cocuq Mərcanlıda olarkən çox qəti şəkildə dediniz ki, zaman gələcək, biz Qarabağdakı məscidlərimizi də bərpa edəcəyik, tikəcəyik. Bu gün biz bunu Şuşanın timsalında görürük və inanırıq ki, bu siyasət Cəbrayılda da davam etdiriləcək. Şərq dünyasında belə bir söz var – fateh. Torpaqları işğaldan azad edən insanlara fateh deyirlər və mən hesab edirəm ki, Qarabağın fatehi Sizsiniz. Biz izləyirdik, Siz 44 günlük müharibədə informasiya cəbhəsində də çox uğurlu siyasət həyata keçirirdiniz. Siz mətbuata, televiziyaya verdiyiniz 26-dan çox müsahibə ilə bu müharibənin önündə gedirdiniz. Eyni zamanda, ordumuza rəhbərlik edərək bizi möhtəşəm Qələbəyə gətirib çıxardınız. Siz bunu daim qeyd edirsiniz ki, erməni faşizminin belini qırdınız, ümumiyyətlə, dünyada bu faşizmi məhv etdiniz.

Bu gün bir çox ölkələrdə münaqişələr var, ancaq onların heç biri həll olunmayıb. Sizin rəhbərliyinizlə Azərbaycan bu münaqişəni həll etdi və bu gün dünya dövlətləri Azərbaycana qibtə edirlər. Hesab edirəm ki, bu gün Ulu Öndərin ruhu bizimlədir, getdiyimiz bütün torpaqlardadır. Siz qeyd etmişdiniz ki, Ulu Öndərin ən böyük arzularından biri də torpaqlarımızın azad olunması idi. Çox şükür ki, torpaqlarımız azad olunub və biz Sizinlə bir yerdə bu günü qeyd edirik, Qələbə ilini qeyd edirik. Biz inanırıq ki, Sizinlə daha böyük uğurlara nail olacağıq. Mən Sizə cansağlığı, daha böyük uğurlar arzulayıram. Allah Sizi qorusun.

Prezident İlham Əliyev: Sağ ol.

* * *

Mədəniyyət və İncəsənət Universitetinin dosenti, Əməkdar artist Yaqut Abdullayeva dedi:

-Möhtərəm Prezidentimiz, cənab Ali Baş Komandan, dahi sərkərdə. Sizin siyasətiniz sayəsində biz bu gün gözəl Cəbrayıldayıq. Cəbrayıllılar Sizi çox istəyir, Allah da Sizi çox istəyir. Allah bizim bütün dualarımızı qəbul etdi. Siz Şuşada çıxış edəndə dediniz ki, Allah bizim dualarımızı eşitdi. Sizi hamı çox sevir, bütün Azərbaycan sevir. Biz Sizinlə fəxr edirik. Bütün şəhidlərin ruhu qarşısında baş əyirəm. Cənab Prezident, bütün cəbrayıllılar adından Sizə minnətdarlığımı bildirirəm. Allahdan Ulu Öndərimizə, şəhidlərimizə rəhmət diləyirəm. Bu gün Ulu Öndərimizin, şəhidlərimizin müqəddəs ruhları şaddır. Bütün şəhid analarının qarşısında baş əyirəm. Cənab Prezident, Allahım Sizi qorusun. Həmişə var olun, biz Sizi çox istəyirik, həmişə də çox istəyəcəyik. Siz bizim ürəyimizsiniz. Amma, nə olar, sözümü yerə salmayın, mənim bir il ərzində bir arzum var idi - Sizin dəmir yumruğunuzu öpüb gözümün üstünə qoymaq.

* * *

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov dedi:

-Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan. Bu gün həqiqətən həyatımızın ən xoşbəxt günlərindən birini yaşayırıq. Region üçün nümunə olacaq Cəbrayılın təməl daşlarını qoymağınız bütün cəbrayıllılar tərəfindən böyük rəğbətlə, hörmətlə, qürur hissi ilə qəbul olunur. Biz - bu gün buraya toplaşan cəbrayıllılar isə xoşbəxtik ki, - görünür bu da taleyin qismətidir, - bu cür tarixi hadisənin şahidiyik və həm də Müzəffər Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyev ilə bir yerdəyik. Buna görə də, bu xoşbəxt günü bizə bəxş etdiyiniz üçün Sizə ürəkdən minnətdarıq. Tanrı Sizi qorusun, Siz Azərbaycan xalqının, sözün həqiqi mənasında, xilaskarısınız. Siz Cəbrayılın işğaldan azad olunması mesajını verəndən sonra qələbələr bir-birini əvəz etdi. Azərbaycan torpağı Sizin, sözün həqiqi mənasında, dahi sərkərdəliyiniz sayəsində 44 gündə dünyada, hərb elmində tayı–bərabəri olmayan Qələbə qazandı, Azərbaycan torpaqları işğaldan azad edildi, düşmən diz çökdürüldü və məcbur edildi ki, təslim aktına imza atsın. Bunlar bizim üçün, bütün Azərbaycan xalqı üçün böyük şərəf və qürurdur. Siz Azərbaycan xalqının qalib xalq, qəhrəman xalq olduğunu bütün dünyaya göstərdiniz. Bütün dünyaya dediniz ki, bu xalq ləyaqətli xalqdır, bu xalq qürurlu xalqdır, bu xalq döyüşməyi bacaran xalqdır, bu xalq torpağı uğrunda ölməyə, şəhid olmağa hazır xalqdır. Siz bütün dünyaya bunu göstərdiniz və bu, tarixdə əbədi qalacaq.

Cənab Prezident, Müzəffər Ali Baş Komandan, bu, böyük bir tarixdir. Siz çoxəsrlik Azərbaycan tarixinə şanlı, şərəfli səhifələr yazdınız və bu səhifələr yeni quruculuq işləri ilə bundan sonra da davam edəcək.

Biz bütün cəbrayıllılar böyük fəxrlə demək istəyirik ki, bu işlərin görülməsində həm də xalqımızın sevimlisi olan Mehriban xanım Sizinlə çiyin-çiyinə, əsl silahdaş kimi Sizə dayaqdır, köməkdir. Müharibə dövründə Mehriban xanımın verdiyi mənəvi, siyasi dəstək, etdiyi çağırışlar, işğaldan azad olunan bölgələrə səfərləriniz tariximizin ən parlaq səhifələridir.

Cənab Prezident, xüsusi vurğulamalıyam ki, ulu öndər Heydər Əliyev xalqımızın ilk xilaskarı idi. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyev Azərbaycana gəldi və dağılan, parçalanan, dünyanın gözü götürməyən Azərbaycanı yenidən qurdu, müasir müstəqil Azərbaycan dövlətinin banisi oldu. Cənab Müzəffər Ali Baş Komandan, biz fəxr edirik ki, Siz Heydər Əliyevin qurub yaratdığı Azərbaycanı dünyada ən inkişaf etmiş ölkələrdən birinə çevirdiniz. Siz Azərbaycanı qüdrətli dövlətə çevirdiniz. Bütün dünya Azərbaycan ilə hesablaşır, bütün dünya İlham Əliyev siyasəti ilə hesablaşır. Bütün dünya Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf yolu ilə, Sizin müdrik siyasətinizlə istər-istəməz hesablaşmağa məcburdur.

Cənab Prezident, Tanrı Sizi qorusun. İnanın ki, bütün cəbrayıllılar, bütün Azərbaycan xalqı hər səhər, hər axşam öz dualarına onunla başlayır ki, Müzəffər Ali Baş Komandan, Tanrı Sizi qorusun. Siz Azərbaycanın taleyini həll etdiniz.

Sağ olun, minnətdaram, təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun.

* * *

Cəbrayıl Rayon Ağsaqqallar Şurasının sədri Vaqif Məhərrəmov dedi:

-Çox hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan. Sizin Ali rəhbərliyiniz və sərkərdəliyiniz ilə qısa müddətdə - 44 gün ərzində torpaqlarımız işğaldan azad olundu. Bütün cəbrayıllılar Sizin hər bir çıxışınızı televizor qarşısında ayaq üstə alqışlayırdılar. Müharibənin hər günü cəbrayıllılar üçün demək olar ki, bir ilə bərabər idi. Niyə? Çünki ön cəbhədə gedən döyüşləri səbirsizliklə izləyirdilər və nəticəni də Allaha şükür, gördük. Bu gün bütün cəbrayıllılar Sizinlə öyünür, fəxr edir, həqiqətən, onların sevincinin həddi-hüdudu yoxdur.

Siz və Ordumuz bizim qamətimizi, qəddimizi düzəltdiniz. Ona görə də biz bu gün sevinirik, fərəhlənirik, Sizinlə fəxr edirik.

Cənab Prezident, mən Cəbrayıl ağsaqqallarının adından da bir söz deyəcəyəm. Çünki Cəbrayıl ağsaqqallarının dilində bu gün bir söz səslənir və o sözü onlar hər yerdə səsləndirirlər. Cəbrayıl ağsaqqalları istəyirlər ki, Müzəffər Ali Baş Komandan, cənab Prezident ölkəmizin daimi Prezidenti olsun. Ona görə də, böyük məmnuniyyətlə deyirik, cənab Prezident, Sizə eşq olsun. Cəbrayıllılar Sizi çox sevir, həqiqətən bütün Cəbrayıl Sizin arxanızdadır. Allah Sizi qorusun. Sağ olun.

* * *

Prezident İlham Əliyev dedi:

-Xoş sözlərə görə təşəkkür edirəm. Bu gün doğrudan da tarixi bir gündür. Birincisi ona görə ki, 4 oktyabr Cəbrayıl rayonunun tarixində Zəfər Günü, işğaldan qurtuluş günü kimi əbədi qalacaq. Digər tərəfdən, bu gün Cəbrayılın bərpası işlərinə bərabər start veririk. Həm Zəfər, həm də bərpa işləri dövlətimizin, xalqımızın gücünü göstərir. Çünki gücümüz olmasaydı, biz bu Zəfəri əldə edə bilməzdik. Mən Prezident kimi öz fəaliyyətimi bunun üzərində qurmuşdum. Çünki bizim əsas hədəfimiz Qarabağın işğaldan azad edilməsi idi. Bütün başqa addımlar - Regionların sosial-iqtisadi inkişafı Proqramı, neft-qaz, nəqliyyat sahələrindəki təşəbbüslərimiz, ölkə iqtisadiyyatının canlandırılması, Neft Fondunun valyuta ehtiyatlarının toplanması, xarici siyasət, böyük dövlətlərlə münasibətlərimiz, qonşu dövlətlərlə münasibətlərimiz - bütün bu işlərin fövqündə bu müqəddəs an dayanmışdı – Zəfər Günü. Biz bütün bu gücləri səfərbər edib xalqımızın zəhməti, qəhrəmanlığı hesabına istədiyimizə nail olduq.

Əlbəttə, Ulu Öndər haqqında burada deyildi. Əgər Azərbaycan xalqı 1993-cü ildə özünə xas olan müdriklik

göstərməsəydi, Ulu Öndəri dəvət etməsəydi, Azərbaycanın taleyi çox qaranlıq ola bilərdi. Biz o vaxt itirilmiş torpaqları nəinki bərpa edə bilərdik, biz daha böyük fəlakətlərlə üz-üzə qala bilərdik. Biz hələ yaranmaqda olan dövlətçiliyi itirə bilərdik. Bu, tam həqiqətdir. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri bu gün burada özünü göstərib. Çünki bu təməli O qoydu - ordu quruculuğu, islahatlar, neft kontraktları, ölkəmizə ilk valyutanın gəlməsi. Elə ilk vəsaiti də məhz köçkünlərin yaşayış şəraitinin yaxşılaşmasına O istiqamətləndirmişdi. Əli müəllim yaxşı xatırlayır, Aşağı Ağcakənd kəndində, o yağışlı havada, yadınızdadır, biz bərabər idik, Ulu Öndərin arxasında durmuşduq. Aşağı Ağcakənd kəndinin yenidən qurulması çox böyük məna daşıyırdı. Çünki sovet vaxtında ona Şaumyan rayonu deyirdilər. Köçkünlər üçün birinci şəhərciyi məhz orada saldı, birinci vəsaiti oraya ayırdı. O vaxt bizim pulumuz yox idi, xəzinə boş idi. Neftin satışından ilk pul gəldi, dedi ki, onu da oraya verəcəyik. Mən də bu yolla getdim. 2003-cü ildə xalq mənə etimad göstərəndə dedim ki, atamın yolu ilə gedəcəyəm. Məcburi köçkünlər üçün nə qədər böyük işlər görüldü. Əli müəllim bu işlərin icraçısı idi, 100-dən çox şəhərcik salındı. Amma hər dəfə keçmiş köçkünlərlə görüşəndə deyirdim ki, - onlar da, əlbəttə, təşəkkürünü bildirirdilər, - bu, müvəqqətidir. Yadınızdadır, deyirdim müvəqqətidir. Torpaqlar azad olunandan sonra daha yaxşı evlər tikəcəyik. Bax, bu gün ediləcək təqdimat həmin sözlərin təsdiqidir. O evlər də yaxşı evlər idi. Xaricdən gələnlər, beynəlxalq təşkilatların nümayəndələri müharibədən əvvəl köçkünlərə baş çəkəndə məəttəl qalırdılar ki, siz burada köçkünlər üçün beşulduzlu otel səviyyəsində şəhərciklər salırsınız. Biz də deyirdik ki, bizim standartlarımız budur. Bizim üçün ən prioritet kateqoriya insanlar bunlardır. Bunlar əziyyət içində yaşayıblar, gərək ən yaxşı şəraitdə yaşasınlar. Deyirdim ki, daha yaxşı şərait yaradacağıq və yaradırıq.

Bu gün həm Cəbrayılda, həm də işləri artıq başlanan Ağdamda, Şuşada ən yüksək səviyyəli işlər görüləcək. Mən bu işləri hər hansı bir başqa standartlarla müqayisə etmək istəmirəm, çünki o, şəhərsalma işlərində mövcud deyil. Bu praktika şəhərsalma işlərində birinci praktikadır və biz dünyanın ən gözəl təcrübəsini gətirmişik. Bütün işlər ən mütərəqqi texnologiyalar əsasında qurulacaq və bu işləri biz, necə deyərlər, özümüzə borc bilib görəcəyik.

Qayıdıram o sözlərə - əgər Ulu Öndər bu ölkənin təməlini düzgün qoymasaydı və dövlətçilik qurmasaydı, bu gün Zəfərdən söhbət gedə bilməzdi. Sadəcə olaraq, Azərbaycan xalqı müdriklik göstərib, 2003-cü ildə və ondan sonrakı illərdə onun siyasətinə səs verib. Bütün təzyiqlərə, hədə-qorxulara, təhqirlərə, yalanlara, uydurmalara baxmayaraq, biz bu yoldan dönmədik. Neçə dəfə bizi devirmək istəmişdilər? Bunu Azərbaycan xalqı yaxşı bilir, bunu mən yaxşı bilirəm, çünki bəzi xarici dairələr bəzi yerli satqınların əli ilə məni devirmək istəyirdilər. Alınmadı. Nə üçün? Xalq dəstəkləmədi. Əgər xalq dəstəkləsəydi, əlbəttə, buna nail ola bilərdilər. Görün postsovet məkanında zor tətbiq etməklə nə qədər çevriliş baş verib. Buna indi inqilab deyirlər, çevriliş deyirlər, təkamül deyirlər. Amma fakt odur ki, hakimiyyət dəyişikliyidir. Elə götürün bu Ermənistanı. Əvvəlki Ermənistan rəhbərliyinə erməni xalqı o qədər nifrət edirdi ki, hətta müharibəni uduzmuş insana yenə də səs verdi, təki onlar qayıtmasınlar. Ona görə xalq dəstəkləmədi. Çünki xalq bilirdi, görürdü ki, bizim işimiz haqq işidir, biz ölkəmizi gücləndiririk.

Bizə edilən təzyiqlərin və təxribatların təməlində də bax, Qarabağ amili idi. Çünki prezidentlik dövründə, - mən bunu bir neçə dəfə demişəm, indi hələ vaxt tam yetişməyib ki, mən xalq qarşısında tam mənzərəni açım, - amma belə tezislər var idi ki, bəli, siz gərək Qarabağı unudasınız, siz gərək bu vəziyyətlə barışasınız, deməli, Ermənistanla barışasınız, əməkdaşlığa başlayasınız. Neçə dəfə təklif edilirdi ki, Azərbaycan güc tətbiq etməməklə bağlı öhdəlik götürsün öz üzərinə. Mən hər dəfə imtina edirdim, hər dəfə! Sonuncu dəfə Aprel döyüşlərindən sonra Vyana görüşündə. O vaxt məğlubiyyətdən sonra Ermənistanı dəstəkləmək üçün Minsk qrupunun həmsədri olan Amerika Birləşmiş Ştatları Vyanada tələm-tələsik bu görüşü təşkil etmişdi. Mən o görüşə gələndə artıq orada Minsk qrupunun xarici işlər nazirləri əyləşmişdilər və mənə bir protokol, yəni, bir bəyanat mətnini verdilər. Mən elə orada dedim ki, əgər bunu siz hazırlamısınızsa, bunu bir gün əvvəl, iki gün əvvəl verəydiniz. Niyə məni fakt qarşısında qoyursunuz? Mən başladım orada oxumağa. Gördüm ki, burada bizə sərf etməyən müddəalar var, o cümlədən güc tətbiq etməməklə. Mən imtina etdim. Dedim ki, mən buna imza atmayacağam. Dedilər necə? Dedim belə. Siz özünüz nə istəyirsiniz qəbul edin, mən buna imza atmayacağam. Yəni, sözüm odur, bütün təzyiqlərin təməlində bu dayanmışdı ki, biz daxili problemlərlə məşğul olaq, daxili problemlərin içərisində çabalayaq ki, Qarabağ unudulsun və Ermənistan bu torpaqlara əbədi sahib olsun. Bəzi xarici ölkələrin nümayəndələri deyirdilər ki, siz gərək reallıqla hesablaşasınız, siz müharibəni uduzmusunuz, yeni müharibəni heç kim qoymayacaq, biz qoymayacağıq, qonşu ölkələr qoymayacaqlar. Bizi hədələyirdilər. Hədələyirdilər ki, müharibə başlasa, biz yenə torpaq itirəcəyik. Ermənistanın oğurluğa görə bu gün həbsdə olan keçmiş müdafiə naziri bizi hədələyirdi. Amerika da hədələmişdi. Yəni, o, bunu özbaşına demişdi? Yox! Onun ağzına bu sözləri qoyanlar olub ki, biz bu vəziyyətlə barışaq, bu torpaqlardan əl çəkək, deyək ki, bəli, gəl indi Ermənistanla əməkdaşlıq edək. Mən demişdim ki, heç vaxt əməkdaşlıq etməyəcəyik, mən demişdim ki, nəyin bahasına olursa-olsun Ermənistanı iqtisadi cəhətdən çökdürəcəyik. Bütün neft-qaz kəmərləri, nəqliyyat xətləri, dəmir yolu – hamısı Ermənistandan

yan keçdi. Yəni, nəhayət Ermənistanı çökdürdük. İqtisadi cəhətdən artıq bizimlə rəqabət apara bilmədi, hərbi cəhətdən apara bilmədi, müftə alsa da, yenə də o istədiyi silahları ala bilmədi. Beləliklə, Ermənistanda daxili böhran artıq qaçılmaz idi, xalq qalxmışdı, nifrət etdiyi Sarkisyan rejiminə qarşı qalxmışdı və dəyişiklik oldu. Mən o vaxt demişdim, bəli, o dəyişiklikdə bizim əlimiz olub, əlbəttə ki, birbaşa yox. Biz yalan danışmamalıyıq. Bizim birbaşa yox, amma dolayısı ilə. Əgər Ermənistan inkişaf edən ölkə olsaydı, xalq ayağa qalxardı? Əlbəttə ki, yox. Ona görə, bu hakimiyyət dəyişikliyində bizim rolumuz kifayət qədər böyük idi. Mən deyirdim ki, bizim hədəfimiz nəyin bahasına olursa-olsun, torpaqların azad edilməsidir və biz ölüm savaşına çıxdıq, bunu hər kəs bilir. Çünki kim deyə bilərdi ki, hansı ölkə necə hərəkət edəcək. Mən bu qarantiyanı verə bilməzdim. Biz faktiki olaraq ölüm-dirim savaşına çıxmışdıq, yəni, ya ölüm, ya olum, vəssalam, qurtardı. Daha səbrimiz tükənmişdi.

Yenə də deyirəm, müharibə başa çatandan sonra bu gün artıq yeni reallıqlar yaranıb və bəziləri bu reallıqları həzm edə bilmirlər. Baxın, Azərbaycana qarşı yenə də təxribat və uydurma kampaniyasının yeni dalğası artıq başlamışdır. Bu, davam edəcək, biz buna hazır olmalı idik və hazır idik. Heç bir şey, hansısa məsələ Qarabağdan, torpaqlarımızın azad edilməsindən üstün ola bilməz, heç bir məsələ bunu üstələyə bilməz. Bu gün biz artıq bu reallıqları qəbul etdirdik, kiminsə xoşuna gəlir, gəlmir, amma qəbul etdirdik. İndi isə bərpa işlərinə start veririk. Əminəm ki, təqribən 5 il ərzində elə bir yeni Azərbaycan, yeni Qarabağ, yeni Zəngəzur quracağıq ki, bütün dünya bizə qibtə edəcək. Bunu biz, ilk növbədə, insanlar üçün edirik. Əziyyət çəkmiş, çadırda, vaqonun altında, yataqxanada, uşaq bağçasında dözülməz şəraitdə yaşamış o insanlar ən yaxşı şəraitdə yaşamalıdırlar və yaşayacaqlar. Bunu biz təmin edəcəyik.

Bir daha sizi ürəkdən təbrik edirəm. İndi isə bizə təqdimat ediləcək və baxaq görək Cəbrayılın yeni görkəmi necə olacaq.

* * *

Azərbaycan Televiziyasının əməkdaşı Mehriban Məmmədova: Cənab Prezident.

Prezident İlham Əliyev: Siz çıxış edirdiniz Jurnalistlər evində. Siz Cocuq Mərcanlıdansınız?

Mehriban Məmmədova: Bəli, cənab Prezident. Həmin görüş vaxtı mən Sizə bir jurnalist kimi, eyni zamanda, bir Cocuq Mərcanlı sakini kimi minnətdarlıq etmişdim.

Prezident İlham Əliyev: Bəli, yadımdadır.

Mehriban Məmmədova: Amma bugünkü minnətdarlığımın səbəbi o qədər böyükdür ki, vallah, mən onu böyük cümlələr qursam belə ifadə edə bilməyəcəyəm. Mən bütün cəbrayıllılar, bütün xalqımız adından Sizə çox minnətdaram, cənab Prezident.

Siz bir neçə gün əvvəl Anadolu Agentliyinə müsahibə vermişdiniz. Keçmiş məcburi köçkünlərin çəkdikləri iztirabla bağlı çox incə bir məqamı o qədər səmimi, içdən ifadə etmişdiniz ki, bir vaxtlar məcburi köçkün olan insanların hər biri həmin gün duyğulanmışdı. Bu duyğu təbii ki, fərqli duyğu idi. Mən özüm balaca ikən oradan çıxmışdım. Amma uşağın yaddaşından heç nə çıxmır deyirlər. Mən unutmamışdım o anı. Amma uşaqlığımı da orada qoyub çıxmışdım. Mənim kimi minlərlə gənc. Amma bu gün sevinirik ki, bizim kimi gənclər Sizin sayənizdə gəncliklərini firavan yaşayırlar.

Cənab Prezident, çox təşəkkür edirik. Yaratdığınız bu yeni reallıqda, Cəbrayılın bir yaşında Sizi burada görmək çox xoşdur. Sizə bir daha minnətdarlığımızı ifadə edirik.

Prezident İlham Əliyev: Sağ ol, təşəkkür edirəm.

Mehriban Məmmədova: Siz sağ olun.

Kişi sakin: Bizim bayatılarımız əsrlərin daş yaddaşından süzülüb gəlir. Hesab edirəm ki, o bayatılardan birini bəlkə də 50 il, 100 il, 200 il bundan qabaq Sizə yazıb xalqımız. Nədir o bayatı?

Əzizim Ordubada,  
Yol gedir Ordubada.  
Sərkərdə igid olsa,  
Heç verməz ordu bada.

Bax, bu, Sizə yazılıb.

Əməkdar artist Yaqut Abdullayeva mahnı ifa edir:

Əzizinəm aydın olsun,  
Ay doğsun, aydın olsun.  
Bu gün Cəbrayılın bir yaşıdır,  
Görüm, bütün cəbrayıllıların gözləri aydın olsun.

Xanəndə, Əməkdar artist İlkin Əhmədov mahnı ifa edir:

Bu dağları aşmısınız Siz,  
Zəfər yolunu açmısınız Siz.  
Allaha şükürlər olsun, cənab Ali Baş Komandan kimi,  
Qarabağda, Cəbrayılda Azərbaycan bayrağını asmısınız Siz.

Kişi sakin: Yaşasın, Azərbaycan Prezidenti!

Prezident İlham Əliyev: Sağ olun.

Kişi sakin: Mənim bir arzum da var ki, Sizinlə bir şəklim olsun, amma yan-yana.

Prezident İlham Əliyev: Olar.

Azərbaycanın Milli Qəhrəmanı Vahid Quliyev: Cənab Ali Baş Komandan, polkovnik Quliyev. Ulu Öndərin 9 oktyabr tarixli Fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşəm.

Prezident İlham Əliyev: Milli Qəhrəman? Neçənci ildə?

Vahid Quliyev: 1994-cü il oktyabrın 9-da 10-dan çox zirehli texnikanı məhv etdiyim üçün.

Prezident İlham Əliyev: Sağ ol.

Vahid Quliyev: Azərbaycan kişisinin qeyrətini özünə qaytardığınız üçün Sizə təşəkkür edirik.

Professor Fazil Abbasov: Möhtərəm Prezident. Mən Eksperimental Cərrahiyyə İnstitutunda ürək cərrahıyam. Bizim institutun açılışında oldunuz.

Prezident İlham Əliyev: Bəli, olmuşam.

Fazil Abbasov: 2011-ci ildə Siz o institutu təkrar açandan sonra biz orada çox böyük işlər görmüşük. Mən bir söz demək istəyirəm. Bütün dünyanın, bizə ağıl öyrətmək istəyən dövlətlərin hamısının indiki dövrdə problemi, bütün dünyanın problemi lider problemidir.

Prezident İlham Əliyev: Bəli.

Fazil Abbasov: Allaha şükür ki, dünyanın bu saat ən möhtəşəm liderlərinin ikisi türk dünyasına məxsusdur.

Prezident İlham Əliyev: Sağ olun.

Fazil Abbasov: Allah Sizi var etsin.

Prezident İlham Əliyev: Çox sağ olun.

Din xadimi: Xoş gəlmisiniz, cənab Prezident. Xoşbəxtəm ki, Sizinlə Cocuq Mərcanlıda da görüşmüşdük.

Prezident İlham Əliyev: Bəli, indi burada da məscid tikəcəyik, İnşallah.

Din xadimi: Biz Cəbrayıl dindarları həmişə Sizi dəstəkləmişik və dəstəkləməkdə davam edirik.

Prezident İlham Əliyev: Sağ olun.

Digər sakin: Cənab Prezident, mən də Sizə təşəkkür edirəm. Allah Sizi qorusun.

Prezident İlham Əliyev: Çox sağ olun. Gəlin indi şəhərsalma komitəsinin rəhbəri bizə Cəbrayılın yeni görkəmi ilə bağlı təqdimat etsin.

Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev: Cənab Prezident, ilk növbədə, Döyüş muzeyi və Memorial kompleks muzeyinin layihəsini təqdim etmək istəyirəm. İcazənizlə kiçik bir videoçarx nümayiş etdirək.

Videoçarx nümayiş etdirildi.

Anar Quliyev: Cənab Prezident, muzey kompleksi bu şəhərin ərazisidir və 3 fərqli məkanda müvafiq sərgilər təşkil olunacaq. Döyüş muzeyi şəhərin cənub hissəsində yaradılacaq.

Prezident İlham Əliyev: Giriş hissəsində?

Sizi bu müqəddəs Qarabağ torpağında, Füzuli rayonunda görməkdən çox sevincli və qürurluyuq. Qarabağ torpağı, həmçinin Füzuli rayonu Azərbaycan mədəniyyətinə, musiqi mədəniyyətinə çox böyük simalar bəxş edib: xanəndələr, musiqiçilər, ifaçılar, bəstəkarlar. Təkcə bir insanın adını qeyd etmək kifayət edər ki, bax, bu gün tədris olunan Azərbaycan muğam proqramının müəllifi, ustad sənətkarımız Seyid Şuşinski məhz bu rayonun, Füzuli rayonunun övladıdır. Biz də gözümüzü açıb elə bu muğam musiqisini, xalq musiqisini eşitmişik və bu mühitdə formalaşmışıq. Əlbəttə ki, bu gün bizim muğamımız çox böyük nailiyyətlər əldə edir. Bu da Sizin və təbii ki, Mehriban xanımın muğamımıza xüsusi qayğısı ilə mümkün olub. Biz bunu daim hiss edirik və bu danılmaz bir faktdır. Hələ torpaqlarımız işğal altında olarkən Qarabağda muğam mərkəzləri tikildi. Füzulinin yoxluğu zamanı Horadizə şəhər statusu verildi, orada, həmçinin Ağdamda, Ağcabədidə muğam mərkəzlərinin tikilməsi böyük rəmzi məna daşıyır. Bu, muğam ifaçılığına, muğam sənətinə, eyni zamanda, yeni muğam ifaçılarına çox böyük stimul verdi. Mən bir də ona görə qürurluyam ki, Sizin tapşırığınıza əsasən tikilən Zəfər yolu mənim anamın, atamın doğulduğu kəndlərdən - məhz Əhmədbəyli, Mahmudlu kəndlərindən başlayır. Çox sevinirəm, hər zaman, hər yerdə deyirəm ki, mənim uşaqlığım burada keçib, buralarda çox gözəl günlər görmüşük və bundan sonra da gözəl günlər görəcəyik. Biz buna inanırıq, necə ki, həmişə Sizə inanmışıq.

Çıxışımın sonunda, cənab Prezident, bir məsələyə toxunmaq istəyirəm. Bu yaxınlarda Siz bizim qardaş Türkiyə kanallarının birinə müsahibə verərkən söylədiniz ki, mən o torpaqlara, işğaldan azad olunmuş torpaqlarımıza gedərkən, gözlərimin önünə o bölgələrdə yaşamış insanlar gəlirdi. Çünki onlar buraları görmürlər, onlar bizim gözlərimizlə onu görməlidirlər.

Siz dediniz ki, hər zaman mənim gözlərimin önündə onlar idi, nə qədər əzab çəkdilər, nə qədər əziyyət çəkdilər. Bu sözlər hamımızı çox duyğulandırdı və eyni zamanda, qürurlandırdı.

Biz fəxr edirik ki, bizim Sizin kimi liderimiz, Ali Baş Komandanımız var. Azərbaycan xalqı, Qarabağ camaatı Sizinlə qürur duyur. Füzulililər Sizinlə fəxr edir və qürur duyurlar. Bu gün Füzuli torpağında olmağımızın, onun işğaldan azad olunmasının bir illiyini qeyd etməyimizin səbəbkarı Sizsiniz və heç zaman unudulmayacaq şəhidlərimizdir, qəhrəman qazilərimizdir. Buna görə Sizə təşəkkürümüzü bildiririk. Çox sağ olun, var olun. Allah Sizi qorusun. Qarabağ Azərbaycandır!

* * *

ADA Universitetinin tələbəsi Aysel Cəfərli dedi:

- Möhtərəm Prezident və hörmətli Mehriban xanım.

Bu gün Sizin qarşınızda bir tələbə kimi, xüsusilə də Zəfər çalmış ölkənin tələbəsi kimi çıxış edirəm. Bu, çox şərəfli və qürurvericidir. Doğma yurdumun adını yüksəklərə qaldırmaq, nəinki mənim, hər birimizin vətəndaşlıq borcudur, xüsusən də ağır pandemiya dövründə. Bilirik ki, bu xəstəlik qlobal bir problemdir və Azərbaycan onunla ən yüksək səviyyədə mübarizə aparır. Mən inanıram ki, biz bu xəstəliyə qalib gələcəyik. Çünki biz İkinci Qarabağ müharibəsinin qalibləriyik. O müharibənin ki, 44 gün ərzində öz şücaətimizi, qəhrəmanlığımızı bütün dünyaya göstərdik və burada "biz də varıq" dedik.

Düzdür, Qarabağı görməsəm də, səsini-sorağını çox eşitmişəm. Tarixə nəzər salsaq, oranın necə möhtəşəm yerlər olduğunu və buna görə də basqınlara məruz qaldığının şahidi olarıq. Məsələn, 1993-cü ilin sonlarında Qarabağın çox hissəsi ermənilər tərəfindən zəbt olunmuşdu. Lakin ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycanın həm daxili, həm də xarici həyatında mühüm irəliləyişlər oldu. Buna 1994-cü ilin yanvarında baş tutmuş Horadiz əməliyyatını nümunə göstərsək, məncə, tam yerinə düşər. Çünki Horadizin bugünkü gözəlliyi bütün hər kəsi valeh edir.

Azərbaycan sürətlə inkişaf edirdi və eləcə də digər ölkələr arasında tanınmağa başlayırdı. Əfsuslar olsun ki, 2003-cü il dekabrın 12-də biz Ümummilli Liderimizi itirdik və xalqımız dərin kədərə qərq oldu. Lakin cənab Prezident, Siz Prezident seçiləndən sonra xalqımız yenidən dirçəlməyə başladı, Azərbaycan yenidən inkişaf etməyə başladı. Mən əminəm ki, qəlbimizdə yaşatdığımız Ümummilli Liderimiz əgər hazırda Azərbaycanı görsəydi, necə sürətlə inkişaf etdiyinin, əmin əllərdə olduğunun və ən əsası, Qarabağımızı aldığımızın şahidi olar və sevinib, fərəhlənərdi. Təbii ki, bunlar Sizin düzgün mövqeyinizin və uzaqgörən siyasətinizin nəticələridir. Unutmaq olmaz ki, torpaq su ilə qarışanda palçıq olur, qanla qarışanda Vətən. Buna görə Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa və digər əsgərlərimizə uzun ömür diləyirəm.

Sizə çox təşəkkür edirəm ki, bu sevinci bizə yaşatdınız. Eyni zamanda, şəhid ailələrinə və qazilərə göstərdiyiniz dəstəyə görə də Sizə minnətdarlığımı bildirirəm. Bunu da vurğulamaq istəyirəm ki, məcburi köçkün ailələrinə göstərdiyiniz dəstək də danılmazdır. Çünki neçə-neçə tələbənin ödənişinin qarşılamağınızın şahidiyik və o tələbələrdən biri də mənəm. İllərdir xəyalını qurduğum yüksək təhsil imkanına malik ADA Universitetinə bu il qəbul olmuşam və eyni zamanda, Prezident təqaüdünə layiq görülmüşəm. Bunun üçün Sizə çox təşəkkür edirəm. Məqsədim gələcəkdə üzünü görmədiyim, azad olunmasını eşidəndə kövrəlib ağladığım Füzuli rayonunda hüquqşünas kimi fəaliyyət göstərməkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

Füzuli rayon Ağsaqqallar Şurasının sədri Zülfüqar Əliyev dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli Mehriban xanım.

Azərbaycan xalqına ilk Qələbə sevincini ulu öndər, fenomen şəxsiyyət Heydər Əliyev Ali Baş Komandan olduğu dövrdə yaşatdı. İkinci Qələbə sevincini də yenə Füzuli cəbhəsində, hörmətli Prezidentimiz, Siz yaşatdınız. Üçüncü Qələbə sevinci də yenə Füzulidən başladı. Bu sevinci də Siz bizə XXI əsrin müharibəsini apararaq yaşatdınız. Buna görə də Sizə "çox sağ olun, ömrünüz uzun olsun" deyirik.

Bu tərəfə uçan quşlara həmişə biz həsəd apardıq. İndi Sizin saldığınız o Zəfər yolu ilə - o şüşə kimi yolla biz Şuşaya gedirik, Füzuliyə gəlirik. Şuşada festivallar keçiririk, Xarıbülbül festivalını, Vaqifin poeziya günlərini, Üzeyir Hacıbəylinin musiqi festivalını keçiririk. Mehriban xanımın dəstəyi ilə Heydər Əliyev Fondunun hesabına bizim oradakı müqəddəs məscidlərimiz – Yuxarı Gövhər ağa və Aşağı Gövhər ağa məscidləri, Saatlı məscidi, habelə Xalça muzeyi, Rəsm qalereyası təmir olunub, vətəndaşların istifadəsinə verilib. Bütün bunlara görə Sizə minnətdarlığımızı bildiririk, möhtərəm Prezidentimiz.

Siz beynəlxalq hava limanı tikdirməklə Füzuli rayonu ilə Bakı arasındakı məsafəni 30 dəqiqəyə endirmisiniz. Çox sağ olun, bu hava limanı mən deyərdim ki, Füzulinin simvoludur, Füzulinin açarıdır. Füzulililər Sizi çox sevir.

Möhtərəm cənab Prezident, 2003-cü ildə füzulililər öz qəti sözünü deyib, yekun qərarını verib. Siz bizim əbədi Prezidentimizsiniz. Biz o vaxtı düzgün seçim etməsəydik, bu gün burada görüşə bilməzdik.

Allah Sizi qorusun, Allah Sizə cansağlığı versin. Azərbaycanın gələcəyi naminə Sizə uğurlar arzulayırıq. Çox sağ olun.

* * *

Prezident İlham Əliyev dedi:

-Çox sağ olun, əziz dostlar, xoş sözlərə görə sizə minnətdaram. Təkcə bir şeyi əlavə etmək istərdim ki, bu, bizim hamımızın Qələbəsidir. Çünki Azərbaycan xalqı yorulmadan bu Qələbəyə doğru addımlayırdı. Hər birimiz, hərə öz yerində öz töhfəsini ümumi Qələbəmizə, ümumi inkişafımıza verərək bu günü, bu müqəddəs günü yaxınlaşdırırdıq.

Təsadüfi deyil ki, İkinci Qarabağ müharibəsi bizdə Vətən müharibəsi adlandırılır. Çünki hər birimiz, hər bir Azərbaycan vətəndaşı bu günü nəinki səbirsizliklə gözləyirdi, bu günə inanırdı, eyni zamanda, öz əməyi ilə bu günü yaxınlaşdırırdı. Bizim üçün, xalqımız üçün torpaqlarımızın azad olunmasından daha vacib məsələ heç vaxt olmamışdır. Mən hesab edirəm ki, Qələbəmizin əsas amillərindən biri də məhz budur. Çünki biz Qarabağı unutmadıq, biz o vəziyyətlə barışmadıq. Halbuki bizə deyilirdi ki, artıq reallıqla gərək hesab-

laşasınız, siz birinci müharibədə, yəni, 1990-cı illərdə məğlubiyyətə uğramısınız. Siz indi gərək bu vəziyyətlə barışıb ermənilərlə kompromisə gedəsiniz, dil tapasınız. Mənim mövqeyim bəllidir. Mən bu mövqeyi həm ölkə daxilində, həm beynəlxalq tədbirlərdə bütün kürsülərdə çıxış edərkən bəyan edirdim ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Mənə güc verən məhz xalqımızın əzmkarlığı idi. Çünki xalqımız barışmadı və görün, bu torpaqları görməyən cavan qız hansı sözləri deyir. Bu torpaqları görməyən cavanlarımız bu torpaqlar uğrunda ölümə gedirdilər. Bu, xalqımızın böyüklüyünü bir daha göstərir. Tarixdə müharibələr çox olub, münaqişələr olub, elə hallar olub ki, xalqlar istila ilə, işğalla barışmış olublar, boyunlarını büküb əyilmiş olublar. Amma bizim xalqımız həmişə başını dik tutub. Biz həmişə bir arzu ilə, bir fikirlə yaşamışdıq ki, gün gələcək, ədaləti bərpa edəcəyik, xalqımızın üstündən "məğlubedilmiş" sözünü atacağıq, qürurlu xalq kimi, müzəffər xalq kimi yaşayacağıq və bu gün gəldi. Əgər xalqımız buna inanmasaydı, əgər cəmiyyətimiz bizim o sahədəki siyasətə dəstək olmasaydı, müharibəni bu nəticələrlə başa vurmaq çox çətin olardı. Ona görə, bu, bizim hamımızın qələbəsidir, hamımızın təntənəsidir.

Əlbəttə ki, bir çox amillər var. Bu haqda artıq danışılıb. Bu Qələbəmizi şərtləndirən amillər nəzərə alınaraq kitablarda, məqalələrdə, elmi araşdırmalarda yazılacaq. Amma hesab edirəm ki, bunların arasında ən başlıcası məhz əyilməz ruhumuz və vətənpərvərliyimizdir. Məhz bu bölgədə bizim cavanlarımız, cavan əsgər və zabitlərimiz ölümə gedirdilər. Bütün o mövqelərdə, o dağlıq mövqelərdə ermənilər yerləşmişdilər. Onlar orada 30 il yerləşmiş, istehkamlar, bunkerlər, uzunmüddətli atəş nöqtələri qurmuşdular. Biz isə, düzənlik olan yerdən o təmas xəttini keçərək, o istehkamları yararaq gedirdik, bizim gənclər ölümə gedirdilər. Ona görə, birinci amil vətənpərvərlik, Vətənə olan sevgi, məhəbbətdir. Bu amil bizim xalqımızı bundan sonra da yenilməz xalq kimi yaşadacaq.

Əsas vəzifəmiz, - əlbəttə, torpaqlarımızın qurulması, bərpası öz yerində, - gəncləri bu vətənpərvərlik ruhunda böyütməkdir. Çünki bu olmasa, onda bizim arzularımız yarımçıq olacaq. Vətənpərvərlik olsa, Vətənə bağlılıq olsa, heç bir qüvvə bizim qabağımızda dura bilməz.

Bizi həm müharibədən əvvəl, həm müharibə zamanı, həm də bəziləri müharibədən sonra hədələməyə çalışırdılar və çalışırlar. Amma bütün bu səylər puça çıxdı. Çünki heç kim bizim iradəmizi əyə bilməz. Biz öz ləyaqətimizi, öz qürurumuzu, öz müstəqilliyimizi heç kimə güzəştə getməyəcəyik. Bunu hər kəs bilsin. Bizi hədələməyə çalışanlar indi haradadırlar, hər kəs bilir. Hamı üçün dərs olmalıdır, ibrət olmalıdır. Azərbaycanla diktat dili ilə, hədə-qorxu dili ilə heç kim danışa bilməz.

Mən bir daha sizi bu müqəddəs gün münasibətilə - Füzulinin azad olunması günü münasibətilə təbrik edirəm, sizə cansağlığı arzulayıram. Arzu edirəm ki, biz tezliklə bu gözəl diyarı quraq, bərpa edək. Sizinlə burada hələ çox-çox görüşəcəyik. Bir daha sağ olun.

* * *

Prezident İlham Əliyev: İşlər gedir?

Sakin: Bəli, işlər gedir, bəlkə mindən çox texnika var.

Prezident İlham Əliyev: Orada indi işlər yaxşı gedir.

Sakin: Çox yüksək səviyyədə, cənab Prezident.

Prezident İlham Əliyev: Milli qəhrəmanlarla görüşüm.

Polkovnik Hüseynov: Cənab Ali Baş Komandan, polkovnik Hüseynov.

Mayor Səfərov: Cənab Ali Baş Komandan, mayor Səfərov.

Prezident İlham Əliyev: Gəlin, baş planla tanış olaq, sonra Zəfər muzeyinin də təməlini bərabər qoyaq.

Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev: Möhtərəm Prezident, hörmətli Mehriban xanım, Füzuli Memorial Kompleksi şəhərin mərkəzi hissəsində yaradılacaq. Durduğumuz məkanda, 5 hektarlıq ərazidə İşğal muzeyi, Memorial Kompleks və ona bitişik Zəfər parkı salınacaq. Həmçinin yüksək bir məkanda Bayraq meydanı yaradılacaq. İcazənizlə kiçik bir film nümayiş etdirmək istərdik.

Film nümayiş olunur.

Anar Quliyev: Cənab Prezident, videoda da göründüyü kimi, Bayraq meydanı şəhərin ən yüksək nöqtəsində salınacaq və Füzulinin yeni simvolu olacağına inanırıq. Xüsusən də axşam vaxtı işıqlandırma effektləri ilə hər tərəfdən görünəcək. Muzey 6 əsas zaldan ibarət olacaq. Hər zal bir mövzuya həsr olunacaq, Füzulinin və Qarabağın strateji əhəmiyyətindən bəhs edəcək. Muzeyin alt qatında erməni işğalçıları tərəfindən qurulmuş istehkamlar təqdim olunacaq. Bununla yanaşı, Füzulini azad edərkən bizim hərbçilərimizin mükəmməl qurduğu strategiyaya həsr olunmuş bir zal da olacaq. Həmçinin Füzuli işğaldan azad olunduqdan sonra onun görkəmi, bugünkü vəziyyəti və təbii ki, şəhidlərimizin xatirəsinə həsr olunmuş ayrıca bir ekspozisiya da təşkil olunacaq. Muzey böyük bir parkda yerləşəcək. Parkda, həmçinin Zəfər abidəsi qurulacaq. İcazənizlə, abidənin müəllifi Rəşad Mehdiyevi təqdim edim.

Prezident İlham Əliyev: Bəli, əlbəttə.

Rəşad Mehdiyev: Hörmətli cənab Prezident, hörmətli Mehriban xanım, mənim əsərimə dəyər verdiyinizə görə Sizə təşəkkür edirəm. Bu abidə üç hissədən ibarətdir. Podium, sonra lövhə və sütunlar. Lövhədə Füzulidə ağır döyüşlərdə qəhrəmancasına həlak olmuş igidlərin adları əks olunacaq. Abidənin davamında 44 sütun olacaq ki, ümumi 44 simvolunu əks etdirəcək.

Prezident İlham Əliyev: Səmadan da görsənəcək?

Rəşad Mehdiyev: Yuxarıdan da, bütün hər tərəfdən görsənəcək. Orada elə bir instalyasiya yaranacaq ki, bu 44 simvolu havada kimi görünsün.

Prezident İlham Əliyev: Çox sağ olun. Çox təsirli əsərdir. Bu dağıntılar açıq səma altında da olacaq.

Anar Quliyev: Bəli, növbəti hissədə Zəfər parkı ilə yanaşı 5 hektarda İşğal muzeyi və park təşkil ediləcək. Dağıntılar bu gün həmin ərazidədir, olduğu kimi konservasiya olunub saxlanılacaq.

Prezident İlham Əliyev: Azad edilmiş hər bir şəhərdə biz belə bir yer saxlayırıq, dağıntılar qalsın ki, camaat görsün, gənclər görsün, xarici qonaqlar gəlib görsünlər.

Sakinlər: Qarabağ bölgəsi həm abidələri ilə məşhurdur, həm də kəhrizləri ilə məşhur olub. Böyük mədəniyyətdir. Ümumiyyətlə, kəhriz mədəniyyətinin Qarabağda çox böyük şəbəkəsi var. Bizim kənddə Şah Abbas tərəfindən vurulmuş kəhriz var idi.

Prezident İlham Əliyev: Hansı kənddir sizinki?

Sakinlər: Qarğabazar.

Prezident İlham Əliyev: Bəli, Qarğabazar məşhur kənddir. O, azad olunanda biz çox sevinirdik. Çünki o, böyük kənddir.

Sakin: O, azad olunanda o qədər ağladım ki... Ən qədim məktəb də oradadır.

Prezident İlham Əliyev: Kəhrizlər baş planda nəzərdə tutulur?

Anar Quliyev: Həm bulaqlar var burada, cənab Prezident, bəziləri artıq açılıb və müayinə olunub.

Prezident İlham Əliyev: Əlbəttə, bunu nəzərə alın.

Anar Quliyev: Kəhrizlərə də mütləq bir-bir baxacağıq.

Prezident İlham Əliyev: Ümumiyyətlə, inşaat zamanı gərək Füzuli ictimaiyyəti ilə siz sıx əlaqədə olasınız, həm burada, həm də Bakıda. Bu müzakirədə də onlar iştirak etsinlər.

Qadın sakin: Cənab Prezident, mən də Sizi salamlayıram, öz evinizdə salamlayıram, hamımız bir yerdə. Deyilən bütün sözlərin hamısına mən də şərikəm. Bu illər ərzində Siz bütün övladlarımızı, keçmiş məcburi köçkün uşaqlarının hamısını oxutmusunuz. Çünki onların təhsil haqqını dövlət ödəyib. Hər il bizim 500-600 şagirdimiz ali məktəblərə qəbul olur. Ulu Öndər təməlini qoydu və bu gün də Siz onu davam etdirirsiniz.

Sakinlər: Allah Ulu Öndərimizə rəhmət eləsin.

Digər qadın sakin: Mən də cənab Prezident, Sizi salamlayıram öz doğma evinizdə. Yaralılar birinci bizə - Sizin Sərəncamınızla tikilən Müalicə Diaqnostika Mərkəzinə, mərkəzi xəstəxanalara gəlirdilər. Azərbaycanın həkimləri, professorları, alimləri bizi tək qoymadılar, biz Füzuli həkimlərinə birinci gündən köməyə gəldilər. Bu könüllü proses bizim ürəyimizi dağa döndərdi, riqqətə gətirdi. Yəni, əsgərlərə qulluq etməyimizə, onlara yardım göstərməyimizə çox kömək oldular. Biz onların təcrübəsini öyrəndik. Yəni, hər bir əsgərin, - mən indi hörmətli Mehriban xanıma da söylədim, - sinəsində, ürəyinin başında Azərbaycan bayrağı var idi. Hamısı istəyirdi ki, o şərəfli bayrağı aparıb Şuşada ucaltsın. Bu, bizi daha da riqqətə gətirirdi. Biz həkimlər bütün günü onların qayğısına qalırdıq, onlara qardaş kimi, övlad kimi kömək göstərirdik, xidmət edirdik. Bu Zəfəri, bu Qələbəni bizə yaşatdığınıza görə Sizə təşəkkür edirəm.

Prezident İlham Əliyev: Mən sizə, bütün həkimlərə təşəkkür edirəm. Sağ olun.

Qadın sakin: Mən çox fəxr edirəm ki, biz azərbaycanlıyıq, bizim dünya miqyasında olan hörmətimizi Siz daha da ucaltdınız. Sizin sayənizdə biz bundan sonra həmişə başıuca gəzəcəyik. Çox sağ olun.

Prezident İlham Əliyev: Sağ olun. Təşəkkür edirəm.

Sakin: Cənab Prezident, mən tez-tez BMT-nin baş ofisində tədbirlərə qatılıram. Mən Sizin orada ilk gündən çıxışlarınızı qürurla izləmişəm. Yəni, o duruşunuzla, o qamətinizlə bu 44 gündə də o mesajları dünyaya verdiniz. Sizin o mesajlarınız ölkəmizi beynəlxalq aləmdə bir daha tanıtdırdı. Həm də ölkəmizlə bağlı çox böyük bir təbliğat getdi. Yəni, Siz 30-dan çox müsahibə verdiniz.

Prezident İlham Əliyev: Ermənilər artıq uzun illər bizim haqqımızda olmazın yalanlarını uydururdular, öz şəbəkələri vasitəsilə də bunu yayırdılar. Bizim beynəlxalq mediaya çıxmağa o dərəcədə imkanımız yox idi. Ona görə bu imkandan istifadə etdik və müharibə dövründə hiss olunurdu ki, fikir daha çox reallığa əsaslanır.

Sakin: Cənab Prezident, Siz bizim xilaskarımızsınız. Bütün gənclərdən tutmuş mənim kimi yaşlı insanlara qədər Sizi xilaskar bilirik.

Prezident İlham Əliyev: Mənim borcum idi, vəzifəm idi. Həmişə hiss edirdim ki, xalq arxamdadır. Mənə güc, inam verən o idi. Bizi Qələbəyə aparan ürəyimizdəki inam oldu.

Sakin: Cənab Prezident, mən üç əsas faktı qeyd etmək istəyirəm – birincisi, o "Dəmir yumruq" siyasətiniz, ikincisi, xalqın Sizin ətrafınızda möhkəm birləşməsi, üçüncüsü, şanlı Ordumuzun Qələbəsi. Ordumuzun bu şanlı Qələbəsinin özülü 1993-cü ildə qoyulmuşdur.

Prezident İlham Əliyev: Ordu məsələləri həmişə birinci sırada idi mənim üçün. Ona görə təsadüfi deyil ki, bizim dövlət büdcəmizdə həmişə birinci xərclər həcminə görə ordu xərcləri idi. Bəli, görülmüş işlərlə bağlı ictimaiyyətə vaxtaşırı məlumat verilirdi, paradlar keçirilirdi, mənim müxtəlif görüşlərim işıqlandırılırdı. Amma biz görülmüş bütün işləri təqdim edə bilmirdik. Çünki bunlar, əlbəttə, məxfi xarakter daşıyırdı. Amma müharibə zamanı göstərdik.

Futbolçu: Hamımız təşəkkür edirik. Hamımız çalışırdıq xidmət edək, hərbçi kimi olmasa da, idmançı kimi çalışdıq ki, Qarabağa xidmət edək. Biz beynəlxalq oyunlarda həmişə bir az məğlub kimi idik, amma indi fərqli çıxış etməyə çalışırıq.

Prezident İlham Əliyev: Əlbəttə, artıq biz bundan sonra qalib xalq kimi əbədi yaşayacağıq.

Anar Quliyev: Cənab Prezident, Füzuli şəhərinin işğaldan əvvəl məskunlaşma ərazisi bu xəritədə tünd

rənglə göstərilib. İndi artıq 397 hektar təşkil edir. Yeni baş plana görə artıq bu sarı rənglərlə göstərilmiş ərazi, o cümlədən hava limanı daxil olmaqla, 1936 hektar təşkil edəcək. Şəhər, ümumiyyətlə, 50 min nəfər üçün planlaşdırılır. Yəni, hesabat dövrünə - 2040-cı ilə 50 min nəfərlik şəhər olacaq.

Prezident İlham Əliyev: Torpaq da yaxşı, münbit torpaqdır. İndi aparılan şum, səpin, əkin o məqsədi güdür ki, vaxt itirməyək, bu torpağı artıq diriliyə gətirək. Ona görə camaat qayıdandan sonra əlbəttə ki, yenidən bölgü aparılacaq. Bir də ki, burada həyətyanı torpaqlar da nəzərdə tutulur, mənə məruzə edildi. Kəndlərdə hər bir evin təqribən ən azı 12 sot torpağı olacaq.

Anar Quliyev: "Ağıllı şəhər" yanaşması təbii ki, burada həm ağıllı idarəetməni, həm də müasir texnologiya üzrə peşəkar kadrlar hazırlanmasını nəzərdə tutur. Ağıllı cəmiyyət, sağlam ətraf mühit, həyat tərzi, nəqliyyat və rabitə, rəqəmsal əsaslı şəbəkələr qlobal miqyasda yeni yanaşmadır. Çalışacağıq burada sağlam ətraf mühit, parklar, çoxlu yaşıllıq olsun.

Prezident İlham Əliyev: Burada ictimai zonalar - gəzinti, velosiped yolları çox olacaq.

Anar Quliyev: Bəli, cənab Prezident. Burada az və ortamərtəbəli çoxmənzilli binalar inşa ediləcək. Daha sonra həyətyanı bağ sahələri olan fərdi evlər tikiləcək. Şimal hissədən nəqliyyat dəhlizi, avtomobil yolları, dəmir yolları çəkiləcək, aeroport artıq tikilib. Ona görə yaşayış hissəsini biz şəhərin sol tərəfinə daha çox yerləşdirdik və aeroporta yaxın ərazilər daha çox məşğulluq yerləri olacaq. Burada sənaye parkı, logistika parkı var. Şəhərdə, həmçinin ekopark yaradılacaq. Şəhər ətrafında çox böyük ərazidə meşə zolaqları da olacaq. Avtovağzal, dəmir yolu vağzalı şəhərin girəcəyində yerləşəcək. Gələcəkdə böyük bir idman zonasının yaradılması, stadionun tikilməsi planlaşdırılır.

Məşğulluğa gəldikdə burada nəqliyyat-logistika əsas sahə olacaq. Əsasən sənaye, yüngül sənaye və təbii ki, turizm.

Sakin: Cənab Prezident 500-dən artıq iş yeri yaradılıb.

Prezident İlham Əliyev: Daimi?

Sakin: Bəli.

Prezident İlham Əliyev: Bu işlərə Füzulidən olan gənclər, insanlar cəlb edilsin.

Anar Quliyev: Avtomobil yolları 46 kilometr təşkil edəcək. Piyada, velosiped yolları 85 kilometr. Məsələn, avtomobil yolları tamamilə ayrılacaq, ayrıca zolaqla ancaq piyada, velosipedlə hərəkət üçün şərait təmin olunacaq.

Prezident İlham Əliyev: Ekoloji, təmiz şəhər nəqliyyatı.

Anar Quliyev: Bəli, bu, prioritetlərimizdən birincisidir.

Prezident İlham Əliyev: İndi böyük xəstəxananın layihəsi hazırlanır. Yaxın həftələrdə mənə təqdim ediləcək.

İdmançı: İnşallah, Füzulidə böyük idman kompleksləri olacaq.

Prezident İlham Əliyev: Sözsüz. Olimpiya İdman Kompleksi mütləq yaradılacaq.

İdmançı: Çox təşəkkür edirik, sağ olun.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli Memorial Kompleksinin və Füzuli şəhərinin bərpasının təməl daşını qoyublar.

Sonda xatirə şəkilləri çəkdirildi.

## *Zəngilan rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayonunda səfərdə olublar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayonun Ağalı kəndində həyata keçirilən "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlərlə tanış oldular. İlk "Ağıllı kənd" layihəsinin təməli 2021-ci ilin aprelində dövlətimizin başçısı tərəfindən qoyulub.

Kənd təsərrüfatı naziri İnam Kərimov məlumat verdi ki, layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. İnnovativ tikinti materiallarından istifadə olunmaqla tam izolyasiya olunmuş 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. Kənddə yaradılacaq "Ağıllı məktəb"də distant təhsilin aparılması üçün bütün imkanlar olacaq. Yeraltı kommunikasiya işlərindən içməli su, çirkab və sel suları xətlərinin qazma işlərinə başlanılıb. Park meydanında nəzərdə tutulmuş fəvvarənin ərazisində abadlıq işləri yekunlaşıb. Fəvvarədə quraşdırılacaq memarlıq abidəsi hazırlıq mərhələsindədir. Burada müasir şəhərsalma standartları tətbiq olunacaq. Piyada və velosiped yolları çəkiləcək. Bir sözlə, öz doğma yurdlarına qayıdacaq sakinlər üçün hərtərəfli şərait olacaq.

Onu da qeyd edək ki, burada kənd təsərrüfatının təşkili və inkişafı ilə bağlı bir sıra işlər görüləcək. Artıq kənd təsərrüfatı məhsullarının istehsalı məqsədilə istifadə olunacaq torpaq sahələri müəyyənləşdirilib və lazımi innovativ texnikaların siyahısı hazırlanıb. "Ağıllı kənd təsərrüfatı"nda müasir suvarma sistemlərindən istifadə olunacaq. Bundan əlavə, "Ağıllı kənd" layihəsi üçün əkin planı hazırlanıb. Planda nəzərdə tutulmuş torpaq sahələrinin əkinə yararlılığı qiymətləndirilib və əkin üçün hazırlığa başlanılıb. Əkin planına əsasən müəyyənləşdirilən 600 hektar ərazidən 412 hektarının minalardan təmizlənməsi üçün müvafiq işlər aparılıb. "Ağıllı kənd"də kənd təsərrüfatı fəaliyyətinin bərpası və

inkişafı üçün müvafiq şəraitin yaradılması məqsədilə layihə çərçivəsində ictimai fermanın qurulması nəzərdə tutulur. Fermada 250 baş iribuynuzlu və 600 baş xırdabuynuzlu mal-qaranın saxlanması mümkün olacaq. Burada "Ağıllı idarəetmə sistemi" data və təhlil mərkəzindən həyata keçiriləcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

"AzVirt" MMC-nin baş direktoru Kamil Əliyev dövlətimizin başçısına və birinci xanıma hava limanında görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, uçuş-enmə zolağının uzunluğu 3 min metr olan hava limanında tikinti işlərinə bu ilin may ayında başlanılıb. Zəngilan Hava Limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul etmək imkanına malik olacaq.

Qeyd edək ki, rayonun coğrafi yerləşməsi və burada olan imkanlar Zəngilanı beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevirmək üçün əlverişli şərait yaradır. Bundan əlavə, bu hava limanı Zəngilanın gələcək uğurlu sosial-iqtisadi inkişafında böyük rol oynayacaq. Tikinti işlərinin 2022-ci ildə tamamlanması planlaşdırılır.

Oktyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonunda yerləşən hərbi hissə kompleksində yaradılan şəraitlə tanış olublar.

Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleks barədə məlumat verdi.

Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad olunmuş ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə fəaliyyətlər davam etdirilir. Dövlət Sərhəd Xidmətinin Azərbaycan Respublikasının İran və Ermənistanla dövlət sərhədlərinin Zəngilan rayonu ərazisindən keçən hissələrinin mühafizəsini həyata keçirən yeni hərbi hissə kompleksi 15 hektar ərazini əhatə edir. Buraya qərargah binası və əsgər yataqxanası, şəxsi heyətin xidmətinin yüksək səviyyədə aparılması üçün lazımi şəraitlə təmin edilmiş iş otaqları, yeməkxana və digər tikililər daxildir. Kompleksdə hərbi hissənin təyinatına uyğun xidməti-döyüş fəaliyyətinin təşkilinə, hərbi qulluqçuların peşəkar və döyüş qabiliyyətlərinin yüksəldilməsinə, şəxsi heyətin hərbi biliklərinin və mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsinə imkan verən zəruri şərait yaradılıb.

Dövlətimizin başçısına hərbi hissənin xidməti istifadəsində olan zirehli döyüş maşınları, atıcı silahlar, qumbaraatanlar, iriçaplı pulemyotlar, zenit qurğuları və digər texniki vasitələr təqdim olundu. 44 günlük Vətən müharibəsi zamanı Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti də torpaqlarımızın işğaldan azad olunmasında, dövlət sərhədinin bərpası kimi çox mühüm və müqəddəs bir missiyanın uğurla həyata keçirilməsində böyük şücaət və qəhrəmanlıq göstərib. Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları yüksək peşəkarlıq nümayiş etdirərək düşmənə sarsıdıcı zərbələr vurub və işğalçıları torpaqlarımızdan qovub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də "Azərenerji" ASC-nin 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyasının açılışında iştirak ediblər.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yarımstansiya barədə məlumat verdi.

Bildirildi ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun işğaldan azad etdiyi Zəngilan rayonunun elektrik enerjisi ilə təchiz edilməsi üçün "Azərenerji" ASC tərəfindən genişmiqyaslı işlər həyata keçirilib. Elektroenergetika infrastrukturu tamamilə dağıdılmış Zəngilan rayonuna Füzulidəki "Şükürbəyli" yarımstansiyasından ümumi uzunluğu 110 kilometr olan ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilib. Hava xəttinin ildırımdan mühafizəsi və yarımstansiyalararası siqnalların ötürülməsi üçün zəruri işlər görülüb. Yarımstansiya binası müasir avadanlıqla təchiz olunub, 25 MVA gücündə 2 transformator quraşdırılıb. Gələcəkdə şəbəkənin genişləndirilməsi nəzərə alınaraq lazımi infrastruktur yaradılıb. Burada mikro-SCADA dispetçer idarəetmə sistemi qurulub ki, bu da yarımstansiyanın iş rejiminə real zamanda nəzarət olunmasına və göstəricilərin "Azərenerji" ASC-nin SCADA sisteminə ötürülməsinə imkan verir.

Qeyd edək ki, işğala qədər 40 min nəfərdən çox əhalisi olan Zəngilan rayonunun ümumi enerji tələbatı orta hesabla 7 MVt olub. Hazırda ərazisində hava limanı, qızıl, mis yataqları, dağ-eko, aqro və mədəni turizm, "Ağıllı şəhər", "Ağıllı kənd" də daxil olmaqla qeyri-əhali abonentlərin və 50 mindən çox əhalinin məskunlaşması proqnozlaşdırılan Zəngilanda 2040-cı il üçün elektrik enerjisi tələbatının 40 MVt-dan artıq olacağı gözlənilir. Məhz bu səbəbdən də Zəngilan rayonunun və ümumilikdə Şərqi Zəngəzur iqtisadi rayonunun gələcək inkişaf istiqamətləri nəzərə alınaraq artacaq güc tələbatlarının qarşılanması məqsədilə yeni çəkilən 110 kV-luq ikidövrəli elektrik verilişi xəttinin gücötürmə qabiliyyəti 150-160 MVt-dır. "Zəngilan" yarımstansiyası, ilk növbədə, Zəngilan rayonunda yerləşən hərbi hissələri, sərhəd xidmətinin obyektlərini, bir sıra infrastruktur layihələri həyata keçirən müxtəlif dövlət strukturlarının, yol-tikinti şirkətlərinin obyektlərini elektrik enerjisi ilə təmin edəcək.

Prezident İlham Əliyev "Zəngilan" yarımstansiyasını işə saldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın

20-də Zəngilan rayonunda Rəqəmsal Yarımstansiyanın təməlqoyma mərasimində iştirak ediblər.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına və birinci xanıma Zəngilanda tikiləcək Rəqəmsal Yarımstansiya və rayonun elektrik təchizatı sxemi barədə məlumat verdi. Bildirildi ki, 35/10 kV-luq 240 kilometrlik və 0.4 kV-luq 1050 kilometrlik elektrik veriliş xətti tamamilə yenidən qurulacaq. Ənənəvi təchizat sxemindən fərqli olaraq, yeni struktur şəbəkə iqtisadi baxımdan daha səmərəlidir. Yeni qurulacaq şəbəkədə "Ağıllı şəhər", "Ağıllı kənd" layihələrinin infrastrukturu üçün bütün imkanlar mövcud olacaq.

Qeyd edək ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamında qarşıya qoyulan vəzifələrin icrası məqsədilə "Azərişıq" ASC tərəfindən Paylayıcı Şəbəkələrin Yaşıl Enerji Zonası tələbləri üzərində qurulmasına start verilib, "Ağıllı şəbəkələr" konsepsiyasının təməl elementlərindən biri olan Rəqəmsal Yarımstansiya layihəsi işlənib hazırlanıb. Bu cür yarımstansiyalar elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayır, emal edir, avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edir. Nəzarət, mühafizə və idarəetmə sistemlərinin innovativ həll layihəsi olan bu yarımstansiyalarda optik rəqəmsal ölçmə transformatorlarının və yeni nəsil rəqəmsal avadanlıq komplekslərinin işlənib hazırlanması təmin edilir, bütün ölçülər yüksək dəqiqliklə aparılır. Avtomatlaşdırma insan amilinin şəbəkənin işinə təsirini azaltmağa, etibarlılığını artırmağa və elektrik enerjisinin ötürülməsi zamanı itkiləri minimuma endirməyə imkan verir. Həmçinin enerjinin əldə olunması dəyəri və istismar xərcləri azalır. Rəqəmsal yarımstansiyalarda iş alınan və ötürülən elektrik enerjisinin miqdarına görə multifunksional rejimdə qurulur, cihaz və avadanlıqlar bir-birilə koordinasiya vəziyyətində işləyir, əməliyyatlar paylayıcı şəbəkənin tələblərinə avtomatik uyğunlaşdırılır, informasiya və texniki təhlükəsizlik sistemlərinin qərarvermə qabiliyyəti təmin edilir. Ən əsası, "Yaşıl enerji" mənbələri şəbəkəyə inteqrasiya olunur. Bərpa olunan enerji mənbələrinin şəbəkələrə inteqrasiyası rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. İstehlakçılar yarana biləcək texniki fasilə barədə məlumatı onlayn qaydada əvvəlcədən alır.

Diqqətə çatdırıldı ki, Kəlbəcərdə hərbi hissələri elektrik enerjisi ilə təchiz etmək üçün 132 kilometrlik yeni xətt çəkiləcək, 42 kilometrlik xətt isə bərpa olunacaq. Hazırda bu istiqamətdə işlər davam edir.

Prezident İlham Əliyev Rəqəmsal Yarımstansiyanın təməlini qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 20-də Zəngilan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

Rayon ictimaiyyətinin nümayəndələrini salamlayan Prezident İlham Əliyev dedi: Xoş gəlmisiniz Zəngilana. Uzun fasilədən sonra – 27 il erməni işğalından sonra artıq Zəngilan Vətənə qayıtdı, qaytardıq. Şanlı Ordumuz qəhrəmanlıq göstərərək Zəngilan şəhərini və bir neçə kəndi məhz düz bir il bundan əvvəl işğalçılardan azad etdi və beləliklə, 27 illik işğala son qoyuldu. İndi mən "Xoş gəlmisiniz" deyirəm, çünki mən sizi dəvət etmişəm ki, bu gözəl tarixi birlikdə burada qeyd edək. Amma bundan sonra mən Zəngilana gələndə zəngilanlılar "Xoş gəlmisiniz" deyəcəklər.

Milli Məclisin deputatı İmamverdi İsmayılov: Cənab Prezident, sağ olun. Möhtərəm cənab Prezident, hörmətli Mehriban xanım, icazə versəydiniz, Sizi qədim Zəngəzurumuzun bu dilbər guşəsi olan Zəngilanda salamlayardıq. Siz bizi artıq məcburi köçkünlükdən çıxarmısınız. Zəngilan çox bərəkətli torpağa malik olan bir diyardır, gözəl meşələri, təbii sərvətləri, filiz yataqları, çayları və dünyada ikinci, Avropada birinci olan təbii çinar meşələri - saymaqla qurtaran deyil. Amma cənab Prezident, vaxt var idi ki, biz gəlirdik Horadizə, sonra da Cocuq Mərcanlıya, oradan həsrətlə boylanırdıq öz yurdumuza. Amma taleyin hökmünə bax, dünən ayağımızla gələ bilmədiyimiz, maşınımızla gələ bilmədiyimiz diyarımıza indi hətta müasir hava limanı olan təyyarələrimizlə gələ bilirik. Çox sağ olun, var olun. Arzularımızdan Qarabağdakı reallığa gəldik. Gördüklərimiz düşüncələrimizi çox geridə qoyub. Bu gün ulu öndərimiz, böyük tarixi şəxsiyyət olan Heydər Əliyevin ruhu şaddır. Çünki zəngilanlılar Heydər Əliyevin xilaskarlıq missiyasını heç vaxt unutmurlar və unutmayacaqlar. Əgər o, böyük tarixi şəxsiyyət olmasaydı, 1993-cü ildə zəngilanlılar özünü Araza vurar, yolları hər yerdən bağlanmış və Araza qərq olmuş camaat növbəti Xocalı sakinlərinin taleyini yaşayacaqdı. İndi taleyin ədalətli məntiqinə baxın. Heydər Əliyev zəngilanlıların xilaskarı oldu, Siz isə Zəngilanın xilaskarı oldunuz.

Prezident İlham Əliyev: Sağ olun. Zəngilan doğrudan da çox füsunkar təbiətə malik olan bir diyardır. Mən ilk dəfə Zəngilana keçən ilin sonlarında gəldim, dekabr ayında və o vaxt heyran oldum bu diyara. Əzəmətli dağlar, yaşıl meşələr, çaylar, iqlim - bura doğrudan da Azərbaycanın ən gözəl yerlərindən biridir və məqsədimiz də odur ki, Zəngilanı yenidən quraq. Çünki köhnə Zəngilandan bir şey qalmayıb. Siz indi görürsünüz, mənfur düşmən demək olar ki, bütün binaları dağıtmışdır. Bir neçə bina qalıb ki, orada hərbçilər yerləşirdi. Qalan bütün binaları, bütün kəndlərin binalarını bir məqsədlə dağıtmışlar ki, biz buraya qayıtmayaq. Amma biz qayıtmışıq, şanlı Ordumuz düz bir il bundan əvvəl Azərbaycan bayrağını Zəngilanda qaldırdı və düşməni bu torpaqlardan qovdu. Zəngilan azad olunandan sonra artıq yolumuz

Qubadlıya açıldı və beş gün sonra Qubadlı azad olundu, ondan sonra da Laçın dəhlizinə çıxdıq. Laçın dəhlizinə çıxdıqda demək olar, düşmən də bildi ki, artıq müqavimət göstərməyin mənası qalmayıb.

Amma indi Zəngilanın yeni dövrü başlayır və şəhərin baş planı artıq hazırlanır. Bir xarici şirkət müsabiqədə qalib gəldi və hesab edirəm ki, yaxın aylarda baş plan təqdim ediləcək. Bütün bu təbii gözəllik nəzərə alınaraq müasir, çox gözəl bir şəhər qurulacaq, həmçinin də kəndlər. Siz də bilirsiniz ki, azad edilmiş bütün torpaqlarda birinci "Ağıllı kənd" layihəsi məhz Zəngilan rayonunda həyata keçirildi.

Aprel ayında Ağalı kəndinin təməli qoyuldu. Bu gün mən buraya gəlməzdən əvvəl işin gedişatı ilə tanış oldum. Artıq bəzi binalar hazırdır və çalışacağıq ki, gələn ilin əvvəli, bəlkə də bu ilin sonu zəngilanlıları Zəngilana köçürməyə başlayaq.

Sakin: Cənab Prezident, dünyanın bir çox aparıcı dövlətləri indi Azərbaycanın hərb modelini öyrənir. Özü də o model ki, Zəfər tarixi modelidir və dərsliyə düşüb. Siz Qarabağın və Zəngəzurun xilaskarı, Ali Baş Komandan kimi Azərbaycan dövlətini də, Azərbaycan Ordusunu da, Azərbaycan xalqını da müzəffər edən tarixi şəxsiyyət olaraq öz adınızı tarixə qızıl hərflərlə yazdırdınız.

Prezident İlham Əliyev: Sağ olun.

Sakin: İyirmi birinci əsrdə indiyədək görünməmiş tarixi möcüzə yaratdınız. Bu Qələbənin müəllifi, memarı özünüzsünüz. Ona görə də biz hamımız, bütün Azərbaycan xalqı Sizi çox istəyir və qəlbən sevir.

Prezident İlham Əliyev: Sağ olun. Bu, hamımızın qələbəsidir, Azərbaycan xalqının qələbəsidir. Çünki xalqımız işğal dövründə əyilmədi, vəziyyətlə barışmadı, öz doğma torpaqlarını unutmadı. Hətta bu torpaqları görməyən gənclər də bu torpaqların azad edilməsi eşqi ilə yaşamışlar və ölümə gedən də məhz onlar oldu. Birinci sırada gedən məhz o uşaqlar idi ki, işğaldan sonra dünyaya gəliblər və bəlkə də işğal dövründə onların 5-10 yaşı var idi. Yəni, bu, onu göstərir ki, xalqımız müqəddəs Zəfər gününü gözləyirdi, bütün çətinliklərə, əzab-əziyyətlərə baxmayaraq, bu günü gözləyirdi və inanırdı ki, bu gün gələcək və biz də, sadəcə olaraq, bütün xalqımızı səfərbər etmək, gəncləri vətənpərvərlik ruhunda tərbiyə etmək üçün səylər göstərdik. Əlbəttə ki, ordumuzu gücləndirdik, iqtisadiyyatı gücləndirdik, beynəlxalq mövqelərimizi genişləndirdik və istədiyimizə nail olduq, tarixi ədalətə nail olduq. Bu gün sizinlə bərabər buradayıq. Mən dördüncü dəfədir ki, Zəngilana gəlirəm. Dekabr ayında gəlmişdim, o vaxt vəziyyətlə tanış olduq. Ondan sonra fevral ayında gəlmişdim, o vaxt ermənilər tərəfindən bir çox hissəsi dağıdılmış Bəsitçay qoruğunda çinar ağacları əkdik. Aprel ayında gələndə hava limanının təməli qoyuldu. İndi oraya baş çəkdim, artıq zolağın torpaq işləri hazırlanır. Bilirsiniz ki, sovet vaxtında Zəngilanda hava limanı yox idi. Amma indi nəinki hava limanı, beynəlxalq hava limanı olacaq və Zəngilan ölkəmizin nəqliyyat-logistika mərkəzinə çevriləcək. Çünki Zəngəzur dəhlizi buradan keçir, dəmir yolu, Horadiz-Ağbənd avtomobil yolu tikilir. Zəngəzur dəhlizinin açılması ilə bağlı son hadisələr onu göstərir ki, istədiyimizə nail oluruq. Birinci mərhələdə Ermənistan tərəfi müqavimət göstərsə də, indi özləri artıq buna razılaşıblar. Burada, əlbəttə ki, yumşaq desək, bizim rolumuz az deyil. Ona görə artıq avtomobil yolunun açılışı məsələsi həll olunur, dəmir yolu məsələsi həll olunur. Bu gün Moskvada Azərbaycan, Rusiya, Ermənistan baş nazirlərinin müavinləri növbəti dəfə görüşəcəklər və bizim mövqeyimiz orada bir daha səslənəcək. Beləliklə, Zəngilanda müasir logistika-nəqliyyat mərkəzi, yük təyyarələri, sərnişin təyyarələri, dəmir yolu qovşağı, avtomobil yolları - bütün infrastruktur qurulacaq, paralel olaraq təbiətin qorunması, çayların qorunması. Bilirsiniz ki, Oxçuçayı ermənilər nə günə qoymuşlar. Oxçuçay təbii fəlakət zonasıdır. Oradan götürülən analizlər göstərir ki, zəhərli maddələrin həcmi normadan bəlkə də 10 dəfə, 20 dəfə artıqdır. Biz bu çayları təmizləyəcəyik və burada dağ-mədən sənayesi inkişaf edəcək. Vejnəli qızıl yatağını ermənilər xarici şirkətlərlə birlikdə qanunsuz olaraq istismar edirdilər. O xarici şirkətlərin məhkəməyə verilməsi prosesinə start verdik, yaxın gələcəkdə eşidəcəksiniz. Onların bu işdən boyun qaçırmaq cəhdləri demək olar ki, imkansızdır. Çünki hər şey göz qabağındadır. Başqa ölkənin ərazisində qanunsuz işlər görüb, buradan qızılı qanunsuz olaraq daşıyıb və dünya bazarlarında satıb. Biz onlarla əlbir olanları da məsuliyyətə cəlb edəcəyik. Beynəlxalq hüquqşünasları da cəlb etdik.

Artıq turizm, kənd təsərrüfatı, nəqliyyat, logistika, ətraf mühitin qorunması və əlbəttə ki, insanlar üçün şəraitin yaradılması istiqamətində işlər görülür. İndi Ağalı kəndi inşa edilir, Zəngilan şəhərinin baş planı təsdiq olunandan sonra burada da inşaat işlərinə start verəcəyik. Zəngilan ölkə üzrə çox müasir və böyük əhəmiyyətə malik olan bölgəyə çevriləcəkdir. Şübhəm yoxdur, bunu sizinlə birlikdə edəcəyik və sizin də məsləhətinizə ehtiyac olacaq. Ona görə ki, baş plan təqdim olunandan sonra gərək ictimaiyyət də öz fikrini desin. Çünki siz - burada yaşamış insanlar yaxşı bilirsiniz, harada nə olub. Yəqin ki, siz də bu dağıntıları görüb yadınıza salırsınız ki, burada nə olub.

Sakin: Cənab Prezident, xatırlamasam, günah olar, bizim Zəngilan rayonunun ərazisində böyük Mincivan stansiyası yerləşirdi. Sovetlər dönəmində oraya hansı qatarlar gəlmirdi - Bakı-Qafan, Bakı-Noraşen, Bakı-Mincivan. O qatarlar bizim arzularımız idi. Bu yerlərin, yurdların insanları öz vaxtını, zamanının ölçüsünü o qatarların hərəkət qrafiki ilə qururdular. İndi Siz Azərbaycanın dəmir yollarını Zəngəzura və dünyaya açırsınız. Tezliklə o yollarla böyük qatarlar gələcək. Bu qatarlar Azərbaycanı dünya ilə qovuşduracaq. Bu da Sizin böyük quruculuq əzminizdən xəbər verir.

Prezident İlham Əliyev: Mən birinci dəfə gələndə Mincivana getdim, orada dəmir yolu stansiyasının önündə Azərbaycan xalqına müraciət etdim. Orada demək olar ki, hər şey dağıdılıb. Bir şey yoxdur, dəmir yollarını onlar çoxdan daşıyıb aparmışdılar. O relslərdən tank əleyhinə istehkamlar qurmuşdular. Stansiyanın binası da tamamilə dağılmış vəziyyətdə idi.

Sakin: Cənab Prezident, Siz Mehriban xanımla qoşa qanad kimi Azərbaycanın bütün kəndlərini, Zəngəzuru, Qarabağı diyar-diyar gəzmisiniz, qarış-qarış gəzib ziyarət etmisiniz. Ən vacibi nədir? Siz o kəndləri, toponimlərin qədim adlarını bilirsiniz, bərpa edirsiniz, onları bizə öyrədirsiniz, həm də tarixi ədaləti bərpa edirsiniz. Bu, çox vacib amildir. Çünki bizim tariximizdə bunlar unudulmuş məqamlardır. Biz bunları bərpa etməliyik. Ona görə də biz Sizə böyük minnətdarlığımızı bildiririk.

Prezident İlham Əliyev: Çox sağ olun, buradan Naxçıvana yol açılacaq. Oradan da Türkiyəyə, oradan da Avropaya.

Əməkdar artist Almaz Orucova: İcazə verin, mən dayandığımız bu torpağın müqəddəsliyini, şərəfini, qürurunu, dünyada başımızın ucalığını bizə təqdim etdiyiniz üçün Sizə dərin, sonsuz minnətdarlığımı çatdırım.

Prezident İlham Əliyev: Sağ olun.

Almaz Orucova: Bir az əvvəl mən doğma ocağıma getdim.

Prezident İlham Əliyev: Haradadır, sizin eviniz burada idi?

Almaz Orucova: Bəli, bir az qabağa gedib sola çıxırsan, bizim evimizdir.

Prezident İlham Əliyev: Ev qalıb, yoxsa dağıdılıb?

Almaz Orucova: Heç nə qalmayıb, bir az yeri qalıb, daş qalıb. O doğma hissləri, o şirin hissləri, o xatirələri yaşamağı heç nə ilə əvəz edə bilmərəm. Siz bizim başımızı dünyada uca etdiniz. Azərbaycan Ordusunun, Azərbaycan xalqının dəyərli bir sərkərdəsinin olduğunu göstərdiniz. Var olun, sağ olun. Varlığınızla, sağlığınızla hər zaman bu xalqın, bu Ordunun başında olasınız.

Sakin: Cənab Prezident, Elnur mənə dedi ki, kamançanı gətirməmişik. Mehriban xanım, dedim ki, kamançasız Zəngilana gəlmək olmaz.

Əməkdar artist Elnur Əhmədov: Doğma Zəngilan torpağında Sizi salamlayıram, Mehriban xanımı ürəkdən salamlayıram. Mən bu torpaqda dünyaya göz açmışam, məhz daşıyıcısı olduğum bu sənəti Zəngilan rayonunun Məmmədbəyli kəndində sevmişəm. Allah Sizləri var eləsin. Mehriban xanıma mən məxsusi təşəkkürümü bildirirəm ki, bizim muğamımızın dünyaya inteqrasiya olunmasında məxsusi xidmətləri var.

Cənab Prezident, biz "Qarabağ" muğam qrupu olaraq xanəndə, Xalq artisti Mənsum İbrahimov, sənət dostlarım Elçin Həşimov və Kamran Kərimov ilə birgə dünyanın demək olar, elə bir ölkəsi yoxdur ki, orada konsert proqramı ilə çıxış etməyək. Amma hər birimizin böyük arzumuz, bizim üçün dünyanın ən böyük səhnəsi Siz başda olmaqla, Mehriban xanım başda olmaqla Şuşada Cıdır düzündə keçirilən "Xarıbülbül" festivalı idi. Çünki bizim üçün ondan böyük, şərəfli gün yox idi. Cənab Prezident, hörmətli Mehriban xanım, mənim ən böyük arzum o idi ki, anadan olduğum o kənddə, uçuq da olsa, o evdə kamançamın səsi gəlsin.

Sakin: Kamançanın səsi gəlsin.

Elnur Əhmədov: O şəraiti bizə yaratdığınıza görə Sizə dərin təşəkkürümü bildirirəm.

Almaz Orucova Elnur Əhmədovun müşayiəti ilə muğam ifa edir.

Sakinlər: Sağ olun.

Almaz Orucova: Çox sağ olun, Mehriban xanım.

Prezident İlham Əliyev: Salam, necəsiniz? Bu kişini tanıyırsan, Mehriban?

Birinci xanım Mehriban Əliyeva: Salam, necəsiniz? Şəhriyar Məmmədyarovun atasıdır?

Prezident İlham Əliyev: Şəhriyar Məmmədyarovun atasıdır.

Birinci xanım Mehriban Əliyeva: Xoş gördük.

Prezident İlham Əliyev: Şəhriyar necədir?

Həmid Məmmədyarov: Çox sağ olun. Hər şey gözəldir, sağ olun.

Prezident İlham Əliyev: Sağ ol.

Sakin: Cənab Prezident, mən də təşəkkür edirəm. Biz 27 il idi ki, həmişə oktyabrın 30-u dost-tanışla müzakirə edirdik ki, Zəngilanın işğalı günü gəlir, nə edək, nə tədbir keçirək? Daim o qəmi, qüssəni yaşayırdıq. Sağ olun ki, biz bu gün artıq Zəngilanın işğaldan azad olunmasının bir illiyini qeyd edirik. Siz az öncə qeyd etdiniz ki, Zəngilan böyük nəqliyyat dəhlizinə çevrilir və bu, bölgənin inkişafına çox böyük təsir göstərəcək. Dünyanın super gücləri bu gün nəqliyyat dəhlizləri uğrunda mübarizə aparırlar. Siz böyük işlərə imza atmısınız. Bütün zəngilanlılar, bütün Azərbaycan bu işdə Sizə uğurlar arzulayır. Biz Sizi həmişə dəstəkləyirik, yanınızdayıq. Uğurlar arzulayırıq. Sağ olun.

Prezident İlham Əliyev: Sağ olun. İşğal tarixi artıq tarixdə qaldı, əbədi silindi. İndi yeni tarix var - 20 oktyabr tarixi.

Sakin: Əsas məsələ də odur. Bu gün Zəngilanın azad olunan günüdür, cənab Prezident. Zəngilana ən böyük payınız, ən böyük ərməğanınız budur. Sağ olun.

Sakin: Cənab Prezident, mən də Zəngilan gəncləri və idmançıları adından Sizə dərin təşəkkürümü bildirirəm ki, bizi görmədiyimiz bu ata-baba yurdumuza gətirib çıxardınız. Allah Sizə bu işlərinizdə kömək olsun, var olun.

Professor Adilə Abbasova: Cənab Prezident, Sizə çox böyük minnətdarlığımızı bildiririk. Bu gözəl diyarda, Odlar Yurdu Azərbaycanımızın dilbər guşəsi olan Zəngilanda, qızıl Zəngilanda, azad Zəngilanda, zəngin Zəngilandayıq. Bu hissləri Siz bizə yaşatdınız. Biz bu dəqiqə Sizə qürurla baxırıq, Sizinlə danışırıq,

söhbət edirik. Çox həyəcanlıyıq. Allah bizə bunu qismət etdi. Mən Sizə bütün zəngilanlılar adından minnətdarlığımı bildirirəm. Cənab Prezident, Siz Azərbaycan xalqının bütün arzularını yerinə yetirən böyük şəxsiyyətsiniz. Siz böyük, Müzəffər Sərkərdəsiniz. Dünyanın heç bir yerində Sizin kimi dövlət xadimi görməmişik. Siz 44 günlük Vətən müharibəsi ərzində Qarabağ məsələsinin mümkünsüzlüyünü mümkün etdiniz. Siz Azərbaycanın Zəfər tarixinə adınızı əbədi yazdınız. İndi bizim nəsildən qalanlardan biri mənəm. Atam da Zəngilan rayonunda çox işləyib, 14 il icraiyyə komitəsinin sədri olub. Demək istəyirəm ki, uşaqlıq illərim burada keçib. Siz Zəngilanı bütün dünyaya tanıtdınız. Ulu Öndər Sizin haqqınızda belə deyirdi: "Mən ona özüm qədər inanıram və onun gələcəyinə çox böyük ümid bəsləyirəm". Siz hər bir azərbaycanlının Prezidentisiniz. Ata vəsiyyətini yerinə yetirdiniz, Azərbaycan xalqının başını uca etdiniz, Azərbaycanı qalib dövlətə çevirdiniz.

Prezident İlham Əliyev: Çox sağ olun, çox təşəkkür edirəm.

Adilə Abbasova: Bu haqda çox fikirləşmişəm, mənə elə gəlir, dünyada elə bir dövlət xadimi yoxdur ki, Sizin kimi 44 gün ərzində belə bir Zəfər əldə etsin. Ona görə Siz dünyanın ən böyük mükafatına layiqsiniz. Sizə çox minnətdarıq.

Prezident İlham Əliyev: Çox sağ olun. Biz hələ Moskvadan bir-birimizi tanıyırıq. O vaxt azərbaycanlıların vətəndaş cəmiyyətində, Azərbaycan Assambleyasında bərabər iştirak etmişik.

Adilə Abbasova: Sizin fəaliyyətinizi mən hələ Moskvadan bilirəm, çox görmüşəm, eşitmişəm. Mənim yadımdadır, o cəmiyyət yaradılanda Ulu Öndər onunla maraqlanırdı. Azərbaycanlıların qurultayı keçirildi.

Demək istəyirəm ki, Sizin Azərbaycana bəxş etdiyiniz bu hisslər, bu sevinc xüsusi qeyd olunmalıdır. Mən ürəkdən danışan adamam, bəlkə də bir az həyəcanla danışıram. Amma ürəkdən danışıram. Cənab Prezident, Sizi bütün Azərbaycan xalqı ürəkdən sevir. Siz dünyanın ən böyük mükafatına layiqsiniz.

Prezident İlham Əliyev: Çox sağ olun. Ən böyük mükafatım bu gün burada Sizinlə bərabər olmağımdır.

Adilə Abbasova: Azərbaycan xalqının milli qüruruna çevrilən bir ifadə var: Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan! Eşq olsun, eşq olsun!

Prezident İlham Əliyev: Azərbaycan xalqına eşq olsun!.

Adilə Abbasova: Eşq olsun Azərbaycan xalqına! Eşq olsun Ali Baş Komandanımız, Prezidentimiz İlham Əliyevə!

Prezident İlham Əliyev: Sağ olun. Çox sağ olun.

Sakin: Cənab Prezident, Vətən Müharibəsi Qəhrəmanı şəhid Surxay Noçuyevin atasıdır. Siz ona fəxri ad vermisiniz.

Şəhid atası Əbdül Noçuyev: 44 günlük müharibə dövründə Sizin xalqa müraciətlərinizi mütəmadi olaraq izləmişik. Hər dəfə işğaldan azad olunan ərazilərin adları sadalandıqca bizim sevincimizin həddi-hüdudu olmayıb. Mənim oğlum, tabor komandiri, kapitan Surxay Noçuyev Şuşa uğrunda gedən döyüşlərdə müharibənin 44-cü günündə qəhrəmancasına şəhid oldu.

Prezident İlham Əliyev: Allah rəhmət eləsin.

Əbdül Noçuyev: Siz müvafiq Sərəncamınızla ona Vətən Müharibəsi Qəhrəmanı adı verdiniz. Buna görə Sizə minnətdarlığımızı bildiririk. 2021-ci il sentyabrın 27-də Sizin və Mehriban xanımın iştirakı ilə yürüş keçirildi. Orada Surxay Noçuyevin şəkli həkk olunmuş lövhə ön cərgədə idi. Həmin lövhəni Sizin göstərişinizlə bizim ailəyə təqdim etdilər. Bu, bizim ailəmiz üçün ən böyük hədiyyə oldu. Çox sağ olun, cənab Prezident.

Prezident İlham Əliyev: Sağ olun. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz torpaqlarımızı onların canı-qanı bahasına işğalçılardan azad etmişik. Şəhid olmuş hər bir insan, gənc bizim ürəyimizdə, Azərbaycan xalqının ürəyində əbədi yaşayacaq. Şəhidlərin adlarının əbədiləşdirilməsi üçün əməli işlər gedir, bundan sonra da gedəcək. Anım Günündə təşkil olunan yürüş bütün Azərbaycan xalqının birliyini göstərdi, şəhidlərimizin xatirəsinə olan hörmətimizi göstərdi. Yürüşdə aparılan portretlər mənim göstərişimlə gözəl bir xatirə kimi şəhid ailələrinə təqdim edildi. Çünki onlar bizimlə olmasalar da, bu Zəfər yürüşünə bizimlə bərabər çıxıblar. Yəni, bütün Azərbaycan o gün orada idi. Onların ruhu bu gün şaddır. Onlar az yaşayıblar, dünyadan gənc gediblər, şəhid olaraq gediblər. Amma onlar hər zaman ürəyimizdə yaşayacaqlar. Sizin simanızda onların valideynlərinə mən Prezident, Ali Baş Komandan kimi öz təşəkkürümü bildirmək istəyirəm. Çünki doğrudan da bizim şəhidlərimiz şüurlu şəkildə ölümə gedirdilər. Hamımız yaxşı bilirik ki, ağır döyüşlərdə o istehkamları yarmaq, oradan keçmək, dağlara qalxmaq, dağlara dırmaşmaq, xüsusilə Şuşa əməliyyatı tarixdə bəlkə də misli görünməmiş qəhrəmanlıq nümunəsidir. Bunu ancaq milli ruhda böyüyən insanlar edə bilərdilər. Sizin kimi valideynlər onları milli ruhda böyüdüb Vətənə bəxş etdiniz. Onlar da öz həyatlarını Vətənə bəxş etdilər. Mən sizi ürəkdən təbrik edirəm, təşəkkürümü bildirirəm və qucaqlayıram, bağrıma basıram.

Əbdül Noçuyev: Çox sağ olun, cənab Prezident.

Sakin: Cənab Prezident, biz orta məktəbdə oxuyanda Zəngilanda xoş bir ənənə var idi. Biz bu dağlara, təbiətin bu gözəl guşələrinə çaylardan çınqıllar yığıb gətirərdik. Orada o çınqıllardan ürək sözlərimizi, Vətənlə bağlı sözlərimizi yazardıq. Yeni tarixi Siz diktə etdiniz, yeni tarixin müəllifisiniz. Ona görə Zəngilanda tikiləcək məktəbin şagirdləri, bugünkü müasir tariximizə, Zəfər tariximizə şahidlik edən gənclərimiz yenidən çınqıllar və daşlar daşıyıb bu təpələrdə Azərbaycanın əzəmətlə dalğalanan o bayraqlarının altında Azərbaycanın xəritəsini çəkəcək və yeni sözlər yazacaqlar. Yazacaqlar "Qarabağ Azərbaycandır!". Bu yurdların xilaskarına eşq olsun! Böyük Qayıdışımız mübarək, cənab Prezident!

Prezident İlham Əliyev: Bu gün yarımstansiyanın da açılışını etdik. Mənə məlumat verildi ki, sovet vaxtında Zəngilan rayonunun ümumi enerji tələbatı cəmi 7 meqavat idi, çünki əhali o qədər də çox deyildi. İndi isə biz gələcək inkişafı nəzərə almaq şərti ilə yarımstansiyanı 50 meqavatlıq etdik. Bir də ki, əhali artıb. İşğala qədər Zəngilan rayonunun əhalisi təqribən 30 mindən bir qədər çox idi. İndi 45 minə çatıb və əminəm ki, zəngilanlıların hamısı gəlib burada, belə bir gözəl yerdə, doğma vətəndə yerləşəcək.

Sakin: Təşəkkür edirik, cənab Prezident.

Prezident İlham Əliyev: Biz indi məscidi də bərpa edirik.

Axund: Bu məsciddə axund işləmişəm. Mehriban xanıma da təşəkkür edirik. Bu xoş günləri bizə yaşatdığınıza görə Sizə bir daha təşəkkür edirəm. Əslində, Siz bizə ikinci dəfə Zəngilanda yaşamağı qismət edibsiniz. Cənab Prezident, Sizə bütün Zəngilan camaatı adından təşəkkür edirəm.

Birinci xanım Mehriban Əliyeva: Çox sağ olun.

Prezident İlham Əliyev: Çox sağ ol. Heydər Əliyev Fondu məscidin bərpası ilə məşğuldur, artıq orada lövhələr də qoyulub. Biz də burada olanda simvolik olaraq təməl daşını da qoyduq. Onu da bərpa edəcəyik.

Birinci xanım Mehriban Əliyeva: O qalan hissəni.

Prezident İlham Əliyev: Bəli, qədimdən qalan o hissəni bərpa edəcəyik. Mənə dedilər ki, sovet vaxtında ora klub idi, ya da anbar.

Sakin: Ora bizim kəndimizin meşəsidir. Azərbaycanın böyük münbit meşələrindən biridir.

Prezident İlham Əliyev: Sizin kəndiniz buradadır?

Sakin: Bəli, Vənədli kəndi, aşağıdadır. Bütün ağacları qırıblar - cökə, palıd, vələs, ulas. Tarixin çox məşhur ağacları olan böyük meşələrdən biri olub.

Prezident İlham Əliyev: Kəsib daşıyıblar ağacları. Biz Bəsitçayda olanda gördük ki, hətta kötükləri yandırıblar. Kəsiblər ağacları, yandırıblar. Bəsitçay qoruğunun bir hissəsi qalıb, ora 100 hektardan böyük bir ərazi idi.

Sakin: Bəli, dövlət qoruğu olub əvvəllər.

Prezident İlham Əliyev: Bəli, Siz də dediniz, Avropada birinci çinar meşəsidir.

Sakin: Cənab Prezident, Ali Baş Komandan, Sərkərdə kimi 44 günü nə qədər narahat keçirdiniz. Dünyanın bu vaxtında belə qərar qəbul etmək, savaşı bu cür Zəfərlə başa çatdırmaq, bunları belə peşəkarlıqla idarə etmək Sizin əsl Liderliyinizdən xəbər verir. Cənab Prezident çox sağ olun, çox minnətdarıq.

Prezident İlham Əliyev: Siz sağ olun.

Sakin: Zəngilan azad olunan gün zəngilanlıları bu ocağa topladınız. Çox sağ olun, minnətdarıq.

Prezident İlham Əliyev: Çox sağ olun.

Sakin: Tarix unudulmur.

Prezident İlham Əliyev: Tarixi gündür. Tarix həmişə olacaq. 20 oktyabr həm zəngilanlılar üçün, həm bütün xalqımız üçün əbədi bir Zəfər günü kimi qalacaq. Çünki azad edilmiş hər bir şəhərin azad olunma günü tarixi Zəfər günüdür.

Sakinlər: Cənab Prezident, Mehriban xanım, gün o gün olsun ki, Sizi abad Zəngilanda qarşılaya bilək. Sizə uğurlar arzu edirik. Qədəmləriniz uğurlu olsun. Çox sağ olun, İnşallah, abad Zəngilanda gözləyəcəyik.

Birinci xanım Mehriban Əliyeva: İnşallah. Allah amanında. Sağ olun.

Prezident İlham Əliyev: Bir daha təbrik edirəm.

Sakinlər: Sağ olun, hər şeyə görə sağ olun.

## *Qubadlı rayonuna səfər*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayonunda səfərdə olublar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində iştirak ediblər.

Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına və birinci xanıma Şərqi Zəngəzur iqtisadi rayonunda tikintisi aparılan avtomobil yolları barədə məlumat verdi.

Bildirildi ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində Prezident İlham Əliyevin tapşırığı ilə icra olunan və işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri də Xudafərin-Laçın yoludur. Başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürən bu yolun uzunluğu 56,4 kilometrdir. Qubadlı-Eyvazlı avtomobil yolunun uzunluğu 26 kilometr, eni 7 metr olacaq. Qubadlı-Xınzirək avtomobil yolunun uzunluğu 23,5 kilometr olacaq. Hər iki yol iki hərəkət zolaqlı inşa edilir.

Bu yollar Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində tikilir. Xudafərin-Laçın avtomobil yolunun Xanlıq yaşayış məntəqəsindən ayrılaraq Qubadlı şəhərinə qədər 14 kilometr uzunluğunda yeni avtomobil yolu inşa ediləcək. Prezident İlham Əliyevin tapşırığına əsasən, Qarabağın inkişaf planı nəzərə alınmaqla Xudafərin-Laçın və Xanlıq-Qubadlı avtomobil yolları dörd hərəkət zolaqlı olacaq. Yeni inşa olunan yollar işğaldan azad edilmiş

Zəngilan, Qubadlı və Laçın rayonlarının ərazisindən keçir. Avtomobil yolu Qubadlı və Laçın şəhərləri də daxil olmaqla, bu rayonların 30-dan çox yaşayış məntəqəsini əhatə edir.

Dövlətimizin başçısı Xanlıq-Qubadlı yolunun təməlini qoydu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də sistem əhəmiyyətli 110/35/10 kV-luq "Qubadlı" yarımstansiyasının açılışında iştirak ediblər.

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya yarımstansiya barədə məlumat verdi.

Bildirildi ki, yarımstansiyanın tikintisi ilə paralel olaraq Qubadlının Azərbaycanın ümumi enerji sisteminə qoşulması, rayonun dayanıqlı elektrik enerjisi ilə təchiz edilməsi üçün Füzulidəki "Şükürbəyli" yarımstansiyasından "Cəbrayıl" yarımstansiyasına giriş-çıxış olmaqla 76 kilometr məsafədə ikidövrəli 110 kV-luq yüksəkgərginlikli "Qubadlı-1", "Qubadlı-2" elektrik verilişi xətti çəkilib. 150-160 MVt gücötürmə qabiliyyətinə malik yeni xətt layihələndirilərkən rayon üçün səciyyəvi iqlim parametrləri – buzlaşma, küləyin maksimal sürəti, qarın qalınlığı, çirklənmə və başqa amillər, o cümlədən baş verə biləcək qəza hallarının qarşısının alınması, lokallaşdırılması üçün zəruri sistem yaradılıb.

Yeni çəkilən xətt boyunca ildırımdan mühafizə və yarımstansiyalararası informasiya mübadiləsi, internet üçün fiberoptik kabel çəkilib və bununla da Qubadlıya təkcə elektrik xətti deyil, həm də ən yüksək ötürücülük qabiliyyətinə malik sürətli internet xətti gətirilib. İldırımötürücü xəttin içərisində keyfiyyətli internet şəbəkəsi, o cümlədən SCADA dispetçer idarəetmə sistemi informasiyalarının, proqram təminatının, televiziya, telefon, rabitə, müşahidə kamera, canlı bağlantı, mərkəzləşdirilmiş arxiv şəbəkəsinin və başqa məlumatların sinxronlaşdırılması həyata keçirilib. Bu günə qədər "Azərenerji" ASC tərəfindən Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan və Qubadlıda 110 kV-luq yeni yarımstansiyalar tikilib. Bütün yarımstansiyalara çəkilən elektrik xətlərində ildırımdan mühafizə və yarımstansiyalararası siqnal mübadiləsi üçün fiberoptik kabellər quraşdırılıb. Beləliklə, işğaldan azad edilmiş ərazilərin 80 faizi Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, elektrik xətləri üzərindəki optik kabellər vasitəsilə yarımstansiya və rayonlardakı lazımi strukturlar internetlə təmin edilib. İşğaldan azad edilən digər rayonlardakı yarımstansiyalarda olduğu kimi, Qubadlıda da Dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerjisistem şəbəkəsi konsepsiyası həyata keçirilərək müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış yarımstansiya yaradılıb.

Dövlətimizin başçısı yarımstansiyanı işə saldı.

Məlumat verildi ki, yarımstansiyanın rəqəmsal idarə edilməsinin prioriteti olan iki əsas məsələ - rəqəmsallaşmaya inteqrə olunan avadanlıqların təmin olunması və idarəetmə üçün informasiya mübadiləsi və aktivlərin onlayn müşahidəsinə imkan verən fiberoptik kabel şəbəkəsinin yaradılması məsələləri həllini tapıb.

"Qubadlı" yarımstansiyasının işçi personalı üçün təhlükəsiz və rahat iş şəraitinin yaradılması məqsədilə müasir texnologiyalar əsasında yeni İdarəetmə Mərkəzi tikilib. Yarımstansiyada iki ədəd 25 MVA gücündə transformator quraşdırılıb. Yarımstansiyanın idarəetmə sistemi müasir tələblərə cavab verən Micro SCADA sistemi yaradılmaqla "Azərenerji"nin mərkəzi SCADA sistemi ilə əlaqələndirilərək birbaşa mərkəzdən idarə edilməsi təmin olunub.

Qeyd edək ki, işğala qədər 38 min nəfərdən çox əhalisi olan, sənaye və digər təsərrüfat sahələri üzrə Qubadlı rayonunun ümumi tələbatı 12 MVt olmaqla bir ədəd 110 kV-luq yarımstansiyadan qidalanıb. 47 mindən çox əhalinin məskunlaşması proqnozlaşdırılan Qubadlıda inkişaf istiqamətləri nəzərə alınmaqla 2040-cı il üçün elektrik enerjisi tələbatının 38 MVt-dan artıq olacağı gözlənilir. Yeni "Qubadlı" yarımstansiyası tikilərkən bu amil nəzərə alınıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışında iştirak ediblər.

Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya kompleksdə yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilərdə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə fəaliyyətlər davam etdirilir. Azərbaycan Respublikasının Ermənistanla dövlət sərhədinin Qubadlı və Laçın rayonları ərazisindən keçən hissəsinin mühafizəsini təmin edən Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin ərazisi 25 hektardır. Kompleksin döyüş texnikası parkında helikopterlər, "HAROP", "Quzğun" və "Qırğı" zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar və idarə olunan raketlər, 120 və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri mövcuddur. Bununla yanaşı, hərbi hissənin istifadəsində döyüş texnikaları, yüksəkkeçidli nəqliyyat vasitələri, zirehli və avtomobil texnikası, tibb avtomobilləri var.

Qeyd edildi ki, hərbi hissə kompleksində qərargah binası, zabit-gizir və əsgər yataqxanaları, şəxsi heyət üçün lazımi şəraitlə təmin edilmiş iş otaqları, yeməkxana, yaşayış binaları, anbarlar və digər zəruri infrastruktur yaradılıb. Kompleksdə hərbi qulluqçuların

peşəkar və döyüş qabiliyyətlərinin yüksəldilməsi, şəxsi heyətin hərbi biliklərinin və mənəvi-psixoloji hazırlığının təkmilləşdirilməsi üçün zəruri xidməti və təlim-tədris bazası formalaşdırılıb. Tibb məntəqəsində hərbi qulluqçulara lazımi tibbi xidmətin göstərilməsi məqsədilə zəruri şərait var. Hərbi hissənin poliqonunda təlim məşğələlərinin təşkili və keçirilməsi, hərbi qulluqçuların döyüşə hazırlığının və fərdi məharətlərinin yüksəldilməsi, hərbi bölmələr arasında qarşılıqlı əlaqələrin işlənilməsi və birgə döyüş qabiliyyətlərinin artırılması üçün zəruri baza yaradılıb. İdman şəhərciyində futbol və voleybol meydançaları, həmçinin kazarmalarda müasir standartlara uyğun idman avadanlığı və alətləri ilə təchiz olunmuş məşq zalları təşkil edilib.

Kinoloji təlim şəhərciyində işğaldan azad olunmuş ərazilərdə minaların və partlamamış sursatların axtarışına və aşkarlanmasına cəlb olunan xidməti itlərin hazırlanması, vərdişlərinin təkmilləşdirilməsi, xidməti it təlimatçılarının peşəkar hazırlığının inkişaf etdirilməsi üçün imkanlar mövcuddur.

Hərbi hissə kompleksi istilik sistemi, daimi su və elektrik enerjisi ilə təmin edilib. Ərazidə əsaslı tikinti-abadlıq işləri həyata keçirilib, geniş yaşıllıq zolaqları salınıb.

Beləliklə, bu hərbi hissədə xidmətin yüksək səviyyədə aparılması, şəxsi heyətin döyüş qabiliyyətinin təkmilləşdirilməsi, peşəkar vərdişlərinin daha da inkişaf etdirilməsi üçün hərtərəfli şərait yaradılıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

Rayon ictimaiyyətinin nümayəndələrini salamlayan Prezident İlham Əliyev dedi:

Salam, xoş gördük.

Sakinlər: Salam.

Mehriban xanım Əliyeva: Salam, xoş gördük.

Prezident İlham Əliyev: Mən bu gün Qubadlı rayon sakinlərini Qubadlıya dəvət etmişəm. Qubadlıya xoş gəlmisiniz. Bu gün Qubadlı rayonunun tarixində əlamətdar və tarixi bir gündür. Düz bir il bundan əvvəl müzəffər Azərbaycan Ordusu Qubadlını erməni işğalından azad etmişdir vəbundan sonra 25 oktyabr bizim tariximizdə əbədi Zəfər günü kimi qeyd ediləcək. Bu münasibətlə sizi və bütün qubadlıları, bütün Azərbaycan xalqını ürəkdən təbrik etmək istəyirəm.

25 oktyabr müharibənin gedişatında önəmli yer tutub. Çünki Qubadlı azad olunandan sonra Laçın istiqamətində yolumuz açıldı və bir neçə gündən sonra biz Laçının cənub hissəsində yerləşən kəndləri də azad etdik. Beləliklə, Laçın dəhlizini nəzarətə götürdük və artıq müharibənin taleyi həll edilmişdi. Düzdür, Şuşa uğrunda şiddətli döyüşlər qabaqda idi, digər yaşayış məntəqələrimizin azad olunması ilə bağlı əməliyyat planları hazırlanırdı, ancaq artıq həm bütün dünya, həm də düşmən gördü ki, bizim qabağımızda heç bir qüvvə dayana bilməz. Biz Qubadlıdan sonra öz Zəfər yürüşümüzü, Zəfər missiyamızı şərəflə davam etdirdik və noyabrın 8-də Şuşada dövlət bayrağını ucaltdıq.

Hər bir yaşayış məntəqəsinin azad edilməsi tarixi hadisədir. İlk gündən başlayaraq müharibənin son gününə qədər Azərbaycan Silahlı Qüvvələri ancaq irəli gedirdi. Birinci gündə 4 kəndin azad edilməsi Azərbaycan xalqına çox böyük sevinc bəxş etdi. Uzun illərdən sonra bu Qələbə sevincini biz hamımız yaşadıq və o vaxt, əlbəttə, heç kim deyə bilməzdi müharibə nə qədər davam edəcək. Hətta noyabrın 8-də biz Şuşanı işğaldan azad edəndən sonra da mən şəxsən deyə bilməzdim müharibə nə qədər davam edəcək. Çünki bizim planlarımız işğalda olan bütün torpaqları azad etmək idi. Ancaq bilmirdik, düşmən nə vaxt təslim olacaq. Halbuki, müharibə zamanı mən dəfələrlə öz çıxışlarımda, xalqa müraciətlərimdə və xarici jurnalistlərə müsahibələrdə deyirdim ki, əgər düşmən bizə bizim torpağımızdan çıxması ilə bağlı tarix versə, biz müharibəni dayandırmağa hazırıq və bu sözə də əməl etdik. Bildiyiniz kimi, noyabrın 9-da artıq Ermənistan tərəfi də öz məğlubiyyətini qəbul edib, etiraf edib, bu məğlubiyyətlə barışıb və noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atdı. Biz isə Zəfər gününü məhz 8 Noyabr tarixində qeyd edirik. Çünki 8 noyabrda erməni ordusu artıq təslim olmuşdu.

Bu gün bu şanlı Qələbədən danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bizim şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, indiki nəsil və gələcək nəsillər həmişə şəhidlərimizlə fəxr edəcək. Onlardan biri bizim əzizimiz Şükür Həmidovdur. Qubadlı rayonunun sakini böyük qəhrəmanlıq göstərmiş və doğma rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Şükür Həmidov bizim ən istedadlı və cəsarətli hərbçilərimizdən biri idi. O, Aprel döyüşlərində böyük qəhrəmanlıq göstərmişdi. Məhz bu qəhrəmanlığa görə mən ona Milli Qəhrəman adını verdim və özüm də şəxsən onu bu mükafatla təltif etdim. Ondan sonrakeçmiş məcburi köçkünlərləilk görüş əsnasında onun atası Nəriman kişi ilə tanış oldum və bilmirdim ki, o, Şükürün atasıdır. Köçkünlər üçün salınmış bir şəhərciyin açılışında mənə dedi, mən də salamlarımı çatdırdım. Eşidəndə ki, bu günlərdə, bir neçə gün bundan əvvəl bir ili olub. Eşidəndə ki, Şükür həlak olub, bizim hamımızın ürəyi ağrıdı. Şükürün həlak olması bizim üçün böyük itkidir, onun ailəsi, onun yaxınları, atası üçün, hamımız üçün. Ona görə bu gün Qubadlının azad olunmasının birinci ildönümündə mən Şükürün əziz xatirəsini xüsusilə yad etmək istəyirəm. O, bütün hərbçilərimiz üçün, gənc nəsil üçün nümunədir, öz canını doğma diyar uğrunda fəda edib və şəhadət zirvəsinə ucalıb. Şəhidlərimizin xatirəsi əbədiləşdirilir və əbədiləşdiriləcəkdir.

Azad edilmiş bütün şəhər-kəndlərimizdə bərpa işləri başa çatandan sonra şəhidlərimizin adına küçələr qoyulacaq, onların adı məktəblərə veriləcək. Artıq bu proses başlamışdır. Ölkəmizin müxtəlif bölgələrində, o cümlədən bu bölgədə - Qarabağ-Zəngəzur bölgəsində bütün bərpa işləri başa çatandan, küçələr salınandan, məktəblər tikiləndən sonra bu da olacaq. Ancaq görüləsi işlər çoxdur. Sizin bir çoxunuz ilk dəfədir ki, Zəfərdən sonra Qubadlıya səfər edirsiniz və görürsünüz ki, düşmən hər tərəfi dağıdıb. Qubadlı şəhəri demək olar ki, yerlə-yeksan edilib, bir salamat bina yoxdur. Sadəcə olaraq, erməni hərbçiləri öz məqsədləri üçün bir neçə binadan istifadə etmişdir, onlar da bərbad vəziyyətdə idi. Mən bura keçən il dekabr ayında gələndə gördüm ki, onlar da bərbad vəziyyətdədir. Ona görə də biz Qubadlı rayonunun bütün kəndlərini, o cümlədən Qubadlı şəhərini yenidən quracağıq. Qubadlı şəhərinin Baş planı hazırlanır və yəqin ki, yaxın aylarda təqdim ediləcək, o cümlədən Qubadlı ictimaiyyətinə təqdim ediləcəkdir. Əlbəttə ki, bu Baş plan ən müasir normalara uyğun olacaq və Qubadlının təbiəti və tarixi keçmişi də memarlıqda nəzərə alınacaq. Amma, eyni zamanda, artıq bu gün Qubadlı rayonunun gələcək inkişafı ilə bağlı əməli-praktiki işlər aparılır. Bu gün biz yeni yarımstansiyanın açılışını qeyd etdik və bu, azad edilmiş torpaqlarda yeddinci yarımstansiyadır. Bu infrastruktur layihəsi Qubadlının 2050-ci ilə qədərki inkişaf dinamikasını nəzərə alır.

Mənə verilən məlumata görə, sovet vaxtında Qubadlı rayonunun ümumi istehlakı 12 meqavat idi. Ancaq bu yarımstansiya 40 meqavata hesablanıb və lazım olarsa, onun gücü iki dəfə artırıla bilər. Yəni, biz Qubadlının gələcək inkişafını belə görürük. Sovet vaxtında, işğala qədər Qubadlı rayonunun əhalisi haradasa 28 min idi, indi mənə verilən məlumata görə əhali 40 minə çatıb.

Bütün kəndlər dağılıb, şəhər dağıdılıb, bir dənə də salamat kənd qalmayıb. Ona görə qubadlılıları buraya yerləşdirmək üçün əlbəttə ki, çox böyük işlər görüləcək. Burada infrastruktur işləri birinci sıradadır. İndi siz də gələndə gördünüz ki, çox geniş, dördzolaqlı yol çəkilir. Heç vaxt bu ölçüdə yol olmamışdır. Dar bir yol idi Zəngilandan Qubadlıya, Laçına. İndi biz Zəngilandan Qubadlıya, Laçına dördzolaqlı yol çəkirik ki, bu yoldan insanlar rahat istifadə etsinlər. Eyni zamanda, burada istehsal olunacaq məhsulları bazarlara vaxtlı-vaxtında, itkisiz çatdırmaq üçün imkan olsun.

Zəngilan hava limanı gələn il istifadəyə veriləcək. Zəngilan, Qubadlı faktiki olaraq bir zonadır, məsafə də çox böyük deyil. Ona görə qubadlılılar da bundan istifadə edəcəklər. Əlbəttə, Qubadlı rayonunun iqtisadi inkişaf planı ayrıca hazırlanmalıdır. Çünki infrastruktur layihələri təsdiq edilib. Sosial infrastrukturla bağlı Baş planda bütün məsələlər əhatə olunacaq - məktəblər, xəstəxanalar və digər sosial obyektlər, yaşayış binaları. Qubadlı şəhərində yaşayış binaları tikiləcək.

Sovet vaxtında daha çox fərdi evlər idi. Bir neçə beşmərtəbəli ev var idi. Bir-iki evin qalıqları qalıb. Ancaq Qubadlı şəhər kimi inkişaf etməlidir. Əlbəttə ki, düzgün planlaşdırma aparılarkən burada insanların rahat yaşaması üçün bütün şərait yaradılacaq. İqtisadi inkişafa gəldikdə, əlbəttə, rayon ictimaiyyəti də burada çox fəal iştirak etməlidir - həm bərpa işlərində, eyni zamanda, Qubadlının düzgün inkişaf konsepsiyasının işlənməsində. Çünki rayon böyük potensiala malikdir, zəngin təbiəti, təbii sərvətləri var. Qubadlı rayonu ərazisindən iki böyük çay keçir, Bazarçay düz şəhərin ortasından keçir. Həkəri çayı nəinki Qubadlının, bütün Azərbaycanın, bizim böyük sərvətimizdir. Çünki biz bu çaylardan məhrum idik. Həkəridən də, Bazarçaydan da, Bəsitçaydan da, Tərtər çayından da məhrum idik. Ermənilər bizi məhrum etmişdi. Bu, böyük sərvətdir. Özü də indiki şəraitdə ki, su resursları dünyada gələcəkdə əsas yəni, yaşayış üçün əsas resurs kimi artıq tanınır. Ona görə düzgün planlaşdırma aparılmalıdır, iqtisadi inkişaf, hansı sahələr inkişaf edəcək. Əlbəttə ki, biz bura yerli, xarici investorları cəlb edəcəyik. Yəni böyük planlarımız var, konseptual yanaşma mövcuddur. Ancaq bundan sonra dəqiq planlaşma aparılmalıdır və əminəm ki, Qubadlı sakinləri fəal iştirak edəcəklər.

Mən sizi bu gün dəvət etmişəm ki, bu tarixi günü birlikdə qeyd edək. Bu, doğrudan da Azərbaycanın tarixində əbədi yaşayacaq bir gündür. 25 Oktyabr – Zəfər günü, Qubadlının azad olunması günüdür. 27 ildən sonra biz işğala son qoyduq, düşməni öz torpağımızdan qovduq. Müzəffər Azərbaycan Ordusu öz şərəfli missiyasını şərəflə yerinə yetirdi. İkinci Qarabağ müharibəsi bizim gücümüzü göstərdi və milli ruhumuzu göstərdi. Göstərdi ki, biz heç vaxt o vəziyyətlə barışmaq fikrində deyildik. Əgər qubadlılılar digər keçmiş köçkünlər kimi, hər il böyük ürəkağrısı ilə işğal günündə yığışırdılarsa, bundan sonra artıq o tarix tamamilə silindi, ancaq 25 oktyabrda hamımız bayram edəcəyik. Sizi bir daha təbrik edirəm.

Milli Məclisin İqtisadi siyasət və sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili dedi: Salam cənab Prezident, hörmətli Mehriban xanım. Bu gün Qubadlı torpağında Sizinlə bir yerdə olmaq bizim üçün böyük şərəfdir, böyük sevincdir. Bu, bizim üçün böyük bir tarixi gündür. Siz bu torpaqları əsl sahiblərinə qaytardınız. Siz Qubadlını qubadlılılara qaytardınız. Bu gün də qubadlılıları Qubadlıya dəvət etməklə bizi çoxdankı ən böyük arzumuza çatdırdınız. Cənab Prezident, bu günləri bizə yaşatdığınıza görə Sizə öz ailələrimiz və bütün qubadlılılar adından dərin minnətdarlığımızı bildirirəm.

Möhtərəm Prezident, 1992-ci illərin əvvəllərində Azərbaycanda olan hakimiyyətsizlik, dövlətsizlik, satqınlıq və xəyanət nəticəsində biz çox böyük fəlakətlər yaşadıq. Bizim başımıza böyük bəlalar gəldi. Biz böyük bir insan faciəsi yaşadıq, Azərbaycanı itirmək təhlükəsi ilə üzbəüz qaldıq. Məhz ulu öndər Heydər Əliyevin

rəhbərliyi ilə biz Azərbaycanı xilas etdik. Onun şəxsən, təkbaşına cəsarəti və dühası hesabına bizVətənimizi itirməkdən xilas olduq. O, sağlam, möhkəm bir bünövrə qoydu və bugünkü güclü Azərbaycan dövləti Sizin rəhbərliyinizlə o bünövrənin üzərində qurulur.

Cənab Prezident, Siz və hörmətli Mehriban xanım yurd-yuvasından uzaq düşmüş insanların dərdini, acısını azaltmaq üçün hər şey etdiniz. Siz qaçqın şəhərciklərini ləğv etdiniz, Siz onlara ev tikdiniz, Siz onların övladlarını ali məktəblərdə oxutdunuz, Siz ad günlərinizi də bizlərlə qeyd etdiniz. Amma bütün bunlarla yanaşı, Siz bizim üçün ən böyük dəyər olan ümid və inam verdiniz. Bax, o ümidin və inamın əsasında yeni bir nəsil yetişdi və Müzəffər Ali Baş Komandan İlham Əliyevin bir əmri ilə 44 gündə düşməni darmadağın etdi. Düz bir il bundan öncə bizim durduğumuz bu torpaqlardan düşmən qovulurdu. Cənab Prezident, biz buna, əslində, 44 günlük müharibə desək də, amma Siz 17 il döyüşdünüz. Bu müharibə bir ildir dayansa da, Siz hələ də döyüşürsünüz. Əslində, mən bunu arzu etməzdim, amma hadisələr göstərir ki, biz Sizin rəhbərliyinizlə hələ çox döyüşməli olacağıq. Siz Qələbənin simvolusunuz, mən əminəm ki, biz hələ çox qələbələr qazanacağıq.

Cənab Prezident, bir iqtisadçı kimi, bir məsələni də qeyd etməyə bilməzdim, Sizin rəhbərliyinizlə bizim əldə etdiyimiz ən böyük uğurlarımızdan biri bizim iqtisadi müstəqilliyimizdir. Məhz Sizin verdiyiniz tapşırıqlar, həyata keçirilən iqtisadi islahatlar, o nəhəng, böyük iqtisadi layihələr bizə böyük iqtisadi imkanlar yaratdı. Bax, bu imkanlar hesabına Siz bir tərəfdən xalqın, insanların, bizim hamımızın sosial yaşayışı ilə bağlı çox böyük işlər gördünüz. Amma digər bir tərəfdən, biz ordu yaratdıq, silah aldıq, döyüşdük, qalib gəldik. Biz o qalibiyyəti saxladıq və bu gün yol boyunca gördük ki, çox böyük quruculuq işləri gedir. Ona görə əminik ki, bu iqtisadi imkanlarımız bundan sonra da artacaqdır. Biz Sizin rəhbərliyinizlə hələ çox uğurlara imza atacağıq. İnşallah, Qubadlı tikilsin, bizim hamımızın burada evlərimiz olsun. Tanrı Sizi və ailənizi qorusun. Sağ olun.

Prezident İlham Əliyev: Çox sağ olun, Qubadlının və digər azad edilmiş rayonların iqtisadi inkişafı ilə bağlı bir daha demək istəyirəm ki, bizim çox dəqiq planlarımız olmalıdır. Biz çox yaxşı təcrübə toplamışıq, regionların sosial-iqtisadi inkişafı dövlət proqramları uğurla icra edilir. Artıq bir neçə proqram icra edilmişdir və o təcrübədən faydalanaraq bu bölgədə, əlbəttə, çox düzgün planlaşdırma aparılmalıdır. Bir daha demək istəyirəm ki, infrastruktur layihələri ilə bağlı, evlərin tikintisi ilə bağlı, kəndlərin bərpası ilə bağlı artıq ilkin təkliflər var. Əsas budur ki, bura qayıdacaq insanlar yaxşı yaşasınlar, yəni, onların rifahı yüksək olsun. Bunun üçün də əlbəttə ki, şərait yaradılacaq, amma onların məşğul olacağı sahələr düzgün müəyyən edilməlidir. Bu məqsədlərə çatmaq üçün atılacaq addımlar düzgün qoyulmalıdır. Hökumətə tapşırıq verildi, müxtəlif nazirliklər fəaliyyət göstərir və əminəm ki, Milli Məclis də bu işlərə öz töhfəsini verəcək. Belə səfalı torpaqlarda ancaq yaxşı dolanışıq olmalıdır.

Bir daha onu deməliyəm ki, bax, bu azad edilmiş bölgələrə bilirsiniz, mən tez-tez gedirəm, səfərlər edirəm və ermənilərin yaşadıqları bəzi yerləri də görürəm. Deyə bilərəm ki, orada bir dənə də yeni bina yoxdur. İndi yol boyunca – Bakıdan çıxıb Qubadlıya, istər Ağdama, istər Füzuliyə, istənilən istiqamətə gedən insan yol boyunca yeni evlər görür. Biz kəndləri keçərkən görürük ki, bilmirik evlər bəlkə on il, iyirmi il əvvəl, yəni, bir çox evlər müstəqillik dövründə inşa edilibdir. O vaxt işğal altında olan ərazilərdə bir dənə də bina tikilməyib, bir dənə də. İndi bu Qubadlıda guya onlar məskunlaşma aparmaq istəyirdilər. Xanlıq qəsəbəsində bir erməni fondu evlər tikdirmişdi. İndi adam gedib o evlərə baxanda görür ki, bu evlərdə heç bir şərait yoxdur. İndi oranı bir az düzəltdik, bizim hərbçilər orada yerləşir. Yəni, onlar bu torpaqlara yad bir torpaq kimi baxırdılar. Sadəcə olaraq, bu torpaqları istismar edib, ağacları qırıb, bizim təbii sərvətlərimizi talayıb, çaylarımızı zəhərləyib öz mənfur xislətlərini göstərirdilər. Amma bu gün bütün dünya bunu görür, bütün dünya. Çünki bunu gizlətmək mümkün deyil. Gələn hər bir insan bu dağıntıları görür və erməni faşizminin bax bu sübutlarını görür. Amma biz qurucu xalqıq və Qubadlını yenidən quracağıq.

Şəhid Milli Qəhrəman Şükür Həmidovun atası Nəriman Həmidov dedi: Cənab Prezident, özümü xoşbəxt hiss edirəm ki, Sizinlə ikinci səfərdir, şəxsən görüşürəm. Mən Allah-Təaladan razıyam ki, Sizi Azərbaycana bəxş edib. Sizin kimi hərtərəfli sərkərdəni, şəxsiyyəti bizim Azərbaycana bəxş edib. Bizim xalqımız dövlət ətrafında yumruq kimi birləşdi və sözünü dedi. Bu hamısı Sizin rəhbərliyinizlə olmuş hadisədir, bunu hamı bilir. Siz polad sinəli, genişürəkli, əvəzsiz bir sərkərdəsiniz. Sizin keçdiyiniz yol, əldə etdiyiniz Qələbə mənim bu dediklərimə möhür vurur, təsdiq edir. Mənim uzun müddətdir qəlbimdə gəzdirdiyim bir fikrim var, onu çatdıracağam. Mən bütün qədirbilən xalqımızdan xahiş edirəm, mənim fikrimi təsdiq etsin, alqışlasın. Bizim qanunverici orqanımız olan Milli Məclisdənxahiş edirəm ki, Müzəffər Ali Komandan, Prezidentimiz cənab İlham Əliyevə "Azərbaycanın daimi Prezidenti" adı verilsin. Xahiş edirəm ki, xalqımız da, Milli Məclis də bunu qəbul etsin.

Prezident İlham Əliyev: Mən veto qoyacağam ona, mənim belə hüququm var. Çox sağ olun, təşəkkür edirəm, sağ olun. Bu səmimi sözlərə görə minnətdaram. Ancaq mənim üçün ən böyük mükafat bax, sizin burada olmağınızdır, keçmiş köçkünlərin gözlərindəki sevincdir, qürurdur. Budur mənim üçün ən böyük mükafat. Mən demişdim, məcburi köçkünlərlə mən dəfələrlə görüşmüşdüm. İndi təsəvvür edin, 100-dən çox qəsəbə

salındı, yəni, ev yox, məcburi köçkünlər üçün qəsəbə. Mən hər bir açılışda olmuşam, hər bir açılışda. Köçkünlərlə görüşlər zamanı, - mən onu artıq bir dəfə demişəm, bir daha demək istəyirəm, - görürdüm ki, ümidlər azalır, ümidlər tükənir. Bu da təbiidir. Çünki artıq 30 ilə yaxın vaxt keçir, məsələ də həll olunmur. Artıq hər kəs başa düşürdü ki, Ermənistan bu məsələni danışıqlar yolu ilə həll etmək istəmir. Bu, məni çox incidirdi, çox üzürdü. O görüşlər məndə bir daha o inamı gücləndirirdi ki, biz nəyin bahasına olursa-olsun torpağımıza qayıtmalıyıq. Artıq o baxışlar yoxdur, o kədərli anlar yoxdur, o xatirələr qalır arxada. Artıq keçmiş məcburi köçkünlər ümidlə yaşayırlar, qürurla yaşayırlar. Mənim üçün ən böyük mükafat budur və bundan sonra ən böyük vəzifə bu torpaqları yenidən qurmaqdır, yenidən bərpa etməkdir.

Müharibə başa çatıb və düzdür, bizi hələ döyüşməyə məcbur edirlər, biz də hazırıq. İstənilən formada, necə deyərlər, meydançada - istər siyasi meydanda, istər hərbi meydanda. Biz artıq göstərmişik ki, heç kimin qabağında baş əyən xalq deyilik. Ancaq bununla yanaşı, bizim qarşımızda çox böyük quruculuq işləri dayanır. Bu da müharibədə əldə edilmiş Qələbəyə uyğun səviyyədə aparılmalıdır. Ümumiyyətlə, bu tarixi Zəfərdən sonra ölkəmizin yeniləşməsi, müasirləşməsi, aparılan islahatlar, xoşagəlməz hallarla mübarizə, əlbəttə, tam yeni müstəviyə çıxmalıdır. Çünki bu Qələbəbütün dünyaya bizim böyük xalq olduğumuzu göstərdi, eyni zamanda, bizi sözün yaxşı mənasında məcbur edir ki, biz qabağa ancaq düz yolla gedək. Bax, sizinlə bərabər, bütün Azərbaycan ictimaiyyəti ilə bərabər biz bu yolu gedəcəyik. İndi mən hansı statusda bu yolu gedəcəyəm, o, ikinci məsələdir. Əsas odur ki, ömrümün sonuna qədər mən bu yolla gedəcəyəm, İnşallah, sizinlə bərabər.

Sakinlər: Çox sağ olun.

Prezident İlham Əliyev: Sağ olun.

Siz deyirsiniz ikinci dəfə, üçüncü dəfə biz görüşürük. Mən sizi o vaxt Hərbi Qənimət Parkının açılışına da dəvət etmişdim.

Nəriman Həmidov: Bəli, yadımdadır. Üçüncü dəfədir. Çox sağ olun, çox var olun. Sizinlə fəxr edirəm, həyat sübut etdi.

Digər sakin: Sizin bütün fəaliyyətiniz göz qabağındadır - hərbi meydanda da, diplomatiyada da, siyasətdə də. Bütün cəbhələrdə Siz sinə gərdiniz.

Sizi bu xalqa Tanrı göndərib, İlahi pay göndərib.

Prezident İlham Əliyev: Sağ olun.

Əməkdar müəllim Şamama Həsənova: Xalqının sevimli, dağ vüqarlı, qartal görünüşlü əziz Prezidentimiz. Bu gün biz babalarımızdan bizə əmanət qalan bu torpaqda olmağımızdan çox böyük qürur hissi keçiririk. Bu qürur hissini, bu sevinci, bu fəxarəti bizə yaşatdığınız üçün Sizə qubadlılıların təşəkkürünü çatdırıram. Mən bu gün çox xoşbəxtəm ki, qubadlılıların salamlarını Sizə çatdırmaq şərəfinə nail olmuşam. Cənab Prezident, biz hamımız qubadlılılar olaraq bir nəfər kimi Sizin arxanızdayıq, Sizin yanınızdayıq və bütün quruculuq işlərində - necə ki, o 44 günlük müharibədə - yenə də Sizin bütün tapşırıqlarınızın, bütün sərəncamlarınızın, bütün çıxışlarınızdan irəli gələn müddəaların həyata keçirilməsi bu gün Qubadlımızda prioritet məsələdir. Bu gün Qubadlıda hamı bununla fəxr edir. Arzu edirəm ki, bu quruculuq işlərində də biz həmişə Sizin sağ əliniz olaq, Sizin, Mehriban xanımın yanında olaq. Allah Sizə elə qol-qanad versin ki, bu quruculuq işlərini, başladığınız bax bu işi Allahın köməyi ilə axıraçatdırasınız. Mehriban xanım, xanımlar xanımı, birinci xanımımız həmişə Sizin yanınızda olsun.

Prezident İlham Əliyev: Çox sağ olun. Təşəkkür edirəm. Sağ olun.

Şamama Həsənova: Bu gün Müzəffər Ali Baş Komandan kimi, qalib Ordunun qalib sərkərdəsi kimi, cənab Prezident, Sizi təbrik edirik. İnanın ki, hər bir insanın qəlbində, hər bir qubadlılının qəlbində, o cümlədən bütün xalqımızın qəlbində elə bir abidə ucaltmısınız ki, o heç vaxt oradan, öz yerindən ayrı ola bilməz.

Sizi, ailənizi, belə xoş gündə bir daha təbrik edirəm. Qoy Allah bizi həmişə belə xoş günlərdə görüşdürsün, qubadlılılarla Sizi belə xoş günlərdə, əlamətdar günlərdə görüşdürsün.

Prezident İlham Əliyev: Sağ olun, təşəkkürlər, çox sağ olun. Elə də olacaq bundan sonra. Sağ olun.

Sözünüz var? Buyurun.

Əməkdar müəllim Ədalət Əsədov:

Ey ulu məmləkətin Ali Baş Komandanı,
Şücaətin, təpərin dünyaya dastan oldu.
Sən bu xalqın qəlbində elə heykəl ucaltdın,
Tarix yaddan çıxarmaz, tarixə dastan oldun.

Bu gün cənab Prezident biz qubadlılıları Qubadlıya qonaq dəvət edib. Ulu Yaradandan diləyim budur ki, biz qubadlılılar da dəyərli Prezidentimizi, böyük insanımızı, böyük şəxsiyyətimizi - İlham Əliyevi Qubadlıya qonaq dəvət edək. Var olun, Allah Sizi qorusun!

Prezident İlham Əliyev: Sağ olun, təşəkkür edirəm. Elə də olacaq. Yaxın gələcəkdə.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova: Cənab Prezident, bizim bu ulu baba torpağımıza bizi qaytardınız. Bu, bizim üçün ən böyük xoşbəxtlikdir. Sizin də, Mehriban xanımın da, bütün bu 44 gündə danışıqlarınızda, Sizin çıxışlarınızda hiss edirdik ki, Siz doğrudan da nə qədər böyük həyəcan keçirirdiniz. Amma birinci gündən axırıncı günə qədər biz Sizə arxalanırdıq, Sizə inanırdıq. Bütün xalq Sizin ətrafınızda birləşib. Siz də o xalqdan güc alaraq bizi o Qələbəyə çatdırdınız. Ona görə Sizə cansağlığı, uzun ömür arzulayırıq, biz də həmişə arxanızdayıq. Ölümün gözünə dik baxan o şəhidlərimiz, cənab Prezident, məhz Sizdən güc alırdılar, Sizdən ilham alırdılar.

Prezident İlham Əliyev: Bilirsiniz, dünyada indi, tarixdə bir çox müharibələr olub.Ancaq inanmıram ki, belə bir müharibə olsun ki, orada iştirak edən orduda bir nəfər də fərari olmasın.

Hicran Hüseynova: Bəli, bəli, bu, Sizin sayənizdədir.

Prezident İlham Əliyev: Çünki biz İkinci Dünya müharibəsinin tarixini yaxşı bilirik. O vaxt sovet ordusunda nə qədər fərari olmuşdur, nə qədər satqın olmuşdur. Hətta alman faşistləri satqınlardan ibarət ordu yaratmışdılar. Ancaq bizdəbir dənə də olsun fərari olmamışdır.

Hicran Hüseynova: Sizin sayənizdə. Sizə güvənərək ölümə getdilər.

Prezident İlham Əliyev: Ölümə gedirdilər, ölümə gedirdilər bu torpaq uğrunda. Bax, budur, xalqımızın böyüklüyü.

* * *

Xatirə şəkilləri çəkdirildi.

* * *

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ictimaiyyətin nümayəndələri Qubadlı şəhərinin ərazisini gəzdilər.

Prezident İlham Əliyev: Harada oxuyursan?

Oğlan tələbə: Mən məktəbdə respublika birincisi oldum. Bakı Ali Neft Məktəbində oxuyuram.

Prezident İlham Əliyev: Neft məktəbində? Neçənci kursda?

Oğlan tələbə: Birinci kurs.

Prezident İlham Əliyev: Birinci kurs. Hə, çox yaxşı.

Qız tələbə: Mən də Bakı Ali Neft Məktəbində oxuyuram. Tələbələrimizin Sizə salamı var.

Prezident İlham Əliyev: Çox sağ ol, məndən də tələbələrə salam söylə. Çox sağ ol.

Sakin: Mən çox təsirlənirəm. Cənab Prezident, müharibədən danışanda məni ağlamaq tutur. Azərbaycan tarixinin ən şərəfli səhifəsidir.

Prezident İlham Əliyev: Bəli, elədir. Razıyam, çox sağ olun.

Gənc idmançı: Cənab Prezident, gənc olimpiyaçı olaraq mən də gənc idmançılar adından Sizə təşəkkürümü bildirirəm.

Prezident İlham Əliyev: Bilirəm, sən yaxşı vuruşmusan. Amma Niyaməddin kimi çempion olmalısan.

Gənc idmançı: Sağ olun. İnşallah, Sizə söz verirəm.

Prezident İlham Əliyev: Deyirəm, sənin kimi çempion olmalıdır. Hə?

Gənc idmançı: Müəllimimizdir. Niyaməddin müəllimdən həmişə böyük örnək almışıq.

Prezident İlham Əliyev: Sən neçənci ildənsən?

Gənc idmançı: 1996-cı ildən.

Prezident İlham Əliyev: 1996-cı ildən. Görməmisən?

Gənc idmançı: Görməmişəm. Böyük şərəf oldu.

Prezident İlham Əliyev: Valideynlərin burada yaşayıb?

Gənc idmançı: Bəli, valideynlərim burada olubdur, Gürcülü kəndində. Böyük şərəfdir Sizinlə buranı ziyarət etmək.

Niyaməddin Paşayev: Cənab Prezident, mən də öz adımdan, öz ailəm adından Sizə dərin təşəkkürümü bildirirəm.

Prezident İlham Əliyev: Sağ ol.

Niyaməddin Paşayev: Mən 13 yaşıma qədər böyüdüyüm bu Qubadlı.

Prezident İlham Əliyev: Sən burada yaşamısan?

Niyaməddin Paşayev: Bəli, Qubadlı rayonunun Muğanlı kəndində doğulmuşam. İnşallah, arzu edirəm ki - necə ki, bu günə qədər Azərbaycanda böyük idman yarışları təşkil olunub, - bu işğal olunmuş şəhərlərimiz də bərpa olunandan sonra bizə Avropa Oyunları kimi, İslam Oyunları kimi, Avropa, dünya çempionatlarını keçirmək qismət olsun.

Prezident İlham Əliyev: Əlbəttə. Mütləq. Burada indi mütləq yaxşı idman qurğuları tikiləcək. Siz də gəlib burada öz təcrübənizi bölüşəcəksiniz. Mütləq.

Gənc idmançı: İnşallah, bundan sonra bütün qələbələrimizi Sizə həsr edəcəyik.

Prezident İlham Əliyev: Çox sağ ol. Sənin çox güclü potensialın var, mən izləyirdim. Dünya çempionatının bürünc mükafatçısısan?

Gənc idmançı: Bəli.

Prezident İlham Əliyev: Yəni, dünya, Olimpiya çempionu ola bilər.

Gənc idmançı: İnşallah. Sizə söz veririk, Parisdə sübut edəcəyik, Allahın izni ilə. Çox sağ olun.

Həkim: Cənab Prezident, mən 15 il burada uşaq həkimi işləmişəm.

Prezident İlham Əliyev: Qubadlının rayon mərkəzində?

Həkim: Rayon mərkəzində. Müalicə etdiyimiz bu uşaqlar Sizin sayənizdə bu torpaqlarımızı işğaldan azad etdilər. Bu torpaqlara, bu evlərin hər birinə indi baxırıq, tanımırıq.

Prezident İlham Əliyev: Hamısını dağıdıblar. Sonra da söküblər. Əvvəl, müharibədən sonra dağıdıblar. Sonra da söküblər, daşları da aparıblar, atıblar ora-bura. Hamısı yenidən qurulacaq. İndi göstəriş verilib. İndi Baş plan hazırlanır. Yəqin ki, 2-3 aya hazır olacaq. Ondan sonra ictimaiyyət də tanış olacaq. Baxarsınız, siz də öz təkliflərinizi verərsiniz. Əlbəttə, daha böyük şəhər nəzərdə tutulur. İlkin belə variant indi mənə məruzə edildi. Ola bilər, 10-15 min əhalisi olan. Çünki işğala qədər rayon mərkəzinin 5 min əhalisi olub.

Əlbəttə, kəndlərin də bərpası mütləq olacaq, İnşallah. İndi bu əsas yol çəkilir, Eyvazlıya da bir yol çəkilir. Yəqin ki, eşitmisiniz?

Sakinlər: Bəli, ən strateji yoldur.

Prezident İlham Əliyev: Bəli, bəli. Həmin o Gorus-Qafan yolu ki, indi bizim ərazimizdən keçir.

Sakin: Cənab Prezident, Siz Ali Baş Komandan kimi bu kəndlərimizi bizdən yaxşı tanıyırsınız.

Prezident İlham Əliyev: Mən bunu əzbər bilirəm. Çünki müharibə dövründə bütün bu göstərişlər verilirdi, hansı kənd nə vaxt, necə götürülməlidir.

Sakin: Hər gün xalq Sizdən elan gözləyirdi. Vərdiş etmişdik.

Prezident İlham Əliyev: Bəzən bir-iki gün ara olanda narahat olurdular ki, görəsən, nə oldu?

Sakin:Gorus rayonunun dörd azərbaycanlı kəndi var idi - Şurnuxu, Ağbulaq, Çayzəmi, bir də Qurdqalaq. Kəpəz dağı buradan görünürdü. Kəpəz dağının arxasında ermənilər ad qoymuşdu Ağbannıdır. Bunlar hamısı Azərbaycan kəndləri idi. Qədim qəbiristanlıqlar qalıb, yerlər hamısı qalıb. Bizim Seytas kəndi üç dəfə dağıdılıb, bir fəsildə üç dəfə yandırılıb. 1990-cı ilin yanvar ayında mənim atamın evi yandırıldı.

Sakin:Cənab Prezident, sağ tərəfdə Böyük Vətən müharibəsi abidəsi,Ana abidəsi var idi.Hamısının adı yazılmışdı orada.

Prezident İlham Əliyev: Onu da söküblər.

Sakin:O yuxarıdakı da rayonun dağüstü pavilyonu olub. Pilləkənləri də söküb aparıblar.

Digər sakin: Cənab Prezident, mənim xatirimdədir, səhv eləmirəmsə, 1997-ci ildə Ulu Öndər Akademik Opera və Balet Teatrına gəlmişdi - “Arşın mal alan” tamaşasına. Pediatrların yığıncağı idi, qonağı və dostu, qardaşı İhsan Doğramacı ilə.

Onda pərdə arxasına keçdim, mən onda Vəli obrazında idim. Məni böyük sənətkarımız Lütfəli Abdullayevə bənzədirdilər. Səhnə arxasına gəldi, öz təəssüratlarını hamımızla bölüşdü. Çox razı qalmışdı.

Prezident İlham Əliyev: Bəli, o, tamaşalara tez-tez gəlirdi.

Sakin: Allah qəni-qəni rəhmət eləsin. O, incəsənət işçiləri üçün, aktyorlar üçün çox böyük işlər görüb və Siz də onu davam etdirirsiniz. Hamımızın ürəyindəndir, hamımız Sizin duaçınızıq.

Prezident İlham Əliyev: Sağ olun, çox sağ olun.

Sakin: Cənab Prezident, bir məsələni deyim. Bu çay buradan keçirdi. Ermənilər istəyirdilər burada bulvar düzəltsinlər. Oranı qaldırıblar ki, düzəltsinlər, yarımçıq qaldı. Biz gəldik, ordumuz gəldi.

Prezident İlham Əliyev: Buranı onlar genişləndiriblər?

Sakin: Bəli, genişləndirmək istəyiblər ki, bir azca o tərəfə getsin. Desinlər bulvardır, Bakıdakı kimi. Amma planları gözlərində qaldı.

Prezident İlham Əliyev: Bəli, onu biz edərik. Burada çay boyunca belə gəzinti yerləri mütləq olmalıdır.

Sakin: Çox gözəl olardı. Dar idi də belə.

Prezident İlham Əliyev: Onlar genişləndiriblər. Amma burada bir iş görməyiblər.

Sakin: Yox, onlar belədir də. Ancaq uçurub dağıtmaqla məşğul idilər. Ümidləri yox idi, ona görə.

Prezident İlham Əliyev: Bəli, əlbəttə. Bilirdilər ki, biz qayıdacağıq. O Bəsitçay qoruğunda ağacların böyük hissəsini kəsiblər, ancaq kötüklər qalıb və yandırıblar. Biz keçən dəfə Zəngilanda olanda Bəsitçaya getmişdik. Dağıdıblar, kəsiblər, misli görünməmiş vandallıq.

Kəlbəcər şəhəri tam dağılıb. Halbuki, orada bəzi yerlərdə yaşayırdılar. Ora da tamamilə yerlə bir idi. Eybi yoxdur, hamısını yenidən quracağıq, daha gözəl olacaq. Mən həmişə o qəsəbələrin açılışlarında keçmiş köçkünlərlə görüşlər zamanı deyirdim ki, bu, müvəqqəti yaşayış yerinizdir. Torpaqlar azad olunandan sonra daha gözəl evlər, binalar tikəcəyik. İndi o gün yaxınlaşır.

Sakinlər: Çox sağ olun.

Vətən Müharibəsi Qəhrəmanı: Mən ehtiyatda olan bir əsgər kimi bir çox tədbirlərdə iştirak eləmişəm. Orada qeyd edirdim, cənab Ali Baş Komandanımıza dərin minnətdarlığımı bildirirəm ki, məni 19 yaşımda “Vətən Müharibəsi Qəhrəmanı” adı ilə təltif edib. Şükür Allaha, bu gün öz doğma torpağımızda Sizinləyik.Sizə təşəkkürümü bildirirəm ki, məni və döyüş yoldaşlarımı yüksək fəxri adlarla qiymətləndirmisiniz. Çox təşəkkür edirəm.

Prezident İlham Əliyev: Çox sağ ol, mən sənə təşəkkür edirəm, sənin simanda bizim bütün qəhrəman övladlarımıza. Onlar sinəsini qabağa verib düşməni torpağımızdan qovublar. Bax, belə igidlər hesabına biz bu gün burada dayanmışıq.

Vətən Müharibəsi Qəhrəmanı: Hər an hər bir əmrinizi icra etməyə hazırıq.

Prezident İlham Əliyev: Sağ ol. Bu medallar hansı şəhərlər uğrundadır?

Vətən Müharibəsi Qəhrəmanı: Cəbrayıl, Füzuli.

Prezident İlham Əliyev: Sağ olun.

Birinci xanım Mehriban Əliyeva: Sağ olun.

## *Füzuli və Zəngilan rayonlarına səfər*

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Füzuli Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı hava limanında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıladı.

Oktyabrın 26-da Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan açılış mərasimində iştirak ediblər.

Azərbaycan və Türkiyə prezidentləri hava limanının rəmzi açılışını bildirən lenti kəsdilər.

Füzuli Beynəlxalq Hava Limanının rəmzi açarları prezidentlərə təqdim edildi.

Dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış oldular.

AZAL-ın prezidenti Cahangir Əsgərov dövlət başçılarına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Qarabağın hava qapısı adlandırılan Füzuli Beynəlxalq Hava Limanı ən müasir səviyyədə inşa olunub. Hava limanının istənilən tip hava gəmisini qəbul etmək imkanları var. Uçuş-enmə zolağının uzunluğu 3000, eni isə 60 metrdir. Hava limanının müasir infrastrukturla təchiz olunan terminalı saatda ən azı 200 sərnişinin buraxılışına imkan verir. Burada görülən bütün işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Hava limanının ətrafında geniş abadlıq-quruculuq işləri aparılıb. Burada avtomatlaşdırılmış sistemlərlə təchiz olunan Hava Hərəkətini İdarəetmə qülləsi tikilib. Bu isə Füzuli Beynəlxalq Hava Limanında ICAO və IATA standartlarına müvafiq qaydada uçuşların başlanmasını mümkün edir. Hava limanında baqaj konveyerləri, qeydiyyat sistemi, VIP zallar, mağazalar, restoranlar və digər zəruri məntəqələr yaradılıb. Burada sərnişinlərin rahatlığı üçün bütün meyarlar diqqət mərkəzində saxlanılıb.

O da qeyd olundu ki, hazırda Zəngilan və Laçında beynəlxalq hava limanları tikilir və onların inşası ilə regionun nəqliyyat imkanları daha da genişləndiriləcək.

Daha sonra dövlət başçılarına Cocuq Mərcanlıda açılacaq Suvenir İstehsalı Müəssisəsinin fəaliyyəti barədə məlumat verildi. “Cocuq Mərcanlının İnkişafı” Fondu, “TÜİB” və “TİKA”nın maliyyə dəstəyi ilə yaradılacaq müəssisədə Cocuq Mərcanlı kəndinin 25 sakini işlə təmin olunacaq. Burada hədiyyəlik saxsı qablar, kiçik ölçülü xalçalar, əl işləri və digər məhsullar istehsal ediləcək. Müəssisənin tikintisinə dövlət də öz dəstəyini verib. Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin operatorluğu ilə şirkət təsis olunub, istehsal avadanlıqları alınıb və istehsalın təşkili üçün Türkiyədən mütəxəssislər cəlb edilib. Bundan əlavə, “TİKA”nın dəstəyi ilə 15 istixana yaradılıb. 15 ailənin çalışdığı istixanalarda lavanda və bibəriyyə bitkiləri, tərəvəz yetişdiriləcək.

Beləliklə, ən müasir tələblərə cavab verən beynəlxalq hava limanının qısa müddətdə və yüksək keyfiyyətlə inşası Azərbaycan dövlətinin qüdrətini göstərməklə yanaşı, həm də işğaldan azad edilmiş rayonlarımızın tezliklə bərpa olunacağının və oraya yenidən həyatın qayıtmasının bariz nümunəsidir. Bu hava limanının istifadəyə verilməsi bölgəyə səfər edənlərin rahatlığını təmin edəcək, işğaldan azad olunmuş torpaqlarımızda aparılan quruculuq işlərinin daha da sürətlənməsinə töhfə verəcək, nəinki Füzulinin, ümumilikdə bölgənin sosial-iqtisadi inkişafında müstəsna rol oynayacaq.

Daha sonra dövlət başçıları söhbət etdilər.

Prezident İlham Əliyev: Təşəkkür edirəm. Yaxından çəkin. Əziz qardaşım mənə bu gözəl saatları hədiyyə edib. “Xarıbülbül” təsviri də üstündə.

Prezident Rəcəb Tayyib Ərdoğan: Şuşaya gəlmişdik. Buradan Şuşa yaxındır. “Xarıbülbül” də Şuşanın simvoludur.

Oktyabrın 26-da Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməli qoyulub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan əvvəlcə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanış oldular.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov görülən işlər barədə dövlət başçılarına məlumat verdi.

Saleh Məmmədov dedi: Möhtərəm cənab Prezident, hərəkət etdiyiniz bu yol Əhmədbəyli-Füzuli-Şuşa yoludur. Bu yol altı-dörd cərgədən ibarət olacaq. Yolun uzunluğu 81 kilometrdir. Bu yolun başlanğıcdan 50-ci kilometrədək 51 kilometrlik hissəsini Azərbaycan şirkətləri, əllinci kilometrdən 81-ci kilometrə qədər hissəni isə Türkiyənin “Kolin İnşaat” və “Çingiz İnşaat” şirkətləri işləyir. Türkiyə şirkətlərinin işlədiyi hissədə 6 kilometr uzunluqda tunel tikilir və 7 yol ötürücüsü tikiləcək. Tunellərin ümumi uzunluğu 6500 metrdir. Hazırda Şuşa şəhərinin girişində olan 4-cü və 5-ci tunellər artıq tikilmişdir. Biri 431 metr, digəri isə 530 metr uzunluğundadır.

Prezident İlham Əliyev: Kəlbəcərdə tunellər inşa edilir, 12 kilometr.

Saleh Məmmədov: Bəli, Azərbaycanda ən böyük tuneli “Çingiz İnşaat” inşa edir, Toğanalı-Kəlbəcər

yolundakı Murovdağ tuneli. Bu, Azərbaycanda ən böyük tuneldir, 11 min 600 metrdir. Artıq o tunelin 350 metri qazılmışdır. Şəkilləri var, mən Sizə göstərəcəyəm.

Prezident İlham Əliyev: Bir də Laçın-Kəlbəcər tuneli.

Saleh Məmmədov: Bəli, Qorçu aeroportunun 3,5 kilometrlik Laçın-Kəlbəcər tuneli də var.

Prezident İlham Əliyev: Tunellərin toplam uzunluğu nə qədərdir?

Saleh Məmmədov: Azərbaycanın Qarabağ ərazisində Türkiyə şirkətləri tərəfindən toplam 62 kilometr uzunluqda tunel tikilir. Hazırda Türkiyə şirkətlərində 6587 işçi çalışır. Onların 1832 nəfəri Türkiyə vətəndaşı, 4500 nəfəri isə Azərbaycan vətəndaşıdır. Ümumilikdə Qarabağ zonasında işləyən şirkətlərdə toplam 13 min 280 nəfər çalışır.

Bu gün təməli qoyulacaq yol isə Zəngəzur dəhlizi yoludur. Başlanğıcını dayandığımız bu yerdən götürəcək. Birinci qovşaq budur. Buradan Ağbəndə, Ermənistan sərhədinə qədər məsafə 123,6 kilometrdir.

Prezident Rəcəb Tayyib Ərdoğan: Ermənistan sərhədinə qədər gedirsiniz, elədirmi? Daha irəli gedəcəksiniz.

Saleh Məmmədov: Bəli, oradan da o tərəfə keçəcəyik. Allahın köməyi ilə düz İstanbula qədər gedəcəyik, Avropaya qədər gedəcəyik. Allah Sizləri qorusun.

Azərbaycan NATO-nun etibarlı tərəfdaşı olduğunu sübuta yetirib. Biz Əfqanıstandakı sülhməramlı missiyamıza 2002-ci ildə başladıq və bu il avqustun sonunda onu bitirdik. Azərbaycan hərbiçiləri Əfqanıstanı sonuncu tərk edən koalisiya qüvvələrinin hərbçiləri arasında idi. Əlbəttə ki, bu birlikdə işləməyin böyük bir təcrübəsidir. Bu gün biz, həmçinin əməkdaşlıqla bağlı gələcək planlarımızı müzakirə etdik. Azərbaycan NATO-nin hərbi təlimlərində iştirak edir. Eyni zamanda, biz NATO-nun hazırki və aparıcı üzvlərindən biri olan Türkiyə ilə yalnız bu il yeddi birgə hərbi təlim keçirmişik. Bu da regionda sülh və sabitlik işinə xidmət edir.

Biz cənab Baş katiblə Cənubi Qafqazda postmüharibə vəziyyətini müzakirə etdik. Azərbaycan sülhə, sabitliyə və proqnozlaşdırılmaya sadiqdir. Bizim səylərimiz regionda hər hansı yeni müharibə risklərinin minimuma endirilməsi məqsədi daşıyır. Bunun üçün ən yaxşı yol kommunikasiyaların açılması, aktiv dialoqun qurulması və yenidən qonşu olmağı öyrənməkdir. Bizim siyasətimiz çox açıq və aydındır. Ümidvaram ki, əgər Ermənistan tərəfindən xoş məram olsa, biz təklif etdiyimiz kimi iki ölkə arasında sülh razılaşması üzərində işləyə və düşmənçiliyə son qoya bilərik.

Biz, həmçinin cənab Baş katiblə regionda enerji təhlükəsizliyi məsələlərini müzakirə etdik. Mən cənab Baş katibə məlumat verdim ki, bu gün Azərbaycan NATO-ya üzv 4 ölkənin etibarlı təbii qaz təchizatçısıdır. Əminəm ki, qarşıdakı illərdə onların sayı arta bilər. Bu, həmçinin regional sabitlik, təhlükəsizlik üçün mühümdür. Çünki, enerji təhlükəsizliyi artıq ölkələrin milli təhlükəsizliyinin bir hissəsidir. Ümumilikdə biz NATO ilə yüksəksəviyyəli qarşılıqlı fəaliyyətdə olmaqdan çox şadıq. Biz çox şadıq ki, NATO bizim səylərimizi qiymətləndirir və bu gün biz regionun xeyrinə və dünyada təhlükəsizlik üçün birgə səyləri davam etdirməklə bağlı razılığa gəldik. Bir daha dəvətə görə təşəkkür edirəm.

Moderator: Mən for Europe-in sual vermək istədiyini görürəm.

Riko Just for Europe təşkilatından. Mənim hər ikinizə sualım var. Cənab Əliyevlə başlayıram. Cənab Əliyev, Siz Ermənistanla əlaqələri qeyd etdiniz. Məsələlərdən biri Zəngəzur dəhlizidir. Siz həmin dəhlizdə Ermənistanın gömrük yoxlamalarını qəbul edərsinizmi? Azərbaycanın bununla bağlı fikri nədir? Bir də soruşa bilərəmmi, bu gün Siz cənab Paşinyan və cənab Mişellə görüşəcək, onlarla nahar edəcəksiniz. Siz bağlılığa dair müəyyən bəyannamə imzalamalısınız. Bu, konkret olaraq nə deməkdir? Siz Ermənistanla hansı cür bağlılıq məsələlərinin ola biləcəyini qeyd edə bilərsinizmi?

Cənab Stoltenberqə sualım. Bu gün Rusiya rəsmisi raketlərə, yaxınmənzilli raketlərə moratorium barədə danışıb. Siz bunu bir növ sülh mesajı kimi görürsünüz, yoxsa düşünürsünüz ki, Rusiyanın çıxdığı saziş orta və yaxınmənzilli raketlərin ləğvinə dair sazişə geri qayıtmaq yaxşı olardı? Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Zəngəzur dəhlizi ilə bağlı demək istərdim ki, regionda bu kommunikasiyaların açılması təklifi ötən il noyabrın 10-da Rusiya Prezidenti, Ermənistanın baş naziri və mənim tərəfimdən imzalanmış üçtərəfli bəyannamədə öz əksini tapıb. Beləliklə, bütün lazımi şəraiti təmin etmək Ermənistan üçün bir növ öhdəlikdir. Baxmayaraq ki, bir ildən çox vaxt ərzində irəliləmək asan olmayıb, bu mərhələdə biz Azərbaycandan Ermənistan vasitəsilə Naxçıvan Muxtar Respublikasına dəmir yolu əlaqəsinin tikintisi ilə bağlı razılıq, həmçinin magistral yol inşasına dair razılıq əldə etmişik. Lakin magistral yolun dəqiq marşrutu hələ ki, müəyyən olunmayıb. Bu, gələcək müzakirələrin mövzusudur və biz bunu bu axşam cənab Şarl Mişelin ev sahibliyi edəcəyi üçtərəfli görüşdə mütləq müzakirə edəcəyik.

Zəngəzur dəhlizinin hüquqi rejiminə gəlincə, o, Laçın dəhlizinin eynisi olmalıdır. Çünki üçtərəfli Bəyanatda açıq-aydın deyilir ki, Azərbaycan Qarabağla Ermənistan arasında əlaqə üçün təhlükəsizliyi və maneəsiz çıxışı təmin edir və Ermənistan Azərbaycanla Naxçıvan Muxtar Respublikası arasında əlaqələr üçün

eyni maneəsiz çıxış və təhlükəsizliyi təmin etməlidir. Beləliklə, bu gün Laçın dəhlizində gömrük yoxdur. Ona görə də, Zəngəzur dəhlizində də gömrük olmamalıdır. Əgər Ermənistan yük və insanlara nəzarət etmək üçün öz gömrük qurumlarından istifadədə israr etsə, onda biz Laçın dəhlizində eynisində israr edəcəyik. Bu, məntiqidir və qərar Ermənistan tərəfindən qəbul edilməlidir. Biz hər iki varianta hazırıq, ya hər ikisində heç bir gömrüyün olmaması, ya da hər ikisində hər iki gömrüyün olması.

Bağlılığa gəlincə, regional nəqliyyat əlaqələrinin inteqrasiyası həqiqətən də region üçün böyük imkandır. Çünki, Zəngəzur dəhlizi təkcə bizim Naxçıvan Muxtar Respublikasına çıxış əldə etməyimiz üçün deyil, həm də Ermənistanın Naxçıvan Muxtar Respublikası vasitəsilə İranla dəmir yolu əlaqəsi üçündür. Bununla, həmçinin Ermənistan da Naxçıvan Muxtar Respublikası vasitəsilə İranla dəmir yolu əlaqəsi əldə edir. Ermənistan Azərbaycan ərazisindən Rusiya ilə dəmir yolu əlaqəsi əldə edir. Bu gün onların belə bir dəmir yolu əlaqəsi yoxdur. Bu, regionda həqiqətən müsbət ab-hava yarada bilər və bu hər kəsin xeyrinə olacaqdır. Hesab edirəm ki, bu imkanların düzgün dəyərləndirilməsi dinc gələcəyimizin planlaşdırılması baxımından olduqca vacibdir.

Bir daha qeyd edirəm, biz hazırıq. Biz artıq bir neçə dəfə ictimai şəkildə bəyanatlar vermişik ki, biz düşmənçilik səhifəsini çevirərək sülh sazişi üzərində çalışmaq istəyirik. Cənab Paşinyan və cənab Mişel ilə keçiriləcək görüş bir çox məsələlərə aydınlıq gətirəcəkdir.

Baş katib Yens Stoltenberq: Raketlər məsələsinə gəldikdə uzun illər ərzində ortamənzilli raketlərə dair qadağa qüvvədə idi. Bu, Avropada bu tip raketləri qadağan edən və 1987-ci ildə imzalanan İNF müqaviləsi idi. Artıq bu müqavilə mövcud deyil, çünki Rusiya uzun illər ərzində Avropa ərazisində nüvə başlığı daşımaq imkanına malik ortamənzilli raketlər yerləşdirib. Beləliklə, moratorium ilə bağlı Rusiya tərəfindən irəli sürülən təklif etibar edilən deyil. Ortada qadağa mövcud idi, onlar isə həmin qadağanı pozdular. Rusiya təsdiq oluna biləcək qaydada “SSC8” tipli raketlərini məhv etməyənə qədər, hansı ki, həmin tip raketlər İNF müqaviləsini pozmuş oldu, onların artıq yerləşdirdiyi raketlərə dair moratorium təklifinə etibar oluna bilməz.

NATO Rusiyanın hərəkətləri ilə bağlı qarşılıqlı addımlar atmaq niyyətində deyil. Bizim nüvə başlığı daşımaq imkanına malik raketləri Avropada yerləşdirmək fikrimiz yoxdur. Biz Rusiya ilə dialoqu qurmağa hazırıq və hesab edirik ki, silahlanma yarışının qarşısını almaq üçün silahlara nəzarətə ehtiyac var. Burada moratoriumdan söhbət gedə bilməz, çünki Rusiya sübut etməlidir ki, Avropada ortamənzilli raketləri qadağan edən müqaviləni qüvvədən salan silahlar məhv edilib.

Moderator: Sonuncu sualımıza vaxt var.

Mənim adım Vuqar Seyidovdur və Azərbaycan Dövlət İnformasiya Agentliyini (AZƏRTAC) təmsil edirəm. Mənim sualım cənab Stoltenberqədir. İkinci Qarabağ müharibəsindəki Zəfərdən sonra Azərbaycan qalib ölkə kimi dəfələrlə Ermənistana ölkələrin ərazi bütövlüyü və suverenliyini tanımaq şərtilə sülh sazişi üzərində işləməyi təklif edib. Əfsuslar olsun ki, Ermənistan bu günə qədər bundan boyun qaçırır. Nəzərə alsaq ki, NATO ilə Ermənistan arasında əlaqələr inkişaf edir, NATO Ermənistanı Azərbaycanla sülh sazişi bağlamağa inandırmaq işində nə kimi rol oynaya bilər? Sağ olun.

Baş katib Yens Stoltenberq: İlk növbədə biz qarşıdurmanın bitməsi və hərbi əməliyyatların dayandırılması imkanının əldə edilməsini alqışlayırıq. İkincisi, biz qəti şəkildə inanırıq ki, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılmasını davam etdirmək vacibdir. NATO Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması və dialoqun qurulması səylərini dəstəkləyir. Bugünkü görüşümüzdə Prezident və mən bu məsələləri ətraflı müzakirə etdik və mən bu gün üçtərəfli görüşün keçirilməsini də alqışlayıram. Bu, onu nümayiş etdirir ki, dialoq davam edir, münasibətlərin normallaşdırılması düzgün məcrada gedir. Əsas məsələ zorakılığın yenidən alovlanmasına rəvac verə biləcək addımlardan çəkinmək və qalan məsələləri diplomatik yollarla həll etməkdir.

NATO tərəf tutmur, çünki Azərbaycan NATO-nun dəyərli tərəfdaşıdır, Ermənistan da bizim dəyərli tərəfdaşımızdır. Beləliklə, biz diplomatik səyləri, üçtərəfli səyləri dəstəkləyirik və Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması səylərini də güclü şəkildə dəstəkləyirik.

* * *

Dekabrın 14-də Belçika Krallığının paytaxtı Brüsseldə NATO-nun Şimali Atlantika Şurasının iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

İclasda Azərbaycan-NATO əməkdaşlığı və praktiki müstəvidə əməkdaşlığın inkişafı, Alyansın Əfqanıstanda keçirilən "Qətiyyətli dəstək" missiyasına ölkəmizin töhfəsi, Azərbaycanla NATO arasında planlaşdırma analiz prosesi və digər proqramlar çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsi məsələləri, həmçinin Azərbaycanın Avropanın enerji təchizatında rolu, regional proseslər barədə ətraflı fikir mübadiləsi aparılıb.

NATO-ya üzv dövlətlər tərəfindən ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına bir daha dəstək ifadə olunub. Bu mövqenin NATO-nun Sammit sənədlərində də dəfələrlə təsbit olunduğu qeyd edilib. NATO-ya üzv dövlətlər tərəfindən Azərbaycanın "Qətiyyətli dəstək" missiyasındakı rolu xüsusi

vurğulanıb. Azərbaycan hərbçilərinin Kabul hava limanı vasitəsilə 120 mindən çox mülki şəxsin təxliyəsində oynadığı rol NATO rəsmiləri tərəfindən xüsusi qeyd edilib. Azərbaycanın 2002-ci ildən 2021-ci il avqustun 27-dək bu əməliyyatda iştirak etdiyi və Əfqanıstanı ən son tərk edən ölkələrdən biri olduğu bildirilib.

İclasda, həmçinin Azərbaycan və NATO silahlı qüvvələri arasında operativ hərbi uzlaşma məsələsinin artırılması da qeyd olunub.

Tədbir çərçivəsində qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb və üzv dövlətlərin nümayəndələri tərəfindən verilən suallar cavablandırılıb.

Prezident İlham Əliyev Azərbaycanın regionda oynadığı rol, xüsusilə Vətən müharibəsinin başa çatmasından sonra bölgədə yaranmış yeni geosiyasi vəziyyət, Azərbaycanın Ermənistanla sülh müqaviləsi üzrə danışıqlara başlamağa hazır olması, həmçinin sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə hazırlıq kimi məsələlər haqqında ətraflı məlumat verib.

Dövlətimizin başçısı qeyd edib ki, NATO-nun 20-yə yaxın ölkəsi Azərbaycandan neft idxal edir. Həmçinin Alyansın 4 ölkəsinin, o cümlədən Türkiyənin Azərbaycandan qaz idxal etdiyi və gələcəkdə bu coğrafiyanın genişləndirilməsi imkanlarının olduğu diqqətə çatdırılıb. Azərbaycanın enerji təchizatı sahəsində etibarlı tərəfdaş olduğu, alternativ mənbə və alternativ xətt üzrə Avropanın enerji təhlükəsizliyinə töhfəsini verdiyi qeyd edilib.

* * *

Dekabrın 14-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə nahar əsnasında birgə görüşü keçirilib.

Dekabrın 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moldova Respublikasının Prezidenti xanım Maya Sandu ilə görüşü olub.

Prezident Maya Sandu dövlətimizin başçısını salamladı: Salam, cənab Prezident.

Prezident İlham Əliyev: Salam, Sizinlə tanışlığıma şadam.

Prezident Maya Sandu: Sizinlə də şəxsən tanışlığıma şadam.

Prezident İlham Əliyev: Sizi görmək çox xoşdur.

Prezident Maya Sandu: Təşəkkür edirəm.

Prezident İlham Əliyev: Bu bizim birinci görüşümüzdür. Mən Sizi seçkilərdə qələbə münasibətilə bir daha təbrik etmək və Sizə uğurlar arzulamaq istəyirəm.

Prezident Maya Sandu: Çox sağ olun.

Prezident İlham Əliyev: Ümid edirəm ki, ölkələrimiz arasında münasibətlər müsbət məcrada inkişaf etməyə davam edəcək. Bu baxımdan şəxsi təmaslar çox vacib rol oynayır.

Prezident Maya Sandu: Elədir ki, var. Çox sağ olun cənab Prezident. Sizə qaz böhranı keçirdiyimiz müddətdə bizə dəstək olduğunuza görə minnətdarlığımı bildirmək istəyirəm. Biz potensial həlləri araşdıra bilərdik. Sonda biz qısamüddətli həll yolunu tapdıq. Lakin biz enerji sektorunda əməkdaşlığımızı müzakirə etmək istəyirik. Əlbəttə ki, biz biznes baxımından əməkdaşlığımızın dərinləşdirilməsi, fikir mübadiləsinin aparılması üçün imkanları araşdırmaqda həmişə maraqlıyıq. Biz Moldovada biznes mühitinin yaxşılaşdırılmasında çox maraqlıyıq. Biz insanlarımız üçün daha çox iş yerləri yaratmaq istəyirik. Biz xaric investorların cəlb edilməsində və istənilən digər ölkələr kimi yeni bazarların tədqiqində maraqlıyıq. Beləliklə, mən təmasların yaradılması və biznes forumlarını təşkil etməklə biznesmenlərimizə bir-biri ilə ünsiyyət yaratmağa kömək imkanını görürəm ki, hər iki ölkənin vətəndaşlarına kömək edə bilək.

Prezident İlham Əliyev: Bəli, mən Sizinlə razıyam. Hesab edirəm ki, biz hökumətlərarası birgə komissiyanın fəaliyyətini də gücləndirməliyik. Komissiyanın yeni toplantısı keçirilməlidir. Çünki komissiyanın üzvləri demək olar on ildir ki, bir araya gəlmirlər. Bəzi məlumatlara baxdım və gördüm ki, qarşılıqlı ticarətin səviyyəsi çox kiçikdir. Hesab edirəm bunun artırılması üçün potensial var. Lakin bunun üçün Sizin dediyiniz kimi biznes dairələri bir araya gəlməlidir. Komissiyanın toplantısı olsa onlar, həmçinin potensial investisiya imkanları, biznes mühiti haqqında təqdimatlar edə bilərlər ki, biz də qarşılıqlı ticarətin səviyyəsini artıra bilək. Hesab edirəm ki, biz bir-birimizə təklif edə biləcəyimiz çoxlu malları müəyyən edə bilərik. Enerji əməkdaşlığı məsələsində bilirsiniz ki, biz Avropa təsisatları ilə fəal işləyirik, Avropa İttifaqına üzv dövlətlərlə əməkdaşlıq və yeni bazarlara çıxış bizim üçün böyük əhəmiyyət kəsb edir. Buna görə düşünürəm ki, bu məsələ ilə bağlı ümumi zəmini tapacağıq.

* * *

Görüşdə, həmçinin Azərbaycanın və Moldovanın bir-birinin ərazi bütövlüyünü daim dəstəklədiyi qeyd olundu. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, yaxın vaxtlarda hökumətlərarası komissiyanın növbəti iclasının keçirilməsi, iki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin aparılması, enerji, investisiya sahələrində, eyni zamanda, ölkələrimizin biznes dairələri arasında əməkdaşlıq məsələləri müzakirə edildi.

* * *

Dekabrın 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.

Prezident İlham Əliyev dedi:

- Hörmətli cənab Prezident, Sizi yenidən görməyimə çox şadam.

Sizin Azərbaycana səfərinizi məmnunluqla xatırlayıram. İkitərəfli münasibətlərimizin inkişafı üçün

o səfərin çox böyük əhəmiyyəti var idi. Şadam ki, səfərdən sonra bütün verdiyimiz təlimatlar yerinə yetirilir və Ukrayna-Azərbaycan əlaqələri uğurla inkişaf edir. Biz bir çox sahələrdə uğurla əməkdaşlıq edirik. Əlbəttə, çox maraqlıyıq ki, bu əlaqələri daha da genişləndirək.

Əlbəttə ki, şəxsi təmaslar bu məqsədlərə nail olmaq üçün xüsusi şərait yaradır. Əminəm ki, bugünkü görüşümüz də çox məhsuldar və uğurlu olacaq.

Bu gün biz Sizinlə birlikdə Şərq Tərəfdaşlığı Zirvə görüşündə iştirak edəcəyik. Bu gün işimiz çoxdur.

* * *

Prezident Volodimir Zelenski dedi:

- Doğrudur, işimiz çoxdur. Zati-aliləri cənab Prezident, Sammit çərçivəsində ayrıca bir görüşün keçirilməsinə görə Sizə minnətdarlığımı bildirirəm. Ölkənizin siyasətində bizə davamlı olaraq dəstək olduğunuza, ərazi bütövlüyümüzü və suverenliyimizi dəstəklədiyinizə görə Sizə təşəkkürümü bildirirəm.

İki il bundan əvvəl Azərbaycandakı görüşümüzlə bağlı çox yaxşı xatirələrim var. Azərbaycan çox qonaqpərvər ölkədir. Fürsətdən istifadə edərək Sizi Ukraynaya səfərə dəvət edirəm. Ümid edirdim ki, Siz bizim müstəqilliyimizin 30-cu ildönümündə ölkəmizə səfər edəcəkdiniz, lakin COVID-ə görə bu günlərdə dünyada vəziyyətin çətin olduğunu da başa düşürəm. Lakin müstəqilliyin 30-cu ildönümü bütün il ərzində qeyd olunur - avqust ayından növbəti ilin avqust ayınadək. Buna görə ümid edirəm ki, Siz imkan tapıb Ukraynaya gələcəksiniz və biz Sizin səfərinizi səbirsizliklə gözləyəcəyik.

* * *

Söhbət zamanı, həmçinin hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu, biznes dairələrinin nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, iqtisadi-ticari əlaqələrin inkişaf etdirilməsi, xüsusilə enerji sahəsində əməkdaşlıq barədə fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Brüsseldə İspaniyanın “El Pais" qəzetinə müsahibə verib.

Müxbir: Əvvəla, bizi qəbul etdiyiniz, Brüsseli ziyarət etdiyiniz üçün Sizə təşəkkür edirik. Belə bir xüsusi məqamda bizi qəbul etdiyinizə və bizə bu müsahibənin aparılmasına imkan yaratdığınıza görə təşəkkür edirik. Geosiyasi vəziyyət nöqteyi-nəzərindən böyük miqyasda, Avropa İttifaqı və onun qonşuları nöqteyi-nəzərindən kiçik miqyasda çox maraqlı məqamdır. Buna görə Sizə təşəkkür edirik.

Əvvəlcə, mən Ermənistanla hazırkı vəziyyət haqqında Sizdən soruşmaq istəyirəm. Hazırda vəziyyət nə yerdədir? Biz bir aydan da az müddətdən əvvəl sərhəddə ölümcül toqquşmaların olduğunu bilirik. Əlbəttə ki, hər iki tərəf məsuliyyəti bir-birinin üzərinə atır. Bu son hadisələrdə nəyin baş verdiyini və hazırkı vəziyyətin nədən ibarət olduğunu bilmək istəyirəm.

Prezident İlham Əliyev: Müharibə bitəndən bəri 1 ildən çox müddət keçib və ümumiyyətlə, vəziyyət nisbətən sabitdir. Rusiya sülhməramlı qüvvələrinin Qarabağda məsuliyyət daşıdığı ərazidən danışırıqsa, vəziyyət Ermənistan-Azərbaycan sərhədində olan vəziyyətlə müqayisədə daha çox sabitdir. Bunun səbəbi isə əfsuslar olsun ki, Ermənistanın qisas almaq cəhdlərindən vaz keçməməsidir. İkinci Qarabağ müharibəsində məğlubiyyət onlar üçün çox ağrılı oldu. Bu məğlubiyyət demək olar ki, onların otuz ildir davam edən “yenilməz ordusu”, “gücü”, “əsgər və komandirlərinin cəsarəti” haqqında müharibə təbliğatını və ideoloji zəminini darmadağın etdi. 44 gün davam edən müharibə zamanı Ermənistan ordusu tamamilə məhv edildi və onlar ötən il noyabrın 10-da kapitulyasiya aktına imza atmaq məcburiyyətində qalaraq bizim 44 günlük müharibədə geri almadığımız əraziləri geri qaytarmağa razılıq bildirdilər. Buna görə də Ermənistan cəmiyyətində, siyasi spektrində revanşizm əlamətləri görünür. Buna görə də Rusiya sülhməramlılarının xidmət etdiyi ərazidə buna imkanın olmadığını dərk edərək onlar dövlət sərhədində hərbi təxribatlar törətməyə cəhd göstərirlər.

Digər məsələ isə ondan ibarətdir ki, Azərbaycan və Ermənistan arasında dövlət sərhədi təyin olunmayıb. Buna səbəb 1990-cı illərin əvvəlində hər iki ölkənin müstəqilliyinin bərpasından dərhal sonra Azərbaycanın həmin hissəsinin işğalının baş verməsi idi. Buna görə həm fiziki, həm də siyasi olaraq sərhədləri demarkasiya və delimitasiya etmək mümkün deyildi. Beləliklə, keçən ilin noyabrında İkinci Qarabağ müharibəsi bitəndə həmin ərazidə iqlim şəraiti digər ərazilərdən fərqli idi. Uca dağlar və qarla dolu bir ərazi idi. Bu ilin may ayında qar əriməyə başladı. Bu baş verən kimi Azərbaycan Ordusu dövlət sərhədinə tərəf hərəkət etməyə başladı və bu sərhədin haradan keçməsi ilə bağlı olan anlayışımıza əsasən, dövlət sərhədində mövqe tutdu. Yəni, hadisə belə olub. Əfsuslar olsun ki, Ermənistan Azərbaycanın hər hansı bir səbəb olmadan Ermənistanın ərazisinə müdaxilə etməsi ilə bağlı iddialar irəli sürməyə başladı. Beləliklə, biz öz ərazimiz hesab etdiyimiz ərazidə dururuq. Qarabağ müharibəsinin bitməsindən sonra lap ilk günlərdən Ermənistana sərhədlərin demarkasiyası üzərində işləməyə başlamağı və delimitasiya üzrə birgə işçi qrupunu yaratmağı və ərazidə bütün mübahisələri masa üzərində aydınlaşdırmağı təklif etdik. Müharibə bitəndən sonra bir ildən çox müddətdə Ermənistan tərəfindən dövlət sərhədində hərbi təxribatlar törətmək üçün bir neçə cəhd edilib. Onların hamısı uğursuz oldu. Bütün bu səylər nəticəsində onlar öz hərbi mövqelərini itirdi və Azərbaycan dövlət sərhədində mövqelərini gücləndirdi. Eyni hal keçən ay baş verdi. O zaman onlar bilərəkdən Azərbaycan Ordusuna qarşı qəsdən təxribat törətdilər və bu, bir neçə gün davam etdi. İlk günlər ərzində atəş açılmırdı, çünki Azərbaycan əsgərləri həmin ərazinin onlara aid olmadığını və getməli olduqlarını onlara başa saldı və onlar da getdilər. Lakin bizə qarşı artilleriya hücumlarına başladılar. Bizdə bir

neçə nəfər həlak oldu və yaralandı. İndi vəziyyət sabitdir. Biz özümüz heç nə planlaşdırmamışdıq, əks halda biz dayanmazdıq. Noyabrın 16-da baş vermiş toqquşma bir gündən az davam etdi. Səhər başladı və axşam saat 6-7 radələrində bitdi. Beləliklə, biz bunu planlaşdırsaydıq dayanmazdıq, çünki Ermənistanın istənilən yerdə bizi dayandırmaq üçün hərbi bacarığı yoxdur. Bizim belə planlarımız yoxdur və buna görə də biz dayandıq.

Biz sülh istəyirik, yetərincə müharibə oldu. Biz sabitlik, proqnozlaşdırma və Ermənistan tərəfindən istənilən revanşizm cəhdləri riskinin sıfır səviyyədə olmasını istəyirik. Buna görə biz onların bütün manevrlərini, yenidən qruplaşmalarını və bizə təhlükəli ola biləcək hərbi potensial yaratmaq üçün bütün cəhdlərini çox yaxından izləyəcəyik. Bunun baş verdiyini görsək, təhlükəni dərhal aradan qaldıracağıq və onlar bunu bilirlər. Beynəlxalq oyunçular də bunu bilirlər. Müsbət dinamika görsək, biz, əlbəttə ki, bundan yararlanacağıq və sülhün gücləndirilməsinə öz töhfəmizi verəcəyik.

- Cənab Prezident, Sizcə Ermənistanla, sadəcə, atəşkəs deyil, real sülh sazişi haqqında nə zaman danışmaq olar?

-Yəqin ki, bu sualı Ermənistana ünvanlamaq lazımdır. Mən dəfələrlə açıq bəyanat vermişəm ki, Azərbaycan Ermənistanla sülh danışıqlarına və sülh razılaşması üzərində işləməyə başlamağa hazırdır. Bu vaxta kimi Ermənistan rəhbərliyindən heç bir cavab verilməmişdir. Mən bu cür bəyanatları altı aydan çoxdur ki, dəfələrlə etmişəm. Bu, onların sülh istəmədiyini göstərir, çünki imzalandığı təqdirdə sülh razılaşmasının əsas müddəalarından biri də hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması olacaq və Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmir. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü və Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Ermənistan nə ərazi bütövlüyünü tanıdığını, nə də tanımadığını söyləyir. İkinci Qarabağ müharibəsindən əvvəl onlar deyirdilər və onların baş naziri açıq şəkildə bildirmişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Bu bəyanat, əslində, danışıqlar prosesini məhv etdi və onların keçən il yaşadığı acı məğlubiyyətin elementlərindən biri idi. Lakin indi Ermənistanın sanki bu məsələ ilə bağlı heç bir mövqeyi yoxdur. Biz çox açıq şəkildə deyirik ki, dərhal Ermənistanla hərtərəfli sülh razılaşması üzərində danışıqlara başlamaq istəyirik. Sizin dediyiniz kimi, bu, atəşkəs razılaşması yox, tam sülh razılaşması olacaq. Lakin ümid edirəm ki, yəqin Avropa tərəfdaşları Ermənistanı bu mövqeyinin gələcəyinin olmamasına inandıra biləcəklər. Hesab edirəm ki, Azərbaycanla sülh razılaşması olmazsa, onlar gələcəkdə yenə də əziyyət çəkə bilərlər.

-Siz indi sərhədləri təkrar açmaq istəyirsiniz? Əlbəttə ki, bu sual əvvəlki sualla bağlıdır. Ermənistanla münasibətləri normallaşdırmaq üçün Siz sərhədləri açmağa hazırsınızmı və bunun baş verməsi üçün şərtlər nədir?

-Bəli, biz sərhədləri açmaq istəyirik. Bu vaxta kimi Azərbaycanın, Ermənistanın və Rusiyanın Baş nazirlərinin müavinlərinin rəhbərlik etdiyi üçtərəfli işçi qrup çərçivəsində bir neçə dəfə danışıqlar baş tutub. Bu işçi qrupunun əsas məqsədi və vəzifəsi kommunikasiyaların açılmasıdır. Danışıqların bir neçə mərhələsi nisbətən uğurlu olub. İndi Azərbaycan və Ermənistan arasında dəmir yolu əlaqəsinin açılması ilə bağlı tam razılıq var və biz Ermənistan sərhədi istiqamətində azad edilmiş ərazilərdə sökülmüş dəmir yolu xəttini tikməyə başlamışıq. Eyni zamanda, əvvəlki aylarda Ermənistan avtomobil yolunun açılmasına etiraz edirdi, lakin indi biz onları bunun qaçılmaz olduğuna inandıra bilmişik və onlar da bununla razılaşır. Beləliklə, anlaşma var. İndi biz bu dəhlizlərin, Azərbaycandan keçib Ermənistana gedən və sonra Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına gedən Zəngəzur dəhlizinin hüquqi rejimini müzakirə edirik. Burada bizim hələ də açıq qalan müəyyən məsələlərimiz var. Lakin hesab edirəm ki, hər iki ölkə bunun baş verməli olduğunu qəbul edir və yeri gəlmişkən, keçən ay Soçidə Prezident Putinin təşəbbüsü ilə keçirilən üçtərəfli görüş zamanı biz kommunikasiyaların açılmasından açıq şəkildə bəhs edən bəyannaməni qəbul etdik. Beləliklə, bu, baş verəcək. Yeri gəlmişkən, hava məkanı artıq aktivləşib. İndi Azərbaycan Hava Yollarının Bakıdan Naxçıvana uçan təyyarələri Ermənistan hava məkanından keçməyə başlayıb.

-Ermənistanın baş naziri ilə görüşün keçirilməsi Brüsseldə elan olunduqda Avropa İttifaqının bəyanatında deyilirdi ki, niyyət firavan və sabit Cənubi Qafqaz naminə gərginliklərin aradan qaldırılması yollarını tapmaqdır. Əlbəttə ki, mən Ermənistan ərazisindən keçən bu dəmir yolunu və avtomobil yolunu düşündüm. Lakin Brüsseldəki görüşdən nələri gözləyə bilərik?

-Bunu söyləmək çətindir, çünki biz bu gün keçiriləcək görüşün nə ilə nəticələndiyini görməliyik. Lakin biz Avropa Komissiyasının və şəxsən Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişelin fəaliyyətini çox yüksək qiymətləndiririk. O, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması üçün zəminin yaradılmasına çoxlu töhfə verir. Prezident Mişelin bu yay regiona səfəri çox məhsuldar olub. Yeri gəlmişkən, hər iki ölkənin müdafiə nazirləri arasında birbaşa əlaqənin yaradılması ilə bağlı olan onun təşəbbüsü də işləyir. Beləliklə, indi bu kommunikasiya kanalı artıq səmərəlidir. Bu, Avropa Komissiyasının Cənubi Qafqazda sabit mühitin yaradılmasına şərait yaratmağa və gələcəkdə üç Cənub Qafqaz ölkəsi arasında qarşılıqlı əlaqənin üçtərəfli formatının yaradılmasına imkan yaratmağa istəkli və hazırlıqlı olduğunu açıq-aydın göstərir. Azərbaycanın mövqeyi tamamilə açıq və aydındır. Biz sülh istəyirik, müharibə

istəmirik. Biz müharibəni udduq, biz qalibik və bu reallıq nəzərə alınmalıdır. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Dağlıq Qarabağın qondarma statusu ilə bağlı və ya buna bənzər hər hansı müzakirələrə qayıdış yoxdur. Biz onu özümüz, güc yolu və siyasi vasitələrlə həll etdik. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələri qəbul olunandan 27 il sonra bunu birtərəfli qaydada həyata keçirdik və bu, ilk növbədə, Ermənistan tərəfindən nəzərə alınmalı olan yeni reallıqdır. Çünki postmüharibə vəziyyətinin gedişatından gördüyümüz kimi əsas beynəlxalq oyunçular artıq yeni reallığı qəbul edib və gələcəyi bu yeni reallığa əsaslanaraq qurmağa çalışırlar. Ermənistan Azərbaycana qarşı istənilən düşmənçilik əməllərindən çəkinməli, Azərbaycana qarşı ərazi iddialarından çəkinməlidir. Çünki mən bir neçə dəfə demişəm ki, bizim Ermənistana qarşı ərazi iddialarımızın olması üçün çox tarixi səbəblərimiz var. Onlar sülh razılaşması üzərində işləməli və XXI əsrdə normal davranışa riayət etməlidirlər. Biz istənilən halda qonşuyuq, heç birimiz başqa planetə köçməyəcəyik. Ona görə də, biz xalqlar arasında təmaslar da daxil olmaqla münasibətlərin normallaşması üçün yavaş-yavaş, addım-addım təməl hazırlayaraq yanaşı yaşamağı öyrənməliyik. Biz açıq şəkildə demişik ki, buna hazırıq. Lakin hələ ki, Ermənistan tərəfdən heç bir müsbət işarə almamışıq. Mənə elə gəlir ki, Ermənistanda daxili vəziyyət və bayaq qeyd etdiyim kimi, müharibədə məğlubiyyətlərindən sonra məyusluq və yumşaq desəm, narazılıq, şişirdilmiş gözləntilər, hərbi və siyasi potensiallarının qeyri-real qiymətləndirilməsi səbəbilə onların cəmiyyətində bir növ psixoloji travma yarandı. Ona görə də, Ermənistan hökumətinin azərbaycanlılara qarşı nifrətin aşılanmasına əsaslanan ictimai rəyin arxasında dayanmaması və normallaşma prosesində öndə getməsi vacibdir. İctimai rəy formalaşdırılmalıdır. Ermənistanın inkişafı üçün yeganə yol Azərbaycanla əlaqələrin normallaşdırılması, Türkiyə ilə əlaqələrin normallaşdırılması, qonşu olmaq, düşmən qonşu deyil, normal qonşu olmaq və ərazi iddialarından çəkinmək məqsədilə insanları inandırmaq üçün mühüm addımların atılmasıdır. Düşünürəm ki, əgər bu formul Ermənistan hökuməti və siyasi elita tərəfindən qəbul edilsə, bizim irəliləyiş üçün şansımız var. Bizə gəlincə isə, bizim mövqeyimiz açıq-aşkardır. Mən bunu dəfələrlə açıq şəkildə dilə gətirmişəm və bir daha deyirəm ki, biz Cənubi Qafqaz üçün sülh istəyirik, sabitlik, təhlükəsizlik və çiçəklənən gələcək istəyirik.

-Sizcə, burada, Brüsseldə Avropa İttifaqının rəhbərliyi ilə təmas Soçidəki son görüşdən nə ilə fərqlənir? Demək istəyirəm ki, görünür, cənab Putinin rəhbərliyi ilə artıq çox işlər görülüb. Siz Brüsseldəki təmasların fərqi barədə nə deyərdiniz?

-Səmimi desək, mən heç bir fərq görmürəm. Çünki mən iki ölkə arasındakı münasibətlərin normallaşmasına kömək etmək üçün Rusiya və Avropa İttifaqının həqiqi istəyini görürəm. Əks halda, onlar bu danışıqlarda bizə vaxt sərf etməzdilər və bizim vaxtımızı almazdılar. Rusiya və Avropa İttifaqı əsas beynəlxalq oyunçulardandır. Onların görəcəyi çox iş var, çox geniş gündəlikləri var. Əgər onlar bu məsələni müzakirə etmək məqsədilə Azərbaycan və Ermənistan liderləri ilə görüşmək üçün bir dəfə deyil, mütəmadi olaraq vaxt sərf edib səy göstərirlərsə, bu, o deməkdir ki, onların əsl istəyi kömək etməkdir və biz bunu qiymətləndiririk. Biz burada hər hansı rəqabət görmürük, baxmayaraq, bəziləri düşünə bilər ki, bu, bir növ rəqabətdir, qətiyyən belə deyil. Bizə gəlincə, görürük ki, bu səylər bir-birini tamamlayır, bu səylər sülh prosesini dəstəkləyə bilər. Mən onu da bilirəm ki, Prezident Putin və Prezident Mişel arasında təmaslar olub, onlar Azərbaycanla Ermənistan arasındakı münasibətlər də daxil olmaqla, bir çox məsələləri müzakirə ediblər. Düşünürəm ki, uzunmüddətli sülhdə maraqlı olan beynəlxalq ictimaiyyətin, təsisatların, ölkələrin bu səyləri çox müsbət nəticə verə bilər. Çünki uzun illər davam edən işğaldan və düşmənçilikdən sonra beynəlxalq oyunçular prosesə birmənalı şəkildə dəstək nümayiş etdirməlidirlər. Əgər Ermənistan sülh sazişinin hazırlanmasında bizimlə əməkdaşlıq etməyə razılaşsa, sözsüz ki, fəsilləri, əsas prinsipləri formalaşdırmaq və həll tapmaq üçün bizim beynəlxalq təcrübəyə, beynəlxalq tərəfdaşlara ehtiyacımız olacaq. Beləliklə, mənim gözləntilərim bununla əlaqədardır. Sözsüz ki, hər şey bugünkü üçtərəfli görüşün necə keçməyindən asılı olacaq. Lakin bizim mövqeyimiz aydındır. Biz buraya müsbət dinamikanı gücləndirməyə gəlmişik.

-Beynəlxalq Ədalət Məhkəməsinin sonuncu bəyannaməsi Sizin hökumətinizdən, – mən olduğu kimi oxuyuram, – erməni milli və ya etnik mənşəyini hədəfə alan irqi nifrət və diskriminasiyanın təhriki və təbliğinin qarşısını almaq, 2020-ci il münaqişəsi ilə əlaqədar əsir götürülmüş və saxlanılan bütün şəxsləri zorakılıq və bədən xəsarətlərindən qorumaq və onların təhlükəsizliyini və qanun qarşısında bərabərliyini təmin etmək üçün lazımi tədbirlər görməyi xahiş edib. Mən Sizdən soruşmaq istərdim, vəziyyətlə bağlı bu istiqamətdə hansı addımlar atılıb?

-İlk növbədə, mən demək istərdim ki, beynəlxalq məhkəmə, həmçinin bizim Ermənistana qarşı işimizlə bağlı ilkin rəyini açıqlayıb. Mən deyərdim ki, indiyədək bu qurumun qəbul etdiyi qərar balanslaşdırılmışdır. Əgər siz Ermənistana verilən tövsiyəni oxusanız, yəqin ki, daha dəqiq və daha israrlı ifadələr görəcəksiniz. Bizə gəlincə, Azərbaycanda dövlət siyasətimiz münasibətlərin normallaşdırılması məqsədi daşıyır. Ona görə də, bu, bizim mövqeyimizdir və mən bunu açıq şəkildə bəyan edirəm.

İctimai rəyə gəlincə, başa düşmək lazımdır ki, demək olar, 30 il ərzində Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan mədəni irsinə qarşı soyqırımı törədib. Bizim şəhər və kəndlərimiz yerlə-yeksan edilib. Avropa və dünyanın digər yerlərindən olan jurnalistlər də daxil olmaqla, minlərlə ziyarətçi onların bizim tarixi

abidələrimizə, şəhər və kəndlərimizə etdiklərini öz gözləri ilə görüblər. Ağdam mövcud deyil, Füzuli mövcud deyil, tamamilə yerlə-yeksan edilib və bunlar - bütün binaların qəsdən dağıdılması və dini abidələrimizin məhvi Birinci Qarabağ müharibəsi zamanı deyil, işğal dövründə törədilib. 67 məsciddən 65-i tamamilə dağıdılıb. Yerdə qalan 2 məsciddə onlar azərbaycanlıların heysiyyətini təhqir etmək üçün donuz və inək saxlayıblar. Ona görə də, təbiidir ki, Azərbaycanda çox sayda insan, xüsusilə əzizlərini itirən, ərazilərini itirən insanların Ermənistana qarşı mənfi hissləri var. Bu, təbiidir. Mən "xeyr, müharibə başa çatıb, indi gəlin dost olaq" desəydim, bu, səhv olardı. Bu, vaxt aparacaq. Lakin məsələ dövlət siyasətindədir. Mən artıq dəfələrlə demişəm ki, tariximizdəki bütün bu faciəvi hadisələrə, dağıntılara, Xocalıdakı soyqırımına baxmayaraq, biz səhifəni çevirməliyik. Əgər gələcəyə baxmaq, sabit vəziyyət yaratmaq, yeni müharibə riskini tamamilə minimuma endirmək istəyiriksə, səhifəni çevirməliyik. Bizim siyasətimiz budur. Saxlanılan şəxslərə gəlincə, İkinci Qarabağ müharibəsi başa çatandan sonra Azərbaycan Ermənistandan qabaq bütün hərbi əsirləri azad etdi. Beynəlxalq müşahidəçilər bunu sübut edə bilərlər. Hazırda saxlanılan şəxslər hərbi əsir hesab edilə bilməzlər, çünki onların əksəriyyəti noyabrın sonunda, müharibə başa çatandan demək olar ki, 20 gün sonra işğaldan azad edilmiş ərazilərə terror aktları törətmək üçün göndəriliblər. Onlar bu terror aktlarını törədiblər, nəticədə bir neçə hərbçi və mülki şəxs həlak olub və onlar saxlanılaraq məsuliyyətə cəlb ediliblər. Onların bəziləri humanitar məqsədlərlə azad ediliblər. İndiyədək biz 100-dən çox saxlanılan şəxsi azad etmişik. Cinayət törədənlər isə mühakimə olunublar. Beləliklə, bu insanlar heç bir beynəlxalq konvensiya ilə hərbi əsir hesab edilə bilməzlər. Digər məsələ ondan ibarətdir ki, saxlanılan şəxslərin bəziləri, biz onları geri qaytarandan sonra, – onlardan 10-unu 10 gün əvvəl qaytarmışıq, – Ermənistanda həbs olunub. Bu, bizə, bu insanlara, onların qohumlarına çox ciddi bir siqnaldır. Biz onları Ermənistana qaytarmışıq, onlar isə həbs ediblər. Ola bilsin ki, onlar bu şəxslərə işgəncə verəcəklər. Onların çox sərt təcrübəsi var, çünki bizim əsirlərin Ermənistan həbsxanasındakı dəhşətli vaxtlar barədə danışdıqları onu göstərir ki, bu insanlar çox ağır işgəncələrə məruz qalacaqlar. Ona görə də, əgər biz daha çox adam qaytarsaq, onlar həbs olunacaqlar. Bu, real faktdır və bunu təsdiq etmək olar.

-İcazə verin, hərbi əsirlərlə bağlı bir daha soruşum, çünki təkcə Ermənistan tərəfdən deyil, beynəlxalq təşkilatlar tərəfindən də birbaşa iddialar var ki, saxlanılan onlarla insan var, heç kim əsl sayını bilmir. Bu yaxınlarda hərbi əsirlər sizin ərazilərinizdəki mina xəritələrinin təqdim edilməsi müqabilində dəyişdirilib. Mən bilmək istərdim, bu şəxslərin siyahısı varmı və Siz saxlanılan həmin şəxslərin siyahısını paylaşmağa hazırsınızmı? Siz iddia edirsiniz ki, onlar terrorçudurlar, digər tərəf iddia edir ki, onlar hərbi əsirdirlər. Bizim adlar və sayın göstərildiyi siyahını əldə etmək imkanımız varmı?

-Burada heç bir sirr yoxdur. Siyahı bəllidir, beynəlxalq təşkilatlar və ermənilər də bundan xəbərdardır. Məsələn, noyabr ayının ortalarında hərbi təxribat həyata keçirərkən 30-dan artıq erməni hərbçisi saxlanılıb. Onların biri yaralı idi və bizim həkimlər onun qeydinə qaldılar, o, əməliyyat olundu və sağalan kimi biz onu geri qaytardıq. Bu, həqiqətdir və təsdiqini tapmış məsələdir. Həmin qrupa daxil olan daha 10 nəfər də geri qaytarılıb və onların bir çoxu artıq Ermənistanda həbsdədir. Beləliklə, Ermənistanın noyabrdakı hərbi təxribatı nəticəsində təqribən 30, ötən ilin noyabrından bəri isə 40-a yaxın hərbçisi əsir düşüb və biz bu rəqəmləri gizlətmirik. Ermənistan tərəfinə əsirlərin ad, soyad və təvəllüdləri ilə bağlı siyahı təqdim edilib. Yəni, onların bundan xəbəri var, beynəlxalq təşkilatların məlumatı var, biz bunu gizlətmirik, çünki burada sirr yoxdur. Eyni zamanda, məhkəmələrin qərarları ictimaiyyətə açıqdır və hər kəs əsirlərin sayını bilir. Lakin yenə də deyirəm, bu, ədalət mühakiməsi məsələsidir. O şəxslər ki, cinayət törətməyib, azərbaycanlıları qətlə yetirməyib, onlar geri qaytarılıb. Artıq qeyd etdiyim kimi, belə şəxslərin sayı 100-dən çoxdur. Məndə olan məlumata görə, xırda cinayətlər törədənlər yüngül cəzalar alıb. Ancaq azərbaycanlıların qətlində əli olanlar məhkəmə qarşısında cavab verməlidir və bu, istənilən ölkədə belədir. Bir daha deyirəm, bu şəxslər İkinci Qarabağ müharibəsinin başa çatmasından 20 gün sonra saxlanılıb. Onlar azad olunmuş ərazilərə noyabrın 26-da göndərilib və ötən il dekabr ayının əvvəlində saxlanılıblar. Növbəti qrup isə qeyd etdiyim kimi, bu ilin noyabrında saxlanılıb. Burada mənzərə tamamilə şəffafdır.

-Həmin şəxslərin hərbi əsir kimi qiymətləndirilməsi və hərbi əməliyyatların dayandırılması razılığına əsasən, Ermənistan tərəfinə qaytarılması ehtimalı varmı?

-Dediyim kimi, onlardan 10 nəfəri on gün bundan əvvəl qaytarılıb. Proses humanitar əsaslarda davam edir. Biz heç vaxt "yox" deməmişik, ancaq proses Azərbaycan qanunvericiliyi çərçivəsində, ədalət və humanizm üzərində qurulmalıdır. Bu amillərin vəhdəti mövcuddur, proses gedir, onun davam edəcəyini istisna etmirik. Burada nəyin nə vaxt baş verəcəyini deyə bilmərəm, ancaq proses gedəcək.

-Təbii qaz məsələsinə toxunmaq istəyirəm. Bildiyiniz kimi, son vaxtlarda Avropa İttifaqının qaz ehtiyatları azalmaqdadır, qazın qiyməti isə artır. Bizim üçün ən əsas qaz təchizatçısı idxalımızın 40 faizinin payına düşdüyü Rusiya ilə münasibətlərdə gərginlik var. Münasibətlər özünün ən pis dövrünü yaşayır. Azərbaycanın iqtisadiyyatı neft və qaz ixracına əsaslanır, ixrac bazarları isə Aİ və Qərbdir. Siz hazırkı vəziyyəti necə təhlil edərdiniz, Aİ və ümumilikdə region hazırkı böhranın öhdəsindən necə gələ bilər?

-Əvvəla, demək istəyirəm ki, biz iqtisadiyyatımızın şaxələndirilməsi, neft və qaz sahəsindən asılılığın azaldılması üzərində fəal çalışırıq. Bizim ümumi daxili məhsulumuzun strukturuna nəzər salsanız, neft və qaz amili 50 faizdən aşağıdır. İxraca gəldikdə isə əlbəttə, bu, bizim əsas ixracımızdır və təbii qaza gəldikdə, bu ixrac artmaqdadır. Hazırda qazın qiyməti ilə bağlı, necə deyərlər, böhranın səbəbi mənə məlum deyil və səmimi desəm, bu, məni maraqlandırmır. Biz isə öz növbəmizdə ev tapşırığımızı yerinə yetirirdik, neft və qaz sektoruna milyardlarla ölçülən sərmayə cəlb edirdik və XXI əsrin ən mühüm infrastruktur layihələrindən olan Cənub Qaz Dəhlizi üzərində çalışırdıq. Həmin layihə ötən ilin son günündə başa çatdırılmışdır. Layihənin dördüncü seqmenti – Transadriatik qaz kəməri 2020-ci il dekabrın 31-də istismara verildi və həmin vaxtdan bizim Avropaya ixracımız başladı. Bundan əvvəl bizim ixrac bazarımız əsasən Türkiyə və Gürcüstan idi. Beləliklə, bizim qazımızı yeni alan ən böyük istehlakçı İtaliyadır, sonra isə Yunanıstan və Bolqarıstandır. Burada coğrafiyanı genişləndirmək üçün potensial mövcuddur. Bu il artıq biz Avropa İttifaqına 7 milyard kubmetrdən çox təbii qaz ixrac etmişik. Gələn il biz 9 milyard kubmetr, 2023-cü ildə isə 11 milyard kubmetr qaz ixrac etməyi planlaşdırırıq. Bu rəqəm arta da bilər, ancaq bilirsiniz ki, qaz bazarı neft bazarından fərqlidir. Burada müqavilələr əvvəlcədən bağlanmalıdır. Hazırda ixrac etdiyimiz qaz həcmlərinə dair müqavilələr boru kəmərinin istifadəyə verilməsindən öncə bağlanıb. Qaz sahəsində biznes bu şəkildə aparılır. Beləliklə, hasilatı artırmaq və ya Avropa İttifaqının yeni üzvləri ilə əməkdaşlığı planlaşdırmaq üçün praktiki səviyyədə danışıqlar aparılmalı, həmin bazarın potensialı və Avropada qaz infrastrukturu sistemlərinin bağlılığı qiymətləndirilməlidir. Bilirəm ki, hazırda Avropada yeni bağlantılar üzərində iş gedir. Yəni, bunu planlaşdırmaq lazımdır, çünki bizim qazımız uzunmüddətli müqavilələr əsasında satılır və biz müqavilələri 100 faiz yerinə yetiririk. Azərbaycan Avropa İttifaqı üçün etibarlı tərəfdaşdır və əlbəttə, bu mövzu daim bizim gündəlikdədir. Mənim qiymətləndirməm ondan ibarətdir ki, bizim nəhəng təbii qaz ehtiyatımız var. Biz Avropaya təbii qazın ənənəvi təchizat marşrutlarından daha qısa marşruta malikik və bizim mənbə Avropa bazarı üçün yenidir. Siz artıq qeyd etdiniz, Avropa İttifaqı və Avropa İttifaqına üzv olmayan bəzi ölkələrdə hasilatın səviyyəsi azalır və hamımız bilirik ki, bəzi dövlətlərin enerji strategiyasına dair qərarlarından irəli gələrək Avropanın təbii qaza ehtiyacı artacaq. Azərbaycan Avropanın etibarlı tərəfdaşı və dostudur. Təsəvvür edin, Azərbaycan Bakıdan İtaliyaya qədər uzanan, bir hissəsi dənizin dibi ilə gedən 3500 kilometrlik boru xəttini inşa edib. Yəni, hər şey hazırdır və qaz idxal olunur. Burada görüləcək iş Avropa Komissiyası və bizdən daha artıq həcmdə qaz almaq istəyən və ya yeni həcmdə qaz idxal etmək arzusunda olan ölkələrlə təmas qurmaq və danışıqlara başlamaqdan ibarətdir.

-Ötən il həyata keçirdiyiniz yeni qaz dəhlizi – TAP layihəsinə cənab Putin ilə söhbətlərinizdə toxunulubmu? Bu, Rusiya qazına alternativ olduğu üçün cənab Putini narahat edən məsələdirmi?

-Xeyr. İl ərzində müntəzəm olaraq görüşməyimizə və tez-tez telefon söhbəti aparmağımıza baxmayaraq, səmimi desəm, biz heç vaxt Prezident Putinlə bu məsələni müzakirə etməmişik. O, bu məsələni heç vaxt qaldırmayıb, çünki zənnimcə, bu rəqabət məsələsi böyük mənada şişirdilib. Bizim təchiz etdiyimiz qazın həcmi Rusiyanın təchizatı ilə müqayisə edilə bilməz. Rusiyanın Avropaya ixracı 100 milyardlarla kubmetr təşkil edir və bu rəqəm artmaqdadır. Bizim Avropaya ixracımız dediyim kimi, rəqabət təşkil etmir və biz heç vaxt buna rəqabət kimi baxmamışıq. Bizim üçün bu, bir kommersiya layihəsi idi. Bu gün bütün boru kəmərləri və infrastruktur hazır olduğu üçün Avropa və digər ölkələrə qaz təchizatının əsas mənbəyi olan "Şahdəniz" yatağının daxili gəlirlilik dərəcəsi artıb. Yəni, o, kommersiya baxımından çox cəlbedici olub. Biz nəhəng qaz ehtiyatlarına malikik və bizim bazara ehtiyacımız var idi. Bizim üçün bazar hara ola bilərdi? Bu, Rusiya ola bilməzdi, çünki Rusiya özü ixracatçıdır. Bu, Gürcüstan da ola bilməzdi, çünki onun qaza olan ehtiyacı nisbətən azdır. Bu, Türkiyə ola bilərdi və oradan isə Avropa. Biz məhz belə də etdik. Türkiyəyə ixrac 2006-cı ildə başlandı. Həcm getdikcə artırdı və daha sonra Avropaya ixrac başlandı. Yəni, bizim üçün bu, bir kommersiya layihəsi idi, lakin onu siyasiləşdirdilər. Təəssüf ki, böyük mənada bunun heç bir mənası yox idi. Rusiya Federasiyası və onun rəhbərliyi məsələnin əsl mahiyyətini anlayır. Bizim qazımız heç bir halda alternativ deyil. Bu, yalnız istehlakçıların ehtiyacı olduğu əlavə həcmdir. Məsələn, bu gün bizim qazımız Türkiyənin ehtiyacının 20 faizini və Gürcüstanın ehtiyacının təqribən 90 faizini təmin edir. Qazımız artıq Avropaya nəql edildiyindən biz Avropa İttifaqının bəzi üzv ölkələrinin ehtiyaclarının əhəmiyyətli hissəsini təmin edəcəyik.

-Sonuncu sualım dronlar haqqındadır. Ermənistanla müharibədə Sizdə dronların olması çox mühüm əhəmiyyət təşkil edirdi. Bu haqda düşüncələrinizi bilmək istərdim. Səhv etmirəmsə, Sizdə İsrail və Türkiyə texnologiyası əsasında hazırlanmış dronlar var. Bilmək istəyirəm ki, bu dronlar indi dünya satışına çıxarılacaqmı? Onları müstəqil şəkildə istehsal etmək və dünyaya satmaq imkanınız var. Dünya bunda maraqlıdırmı? Ümumiyyətlə, bu, müasir müharibəni və dronların müasir müharibələrin zəruri bir elementinə necə çevrilməsini əks etdirir.

-Bəli, bu, beynəlxalq hərbi mütəxəssislərin ümumi dəyərləndirməsidir ki, Azərbaycan XXI əsrin müharibəsini apardı. Bizdən əvvəl heç kim müharibəni bu cür aparmayıb. Təkcə dronlar deyildi, çox dəqiq kəşfiyyat

var idi. Qeyd etdiyiniz kimi, hər iki ölkədən – Türkiyə və İsraildən olan dronlar inteqrasiya olunmuşdu. Bizdə olan İsrail dronları kəşfiyyat dronları və kamikadze dronları idi, Türkiyə dronları kəşfiyyat dronları və qırıcı dronlar idi. Bunları bir hərbi əməliyyatda birləşdirmək asan deyildi. Eyni sözü bizim hava hücumundan müdafiə sistemi barədə demək olar. Bizdə İsrailin hava hücumundan müdafiə sistemi var, Rusiyanın hava hücumundan müdafiə sistemi var – S300. Bizim "BUK" tipli hava hücumundan müdafiə sistemimiz var. Beləliklə, bu hava hücumundan müdafiə sistemlərini birləşdirmək də həmçinin ciddi hədəf idi və hava hücumundan müdafiə sistemlərinin effektiv istifadəsi ilə biz özümüzü böyük faciədən qoruduq. Çünki Ermənistan bizə qarşı ballistik raketlər ataraq yuxuda olan şəhərləri dağıdırdı. Gəncə şəhəri bir neçə dəfə SCUD raketinin hücumuna məruz qaldı. Onlar yaşayış məntəqələrini dağıtmaq üçün hədəfə alırdılar. Onlar "İsgəndər-M" ballistik raketlərindən istifadə etdilər. Bu, sonuncu gün Şuşanı dağıtmaq üçün istifadə olunmuşdu. Bir dənə deyildi. Bu raketlərin çoxu bizim hava hücumundan müdafiə sistemi tərəfindən zərərsizləşdirilmişdi. Beləliklə, hava hücumundan müdafiə sistemi, dronlar, artilleriya. Dronlar artilleriyaya hədəfi göstərirdi. Artıq sirr deyil ki, müharibənin ilk günlərində biz Ermənistanın hava hücumundan müdafiə sistemini aşkar etmək üçün kiçik, yüngül təyyarələrdən istifadə edirdik. Pilot tullanırdı və kənd təsərrüfatı məqsədləri üçün nəzərdə tutulmuş kiçik təyyarə mövqelərə gedirdi, Ermənistanın hava hücumundan müdafiə sistemi bu lazımsız hədəfə hücum etməklə özünü aşkar edirdi. Sonra biz Ermənistanın hava hücumundan müdafiə sistemini məhv edirdik. Bu amillərin birləşməsi, üstəlik, ilk növbədə, öz həyatlarını qurban verən əsgər və zabitlərimizin motivasiyası və cəsarəti. Üç minə yaxın azərbaycanlı öz vətənləri uğrunda həlak oldu. Bütün bu amillər çox çətin coğrafi şəraitdə qələbədə həlledici rol oynadı. Çünki biz dağlara çıxmalı olurduq, elə şəraitdə ki, ermənilər demək olar, 30 il ərzində 6 istehkam xətti qurmuşdular, minalar basdırmışdılar. Yalnız müharibədən sonra bizdə demək olar ki, 200 nəfər minaya düşərək həlak olub və ya yaralanıb. Sözsüz ki, bütün bunlar bizim qələbəmiz üçün təməl yaratdı. Dronlara gəlincə, biz onları almağa davam edirik. Müharibə başa çatandan sonra biz yeni modifikasiyalar almaq üçün yeni müqavilələr imzaladıq və qeyd etdiyiniz kimi, eyni zamanda, biz qırıcı, kamikadze deyil, kəşfiyyat dronları istehsal edirik və bu dronlar bazara çıxarılır. Azərbaycan 30-dan çox ölkəyə öz hərbi məhsullarını ixrac edir və biz artıq əsas ehtiyaclarımızı ödəyən hərbi sənaye kompleksini inkişaf etdirmişik. Biz bunu davam etdiririk, çünki qeyd etdiyim kimi, hələ də erməni revanşizmi təhlükəsi var, hələ də sabitliyin pozulması təhlükəsi var. Beləliklə, biz hər zaman sərhədlərimizi müdafiə etməyə hazır olmalıyıq.

-Müharibənin nəticəsi Sizin hərbi məhsullara marağınızı artırıbmı?

-Bəli, əlbəttə ki. Buna və eyni zamanda, bizim təcrübəmizə marağı artırıb. Çünki təcrübəmizi öyrənmək istəyən bir neçə ölkə artıq bizə müraciət edərək bunu necə etdiyimizlə maraqlanıb. Lakin müharibəyə ilk gündən son günədək rəhbərlik edən Ali Baş Komandan olaraq sizə bir daha deyə bilərəm ki, bunu necə etdiyimizi izah etmək çətin olar. Çünki siz bunu hiss etməlisiniz. Çünki biz demək olar ki, 30 il ərzində ermənilərin işğalından, təhqirindən, təkəbbüründən əziyyət çəkirdik. Onlar bütün beynəlxalq təşkilatların sənədlərinə zidd olaraq bizim torpaqlarda oturmuşdular, torpaqlarımızı dağıdırdılar, iddia edirdilər ki, bu torpaq onlara məxsusdur. BMT Təhlükəsizlik Şurası, ATƏT, Avropa Şurası, Avropa Parlamenti - onların hamısı bizi dəstəkləyən qətnamələr qəbul etmişdi, lakin onlar, sadəcə, orada oturmuşdular və bəyan edirdilər ki, həmişəlik orada oturacaqlar. Beləliklə, motivasiya, ruh yüksəkliyi və cəsarət qələbəmizin əsas amili oldu. Bu, milli ləyaqət və qürur məsələsi idi. Baxmayaraq, bir çoxları bizə bunu necə etdiyimizlə bağlı müraciət etsə də, düşünürəm ki, bunu izah etmək üçün uzun illər lazımdır.

-Vaxt ayırıb müsahibə verdiyinizə görə təşəkkür edirəm.

-Təşəkkür edirəm.

-Bugünkü görüşlərinizdə və növbəti günlərdə Sizə uğurlar arzulayıram

* * *

Dekabrın 15-də Belçika Krallığının paytaxtı Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığının VI Sammiti keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə iştirak edib.

Dövlətimizin başçısı Sammitdə çıxış edib.

Prezident İlham Əliyev uğurla inkişaf edən Azərbaycan-Avropa İttifaqı əlaqələrinə diqqət çəkərək Avropa İttifaqı ilə Azərbaycan arasında 2018-ci ildə paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədinin əhəmiyyətini vurğulayıb. Azərbaycanla Avropa İttifaqı arasında yeni tərəfdaşlıq sazişi üzərində işin 90 faizdən çoxunun artıq başa çatdırıldığını bildirən Prezident İlham Əliyev sənədin qalan hissəsinin qarşıdan gələn dövr ərzində aparılacaq danışıqlar nəticəsində yekunlaşdırılacağına ümidvar olduğunu ifadə edib. Dövlətimizin başçısı Azərbaycanın Avropa İttifaqının 9 üzv dövləti, yəni, quruma üzv ölkələrin üçdəbiri ilə strateji tərəfdaşlığa dair sənədlər imzaladığını vurğulayıb. İkitərəfli əsasda imzalanmış bu strateji tərəfdaşlıq sənədlərinin əlaqələrimizin xarakterini nümayiş etdirdiyini deyib.

Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin bu ilin iyul ayında Cənubi Qafqaz regionuna, o cümlədən Azərbaycana səfərini və səfər çərçivəsində onunla keçirdiyi görüşləri məmnunluqla xatırladıb, bu əsnada regional məsələlərə dair ətraflı müzakirələrin aparıldığını qeyd edib.

Dövlətimizin başçısı regional məsələləri daim gündəliyində saxladığına, bu proseslərə verdiyi töhfəyə və dəstəyə görə Avropa İttifaqı Şurasının Prezidentinə təşəkkürünü bildirib. Bu xüsusda Şarl Mişelin təşəbbüsü ilə dekabrın 14-də Azərbaycan Prezidenti və Ermənistanın baş naziri arasında 5 saata yaxın davam edən müzakirələrin konstruktiv mühitdə keçdiyini xüsusi qeyd edib. Prezident İlham Əliyev Şarl Mişelin Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına verdiyi töhfəni vurğulayıb. Həmçinin Şarl Mişelin təşəbbüsü ilə aparılan bu danışıqların çox praktiki olduğunu və təfsilatlı xarakter daşıdığını, burada Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat infrastrukturunun, xüsusilə də dəmir yolu xəttinin çəkilməsi kimi məsələlərin müzakirə olunduğunu, nəticə etibarilə səmərəli və praqmatik keçdiyini diqqətə çatdırıb.

Baş verənlərin səbəbi çox sadədir. Azərbaycan öz sərhədlərinə hörmətlə yanaşılmasını istəyir. Qarabağın azad edilməsindən sonra biz Ermənistanla öz sərhədimizə çıxdıq. Biz öz sərhədimizə gəlib, orada yerləşdik. Ermənistanın bəzi şəhərləri arasındakı yol Azərbaycanın ərazisindən keçir. Bu yoldan Qarabağa, bizim ərazimizə malların qeyri-qanuni daşınmasında istifadə olunduğunu görməyə başladıq. Bu, qəbuledilməzdir. Biz öz sərhədlərimizə hörmətlə yanaşılmasını tələb edirik. Biz hər hansı digər ölkənin sərhədini qeyri-qanuni olaraq pozmuruq. Beləliklə, mesajımız çox sadə idi - dayandırın bunu! Biz ictimaiyyətə açıqlamadan çox dostcasına bildirdik ki, bunu dayandırsınlar. Çünki bu, düzgün deyil. Biz həmin yollara nəzarət edirik və görürük ki, aldatmağın, “bunun baş vermədiyini” söyləməyin yeri yoxdur. Əfsuslar olsun ki, bu xəbərdarlığa adekvat cavab verilmədi. Sonra biz ikinci addımı atmalı olduq. Biz diplomatik nota hazırladıq, səfiri dəvət etdik və bunu ictimaiyyətə açıqladıq ki, bunu dayandıraq. Amma, əslində, bu, daha pis forma aldı, İrandan Qarabağa gedən yük maşınlarının sayı artdı. Bu addımı biz zərbə, bilərəkdən hörmətsizlik kimi saydıq. Sonra biz tamamilə qanuni hesab edilən başqa tədbirləri gördük və bu, qonşu ölkədə böyük qarışıqlığa, lazımsız hərəkətlərə səbəb oldu. Yersiz bəyanatlar verildi, hədələr edildi, sərhədimizə yaxın hərbi təlimlər keçirildi. Müəmmalı idi ki, ilk dəfə hərbi təlimlərin planlı tədbir olduğu deyildi. Sonra isə deyildi ki, bizə nəyi isə nümayiş etdirmək üçün edildi. Heç kəs öz iradəsini bizim üzərimizə qoya bilməz. Biz bütün ölkələrlə və ilk növbədə, qonşularımızla dost münasibətlərə malik olmaq istəyirik. Bir çox hallarda mən Azərbaycanın xarici siyasət prioritetləri haqqında danışanda, - əslində, bunların hamısı çap edilib, – demişəm ki, bizim prioritetimiz qonşu ölkələrlə münasibətlərdir. Səkkiz il ərzində işlədiyimiz əvvəlki İran hökuməti ilə biz münasibətlərimizi ən yüksək mümkün səviyyəyə qaldıra bildik. Mənim həmkarım cənab Həsən Ruhani ilə ondan artıq görüşüm olub. Bütün həmin görüşlər məhsuldar olub. Biz enerji, nəqliyyat, mədəni inkişaf, təhlükəsizlik sahələrində bir çox sazişləri imzalamışıq və icra etmişik. Münasibətlərimiz, əslində, dostluq və yaxşı qonşuluq rəmzinə çevrilmişdir. İranın yeni hökuməti, yeni Prezidenti seçiləndə biz nə etdik? Biz onun inauqurasiyasına parlament sədrinin və Baş nazirin müavininin rəhbərliyi ilə böyük nümayəndə heyətini göndərdik. Onlar mənim dostluq mesajımı birbaşa İran Prezidentinə çatdırdılar. Eyni zamanda, digər çatdırılan mesaj və mən bunu xüsusi olaraq əvvəlcə bildirdim, belə idi: “Xahiş edirik Qarabağda İran biznesmenləri tərəfindən aparılan qeyri-qanuni biznes fəaliyyətinə diqqət yetirin”. Biz İran hökumətini ittiham etmək mövqeyində deyildik. Biz anladıq ki, bunu bəzi özəl şirkətlər edir. Lakin biz bunun dayandırılmasını xahiş etdik. Cavab olaraq nə baş verdiyini hər kəs görür. Nəticədə nəyə nail olduq? Bir daha söyləyim ki, heç bir yaxşı şey baş vermədi. Buna görə, biz, ilk növbədə, İsrailin azad olunmuş torpaqlara gətirilməsi ilə bağlı Azərbaycana yönələn bütün ittihamları rədd edirik. Bu, tamamilə cəfəngiyyatdır. Bu, sadəcə, Azərbaycanı qaralamaq məqsədilə daxili auditoriyaya yönəlmiş bəhanədir. Hər kəs gedib görə bilər ki, orada heç həyat yoxdur. Hər bir şey dağıdılıb. İkincisi isə biz digərlərinə etdiyimiz hörmətin özümüzə də olmasını tələb edirik.

*- Sağ olun. Yalnız sonuncu sual. Üzr istəyirəm, “Pandora sənədləri”ni Sizdən soruşmaya bilmərəm. Bildiyiniz kimi, adınız orada çıxıb. Siz müdafiə olaraq “Pandora sənədləri” haqqında nə deyərdiniz?*

- Bilirsiniz, bu cür məsələlər məni çox illərdir müşayiət edir. Siyasi konyunkturadan asılı olaraq Qərbdə bəzi qüvvələr vaxtaşırı Azərbaycanı gözdən salmaq, onun mövqeyini zəiflətmək üçün bu cür iftiralardan və böhtanlardan istifadə etməyə çalışır. Aydındır ki, bu, jurnalist araşdırması deyil. Məlumdur ki, bunun arxasında kim dayanır. Aydındır ki, nəyə görə Azərbaycanın da adı çıxır. Mən başqaları haqqında bilmirəm. Ola bilsin, bəlkə onlar da elə bir şey ediblər ki, Qərbdə bəzi qüvvələrin xoşuna gəlməyib. Lakin Azərbaycana gəldikdə, əlbəttə ki, İkinci Qarabağ müharibəsində Qələbə bir çoxları üçün sürpriz oldu. Bu, onların xoşuna gəlmədi. Onlar Azərbaycanı zəif, asılı, işğal altında olan və hər zaman münaqişənin həlli üçün yardım istəyən ölkə kimi görmək istəyirlər. İndi isə bir

halda ki, Azərbaycan bunu özü etdi və Ermənistanı məğlub etdi, Ermənistana sıx bağlılığı olan Qərbdəki həmin dairələr yenə böyük fəallığa keçiblər. Biz bunu gözləyirdik. Əslində, biz bilirdik ki, Azərbaycana qarşı yeni qarayaxma kampaniyası planlaşdırılır.

Mətləbə gəldikdə, bildirmək istərdim ki, mən on səkkiz ildir Prezidentəm. Mən bundan əvvəl sahibkar olmuşam, bizneslə məşğul olmuşam. Tərcümeyi-halım da məlumdur. Özü də uğurlu sahibkar olmuşam. Prezident seçiləndə mən kasıb insan deyildim. Prezident olduqdan sonra mən biznesdə birbaşa iştirakımı dayandırdım və biznesi öz ailəmə ötürdüm. Siz bəlkə məni başa düşərsiniz ki, bütün mirasını pişiklərə və itlərə qoyub gedən Qərbdəki digər insanlardan fərqli olaraq, İtaliya və Azərbaycanda biz ailə dəyərlərinə daha çox üstünlük veririk. Buna görə, mən bütün biznesimi uşaqlarıma ötürdüm. Onlar isə səylər göstərib biznesi davam etdirirlər. Onların əsasən Azərbaycanda sərmayələri var. Onların Azərbaycandan kənarda sərmayələri var. Onların bütün biznes fəaliyyəti şəffafdır və beynəlxalq səviyyədə auditdən keçir və heç kəs burada bir şeyin səhv olması iddiası ilə çıxış edə bilməz.

Sənədlərdə nə yazılıbsa, səmimi desəm, mən onları oxumamışam. Mənə məlumat verildi və orada ola bilsin 5 faiz həqiqətdir. Qalanı isə yalandır. Amma bir daha bu haqda açıq söyləməyə qanuni haqqım var. Azərbaycanda sirr deyil ki, mənim qohumlarım və ailə üzvlərim biznesdə, xeyriyyəçilikdə və hazırda Qarabağda aparılan bir çox işlərdə iştirak edirlər. Məsələn, mənim yaratdığım Fond hazırda Qarabağda - Ağdamda, Şuşada və Zəngilanda bütün məscidlərin bərpasına sərmayə yatırır. Bu işlər Fondun pulu hesabına maliyyələşdirilir. Biz qaçqınlar üçün evlərin tikintisini maliyyələşdirmişik. Beş mindən çox ailə üçün bu işi görmüşük. Biz Azərbaycanda çox işlər görürük. Əlbəttə ki, bunlar Qərbdə bəzi insanların xoşuna gəlmir. Onlar bizi ittiham etmək istəyirlər. İstəyirlər ki, biz onlara tabe olaq. Bizi iradələrinə tabe etdirmək istəyirlər. Mən isə deyirəm: Yox! Mən Azərbaycanı, onun suverenliyini, müstəqilliyini, seçimini ömrümün sonuna qədər müdafiə edəcəyəm. Bütün həmin çirkin hekayələrin isə mənim və Azərbaycan xalqı üçün heç bir mənası yoxdur.

- Cənab Prezident, çox sağ olun. Ümid edirəm, Sizinlə bir gün Bakıda görüşəcəyəm.

## *İlham Əliyevin VIII Qlobal Bakı Forumunun açılış mərasimində nitqi*

Hörmətli dostlar, hörmətli xanımlar və cənablar, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin hörmətli həmsədrləri, hörmətli iştirakçılar. Sizin hamınızı salamlayıram. Bizimlə olduğunuza görə sizə təşəkkürümü bildirmək istəyirəm.

Mərkəzin həmsədrləri ilə 2021-ci ildə keçiriləcək illik Qlobal Bakı Forumunu müzakirə edəndə biz burada - Bakıda belə geniş təqdimatların olacağını heç təsəvvürümüzə belə gətirə bilməzdik. Bu, birinci növbədə onu göstərir ki, COVID ilə bağlı vəziyyət yaxşılaşır. İkinci növbədə isə, əlbəttə ki, həmçinin onu göstərir ki, siz bu tədbirə böyük əhəmiyyət verirsiniz. Çünki Qlobal Bakı Forumu qlobal siyasətə aid təxirəsalınmaz və vacib məsələlərin müzakirəsi baxımından aparıcı platformalardan birinə çevrilib.

Əvvəlcə, mən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinə, xanım Prezident Vayra Vike-Freyberqaya və cənab Serageldinə Mərkəzə mükəmməl rəhbərlik etdiklərinə görə təşəkkürümü bildirmək istəyirəm. Hətta pandemiya dövründə onların fəaliyyəti çox nəzərə çarpırdı. Məhz onların rəhbərliyi, Mərkəzə və onun ideallarına sadiqliyi sayəsində bu Mərkəz, qeyd etdiyim kimi, aparıcı beynəlxalq təsisatlardan birinə çevrildi. Mən, həmçinin İdarə Heyətinin üzvlərinə onların verdiyi töhfəyə görə təşəkkürümü bildirmək istəyirəm. Həmçinin daimi üzvlərə və iştirakçılara da təşəkkür edirəm.

İdarə Heyətinin üzvləri ilə dünən müzakirə etdiyimiz kimi, bura sanki böyük və mehriban ailədir. Hesab edirəm ki, bu da bizim uğurumuzun səbəblərindən biridir. Sadəcə, bu gün olan iştirakçıların, çıxışçıların, Foruma müraciət edəcək mötəbər şəxslərin siyahısına baxmaq kifayət edər ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin nisbətən qısa müddətdə ziyalıların, dövlət məmurlarının, siyasətçilərin, jurnalistlərin, dövlət xadimlərinin və vətəndaş cəmiyyəti üzvlərinin biliklərini, təcrübəsini və baxışını toplayan, böyük potensialı olan çox azsaylı aparıcı beynəlxalq təsisatlardan birinə çevrildiyini deyək. Beləliklə, bugünkü Qlobal Bakı Forumunda gündəlikdə duran təxirəsalınmaz məsələlər müzakirə olunacaq.

Lakin bu məsələlərin müzakirəsindən öncə məmnunluq hissi ilə bildirmək istəyirəm ki, dünən mənə bu il 880-ci ildönümünü qeyd etdiyimiz Nizamiyə həsr olunmuş iki kitab təqdim edilmişdir və mənim Prezident Fərmanıma əsasən bu dahi Azərbaycan şairinin xatirəsini uca tutmaq üçün bu il Azərbaycanda "Nizami Gəncəvi İli" elan olunub. Bugünkü Forumun gündəliyi çox genişdir. Lakin mən, əvvəlcə, bir neçə məsələyə toxunmaq istərdim.

Birincisi, əlbəttə ki, pandemiya ilə bağlıdır. Çünki bu indi qlobal gündəlikdə bir nömrəli məsələdir. Biz pandemiya, bəziləri isə postpandemiya dövrü haqqında danışır. Bizim artıq postpandemiya dövründə olduğumuz aydın deyil. Çünki müxtəlif ölkələr bu məsələyə fərqli yanaşır. Sizə məlumat vermək istəyirəm ki, Azərbaycan bu xəstəliyin, böhranın baş qaldırdığı vaxtdan, lap əvvəldən həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə çox fəal addımlar atmışdır. Biz bu ilin yanvarın 18-dən regionda ilk ölkələrdən biri olaraq peyvəndləməyə başladıq. Bu vaxta qədər yaşı 18-dən yuxarı olan əhalinin 60 faizindən çoxu iki dozanı alıb. Nisbətən qısa müddət ərzində biz ümumi çarpayı sayı demək olar ki, 4 min olan 13 yeni dövlət xəstəxanası

açdıq və ümumilikdə pandemiya ilə mübarizə aparmaq üçün 46 dövlət xəstəxanası ayrılmışdır. İndi bizdə qapanma yoxdur. Vəziyyət nəzarət altındadır. Yeganə məhdudiyyət ondan ibarətdir ki, biz daxili məkanlarda maska taxmaq məcburiyyətindəyik. Ümidvaram ki, biz vəziyyəti nəzarət altında saxlaya biləcəyik.

Eyni zamanda, biz, həmçinin əvvəllər olan qapanmaların yükünü azaltmaq üçün ciddi tədbirlər gördük. Biz işini itirmiş, qapanmalardan əziyyət çəkmiş insanlar üçün 2020-ci və 2021-ci illərdə sosial-iqtisadi yardım paketini ayırdıq və paketin ümumi dəyəri 2,9 milyard ABŞ dolları idi. Bu vəsait dövlət büdcəsindən maliyyələşmişdir. Biz bunu etməyə davam edəcəyik, çünki biz özlərini tamamilə yeni bir vəziyyətdə görən insanların üzərinə düşmüş yükü azaltmalıyıq. Biz əsasən iki peyvənddən istifadə edirik. "Sinovac" və "Pfizer"-dən. Qeyd etdiyim kimi, peyvəndləmə səviyyəsi yüksəkdir. Bu, əlbəttə ki, dövlət siyasəti sayəsində mümkün olmuşdur. Eyni zamanda, bildirmək istərdim ki, əhalimizin bu məsələyə çox məsuliyyətlə yanaşması bizdə məmnunluq doğurur və peyvəndləmə məcburi deyil. Bizdə hər hansı bir antipeyvəndləmə kampaniyası və ya hətta antipeyvəndləmə tendensiyası yoxdur. Azərbaycan xalqı peyvəndləmənin vacibliyini anlayır və bu, bizim işimizi xeyli asanlaşdırır. Qlobal miqyasda Azərbaycan, həmçinin çox fəal addımlar atıb. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının hazırkı sədri olaraq ötən il bizim təşəbbüsümüzlə aprel və may aylarında hər iki təşkilatın COVID-ə həsr olunmuş xüsusi Zirvə görüşü keçirildi.

Qoşulmama Hərəkatının Sammitində biz BMT-nin Baş Assambleyasının COVID-ə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdik və bu təşəbbüs beynəlxalq birliyin mütləq əksəriyyəti tərəfindən dəstəklənmişdir və bu xüsusi sessiya keçən ilin 3 və 4 dekabr tarixlərində baş tutdu.

Bu, bizim qlobal məsələlərin müzakirəsinə olan töhfəmiz idi. Eyni zamanda, biz BMT-nin İnsan Hüquqları Şurasında peyvəndlərlə bərabər və universal çıxış və peyvəndlərin ədalətli bölgüsünə dair təşəbbüs irəli sürdük. Biz qlobal səviyyədə "peyvənd millətçiliyi" və vaksinlərin ədalətsiz bölgüsü haqqında danışan ölkələrdənik. Bəzi ölkələr artıq peyvəndin üçüncü dozasının tətbiqini planlaşdırır. Digər ölkələrdə isə vaksinasiyanın səviyyəsi aşağıdır. Beləliklə, biz bərabər imkanların yaradılması üçün bu məsələni müzakirə etməliyik.

Bununla yanaşı, qeyd etmək istəyirəm ki, bizim təşəbbüsümüzlə COVID-19-un müalicəsi ilə bağlı məlumat bazası yaradılıb və Ümumdünya Səhiyyə Təşkilatı Qoşulmama Hərəkatına üzv ölkələrdə həmin məlumat bazasından istifadə edir. Bu isə öz növbəsində ÜST-yə öz dəstəyini düzgün planlaşdırmağa və proqnozlaşdırmağa kömək edir. Qoşulmama Hərəkatının sədri qismində biz 30-dan artıq ölkəyə maliyyə və humanitar yardımı etmişik. Biz təmənnasız olaraq bir neçə ölkəni peyvənd dozaları ilə təmin etmişik. Eyni zamanda, biz yoxsul ölkələrin dəstəklənməsi üçün Ümumdünya Səhiyyə Təşkilatına könüllü olaraq 10 milyon dollar həcmində maliyyə töhfəsi etmişik. Bunlar bizim qlobal səviyyədə atdığımız addımlardır. Əlbəttə, beynəlxalq ictimaiyyətin səylərinin birləşdirilməsi və dünyanın aparıcı dövlətlərinin məsuliyyətli yanaşma nümayiş etdirməsi bu xəstəliyin öhdəsindən gəlməyə yardım edəcək.

Toxunmaq istədiyim digər bir mövzu, Birinci Bakı Qlobal Forumundan başlayaraq hər yeddi Forumda haqqında danışdığım mövzudur – Ermənistan–Azərbaycan münaqişəsi. Bu gün isə demək istəyirəm ki, münaqişə həll edilib. Azərbaycan özü münaqişəni həll etdi. Azərbaycan 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri özü yerinə yetirdi. Təəssüflər olsun ki, həmin qətnamələr 27 il ərzində kağız üzərində qaldı və özü-nümüdafiə hüququnu ehtiva edən BMT Nizamnaməsinin 51-ci maddəsindən istifadə edən Azərbaycan özü ərazi bütövlüyünü bərpa etməsə idi, həmin qətnamələr növbəti 27 il ərzində də kağız üzərində qalacaqdı. Azərbaycan beynəlxalq hüquqi çərçivəni də istifadə etdi, çünki yalnız BMT Təhlükəsizlik Şurası deyil, digər aparıcı beynəlxalq təsisatlar Azərbaycanın ərazilərinin işğalı ilə bağlı bənzər qətnamə və qərarlar qəbul edib. BMT-nin Baş Assambleyası, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və Avropa Şurasının Parlament Assambleyası münaqişə ilə bağlı müxtəlif dövrlərdə buna bənzər qərar və qətnamələr qəbul edib ki, ötən il ərazilərimizi azad edərkən gördüyümüz işlər buna tam uyğun idi.

Təəssüf ki, Ermənistan yalnız status-kvonu möhkəmləndirmək, danışıqlar formatını yalnız münaqişənin əbədi dondurulması aləti kimi istifadə etməyə cəhd edirdi. Əvvəlki illərdə Ermənistan hakimiyyəti ATƏT-in Minsk qrupu çərçivəsində münaqişənin işğal edilmiş ərazilərin boşaldılması yolu ilə həllinə nail olmaq istiqamətində işləmək görüntüsü yaradırdısa, son bir neçə ildə Ermənistan rəhbərliyi işğal olunmuş torpaqların bir qarışını belə qaytarmayacağını artıq açıq şəkildə bəyan edirdi. Bununla bağlı kifayət qədər sübut var. Təkcə Ermənistanın hazırkı baş nazirinin Azərbaycanın işğal olunmuş ərazilərində iki il əvvəl verdiyi bəyanatı qeyd etmək kifayət edər – "Qarabağ Ermənistandır və nöqtə". Bu, əslində, danışıqların sonu idi. Birincisi, bu ziddiyyətli və yalan bəyanat idi, çünki Ermənistan rəhbərliyi iddia edirdi ki, Qarabağ "müstəqil dövlətdir". Halbuki Ermənistan da daxil olmaqla, dünyanın heç bir ölkəsi onu tanımamışdı. Digər tərəfdən isə onlar deyirdilər ki, "Qarabağ Ermənistandır". Yəni bu ziddiyyət Ermənistanın ötən il üzləşdiyi rüsvayçı məğlubiyyətlə nəticələnən təzadlı siyasətinin göstəricisi idi.

Beləliklə, bu qəbildən olan bəyanatlar danışıqların sonu oldu. Mənim təəssüratıma əsasən, ATƏT-in Minsk

qrupunun həmsədrləri də bu bəyanatdan təəccüblənmiş və pərt olmuşdular, çünki artıq onların görə biləcəyi bir iş qalmamışdı.

Digər bir bəyanat, Ermənistanın o zamankı müdafiə naziri tərəfindən verilmişdir. O, açıq şəkildə bəyan edirdi ki, Ermənistan "yeni ərazilər uğrunda yeni müharibə"yə hazırlaşır. Yəni, Azərbaycanın daha çox ərazisini işğal etməklə bağlı aşkar hədələmə. Təəssüflər olsun ki, beynəlxalq ictimaiyyət, o cümlədən ATƏT-in Minsk qrupunun həmsədrləri səssiz qaldılar, bunu pisləmədilər və bunun qəbuledilməz olması ilə bağlı hətta mesaj belə vermədilər. Ermənistan rəhbərliyinin atdığı bir sıra digər addımlar və verdiyi bəyanatlar Azərbaycanı təhrik etməyə yönəlmişdi. Mən separatçıların qondarma "prezidentinin" Şuşada keçirilən dırnaqarası "inauqurasiyasını" qeyd edə bilərəm. Bu, azərbaycanlıların hisslərinin açıq şəkildə təhqiri idi.

Mən, həmçinin separatçıların dırnaqarası "parlamentinin" Xankəndidən Şuşaya keçirilməsi haqqında Ermənistanın qərarı barədə deyə bilərəm. Bu, azərbaycanlıların hisslərinə növbəti təhqir idi. Ermənistan rəhbərliyi başa düşməli idi ki, xalqımızın hisslərini təhqir etmək iqtidarında deyillər. Hər səbrin hüdudu var.

Sonra, 2020-ci ilin iyulunda onlar sərhəddə açıq hərbi təxribata əl ataraq, mülki şəxslərimizi və hərbçilərimizi qətlə yetirdilər. 2020-ci ilin avqustunda diversiya qrupu göndərdilər ki, terror aktı törətsinlər. O qrup zərərsizləşdirildi. Son olaraq sentyabrda onlar Azərbaycanın dinc kəndlərini atəşə tutmağa başladılar.

Vətən müharibəsi adlandırdığımız İkinci Qarabağ müharibəsi 44 gün çəkdi və Ermənistan ordusunun tam məğlubiyyəti ilə bitdi. Ermənistan bizim şərtlərimizi qəbul etməyə məcbur edildi. Müharibənin ilk günlərində deyirdim ki, Ermənistanın baş naziri mənə işğal olunmuş ərazilərdən çıxmaq tarixlərini verəndən sonra biz dayanmağa hazırıq.

Ermənistan rəhbərliyinə təxminən 7000 qurban və 44 gün lazım gəldi ki, özünün tam acınacaqlı vəziyyətdə olduğunu başa düşsün. Noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktını imzaladı və müharibə bitdi. Biz öz sözümüzü yerinə yetirdik. İşğal olunmuş qalan ərazilərdən çıxmaq cədvəli verildikdə müharibə dayandı. Dörd gün sonra Azərbaycan xalqı tarixi Qələbəmizin birinci ildönümünü qeyd edəcək.

Azad edilmiş ərazilərdə biz nəyi gördük? Tam dağıntılar baş verib, bir dənə olsun bina salamat qalmayıb. İşğal illəri ərzində onlar bütün tarixi abidələri, 67 məsciddən 65-ni dağıdıblar. Evləri, həyətləri, ictimai binaları və sair tikililəri yerlə-yeksan ediblər. Bu, barbarlığın sübutudur.

Hazırda biz azad edilmiş əraziləri fəal şəkildə bərpa edirik. Genişmiqyaslı bərpa proqramına başlanılıb. Əminəm ki, qısa müddət ərzində biz Ermənistanın işğalından əziyyət çəkmiş məcburi köçkünləri, bir milyondan çox insanı həmin yerlərə qaytara biləcəyik. Müharibə və onun nəticələri onu göstərdi ki, gec və ya tez ədalət zəfər çalır. Siz öz məqsədinizə sadiq olmalısınız, yaxşı hazırlaşmalısınız, beynəlxalq hüquq çərçivəsinə malik olmalısınız və insanların yüksək səviyyədə iradəli olmasına nail olmalısınız. Bütün həmin meyarlar, o cümlədən hərbi imkanlarımız münaqişənin həllində əsas amil oldu. Hazırda münaqişə bitib və qeyd etdiyim kimi, yenidənqurma başlayıb. İndi biz postmünaqişə vəziyyətindəyik və biz Ermənistana bir sıra təkliflər etmişik ki, sülh müqaviləsi üzərində işləməyə başlayaq, çünki biz müharibə deyil, sülh, gələcək haqqında danışmaq istəyirik.

Əfsuslar olsun ki, bu təklifə hələ də cavab verilməyib. Eyni zamanda, biz hər iki ölkənin ərazi bütövlüyünü tanımaqla, dövlət sərhədlərimizin delimitasiyası və demarkasiyası üzərində işə başlamağı təklif etdik. Bu, həmçinin beynəlxalq hüquq normalarına və normal davranışa uyğundur. Bu təklifə də hələ baxılmayıb.

Təxminən 30 illik işğalın əziyyətlərinə, azad edilmiş ərazilərdə vandalizm və barbarlığa baxmayaraq, Azərbaycan maksimal konstruktivlik nümayiş etdirir. Biz gələcəyə nəzər salmalıyıq. Biz regionun təhlükəsiz, proqnozlaşdırılan və genişmiqyaslı əməkdaşlığa hazır olmasını təmin etməliyik. Bu barədə müxtəlif təkliflər var. Ola bilsin, siz onlar haqqında eşitmisiniz. Hesab edirəm ki, hər şey Ermənistanın mövqeyindən asılı olacaq, çünki bizim mövqeyimiz tam aydındır. Bu gün bir daha deyirəm ki, biz hazırıq, sülh danışıqlarına başlamağa, sülh razılaşması üzərində çalışmağa, səhifəni çevirməyə və sərhədin delimitasiyasına hazırıq. Görəcəksiniz ki, Ermənistandan cavab gəlməyəcək. Demək olar ki, bir ildir susurlar. Hesab etmirəm ki, hazırda onlar Azərbaycanın konstruktiv təklifinə qarşı çıxmaq mövqeyində deyillər. Əgər, onlar əvvəlki danışıqlar illərində bizi dinləsəydilər, özlərini normal insan kimi aparsaydılar, bugünkü vəziyyətə düşməzdilər.

Vaxtınızı çox almayaraq, digər sonuncu məsələni də qeyd etmək istərdim, çünki o, ötən ilin kölgəsində qalan məsələ oldu. Lakin o, tək bizim üçün deyil, bütün region üçün əhəmiyyətlidir. Bu, Cənub Qaz Dəhlizinin tikintisinin başa çatdırılmasıdır. 2020-ci il dekabrın 31-də həmin layihənin sonuncu hissəsi – Trans-Adriatik boru kəməri istismara verilmişdir. Bu, Azərbaycan, qonşularımız və Avropa üçün həqiqətən tarixi nailiyyətdir, çünki o, Avropanın enerji təhlükəsizliyinin mühüm meyarıdır. O, şaxələndirmənin mühüm alətidir. Cənub Qaz Dəhlizinə gəldikdə isə, söhbət nəinki marşrutların, o cümlədən mənbələrin şaxələndirilməsindən gedir. Azərbaycanın böyük qaz ehtiyatlarına söykənən təbii qazın yeni mənbəyi artıq Avropa bazarındadır. Bu il yanvarın 1-dən etibarən oktyabrın 31-dək, yəni on ay ərzində, Azərbaycan bu marşrutla 14 milyard kubmetrdən çox təbii qazı beş ölkəyə ixrac edib - Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan və Bolqarıstan. Bu həcmin təxminən yarısı Avropa İttifaqının istehlakçıları tərəfindən istifadə edilmişdir. Azərbaycan qazı ilə təchiz edilən ölkələrdə nə qaz böhranı, nə qiymət böhranı və nə də soyuqdan donma var. Bu,

göstərir ki, Cənub Qaz Dəhlizi Avropa üçün əsl enerji təhlükəsizliyi layihəsidir. Azərbaycan məsuliyyətli ölkə, hasilatçı və ixracatçı kimi, – hazırda tək nefti deyil, qazı da ixrac edirik, – gələcəkdə enerji təhlükəsizliyi məsələlərində çox mühüm rol oynayacaq.

Bununla mən çıxışımı bitirmək istəyirəm və çox vaxt almamaq məqsədilə sizə bizimlə olduğunuza görə bir daha təşəkkürümü bildirirəm və Foruma uğurlar arzulayıram.

Sağ olun.

## *İlham Əliyev Brüsseldə İspaniyanın “El Pais" qəzetinə müsahibə verib*

*Müxbir: Əvvəla, bizi qəbul etdiyiniz, Brüsseli ziyarət etdiyiniz üçün Sizə təşəkkür edirik. Belə bir xüsusi məqamda bizi qəbul etdiyinizə və bizə bu müsahibənin aparılmasına imkan yaratdığınıza görə təşəkkür edirik. Geosiyasi vəziyyət nöqteyi-nəzərindən böyük miqyasda, Avropa İttifaqı və onun qonşuları nöqteyi-nəzərindən kiçik miqyasda çox maraqlı məqamdır. Buna görə Sizə təşəkkür edirik.*

*Əvvəlcə, mən Ermənistanla hazırkı vəziyyət haqqında Sizdən soruşmaq istəyirəm. Hazırda vəziyyət nə yerdədir? Biz bir aydan da az müddətdən əvvəl sərhəddə ölümcül toqquşmaların olduğunu bilirik. Əlbəttə ki, hər iki tərəf məsuliyyəti bir-birinin üzərinə atır. Bu son hadisələrdə nəyin baş verdiyini və hazırkı vəziyyətin nədən ibarət olduğunu bilmək istəyirəm.*

**Prezident İlham Əliyev:** Müharibə bitəndən bəri 1 ildən çox müddət keçib və ümumiyyətlə, vəziyyət nisbətən sabitdir. Rusiya sülhməramlı qüvvələrinin Qarabağda məsuliyyət daşıdığı ərazidən danışırıqsa, vəziyyət Ermənistan-Azərbaycan sərhədində olan vəziyyətlə müqayisədə daha çox sabitdir. Bunun səbəbi isə əfsuslar olsun ki, Ermənistanın qisas almaq cəhdlərindən vaz keçməməsidir. İkinci Qarabağ müharibəsində məğlubiyyət onlar üçün çox ağrılı oldu. Bu məğlubiyyət demək olar ki, onların otuz ildir davam edən “yenilməz ordusu”, “gücü”, “əsgər və komandirlərinin cəsarəti” haqqında müharibə təbliğatını və ideoloji zəminini darmadağın etdi. 44 gün davam edən müharibə zamanı Ermənistan ordusu tamamilə məhv edildi və onlar ötən il noyabrın 10-da kapitulyasiya aktına imza atmaq məcburiyyətində qalaraq bizim 44 günlük müharibədə geri almadığımız əraziləri geri qaytarmağa razılıq bildirdilər. Buna görə də Ermənistan cəmiyyətində, siyasi spektrində revanşizm əlamətləri görünür. Buna görə də Rusiya sülhməramlılarının xidmət etdiyi ərazidə buna imkanın olmadığını dərk edərək onlar dövlət sərhədində hərbi təxribatlar törətməyə cəhd göstərirlər.

Digər məsələ isə ondan ibarətdir ki, Azərbaycan və Ermənistan arasında dövlət sərhədi təyin olunmayıb. Buna səbəb 1990-cı illərin əvvəlində hər iki ölkənin müstəqilliyinin bərpasından dərhal sonra Azərbaycanın həmin hissəsinin işğalının baş verməsi idi. Buna görə həm fiziki, həm də siyasi olaraq sərhədləri demarkasiya və delimitasiya etmək mümkün deyildi. Beləliklə, keçən ilin noyabrında İkinci Qarabağ müharibəsi bitəndə həmin ərazidə iqlim şəraiti digər ərazilərdən fərqli idi. Uca dağlar və qarla dolu bir ərazi idi. Bu ilin may ayında qar əriməyə başladı. Bu baş verən kimi Azərbaycan Ordusu dövlət sərhədinə tərəf hərəkət etməyə başladı və bu sərhədin haradan keçməsi ilə bağlı olan anlayışımıza əsasən, dövlət sərhədində mövqe tutdu. Yəni, hadisə belə olub. Əfsuslar olsun ki, Ermənistan Azərbaycanın hər hansı bir səbəb olmadan Ermənistanın ərazisinə müdaxilə etməsi ilə bağlı iddialar irəli sürməyə başladı. Beləliklə, biz öz ərazimiz hesab etdiyimiz ərazidə dururuq. Qarabağ müharibəsinin bitməsindən sonra lap ilk günlərdən Ermənistana sərhədlərin demarkasiyası üzərində işləməyə başlamağı və delimitasiya üzrə birgə işçi qrupunu yaratmağı və ərazidə bütün mübahisələri masa üzərində aydınlaşdırmağı təklif etdik. Müharibə bitəndən sonra bir ildən çox müddətdə Ermənistan tərəfindən dövlət sərhədində hərbi təxribatlar törətmək üçün bir neçə cəhd edilib. Onların hamısı uğursuz oldu. Bütün bu səylər nəticəsində onlar öz hərbi mövqelərini itirdi və Azərbaycan dövlət sərhədində mövqelərini gücləndirdi. Eyni hal keçən ay baş verdi. O zaman onlar bilərəkdən Azərbaycan Ordusuna qarşı qəsdən təxribat törətdilər və bu, bir neçə gün davam etdi. İlk günlər ərzində atəş açılmırdı, çünki Azərbaycan əsgərləri həmin ərazinin onlara aid olmadığını və getməli olduqlarını onlara başa saldı və onlar da getdilər. Lakin bizə qarşı artilleriya hücumlarına başladılar. Bizdə bir neçə nəfər həlak oldu və yaralandı. İndi vəziyyət sabitdir. Biz özümüz heç nə planlaşdırmamışdıq, əks halda biz dayanmazdıq. Noyabrın 16-da baş vermiş toqquşma bir gündən az davam etdi. Səhər başladı və axşam saat 6-7 radələrində bitdi. Beləliklə, biz bunu planlaşdırsaydıq dayanmazdıq, çünki Ermənistanın istənilən yerdə bizi dayandırmaq üçün hərbi bacarığı yoxdur. Bizim belə planlarımız yoxdur və buna görə də biz dayandıq.

Biz sülh istəyirik, yetərincə müharibə oldu. Biz sabitlik, proqnozlaşdırma və Ermənistan tərəfindən istənilən revanşizm cəhdləri riskinin sıfır səviyyədə olmasını istəyirik. Buna görə biz onların bütün manevrlərini, yenidən qruplaşmalarını və bizə təhlükəli ola biləcək hərbi potensial yaratmaq üçün bütün cəhdlərini çox yaxından izləyəcəyik. Bunun baş verdiyini görsək, təhlükəni dərhal aradan qaldıracağıq və onlar bunu bilirlər. Beynəlxalq oyunçular də bunu bilirlər. Müsbət dinamika görsək, biz, əlbəttə ki, bundan yararlanacağıq və sülhün gücləndirilməsinə öz töhfəmizi verəcəyik.

*- Cənab Prezident, Sizcə Ermənistanla, sadəcə, atəşkəs deyil, real sülh sazişi haqqında nə zaman danışmaq olar?*

-Yəqin ki, bu sualı Ermənistana ünvanlamaq lazımdır. Mən dəfələrlə açıq bəyanat vermişəm ki,

Azərbaycan Ermənistanla sülh danışıqlarına və sülh razılaşması üzərində işləməyə başlamağa hazırdır. Bu vaxta kimi Ermənistan rəhbərliyindən heç bir cavab verilməmişdir. Mən bu cür bəyanatları altı aydan çoxdur ki, dəfələrlə etmişəm. Bu, onların sülh istəmədiyini göstərir, çünki imzalandığı təqdirdə sülh razılaşmasının əsas müddəalarından biri də hər iki ölkənin ərazi bütövlüyünün qarşılıqlı tanınması olacaq və Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımaq istəmir. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü və Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Ermənistan nə ərazi bütövlüyünü tanıdığını, nə də tanımadığını söyləyir. İkinci Qarabağ müharibəsindən əvvəl onlar deyirdilər və onların baş naziri açıq şəkildə bildirmişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Bu bəyanat, əslində, danışıqlar prosesini məhv etdi və onların keçən il yaşadığı acı məğlubiyyətin elementlərindən biri idi. Lakin indi Ermənistanın sanki bu məsələ ilə bağlı heç bir mövqeyi yoxdur. Biz çox açıq şəkildə deyirik ki, dərhal Ermənistanla hərtərəfli sülh razılaşması üzərində danışıqlara başlamaq istəyirik. Sizin dediyiniz kimi, bu, atəşkəs razılaşması yox, tam sülh razılaşması olacaq. Lakin ümid edirəm ki, yaqin Avropa tərəfdaşları Ermənistanı bu mövqeyinin gələcəyinin olmamasına inandıra biləcəklər. Hesab edirəm ki, Azərbaycanla sülh razılaşması olmazsa, onlar gələcəkdə yenə də əziyyət çəkə bilərlər.

*-Siz indi sərhədləri təkrar açmaq istəyirsiniz? Əlbəttə ki, bu sual əvvəlki sualla bağlıdır. Ermənistanla münasibətləri normallaşdırmaq üçün Siz sərhədləri açmağa hazırsınızmı və bunun baş verməsi üçün şərtlər nədir?*

-Bəli, biz sərhədləri açmaq istəyirik. Bu vaxta kimi Azərbaycanın, Ermənistanın və Rusiyanın Baş nazirlərinin müavinlərinin rəhbərlik etdiyi üçtərəfli işçi qrup çərçivəsində bir neçə dəfə danışıqlar baş tutub. Bu işçi qrupunun əsas məqsədi və vəzifəsi kommunikasiyaların açılmasıdır. Danışıqların bir neçə mərhələsi nisbətən uğurlu olub. İndi Azərbaycan və Ermənistan arasında dəmir yolu əlaqəsinin açılması ilə bağlı tam razılıq var və biz Ermənistan sərhədi istiqamətində azad edilmiş ərazilərdə sökülmüş dəmir yolu xəttini tikməyə başlamışıq. Eyni zamanda, əvvəlki aylarda Ermənistan avtomobil yolunun açılmasına etiraz edirdi, lakin indi biz onları bunun qaçılmaz olduğuna inandıra bilmişik və onlar da bununla razılaşır. Beləliklə, anlaşma var. İndi biz bu dəhlizlərin, Azərbaycandan keçib Ermənistana gedən və sonra Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasına gedən Zəngəzur dəhlizinin hüquqi rejimini müzakirə edirik. Burada bizim hələ də açıq qalan müəyyən məsələlərimiz var. Lakin hesab edirəm ki, hər iki ölkə bunun baş verməli olduğunu qəbul edir və yeri gəlmişkən, keçən ay Soçidə Prezident Putinin təşəbbüsü ilə keçirilən üçtərəfli görüş zamanı biz kommunikasiyaların açılmasından açıq şəkildə bəhs edən bəyannaməni qəbul etdik. Beləliklə, bu, baş verəcək. Yeri gəlmişkən, hava məkanı artıq aktivləşib. İndi Azərbaycan Hava Yollarının Bakıdan Naxçıvana uçan təyyarələri Ermənistan hava məkanından keçməyə başlayıb.

*-Ermənistanın baş naziri ilə görüşün keçirilməsi Brüsseldə elan olunduqda Avropa İttifaqının bəyanatında deyilirdi ki, niyyət firavan və sabit Cənubi Qafqaz naminə gərginliklərin aradan qaldırılması yollarını tapmaqdır. Əlbəttə ki, mən Ermənistan ərazisindən keçən bu dəmir yolunu və avtomobil yolunu düşündüm. Lakin Brüsseldəki görüşdən nələri gözləyə bilərik?*

-Bunu söyləmək çətindir, çünki biz bu gün keçiriləcək görüşün nə ilə nəticələndiyini görməliyik. Lakin biz Avropa Komissiyasının və şəxsən Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişelin fəaliyyətini çox yüksək qiymətləndiririk. O, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması üçün zəminin yaradılmasına çoxlu töhfə verir. Prezident Mişelin bu yay regiona səfəri çox məhsuldar olub. Yeri gəlmişkən, hər iki ölkənin müdafiə nazirləri arasında birbaşa əlaqənin yaradılması ilə bağlı olan onun təşəbbüsü də işləyir. Beləliklə, indi bu kommunikasiya kanalı artıq səmərəlidir. Bu, Avropa Komissiyasının Cənubi Qafqazda sabit mühitin yaradılmasına şərait yaratmağa və gələcəkdə üç Cənub Qafqaz ölkəsi arasında qarşılıqlı əlaqənin üçtərəfli formatının yaradılmasına imkan yaratmağa istəkli və hazırlıqlı olduğunu açıq-aydın göstərir. Azərbaycanın mövqeyi tamamilə açıq və aydındır. Biz sülh istəyirik, müharibə istəmirik. Biz müharibəni udduq, biz qalibik və bu reallıq nəzərə alınmalıdır. Dağlıq Qarabağ münaqişəsi həll olunub. Dağlıq Qarabağın qondarma statusu ilə bağlı və ya buna bənzər hər hansı müzakirələrə qayıdış yoxdur. Biz onu özümüz, güc yolu və siyasi vasitələrlə həll etdik. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələri qəbul olunandan 27 il sonra bunu birtərəfli qaydada həyata keçirdik və bu, ilk növbədə, Ermənistan tərəfindən nəzərə alınmalı olan yeni reallıqdır. Çünki postmüharibə vəziyyətinin gedişatından gördüyümüz kimi əsas beynəlxalq oyunçular artıq yeni reallığı qəbul edib və gələcəyi bu yeni reallığa əsaslanaraq qurmağa çalışırlar. Ermənistan Azərbaycana qarşı istənilən düşmənçilik əməllərindən çəkinməli, Azərbaycana qarşı ərazi iddialarından çəkinməlidir. Çünki mən bir neçə dəfə demişəm ki, bizim Ermənistana qarşı ərazi iddialarımızın olması üçün çox tarixi səbəblərimiz var. Onlar sülh razılaşması üzərində işləməli və XXI əsrdə normal davranışa riayət etməlidirlər. Biz istənilən halda qonşuyuq, heç birimiz başqa planetə köçməyəcəyik. Ona görə də, biz xalqlar arasında təmaslar da daxil olmaqla münasibətlərin normallaşması üçün yavaş-yavaş, addım-addım təməl hazırlayaraq yanaşı yaşamağı öyrənməliyik. Biz açıq şəkildə demişik ki, buna hazırıq. Lakin hələ ki, Ermənistan tərəfdən heç bir müsbət işarə almamışıq. Mənə elə gəlir ki, Ermənistanda daxili vəziyyət və bayaq qeyd etdiyim kimi, müharibədə məğlubiyyətlərindən sonra məyusluq və yumşaq desəm, narazılıq, şişirdilmiş gözləntilər, hərbi və siyasi

potensiallarının qeyri-real qiymətləndirilməsi səbəbilə onların cəmiyyətində bir növ psixoloji travma yarandı. Ona görə də, Ermənistan hökumətinin azərbaycanlılara qarşı nifrətin aşılanmasına əsaslanan ictimai rəyin arxasında dayanmaması və normallaşma prosesində öndə getməsi vacibdir. İctimai rəy formalaşdırılmalıdır. Ermənistanın inkişafı üçün yeganə yol Azərbaycanla əlaqələrin normallaşdırılması, Türkiyə ilə əlaqələrin normallaşdırılması, qonşu olmaq, düşmən qonşu deyil, normal qonşu olmaq və ərazi iddialarından çəkinmək məqsədilə insanları inandırmaq üçün mühüm addımların atılmasıdır. Düşünürəm ki, əgər bu formul Ermənistan hökuməti və siyasi elita tərəfindən qəbul edilsə, bizim irəliləyiş üçün şansımız var. Bizə gəlincə isə, bizim mövqeyimiz açıq-aşkardır. Mən bunu dəfələrlə açıq şəkildə dilə gətirmişəm və bir daha deyirəm ki, biz Cənubi Qafqaz üçün sülh istəyirik, sabitlik, təhlükəsizlik və çiçəklənən gələcək istəyirik.

*-Sizcə, burada, Brüsseldə Avropa İttifaqının rəhbərliyi ilə təmas Soçidəki son görüşdən nə ilə fərqlənir? Demək istəyirəm ki, görünür, cənab Putinin rəhbərliyi ilə artıq çox işlər görülüb. Siz Brüsseldəki təmasların fərqi barədə nə deyərdiniz?*

-Səmimi desək, mən heç bir fərq görmürəm. Çünki mən iki ölkə arasındakı münasibətlərin normallaşmasına kömək etmək üçün Rusiya və Avropa İttifaqının həqiqi istəyini görürəm. Əks halda, onlar bu danışıqlarda bizə vaxt sərf etməzdilər və bizim vaxtımızı almazdılar. Rusiya və Avropa İttifaqı əsas beynəlxalq oyunçulardandır. Onların görəcəyi çox iş var, çox geniş gündəlikləri var. Əgər onlar bu məsələni müzakirə etmək məqsədilə Azərbaycan və Ermənistan liderləri ilə görüşmək üçün bir dəfə deyil, mütəmadi olaraq vaxt sərf edib səy göstərirlərsə, bu, o deməkdir ki, onların əsl istəyi kömək etməkdir və biz bunu qiymətləndiririk. Biz burada hər hansı rəqabət görmürük, baxmayaraq, bəziləri düşünə bilər ki, bu, bir növ rəqabətdir, qətiyyən belə deyil. Bizə gəlincə, görürük ki, bu səylər bir-birini tamamlayır, bu səylər sülh prosesini dəstəkləyə bilər. Mən onu da bilirəm ki, Prezident Putin və Prezident Mişel arasında təmaslar olub, onlar Azərbaycanla Ermənistan arasındakı münasibətlər də daxil olmaqla, bir çox məsələləri müzakirə ediblər. Düşünürəm ki, uzunmüddətli sülhdə maraqlı olan beynəlxalq ictimaiyyətin, təsisatların, ölkələrin bu səyləri çox müsbət nəticə verə bilər. Çünki uzun illər davam edən işğaldan və düşmənçilikdən sonra beynəlxalq oyunçular prosesə birmənalı şəkildə dəstək nümayiş etdirməlidirlər. Əgər Ermənistan sülh sazişinin hazırlanmasında bizimlə əməkdaşlıq etməyə razılaşsa, sözsüz ki, fəsilləri, əsas prinsipləri formalaşdırmaq və həll tapmaq üçün bizim beynəlxalq təcrübəyə, beynəlxalq tərəfdaşlara ehtiyacımız olacaq. Beləliklə, mənim gözləntilərim bununla əlaqədardır. Sözsüz ki, hər şey bugünkü üçtərəfli görüşün necə keçməyindən asılı olacaq. Lakin bizim mövqeyimiz aydındır. Biz buraya müsbət dinamikanı gücləndirməyə gəlmişik.

*-Beynəlxalq Ədalət Məhkəməsinin sonuncu bəyannaməsi Sizin hökumətinizdən, – mən olduğu kimi oxuyuram, – erməni milli və ya etnik mənşəyini hədəfə alan irqi nifrət və diskriminasiyanın təhriki və təbliğinin qarşısını almaq, 2020-ci il münaqişəsi ilə əlaqədar əsir götürülmüş və saxlanılan bütün şəxsləri zorakılıq və bədən xəsarətlərindən qorumaq və onların təhlükəsizliyini və qanun qarşısında bərabərliyini təmin etmək üçün lazımi tədbirlər görməyi xahiş edib. Mən Sizdən soruşmaq istərdim, vəziyyətlə bağlı bu istiqamətdə hansı addımlar atılıb?*

-İlk növbədə, mən demək istərdim ki, beynəlxalq məhkəmə, həmçinin bizim Ermənistana qarşı işimizlə bağlı ilkin rəyini açıqlayıb. Mən deyərdim ki, indiyədək bu qurumun qəbul etdiyi qərar balanslaşdırılmışdır. Əgər siz Ermənistana verilən tövsiyəni oxusanız, yəqin ki, daha dəqiq və daha israrlı ifadələr görəcəksiniz. Bizə gəlincə, Azərbaycanda dövlət siyasətimiz münasibətlərin normallaşdırılması məqsədi daşıyır. Ona görə də, bu, bizim mövqeyimizdir və mən bunu açıq şəkildə bəyan edirəm.

İctimai rəyə gəlincə, başa düşmək lazımdır ki, demək olar, 30 il ərzində Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan mədəni irsinə qarşı soyqırımı törədib. Bizim şəhər və kəndlərimiz yerlə-yeksan edilib. Avropa və dünyanın digər yerlərindən olan jurnalistlər də daxil olmaqla, minlərlə ziyarətçi onların bizim tarixi abidələrimizə, şəhər və kəndlərimizə etdiklərini öz gözləri ilə görüblər. Ağdam mövcud deyil, Füzuli mövcud deyil, tamamilə yerlə-yeksan edilib və bunlar - bütün binaların qəsdən dağıdılması və dini abidələrimizin məhvi Birinci Qarabağ müharibəsi zamanı deyil, işğal dövründə törədilib. 67 məsciddən 65-i tamamilə dağıdılıb. Yerdə qalan 2 məsciddə onlar azərbaycanlıların heysiyyətini təhqir etmək üçün donuz və inək saxlayıblar. Ona görə də, təbiidir ki, Azərbaycanda çox sayda insan, xüsusilə əzizlərini itirən, ərazilərini itirən insanların Ermənistana qarşı mənfi hissləri var. Bu, təbiidir. Mən “xeyr, müharibə başa çatıb, indi gəlin dost olaq” desəydim, bu, səhv olardı. Bu, vaxt aparacaq. Lakin məsələ dövlət siyasətindədir. Mən artıq dəfələrlə demişəm ki, tariximizdəki bütün bu faciəvi hadisələrə, dağıntılara, Xocalıdakı soyqırımına baxmayaraq, biz səhifəni çevirməliyik. Əgər gələcəyə baxmaq, sabit vəziyyət yaratmaq, yeni müharibə riskini tamamilə minimuma endirmək istəyiriksə, səhifəni çevirməliyik. Bizim siyasətimiz budur. Saxlanılan şəxslərə gəlincə, İkinci Qarabağ müharibəsi başa çatandan sonra Azərbaycan Ermənistandan qabaq bütün hərbi əsirləri azad etdi. Beynəlxalq müşahidəçilər bunu sübut edə bilərlər. Hazırda saxlanılan şəxslər hərbi əsir hesab edilə bilməzlər, çünki onların əksəriyyəti noyabrın sonunda, müharibə başa çatandan demək olar ki, 20 gün sonra işğaldan azad edilmiş ərazilərə terror aktları törətmək üçün göndəriliblər. Onlar bu terror aktlarını törədiblər, nəticədə bir neçə hərbçi və mülki şəxs həlak olub və onlar saxlanılaraq məsuliyyətə cəlb ediliblər. Onların

bəziləri humanitar məqsədlərlə azad ediliblər. İndiyədək biz 100-dən çox saxlanılan şəxsi azad etmişik. Cinayət törədənlər isə mühakimə olunublar. Beləliklə, bu insanlar heç bir beynəlxalq konvensiya ilə hərbi əsir hesab edilə bilməzlər. Digər məsələ ondan ibarətdir ki, saxlanılan şəxslərin bəziləri, biz onları geri qaytarandan sonra, – onlardan 10-unu 10 gün əvvəl qaytarmışıq, – Ermənistanda həbs olunub. Bu, bizə, bu insanlara, onların qohumlarına çox ciddi bir siqnaldır. Biz onları Ermənistana qaytarmışıq, onlar isə həbs ediblər. Ola bilsin ki, onlar bu şəxslərə işgəncə verəcəklər. Onların çox sərt təcrübəsi var, çünki bizim əsirlərin Ermənistan həbsxanasındakı dəhşətli vaxtlar barədə danışdıqları onu göstərir ki, bu insanlar çox ağır işgəncələrə məruz qalacaqlar. Ona görə də, əgər biz daha çox adam qaytarsaq, onlar həbs olunacaqlar. Bu, real faktdır və bunu təsdiq etmək olar.

*-İcazə verin, hərbi əsirlərlə bağlı bir daha soruşum, çünki təkcə Ermənistan tərəfdən deyil, beynəlxalq təşkilatlar tərəfindən də birbaşa iddialar var ki, saxlanılan onlarla insan var, heç kim əsl sayını bilmir. Bu yaxınlarda hərbi əsirlər sizin ərazilərinizdəki mina xəritələrinin təqdim edilməsi müqabilində dəyişdirilib. Mən bilmək istərdim, bu şəxslərin siyahısı varmı və Siz saxlanılan həmin şəxslərin siyahısını paylaşmağa hazırsınızmı? Siz iddia edirsiniz ki, onlar terrorçudurlar, digər tərəf iddia edir ki, onlar hərbi əsirdirlər. Bizim adlar və sayın göstərildiyi siyahını əldə etmək imkanımız varmı?*

-Burada heç bir sirr yoxdur. Siyahı bəllidir, beynəlxalq təşkilatlar və ermənilər də bundan xəbərdardır. Məsələn, noyabr ayının ortalarında hərbi təxribat həyata keçirərkən 30-dan artıq erməni hərbçisi saxlanılıb. Onların biri yaralı idi və bizim həkimlər onun qeydinə qaldılar, o, əməliyyat olundu və sağalan kimi biz onu geri qaytardıq. Bu, həqiqətdir və təsdiqini tapmış məsələdir. Həmin qrupa daxil olan daha 10 nəfər də geri qaytarılıb və onların bir çoxu artıq Ermənistanda həbsdədir. Beləliklə, Ermənistanın noyabrdakı hərbi təxribatı nəticəsində təqribən 30, ötən ilin noyabrından bəri isə 40-a yaxın hərbçisi əsir düşüb və biz bu rəqəmləri gizlətmirik. Ermənistan tərəfinə əsirlərin ad, soyad və təvəllüdləri ilə bağlı siyahı təqdim edilib. Yəni, onların bundan xəbəri var, beynəlxalq təşkilatların məlumatı var, biz bunu gizlətmirik, çünki burada sirr yoxdur. Eyni zamanda, məhkəmələrin qərarları ictimaiyyətə açıqdır və hər kəs əsirlərin sayını bilir. Lakin yenə də deyirəm, bu, ədalət mühakiməsi məsələsidir. O şəxslər ki, cinayət törətməyib, azərbaycanlıları qətlə yetirməyib, onlar geri qaytarılıb. Artıq qeyd etdiyim kimi, belə şəxslərin sayı 100-dən çoxdur. Məndə olan məlumata görə, xırda cinayətlər törədənlər yüngül cəzalar alıb. Ancaq azərbaycanlıların qətlində əli olanlar məhkəmə qarşısında cavab verməlidir və bu, istənilən ölkədə belədir. Bir daha deyirəm, bu şəxslər İkinci Qarabağ müharibəsinin başa çatmasından 20 gün sonra saxlanılıb. Onlar azad olunmuş ərazilərə noyabrın 26-da göndərilib və ötən il dekabr ayının əvvəlində saxlanılıblar. Növbəti qrup isə qeyd etdiyim kimi, bu ilin noyabrında saxlanılıb. Burada mənzərə tamamilə şəffafdır.

*-Həmin şəxslərin hərbi əsir kimi qiymətləndirilməsi və hərbi əməliyyatların dayandırılması razılığına əsasən, Ermənistan tərəfinə qaytarılması ehtimalı varmı?*

-Dediyim kimi, onlardan 10 nəfəri on gün bundan əvvəl qaytarılıb. Proses humanitar əsaslarda davam edir. Biz heç vaxt “yox” deməmişik, ancaq proses Azərbaycan qanunvericiliyi çərçivəsində, ədalət və humanizm üzərində qurulmalıdır. Bu amillərin vəhdəti mövcuddur, proses gedir, onun davam edəcəyini istisna etmirik. Burada nəyin nə vaxt baş verəcəyini deyə bilmərəm, ancaq proses gedəcək.

*-Təbii qaz məsələsinə toxunmaq istəyirəm. Bildiyiniz kimi, son vaxtlarda Avropa İttifaqının qaz ehtiyatları azalmaqdadır, qazın qiyməti isə artır. Bizim üçün ən əsas qaz təchizatçısı idxalımızın 40 faizinin payına düşdüyü Rusiya ilə münasibətlərdə gərginlik var. Münasibətlər özünün ən pis dövrünü yaşayır. Azərbaycanın iqtisadiyyatı neft və qaz ixracına əsaslanır, ixrac bazarları isə Aİ və Qərbdir. Siz hazırkı vəziyyəti necə təhlil edərdiniz, Aİ və ümumilikdə region hazırkı böhranın öhdəsindən necə gələ bilər?*

-Əvvəla, demək istəyirəm ki, biz iqtisadiyyatımızın şaxələndirilməsi, neft və qaz sahəsindən asılılığın azaldılması üzərində fəal çalışırıq. Bizim ümumi daxili məhsulumuzun strukturuna nəzər salsanız, neft və qaz amili 50 faizdən aşağıdır. İxraca gəldikdə isə əlbəttə, bu, bizim əsas ixracımızdır və təbii qaza gəldikdə, bu ixrac artmaqdadır. Hazırda qazın qiyməti ilə bağlı, necə deyərlər, böhranın səbəbi mənə məlum deyil və səmimi desəm, bu, məni maraqlandırmır. Biz isə öz növbəmizdə ev tapşırığımızı yerinə yetirirdik, neft və qaz sektoruna milyardlarla ölçülən sərmayə cəlb edirdik və XXI əsrin ən mühüm infrastruktur layihələrindən olan Cənub Qaz Dəhlizi üzərində çalışırdıq. Həmin layihə ötən ilin son günündə başa çatdırılmışdır. Layihənin dördüncü seqmenti – Transadriatik qaz kəməri 2020-ci il dekabrın 31-də istismara verildi və həmin vaxtdan bizim Avropaya ixracımız başladı. Bundan əvvəl bizim ixrac bazarımız əsasən Türkiyə və Gürcüstan idi. Beləliklə, bizim qazımızı yeni alan ən böyük istehlakçı İtaliyadır, sonra isə Yunanıstan və Bolqarıstandır. Burada coğrafiyanı genişləndirmək üçün potensial mövcuddur. Bu il artıq biz Avropa İttifaqına 7 milyard kubmetrdən çox təbii qaz ixrac etmişik. Gələn il biz 9 milyard kubmetr, 2023-cü ildə isə 11 milyard kubmetr qaz ixrac etməyi planlaşdırırıq. Bu rəqəm arta da bilər, ancaq bilirsiniz ki, qaz bazarı neft bazarından fərqlidir. Burada müqavilələr əvvəlcədən bağlanmalıdır. Hazırda ixrac etdiyimiz qaz həcmlərinə dair müqavilələr boru kəmərinin istifadəyə verilməsindən öncə bağlanıb. Qaz sahəsində biznes bu şəkildə aparılır. Beləliklə, hasilatı artırmaq və ya Avropa İttifaqının yeni üzvləri ilə

əməkdaşlığı planlaşdırmaq üçün praktiki səviyyədə danışıqlar aparılmalı, həmin bazarın potensialı və Avropada qaz infrastrukturu sistemlərinin bağlılığı qiymətləndirilməlidir. Bilirəm ki, hazırda Avropada yeni bağlantılar üzərində iş gedir. Yəni, bunu planlaşdırmaq lazımdır, çünki bizim qazımız uzunmüddətli müqavilələr əsasında satılır və biz müqavilələri 100 faiz yerinə yetiririk. Azərbaycan Avropa İttifaqı üçün etibarlı tərəfdaşdır və əlbəttə, bu mövzu daim bizim gündəlikdədir. Mənim qiymətləndirməm ondan ibarətdir ki, bizim nəhəng təbii qaz ehtiyatımız var. Biz Avropaya təbii qazın ənənəvi təchizat marşrutlarından daha qısa marşruta malikik və bizim mənbə Avropa bazarı üçün yenidir. Siz artıq qeyd etdiniz, Avropa İttifaqı və Avropa İttifaqına üzv olmayan bəzi ölkələrdə hasilatın səviyyəsi azalır və hamımız bilirik ki, bəzi dövlətlərin enerji strategiyasına dair qərarlarından irəli gələrək Avropanın təbii qaza ehtiyacı artacaq. Azərbaycan Avropanın etibarlı tərəfdaşı və dostudur. Təsəvvür edin, Azərbaycan Bakıdan İtaliyaya qədər uzanan, bir hissəsi dənizin dibi ilə gedən 3500 kilometrlik boru xəttini inşa edib. Yəni, hər şey hazırdır və qaz idxal olunur. Burada görüləcək iş Avropa Komissiyası və bizdən daha artıq həcmdə qaz almaq istəyən və ya yeni həcmdə qaz idxal etmək arzusunda olan ölkələrlə təmas qurmaq və danışıqlara başlamaqdan ibarətdir.

*-Ötən il həyata keçirdiyiniz yeni qaz dəhlizi – TAP layihəsinə cənab Putin ilə söhbətlərinizdə toxunulubmu? Bu, Rusiya qazına alternativ olduğu üçün cənab Putini narahat edən məsələdirmi?*

-Xeyr. İl ərzində müntəzəm olaraq görüşməyimizə və tez-tez telefon söhbəti aparmağımıza baxmayaraq, səmimi desəm, biz heç vaxt Prezident Putinlə bu məsələni müzakirə etməmişik. O, bu məsələni heç vaxt qaldırmayıb, çünki zənnimcə, bu rəqabət məsələsi böyük mənada şişirdilib. Bizim təchiz etdiyimiz qazın həcmi Rusiyanın təchizatı ilə müqayisə edilə bilməz. Rusiyanın Avropaya ixracı 100 milyardlarla kubmetr təşkil edir və bu rəqəm artmaqdadır. Bizim Avropaya ixracımız dediyim kimi, rəqabət təşkil etmir və biz heç vaxt buna rəqabət kimi baxmamışıq. Bizim üçün bu, bir kommersiya layihəsi idi. Bu gün bütün boru kəmərləri və infrastruktur hazır olduğu üçün Avropa və digər ölkələrə qaz təchizatının əsas mənbəyi olan "Şahdəniz" yatağının daxili gəlirlilik dərəcəsi artıb. Yəni, o, kommersiya baxımından çox cəlbedici olub. Biz nəhəng qaz ehtiyatlarına malikik və bizim bazara ehtiyacımız var idi. Bizim üçün bazar hara ola bilərdi? Bu, Rusiya ola bilməzdi, çünki Rusiya özü ixracatçıdır. Bu, Gürcüstan da ola bilməzdi, çünki onun qaza olan ehtiyacı nisbətən azdır. Bu, Türkiyə ola bilərdi və oradan isə Avropa. Biz məhz belə də etdik. Türkiyəyə ixrac 2006-cı ildə başlandı. Həcm getdikcə artırdı və daha sonra Avropaya ixrac başlandı. Yəni, bizim üçün bu, bir kommersiya layihəsi idi, lakin onu siyasiləşdirdilər. Təəssüf ki, böyük mənada bunun heç bir mənası yox idi. Rusiya Federasiyası və onun rəhbərliyi məsələnin əsl mahiyyətini anlayır. Bizim qazımız heç bir halda alternativ deyil. Bu, yalnız istehlakçıların ehtiyacı olduğu əlavə həcmdir. Məsələn, bu gün bizim qazımız Türkiyənin ehtiyacının 20 faizini və Gürcüstanın ehtiyacının təqribən 90 faizini təmin edir. Qazımız artıq Avropaya nəql edildiyindən biz Avropa İttifaqının bəzi üzv ölkələrinin ehtiyaclarının əhəmiyyətli hissəsini təmin edəcəyik.

-Sonuncu sualım dronlar haqqındadır. Ermənistanla müharibədə Sizdə dronların olması çox mühüm əhəmiyyət təşkil edirdi. Bu haqda düşüncələrinizi bilmək istərdim. Səhv etmirəmsə, Sizdə İsrail və Türkiyə texnologiyası əsasında hazırlanmış dronlar var. Bilmək istəyirəm ki, bu dronlar indi dünya satışına çıxarılacaqmı? Onları müstəqil şəkildə istehsal etmək və dünyaya satmaq imkanınız var. Dünya bunda maraqlıdırmı? Ümumiyyətlə, bu, müasir müharibəni və dronların müasir müharibələrin zəruri bir elementinə necə çevrilməsini əks etdirir.

-Bəli, bu, beynəlxalq hərbi mütəxəssislərin ümumi dəyərləndirməsidir ki, Azərbaycan XXI əsrin müharibəsini apardı. Bizdən əvvəl heç kim müharibəni bu cür aparmayıb. Təkcə dronlar deyildi, çox dəqiq kəşfiyyat var idi. Qeyd etdiyiniz kimi, hər iki ölkədən – Türkiyə və İsraildən olan dronlar inteqrasiya olunmuşdu. Bizdə olan İsrail dronları kəşfiyyat dronları və kamikadze dronları idi, Türkiyə dronları kəşfiyyat dronları və qırıcı dronlar idi. Bunları bir hərbi əməliyyatda birləşdirmək asan deyildi. Eyni sözü bizim hava hücumundan müdafiə sistemi barədə demək olar. Bizdə İsrailin hava hücumundan müdafiə sistemi var, Rusiyanın hava hücumundan müdafiə sistemi var – S300. Bizim "BUK" tipli hava hücumundan müdafiə sistemimiz var. Beləliklə, bu hava hücumundan müdafiə sistemlərini birləşdirmək də həmçinin ciddi hədəf idi və hava hücumundan müdafiə sistemlərinin effektiv istifadəsi ilə biz özümüzü böyük faciədən qoruduq. Çünki Ermənistan bizə qarşı ballistik raketlər ataraq yuxuda olan şəhərləri dağıdırdı. Gəncə şəhəri bir neçə dəfə SCUD raketinin hücumuna məruz qaldı. Onlar yaşayış məntəqələrini dağıtmaq üçün hədəfə alırdılar. Onlar "İsgəndər-M" ballistik raketlərindən istifadə etdilər. Bu, sonuncu gün Şuşanı dağıtmaq üçün istifadə olunmuşdu. Bir dənə deyildi. Bu raketlərin çoxu bizim hava hücumundan müdafiə sistemi tərəfindən zərərsizləşdirilmişdi. Beləliklə, hava hücumundan müdafiə sistemi, dronlar, artilleriya. Dronlar artilleriyaya hədəfi göstərirdi. Artıq sirr deyil ki, müharibənin ilk günlərində biz Ermənistanın hava hücumundan müdafiə sistemini aşkar etmək üçün kiçik, yüngül təyyarələrdən istifadə edirdik. Pilot tullanırdı və kənd təsərrüfatı məqsədləri üçün nəzərdə tutulmuş kiçik təyyarə mövqelərə gedirdi, Ermənistanın hava hücumundan müdafiə sistemi bu lazımsız hədəfə hücum etməklə özünü aşkar edirdi. Sonra biz Ermənistanın hava hücumundan müdafiə sistemini məhv edirdik. Bu amillərin birləşməsi, üstəlik, ilk növbədə, öz həyatlarını qurban verən əsgər və zabitlərimizin motivasiyası və cəsarəti. Üç minə yaxın

azərbaycanlı öz vətənləri uğrunda həlak oldu. Bütün bu amillər çox çətin coğrafi şəraitdə qələbədə həlledici rol oynadı. Çünki biz dağlara çıxmalı olurduq, elə şəraitdə ki, ermənilər demək olar, 30 il ərzində 6 istehkam xətti qurmuşdular, minalar basdırmışdılar. Yalnız müharibədən sonra bizdə demək olar ki, 200 nəfər minaya düşərək həlak olub və ya yaralanıb. Sözsüz ki, bütün bunlar bizim qələbəmiz üçün təməl yaratdı. Dronlara gəlincə, biz onları almağa davam edirik. Müharibə başa çatandan sonra biz yeni modifikasiyalar almaq üçün yeni müqavilələr imzaladıq və qeyd etdiyiniz kimi, eyni zamanda, biz qırıcı, kamikadze deyil, kəşfiyyat dronları istehsal edirik və bu dronlar bazara çıxarılır. Azərbaycan 30-dan çox ölkəyə öz hərbi məhsullarını ixrac edir və biz artıq əsas ehtiyaclarımızı ödəyən hərbi sənaye kompleksini inkişaf etdirmişik. Biz bunu davam etdiririk, çünki qeyd etdiyim kimi, hələ də erməni revanşizmi təhlükəsi var, hələ də sabitliyin pozulması təhlükəsi var. Beləliklə, biz hər zaman sərhədlərimizi müdafiə etməyə hazır olmalıyıq.

-Müharibənin nəticəsi Sizin hərbi məhsullara marağınızı artırıbmı?

-Bəli, əlbəttə ki. Buna və eyni zamanda, bizim təcrübəmizə marağı artırıb. Çünki təcrübəmizi öyrənmək istəyən bir neçə ölkə artıq bizə müraciət edərək bunu necə etdiyimizlə maraqlanıb. Lakin müharibəyə ilk gündən son günədək rəhbərlik edən Ali Baş Komandan olaraq sizə bir daha deyə bilərəm ki, bunu necə etdiyimizi izah etmək çətin olar. Çünki siz bunu hiss etməlisiniz. Çünki biz demək olar ki, 30 il ərzində ermənilərin işğalından, təhqirindən, təkəbbüründən əziyyət çəkirdik. Onlar bütün beynəlxalq təşkilatların sənədlərinə zidd olaraq bizim torpaqlarda oturmuşdular, torpaqlarımızı dağıdırdılar, iddia edirdilər ki, bu torpaq onlara məxsusdur. BMT Təhlükəsizlik Şurası, ATƏT, Avropa Şurası, Avropa Parlamenti - onların hamısı bizi dəstəkləyən qətnamələr qəbul etmişdi, lakin onlar, sadəcə, orada oturmuşdular və bəyan edirdilər ki, həmişəlik orada oturacaqlar. Beləliklə, motivasiya, ruh yüksəkliyi və cəsarət qələbəmizin əsas amili oldu. Bu, milli ləyaqət və qürur məsələsi idi. Baxmayaraq, bir çoxları bizə bunu necə etdiyimizlə bağlı müraciət etsə də, düşünürəm ki, bunu izah etmək üçün uzun illər lazımdır.

-Vaxt ayırıb müsahibə verdiyinizə görə təşəkkür edirəm.

-Təşəkkür edirəm.

-Bugünkü görüşlərinizdə və növbəti günlərdə Sizə uğurlar arzulayıram.

## *İlham Əliyev Brüsseldə İtaliyanın “İl Sole 24 Ore” qəzetinə müsahibə verib*

*Müxbir: Əvvəla, görüşmək imkanı yaratdığınız üçün Sizə təşəkkürümü bildirirəm. Mən dəfələrlə Azərbaycanda olmuşam, bir çox seçkilərin keçirildiyi vaxtlarda Azərbaycanda səfərdə olmuşam.*

**Prezident İlham Əliyev:** Sonuncu dəfə nə vaxt olmusunuz?

*-Sonuncu dəfə ilyarım bundan öncə. Çox maraqlı ölkədir və etiraf edirəm ki, Siz böyük irəliləyişə nail olmusunuz. Mən “İl Sole 24 Ore”nin Yaxın Şərq üzrə müxbiriyəm. Bu, İtaliyanın ən böyük siyasi qəzetidir.*

-Bundan xəbərim var.

*-Etiraz etmirsinizsə, mən müsahibə zamanı Azərbaycanın İtaliya ilə güclü münasibətlərinə toxun–maq istərdim.*

-Bəli, böyük məmnuniyyətlə.

*-İqtisadiyyatın şaxələndirilməsi. Bu, çox maraqlı mövzudur. Beynəlxalq media, zənnimcə, bunu layiqincə işıqlandırmayıb.*

-Razıyam.

*-İcazənizlə başlayaq. Mənim ilk sualım Dağlıq Qarabağ məsələsi ilə bağlıdır. Dünən Siz maraqlı bir görüş keçirmisiniz. Səhv etmirəmsə, Sizin dünən Ermənistanın baş naziri və cənab Şarl Mişellə görüşünüz olub. Görüş necə keçdi və bizim bilməli olduğumuz hər hansı bir yenilik varmı?*

-Əvvəlcə, mən Avropa İttifaqı Şurasının Prezidenti cənab Şarl Mişellə görüşdüm. Bir saat ərzində biz geniş sahələri əhatə edən məsələləri müzakirə etdik. Əlbəttə, əsas diqqət münaqişədən, ötənilki müharibədən sonra yaranmış vəziyyətə yönəldilmişdir. Əlbəttə, Avropa Komissiyasının səyləri Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılmasına yönəldilib. Biz Avropa Komissiyasının və xüsusilə də cənab Mişelin səylərini yüksək qiymətləndiririk. O, bu ilin yayında Azərbaycanda və Ermənistanda səfərdə olmuşdu. Biz bu səfərdən sonra daim təmasda olmuşuq və o, vəziyyətin təfərrüatından xəbərdardır. Biz onun şəxsi iştirakına böyük dəyər veririk.

Günün sonunda bizim üçtərəfli görüşümüz oldu və həmin görüş dörd saatdan artıq çəkdi. Hesab edirəm ki, görüş olduqca səmərəli idi. Hər iki tərəf əsasən İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni reallıqlar, həmin reallıqlara uyğunlaşma və qonşu olaraq yaşamağı öyrənmək kimi məsələlərdə öz mövqeyini aydın şəkildə təqdim etdi. Əlbəttə, biz postmüharibə vəziyyətinin praktiki elementlərini, xüsusilə də kommunikasiyaların açılmasını müzakirə etdik. Bu, ötən ilin noyabrında Rusiya Prezidenti, Ermənistanın baş naziri və mənim tərəfimdən imzalanmış üçtərəfli Bəyanatın mühüm hissəsidir. Lakin çox vacib Bəyanatın bu hissəsinin

icrası olduqca ləng gedir. Beləliklə, dünən Ermənistan tərəfindən dərhal həyata keçiriləcək fəaliyyətə dair mühüm qərarlar qəbul edildi ki, dəmir yolu layihəsinin praktiki reallaşdırılmasına start verilsin. Bizə gəldikdə, artıq işlərə başlamışıq və azad edilmiş ərazilərdən Ermənistan sərhədinə qədər dəmir yolu xətti 2023-cü ilin sonunadək hazır olmalıdır. Biz, əlbəttə, ümid edirik ki, o vaxta qədər Ermənistan özünün ev tapşırığını yerinə yetirəcək. Əlbəttə, biz digər məsələlərə də toxunduq. Minaların təmizlənməsi məsələsi tərəfimizdən qaldırıldı və Prezident Mişel Azərbaycana bu vəziyyətin öhdəsindən gəlməkdə yardımçı olmaq arzusunu ifadə etdi. Çünki müharibə bitdikdən sonra 200 nəfərə yaxın insan minalar səbəbindən həlak olub və ya ağır yaralanıb. Biz, həmçinin humanitar və bir çox digər məsələləri müzakirə etdik. Hesab edirəm ki, olduqca məhsuldar müzakirələr aparıldı. Mən çox məmnunam.

*-Siz bir fikir bildirdiniz və burada ağlıma belə bir sual gəldi. Avropa İttifaqı bu yaxınlarda Ermənistana 2 milyard dollar həcmində dəstək paketini elan etdi. Ukraynaya da 2 milyard dollara yaxın yardım ayrılacaq. Səhv etmirəmsə, Azərbaycana isə sadəcə, 140 milyon avro ayrılacaq. Yəni, burada çox böyük fərq var. Sizcə, nə üçün belədir? Belə bir qərar haradan qaynaqlanır?*

-Bunun nədən belə olduğunu demək çətindir. Çünki bu suala cavab vermək üçün ixtiyarımda kifayət qədər fakt olmalıdır. Mən yalnız bununla öz fikrimi bildirə bilərəm. Siz tamamilə haqlısınız. Bu, bir çox müşahidəçiləri təəccübləndirən fakt oldu və Azərbaycan əhalisi üçün də çox xoşagəlməz bir sürpriz oldu. Bir məsələni dəqiqləşdirim – Avropa Komissiyası tərəfindən Ermənistana təqdim ediləcək paketin həcmi 2.6 milyard dollardır, Azərbaycana isə sizin qeyd etdiyiniz kimi 140 milyon. Yəni, fərq təqribən 20 dəfədir. Bu, ədalətlidirmi? Xeyr. Bu, hər iki ölkənin real ehtiyaclarına müvafiqdirmi? Xeyr. Hətta azad olunmuş ərazilərdə Ermənistan tərəfindən törədilmiş dəhşətli dağıntıları kənara qoysaq belə, hər iki ölkənin əhalisinin sayına nəzər salsaq, görərik ki, fərq 5 dəfədən çoxdur – Azərbaycanın əhalisi 10 milyon, Ermənistanda isə 2 milyon. Bundan əlavə, işğal illəri ərzində Livanın sahəsinə bərabər ərazilər tamamilə dağıdılıb. Bu gün əcnəbi vətəndaşlar və jurnalistlər həmin ərazilərə səfər edəndə dağıntıların miqyasını öz gözləri ilə görürlər. Eyni zamanda, bizim hesablamalara görə orada 1 milyona yaxın mina basdırılıb. Minaları təmizləmə prosesi olduqca baha başa gəlir və çox vaxt aparır. Ermənistanda heç bir dağıntı yoxdur. Bu ölkə işğal edilməmişdi, o, özü işğalçı idi. Fiziki cəhətdən belə Ermənistanın iqtisadiyyatı bu nəhəng həcmli paketi mənimsəyə bilməz. Beləliklə, bu, çox təəccüblüdür və bu paket elan edildikdən sonra, Prezident Mişelin bu yay Azərbaycana səfərindən sonra biz bu mövzunu daim müzakirə edirik. Biz istəyirik ki, yanaşma vahid standartlara əsaslansın. Biz ədalət istəyirik və əlbəttə, Azərbaycana eyni şərtlərlə, eyni həcmdə vəsaitin verilməsini istəyirik.

*-Cənab Prezident, Siz tamamilə haqlısınız. Minaların təmizlənməsi çox həssas, vacib və strateji fəaliyyətdir. Həqiqətən də azərbaycanlıların azad olunmuş ərazilərə geri dönməsi və məskunlaşması arzu olunursa, həmin ərazilərin təhlükəsizliyi təmin edilməli-dir. Bu səbəbdən mən təəccübləndim. Minaların təmizlənməsi kimi həssas bir məsələnin Avropa İttifaqını daha öncə hərəkətə keçməyə vadar etməməsi Sizi təəccübləndirirmi?*

-Bilmirəm. Mən dəfələrlə bu məsələləri qaldırmışam və dünən də cənab Mişellə görüşdə hətta təklif etdim ki, Avropa Komissiyası özünün fondları vasitəsilə Azərbaycanda minalardan təmizləmə prosesinin maliyyələşdirilməsini nəzərdən keçirsin. Dedim ki, pulu bizə verməyin, minaların təmizlənməsi ilə məşğul olan Avropa şirkətlərinə maliyyə yardımı ayırın ki, onlar Azərbaycana gəlsinlər və işə başlasınlar. Çünki Azərbaycan üçün fiziki olaraq bunu qısa müddətdə etmək mümkün deyil. Bundan əlavə, bu, çox bahalı işdir və siz tamamilə haqlısınız ki, minalar təmizlənməsə, biz insanların geri qayıdışını təmin edə bilmərik. Onlar bunu 30 ilə yaxındır ki, gözləyirlər. Hazırda genişmiqyaslı bərpa işlərinə başlanılan ərazilər minalardan təmizlənib, digər yerlər isə yox. Yəni, geri dönəcək insanlar ciddi problemlər və həyati təhlükə ilə üzləşəcəklər. Beləliklə, mən ümid edirəm ki, təmaslarımızda buna daha çox aydınlıq gətiriləcək. Əlbəttə, bizim ehtiyaclarımız minaların təmizlənməsi ilə məhdudlaşmır. Hər şey dağıdılıb. Oralarda nə şəhər, nə də kənd var - tamamilə dağıdılmış ərazilərdir. Bizim mövqeyimiz ondan ibarətdir ki, Ermənistana maliyyə töhfəsinin səviyyəsi istər ianə olsun, istərsə də kredit, Azərbaycanla eyni olmalıdır.

*-Ola bilərmi ki, Avropa İttifaqı burada bir az ehtiyatlı davranır. Çünki bəzi hesabatlara görə Azərbaycanda hələ də insan hüquqları, mətbuat azadlığı sahəsində müəyyən problemlər var? Azərbaycan bu günə qədər inkişaf edib və hər kəsə məlumdur ki, bu proses zaman tələb edir. Sizcə, bu məsələ həmin fəaliyyəti ləngidə bilərmi?*

-Xeyr, mən belə düşünmürəm. Əvvəla, indi Avropa təsisatlarında daha aydın təsəvvür var ki, insan hüquqları və media azadlığına dair problemlərin olması təəssüratı şişirdilib. Çünki Azərbaycanda media ilə bağlı məhdudiyyətlər yoxdur, bizdə azad internet var və senzura mövcud deyil. Azərbaycan əhalisinin 80 faizindən çoxu internet istifadəçisidir, medianı məhdudlaşdırıb azad internetə malik olmaq mümkünsüzdür. Eynilə insan hüquqları məsələsi. Bütün insan hüquqları qorunur və bu gün Azərbaycan uzun illər əvvəl üzləşdiyi tənqidə məruz qalmır. Çünki birincisi, biz avropalı tərəfdaşlarımızı inandırmağa müvəffəq olduq ki, onların məlumatı əsasən səhv ssenariyə əsaslanıb və biz genişmiqyaslı siyasi və iqtisadi islahatlar həyata keçirdik. İkincisi, əgər siz mahiyyətə diqqət etsəniz, görərsiniz ki, Ermənistanda insan haqları və siyasi azadlıqlar kobud şəkildə pozulur. Məsələn, siyasi partiyaların çoxlu

təmsilçiləri həbsdədir. Əsas siyasi partiyaların liderlərinə qarşı cinayət işləri açılıb. Ermənistanda repressiyalarla bağlı böyük ictimai narazılıq var və bütün bunlar açıq-aşkar faktlardır. Lakin Ermənistanın sanki bir daimi çətiri var, orada nə baş verməyindən asılı olmayaraq, o, demokratiya hesab olunur. Bir növ ikili standartlar...

*-Üzr istəyirəm. Daha bir sual. Mən çox açıq ola bilərəm?*

-Bəli, əlbəttə.

*-Siz Ermənistan silahlı qüvvələrinin birinci müharibə zamanı ələ keçirdiyi rayonları ayyarıma geri qaytardınız. Demək olar ki, 15 illik danışıqlarda Siz bu nəticəni əldə etməmişdiniz. Mənim sualım belədir: Əvvəllər Minsk qrupunun fəaliyyətinin qeyri-rəsmi olaraq status-kvoya, sadəcə, sülhün saxlanılmasına yönəldiyi görünürdü. Bu, bəlkə də Rusiya üçün əlverişli idi ki, o, işlər bu cür getdiyi müddətdə rol oynaya bilsin. Minsk qrupunun rolu ilə bağlı fikirləriniz nədən ibarətdir? Çünki Sizin özünüzdə də bu qrupun fəaliyyəti ilə bağlı skeptisizm, hətta məyusluq var idi.*

-İlk növbədə, demək istərdim ki, Minsk qrupu ATƏT-in mandatına əsasən, 1992-ci ildən münaqişəni həll etməyə məcbur idi. Onlar ötən il noyabrın sonunadək, biz 44 gün ərzində əraziləri azad edənə kimi 28 il ərzində fəaliyyət göstərdilər. Mənim Minsk qrupunun fəaliyyəti ilə bağlı fikrim Azərbaycan xalqının fikrindən fərqlənmir. Bu, uğursuzluq idi. Biz həqiqəti deməliyik. Məsələnin gün işığı kimi aydın olduğu halda, biz siyasi korrektlik naminə bunun əksini söyləyə bilmərik. Əgər Minsk qrupunun həmsədrləri - dünyanın aparıcı ölkələri, Təhlükəsizlik Şurasının 5 daimi üzvündən 3-ü, 3 nüvə dövləti, dünyanın ən güclü ölkələri Ermənistanın işğalına son qoya bilmədilərsə və ya bunu etmək istəmədilərsə, bu, o deməkdir ki, onların fəaliyyəti uğursuz idi. Onlar 28 il fəaliyyət göstərdilər. Təsəvvür edirsiniz?

*-Sözünüzü kəsdiyimə görə, üzr istəyirəm. Madrid prinsiplərindən başlayaq. Lakin bu, uzun dövrdür.*

-Bəli, Madrid prinsipləri 10 il əvvəl idi. Onlar isə 1992-ci ildə fəaliyyətə başladılar. Mənim qeyd etdiyim üç aparıcı ölkə isə bundan bir neçə il sonra həmsədr oldu. Lakin istənilən halda, 20 ildən çox fəaliyyət göstəriblər, nəticə sıfra bərabər olub. Bəs, niyə? Bəlkə də ona görə ki, siz qeyd etdiyiniz kimi, status-kvo onlar üçün qəbuledilən idi. Buna baxmayaraq, sizə deyə bilərəm ki, müəyyən mərhələlərdə, hətta Minsk qrupu həmsədr ölkələrinin dövlət başçıları səviyyəsində müsbət bəyanatlar var idi ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Bu, bizi çox ümidləndirirdi. Lakin əfsuslar olsun ki, heç bir hərəkət yox idi. Bu, çox sadə idi. Mən bu məsələni dəfələrlə qaldırmışam. Ermənistanı Azərbaycan ərazilərini tərk etməyə və BMT Təhlükəsizlik Şurasının bunu tələb edən qətnamələrinə əməl etməyə yola gətirmək və ya məcbur etmək üçün yeganə yol Ermənistana qarşı sanksiyalar tətbiq etmək idi. Biz bilirik ki, müəyyən hallarda bu sanksiyalar digər ölkələrə qarşı tətbiq olunur, lakin Ermənistana qarşı yox. Yenə də ikili standartlar, yenə də ədalətsiz yanaşma. Azərbaycan xalqı Minsk qrupu üçlüyünün bu daimi səfərlərindən yorulmuşdu. Onlar ildə bir neçə dəfə gəlib-gedirdilər və heç bir nəticə yox idi. Onların fəaliyyəti faktiki olaraq 2019-cu ildən sonra, Ermənistanın baş naziri "Qarabağ Ermənistandır" bəyan edəndən sonra tamamilə iflic oldu. Bu, o demək idi ki, danışıqların sonudur. Çünki əgər Ermənistan "Qarabağ Ermənistandır" deyirsə, nə barədə danışmaq olar? Digər məsələ ondan ibarətdir ki, bir qədər sonra Ermənistan rəhbərliyi dedi ki, Qarabağ müstəqil ölkədir. Bu da əvvəlki bəyanatla ziddiyyət təşkil edirdi. Lakin Minsk qrupu reaksiya vermədi. Onlar hətta bu bəyanatı pisləmədilər. Əlbəttə ki, bu cür davranış yalnız Ermənistanı danışıqlar masasında mövqeyini möhkəmləndirməyə və işğalı sonsuz etməyə cəsarətləndirdi. Ermənistanın hədəfi bu idi və təəssüflər olsun ki, Minsk qrupu bu işdə onlara kömək etdi.

*-Təşəkkür edirəm, cənab Prezident. Gəlin regiona, xüsusilə Avropa ilə Rusiya arasındakı problemə keçək. Bu, əslində, Sizin işiniz deyil, lakin Azərbaycan Avropaya kömək edə bilər. Avropa İttifaqında narahatlıqlar var ki, Rusiyanın Ukraynanı işğal etmək ehtimalı elə gərginlik yarada bilər ki, bəzi layihələr təxirə salınar və hətta Rusiya təbii qazı silah kimi istifadə edə bilər. Onu nəzərdə tuturam ki, Avropa İttifaqı öz təchizat marşrutlarını şaxələndirməyi həddindən çox istəyir və əslində, Cənub Dəhlizi ən maraqlı gələcək kanallardan biri kimi görünür. Sizin böyük həcmdə qazınız var, Sizin yaşıl enerji ilə bağlı maraqlı proqramınız var. Sizin ixrac etmək üçün daha çox qazınız var. Siz hətta TAP-la bitən xətti iki dəfə uzadaraq Yunanıstandan Burqasadək çatdıra bilərsiniz. Avropa İttifaqı Sizdən daha çox təbii qazın təchiz edilməsi ilə bağlı kömək istəsə, Siz bu müraciəti mümkün qədər tez bir zamanda təmin etməyə hazır olacaqsınızmı?*

-Sözsüz ki, bizim qaz strategiyamız çox aydın və açıq olub. Biz uzun illər ərzində bu mühüm layihəni həyata keçirmək üçün Azərbaycanda çox iş gördük, tərəfdaşlarla birgə işlədik. Bu, XXI əsrin ən böyük infrastruktur layihələrindən biri hesab olunur. Uzunluğu 3500 kilometr olan Cənub Qaz Dəhlizi Bakıdan Adriatik dənizinin dibi ilə, yüksək dağlıq ərazilərdən keçərək İtaliyaya çatır. Bu, texniki baxımdan çox mürəkkəb və əlbəttə ki, çox bahalı layihədir. Azərbaycan Cənub Qaz Dəhlizinin 4 seqmentinin hamısında əsas maliyyə yükünü öz üzərinə götürüb. Ötən ilin dekabrında layihənin tam başa çatmasından əvvəl biz artıq istehlakçılarla müqavilələr imzalamışdıq. Bizim qazımız müqavilə əsasında alındı və qiymətlə bağlı, belə deyək, qaz böhranı zamanı bizim istehlakçılar heç bir dəyişiklik hiss etmədilər.

Gələcək planlarımız barədə danışırıqsa, sözsüz ki, hasilatı artırmaq, ixracı artırmaq imkanı var. Lakin bu, sözsüz ki, avropalı istehlakçıların tələbindən asılı olacaq. Avropa Komissiyası bu prosesdə bizə kömək

göstərdi. Biz Cənub Qaz Dəhlizinin Məşvərət Şurasını mütəmadi olaraq Bakıda Avropa İttifaqının nümayəndələri və Azərbaycanın sədrliyi ilə bir araya gətiririk. Növbəti sessiya gələn ilin fevralında keçiriləcək, orada biz bütün məsələlərlə məşğul olacağıq və gələcək addımlarımızı planlaşdıracağıq. Bu, şirkətlərin, bankların və ölkələrin böyük bir qrupudur. İndi komanda böyüyür, çünki biz artıq Avropanın təchizatçısı olmuşuq. Yanvarın 1-dən başlayaraq biz İtaliya, Yunanıstan və Bolqarıstanı 7,2 milyard kubmetr qazla təchiz etmişik. Gələn il bu, 9 milyard, 2023-cü ildə azı 11 milyard kubmetr olacaq. Beləliklə, bu, ciddi artımdır. Lakin hasilatı artırmaq üçün biz, əlbəttə ki, investisiya yatırmalıyıq və bunu etmək üçün bizim istehlakçılarla müqavilələrimiz olmalıdır. Beləliklə, birincisi müqavilələr, ikincisi investisiya və üçüncüsü qaz. Prosesin mərhələlərinin ardıcıllığı belədir. Lakin biz hazırıq, sizin qeyd etdiyiniz kimi, nəhəng yataqlarımız var, tam yeni, müasir infrastrukturumuz var, Avropanın digər yerlərinə də bağlayıcıların çəkilməsi mümkündür. Siz Balkanları qeyd etdiniz və mən Mərkəzi Avropanı əlavə edərdim. Bu, bizim üçün təchizatın şaxələndirilməsi və istehlakçılar üçün şaxələndirmə olacaq.

*-Bəli. Gəlin zənn edək ki, hər şey doğru istiqamətdə gedir. Siz hasilatı, Avropaya ixracı artıracaqsınız. Siz Rusiyanın reaksiyasından qorxmursunuz? Çünki Rusiya Sizin çox mühüm iqtisadi tərəfdaşınızdır, həmçinin regionda nəhəng gücdür. Sizdən xeyli çox qaz ixrac etməsi faktdır. Lakin bu, rəmzi addım ola bilər. Siz Rusiyanın reaksiyasından qorxmursunuz?*

-Xeyr, qətiyyən. İlk növbədə, bu məsələ ölkələrin liderləri arasında heç vaxt yüksək səviyyədə müzakirə olunmayıb. Bizim neft kəmərlərindən tutmuş, qaz kəmərlərinədək bütün enerji layihələrimiz regionda çox dostyana mühitdə tamamlanıb. Bu, birincisi. İkincisi, Rusiya bizim siyasətimizə, xarici siyasətimizə, enerji siyasətimizə tam hörmət edir. Biz rəqib deyilik. Dəfələrlə qeyd etdiyim kimi, bu məsələlər bəzən süni şəkildə şişirdilir. Biz heç bir halda Rusiyanın rəqibi deyilik. Çünki Rusiya Avropanı yüz milyardlarla kubmetr qazla təchiz edir və Rusiya qazına tələbat artır. Azərbaycan yeni başlayıb və qeyd etdiyim kimi, bizim Avropaya təchizatımız 2023-cü ildə 11 milyard kubmetr olacaq və əgər yeni müqavilələrimiz olmasa, yeni hasilata investisiya yatırmasaq, bu, belə qala bilər. Ona görə də, bu, heç bir halda bizim Rusiya ilə çox müsbət və yaxşı balanslaşdırılmış münasibətlərimizdə mənfi rol oynaya bilməz.

*-Gəlin, Sizin iqtisadiyyatınıza keçək. Ölkəniz enerji, əsasən, neft və təbii qaz ixracından asılıdır. Düşünürəm ki, iqtisadi şaxələndirmə prosesi bu gün Sizin üçün prioritetdir. Açığını desək, indiyədək bu proses çox yavaş gedib. Siz necə sürətləndirmək niyyətindəsiniz? Onu irəliyə aparmaq üçün hansı hədəfiniz var?*

-Bizim iqtisadiyyatın quruluşuna gəlincə, hesab edirəm ki, neft və qazın ÜDM-də həcminin əhəmiyyətli dərəcədə azaldılmasına nail olmuşuq. Uzun illər bundan öncə neft və qazın ÜDM-də payı mütləq çoxluq təşkil edirdi, indi isə yarıdan da azdır. Beləliklə, Azərbaycan iqtisadiyyatının strukturu daha çox balanslaşdırılmış oldu. Lakin bizim ixracımıza gəldikdə, əlbəttə ki, ixracın 90 faizindən çoxunu neft, təbii qaz, neft məhsulları və elektrik enerjisi təşkil edir. Ölkə üçün bu üstünlükdür, çünki biz bazarlara daxil ola bildik, biz neft, təbii qaz, elektrik enerjisi, neft-kimya və neft məhsulları ixrac edirik və bunlar da iqtisadiyyatımıza çoxlu maliyyə axını gətirir. Qazı nə qədər çox ixrac etsək, - çünki qazın həcminin artması açıq-aşkardır, - qeyri-neft məhsullarının ixrac əməliyyatlarında payı bir o qədər də azalır. Neft və qaz üçün biz bazarları axtarmalı deyilik. Neft dünya bazarındadır, qazın artıq bazarı var. Lakin digər, məsələn, kənd təsərrüfatı məhsulları kimi məhsullarımız üçün biz regional bazarlarla məhdudlaşırıq. Avropa bazarına daxil olmaq çox çətindir, çünki Avropa bazarında ölkələr özləri bir-biri ilə rəqabət aparır. Beləliklə, biz əsasən Türkiyəyə, Rusiyaya və bəzi digər ölkələrə ixrac edirik. Deyərdim ki, bu il o baxımdan çox əlamətdar oldu. Qeyri-enerji layihələrinin ixracı 45 faiz artdı. Bizim energetikaya aid olmayan sənayemiz 20 faiz artdı. Bu, həqiqətən də əlamətdar nəticədir. Yenə də ixracın həcmində qeyri-neft seqmentinin nisbəti aşağıdır. Lakin hesab edirəm ki, bu seqment artacaq, xüsusilə azad edilmiş ərazilərdə yeni imkanları və kənd təsərrüfatının, turizmin, bərpa olunan enerjinin və sənayenin nəhəng potensialını nəzərə alsaq. Beləliklə, biz gələcəkdə neft və qazdan asılılığı azaltmağı planlaşdırırıq. Lakin eyni zamanda, biz başa düşməliyik ki, gələcək bir neçə onilliklər ərzində neft və qaz bizim iqtisadiyyatımızda vacib rol oynayacaq.

*-Gəlin İtaliyaya keçək. Çünki İtaliya Azərbaycan üçün çox maraqlıdır. İtaliya Azərbaycanın ilk xarici ticarət tərəfdaşı olub, Roma və Bakının yaxşı münasibətləri var. Təbii qazdan əlavə olaraq Azərbaycan aparıcı neft təchizatçısıdır. Azərbaycan iqtisadiyyatının şaxələnməsində italyan şirkətləri üçün imkanlar varmı? Məsələn, Siz azad edilmiş əraziləri yenidən qurmaq niyyətində olduğunuzu dediniz. Hətta yaşıl resurslarla bağlı həyata keçirilə biləcək çoxlu layihələr var.*

-Əlbəttə ki, İtaliya nəinki təkcə Avropa qitəsində, dünya miqyasında bizim ən yaxın tərəfdaşlarımızdan biridir. Hesab edirəm ki, indi münasibətlərimiz çox yüksək səviyyədədir. Bunun göstəricisi odur ki, biz strateji tərəfdaşlıq haqqında sənəd imzalamışıq. İtaliya Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənəd imzaladığı Avropa İttifaqına üzv olan 9 dövlətdən biridir. Prezidentlərin və digər hökumət rəsmilərinin yüksək səviyyəli səfərləri olub. Sizin qeyd etdiyiniz kimi, İtaliya bizim əsas ticari tərəfdaşımızdır. İndi isə Transadriatik boru kəmərinin istismara verilməsi ilə Azərbaycan İtaliyanın mühüm təchizatçısına çevrilib. İtaliya istehlakında Azərbaycan qazının həcmi ilbəil artacaq. Eyni zamanda, dost ölkə olaraq İtaliya bizim azad edilmiş ərazilərdə fəaliyyət göstərmək üçün dəvət etdiyimiz ilk ölkələrdən biri olub. Birincisi Türkiyə idi,

ikincisi İtaliya. Sizə deyə bilərəm ki, hazırda italyan şirkətlərinin orada icra etdiyi çoxlu layihələr var. Biz italyan memarlarını Şuşadakı tarixi abidələrimizi və məscidlərimizi bərpa etmək üçün dəvət etmişdik. Bu, çox rəmzi məna daşıyan bir jestdir, çünki Şuşa bizim üçün müqəddəs yerdir. Şuşa Azərbaycanın mədəni paytaxtıdır. Dini məkanlar isə hər kəs üçün müqəddəsdir. Bu, çox yüksək səviyyəli etimaddır. Bu yaxınlarda Şuşaya səfər edəndə işlərini necə görəcəklərini mənə nümayiş etdirən italyan şirkətlərinin nümayəndələri ilə görüşdüm. İtalyan şirkəti Bakıda Zəfər Muzeyinin tikintisinə fəal şəkildə cəlb olunub. Bu, rəmzi məna daşıyan digər bir jestdir, çünki siz bu tarixi Qələbənin bizim üçün nə qədər böyük məna daşıdığını təsəvvürünüzə gətirə bilərsiniz. Biz tərəfdaşlığımızı nümayiş etdirmək üçün və italyan şirkətlərinin yüksək səviyyəli fəaliyyətini, zövqünü və ölkələrimiz arasında dostluq münasibətlərini nəzərə alaraq, məhz buna görə italyan şirkətini dəvət etdik. Mən sizə italyan şirkətlərinin çox fəal iştirak etdiyi azad edilmiş ərazilərdə və Azərbaycanın digər yerlərində çoxsaylı tikinti layihələrini qeyd edə bilərəm. Sizə deyə bilərəm ki, Prezident Mattarellanın ölkəmizə səfəri zamanı biz birlikdə italyan şirkəti tərəfindən tikilmiş neft-kimya zavodunun açılışını etdik. İndi isə eyni şirkət bizim neft emalı zavodumuzun yenidən qurulması üzərində fəal şəkildə işləyir. Bunlar bir neçə milyardlıq layihələrdir. Bu sahələr sənaye, neft-kimya məhsulları, tikinti, memarlıq, bərpa işləri, geniş diapazonlu məsələlərdir. Bir daha qeyd edirəm, bu, bizim dostluğumuzu və tərəfdaşlığımızı nümayiş etdirir.

*-İcazə verin, sonuncu sualımı verim. Azərbaycan fərqli ölkə olduğu üçün oradakı iqtisadi məsələlər haqqında eşitmək maraqlı idi. Beləliklə, Azərbaycan dünyada, Asiyada çox önəmli strateji mövqe tutur. O, nəinki enerji habına, eyni zamanda, Qərb və Şərq arasında, Çindən Avropaya qədər sanki bir kommersiya, nəqliyyat habına çevrilə bilər. Bu, iqtisadiyyatın şaxələndirilməsinin bir yolu da ola bilər, regionda sabitliyi təmin edə bilər. Eyni zamanda, bu, vəziyyətin sabitləşdirilməsi və sülhə nail olmaq üçün kömək edə bilər. Bu haqda nə düşündüklərinizi mənə deyə bilərsinizmi?*

-Mən sizin fikrinizlə tamamilə razıyam. Əslində, biz bunu Azərbaycanda ən azından son onillikdə fəal şəkildə həyata keçiririk. Azərbaycanı Avrasiyanın nəqliyyat habına çeviririk. Bu, asan iş deyil, çünki bizim açıq dənizə çıxışımız yoxdur. Biz, birinci növbədə, qonşularımızla yaxşı münasibətlərdə olmalıyıq. Çünki bu münasibətlər olmadan heç bir ölkə tranzit ölkəyə çevrilə bilməz. Bu imkanı yaxşı regional əməkdaşlıq mühiti, üstəgəl nəqliyyat infrastrukturuna investisiya yaratdı. Lakin bu, asan deyildi, çünki biz çoxlu sərmayə yatırmalı idik. Bu gün, məsələn, Azərbaycanda bizim altı beynəlxalq hava limanımız var və azad olunmuş ərazilərdə üç beynəlxalq hava limanımız var. Birinin açılışı artıq olub, ikisi də olacaq. Biz ölkəmizi bütün qonşu ölkələrlə birləşdirən dəmir yolu sistemini şaxələndirdik. Bizim müasir magistral yollarımız var. Yeri gəlmişkən, Davos Forumunun reytinqinə əsasən, Azərbaycan yolların keyfiyyətinə görə 27-ci, hava nəqliyyatı xidməti və dəmir yolu nəqliyyatı xidmətinə görə 11-ci və 12-ci yerdə qərarlaşıb. Beləliklə, bu, artıq baş verir. Biz artıq Mərkəzi Asiyadan gələn mallar üçün tranzit ölkəyə çevrilmişik. Çin də öz mallarını Avropa məkanlarına daşıyır. Üstəgəl, əlavə üstünlük ondan ibarətdir ki, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizi üzərində yerləşir. Bu dəhliz Şimali Avropa, Rusiya, Azərbaycan, İran və Fars körfəzindən keçir. Dəmir yolu və avtomagistral olmasından asılı olmayaraq, Şimal-Cənub dəhlizinin Azərbaycan seqmentində aparılan bütün tikinti işləri artıq tamamlanıb. Əlbəttə ki, İkinci Qarabağ müharibəsindən sonra hər yerdə artıq Zəngəzur dəhlizi adlandırılan yeni dəhlizi açmaq üçün imkan var. O, Azərbaycandan Ermənistana və oradan Azərbaycanın Naxçıvan Muxtar Respublikasına gedərək Türkiyə və Avropaya qədər uzanır, bu da nəqliyyat üçün alternativ marşrut olacaq. Üstəgəl biz Bakının yaxınlığında Ələt qəsəbəsində yerləşən azad iqtisadi zonanın yaradılması üzərində fəal çalışırıq. Bu zona gələn il fəaliyyətdə olacaq. Ümid edirik ki, bu coğrafi mövqe, artıq şaxələnmiş nəqliyyat şəbəkəsi bizə orada çalışmağa üstünlük verən investorları cəlb etməyə kömək edəcək. Beləliklə, nəqliyyat sektoru enerji sektorundan sonra aparıcı sektorlardan biri olacaq və bu komponentə yatırılmış investisiyalar, əlbəttə ki, çoxlu mənfəət gətirir. Mən üstəlik Xəzər dənizində ən böyük ticarət limanının açılışını qeyd edərdim. Onun yükaşırma gücü 25 milyon tona qədər arta bilər. Gəmiqayırma zavodunun tikintisi. Biz artıq özümüzü bütün növ yük gəmiləri, tanker və bərələrlə təmin edirik. Beləliklə, bu, həqiqətən də böyük aktivdir. Üstəgəl sizin qeyd etdiyiniz kimi, Azərbaycandakı sabitlik, etibarlılıq. Çünki biz heç vaxt heç bir müqaviləni pozmuruq, müqavilədə olan hətta bir sözü belə pozmuruq. Odur ki, bizim tərəfdaşlar bizə etibar edir və bütün qonşularımızla yaxşı münasibətlərimiz var. Əlavə olaraq, ümid edirik ki, Ermənistanla da münasibətlər normallaşacaq, dünən baş nazir Paşinyan və Prezident Mişellə müzakirə etdiyimiz kimi. Onda Ermənistanın da regional nəqliyyat şəbəkəsinin üzvü olmağa imkanı olacaq, çünki indi o, çıxılmaz vəziyyətdədir. Onun Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur, olacaq. Onun İranla dəmir yolu əlaqəsi yoxdur, Azərbaycan ərazisindən olacaq. Azərbaycan Ermənistan ərazisindən Naxçıvan Muxtar Respublikasına gedəcək. Burada uduzan tərəf yoxdur. Hesab edirəm, Ermənistanda bu qızıl fürsəti həqiqətən dərk etməlidirlər ki, onlar daha da fəal hərəkət etsinlər və bu gələcək planlarda bizə qatılmaq üçün tərəddüd etməsinlər.

*-Çox sağ olun, cənab Prezident.*

-Təşəkkür edirəm.

# DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ
# SUSTAINABLE DEVELOPMENT MANAGEMENT

UOT 351.78:504.4/8:614.8; UOT 327(4/9):930.22(4/9)

**PƏRVİZ ŞAHBAZOV**
**Azərbaycan Respublikasının Energetika naziri**

## AZƏRBAYCAN RESPUBLİKASININ ENERJİ TƏHLÜKƏSİZLİYİ SİYASƏTİ: YAŞIL ARTIM ÖLKƏSİNƏ DOĞRU

Azərbaycan Respublikası zəngin enerji ehtiyatlarına, inkişaf etmiş yanacaq və enerji infrastrukturuna və enerji sisteminə malik ölkələrdəndir. Azərbaycanın enerji təhlükəsizliyi siyasətinin əsasları öz başlanğıcını 1994-cü il sentyabrın 20-də imzalanmış Azərbaycanın XX əsr tarixində siyasi, iqtisadi və strateji əhəmiyyətinə görə ən mühüm müqavilələrdən biri – Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında Sazişdən - "Əsrin müqaviləsi"ndən götürmüşdür.

Təməli Ümummilli lider Heydər Əliyev tərəfindən formalaşdırılan enerji siyasəti "Əsrin müqaviləsi" ilə dünyanın ilk neft hasilatçılarından olan Azərbaycanı beynəlxalq enerji bazarlarında birbaşa iştirakçıya çevirdi. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlərdən biridir.

"Əsrin müqaviləsi" çərçivəsində reallaşdırılan transmilli layihələr Cənubi Qafqaz və Xəzər hövzəsinin digər dövlətləri ilə müqayisədə Azərbaycanın beynəlxalq aləm üçün geosiyasi və geoiqtisadi dəyər ölçülərini xeyli artırıb, regional və beynəlxalq perspektivini yüksəldib, xarici aləmlə ictimai-siyasi, elmi-nəzəri tərəfdaşlıq münasibətlərinə və milli inkişafına ciddi təsir göstərib. Respublikanın təhlükəsizliyinin, dinamik inkişafının və gələcək tərəqqisinin möhkəm təməli qoyulub. Zamanında ulu öndər Heydər Əliyev də bu sazişin Azərbaycan tarixi, siyasi və beynəlxalq əhəmiyyətini belə dəyərləndirmişdir: "Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır" (1).

2017-ci il sentyabrın 14-də beynəlxalq ictimaiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində yeni və tarixi bir səhifə yazdığına şahidlik edib. Həmin gün Azərbaycanın unikal enerji strategiyasının memarı olan Heydər Əliyevin adını daşıyan mərkəzdə "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni sazişin imzalanması ilə bu yataqların işlənilməsi 2050-ci ilə qədər uzadılıb. Nəticə etibarı ilə Azərbaycan bu gün unikal enerji təhlükəsizliyi kursu olan aktordur. Beləliklə illər öncə çoxlarının qeyri-real, xəyal kimi qəbul etdiyi bu layihə artıq əzəmətli bir gerçəklikdir. Burada "Əsrin müqaviləsi"nin 10-cu ildönümündə ölkə başçısı cənab İlham Əliyevin səsləndirdiyi bir fikri yada salmaq yerinə düşərdi: "Əsrin kontraktı"nın imzalanması tarixi hadisədir. Bu kontraktın faydasını bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı görür. Təsəvvür etmək çətindir ki, əgər "Əsrin kontraktı" imzalanmasaydı, Azərbaycan o vaxt nəyin hesabına öz iqtisadi inkişafını təmin edə bilərdi. Biz nəyin hesabına uğurla inkişaf edə bilərdik. "Əsrin kontraktı"nın bizim müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var" (2).

Enerji resursları ölkəmiz üçün dövlət gəlirlərinin artması mənbəyi olmaqla yanaşı ciddi geosiyasi alətə çevrilib. Azərbaycan artıq dünya enerji təhlükəsizliyinə töhfə vermiş dövlətlərdən sayılır. Nəticə etibarı ilə qlobal arenada enerji təchizatçısı kimi Azərbaycanın müstəqil beynəlxalq siyasət həyata keçirmə imkanları möhkəmlənib.

Azərbaycanın hazırda əməkdaşlıq, sabitlik və inkişafın hərəkətverici qüvvəsi kimi regional və qlobal miqyasda mövqeyini gündən-günə möhkəmləndirən uğurlarının təməlində güclü strateji kurs və liderlik əzmi dayanır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü inkişaf strategiyası Ümummilli Lider Heydər Əliyev siyasətinin məntiqi nəticələridir. Dövlət başçısı 2003-cü ildən bəri Ulu Öndər Heydər Əliyevin güclü və müstəqil dövlət quruculuğu ideyalarını Azərbaycanın regional liderliyi statusuna qədər inkişaf etdirib. Bu prosesdə enerji təhlükəsizliyi kursunun rolu isə misilsiz olub.

Belə ki, Azərbaycanın iqtisadi və siyasi müstəqilliyinin, enerji ölkəsi kimi dünya enerji sisteminə qayıdışının və inkişafının təminatçısı olan "Neft Strategiyası"nın hədəflərinə nail olunub. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verilib, "Yeni əsrin müqaviləsi" nin imzalanması ilə Cənub Qaz Dəhlizi reallaşdırılıb.

"Əsrin müqaviləsi" və onun yol açdığı bu layihələr ölkəmizin iqtisadi inkişafına xidmət etməklə yanaşı, həm də region və Avropa dövlətlərinin enerji təhlükəsizliyini təmin etmiş oldu. Həmçinin yeni mənbə və neft-qaz marşrutlarını şaxələndirən ölkə kimi Azərbaycanın geosiyasi çəkisini də artırdı.

Ölkə Prezidenti İlham Əliyev enerji təhlükəsizliyi məsələsinin Azərbaycanın prioriteti olmasını dəfələrlə vurğulayıb: "Enerji təhlükəsizliyi əslində hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Bu gün enerjini siyasətdən, iqtisadiyyatdan ayırmaq qətiyyən mümkün deyil. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində biz hamımız tərəfdaşlarımızla iştirak edəcəyik" (3).

Hazırda Avropada davam edən enerji böhranı da təsdiqləyir ki, enerji təhlükəsizliyinə yanaşmada Azərbaycan modeli daha rasionaldır.

Bu, enerji resurslarının, enerji təchizatının, tədarük bazarlarının şaxələndirilməsidir və eyni zamanda enerji təhlükəsizliyi ilə ekoloji təhlükəsizlik arasında balanslaşmanı seçməkdir.

Məhz Azərbaycan Prezidentinin proqnozlaşdırılmış, dünyadakı çağırışları çevik nəzərə alan enerji siyasəti ölkəmizin enerji təhlükəsizliyinin qarantıdır.

Dövlət başçısının uzaqgörənliyinə parlaq nümunələrdən biri vaxtından əvvəl "Əsrin müqaviləsi"nin müddətinin uzadılmasıdır.

Enerji transformasiyası dövründə bir çox beynəlxalq enerji şirkətlərinin neft-qaz layihələrindən geri çəkildiyi, neft sektoruna investisiyaların azaldığı, "yaşıl" enerjiyə üstünlük verən strategiyaların qəbul edildiyi vaxtda belə bir müqavilənin mövcudluğu kifayət qədər etibarlı təminatdır. İstismara veriləndən indiyə kimi Azəri-Çıraq-Günəşli yataqlarından 550 milyon tondan çox neft çıxarılıb, SOCAR-a 50 milyard kubmetrdən çox səmt qazı verilib və 157 milyard dollardan çox gəlir əldə edilib. Neft-qaz sektorunun yaxın onilliklərdə də ölkə iqtisadiyyatında mühüm yer tutacağını nəzərə aldıqda apstrim əməliyyatlarında davamlılıq strateji əhəmiyyət daşıyır.

Azəri-Çıraq-Günəşli yataqlarının 2050-ci ilədək işlənilməsi, yeni layihələrə başlanması növbəti illərdə də bizə istehsal və ixrac profilini saxlamağa imkan verəcək və buna görə 2022-2024-cü illərdə ölkədə 34 milyon tondan çox neft hasilatı proqnozlaşdırılır. Qaz hasilatının isə qarşıdakı illərdə artım dinamikasını izləyərək 2024-cü ildə 50 milyard kubmetrə çatacağı gözlənilir.

Azərbaycan Prezidentinin düzgün planlaşdırılmış məqsədyönlü siyasətinin növbəti bir uğuru "Şahdəniz" qazının yeni marşrutla Avropa bazarına ən çox ehtiyac duyulan vaxtda daxil olması və Cənub Qaz Dəhlizinin bütün parametrləri ilə enerji təhlükəsizliyinə xidmət etməsidir.

Təbii qazın enerji keçidi prosesində riskləri sığortalayan rolu hazırda Azərbaycanın enerji təhlükəsizliyinin təminatındakı strateji əhə-




miyyətini daha da artırır. 2021-ci ildə TANAP və TAP ilə Türkiyə və Avropa istehlakçılarına ümumilikdə, təqribən 13,8 milyard kubmetr təbii qaz nəql edilib. Təkcə Avropaya 2021-ci ildə uzunmüddətli müqavilələr, habelə qısamüddətli spot əməliyyatları üzrə, təxminən, 8,15 milyard kubmetr təbii qaz nəql olunub (4). Bununla da avropalı istehlakçıların daha münasib şərtlərlə təbii qazla təminatına, enerji ilə yanaşı ekoloji təhlükəsizliklərinə töhfə verilib. Başqa sözlə, Avropaya təbii qazın nəqli tədarük bazarlarını şaxələndirməklə istehsalçı kimi ölkəmizin, mənbə və marşrutları diversifikasiya etməklə isə istehlakçı ölkələrin enerji təhlükəsizliyini gücləndirir.

Avropaya ixracın artırılması üçün zəruri potensial var və Avropa istehlakçılarından əlavə qaz tələbatı olacağı təqdirdə, bu istiqamətdə müvafiq addımlar atıla və gələcəkdə təchizat coğrafiyamız Qərbi Balkanlara və Şərqi Avropanın bir sıra digər ölkələrinə qədər genişləndirilə bilər. Danılmaz bir həqiqətdir ki, enerji təhlükəsizliyinin ölçüsü güclü enerji siyasətidir.



Bu aspektdə, ölkəmizin Xəzərin enerji ehtiyatlarını kapitala və inteqrasiya dəyərlərinə çevirmək təcrübəsi, səmərəli enerji siyasəti neft-qaz resursları ilə zəngin digər Xəzəryanı ölkələr üçün də stimullaşdırıcı rol oynayır.

Azərbaycanın öndərliyi ilə enerji təhlükəsizliyində Xəzər regionunun imkanlarını reallaşdıran yeni tarixi razılaşmalar əldə edilir.

Həm Xəzər dənizində "Dostluq" yatağının birgə işlənməsi üzrə Azərbaycanla Türkmənistan arasında razılaşma, həm də Azərbaycan, Türkmənistan və İran arasında qazın svop tədarükü üzrə müqavilə bu baxımdan tarixi əhəmiyyətli addımlardır.

Bu sənədlər bütün tərəflərə enerji təhlükəsizliyi ilə bağlı yeni həllər və regional əməkdaşlıq üçün mühüm fürsətlər yaradır.

Enerji ilə regional və qlobal əməkdaşlıq mühitinin yaradılması, xüsusilə, Azərbaycan Prezidentinin enerji siyasətində əsas xətlərdən biridir və bu missiya dünyada enerji ilə bağlı böhranlı situasiyaların nizamlanmasına öz töhfəsini verməkdədir. Bunun bariz nümunəsi Cənab Prezidentin təşəbbüsü olan OPEC və qeyri-OPEC ölkələrinin əməkdaşlıq formatının qlobal neft bazarının balanslaşdırılmasındakı təsirli roludur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz qətiyyəti, strateji baxışı, yüksək liderlik keyfiyyətləri ilə ölkəmizin davamlı inkişafının, ərazi bütövlüyünün və regionda yeni geosiyasi reallıqların memarıdır.

Qarabağın, Şərqi Zəngəzurun bərpası və reinteqrasiyası ilə bərabər kommunikasiyaların açılmasını əhatə edən hazırkı proseslər Cənab Prezidentin Cənubi Qafqazda təhlükəsiz və firavan gələcəklə bağlı aydın baxışlarını nümayiş etdirir. Məhz dövlət başçısı azad edilmiş ərazilərin "Yaşıl enerji zonası"na çevrilməsi və bu təşəbbüsün 2030-cu ilə qədər ölkənin sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərində "yaşıl enerji məkanı" məqsədi ilə uzlaşdırılması strateji yanaşmasının müəllifidir.

Belə ki, 44 gün davam edən və Azərbaycanın möhtəşəm qələbəsi ilə yekunlaşan savaşdan sonra, dövlət başçısının tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji zonası"nın yaradılması üzrə tədbirlərin həyata keçirilməsinə başlanıldı.

Qarabağ regionunda bərpa olunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək "yaşıl enerji zonası" konsepsiyası hazırlandı.

Hazırlanmış "Yaşıl enerji zonası" Konsepsiyası investorlar da daxil olmaqla hər kəs üçün bu bölgəni ekoloji cəhətdən təmiz enerji ilə təchiz edəcək böyükmiqyaslı fəaliyyətin aydın mənzərəsini yaradır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, "yaşıl enerji" konsepsiyası, əsasən, Azərbaycan üçün irəliyə aparan yoldur: "Bu, bütün ölkəyə və xüsusən də azad olunmuş ərazilərə aiddir. Mən artıq bəyan etmişəm ki, azad olunmuş bütün ərazilər "yaşıl enerji zonası"nı təşkil edəcək. Onlar Azərbaycanın böyük hissəsini təşkil edir" (5).

Azad olunmuş ərazilərdə bir sıra böyük layihələrin məhz xarici investisiya hesabına həyata keçirilməsi əsas prioritetlərimizdəndir.

Bu ərazilərdə yaşıl xarici sərmayə qoyuluşunun ilk nümunəsi 240 MVt gücündə Günəş Elektrik Stansiyası üzrə BP ilə əməkdaşlığımızdır.

Xarici investisiya hesabına digər bir layihənin Kəlbəcər və ya Laçın ərazisində reallaşdırılması nəzərdə tutulur.

100 MVt gücündə külək elektrik stansiyası layihəsinə marağın öyrənilməsi məqsədi ilə investorlara məlumat sorğusu sənədi təqdim olunub.

Bundan başqa, işğaldan azad edilmiş ərazilərin hidroenerji potensialından istifadə olunması istiqamətində müvafiq tədbirlər görülür.

Həmçinin 140 MVt gücündə "Xudafərin" və "Qız Qalası" su elektrik stansiyalarının inşasının yaxın 2-3 ildə tamamlanması da regionun yaşıl enerji zonasına çevrilməsinə öz töhfəsini verəcəkdir.

Qarabağda aparılan quruculuq işlərini nəzərə alsaq demək olar ki, qarşıda görüləcək işlər çoxdur, xüsusilə də enerji sahəsində. Bütün bunlar isə ölkəmizi enerjinin şaxələndirilməsi baxımdan daha da zəngin və maraqlı edir.

Azərbaycanın öz inkişafında yeni səviyyəyə yüksəlməsi müasir ətraf mühit və enerji çağırışları şəraitində enerji mərkəzi kimi əhəmiyyətini qoruyub saxlamasından asılı olacaq.

Burada da dövlət başçısının daha bir liderlik keyfiyyətinə – dəyişikliklərə çevik reaksiya verməklə inkişaf proseslərinin önündə addımlamasına - şahid oluruq.

Cənab Prezidentin karbon emissiyalarının azaldılması üzrə qlobal çağırışlara əsaslanan, eyni zamanda enerji təhlükəsizliyi ilə ekoloji təhlükəsizliyi uzlaşdıran baxışları və energetika sektorunda islahatları enerji kursumuza yeni məzmun qazandırır.

Hazırda ölkəmiz "yaşıl artım" ölkəsinə və "yaşıl enerji" məkanına transformasiya yolunda səylə irəliləyir.

Bərpa olunan enerji mənbələrinin inkişafı, enerji səmərəliliyi, hidrogen istehsalı, elektromobillər, enerji sisteminin çevikliyinin artırılması və investisiyaların cəlbi məqsədilə qanunverici və tənzimləyici mühitin təkmilləşdirilməsi fəaliyyətimizdə əsas istiqamətlərdir. Ötən il qəbul olunan iki yeni qanun bərpa olunan enerji və enerji səmərəliliyi üzrə əməli nəticələrə yol açır.

Hədəfimiz ölkəmizin ümumi enerji istehsalı gücündə bərpa olunan enerjinin payını 16,5%-dən 2030-cu ildə isə 30%-ə çatdırmaqdır.

Bu məqsədlə quraşdırılacaq 1500 MVt-lıq yeni istehsal güclərinin 470 meqavatı pilot layihələr vasitəsilə 500 milyon ABŞ dollarından çox xarici sərmayə hesabına artıq reallaşdırılır. 240 MVt-lıq "Xızı-Abşeron" Külək Elektrik Stansiyası və 230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyası Azərbaycanın bərpa olunan enerji tarixində ilk xarici investisiya əsaslı layihələrdir. Hər iki stansiyasının istifadəyə verilməsi ilə bərpa olunan enerji mənbələrinin payı elektrik enerjisinin qoyuluş gücündə 21.2 faizə çatacaqdır.

Bərpa olunan enerji layihələrinin hərraclara çıxarılması, Xəzər dənizinin nəhəng külək enerjisi potensialının istifadəsi ilə bağlı planlarımız "yaşıl enerji" gələcəyinin investorlarla birgə qurulması üçün fürsətlərdir.

Bir sözlə, Azərbaycanın enerji kursu cənab Prezidentin rəhbərliyi ilə qlobal çağırışlara uyğun şəkildə yüksək siyasi məharətlə həyata keçirilir və bu da ölkəmizin beynəlxalq səviyyədə mövqeyini davamlı olaraq möhkəm-ləndirəcəkdir.

**Ədəbiyyat:**


1. https://president.az/az/pages/view/azerbaijan/contract
2. Prezident İlham Əliyevin "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə nitqi. Bakı, 20 sentyabr 2019-cu il. https://azertag.az/xeber/1332408
3. Prezident İlham Əliyevin Bakıda "Əsrin müqaviləsi"nin 20 illiyinə və "Cənub" qaz dəhlizinin təməlinin qoyulmasına həsr olunmuş təntənəli mərasimdə çıxışı. Bakı, 20 sentyabr 2014. https://president.az/az/articles/view/12921
4. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası çərçivəsində Energetika Nazirliyi tərəfindən 2019-cu ilin yekunu üzrə həyata keçirilmiş tədbirlərə dair məlumat // https://minenergy.gov.az/uploads/Proqramlar/gb2020/2020gb-yekun.pdf
5. https://apa.az/az/xeber/xarici-siyaset/1642488139-0
6. Алиев И. Каспийская нефть Азербайджана. М.: Известия, 2003, 798 с


***Açar sözlər:*** *enerji təhlükəsizliyi, ekoloji təhlükəsizlik, yaşıl enerji, sosial-iqtisadi inkişaf*

**Parviz Shakhbazov**
*Minister of Energy of the Republic of Azerbaijan*

## ENERGY SECURITY POLICY OF THE REPUBLIC OF AZERBAIJAN: TOWARDS A GREEN GROWTH COUNTRY

### ABSTRACT

The paper examines current issues such as accelerating the transition from traditional energy sources to renewable energy, increasing the share of renewable energy in transport and heat supply, promoting energy efficiency, ensuring access to advanced energy efficiency practices, and challenges to energy security in our country.

***Keywords:*** *energy security, environmental security, green energy, socio-economic development*

**Парвиз Шахбазов**
*Министр Энергетики Азербайджанской Республики*

## ПОЛИТИКА ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ: НА ПУТИ К СТРАНЕ ЗЕЛЕНОГО РОСТА

### РЕЗЮМЕ

В статье были исследованы такие актуальные вопросы, как ускорение перехода нашей страны от традиционных источников энергии к возобновляемым источникам энергии, увеличение доли возобновляемых источников энергии в транспорте и теплоснабжении, продвижение энергоэффективности и обеспечение доступа к передовым технологиям в области энергоэффективности.

***Ключевые слова:*** *энергетическая безопасность, экологическая безопасность, зеленая энергия, социально-экономическое развитие*

# DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ
# SUSTAINABLE DEVELOPMENT MANAGEMENT

UOT 328; 342.5; 351/354; UOT 008(091)

*К концепции развития духовной культуры азербайджанского народа*

**Фуад Мамедов**
**Профессор кафедры Истории Академии Государственного Управления при Президенте Азербайджанской Республики, доктор исторических наук, президент Ассоциации культуры Азербайджана «Симург», вице-президент Международной гуманитарной академии «Европа-Азия», иностранный член РАЕН, почетный член ВАС, академик МАГИ, МАНПИР, МАПСН, МГА**
*e-mail: fuadtm7@gmail.com*

## ВЫСОКОКУЛЬТУРНЫЙ АЗЕРБАЙДЖАНЕЦ, КАК ВОЗОБНОВЛЯЕМЫЙ СТРАТЕГИЧЕСКИЙ РЕСУРС НАЦИОНАЛЬНОГО РАЗВИТИЯ

*«Культура спасет общество,*
*Если общество защитит культуру!»*

Şuşa orada doğulmuş, şöhrətləri bütün dünyaya yayılmış bəstəkarların vətəni kimi də məşhurdur. Belə ki, Azərbaycan musiqi mədəniyyəti tarixində yeni bir mərhələnin yaranması Üzeyir Hacıbəylinin adı ilə bağlıdır. Üzeyir Hacıbəyli dahi bəstəkar, Azərbaycan opera musiqisinin banisi olmaqla yanaşı, istedadlı publisist və ictimai-siyasi xadim kimi də tanınmışdır. Bundan əlavə, Fikrət Əmirov, Zülfüqar Hacıbəyov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Zakir Bağırov, Süleyman Ələsgərov, tanınmış teatr və kino xadimləri Mehdi Məmmədov, Lətif Səfərov, Məhluqə Sadəqova, eləcə də, görkəmli rəssam, heykəltəraş və memarlardan Kərbəlayı Səfixan Qarabaği, Lətif Kərimov, Cəlal Qaryağdı, Toğrul Nərimanbəyov, Münəvvər Rzayeva və bir çox başqa xadimlərin adı, eləcə də sənəti Azərbaycan mədəniyyəti tarixində müstəsna yer tutur.

### Azərbaycan şairəsi Xurşidbanu Natəvan və fransız yazıçısı Aleksandr Dümanın görüşü

Tarixi sənədlər göstərir ki, "Üç muşketyor" və "Qraf Monte Kristo" kimi klassik əsərlərin müəllifi olan məşhur yazıçı Aleksandr Düma 1858-ci ilin ortalarından 1859-cu ilin əvvəllərinə kimi Rusiya və Qafqazda olmuşdur (24, s.243-244). Qafqaza səfəri zamanı müəyyən müddət Azərbaycan ərazisinə səyahət etmiş,

1859-cu ilin aprel ayında isə Dümanın 3 cilddən ibarət "Qafqaz səyahətinin təəssüratları" əsəri (fransızca: "İmpression de Voyage Le Caucase") Parisdə çap olunmuşdur (68, s.24). Bakı məhəllələrinin birinin polismeysteri Piquliyevskinin evində qonaq olan Aleksandr Düma orada Qarabağ xanının qızı, məşhur şairə Xurşidbanu Natəvan və onun həyat yoldaşı knyaz Xasay Usmiyevlə tanış olur, onlar arasında səmimi dostluq münasibətləri yaranır. Fransız yazıçısı Düma Azərbaycan şairəsi Natəvanla şahmat oynayır. Oyunun nəticəsi isə çox yadda qalan olur. Belə ki, Natəvan Dümanı mat edir. Natəvan Dümaya qalib gələrkən o, Dümadan yaşca xeyli kiçik idi. Natəvanın cəmi 26, Dümanın isə 56 yaşı vardı (6, s.20-21).

Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun dəstəyi ilə 2016-cı il fevralın 18-də Belçika Krallığının Vaterlo şəhərində görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın abidəsinin açılışı olmuş və abidənin özülündə Xurşidbanu Natəvanın Qarabağ şahzadəsi olması barədə məlumat vardır (28). 2020-ci ilin mart ayında ermənilər tərəfindən vandalizmə məruz qalmış Xurşidbanu Natəvanın abidəsi Vaterlo şəhərinin mühafizə edilən tarixi abidələr siyahısına daxildir. 2020-ci ildə Belçikanın Vaterlo şəhərində Azərbaycanın görkəmli şairəsi, Qarabağ şahzadəsi Xurşidbanu Natəvanın tam bərpa edilmiş abidəsinin yenidən açılışı olmuşdur (29).

### Şuşa qəza (şəhər) məktəbi – Qafqazda ilk dünyəvi təhsil ocağı

Azərbaycanın maarifçilik tarixində Şuşanın ədəbi, mədəni və təhsil mühitinin əvəzsiz rolu olmuşdur. Şuşa ictimai fikir tariximizin inkişafına mühüm töhfələr vermiş, Azərbaycana və dünyaya görkəmli şəxsiyyətlər bəxş etmişdir.

Şuşanın yüksək iqtisadi inkişafı və şəhər ziyalılarının dünyəvi təhsil verən məktəb açmaq səyi Şuşaya bu sahədə də birincilik qazandırmışdı. Qafqazda ilk qəza məktəbinin təntənəli açılışı 1830-cu il dekabr ayının 30-da Şuşada olmuşdu. Bununla da Azərbaycanda ilk dövlət məktəbi sisteminin bünövrəsi qoyuldu. Şuşa qəza məktəbi dünyəvi təhsil verən məktəblərin birincisi oldu. Çar Rusiyası hökuməti Qafqazda dövlət məktəblərini açmazdan əvvəl xüsusi nizamnamə hazırlayaraq 1829-cu ilin avqust ayının 2-də təsdiq etmişdir. Nizamnamədə nəzərdə tutulmuş şəhərlərdən birinci olaraq Şuşada qəza məktəbi təsis edilmişdir (14, s.11).

Şuşada qəza məktəbi Azərbaycanda ilkin olaraq yaradıldığı kimi, fəaliyyət göstərdiyi bütün illərdə təlim-təhsil keyfiyyətinə görə də birinci yerdə gedirdi. 1835-ci ilin may ayının 12-də Zaqafqaziya məktəblərinin ikinci nizamnaməsi təsdiq edilmişdi. Bu nizamnamədə Azərbaycan üzrə 4 qəza məktəbini, o cümlədən Şuşa məktəbini təkmilləşdirmək də nəzərdə tutulmuşdu. Yeni nizamnamə ilə işləməyə başlamış təhsil ocağının II və III siniflərində rus dilinin qrammatikası, coğrafiya, tarix, hesab, Azərbaycan dili, hüsnxət, rəsm fənləri tədris edilirdi. Azərbaycan dili rus bölməsi üçün də məcburi fənn kimi həftədə 6 saat keçilirdi (14, s.12).

Şuşa qəza məktəbinin kitabxanasında 1845-ci ilin məlumatına görə, 301 adda ədəbiyyat və digər tədris vəsaiti var idi. 5 müəllim və 127 şagirdlə təlimə başlanılmış Şuşa qəza məktəbi əvvəlcə üç sinifli, 1878-ci ildən isə dörd sinifli şəhər məktəbinə çevrildi. Şuşada şəhər məktəbi Azərbaycanda ilkin olaraq yaradıldığı kimi, fəaliyyət göstərdiyi bütün illərdə təlim-təhsil keyfiyyətinə görə də birinci yerdə gedirdi (6, s.22).

1848-ci ilin dekabr ayının 18-də Zaqafqaziya məktəblərinin yeni nizamnaməsi qəbul edildi. Qəza məktəblərinin, o cümlədən Şuşa qəza məktəbinin qarşısında yeni məqsədlər qoyulurdu. Belə ki, əvvəlki fənlərdən əlavə dəftərxana qaydalarına aid qısa məlumat da tədris planına daxil edilmişdi. Azərbaycan dilinin öyrənilməsinə daha geniş yer verilirdi.

Şuşa qəza məktəbində tədris-təlim işi digərlərinə nisbətən yüksək səviyyədə idi. Şagirdlərin sayına görə bu məktəb bütün Zaqafqaziyada birinci yeri tuturdu. 1865-ci ildə Şuşa qəza məktəbində 240 şagird təhsil alırdı. 1868-ci ildən tədris planına latın və Avropa dilləri daxil edilmişdi. Şuşa qəza

məktəbində fransız dilinin tədrisi tətbiq olunmağa başlamışdı (6, s.22-23).

Maarifçiliyin inkişafı nəticəsində Şuşada dünyəvi təhsil sisteminə keçid gücləndi. Azərbaycanda ilk ümumtəhsil ocağı olan Şuşa qəza məktəbi 1874-cü ildə Qafqazda şəhər məktəblərinin ilk qaranquşu oldu və Şuşa şəhər məktəbinə çevrildi (24, s.155-156). Beləliklə, Şuşa şəhər məktəbi xeyli şagirdi, kitabxanası, tədris-maddi bazası olan Şuşa qəza məktəbinin bazasında 1874-cü ildə fəaliyyətə başladı. Yeni məktəb daha yüksək tipli idi. Ona görə də pedaqoji heyətin əksəriyyəti Tiflis Aleksandriyski Müəllimlər İnstitutunu bitirənlərdən ibarət idi. Şuşada şəhər məktəbi şagird çoxluğuna görə yenə də seçilirdi. 1876-cı ildə burada təkcə I sinifdə 70, 1877-ci ildə isə 160 nəfər şagird var idi (14, s.14). Bunun ardınca 1881-ci il sentyabrın 20-də Şuşada 6 sinifli realnı məktəbin əsası qoyuldu.

Şuşa şəhər məktəbinin ilk buraxılışından bir neçə nəfər 1879-cu ildə Qori Müəllimlər Seminariyasına daxil olmuşdur (24, s.232). Onların sırasında tanınmış pedaqoq, Azərbaycan elmi-pedaqoji, ictimai fikri tarixində xüsusi xidmətləri olan görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli və tanınmış maarif xadimi Səfərəli bəy Vəlibəyov da var idi. XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Nəcəf bəy Vəzirov və bir çox məşhur simalar da ilk təhsillərini Şuşa (qəza) şəhər məktəbində almışlar.

1937-1938-ci dərs ilindən isə bura 1 nömrəli şəhər orta məktəbinə çevrildi. 1939-1940-cı tədris ilində 110 yaşlı məktəbin orta təhsilli ilk buraxılışı olmuşdu. 1966-cı ildə 1 nömrəli məktəbdən yeni bir təhsil ocağı – 4 nömrəli orta məktəbi yarandı. 1 nömrəli Şuşa şəhər orta məktəbi isə yeni binaya köçürüldü və burada dahi bəstəkar Üzeyir Hacıbəylinin adını daşıyaraq fəaliyyətini davam etdirdi.

Görkəmli dövlət xadimi Heydər Əliyev hələ 1982-ci ilin yanvarında Şuşa şəhər 1 nömrəli orta məktəbinin 150 illik yubileyinin qeyd olunması haqqında Azərbaycan KP MK Bürosunun qərarını imzalamış və bu qərar əsasında məktəbin yubileyi təntənəli şəkildə keçirilmişdi (14, s.5-6).

Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2010-cu il dekabrın 7-də Azərbaycanda ilk qəza məktəbinin - Üzeyir Hacıbəyli adına Şuşa şəhər 1 nömrəli orta məktəbinin 180 illik yubileyi dövlət səviyyəsində təntənəli surətdə qeyd edildi (27).

2020-ci il noyabrın 8-də Şuşa şəhərinin işğalçılardan azad edilməsindən 6 ay sonra 2021-ci il mayın 8-də Şuşa şəhər 1 nömrəli 960 şagird yerlik tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzaladı və 4 gün sonra Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməli qoyuldu (30; 31). Beləliklə, Qafqazda ilk dünyəvi təhsil ocağı olan 192 yaşlı Şuşa şəhər məktəbi tezliklə öz sevimli kollektivini yenidən doğma yurdunda qəbul edərək öz fəaliyyətini davam etdirəcək və Azərbaycan təhsilinin inkişafına dəyərli töhfəsini verəcəkdir.

**Görkəmli dövlət xadimi Heydər Əliyevin Şuşaya zəngin tarixi abidə kimi qayğısı**

Sovet dövründə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdı. Heydər Əliyevin fəaliyyətinin mühüm əhəmiyyət daşıyan istiqamətlərindən biri məhz Qarabağda milli ruhun oyadılması olmuşdur. Şuşanı zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi dəyərləndirən Heydər Əliyev XX əsrin 70-ci illərində Şuşa şəhərində Azərbaycan xalqının tarixi abidələrinin qorunmasına xüsusi qayğı göstərilməsi barədə göstəriş vermişdi. Eyni zamanda, Şuşada aparılan tikinti-quruculuq işləri ilə də yaxından maraqlanmış, Azərbaycan poeziyasının klassikləri M.P.Vaqifin və Xurşidbanu Natəvanın yaşayıb yaratdığı yerlərlə tanış olmuşdu.

Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə 1970-ci illərin ikinci yarısında bir neçə xüsusi qərar qəbul edildi. Həmin il qərarlara uyğun olaraq şəhərin keçmişdə tikilmiş binaları, tarixi abidələri bərpa edildi, yeni çoxmərtəbəli yaşayış binaları, böyük

mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikildi. Bununla yanaşı, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrildi. Həmin qərarların yerinə yetirilməsinin böyük tarixi əhəmiyyəti var idi. Şəhərdə azərbaycanlılar üçün əlavə iş yerləri açılır, həyat səviyyəsi yaxşılaşır, Azərbaycanlıların milli ruhu güclənirdi. Keçmiş SSRİ-nin müxtəlif yerlərindən Şuşaya istirahətə gələnlər, eyni zamanda, Azərbaycanın tarixi, mədəniyyəti və incəsənəti ilə yaxından tanış olurdular.

Qeyd etmək lazımdır ki, 1920-ci ildən 1970-ci ilə qədər Şuşada heç vaxt belə geniş quruculuq işləri aparılmamışdı. Şuşa şəhərinin "Qala divarları"nın və "Gəncə qapısı"nın bərpasına 1975-ci ildə 25 min manat (rubl) vəsait xərclənmişdi. Azərbaycan mədəniyyəti, incəsənəti və elm xadimlərinin, o cümlədən XIX əsrin görkəmli ədibi, satirik şair Qasım bəy Zakirin məzarı qaydaya salındı (13, s.332).

1977-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Şuşa ictimaiyyəti ilə keçirdiyi görüşdə Heydər Əliyev tövsiyə edərək demişdi: "Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qorumaq, qədim tikintiləri bərpa etmək lazımdır" (6, s.26).

Həmin illərdə Heydər Əliyevin Şuşaya göstərdiyi diqqət və qayğı daha da artmış və geniş quruculuq işləri vüsət almışdı. Belə ki, görkəmli Azərbaycan şairi Molla Pənah Vaqifin məzarı üstündə 1980-1981-ci illərdə abidə, məqbərə kompleksi tikilmiş və 1982-ci il yanvarın 14-də yağan güclü qarın altında Heydər Əliyev Şuşada şairin məqbərəsini böyük təntənə ilə açmışdı. Onun M.P.Vaqifə bu münasibəti bir tərəfdən milli ədəbiyyata sevgisindən irəli gəlirdisə, digər tərəfdən diyarın tarixini, əhalisinin etnik mənsubiyyətini bir daha göstərməklə bağlı idi. Əslində, bu məqbərə, eyni zamanda, gözəl memarlıq abidəsi idi. Bununla yanaşı, səfər zamanı Heydər Əliyev Şuşada Poeziya evini açaraq, Vaqif poeziya günlərində iştirak etdi (13, s.334-335).

Eyni zamanda, Heydər Əliyev Üzeyir Hacıbəylinin və Bülbülün Şuşadakı ev-muzeylərindəki eksponatlarla tanış olmuş və onların qorunmasına dair tövsiyələrini vermişdi. Bu tarixi səfər zamanı Şuşadakı abidələrin bərpa işləri ilə maraqlanan Heydər Əliyev müvafiq göstərişlər verərək işlərin davam etdirilməsinə dair bir sıra təkliflərini də söyləmişdi. Bununla yanaşı, Heydər Əliyevin Şuşa məscidinə getməsi bir tərəfdən, onun dini dəyərlərə olan ehtiramının və dərin bağlılığının göstəricisi idisə, digər tərəfdən azərbaycanlı əhalinin milli və dini dəyərlərə sahib çıxmalarının vacibliyinə olan nümunə idi. Heydər Əliyev erməni millətçilərinin ona müxtəlif böhtanlar atdığı bir zamanda məscidə getməklə yerli əhaliyə dini inanclarını qorumağı da tövsiyə etmişdi.

1982-ci il iyulun 29-dan avqustun 2-dək Qarabağa bir il içərisində ikinci dəfə səfər edən Heydər Əliyevin bilavasitə iştirakı ilə Şuşada görkəmli şairə Xurşidbanu Natəvanın abidəsinin açılışı oldu (6, s.26-27). Qeyd etmək lazımdır ki, bir ildə iki dəfə Şuşaya gedərkən ailəsi ilə birlikdə yanında elm, mədəniyyət və incəsənət adamlarının böyük bir qrupunu da aparmışdı. Bu addımı ilə görkəmli dövlət xadimi Heydər Əliyev ziyalıları Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağa xüsusi diqqət yetirməyə istiqamətləndirir, Şuşaya tez-tez səfərə gəlmələrini tövsiyə edirdi.

### XX əsrin sonunda Ermənistanın Azərbaycana hərbi təcavüzü, Şuşanın işğalı və mədəni soyqırımı siyasəti

1987-ci il oktyabrın 21-də Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Sov.İKP plenumunda vəzifəsindən istefa verdikdən bir neçə gün sonra Sov.İKP MK-nın baş katibi M.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Parisdə "İnterkontinental" hotelində müsahibəsində Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini

bəyan edərək Azərbaycanın bu ayrılmaz hissəsinin Ermənistana birləşdirilməsi ideyasını əsassız olaraq irəli sürdü. Bunun ardınca noyabrın 18-də A.Aqanbekyanın Parisdə verdiyi müsahibə "L'Humanite" qəzetində çap olundu. Bu müsahibə ermənilərin Dağlıq Qarabağa dair ərazi iddialarının başlanması üçün bir siqnal rolunu oynadı (6, s.27).

XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərində SSRİ rəhbərliyinin ermənilərə himayədarlığı sayəsində hadisələr getdikcə daha da mürəkkəbləşdi və Ermənistan Respublikası Azərbaycan ərazilərinə hərbi qüvvə göndərərək açıq təcavüzə başladı. 1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan silahlı qüvvələri bir-birinin ardınca Dağlıq Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdi.

1992-ci il mayın 8-də Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində rayonun 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin Şuşa filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır (5, s.75).

Bununla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 850-dən çox yaşayış binası və 300-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində son tunc və ilk dəmir dövrü abidəsi sayılan Şuşa və Şuşakənd daş qutusu qəbirləri, daş dövrü abidəsi olan Şuşa mağara düşərgəsi, XVIII əsrə dair Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı və kitabxanası, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xocamircanlı, Merdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B.Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Behbudovların, Fərəməzovların, Zöhrabbəyovun, Bəhmən Mirzənin evləri, Üzeyir Hacıbəylinin, Bülbülün ev-muzeyləri, Xan Şuşinskinin, tarzən Sadıqcanın evləri, Realnı məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi erməni işğalçıları tərəfindən talan edilmiş, dağıdılmış və məhv edilmişdir (6, s.28).

**Şuşanın işğaldan azad edilməsi Zəfər günü kimi tarixə yazıldı**

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin prinsipial mövqeyi, səsləndirdiyi tutarlı dəlillər və əsaslı fikirlər döyüş meydanında Azərbaycan Ordusunun əldə etdiyi qələbələr diplomatiya meydanında da uğurlara çevrildi və Azərbaycanın İkinci Qarabağ müharibəsindəki hərbi-diplomatik Qələbəsini şərtləndirdi.

Azərbaycan Prezidenti İlham Əliyev hər zaman bəyan edib ki, Azərbaycanın mövqeyində hər hansı bir dəyişiklik yoxdur, ola da bilməz, çünki biz həm tarixi ədalətə, eyni zamanda, beynəlxalq hüquqa əsaslanırıq. "Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü kimi eyni dəyərə malikdir" fikrini bütün dünyaya bəyan edən Prezident İlham Əliyev dəfələrlə bildirib ki, heç vaxt Azərbaycan torpağında ikinci erməni dövlətinin yaranmasına icazə verilməyəcək, işğal edilmiş bütün torpaqlar işğalçılardan azad olunmalı, Azərbaycan vətəndaşları öz doğma yurdlarına qayıtmalıdırlar.

Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!" (32)

Azərbaycan Prezidentinin dekabrın 3-də imzaladığı Sərəncama əsasən noyabrın 8-i

bayram günləri sırasına daxil edildi və hər il Azərbaycanda Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Prezidentin Sərəncamında vurğulanır ki, Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi (33).

**Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı, Xarı bülbül Qarabağın azadlıq rəmzi oldu**

2021-ci il yanvarın 14-də Şuşaya səfər edən Azərbaycan Prezidenti İlham Əliyev son dəfə 39 il bundan əvvəl ümummilli lider Heydər Əliyevin şəhərə tarixi və unudulmaz səfəri zamanı gəldiyini diqqətə çatdıraraq bildirdi ki, qəhrəman Azərbaycan Ordusu mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılmışdır: “Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik” (34).

Şuşaya səfəri zamanı Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, Şuşa işğaldan azad olunandan sonra şəhərin, bütün tarixi binaların bərpa edilməsi prosesinə start verilib. Ermənistanın Azərbaycan torpaqlarını, o cümlədən Şuşanı işğal etməsi nəticəsində tarixi, mədəni abidələrimiz dağıdılıb, ev muzeyləri qarət edilib. Onların arasında Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı büstləri də var. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Prezident İlham Əliyev qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrildi və həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyuldu.

Azərbaycan Prezidenti İlham Əliyev qeyd edib ki, ermənilərin bütün cəhdlərinə baxmayaraq, onlar Şuşanı dünyaya erməni şəhəri kimi təqdim edə bilməmiş, 28 il ərzində buna çalışmış lakin nail ola bilməmişlər. Ancaq Şuşa ermənilər tərəfindən dağıdılsa da, əyilmədi, əsirlikdə olsa da, öz ləyaqətini itirmədi, erməniləşdirmə cəhdlərinə məruz qalsa da, Azərbaycan ruhunu qoruyub saxlaya bildi.

Şuşanın əsl tarixi simasının, ənənələrinin və qədim mədəni abidələrinin bərpası olduqca zəruridir. Bir vaxtlar “Qafqazın sənət məbədi”, “Azərbaycan musiqisinin beşiyi” və “Şərqin konservatoriyası” adlandırılan, Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi və Qarabağın baş tacı olan Şuşa şəhəri artıq işğaldan azad edilmişdir.

Bu baxımdan, strateji əhəmiyyətli Şuşanın Azərbaycan tarixində xüsusi yerinin olduğunu vurğulayan dövlət başçısı bildirmişdir ki, bu, bizim qədim, tarixi şəhərimizdir və əsrlərboyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıblar: “Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik...O cümlədən Şuşada yerləşən məscidlərimiz əsaslı şəkildə təmir edilməlidir, bərpa olunmalıdır, onların öz siması qaytarılmalıdır” (34).

Bununla yanaşı, Şuşa şəhərinin Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb etdiyini bildirən Prezident İlham Əliyev qeyd etmişdir ki, yarıdağılmış tarixi abidələrimizin bərpasında çox həssas olmalı, ancaq biz o tarixi abidələrimizin əsl simasını bərpa etməliyik. Vaxt itirmədən, ancaq, eyni zamanda, tələsmədən Şuşanın ilkin simasının, tarixi simasının bərpa

edilməli olduğunu bildirən Azərbaycan Prezidenti Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edərək demişdir: "Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər. Şuşanın mədəni həyatı zəngin olmalıdır". Bununla yanaşı dövlət başçısı vaxtilə Vaqif poeziya günlərinin ənənəvi olaraq keçirildiyini vurğulayaraq diqqətə çatdırmışdır ki, Şuşada Vaqif poeziya günləri bərpa edilməlidir, "Xarı bülbül" festivalı bərpa olunmalıdır.

Prezident İlham Əliyev bildirib ki, Şuşanın Azərbaycan tarixində xüsusi yeri var və Şuşanın bərpası, dirçəlməsi hamımızın işidir: "Əlbəttə ki, bütün işlər planlı şəkildə aparılmalıdır, Şuşanın tarixi siması saxlanılmalıdır, Şuşaya yad olan hər hansı bir tikiliyə yol vermək olmaz". Dövlət başçısı bildirmişdir ki, mütəxəssislər, memarlar, tarixçilər, şuşalılar özləri deyəcəklər ki, bu şəhəri necə görmək istəyirlər, çünki bu, onların şəhəridir. Şuşanın əsl tarixi simasının və qədim mədəni abidələrinin bərpası Azərbaycan memarlıq üslubunu əks etdirməli, çox zəngin mədəni həyat olmalı və Şuşada yaşayacaq soydaşlarımız da, bütün işlər görüləndən sonra oraya qayıtmalıdırlar: "Biz hamımız istəyirik ki, dağıdılmış şəhərlər tezliklə bərpa edilsin, amma, eyni zamanda, elə olsun ki, bu, oraya qayıdacaq insanların rahatlığını təmin etsin və müasir, güclü Azərbaycanın gücünü bütün dünyaya göstərsin".

2021-ci il martın 16-da işğaldan azad ediləndən sonra Şuşaya ikinci dəfə səfər edən Prezident İlham Əliyev M.P.Vaqifin məqbərəsinin bərpa işləri ilə tanış oldu (35). Bərpa işlərini Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu öz vəsaiti hesabına icra edir. 1992-ci ildə ermənilər Şuşanı işğal edərkən bu abidəni də vəhşicəsinə dağıdıblar. Bu baxımdan, layihənin icrası zamanı məqbərənin əvvəlki vəziyyətinin bərpasına xüsusi diqqət yetiriləcəkdir. Səfər zamanı Prezident İlham Əliyev diqqətə çatdırdı ki, artıq bərpa, quruculuq işlərinə başlanılmış, infrastruktur layihələrinə start verilmişdir. İşğaldan azad ediləndən sonra Şuşaya ikinci dəfə səfər edən Prezident İlham Əliyev Novruz bayramının, Azərbaycanın qədim şəhəri və mədəniyyət paytaxtı Şuşada qeyd edildiyini bütün dünyaya çatdıraraq bəyan etdi ki, 28 ildən sonra biz Şuşaya qayıdaraq tarixi ədaləti bərpa etmişik.

Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Prezident İlham Əliyevin 2021-ci il mayın 7-də imzaladığı Sərəncamında vurğulanır ki, şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, bu mühüm sənəddə göstərilir ki, tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir (36).

Azərbaycan Prezidenti bəyan etdi ki, Şuşa Azərbaycan dövlətinin mədəniyyət paytaxtı kimi dünyanın ən gözəl şəhərlərinin birinə çevriləcəkdir: "Əslində, həmişə belə olub. Sadəcə olaraq, mənfur düşmən bütün tarixi abidələrimizi dağıdıb. Amma biz bərpa edəcəyik. Onların əsl simasını qaytaracağıq. Azərbaycan xalqı Şuşada bundan sonra əbədi yaşayacaqdır".

2021-ci il mayın 12-13-də hər bir azərbaycanlı üçün müqəddəs məkanda, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada, bənzərsiz və füsunkar Cıdır düzündə 29 ildən sonra yenidən "Xarıbülbül" musiqi festivalı keçirildi. Vətən uğrunda canlarından keçmiş qəhrəman şəhidlərin əziz xatirəsinə həsr edilmiş möhtəşəm "Xarıbülbül" musiqi festivalı düşmənə, bu müqəddəs şəhərə yad olan ünsürlərə həm də cavab oldu. Nəticədə, Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı, Xarıbülbül Qarabağın azadlıq rəmzinə çevrildi.

### Şuşa Bəyannaməsinin tarixi və siyasi əhəmiyyəti

2021-ci il iyunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Ermənistanın işğalından azad edilən, Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşa

şəhərinə səfər etməsi və iki dost, qardaş dövlət arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması mühüm tarixi hadisədir.

Müttəfiqlik münasibətləri haqqında Bəyannamənin əvvəlində Azərbaycanın və bütövlükdə Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində iki qardaş dövlətin prezidentlərinin görüşünün mühüm əhəmiyyəti vurğulanır, 100 il bundan əvvəl imzalanmış tarixi Qars müqaviləsinə istinad edilir. Həmçinin, bu tarixi sənəddə 9 fevral 1994-cü il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"nin və "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol"un, eləcə də 16 avqust 2010-cu il tarixində imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə"nin rəhbər tutulduğu bildirilir (37).

Bununla yanaşı, işğaldan azad edilmiş Şuşa şəhərində 100 ildən sonra imzalanan müttəfiqlik haqqında birgə Bəyannamədə iki qardaş və dost dövlətin gələcək çoxşaxəli, birgə fəaliyyət istiqamətləri göstərilir. Bu tarixi sənəddə bir çox mühüm məsələlər, beynəlxalq müstəvidə birgə əməkdaşlıq, xüsusilə müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri öz əksini tapmışdır. Tərəflər xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyini qeyd edərək bu istiqamətdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyətini vurğuladılar.

Sənəddə göstərilir ki, Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edirlər. Bununla yanaşı, sənəddə xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyi qeyd edilir və bu istiqamətdə iki dövlət arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətlərin əhəmiyyəti vurğulanır (37).

Bununla yanaşı, bildirilir ki, hər iki dövlət müxtəlif ölkələrdə yaşayan Azərbaycan və türk diasporları arasında əməkdaşlığın daha sıx inkişaf etdirilməsi, onların məruz qaldıqları ümumi problemlər qarşısında birlikdə addımlar atılması və ardıcıl həmrəylik göstərilməsi məqsədilə səylərini birləşdirəcəklər. Eyni zamanda, göstərilir ki, tərəflər ölkələrinin təqdim edilməsi və milli mənafelərinin qorunmasına dair tarixi həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında diasporal fəaliyyətin əlaqələndirilməsini və qarşılıqlı dəstəyi təşviq edəcəklər.

Sənəddə Ermənistanın Türkiyəyə qarşı əsassız iddialarının, tarixin təhrif olunması və tarixi faktların təhrif olunmaqla siyasiləşdirilməsi cəhdlərinin regionda sülhə və sabitliyə ziyan vurduğu vurğulanaraq bu kontekstdə 1915-ci il hadisələri ilə bağlı olaraq öz arxivlərini açan Türkiyənin Ermənistandakı və digər ölkələrdəki arxivlərin açılması və bu mövzuda tarixçilər tərəfindən araşdırmaların aparılmasına yönəlmiş səyləri qətiyyətlə dəstəklənir (37). Həmçinin, Şuşa Bəyannaməsində siyasi, iqtisadi-ticarət, mədəniyyət və digər bütün sahələri əhatə edən birgə əməkdaşlıq məsələləri öz əksini tapmışdır. Sənəddə həm tarixi, həm siyasi, həm də hərbi və təhlükəsizlik sahələrində əlaqələndirilmiş şəkildə birgə fəaliyyətin əks olunması hər iki dövlətin milli maraqları baxımından müstəsna əhəmiyyət kəsb edir.

Şuşa Bəyannaməsinin imzalanmasından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata birgə bəyanatlarla çıxışlarında bildirdilər ki, Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaqdır.

Azərbaycanın 44 günlük Vətən müharibəsindən sonra dünyaya nümunə olan Azərbaycan-Türkiyə həmrəyliyi və strateji

tərəfdaşlığı daha da yüksək səviyyəyə qalxdı, xüsusilə regional təhlükəsizlik baxımından müstəsna əhəmiyyət kəsb edən müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması mühüm hadisə kimi tarixə yazıldı.

### Şuşa Azərbaycanın çoxəsrlik, zəngin şəhərsalma mədəniyyətinin nadir incisi kimi bərpa edilir

Şuşa – Qarabağın tacı, Qafqazın sənət məbədi, Şərqin konservatoriyası, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında mühüm xidmətləri olan görkəmli xadimlərin vətəni, doğma şəhər, əziz bir torpaq, hərbi-strateji əhəmiyyətli qala və müqəddəs abidədir. Bu baxımdan Şuşanın əsl tarixi simasının, ənənələrinin və qədim mədəni abidələrinin bərpası mühüm əhəmiyyət kəsb edir.

2021-ci il avqustun 29-30-da Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Şuşada bir sıra tədbirlər keçirildi və Şuşa şəhərinin baş planı təqdim olundu.

Qeyd etmək vacibdir ki, 1982-ci il yanvarın 14-də ümummilli lider Heydər Əliyevin iştirakı ilə böyük təntənə ilə açılmış dahi Azərbaycan şairi və ictimai xadimi Molla Pənah Vaqifin məqbərəsi, Şuşa şəhəri 1992-ci il mayın 8-də işğal edildikdən sonra ermənilər tərəfindən dağıdılmışdı. Avqustun 29-da Şuşada muzey-məqbərə kompleksinin təmir-bərpa və yenidənqurma işlərindən sonra açılışı oldu, həmçinin erməni vandalizminə məruz qalmış şairin öz evinin yerindəki büstü də yenidən ucaldıldı (38-39).

Eyni zamanda, Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük xidmətlər göstərmiş, professional musiqi sənətinin banisi, görkəmli bəstəkar, ictimai xadim Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə tanışlıq, həmçinin dağıdılmış heykəlinin, eləcə də vokal məktəbinin təşəkkülü və təkamülündə mühüm rol oynamış dahi Bülbülün Şuşa şəhərindəki ev-muzeyinin bərpa işlərindən sonra açılışı oldu (40-41). Eyni gündə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində yenidənqurma işləri yekunlaşan XX əsrin 70-ci illərində tikilmiş "Qarabağ" mehmanxanasının da fəaliyyəti də bərpa olundu.

2021-ci il avqustun 30-da isə 39 il əvvəl – 1982-ci ildə ilk dəfə keçirilmiş Vaqif Poeziya Günləri Şuşa işğaldan azad edildikdən sonra Heydər Əliyev Fondu tərəfindən ilk dəfə yenidən təşkil olundu (42). Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin gün Şuşada keçirilən Vaqif Poeziya Günləri çərçivəsində "Qarabağ Azərbaycan mədəniyyətinin incisidir", eləcə də bərpa və təmir olunaraq yaradılan Şuşadakı Xalçaçılıq Qalereyasında Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Azərbaycan Milli Xalça Muzeyinin təqdim etdiyi "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" sərgiləri ilə tanış oldular.

Bununla yanaşı, Vaqif Poeziya Günləri çərçivəsində Şuşada Azərbaycanın qədim tarixini, zəngin mədəniyyətini, gözəl təbiətini, ənənələrini təcəssüm etdirən "Yaddaş. Fotoqrafik tarix" adlı fotosərgidə, Ermənistanın vaxtilə işğal altında saxladığı ərazilərdə mədəni irsimizə, tarixi-memarlıq nümunələrimizə qarşı vandalizm aktları, düşmən tərəfindən tarixi-mədəni obyektlər, dini ocaqlar məhv edilərək, bir sıra rayon və şəhərlər yerləyeksan olunduğu, həmçinin işğaldan azad olunmuş rayon və şəhərlərdə ermənilərin törətdiyi vəhşiliklərə, dağıntılara dair fotolar da təqdim edildi. Sərgidə Vətən müharibəsi zamanı Ermənistan tərəfindən mülki əhaliyə qarşı törədilən cinayətləri əks etdirən fotolar da nümayiş olundu (43).

2021-ci il sentyabrın 18-də ilk dəfə Şuşada Milli Musiqi Günü çərçivəsində Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının konserti keçirildi (44). Hər il dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin ad günündə qeyd olunan bu tədbir, Şuşada, onun heykəlinin ucaldığı parkda təşkil edildi. Xatırladaq ki, 1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada ucaldılmış bəstəkarın heykəli 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilmişdi. Artıq işğaldan azad edilmiş Şuşa şəhərində görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəli

Azərbaycanın mədəniyyət paytaxtında öz əvvəlki yerində ucaldılıb.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-8-də Şuşa şəhərinə səfəri zamanı əvvəlcə Füzuli rayonunda Zəfər yolunun açılışında iştirak etdikdən sonra Daşaltı kəndində məscidin, Şuşa Radio-Televiziya yayım qülləsinin, Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməllərini qoydular. Eyni zamanda, Şuşada Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Aşağı Gövhər Ağa məscidində və Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanış olduqdan sonra VIII Qlobal Bakı Forumunun iştirakçıları ilə görüşərək söhbət etdilər və Cıdır düzündə oldular (45).

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxış edərək diqqətə çatdırdı ki, Zəfər Günü bizim bayramımızdır, bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır.

Azərbaycan Prezidenti İlham Əliyev hələ 2020-ci il oktyabrın 16-da, 44 günlük İkinci Qarabağ müharibəsinin 20-ci günündə Türkiyənin "A Haber" televiziya kanalına müsahibəsində demişdi: "Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar. Ona görə təbii ki, Şuşanın işğaldan azad edilməsi bizim hədəflərimizin arasında xüsusi yer tutur. Biz buna çalışmalıyıq, biz buna nail olmalıyıq" (46).

Ümumiyyətlə, İkinci Qarabağ müharibəsinin taleyində həlledici gün məhz 2020-ci il noyabrın 8-i oldu. Şuşa şəhərinin işğalçılardan azad edilməsi müharibənin sonrakı gedişinə, eləcə də taleyinə ciddi təsir göstərdi və Azərbaycanın hərb meydanında olduğu kimi diplomatiya meydanında da uğurlarını şərtləndirdi.

Prezidenti İlham Əliyev Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında imzaladığı Sərəncamda deyilir ki, bənzərsiz tarixi görkəmini və formalaşdırdığı özünəməxsus mühiti həmişə qoruyub saxlayan bu şəhər yetirdiyi böyük şəxsiyyətləri ilə ədəbi, mədəni, elmi və ictimai fikir salnaməmizə əlamətdar səhifələr yazmışdır.

2020-ci il noyabrın 8-də Prezident, Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində bütün dünyaya bəyan etdi:

*"Əziz Şuşa, sən azadsan!*
*Əziz Şuşa, biz qayıtmışıq!*
*Əziz Şuşa, biz səni dirçəldəcəyik!*
*Şuşa bizimdir! Qarabağ bizimdir!*
*Qarabağ Azərbaycandır!"*

**Ədəbiyyat:**


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı, 2005, 472 s.
2. Axundov N. Qarabağ salnamələri. Bakı, 1989, 232 s.
3. Baharlı. Əhvalati Qarabağ. // Qarabağnamələr. II kitab, Bakı, 1991, s.276.
4. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1748-1805-ci illərdə siyasi vəziyyətinə dair. //Qarabağnamələr. I kitab, Bakı, 1989, s.161.
5. Əhmədov E.İ. Ermənistanın Azərbaycana təcavüzü: Etnik təmizləmə, soyqırım, terror, işğal. II kitab. Bakı, 2015, 408 s.
6. Əhmədov E.İ. Şuşa – Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı. Bakı, 2021, 180 s.
7. Ənvər Çingizoğlu. Şuşa şəhəri. Bakı, 2009, 248 s.
8. Hüseynov Y.R. "Qarabağnamələr" Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi. Bakı, 2007, 216 s.
9. Hüseynov Y.R. Şuşa salnaməsi. Bakı, 2015, 152 s.
10. İsmayılov İ.A. Azərbaycanın mirvarisi Şuşa. Bakı, 2015, 264 s.
11. Qarabağnamələr, I kitab. Bakı, 1989, 192 s.
12. Qarabağnamələr, II kitab, Bakı, 1991, 450 s.
13. Qasımlı M. Heydər Əliyev - istiqlala gedən yol (1969-1987-ci illər). Bakı, 2006, 608 s.
14. Quliyev V. 180 yaşlı Şuşa məktəbi. Bakı, 2010, 200 s.
15. Quliyev V. Mehmandarovlar. Bakı, 2019, 384 s.
16. Mahmudov Y., Mustafayev C. Şuşa-Pənahabad. Bakı, 2012, 152 s.. Bakı, 2009, 144 s.
17. Mir Mehdi Xəzani. Kitabi tarixi Qarabağ. // Qarabağnamələr. Il kitab, Bakı, 1991, s.108.
18. Mirzə Adıgözəl bəy. Qarabağnamə // Qarabağnamələr. I kitab, Bakı, 1989, s.34-35.
19. Mirzə Camal Cavanşir. Qarabağ tarixi. // Qarabağnamələr. I kitab, Bakı, 1989, s.112.
20. Mirzə Yusif Qarabaği. Tarixi-safı. // Qarabağnamələr, II kitab, Bakı, 1991, s.18., 6-91
21. Авалов Э. Архитектура города Шуши. Баку, 1977. 112 с.
22. Верещагин В. Путешествие по Закавказью в 1864-1865 гг, СПб., 1870, с.242-272
23. Кавкаский календарь на 1846 год, Тифлис, 1954, с.147.
24. Чингиз Каджар. Старая Шуша. Баку, 2007, 344 с.
25. Шушинский Ф. Шуша. Баку, 1968, 164 с.
26. Daniel Pommier, Elchin Ahmadov. SHUSHA - Capitale culturale dell'Azerbaigian. Roma, 2021, 246 p.
27. Azərbaycanda ilk qəza məktəbinin - Şuşa şəhər 1 nömrəli orta məktəbinin 180 illik yubileyi qeyd edilmişdir. – 07.12.2010 - https://azertag.az/xeber/ 503691
28. Belçikada Xurşidbanu Natəvanın heykəlinin açılışı olub. – 18.02.2016. - https://azertag.az/xeber/ 928516
29. Belçikanın Vaterlo şəhərində Xurşidbanu Natəvanın tam bərpa edilmiş abidəsinin açılışı olub. – 15.06.2020. - https://azertag.az/xeber/1513317
30. Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – 08.05.2021. - https://azertag.az/xeber/ 1777093
31. Şuşada 1 saylı ümumtəhsil məktəbinin təməli qoyulub. – 12.05.2021. - https://azertag.az/xeber/ VIDEO-1779429
32. Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciəti. – 08.11.2020. - https://azertag.az/xeber/ VIDEO-1636809
33. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. – 03.12.2020. - https://azertag.az/xeber/ -1657265

34. Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa şəhərinə səfəri. – 16.03.2021 - https://azertag.az/xeber/ VIDEO-1735497
35. Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa şəhərinə səfəri. – 16.03.2021 - https://azertag.az/xeber/ VIDEO-1735497
36. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı - 07.05.2021. - https://azertag.az/xeber - 1775545
37. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi. – 15.06.2021. - https://azertag.az/xeber/1808083
38. Dahi Azərbaycan şairi Molla Pənah Vaqifin Şuşada büstü açılıb. – 29.08.2021. - https://azertag.az/xeber/ VIDEO-1863591
39. Şuşada dahi Azərbaycan şairi Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin bərpadan sonra açılışı olub. - 29.08.2021. - https://azertag.az/xeber/VIDEO-1863593
40. Şuşada Bülbülün ev-muzeyinin bərpadan sonra açılışı olub. – 29.08.2021. - https://azertag.az/xeber/ VIDEO-1863599
41. Üzeyir Hacıbəylinin Şuşa şəhərindəki ev-muzeyində aparılacaq işlərlə tanışlıq. - 29.08.2021. - https://azertag.az/xeber/ VIDEO-1863605
42. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada Vaqif Poeziya Günlərinin açılışında iştirak ediblər. – 30.08.2021. - https://azertag.az/xeber/ VIDEO-1863991
43. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şuşada təşkil edilən sərgilərə baxıblar. – 30.08.2021. - https://azertag.az/xeber/ VIDEO-1864179
44. Şuşada Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının konserti keçirilir. – 18.09.2021. - https://azertag.az/xeber/ 1879213
45. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərinə səfərə gəliblər. – 07.11.2021. - https://azertag.az/xeber/ 1920186
46. Prezident İlham Əliyevin Türkiyənin “A Haber” televiziya kanalına müsahibəsi. – 20.10.2020. - https://azertag.az/xeber/ VIDEO-1615239

***Açar sözlər:*** *Azərbaycan Respublikası, Qarabağ, İkinci Qarabağ müharibəsi, Şuşa, mədəniyyət paytaxtı, Şuşa Bəyannaməsi*

**Elchin AHMADOV**
**The Academy of Public Administration under the President of the Republic of Azerbaijan**
**Department of International Relations and Foreign Policy, Professor, Doctor of Political Sciences**

# SHUSHA - HISTORIC AND STRATEGICALLY IMPORTANT CULTURAL CAPITAL OF AZERBAIJAN

## ABSTRACT

The paper analyses the factors that led to the historic victory of Azerbaijan in the Second Karabakh War, especially in the military-diplomatic and information space. In particular, the liberation of Shusha is considered to be the result of Azerbaijan's military-diplomatic success and having a decisive impact on the subsequent course and fate of the war. In addition, the ancient history of Shusha, the cultural capital of Azerbaijan, and its cultural and strategic significance, are studied. The paper depicts the capital of the Karabakh khanate - the construction of the Shusha fortress and ancient quarters of the city. Primarily, Shusha is studied as a rare example of a rich town-building culture in Azerbaijan. In addition, the author conveys the role of prominent personalities of Shusha, who have made significant contributions to the socio-political and cultural life of Azerbaijan. The research provides facts of the military aggression of Armenia against Azerbaijan at the end of the 20th century, the occupation of Shusha, and the policy of cultural genocide in the city, especially the subjection of historical and architectural monuments to Armenian vandalism. On November 8, 2020, the liberation of Shusha from the occupation by the Azerbaijani Army and the work carried out to restore the actual historical image, traditions, and ancient cultural monuments of the city in 2021 are being widely studied. Moreover, the paper analyses the historical and political significance of the Shusha Declaration on Allied Relations signed between the Republic of Azerbaijan and the Republic of Turkey.

***Keywords:*** *The Republic of Azerbaijan, Karabakh, The Second Karabakh War, Shusha, cultural capital, Shusha Declaration*

**Эльчин Ахмедов**
*Профессор кафедры Международных отношений и внешней политики
Академии Государственного Управления
при Президенте Азербайджанской Республики,
доктор политических наук*

# ШУША – ИСТОРИЧЕСКАЯ И СТРАТЕГИЧЕСКАЯ СТОЛИЦА КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНА

## РЕЗЮМЕ

В статье анализируются факторы, которые привели к исторической победе Азербайджана во Второй Карабахской войне, особенно подробно анализируются успехи в военно-дипломатическом и информационном пространстве. В частности, показывается, что освобождение от оккупации города Шуши оказало решающее влияние на последующий ход и судьбу войны, а также оценивается как результат военно-дипломатических успехов Азербайджана. Кроме того, изучается древняя история Шуши - культурной столицы Азербайджана, а также ее культурное и стратегическое значение. В статье рассказывается о строительстве столицы Карабахского ханства - Шушинской крепости и древних кварталов города. Особенно, Шуша изучается как уникальный образец многовековой, богатой городской культуры Азербайджана. Также освещается роль видных деятелей Шуши, внесших значительный вклад в общественно-политическую и культурную жизнь Азербайджана. Кроме того, доводятся до сведения факты военной агрессии Армении против Азербайджана в конце XX века, оккупации Шуши и политики культурного геноцида в городе, особенно армянского вандализма исторических и архитектурных памятников. Наряду с этим широко изучается освобождение доблестной Азербайджанской армией от оккупации Шуши 8 ноября 2020 года, а также работа, проведенная в 2021 году по восстановлению подлинного исторического облика города, традиций и древних памятников культуры. В статье также анализируется историческое и политическое значение Шушинской Декларации о союзнических отношениях, подписанной между Азербайджанской Республикой и Турецкой Республикой.

***Ключевые слова:*** *Азербайджанская Республика, Карабах, Вторая карабахская война, Шуша, культурная столица, Шушинская декларация*

**R E Z E N S İ Y A**
**R E V I E W**

**ƏLİKRAM ABDULLAYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının I prorektoru, fəlsəfə elmləri doktoru, professor**
*e-mail: alikram@mail.ru*

# MULTİKULTURALİZMİN UĞURLU SOSİAL-FƏLSƏFİ TƏDQİQİ

Çoxmədəniyyətli, çoxkonfessiyalı cəmiyyətlər bu və ya digər formada bəlli tarixin bütün dövrlərində mövcud olmuşdur və təbii ki, tarixin ən dərin laylarında – Qədim dünyanın, xüsusilə də Qədim Şərqin bəzi dini, fəlsəfi, əxlaqi təlimlərində başqa xalqlara, onların mədəniyyətlərinə dözümlülük göstərməyin zəruriliyi ideyasına rast gəlmək mümkündür. Bütün Asiyanın şahı sayılan Makedoniyalı İskəndərin hökmran olduğu ərazilərdə və eləcə də onun güclü rəqibi olan Kirin yaratdığı Əhəmənilər imperiyasının tərkibində müxtəlif dinlərə mənsub insanlar birgə dinc şəraitdə yaşamışlar. Qədim Romada da xristianlıq qəbul edilənə qədər məğlub xalqların öz dini etiqadlarını saxlamasına icazə verilirdi. O zamanın polietnik, politeist imperiyaları üçün vacib olan kimin hansı dildə danışması, hansı dinə etiqad etməsi, hansı adət-ənənələrə əməl etməsi deyil, öz təəbələrinin vergiləri vaxtlı-vaxtında ödəməsi, hərbi mükəlləfiyyət daşıması kimi ümumdövlət normalarına əməl edilməsi idi. Osmanlı imperiyasında da, ermənilərin soyqırıma məruz qalması haqqında uydurmaların tam əksinə olaraq, nəinki qeyri-türk əhalinin dini etiqadına, adət-ənənələrinə tolerant münasibət bəslənmişdir, habelə onların ictimai həyatda, hətta dövlət idarəçiliyində fəal iştirakına geniş imkanlar yaradılmışdır. 2006-cı ildə "Sivilizasiyalar alyansı"na dair Yüksək səviyyəli qrupun məlum məruzəsinin dərc olunması münasibətilə keçirilən yığıncaqdakı çıxışında BMT-nin o zamanki Baş katibi Kofi Annan Osmanlı Türkiyəsinin əldə etdikləri nailiyyətləri onun təkcə güclü orduya malik olması ilə deyil, həm də "müsəlman mədəniyyətini yəhudilərin və xristianların da zənginləşdirdiyi ideyalar imperiyası" olması ilə izah edir. Multikulturalizmin tədqiqi sahəsində tanınmış Kanadalı mütəxəssis V. Kimlika isə Osmanlı imperiyasını mədəni müxtəlifliyə hörmət nümunəsi kimi səciyyələndirir.

Əlbəttə, bu heç də qədim imperiyalar dövründə ümumiyyətlə mədəni müxtəlifliyə münasibətdə problem olmadığı demək deyildir. Lakin bütünlükdə tarixi meyl belədir ki, ayrı-ayrı monoteist dini-fəlsəfi dünyagörüşü formalarının meydana gəlib möhkəmlənməsi, dini və dünyəvi hakimiyyətlərin birləşməsi, xüsusilə də mədəni fərqlərdən siyasi məqsədlər üçün istifadə edilməsinə başlanması ilə başqa mədəniyyətlərdən olanlara yanaşma tərzi dəyişilir, onlara münasibətdə barışmazlıq, düşmənçilik düşüncəsinin, habelə bunlara uyğun müvafiq siyasi davranışın geniş yayılması müşahidə olunur. Varfolomey gecəsi (o gecə ki, Parisdə katoliklər hər hansı bir müqavimət göstərmək imkanından məhrum olan üç min nəfərə yaxın protestantı amansızcasına qətlə yetirmişlər və bu da sonrakı bir həftə ərzində ölkənin digər şəhərlərində dəqiq olmayan məlumatlara görə daha 50 min nəfər günahsız insanın həyatına son qoyulmasın bir çağırış olmuşdur) və eləcə də katoliklərlə protestantlar arasında 30 il davam edən müharibə bu gün də

Avropa tarixinin ən qanlı səhifələri kimi yaddaşlarda yaşayır.

Uzun müddət və daha çox Avropa səhnəsində cərəyan edən amansız dini toqquşmalar, üzücü dini müharibələrdən cana doymuş cəmiyyətlərə sülh, insanlara dinc həyat gətirmək zərurəti maarifçilik epoxasının ictimai şüuruna yol açır, dünyəvi dövlət, dinindən, dilindən, mədəni xüsusiyyətlərindən asılı olmayaraq insan haqlarına hörmətlə yanaşmaq, onu təmin etmək kimi liberal baxışlar tədricən Avropanın ortaq dəyərinə çevrilməyə başlayır.

Lakin Avropa miqyasında gedən bu proses tam qərarlaşmağa macal tapmamış yeni və daha amansız bir mədəniyyətlərarası toqquşmalar meydanı açılır. Sənaye inqilabı və coğrafi kəşflər sayəsində tarixi inkişafda önə çıxmış bir sıra dövlətlər öz iqtisadi, texniki, xüsusilə də hərbi üstünlüyündən istifadə edərək Asiya, Afrika, Latın Amerikasında yeni-yeni əraziləri ələ keçirərək, o yerlərin aborigen əhalisini kütləvi surətdə qırıb məhv etmək, diri qalanları isə amansız istismara məruz qoymaq yolu ilə yaranan müstəmləkəçilik sistemi onsuz da qanla yazılmış mədəniyyətlərarası münasibətlər tarixinə öz qəddarlığına görə misli görünməmiş yeni bir praktikanı – irqçilik praktikasını da əlavə edir. Mədəni müxtəlifliyə münasibətdə dözümsüzlüyün ən ifrat forması olan bu bədnam "əlavə" bir neçə əsr ərzində bir sıra ölkələrin, xüsusilə də Amerika yarımkürəsi ölkələrinin siyasi praktikasında dərin kök salmış, ən qabarıq şəkildə isə öz ifadəsini ABŞ-ın irqçilik siyasətində tapmışdır. Bəlkə də bunun nəticəsidir ki, mədəni müxtəliflik̇lə bağlı əsrlərin yaratdığı istər irqi, istərsə də qeyri-irqi mədəni müxtəliflik problemlərinin kompleks həllini verməyi zaman məhz amerikan cəmiyyətinin boynuna qoymuş və məhz bu cəmiyyətdə təxminən iki əsrə yaxın bir müddət ərzində üstün nəzəri fikir və siyasət kimi qəbul edilən məşhur "Əritmə qazanı" (ing."The Melting pot") konsepsiyası meydana gəlmişdir. Siyasi leksikona o, 1908-ci ildə Vaşinqtonda dramaturq İsrael Zanqvillin yəhudi qırğınında butan ailəsi qətlə yetirilən, etnik ayrı-seçkilik və nifrətdən uzaq bir cəmiyyət arzusu ilə yaşayan yəhudi mənşəli gənc rusiyalı mühacir Devid Kuxanonun həyat dramını təsvir edən "The Melting pot" adlı pyesinin premyerası ilə daxil olmuşdur.

Müəlliflə yanaşı oturub tamaşaya baxan o zamankı Amerika Birləşmiş Ştatları Prezidenti Teodor Ruzvelt əsərin baş qəhrəmanı Devid Kuxanonun "Amerika Allahın özünün yaratdığı nəhəng bir qazandır. Onun içərisində Avropanın bütün irqləri, xalqları əriyib bir – birinə qarışır... Bəli, bu qazan bir böyük kimyagər kimi Şərqi və Qərbi, Şimalı və Cənubu, palmanı və şam ağacını, qütbləri və ekvatoru, Ayparanı və Xaçi öz saflaşdırıcı alovunda vahid bir ərintiyə çevirir. Allah Amerikalı yaradır" monoloqunu eşidərkən qeyri-ixtiyari qışqırır: "Möhtəşəmdir bu, cənab Zanqvill!.."

Beləliklə də əsərin baş qəhrəmanının öz monoloqunda işlətdiyi metafora ("The Melting pot") beynəlxalq siyasi leksikona daxil olmaq haqqı qazanmış olur. Əlbəttə, bu müasir düşüncə üçün məqbul olmayan bir paradiqmadır. Lakin o, öz dövrünün çağırışlarına cavab verən ideya idi və mədəniyyətlərarası düşmənçilik praktikasından uzaqlaşmağa, saysız-hesabsız qurbanlarla dolu olan qaranlıq keçmişə deyil, işıqlı gələcəyə baxmağa, müxtəlif mədəniyyətlərin təmsilçilərinin əl-ələ verib birlikdə çalışmalarına səslədiyinə görə dəstəklənirdi. Təbii ki, söhbət Avropanın müxtəlif regionlarından mühacirət etmiş ağ irq nümayəndələrinin "bir qazanda qaynayıb qarışmasından" gedirdi. Qara irqə mənsub insanlarla bağlı problemlərinin həlli isə 1960–70-ci illərdə afro-amerikalıların vətəndaş hüquqları uğrunda mübarizəsi dövrünə qalırdı və o zaman Avropa miqyasında cərəyan edən başqa bir proses buna ciddi dəstək rolunu oynayacaqdı.

II Dünya müharibəsindən sonra Qərbi Avropada yaşanan dinamik bərpa və inkişaf prosesləri Yaxın və Orta Şərqdən bu ölkələrə güclü və daim artmaqda olan miqrant axınla-

rını qaçılmaz etdi. Nəticədə onsuz da olduqca gərgin olan etnik, dini, irqi ayrı-seçkiliklə yüklənmiş mədəni müxtəliflik fenomeninə yeni bir gərginlik mənbəyi qoşulur: demokratik ənənələrə malik Avropa cəmiyyətlərinin içərisində Avropa dəyərlərini qəbul etməyən, yaxud da qəbul edə bilməyən və öz mədəniyyəti, öz həyat tərzi ilə özünəməxsus mədəni anklavda kompakt halda yaşamaq istəyən sosial qruplar meydana gəlir ki, onların da yerli əhali, habelə dövlət orqanları ilə münasibətləri daim kəskin problemlər doğurur. Şübhəsiz, bu problemlər həm də Avropa insanının əsrlər boyu zərrə-zərrə toplanıb kristallaşmış "avropasentrist", xüsusilə də, islamofob düşüncəsi və davranışından qaynaqlanırdı.

Yaranmış yeni reallıq o vaxta qədər mövcud olan paradiqmaların hamısını yararsız edir və ictimai fikri yeni paradiqma axtarışına sövq edir, elə bir paradiqma ki, o həm indiyədək mövcud olan, həm yeni meydana gələn amilləri ehtiva edə bilsin. Məhz bu axtarışların gedişində tarixdə ilk dəfə olaraq fərdin harada yaşamasından asılı olmayaraq öz mədəni identikliyini qorumaq haqqının, habelə onun kollektiv identiklik hüququnun tanınması ideyası formalaşır və nəhayət, əsas müddəalarının qərarlaşması artıq müharibədən sonrakı illərdə başa çatmış fəlsəfi relyativizmin bazasında bizim indi geniş istifadə etdiyimiz "multikulturalizm" termini elmi dövriyyəyə gətirilir. Tədqiqatçılar bunu məşhur ingilis filosofu İsayya Berlin və alman-amerikan filosofu, sosioloqu Herbert Markuzenin adı ilə bağlayırlar. Doğrudur, onlardan əvvəl də bu termin elmdə var idi, lakin o, sosial-etnik, etno-mədəni münasibətlərə deyil, bitkiçiliyə aid termin kimi işlədilirdi. Bu anlayışdan sosial elmdə ilk olaraq İsveçrədə həyata keçirilən sosial-etnik siyasəti səciyyələndirmək üçün istifadə edilmişdir. Sonralar Avropa meqapolisləri əcnəbi miqrantlar hesabına böyüdükcə onun tətbiq olunma arealı da tədricən genişlənməyə başlamışdır.

Maraqlıdır ki, mədəniyyətlərarası münasibətlərin belə uzun və keşməkeşli tarix yaşamasına baxmayaraq yaxın vaxtlaradək heç bir mənbədə "multikulturalizm" barədə söhbətlərə rast gəlmək mümkün deyil. Hətta 1990-cı illərin əvvəllərində dünyanın ən iri həcmli tammətnli onlayn informasiya sistemi olan NEXİS bazasında bu məsələyə dair bir dənə də olsun mənbə yox idi. İndi isə həmin bazada multikulturalizmə dair minlərlə əsər var.

Qeyd edilənlər günümüzdə multikulturalizm problemlərinin dərindən öyrənilməsinə, onun sosial-fəlsəfi təhlilinə necə böyük "sosial sifariş" olduğunu göstərir və fəlsəfə elmləri doktoru, professor Etibar Nəcəfovun bir qədər öncə işıq üzü görmüş "Multikulturalizmin sosial-fəlsəfi təhlili" (1) adlı monoqrafiyası bu fonda öz fövqəladə aktuallığı ilə diqqəti cəlb edir.

Monoqrafiyanın müəllifi fəlsəfə elmləri doktoru, professor Etibar Əli oğlu Nəcəfov ölkəmizdə multikulturalizmin tədqiqi və təbliği sahəsində tanınmış mütəxəssislərdən biridir və bu mövzu ilə bağlı o, Azərbaycan, rus və ingilis dillərində çoxlu sayda məqalələr yazmış, bir sıra beynəlxalq konfranslarda, forumlarda çıxış etmiş, ali məktəblər üçün hazırlanmış "Azərbaycan multikulturalizmi" və "Multikulturalizmə giriş" adlı dərsliklərin yazılmasında yaxından iştirak etmişdir. O eyni zamanda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi vəzifəsində çalışır və işi ilə əlaqədar həm ölkədə, həm də ölkə hüdudlarından kənarda mədəni müxtəlifliyə münasibətin vəziyyətini, səviyyəsini bilavasitə müşahidə etmək imkanına, problemin həm nəzəri, həm də əməli-siyasi səviyyələri ilə bağlı geniş baxış dairəsinə malik şəxsdir. Ona görədir ki, yeddi

Etibar Nəcəfov. Multikulturalizmin sosial-fəlsəfi təhlili. Bakı, 2020, 331 s.

fəsil və qırxa yaxın yarımfəsildən ibarət olan bu iri həcmli iş müasir dövrün ən mürəkkəb, problemlərindən biri olan mədəni müxtəliflik probleminə, onun həllinin ziddiyyətlərlə dolu tarixinə və müasir beynəlxalq təcrübəsinə sözün həqiqi mənasında müəllif baxışı kimi oxunur. Diqqət çəkən məsələlərdən biri də budur ki, indiyədək ölkədə multikulturalizmin həyata keçirilməsi sahəsində siyasətə dair çoxsaylı nəşrlərimiz olsa da, onun sosial-fəlsəfi tədqiqi sahəsində az iş görülmüşdür.

Monoqrafiyada multikulturalizmin mahiyyəti onun sosial hadisə, siyasət modeli və insanların həyat tərzi kimi fərqli səviyyələrdə açıqlanır. Multikulturalizmi sosial hadisə kimi araşdırarkən öncə tarixən mədəni müxtəlifliyin formalaşmasına təsir göstərmiş amillər araşdırılır. Daha sonra liberalizm və kommunitarizm mövqelərindən izahı, assimilyasiya və izolyasiya siyasəti modelləri ilə, tolerantlıq və interkulturalizmlə müqayisəsi, daxili və xarici siyasətlə əlaqələrinin təhlili vasitəsilə onun məzmunu, mahiyyəti açıqlanır, müasir dünyada dözümsüzlük və ayrı-seçkiliyin geniş yayılmış formaları kimi islamofobiya və antisemitizmin, habelə bir sıra digər mürəkkəb məsələlərin ciddi elmi-nəzəri təhlili verilir. Bu sırada islamofobiya, onun mahiyyəti, meydana gəlməsi və yayılması səbəblərinin, Avropa ölkələrində bununla məşğul olan qüvvələr və təşkilatların məkrli niyyətləri və fəaliyyətlərinin İslam dünyası, o cümlədən Azərbaycan üçün təhdid təşkil etməsinin şərhinə həsr olunan bölmə xüsusi diqqət çəkir.

Xüsusi maraq kəsb edən məsələlərdən biri də multikulturalizm ilə interkulturalizmin müqayisəli təhlilidir. Qeyd etmək lazımdır ki, bizim multikulturalizmlə bağlı olan elmi nəşrlərdə İnterkulturalizmə, xüsusilə də onun multikulturalizmlə müqayisəli təhlilinə həsr olunan yazılar ümumiyyətlə yoxdur. Qərb ədəbiyyatına gəldikdə, müəllif orada multikulturalizm ilə interkulturalizmin münasibətinə dair bir-birinə zidd fikirlər olduğunu qeyd edir. Lakin o, hesab edir ki, multikulturalizm ilə interkulturalizm arasındakı fərqli cəhətləri mütləqləşdirmək düzgün deyil. Multikulturalizm cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin tanınmasına və qorunmasına yönəlmişdirsə, interkulturalizm bu müxtəlifliyi tanımaqla və qorumaqla yanaşı həmin dəyərlərin daşıyıcıları arasında dialoq və əməkdaşlıq münasibətlərinin qərarlaşmasına yönəlmişdir. Nəticədə qruplar arasında qarşıdurma təhlükəsi aradan qaldırılır, dialoq və əməkdaşlıq münasibətləri özünə yol açır və ümumilikdə cəmiyyətin inkişafı üçün əlverişli şərait yaranır.

Multikulturalizmin insanların həyat tərzi səviyyəsinə yüksəlməsində vətəndaş cəmiyyəti mühüm rol oynadığını etiraf etməklə yanaşı müəllif bu prosesdə aparıcı rolun dövlətə məxsus olması müddəasını əsas götürərək öz tədqiqatında ayrı-ayrı dövlətlərin multikulturalizm siyasətini həyata keçirməsi praktikasının araşdırılmasına geniş yer ayırır.

Bu baxımdan müəllif dövlətləri 3 qrupa bölür. Birincisi, cəmiyyətdəki etnik-mədəni müxtəlifliyin güclü olmadığı və ona fəal münasibətin müşahidə edilmədiyi dövlətlər, ikincisi, məqsədyönlü şəkildə assimilyasiya siyasəti vasitəsilə etnik-mədəni müxtəlifliyi aradan qaldırmağa çalışan dövlətlər, üçüncüsü, etnik-mədəni müxtəlifliyə inkişafın bir mənbəyi, mühüm resursu kimi yanaşan, onu dəstəkləyən dövlətlər (bu təsnifatda Azərbaycanı üçüncü qrupa aid edilir). Müəllif etnik-mədəni müxtəlifliyin, habelə ona münasibətdə kəskin surətdə bir-birindən fərqlənən müxtəlif modellərin olmasını reallıq kimi qəbul etməklə yanaşı, dövlətlərin bu sahədə həyata keçirdikləri siyasətin səmərəlilik dərəcəsinin ölçülə bilməsinin mümkünlüyü ideyasına diqqət çəkir, bununla əlaqədar beynəlxalq praktikada qəbul olunmuş indikatorlar sistemini təqdim edir. Əsərdə bu məsələyə xüsusi bir fəsil həsr olunur və orada titul xalqlarla bir cəmiyyətdə yaşayan 3 əsas etnik azlıq qrupunun hər biri üçün multikulturalizm siyasətinin səmərəlilik indekslərinin hesablanması metodikasının izahı verilir.

Məlum olduğu kimi rəsmi dövlət siyasəti olaraq multikulturalizm ilk dəfə 1971-ci il oktyabrın 8-də Kanadanın Baş Naziri Pyer Elliot Tryüdonun ölkə Parlamentindəki çıxışında elan edilmişdir. O zaman fransızdilli Kvebekdə seperatizm çox güclənmişdi və Tryüdo uğurlu multikulturalizm siyasətinin köməyi ilə onun qarşısını ala bilmişdi. Kanadanın ardınca bu siyasət 1975-ci ildə İsveçin rəsmi siyasi strategiyası elan edildi, Avstraliya hökuməti özünün olduqca mürəkkəb milli-etnik münasibətlərini tənzimləmək üçün "Multikulturalizmə dair Milli Proqram" qəbul etdi, hətta bu məqsədlə Baş Nazirin departamenti daxilində multikulturalizm məsələləri üzrə xüsusi şöbə yaradıldı. Daha sonra böyük Britaniyada (1997-ci il), Almaniya Federativ Respublikasında (1998-ci il) və digər Qərb ölkələrində də multikulturalizm siyasət olaraq qəbul edildi.

Qərb ölkələrindəki etnik-mədəni müxtəlifliyin tənzimləndirilməsinə yönələn bu siyasət uzun müddət ərzində özünü doğrultdu. Belə ki, bu siyasətin aparılması həmin ölkələrdə yaşayan milli azlıqları cəmiyyətə inteqrasiya etməklə ümumilikdə sosial-iqtisadi inkişafda müsbət rol oynayırdı. Lakin bir müddət keçdikdən sonra – təxminən XXI əsrin ilk onilliyindən sonra Qərb ölkələrində multikulturalizm siyasətinə hücumlar artır, onun iflasa uğradığına və ondan imtina olunmasına dair fikirlər yayılmağa başlayır. Bir sıra Qərb ölkələrinin liderləri hətta açıq şəkildə multikulturalizm siyasətindən imtina etdiklərini bəyan edirlər.

Prof. E.Ə.Nəcəfov Qərb ölkələrində multikulturalizm siyasətinin iflasa uğraması məsələsini əsaslı şəkildə təhlil edərək iki mühüm nəticə əldə edir. Birincisi, o göstərir ki, Qərb ölkələrində multikulturalizm siyasətinin aparılması ilə bağlı müşahidə olunan neqativ proseslər bütövlükdə multikulturalizmlə yox, immiqrant multikulturalizmi ilə, yəni immiqrantlara münasibətdə həyata keçirilən multikulturalizm siyasəti ilə bağlıdır. Məhz immiqrantlar köçdükləri Qərb ölkələrinin liberal-demokratik dəyərlərindən sui-istifadə edərək öz etnik-mədəni dəyərlərinə sığınır və yaşadıqları cəmiyyətə inteqrasiya olunmaq istəmirlər. Onların bu hərəkətinə görə Qərb ölkələrində multikulturalizm səmərəsiz siyasət kimi tənqid olunur. Əsrlər boyu Qərb ölkələrində yaşayan milli azlıqlara isə gəldikdə, onların hüquq və azadlıqlarının müdafiə olunması üçün möhkəm hüquqi çərçivə mövcuddur. İkincisi, Qərb dövlətləri onların yaşadıqları cəmiyyətə inteqrasiya olunmaları istiqamətində lazımi tədbirlər görmür.

Nəticədə miqrantlar, eləcə də milli azlıqlar cəmiyyətdə titul xalqın geniş yayılmış etnik-mədəni dəyərlərindən, qərarlaşmış etik davranış normalarından təcrid olunaraq, hətta bəzən bu dəyərlərə və normalara qarşı müqavimət göstərərək öz etnik-mədəni dəyərlərinə sığınırlar. Belə olan şəraitdə cəmiyyətdə dezinteqrasiya prosesləri baş qaldırır. Eyni cəmiyyətdə paralel həyatlar icmalar arasında dialoq və əməkdaşlıq əlaqələrinin inkişafına mane olur. Lakin heç kəs üçün sirr deyil ki, bu kəskinlik xeyli dərəcədə bəzi liderlərin özlərinin miqrant mövzusunu konyuktur məqsədlər üçün fəal surətdə istifadə etmələrindən də qaynaqlanır.

Müəllifin irəli sürdüyü daha bir mühüm tezis bundan ibarətdir ki, milli azlıqların hüquq və azadlıqlarının, etnik-mədəni dəyərlərinin qorunmasına yönələn multikulturalizm siyasətindən böhran şəraitində nəinki imtina edilməməli, əksinə, ona daha çox diqqət yetirilməlidir. Belə vəziyyətlərdən biri kimi tədqiqatçı mövzuya dair ədəbiyyatda ilk dəfə olaraq COVİD-19 pandemiyasına qarşı mübarizə prosesi ilə əlaqədar multikulturalizm prinsiplərinə əməl edilməsinin bu qlobal bəladan xilas olmaq üçün nə dərəcədə əhəmiyyətli olduğuna diqqət çəkir və ardıcıl şəkildə multikulturalizm siyasətini həyata keçirən dövlətlərdə COVİD-19-a qarşı mübarizədə mühüm nailiyyətlər əldə olunduğunu vurğulayır. Bu tezis isə Azərbaycan Respublikasının timsalında təqdim edilir.

Prof. E.Ə.Nəcəfov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə COVID-19 böhranının

yarandığı ilk günlərdən başlayaraq bu xəstəliyə qarşı zəruri tədbirlərin həyata keçirildiyini göstərir. Azərbaycanda COVID-19-la mübarizə şəraitində əhalinin əsas həssas qruplarının, o cümlədən milli azlıqların virusa yoluxma təhlükəsinin qarşısının alınması, eləcə də onların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması istiqamətində məqsədyönlü işlər görülür. Müəllif Azərbaycanın COVID-19 böhranı ilə mübarizəsinin qlobal səviyyədə, bir çox dövlətlərin səylərini birləşdirməklə aparıldığından da bəhs edir. O, Prezident İlham Əliyevin təşəbbüsü ilə koronavirus pandemiyası ilə mübarizəyə həsr olunmuş 2 beynəlxalq tədbir (Bakıda video konfrans formatında 2020-ci il aprelin 10-da keçirilmiş Türk Şurasının fövqəladə Zirvə görüşü və mayın 4-də Qoşulmama Hərəkatının Zirvə görüşü) haqqında məlumat verir. Bundan başqa müəllif Qoşulmama Hərəkatının Zirvə görüşü zamanı Prezident İlham Əliyevin təklifi ilə Qoşulmama Hərəkatına üzv olan 120 ölkə adından BMT-nin Baş katibi Antonio Quterreşə Baş Assambleyanın xüsusi sessiyasının çağırılması ilə bağlı müraciətin göndərilməsini qeyd edir. Müraciət qəbul olunmuş və iyulun 10-da sözügedən xüsusi sessiya öz işinə başlamışdır. Yeri gəlmişkən qeyd edək ki, xüsusi sessiyanın çağırılması ilə bağlı ölkəmizin təklifinə yalnız Ermənistan qarşı çıxmışdır. 2020-ci il dekabrın 3-də Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində onlayn şəkildə keçirilən xüsusi sessiyasında Prezident İlham Əliyev Ermənistanın bu destruktiv mövqeyinin səbəbini təklifin Azərbaycan tərəfindən irəli sürülməsi ilə əlaqələndirmişdir.

Yeri gəlmişkən qeyd edim ki, müəllif Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən 2019-cu ildə təsis edilmiş Avropa Şurasının Qeyri-ayrıseçkilik, müxtəliflik və inklüzivlik üzrə Rəhbər Komitəsinin üzvüdür və Azərbaycan Respublikasını bu Komitədə təmsil edir. Sözügedən Komitə Avropa Şurasına üzv ölkələrdə ayrı-seçkilikdən və nifrətdən səmərəli qorunma təklif etmək, hər kəs üçün bərabərliyi təşviq etmək və daha inklüziv cəmiyyətlər qurmaq məqsədilə yaradılmışdır. Komitə Nazirlər Komitəsinə nifrət nitqi və ayrı-seçkiliyin qarşısının alınmasına, milli azlıqlara mənsub şəxslərin hüquqlarının qorunmasına, həmçinin mədəniyyətlərarası inteqrasiyanın təşviqinə dair tövsiyələr verir. Müəllifin həmin Komitədəki fəaliyyəti onun monoqrafiyasında da öz əksini tapmışdır. Bu, ilk növbədə, müəllifin COVİD-19 pandemiyası ilə mübarizəyə dair Komitə tərəfindən qəbul olunmuş sənədlərə istinad etməsində özünü büruzə verir. Həmin sənədlərdə pandemiya şəraitində həssaslığı daha da artan milli azlıqların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasının, onların etnik-mədəni dəyərlərinin qorunmasının əhəmiyyəti xüsusi vurğulanır.

Məlum olduğu kimi, müasir dövrdə Azərbaycan bütün dünyada multikulturalizmin əsas mərkəzlərindən biri hesab olunur. Buna görə də təbii olaraq əsərdə multikulturalizmin Azərbaycan modelinin tədqiq olunmasına xüsusi fəsil həsr edir. Müəllif ilk növbədə Azərbaycan Respublikasının dövlət siyasəti olan multikulturalizmi Azərbaycançılıq milli ideyasının tərkib hissəsi kimi təqdim edir və multikulturalizmin Azərbaycan modelinin formalaşması və inkişafının tarixi-mədəni köklərini, onu şərtləndirən siyasi, sosial-iqtisadi amilləri təhlil edir. O, Azərbaycanı etnik-mədəni müxtəlifliyə inkişafın bir mənbəyi, mühüm resursu kimi yanaşan, onu dəstəkləyən dövlətlər qrupuna aid edir və əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və müasir dövrdə Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən multikulturalizm siyasətinin ölkədə etnik-mədəni müxtəlifliyin inkişaf mənbəyi hesab edilərək dəstəklənməsinə, bu müxtəlifliyin təqdir olunmasına, mədəni identikliyi, etnik-mədəni dəyərləri qorumaq sahəsində ardıcıl həyata keçirilən siyasətin izahına geniş yer verir və bununla bağlı Ulu öndər Heydər Əliyevin vaxtilə dediyi: "Dövlət, ölkə nə qədər çox xalqı

birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir" müddəasının metodoloji əhəmiyyətini vurğulayır. Azərbaycanda dövlət siyasəti səviyyəsində həyata keçirilən multikulturalizmin konstitusiya-hüquqi, sosial-iqtisadi, institusional və informasiya təminatına xüsusi önəm verildiyi əsərdə öz dolğun ifadəsini tapır,

Azərbaycan Respublikası Prezidenti Administrasiyasında multikulturalizm məsələləri ilə məşğul olan qurumun və Azərbaycan Respublikası Prezidentinin 15 may 2014-cü il tarixli Fərmanı ilə yaradılmış Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyət göstərməsini, ölkənin ali məktəblərində bakalavr pilləsi üçün "Multikulturalizmə giriş", magistr pilləsi isə üçün "Azərbaycan Multikulturalizmi" adlı fənlərin tədris olunmasını, multikulturalizm problemi ilə bağlı elmi araşdırmaların aparılmasını, elmi əsərlərin nəşr olunmasını da bunun əyani nümayişi kimi təqdim edir.

Azərbaycan multikulturalizminin ölkənin xarici siyasətində təzahürünün təqdimatına da tədqiqatda geniş yer verilir, bu siyasətin müxtəlif mədəniyyətlərə və sivilizasiyalara mənsub olan dövlətlərlə hərtərəfli və faydalı əlaqələrin qurulmasına əlverişli şərait yaratdığı əsaslandırılır. Verilən şərhlər Azərbaycanın daxili və xarici siyasətində həyata keçirilən tədbirlərin öz vüsəti etibarilə Respublikanın hüdudlarını aşdığını və sözün həqiqi mənasında qlobal xarakter daşıdığı, "Bakı prosesi" çərçivəsində keçirilən Dünya Dini Liderlərinin Forumları, ənənəvi Bakı Humanitar Forumları, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları, Beynəlxalq Nizami Gəncəvi Mərkəzi tərəfindən təşkil edilən Bakı Qlobal Forumları, Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu dünya ictimaiyyətinin diqqətinə mədəniyyətlərarası dialoq, multikulturalizm və tolerantlıq ənənələrinin təşviqi kimi məsələlərin çatdırılması baxımından necə böyük əhəmiyyətə malik olduğu inandırıcı şəkildə nümayiş etdirir. Məlum olduğu dur ki, "Bakı prosesi" təşəbbüsünü ilk dəfə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2008-ci il 2-3 dekabr tarixində Bakıda Avropa və ona qonşu regionların mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda keçirilmiş konfransında irəli sürmüşdür. Azərbaycanda və onun təşəbbüsü ilə digər yerlərdə həyata keçirilən geniş miqyaslı tədbirlər kompleksinin beynəlxalq aləmdə verdiyi güclü əks-sədaya əsaslanaraq Prezident İlham Əliyev V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimindəki nitqində həmin tədbirlərin qısa zaman ərzində mədəniyyətlərarası dialoqun müzakirəsi baxımından qlobal platformaya çevrildiyini vurğulamışdır.

Yekun olaraq qeyd etmək istərdik ki, çoxmədəniyyətliliyi əks etdirən ünsiyyətin genişlənməsi və onun intensivliyinin artması müasir dövrün ən səciyyəvi xüsusiyyətlərindən birinə çevrilmişdir. Bu gün etnik-mədəni müxtəlifliyin olmadığı ölkəni təsəvvürə gətirmək çətindir. Mədəni-etnik müxtəliflik dünyanın ən geniş ərazilərini bürüyən və bölgədən-bölgəyə, ölkədən-ölkəyə öz rəngarəngliyi ilə seçilən birgəyaşayış modellərini yaradır. Müasir miqrasiya axınları, rabitə və telekommu-nikasiya vasitələrinin inkişafı, internet bu prosesi sözün həqiqi mənasında universal sosial-mədəni, siyasi, geosiyasi fenomenə çevirmiş, məhz onun sayəsində etnik, milli, sivilizasiya identikliyi ilə yanaşı tarix üçün tamamilə yeni olan bir fenomenin – qlobal identiklik fenomeninin meydana gəlməsini qaçılmaz etmişdir. Multikulturalizm cəmiyyətdə təmsil olunan bütün mədəniyyətlərin ləyaqətli olduğunun qəbul edilməsi, onların daşıyıcılarının mədəni identikliyinin qorunması ilə yanaşı fərqli etnik-mədəni dəyərlərin daşıyıcıları arasında dialoq, anlaşma və əməkdaşlıq münasibətlərinin qərarlaşmasına, onların zoraki assimilyasiyasız inteqrasiyasına da əlverişli şərait yaradır və buna görə də o, tək bu gün üçün deyil, artıq əsas konturları görünən gələcək üçün də

etibarlı, bəhrəli konsepsiya və siyasət modelidir. Haqqında söhbət gedən monoqrafiya – fəlsəfə elmləri doktoru, professor Etibar Nəcəfovun "Multikulturalizmin sosial-fəlsəfi təhlili" əsəri isə bu mürəkkəb və ziddiyyətli ümumdünya tarixi prosesinin cərəyanını öyrənməkdə, etnik-mədəni müxtəlifliyin doğurduğu problemlərin həllində, elmi araşdırmalarda, təhsildə və maarifçilik işində istifadə edilə biləcək olduqca faydalı bir mənbədir.

# H Ü Q U Q
# L A W

UOT 347.963

**ELMİR PAŞAZADƏ**
**Azərbaycan Respublikası Baş Prokurorluğunun**
**Kadrlar idarəsinin prokuroru**

## PROKURORLUĞUN MÜLKİ MƏHKƏMƏ İCRAATINDA İŞTİRAKI

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra hüquqi, dünyəvi, demokratik dövlət quruculuğu yolu seçmiş və bu yola uyğun olaraq müvafiq dövlət təsisatlarında xarakterik islahatlar aparılmış, idarə, müəssisə və təşkilatların, xüsusilə də hüquq-mühafizə orqanlarının insan hüquq və azadlıqlarının təminatı ilə bağlı fəaliyyəti ön plana çəkilmişdir.

Müstəqilliyimizin ilk illərində Azərbaycanda iqtisadiyyatın bazar münasibətləri əsasında inkişafına şərait yaranmasına baxmayaraq, bir sıra hüquq-mühafizə orqanları Sovetlər Birliyi dövründən qalmış amirlik metodlarından istifadə edərək təsərrüfat subyektlərinin maliyyə-təsərrüfat fəaliyyətlərinə müdaxilə etmək təcrübəsindən imtina etməmişdilər. Belə neqativ halların qarşısının alınması üçün layihəsi ümummilli lider Heydər Əliyevin birbaşa rəhbərliyi altında işlənib hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyasında ədalət mühakiməsini həyata keçirən orqanlar yeni vəzifələrlə yüklənmiş, bəzi hüquq-mühafizə orqanları, o cümlədən prokurorluq müasir dövrün tələblərinə cavab verməyən bir sıra səlahiyyətlərdən məhrum edilmişdir. Konstitusiyanın 133-cü maddəsində göstərilmişdir ki, Azərbaycan Respublikasının Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir, qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, məhkəmə qərarlarından protest verir [1].

Azərbaycan Respublikasının "Prokurorluq haqqında" 7 dekabr 1999-cu il tarixli Qanununda məhkəmədə iddia qaldırmaq (ərizə vermək) mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kimi iştirak etmək prokurorluğun əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyən olunmuşdur [3]. Həmin qanunun 19-cu maddəsində göstərilir ki, hakimlərin müstəqilliyi və onların yalnız qanuna tabe olması prinsipinə dönmədən əməl edilməklə prokurorlar Azərbaycan Respublikasının prosessual qanunvericiliyində nəzərdə tutulmuş qaydada və hallarda məhkəmədə iddia qaldırır, mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kimi iştirak edir, məhkəmə qərarlarından protest verir. Ədalət mühakiməsinin həyata keçirilməsində prokurorluğun iştirakı Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsində də nəzərdə tutulmuşdur: Azərbaycan Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər. Məhkəmə hakimiyyəti Konstitusiya, mülki və cinayət məhkəmə icraatı vasitəsilə və qanunla nəzərdə tutulmuş digər vasitələr ilə həyata keçirilir. Cinayət məhkəmə icraatında Azərbaycan Respublikasının Prokurorluğu və müdafiə tərəfi iştirak edir. Göründüyü kimi, Konstitusiyada prokurorluğun cinayət məhkəmə icraatında iştirakı nəzərdə tutulsa da, mülki məhkəmə icraatında iştirakı nəzərdə tutulmamışdır.

Prokurorluğun mülki məhkəmə icraatında iştirakı Azərbaycan Respublikasının Mülki

Prosessual Məcəlləsi ilə tənzimlənir. Məcəllənin 50.1-ci maddəsində qeyd edilir ki, prosesdə tərəflər iddiaçı və cavabdeh hesab edilirlər. Fiziki və hüquqi şəxslər, dövlət orqanları və başqa orqanlar iddiaçı və ya cavabdeh qismində çıxış edə bilərlər. Məcəllənin 50.2-ci maddəsinə əsasən, təsisçisi dövlət və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu hallarda dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldırmış prokuror mülki prosesdə iddiaçı hesab olunur [2]. Qanunun mahiyyətindən göründüyü kimi, prokurorun mülki prosesdə iddiaçı kimi iştirak etməsi üçün: a) hüquqi şəxsin müraciəti olmalıdır; b) müraciət etmiş hüquqi şəxsin təsisçisi dövlət və ya dövlət idarələri, yaxud təşkilatları olmalıdır; c) dövlət mənafeyinin müdafiəsi bunu tələb etməlidir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 306.3-cü maddəsində prokurorluğun dövlət mənafeyinin müdafiəsi üçün iddia qaldıra biləcəyi halların dairəsi də müəyyənləşdirilmiş və göstərilmişdir ki, prokuror aşağıdakı işlər üzrə ərizə verə bilər:

- mülkiyyət hüququ üzrə əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam vermək haqqında işlər üzrə;
- daşınar əşyanın sahibsiz hesab edilməsi və daşınmaz əşya üzərində dövlət mülkiyyəti hüququnun tanınması haqqında işlər üzrə.

Prokurorluğun dövlət mənafeyinin mülki hüquqi vasitələrlə müdafiəsi və mülki mühakimə icraatında iştirakı ilə bağlı münasibətlərin tənzimlənməsi və onun səmərəliliyinin artırılması ilə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğunun 30 iyul 2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş "İşin təşkili qaydaları"nda qeyd edilmişdir ki, dövlət mənafeyinin müdafiəsi məqsədilə iddia qaldırılması və ya ərizə ilə məhkəməyə müraciət edilməsi üçün dövlət idarə və təşkilatlarının və ya təsisçisi dövlət və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin müvafiq prokurorluğa müraciəti olduğu hallarda bu barədə arayış tərtib edilməklə həmin müraciət öyrənilməsi üçün Cinayət təqibindən kənar icraatlar idarəsinə göndərilir. Müraciət idarədə öyrənilir və iddianın qaldırılması və ya ərizə ilə müraciət edilməsi üçün qanunla müəyyən edilmiş əsasların olması yoxlanılır.

İddianın qaldırılması və ya ərizə ilə müraciət edilməsinə kifayət qədər əsaslar olmadıqda bu barədə arayış tərtib edilir və Baş prokurorun müavini ilə razılaşdırmaqla müraciət edən quruma müvafiq cavab verilir. İddianın qaldırılması və ya ərizə ilə müraciət edilməsi üçün qanuni əsaslar olduqda məhkəmə aidiyyəti müəyyən edilir və iddianın qaldırılması və ya ərizə ilə müraciət edilməsi barədə tədbirlər görülür (163.4-cü maddə).

Prokurorun mülki icraat qaydasında məhkəmədə baxılan işlərdə iştirakının özəlliyi ondan ibarətdir ki, Baş prokurorun müavini tərəfindən iddianın qaldırılması və ya ərizə ilə müraciət edilməsi rayon prokurorluqlarına həvalə edilə bilər. İddiadan imtina, iddia ərizəsinin geri götürülməsi, barışıq sazişinin bağlanması, protestin geri götürülməsi və ondan imtina edilməsi üçün əsaslar olduqda isə bu barədə müvafiq arayış tərtib edilməklə Baş prokurorun müavininə məruzə edilir və yalnız onunla razılaşdırıldıqdan sonra iddiadan imtina edilə, barışıq sazişi bağlana və ya verilmiş protest geri götürülə və ya ondan imtina edilə bilər.

S.X.Aslanov haqlı olaraq qeyd edir ki, mülki məhkəmə icraatının vəzifələrinə və mahiyyətinə uyğun olaraq prokurorlar təsisçisi dövlət və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin müraciəti olduqda dövlətə vurulmuş maddi ziyanın ilk növbədə əmlakın təhkim olunduğu hüquqi şəxslərin özləri tərəfindən mülki hüquqi vasitələrlə aradan qaldırılması üçün təkliflər verməlidirlər. Dövlətə vurulmuş ziyanın ödənilməsi barədə hüquqi şəxslərin prokurorluq orqanlarına müraciətləri, bir qayda olaraq, onların ixtisaslı hüquqi yardım almaq və öz hüquqlarını həyata

keçirmək imkanları olmadığı hallarda təmin edilməlidir [6].

Prokurorluğun mülki məhkəmə icraatında iştirakının qismən məhdudlaşdırılması bütövlükdə prokurorluğun konstitusion statusunun dəyişməsi ilə bağlıdır. Azərbaycan Respublikası Konstitusiyasının qəbuluna qədər prokurorluq Azərbaycan SSR ərazisində bütün nazirliklər, dövlət komitələri və baş idarələr, müəssisə, idarə və təşkilatlar, yerli xalq deputatları Sovetlərinin icra və sərəncam orqanları, kolxozlar, kooperativ təşkilatlar və digər ictimai təşkilatlar, vəzifəli şəxslər, habelə vətəndaşlar tərəfindən qanunların dürüst və eyni qaydada icra olunmasına ali nəzarəti həyata keçirirdi [7]. Bu isə prokurorluğa imkan verirdi ki, istənilən halda dövlətə dəymiş ziyanın ödənilməsi məqsədi ilə məhkəmələrdə mülki iddia qaldırsın və bu iddia ilə bağlı mövqeyini məntiqi sonluğa çatdırsın. Odur ki, prokurorluğun iddiası ilə məhkəmələrdə baxılmış mülki işlərin sayı və bu işlər üzrə dəymiş ziyanın ödənilməsi ilə əlaqədar statistik məlumatlar olduqca cəlbedici görünürdü. İddiaların sayı və dəymiş ziyanın ödənilməsi barədə məbləğin həcmi prokurorluğun fəaliyyətinin qiymət kriteriyası kimi qəbul edilirdi.

Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasının qəbulundan sonra hüquq-mühafizə orqanlarının təsərrüfat subyektlərinin fəaliyyətinə müdaxiləsi qeyri-hüquqi hesab edildi və bu hal Azərbaycan Respublikası Prezidentinin bir sıra fərman və sərəncamlarında təsbit edildi. Ümummilli lider tərəfindən imzalanmış "İstehsalat, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" 17 iyun 1996-cı il tarixli fərmanda qeyd edilmişdir ki, keçmiş SSRİ dövründən miras qalmış dövlət nəzarət mexanizminin müasir tələblərə cavab verməməsi səbəbindən vəzifəli şəxslərin yoxlamalar zamanı hüquqlarından sui-istifadə etmələrinə şərait yaradılmış, bu vətəndaşların haqlı narazılığına səbəb olmuşdur. Eyni zamanda, dövlət nəzarətini həyata keçirən orqanların bəzi vəzifəli şəxsləri tərəfindən yoxlamaların aparılmasının bir çox hallarda qeyri-qanuni varlanma məqsədi daşıdığı, ümumilikdə, respublikanın iqtisadi böhrandan çıxmasında subyektiv maneələr yaratdığı göstərilmişdir.

Həm də göstərilirdi ki, idarə, müəssisə və təşkilatların iqtisadi fəaliyyətində cinayət xarakterli faktların olması barədə prokurorluq və polis orqanlarına anonim olmayan ərizə, şikayət və məlumatlar daxil olduqda fərmanla müəyyən edilmiş yeni qaydalara uyğun olaraq müvafiq yoxlamaların aparılması barədə Azərbaycan Respublikası Baş Prokurorunun və ya onun müvafiq sahəyə baxan müavininin öz təşəbbüsləri, yaxud aşağı prokurorların təqdimatlarına əsasən qəbul etdikləri əsaslandırılmış qərarların və ya Respublika Daxili İşlər nazirinin və ya onun müvafiq sahəyə baxan müavininin qəbul etdiyi belə qərarların icrası üçün Azərbaycan Respublikası Milli Bankına, Azərbaycan Respublikası Maliyyə Nazirliyinə və ya Azərbaycan Respublikası Baş Dövlət Vergi Müfəttişliyinə (Hazırda İqtisadiyyat Nazirliyi yanında Vergi Xidməti adlanır) göndərilməli, yoxlama nəticəsində cinayət faktları aşkar edildiyi təqdirdə müvafiq hüquq mühafizə orqanı tərəfindən ona hüquqi qiymət verilməli idi [5].

Sərəncamın prokurorluğun təsərrüfat subyektlərinin təsərrüfat fəaliyyətinə müdaxiləsinin qarşısını qismən alması, şübhəsiz ki, prokurorluğun təşəbbüsü ilə qaldırılan mülki işlərin statistikasına da təsirsiz ötüşmədi və göstəricilərdə azalmalar müşahidə edilməyə başladı.

Bununla bərabər, məlum oldu ki, ölkənin iqtisadiyyatının keçid dövründə olduğu bir zamanda dövlət orqanları tərəfindən yoxlama və nəzarət funksiyalarının həyata keçirilmə mexanizminin müasir tələblərə uyğun təkmilləşdirilməsi prosesi başa çatmadığından yuxarıda qeyd olunan Fərmanın icrası tam təmin olunması baş tutmadı. Hüquq mühafizə orqanlarının yerli və xarici iş adamlarının istehsal,

xidmət və maliyyə-kredit fəaliyyətində apardıqları yoxlamalar bəzi hallarda uzun-uzadı təhqiqat və istintaq hərəkətləri pərdəsi altında həyata keçirilir və sahibkarlığın müxtəlif sahələrinə lüzumsuz müdaxilələrə səbəb olurdu. Odur ki, ölkə Prezidenti 7 yanvar 1999-cu il tarixində "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" yeni fərman imzaladı və həmin fərmanın icrası istiqamətində Azərbaycan Respublikası Baş prokurorundan tələb edildi ki, başçılıq etdiyi orqan tərəfindən sahibkarlıq sahəsində iş adamları üçün süni maneələrin yaradılmasına son qoyulsun, yerli və xarici iş adamlarının iqtisadi fəaliyyəti ilə bağlı əsassız cinayət işlərinin başlanması hallarına yol verilməsin.

Qeyd edilən fərmanlarda nəzərdə tutulan müddəalar və bu müddəaların icrasına yönəldilən tələblər onunla nəticələndi ki, 7 dekabr 1999-cu il tarixdə qəbul edilmiş "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununda prokurorluğun "qanunların dürüst və eyni qaydada icra olunmasına ali nəzarət" funksiyası (ümumi nəzarət funksiyası) ləğv edildi [3]. Ümumi nəzarət funksiyasının ləğv edilməsi prokurorluğun fəaliyyətində şəffaflığın təmin edilməsinin əsas göstəricilərindən biri olsa da, faktiki olaraq mülki məhkəmə icraatında prokurorluğun iştirakını məhdudlaşdırdı və idarə, müəssisə və təşkilatlara dəymiş ziyanın aradan qaldırılması məqsədi ilə ziyan vurulmuş subyektin özünün məhkəmələrə müraciət etmək praktikasının əsasını qoydu. Düşünürəm ki, özünün və ya başqasının mənafeyi naminə iddia qaldırmış fiziki və hüquqi şəxslərin, habelə dövlət idarə və təşkilatlarının və ya təsisçisi dövlət və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin müvafiq müraciəti olduğu hallarda dövlət mənafeyinin müdafiəsi üçün prokurorun iddia qaldırması hüquqi və demokratik dövlət quruculuğunun tələblərinə tam cavab verir və prokurorluğun əlavə vəzifələrlə yüklənməsinin qarşısını alır. Burada nəzərə almaq lazımdır ki, prokurorun qanunvericilikdə nəzərdə tutulan hallarda birinci instansiya məhkəmələri tərəfindən qəbul olunmuş qanuni qüvvəyə minməmiş qətnamə və qərarlardan apellyasiya protesti vermək hüququ vardır. Prokuror həm də Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 50 və 306-cı maddələrində nəzərdə tutulmuş hallarda məhkəmə araşdırmalarında iddiaçı və ərizəçi olduqda Azərbaycan Respublikasının apellyasiya məhkəmələrinin mülki və kommersiya kollegiyalarının qərarlarından Azərbaycan Respublikası Ali Məhkəməsinin müvafiq kollegiyalarına protest verə bilər (MPM-nin 403-cü maddəsi).

Prokurorluq orqanlarının fəaliyyətində çevikliyin və səmərəliliyin artırılması, şəffaflığın təmin edilməsi, müasir dövrün tələblərinə cavab verən peşəkar kadr korpusunun formalaşdırılması məqsədilə ölkə başçısı cənab İlham Əliyevin 10 iyun 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilmiş, həmçinin prokurorluğun tarixində ilk dəfə olaraq, Baş Prokurorluğun yeni qurumu – Cinayət təqibindən kənar icraatlar idarəsi yaradılmışdır.

Həmin idarənin səlahiyyətlərinə, əsas vəzifə və funksiyalarına mülki və kommersiya mübahisələrinə dair icraatda, inzibati xətalar haqqında, hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası, xarici dövlətlərin məhkəmələrinin hökmlərinin və ya digər yekun qərarlarının tanınması, həmçinin cinayət təqibindən kənar digər icraatlarda prokurorluğun iştirakını təmin etmək, yetkinlik yaşına çatmayanların maraqlarının qorunması, ekoloji təhlükəsizliyin və ətraf mühitin mühafizəsinin hüquqi vasitələrlə təmin olunması sahəsində prokurorluğun fəaliyyətini əlaqələndirmək, prokurorluq sistemində cinayət təqibindən kənar icraatlar üzrə fəaliyyəti koordinasiya etmək, inzibati xəta haqqında işlər üzrə icraat zamanı tabe rayon (şəhər) prokurorluqlarının fəaliyyətində qanunların icrasına nəzarət

etmək, amnistiya aktı ilə müəyyən edildiyi halda müvafiq orqanlar tərəfindən amnistiya tətbiq edilərkən qərarların razılaşdırılmasında, həmçinin, həmin orqanların müraciətlərinə əsasən amnistiyanın tətbiq edilməsi məsələsinə məhkəmədə baxılmasında, habelə əfv etmə və reabilitasiya barədə müraciətlər üzrə rəy və arayışların hazırlanmasında iştirak etmək, mülki hüquqi vasitələrlə cinayət nəticəsində dəymiş ziyanın ödənilməsi, xüsusi müsadirənin təmin olunması, ölkə daxilində və xaricində əmlakın bərpası məqsədilə Azərbaycan Respublikası və xarici ölkələrin məhkəmələrində iddia qaldırmaq, iddiaçı qismində iştirak etmək və s. daxildir.

Son illərdə prokurorluğun mülki məhkəmə icraatında iştirakının aktuallığı daha da artır, bu sahədə prokuror işinin səmərəliliyinin və keyfiyyətinin daha da təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir.

Təsadüfi deyildir ki, 2021-ci il sentyabrın 23-də Qazaxıstan Respublikasının paytaxtı Nur-Sultan şəhərində Müstəqil Dövlətlər Birliyi İştirakçı Dövlətlərinin Baş prokurorlarının Əlaqələndirmə Şurasının 31-ci iclasında Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyev “Cinayət təqibindən kənar icraatlarda prokurorluğun fəaliyyəti” mövzusunda çıxış etmişdir.

MDB prokurorluq orqanlarının və beynəlxalq təşkilatların rəhbər şəxslərinin iştirak etdiyi tədbirdə Baş prokuror Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi istiqamətində aparılmış hərtərəfli və institusional tədbirlər, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması və peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməsi və işçilərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə əlaqədar əldə olunmuş uğurlu nəticələr barədə ətraflı məlumat vermişdir.

Çıxışda ölkəmizdə prokurorluğun cinayət təqibindən kənar fəaliyyəti, o cümlədən inzibati və mülki icraatda insan hüquqlarının müdafiəsi sahəsində görülən işlər barədə tədbir iştirakçılarına məlumat verilmişdir. İclasda həmçinin MDB dövlətlərinin Baş prokurorlarının və beynəlxalq təşkilatların rəhbərlərinin bu sahədə prokurorluqların rolu haqda çıxışları dinlənilmişdir [8].

Ölkəmizdə sistemli və ardıcıl surətdə həyata keçirilən məhkəmə-hüquq islahatları yeni dövrün tələblərinə və reallıqlarına uyğun olaraq, prokurorluğun mülki məhkəmə icraatında iştirakı sahəsində qanunvericiliyin daim təkmilləşdirilməsini zəruri edir. Belə ki, Azərbaycan dövləti son 30 ildə olduğu kimi, Vətən müharibəsindən sonra da Azərbaycanın müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə və müharibə iştirakçısı olmuş şəxslərə diqqət və qayğını yüksək səviyyədə həyata keçirir. Qalib ordunun Ali Baş Komandanı, möhtərəm cənab Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın davamlı xarakter daşıyan müvafiq göstərişlərinə əsasən dövlət qurumları, ictimai təşkilatlar və bütün Azərbaycan xalqı bu kateqoriyadan olan insanların problemləri ilə daim yaxından maraqlanır, problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq əməli tədbirlər həyata keçirilir.

Bu baxımdan şəhid ailələrinin hüquqlarının və qanuni mənafelərinin daha etibarlı müdafiəsi, xüsusi imtiyazlı şəxslər kimi onlara diqqət və qayğının artırılması sahəsində hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə aşağıdakı məzmunda yeni 50.2-1-ci maddənin əlavə edilməsi təklif olunur:

“Mülki və kommersiya işlərinə məhkəmədə baxılarkən tərəflərdən biri şəhid ailəsi olduqda mülki prosesdə prokurorun iştirakı məcburidir.”

Fikrimizcə, mülki prosesdə prokurorun iştirakı şəhid ailəsinin hüquqlarının daha

etibarlı müdafiəsinə, mülki prosesin daha obyektiv aparılmasına və bütövlükdə, qanunçuluğun bərqərar olmasına əlavə təminatdır.

Bunlardan əlavə, prokurorluğun mülki məhkəmə icraatında iştirakının aktuallığını şərtləndirən hallardan biri də, prokurorun bu fəaliyyət sahəsinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin normaları ilə məhdudlaşmaması ilə əlaqədardır. Azərbaycan Respublikasının "Terrorçuluğa qarşı mübarizə haqqında" 18 iyun 1999-cu il tarixli qanununun 19-cu maddəsinə əsasən, terror fəaliyyəti ilə əlaqəsinə görə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təşkilat (onun filialı nümayəndəliyi) Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məhkəmənin qərarı əsasında ləğv edilə bilər. Terror fəaliyyəti ilə əlaqəsi Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müəyyən edilmiş təşkilat ləğv edilərkən ona mənsub olan əmlak Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilir və dövlətin hesabına keçirilir. Digər tərəfdən, həmin qanunun 20-ci maddəsinə əsasən, terror fəaliyyətinə görə təşkilatın məsuliyyətə cəlb olunması barəsində ərizə ilə məhkəməyə Azərbaycan Respublikasının Baş prokuroru və ya ona tabe olan prokurorlar müraciət edirlər [4].

Göründüyü kimi, terror fəaliyyəti ilə əlaqəsinə görə təşkilatın mülki qaydada ləğv edilməsi, ona mənsub olan əmlakın müsadirə edilməsi və dövlətin hesabına keçirilməsi, eyni zamanda bu barədə məhkəməyə mülki iddia vermək səlahiyyətinin Azərbaycan Respublikasının Baş prokuroru və ya ona tabe olan prokurorlar tərəfindən həyata keçirilməsi barədə "Terrorçuluğa qarşı mübarizə haqqında" qanunun müddəaları haqqında Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinə müvafiq normalar daxil edilməmişdir. Odur ki, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinə müvafiq əlavə və dəyişikliklərin edilməsi məqsədəmüvafiq hesab olunur.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Konstitusiyası, http://www.e-qanun.az/framework/ 897, 2022
2. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi, http://e-qanun.az/ framework/46945, 2022
3. Azərbaycan Respublikasının Prokurorluq haqqında 7 dekabr 1999-cu il tarixli Qanunu, http://www.e-qanun.az/ framework/5229, 2022
4. Azərbaycan Respublikasının Terrorçuluğa qarşı mübarizə haqqında 18 iyun 1999-cu il tarixli Qanunu, http://www.e-qanun.az/ framework/3855 , 2022
5. "İstehsalat, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 iyun tarixli 463 nömrəli Fərmanı. Bakı: "Xalq qəzeti", 18 iyul 1996-cı il, №116 (22258).
6. S.X.Aslanov Azərbaycan prokurorluğu: təşkili və fəaliyyət istiqamətləri. "Hüquq ədəbiyyatı nəşriyyatı", Bakı, 2003. s. 316
7. Az SSR-in 1978-ci il Konstitusiyası (maddə 176), https://files.preslib.az/projects/remz/pdf/atr_kons.pdf , 2022.
8. https://genprosecutor.gov.az


***Açar sözlər:*** *prokurorluq, mülki mühakimə, şəhid ailəsi, cinayət təqibindən kənar, təsərrüfat fəaliyyəti*

**Elmir Pashazade**
*Prosecutor of the Personnel Department*
*of the General Prosecutor's Office of the Republic of Azerbaijan*

# PARTICIPATION OF THE PROSECUTOR IN CIVIL PROCEEDINGS

## ABSTRACT

In the paper, the author discusses the participation of the prosecutor's office in civil proceedings, holds comparative analyzes of the limits of the prosecutor's office competence during the Soviet era and in the post-independence period, and suggests adequate additions and changes to the Code of Civil Procedure Republic Azerbaijan.

***Keywords:*** *procurator's office, civil litigation, family of martyr, out of criminal prosecution, economic activity*

**Эльмир Пашазаде**
*Прокурор Управления кадров*
*Генеральной прокуратуры Азербайджанской Республики*

## УЧАСТИЕ ПРОКУРАТУРЫ В ГРАЖДАНСКОМ ПРОЦЕССЕ

### РЕЗЮМЕ

В статье автор рассматривает участие прокуратуры в гражданском судопроизводстве, сравнительный анализ пределов этих полномочий прокурора в советское время и в период после обретения независимости. А также предлагает внести соответствующие дополнения и изменения в Гражданский процессуальный кодекс Азербайджанской Республики в связи с участием прокурора в рассмотрении дел по гражданским и хозяйственным спорам в суде.

***Ключевые слова:*** *прокуратура, гражданский процесс, семья шехидов, отсутствие уголовного преследования, хозяйственная деятельность*

# H Ü Q U Q
# L A W

UOT 343.8

**KÖNÜL QURBANOVA**
**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Aparatının**
**Cinayət və inzibati hüquq şöbəsinin baş məsləhətçisi, hüquq üzrə fəlsəfə doktoru**
*e-mail: kenul76@mail.ru*

## CƏZA-İCRA MÜNASİBƏTLƏRİNİN TƏNZİMLƏNMƏSİ İLƏ BAĞLI AZƏRBAYCAN RESPUBLİKASI KONSTİTUSİYA MƏHKƏMƏSİ PLENUMUNUN HÜQUQİ MÖVQELƏRİ

Konstitusiya nəzarəti orqanı olan Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi fəaliyyətə başladığı gündən ölkə Konstitusiyasının aliliyini təmin etməyə, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməyə, ədalət, azadlıq və humanizm kimi prinsiplərin bərqərar olmasına çalışmışdır.

Konstitusiya Məhkəməsinin qərarlarının hüquqtətbiqetmə sahəsində rolu ilə əlaqədar qeyd edilməlidir ki, bu qərarlar məhkəmə aktlarının hüquqi məzmununu formalaşdırır, sahəvi qanunvericilik normalarının konstitusiya məzmununu dəqiqləşdirir və bununla da yaranmış konkret hüquqi vəziyyətdə qeyri-müəyyənliyi aradan qaldırır.

Bundan əlavə, Konstitusiya Məhkəməsinin qərarlarının ölkənin qanunyaradıcı fəaliyyətinə təsiri danılmazdır. Belə ki, bir sıra hallarda konstitusiya ədalət mühakiməsinin həyata keçirilməsi prosesində qərarlarda formalaşmış hüquqi mövqelər, o cümlədən verilmiş şərhlər qanunvericilikdə yeni normalar kimi öz əksini tapır.

Nəzərə alınmalıdır ki, cəza-icra münasibətlərini tənzimləyən qanunvericilik tək Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsindən, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarət deyil. Bu münasibətləri nizamlayan normaların tətbiqi prosesində Konstitusiya Məhkəməsinin qərarları xüsusi əhəmiyyət kəsb edir. Konstitusiya Məhkəməsinin qərarlarına (hüquqi mövqelərinə) istinad edilməsi, həmçinin sonuncunun normativ aktlar sisteminə daxil olması ilə bağlı aşağıdakıların qeyd edilməsini vacib bilirik.

Belə ki, Konstitusiya Məhkəməsinin səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyasının (bundan sonra – Konstitusiya) 130-cu maddəsində təsbit edilmişdir və qanunvericilik sisteminə daxil olan normativ-hüquqi aktların Konstitusiyaya uyğunluğunun yoxlanılmasında, Konstitusiyanın və qanunların şərh edilməsində, hakimiyyətlər arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrin həll edilməsində, seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsində və s. ifadə olunur.

Qəbul edilən qərarlar ölkə ərazisində məcburi qüvvəyə malikdir (Konstitusiyanın 130 cu maddəsinin IX hissəsi).

Qeyd olunmalıdır ki, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının 21 dekabr 2010-cu il tarixli Konstitusiya Qanununun 4.1.1 ci maddəsinə müvafiq olaraq Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərinə və IV hissəsinə əsasən qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları normativ xarakterli aktlar hesab edilir.

Konstitusiya Qanununun 1.0.3 cü maddəsində normativ xarakterli akt bu Konstitusiya Qanununun 4.1-ci maddəsində müəyyən edilmiş, məhdud subyektlər dairəsi üçün məcburi davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəd kimi göstərilmişdir.

Həmin Qanunun 4.2-4.3-cü maddələrinin tələblərindən irəli gələrək qeyd etmək olar ki, normativ xarakterli aktları normativ hüquqi aktlardan fərqləndirən cəhət ondan ibarətdir ki, normativ xarakterli aktlar onların icra olunmamasına görə məsuliyyət müəyyən edə bilməz, onlar müvafiq normativ hüquqi akt əsasında qəbul edilməlidir və onun müvafiq normasına istinad etməlidir.

Fikrimizcə Konstitusiya Məhkəməsinin qərarlarının normativ xarakterli akt kimi göstərilməsi onların hüquqi təbiətinə uyğun deyil. Belə ki, Konstitusiya Məhkəməsi "Normativ-hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 1.0.13-cü maddəsi ilə müəyyən edilən normayaratma fəaliyyətini həyata keçirir. Həmin maddədə normativ hüquqi aktların hazırlanması, ekspertizası, qəbul olunması, onlarda dəyişikliklər edilməsi, onların şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi normayaratma fəaliyyəti kimi göstərilmişdir.

Konstitusiya nəzarəti orqanı normativ-hüquqi aktın və ya onun hər hansı bir hissəsinin Konstitusiyaya və ya qanunvericilik iyerarxiyasında özündən üstün hüquqi qüvvəsi olan hüquqi akta uyğun olmadığını müəyyən etdikdə, onu qüvvədən düşmüş elan edir. Konstitusiya Məhkəməsinin qərarı bu halda preyudisial əhəmiyyət kəsb edir. Belə ki, Konstitusiyaya uyğun olmayan hesab edilmiş normativ-hüquqi aktla eyni məzmunlu aktın yenidən qəbul edilməsi istisna edilir.

Həmin Qanunun 89.1.3-89.2-ci maddələrinin məzmununa görə isə normativ hüquqi akt (onun struktur elementi) Konstitusiyanın 130-cu maddəsinin III hissəsinin 1-3-cü və 6-cı, 7-ci bəndlərində nəzərdə tutulmuş hallarla əlaqədar Konstitusiya Məhkəməsinin qərarı ilə qüvvədən düşmüş hesab edildikdə öz qüvvəsini itirir. Bu halda həmin normativ hüquqi akt (onun struktur elementi) onu qəbul etmiş normayaratma orqanı tərəfindən ləğv edilir.

Beləliklə, Konstitusiya Məhkəməsi faktiki olaraq "neqativ qanunverici" funksiyasını icra etmiş olur.

Konstitusiya nəzarəti funksiyasını həyata keçirən məhkəmənin normayaratma fəaliyyəti yalnız "neqativ qanunverici" funksiyası ilə məhdudlaşmır. Belə ki, Konstitusiya Məhkəməsinin qərarlarında hüququn müxtəlif sahələrinə dair formalaşmış hüquqi mövqelər həmin məsələlərin həlli ilə bağlı qəbul edilən sonrakı hüquqi aktlarda da nəzərə alınır, onlara uyğun tənzimlənir.

Qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsinin qərarının yüksək hüquqi qüvvəsi onun bütün hissələrinə, habelə həmin qərarın əsasını təşkil edən hüquqi mövqelərə də şamil olunur. Həmçinin, Konstitusiya Məhkəməsinin hüquqi mövqeləri bəzən müstəqil əhəmiyyət qazanır. Bu hüquqi mövqelərin qüvvəsi onun qərarlarının hüquqi qüvvəsinə bərabər olduğundan və ümumi xarakter daşıdığından, yalnız konstitusiya işinin predmetini təşkil etmiş hala deyil, hüququn mənbəyi kimi hüquqi tətbiqetmə təcrübəsində rast gəlinən analoji hallara da şamil edilməlidir (Konstitusiya Məhkəməsi Plenumunun S.Xəlilov və Ə.İbrahimovun şikayəti üzrə 2016-cı il 13 iyul tarixli Qərarı).

Hesab edirik ki, Konstitusiya Məhkəməsinin qərarının bu xüsusiyyəti, yəni qeyri-müəyyən subyektlər dairəsi üçün və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulması bir daha bu rəsmi sənədin normativ hüquqi akt olmasını təsdiqləyir.

Göstərilənlərlə yanaşı o da qeyd edilməlidir ki, Konstitusiya Məhkəməsi hüquqtətbiqetmə sahəsində boşluğu aradan qaldırmaq məqsədilə müvafiq səlahiyyətli dövlət orqanlarının diqqətini yeni hüquqi aktın qəbul edilməsinə, qüvvədə olan normalara isə əlavə və dəyişikliklərin edilməsinə yönəldir. Tövsiyələrdən irəli gələn yeni hüquqi tənzimləmə Konstitusiya Məhkəməsinin qərarındakı formalaşan hüquqi mövqeyə uyğun olmalıdır.

Beləliklə, Konstitusiya Məhkəməsi müəyyən dərəcədə pozitiv qanunvericilik səlahiyyətlərini həyata keçirir. Belə ki, Konstitusiya Məhkəməsinin hüquqi mövqeləri tənzimləmənin məlum parametrlərini müəyyən etməklə gələcək hüquqi normaların özünəməxsus modellini təşkil edir.

Bəzi təxirəsalınmaz hallarda məsələ qanunvericilik qaydasında həll edilənədək Konstitusiya Məhkəməsi hüquqtətbiqedən orqanlar

üçün müvəqqəti tənzimləmə qaydası müəyyən edir. Məsələn, Konstitusiyanın 60-cı maddəsinin I hissəsində və Konvensiyanın 6-cı maddəsində nəzərdə tutulan məhkəməyə müraciət etmək hüququnun təmin edilməsi məqsədilə Konstitusiya Məhkəməsinin Plenumu cinayət işi üzrə icraatda iştirak etməyən, məhkəmə hökmü ilə maraqlarına toxunan şəxsin hüquqları və qanunla qorunan maraqları əhəmiyyətli dərəcədə pozulduğu hallarda cinayət işi üzrə icraata üçüncü şəxs qismində cəlb edilə bilməsini mümkün hesab etmişdir ("Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 183.2-ci maddəsinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142.1, 383.1, 408.3-cü maddələri və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.4-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 24 fevral 2022-ci il tarixli Qərar) [5].

Məlum olduğu kimi, Konstitusiya Məhkəməsinin əsas səlahiyyətlərindən biri Konstitusiyanın və qanunların şərh edilməsidir. "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 90.1-ci maddəsinə əsasən normativ hüquqi aktın məzmununda qeyri-müəyyənliklər və fərqlər, habelə tətbiqi təcrübəsində ziddiyyətlər aşkar edildikdə həmin aktı qəbul etmiş normayaratma orqanı və ya Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi müvafiq normaları rəsmi şərh edir.

Məhkəmənin bu səlahiyyəti Konstitusiyanın və qanunların konstitusion mahiyyətinin müəyyən edilməsinə və vahid tətbiqinin formalaşmasına yönəlmişdir. Konstitusiya Məh-kəməsinin bu səlahiyyəti qanunvericinin səlahiyyətlərinə müdaxilə etmədən həyata keçirməsi xüsusilə vurğulanmalıdır.

Konstitusiya Məhkəməsi normativ hüquqi aktın şərhi ilə bağlı qəbul etdiyi qərarında normativ-hüquqi aktların kolliziyasını təsdiqləyərsə, həmin kolliziyanı aradan qaldırmaq məqsədi ilə bu Konstitusiya Qanununun 12.1.1-12.1.3-cü maddələrində göstərilən tədbirlər görülməlidir ("Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 12.3-cü maddəsi).

Bu tədbirlərə normativ hüquqi aktın ləğv edilməsi, normativ hüquqi aktda dəyişikliklər edilməsi və normativ hüquqi aktların məcəlləşdirilməsi aiddir.

Konstitusiya Məhkəməsinin qərarlarının normativ hüquqi akt olmasına dəlalət edən digər bir əsas odur ki, qeyd edildiyi kimi, qanunlar və digər aktlar, yaxud onların ayrı-ayrı müddəaları, həmçinin Azərbaycan Respublikasının hökumətlərarası müqavilələri Konstitusiya Məhkəməsinin qərarında müəyyən edilmiş müddətdə qüvvədən düşür; Azərbaycan Respublikasının dövlətlərarası müqavilələri qüvvəyə minmir (Konstitusiyanın 130-cu maddəsinin X hissəsinə əsasən).

Fikrimizcə qanunvericinin normativ xarakterli akt əsasında daha yüksək hüquqi qüvvəyə malik olan normativ-hüquqi aktın hüquqi qüvvədən düşməsinə dair bu mövqeyi qüsurludur.

Digər tərəfdən "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 4.4-cü maddəsinə əsasən bu Konstitusiya Qanununun 4.1.1-ci maddəsində nəzərdə tutulan normativ xarakterli aktlar (Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərinə və IV hissəsinə əsasən qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin qərarları) istisna olmaqla, digər normativ xarakterli aktlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə ziddiyyət təşkil edə bilməz.

Maddənin təhlili belə nəticəyə gəlməyə imkan verir ki, qanunverici Konstitusiya Məhkəməsinin qərarlarının normativ hüquqi aktlar ilə ziddiyyət təşkil etməsini mümkün hesab edərək qeyri-müəyyən mövqe sərgiləmişdir.

Əlavə olaraq bildirmək istərdik ki, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 4.1-ci maddəsi Konstitusiya Məhkəməsinin qərarlarını normativ xarakterli akt kimi müəyyən etsə də, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin (bundan sonra – Cinayət-Prosessual Məcəllə) 10.3-cü maddəsində Konstitusiya Məhkəməsinin qərarında Azərbaycan Respublikası Konstitusiyasına və digər qanunlarına verilmiş təfsirinin məcburi olması müəyyən edilmişdir.

Yəni "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 1.0.3-cü və 4.1.1-ci maddələri Konstitusiya Məhkəməsinin qərarlarını məhdud subyektlər dairəsi üçün məcburi davranış qaydaları müəyyən edən rəsmi sənəd kimi müəyyən etsə də, Cinayət-Prosessual Məcəllənin 10.3-cü maddəsi isə həmin qanunun tələblərinə zidd olaraq, Konstitusiya Məhkəməsinin qərarının cinayət prosesinin iştirakçıları üçün məcburi xarakter daşımasını vurğulamışdır.

Konstitusiya Məhkəməsi Plenumunun cəza-icra münasibətlərinin tənzimlənməsinə dair hüquqi mövqelərini aşağıdakı kimi sistemləşdirmək olar:

**Cəza çəkmə müəssisəsinin növünün müəyyən edilməsinə dair:**

Azərbaycan Respublikasının Prokurorluğu 2012-ci ildə Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (bundan sonra – Cinayət Məcəlləsi) 56.1.3-cü və Cəzaların İcrası Məcəlləsinin 114-cü maddələrinin əlaqəli şəkildə şərh olunmasını xahiş etmişdir. Sorğuya əsasən Cinayət Məcəlləsinin 56.1.3-cü və Cəzaların İcrası Məcəlləsinin 114-cü maddələrində nəzərdə tutulan "xüsusilə ağır cinayətlər törətməyə görə ilk dəfə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər üçün, habelə cinayətlərin residivi zamanı, əgər məhkum əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmişsə" müddəasının qadın məhkumlara şamil edilib-edilməməsi ilə bağlı hüquqtətbiqetmə təcrübəsində qeyri-müəyyənlik mövcuddur. Belə ki, bəzən məhkəmələr Cinayət Məcəlləsinin 56.1.3-cü maddəsində nəzərdə tutulan həmin müddəanı məhz kişi məhkumlara aid olduğuna əsaslanaraq, qadın məhkumlara ciddi rejimli cəzaçəkmə müəssisəsi növünü yalnız cinayətlərin xüsusi təhlükəli residivi zamanı təyin edirlər.

Konstitusiya Məhkəməsinin Plenumu sorğu ilə bağlı "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 56.1.3-cü maddəsinin şərh edilməsinə dair" 12 yanvar 2012-ci il tarixli Qərarında müxtəlif növ cəzaçəkmə müəssisələrinin müəyyən edilməsinə aydınlıq gətirərək qeyd etmişdir ki, cəzaçəkmə müəssisələrinin differensiasiyasının əsasını cinayət və cəza-icra hüququnun ədalət, humanizm, məcburetmə tədbirlərindən və məhkumların islah edilmə vasitələrindən məqsədəuyğun istifadə edilməsi, onlarda qanuna itaətin həvəsləndirilməsi və cəzanın islahedici təsirinin artırılması kimi prinsipləri təşkil edir [1].

Konstitusiya Məhkəməsinin Plenumu müvafiq maddələrin təhlili nəticəsində hesab etmişdir ki, Cinayət Məcəlləsinin 56.1.4-cü maddəsi ilə cinayətlərin xüsusi təhlükəli residivi zamanı və ya ömürlük azadlıqdan məhrum etmə cəza növü müəyyən müddətə azadlıqdan məhrum etmə cəza növü ilə əvəz edildikdə xüsusi rejimli cəzaçəkmə müəssisəsi, həmin Məcəllənin 56.1.3-cü maddəsində isə cinayətlərin xüsusi təhlükəli residivi zamanı qadınlar üçün ciddi rejimli cəzaçəkmə müəssisəsi müəyyən edilmişdir. Həmin maddələrdəki fərqləndirmə onu göstərir ki, məhkəmənin hökmü ilə təyin edilmiş azadlıqdan məhrum etmə cəzasının çəkilməsi üçün cinayətlərin xüsusi təhlükəli residivi zamanı qadın və kişi məhkumlara müvafiq olaraq ciddi və xüsusi rejimli cəzaçəkmə müəssisələri təyin edilməlidir. Məcəllənin 57.2-ci maddəsinə əsasən isə qadınlara ömürlük azadlıqdan məh-rum etmə növündə cəza təyin edilməsi istisna edilmişdir.

Qərarda Cəzaların İcrası Məcəlləsinin 114-cü maddəsinə istinad olunaraq göstərilmişdir ki, həmin maddəyə görə ciddi rejimli cəzaçəkmə müəssisələrində xüsusilə ağır cinayətlər törətməyə görə ilk dəfə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş, habelə cinayətlərin residivi zamanı, yəni əvvəllər müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza çəkmiş şəxslər və cinayətlərin xüsusi təhlükəli residivinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş qadınlar cəza çəkirlər.

Konstitusiya Məhkəməsinin Plenumu hesab etmişdir ki, Məcəllənin 114-cü maddəsinin müddəaları cinayət qanunvericiliyinə əsasən məhkəmənin hökmü ilə cəzanın çəkilməsi üçün müəyyən edilmiş ciddi rejimli cəzaçəkmə müəssisəsində cəzanın icrası qaydasını tənzimlədiyindən, Plenumun Cinayət Məcəlləsinin 56.1.3-cü maddəsi ilə bağlı müəyyən edilmiş hüquqi mövqeyi Cəzaların

İcrası Məcəlləsinin həmin maddəsinin tətbiqinə də şamil olunmalıdır.

Belə ki, yuxarıda qeyd olunanlara əsasən Konstitusiya Məhkəməsinin Plenumu belə nəticəyə gəlmişdir ki, Cəzaların İcrası Məcəlləsinin 56.1.3-cü maddəsinin "xüsusilə ağır cinayətlər törətməyə görə ilk dəfə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər üçün, habelə cinayətlərin residivi zamanı, əgər məhkum əvvəllər azadlıqdan məhrum etmə növündə cəza çəkmişsə" müddəası həm qadın, həm də kişi məhkumlara aiddir.

Digər bir müraciətə əsasən Cinayət Məcəlləsinin 56.1.1-ci maddəsində ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq olmayan müddətə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər üçün məntəqə tipli cəzaçəkmə müəssisələrində, həmin Məcəllənin 56.1.2-ci maddəsində isə qəsdən törədilmiş böyük ictimai təhlükə törətməyən, az ağır və ağır cinayətlərə görə ilk dəfə azadlıqdan məhrum etməyə məhkum olunmuş şəxslər üçün, habelə ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər üçün ümumi rejimli cəzaçəkmə müəssisələrində təyin edilmiş cəzanın çəkilməsi müəyyən edilmişdir.

Müraciətdən göründüyü kimi, azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər üçün cəzaçəkmə müəssisəsinin növünü müəyyən edən Cinayət Məcəlləsi 56-cı maddəsində cinayətlərin (hökmlərin) cəmi qaydasında ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ilə qədər azadlıqdan məhrum etməyə və həmçinin böyük ictimai təhlükə törətməyən, az ağır və ağır cinayətlərə görə ilk dəfə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslərə qəti cəza təyin edilərkən cəzaçəkmə müəssisəsinin növünün müəyyən edilməsi tənzimlənmədiyindən hüquqtətbiqetmə təcrübəsində qeyri-müəyyənlik yaranmışdır.

Konstitusiya Məhkəməsinin Plenumu müraciətdəki məsələ ilə bağlı hesab etmişdir ki, Cinayət Məcəlləsinin 56.1.1 və 56.1.2-ci maddələrinin mənasına uyğun olaraq şəxs cinayətlərin (hökmlərin) məcmusu qaydasında ehtiyatsızlıqdan törədilən cinayətə görə beş ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə və qəsdən törədilən böyük ictimai təhlükə törətməyən, az ağır və ağır cinayətlərə görə ilk dəfə azadlıqdan məhrum etməklə əlaqədar olmayan cəzaya məhkum olunduqda cəzanın məntəqə tipli cəzaçəkmə müəssisələrində çəkilməsi müəyyən edilməlidir. Cinayətlərin (hökmlərin) məcmusuna həm qəsdən, həm də ehtiyatsızlıqdan törədilmiş cinayət daxil olduqda isə şəxs həm ehtiyatsızlıqdan edilmiş cinayətlərə görə azadlıqdan məhrum etmə cəzasına, həm də böyük ictimai təhlükə törətməyən, az ağır və ağır cinayətlərə görə ilk dəfə azadlıqdan məhrum etmə cəzasına məhkum olunduqda, cinayətlərin məcmusu üzrə qəti cəza beş ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə təyin edildikdə, cəza ümumi rejimli cəzaçəkmə müəssisələrində çəkilməlidir [4].

**Ərazi üzrə məhkəmə aidiyyəti ilə bağlı.** Sumqayıt Apellyasiya Məhkəməsinin Konstitusiya Məhkəçməsinin Plenumuna ünvanladığı müraciətdən göründüyü kimi, cəzanın çəkilməsinin təxirə salınmasının ləğv edilməsi və məhkumun azadlıqdan məhrum etmə növündə cəzanın çəkilməsi üçün göndərilməsi məsələsinə hökm çıxarmış məhkəmə və ya məhkumun yaşayış yeri üzrə məhkəmə tərəfindən baxılması ilə bağlı təcrübədə qeyri-müəyyənlik mövcuddur.

Belə ki, Cinayət-Prosessual Məcəllənin 512.2-ci maddəsində cəzanın çəkilməsinin təxirə salınmasının ləğv edilməsi və məhkumun azadlıqdan məhrum etmə cəzasının çəkilməsi üçün göndərilməsi cəzaları icra edən müəssisə və ya orqanın təqdimatına əsasən cinayət qanununun müddəalarına müvafiq olaraq hökm çıxarmış məhkəmə tərəfindən həyata keçirilməsi müəyyən edildiyi halda, həmin Məcəllənin 519.0.4-cü maddəsində məhkumun yaşayış yeri üzrə məhkəmənin cəzaları icra edən müəssisənin və ya orqanın vəsatəti əsasında hökmün və ya məhkəmənin digər yekun qərarının icrası ilə əlaqədar cəzanın çəkilməsinin təxirə salınmasının ləğv edilməsi və məhkumun azadlıqdan məhrum etmə növündə cəzanın çəkilməsi üçün göndərilməsi barədə məsələyə baxılması göstərilmişdir.

Konstitusiya Məhkəməsi Plenumunun 10 fevral 2012-ci il tarixli Qərarında formalaş-

dırdığı hüquqi mövqeyinə görə, cəzanın çəkilməsinin təxirə salınmasının tətbiq edilməsi iki məqsəd daşıyır. Bir tərəfdən, bu humanizmin təcəssümü, digər tərəfdən isə cəzanın məqsədlərinə cəza real çəkilmədən nail olmaq imkanıdır [2].

Konstitusiya Məhkəməsi Plenumunun gəldiyi qənaətə görə, qanunverici cinayət prosesinin həyata keçirilməsi üçün məhkəmə aidiyyətinin elə prosessual qaydalarını dəqiq müəyyən etməlidir ki, onlar prosessual səmərəlilik və qənaət tələblərinə cavab versin. Yuxarıda təhlil edilən məsələlərin məhkumun yaşayış yeri üzrə məhkəmənin səlahiyyətinə aid edilməsi prosessual qənaət prinsipinə cavab verməklə məhkəmə icraatının rahat və səmərəli olmasına, yəni yüksək nəticələrin minimum vasitələrlə əldə edilməsinə xidmət etmiş olar.

Göstərilənləri nəzərə alaraq, Konstitusiya Məhkəməsinin Plenumu hesab etmişdir ki, Cinayət-Prosessual Məcəllənin 512.2-ci maddəsinin müddəalarına əsasən Cinayət Məcəlləsinin 79.2-ci maddəsində göstərilən hallarda cəzanın çəkilməsinin təxirə salınmasının ləğv edilməsi və məhkumun azadlıqdan məhrum etmə cəzasının çəkilməsi üçün göndərilməsi cəzaları icra edən müəssisə və ya orqanın təqdimatına əsasən hökm çıxarmış məhkəmə tərəfindən həyata keçirilməlidir. Cinayət-Prosessual Məcəllənin 519.0.3 və 519.0.4-cü maddələrinə müvafiq olaraq Cinayət Məcəlləsinin 79.3-cü maddəsində göstərilən halda, yəni uşaq səkkiz yaşına çatdıqda, məhkum edilmiş şəxsin cəzadan azad edilməsi və ya cəzanın çəkil-məmiş hissəsinin daha yüngül cəza növü ilə əvəz edilməsi, yaxud cəzanın qalan hissəsini çəkmək üçün müvafiq müəssisəyə gön-dərilməsi cəzaları icra edən müəssisə və ya orqanın təqdimatı əsasında məhkumun yaşa-yış yeri üzrə məhkəmə tərəfindən həyata keçirilməlidir.

Qeyd edilməlidir ki, 3 dekabr 2013-cü il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Cinayət Məcəlləsinin 519-cu maddəsi yeni redaksiyada verilmişdir.

**Cəza növlərindən biri olan islah işləri cəzasının on beş yaşınadək şəxslərə tətbiq edilməsi ilə bağlı.**

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət edərək Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələrinin Konstitusiyanın 12-ci maddəsinin I hissəsinə, 17-ci maddəsinin IV və V hissələrinə, 26-cı maddəsinin II hissəsinə, 71-ci maddəsinin I və II hissələrinə, 149-cu maddəsinin I və III hissələrinə uyğunluğunun yoxlanılmasını xahiş etmişdir.

Sorğuya əsasən, Konstitusiyanın 17-ci maddəsinin IV və V hissələrinə, 26-cı maddəsinin II hissəsinə müvafiq olaraq, uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. Cinayət Məcəlləsinin 85.3-cü maddəsində isə on beş yaşınadək şəxslərin təhsilindən və əsas işindən asudə vaxtlarında bacardıqları işlərin icrasına cəlb edilməsi nəzərdə tutulmuşdur.

Sorğuverənin qənaətinə görə, ictimai işlər cəzasının işləməsi qadağan olunan 15 yaşınadək şəxslərə münasibətdə tətbiqi onların azadlıq hüququnun məhdudlaşdırılmasına, sağlamlığının qorunması hüququnun, eləcə də bu kateqoriya şəxslərin əmək fəaliyyətinə cəlb edilməsinin qadağan olunması ilə bağlı Konstitusiya normalarının pozulmasına səbəb ola bilər. Halbuki, Konstitusiyanın 149-cu maddəsinin I və III hissələrində göstərilir ki, normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalıdır. Qanunlar Konstitusiyaya zidd olmamalıdır.

Konstitusiya Məhkəməsinin Plenumu qərarında cəza-icra münasibətlərinin subyektiv tərkibini, vaxt intervalını, əhatə etdiyi dövr və münasibətlərin xarakterini əsas götürərək hesab etmişdir ki, məhkəmə tərəfindən ittiham hökmü çıxarıldıqda dövlət və məhkum arasında yaranan əmək münasibətləri cəza-icra münasibətlərinə aid olduğundan, Konstitusiyanın 17-ci maddəsinin V hissəsi ilə yetkinlik yaşına çatmayanlara ictimai işlər cəzasının tətbiq edilməsini nəzərdə tutan qanunvericilik normaları arasında ziddiyyət yaranmır [4]. Belə ki, 15 yaşına çatmamış uşaqların işə götürülməsinin qadağan olunma-

sını nəzərdə tutan normalar əmək hüququ baxımından bütün əlamətləri mövcud olan əmək münasibətlərini ehtiva edir.

Sorğuda qaldırılan digər məsələ yetkinlik yaşına çatmayanlara təyin edilən cəza növlərindən biri olan islah işləri cəzasının 15 yaşınadək şəxslərə tətbiq edilməsinin qanunvericiliyə zidd olması ilə bağlıdır. Cinayət Məcəlləsinin 85.4-cü maddəsinə əsasən, yetkinlik yaşına çatmayanlara islah işləri iki aydan bir ilədək müddətə təyin edilir. Bu zaman məhkumun qazancından məhkəmənin hökmü ilə müəyyən edilmiş miqdarda, beş faizdən iyirmi faizə qədər pul dövlət nəfinə tutulur.

Cəzaların İcrası Məcəlləsinin 40 və 41-ci maddələrinə müvafiq olaraq, islah işləri növündə cəza məhkumun əsas iş yeri üzrə çəkilir. İslah işləri növündə cəzaya məhkum olunmuş şəxslər məhkum edilməzdən əvvəl işlədikləri vəzifədə və ya işdə qalırlar. Bu şəxslər başqa vəzifəyə və ya işə yalnız əmək qanunvericiliyi ilə müəyyən olunmuş qaydada və ümumi əsaslarla keçirilə bilərlər.

Cinayət və Cəzaların İcrası Məcəllələrinin islah işləri ilə əlaqədar normaları isə əmək qanunvericiliyinə göndəriş edərək, bu cəza növünün tətbiqi üçün məhkumun iş yerinin olmasını zəruri hesab edir.

Əmək Məcəlləsinin 3-cü maddəsinin 8-ci hissəsinə əsasən, iş yeri işçinin haqqı ödənilməklə vəzifəsi (peşəsi) üzrə əmək müqaviləsi ilə müəyyən edilmiş işləri (xidmətləri) yerinə yetirdiyi yer kimi müəyyən edilmişdir.

Göstərilənlərə əsasən, Konstitusiya Məhkəməsinin Plenumu belə qənaətə gəlmişdir ki, qüvvədə olan qanunvericiliyə uyğun olaraq, 15 yaşınadək şəxslərin əmək münasibətlərinə girməsinə yol verilmədiyindən, islah işləri növündə cəza yalnız 15 yaşı tamam olan və ya daha çox yaşı olan yetkinlik yaşına çatmayanlar barəsində tətbiq edilə bilər.

Sadalananlar bir daha göstərir ki, Konstitusiya Məhkəməsinin Plenumu qərarlarında cəza-icra münasibətlərinin tənzimlənməsində tətbiq olunan hüquq normalarının konstitusiya mənalarını açıqlamışdır. Həmin qərarlarda cəzaların icrası qanunvericiliyinin normalarına şərh cinayət və cinayət-prosessual qanunvericiliyinin normaları, Konstitusiyada təsbit edilmiş təməl prinsip və normalar nöqteyi nəzərindən həyata keçirilmişdir.

Konstitusiya Məhkəməsinin Plenumu qərarlarındakı hüquqi mövqelər vahid hüquqtətbiqetmə təcrübəsinin formalaşmasına və bununla da ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 3 aprel 2019-cu il tarixli "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanından irəli gələn tələblərə əməl edilməsinə, o cümlədən cəza-icra qanunvericiliyinin təkmilləşdirilməsinə öz töhfəsini verir.

**Ədəbiyyat:**


1. Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 56.1.3-cü maddəsinin şərh edilməsinə dair" 12 yanvar 2012-ci il tarixli Qərarı;
2. Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 512.2 və 519.0.4-cü maddələrinin şərh edilməsinə dair" 10 fevral 2012-ci il tarixli Qərarı;
3. Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 56.1.1 və 56.1.2-ci maddələrinin şərh edilməsinə dair 18 iyun 2013-cü il tarixli Qərarı;
4. Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 85.3 və 85.4-cü maddələrinin Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin V hissəsinə uyğunluğunun yoxlanılmasına dair" 23 aprel 2021-ci il tarixli Qərarı;
5. Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 183.2-ci maddəsinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 142.1, 383.1, 408.3-cü maddələri və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 82.4-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 24 fevral 2022-ci il tarixli Qərarı.

***Açar sözlər:*** *cinayət, cəza, icra, hüquq, cəza icra hüquq münasibətləri, cəza-icra hüququnun mənbələri, qanunvericilik, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun hüquqi mövqeləri*

**Kenul Qurbanova**
*Senior Adviser at the Department of Criminal and Administrative Law of Constitutional Court of the Republic of Azerbaijan, , Ph.D. in Law*

## THE LEGAL POSITIONS OF THE PLENUM OF THE CONSTITUTIONAL COURT OF THE REPUBLIC OF AZERBAIJAN IN THE REGULATION OF CRIMINAL AND EXECUTIVE RELATIONS

### ABSTRACT

The author discusses the role of legal positions, reflected in the decisions of the Plenum of the Constitutional Court of the Republic of Azerbaijan, in the regulation of penitentiary relations, as well as in law enforcement practice. The author also emphasizes the impact of the resolutions adopted by the Plenum on legislative activity, noting the contribution of the Constitutional Court to the development of penal legislation through the exercise of constitutional powers.

***Keywords:*** *crime, punishment, execution, law, criminal and executive relations, sources of the criminal and executive right, legislation, legal positions of the Constitutional Court of the Republic of Azerbaijan*

**Кенуль Гурбанова**
*Старший консультант отдела Уголовного и административного права Конституционного Суда Азербайджанской Республики*

## ПРАВОВЫЕ ПОЗИЦИИ ПЛЕНУМА КОНСТИТУЦИОННОГО СУДА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В РЕГУЛИРОВАНИИ УГОЛОВНО-ИСПОЛНИТЕЛЬНЫХ ОТНОШЕНИЙ

### Р Е З Ю М Е

В статье автор отмечает роль правовых позиций, отраженных в постановлениях Пленума Конституционного Суда Азербайджанской Республики, в урегулировании уголовно-исполнительных отношений, а также в правоприменительной практике. Автор также подчеркивает влияние принятых Пленумом постановлений на законотворческую деятельность, отмечая вклад Конституционного Суда в развитие уголовно-исполнительного законодательства посредством реализации конституционных полномочий.

***Ключевые слова:*** *преступление, наказание, исполнение, право, уголовно-исполнительные отношения, источники уголовно-исполнительного права, законодательство, правовые позиции Конституционного Суда Азербайджанской Республики*

# H Ü Q U Q
# L A W

UOT 341.22

**SƏFTƏR RƏHİMLİ**
**Bakı Dövlət Universitetinin İnsan hüquqları və informasiya hüququ üzrə YUNESKO kafedrasının müəllimi, hüquq üzrə fəlsəfə doktoru**
*e-mail: sefterrehimli@yahoo.com*

## DÖVLƏTİN HÜQUQ VARİSLİYİ: NƏZƏRİ VƏ PRAKTİKİ ASPEKTLƏR

### Giriş

Beynəlxalq münasibətlərdə mütəmadi dəyişiklik yaradan məsələlərdən biri də bir dövlətin başqa bir dövlətlə birləşməsi, dövlətin bir hissəsinin əvvəlkindən ayrılması, yaxud bu dövlətin bir neçə müstəqil dövlətə parçalanması faktıdır. Belə dəyişikliklər dünya hüquq sisteminə, beynəlxalq münasibətlərin tənzimetmə əsası olan beynəlxalq hüquqa əhəmiyyətli formada təsir etməkdədir. Bütövlükdə geopolitik vəziyyətə təsir edən dəyişikliklərə misal olaraq 1990-cı ildə keçmiş Almaniya Demokratik Respublikasının Almaniya Federativ Respublikasının tərkibinə daxil olması; 1991-ci ildə Latviya, Litva və Estoniyanın SSRİ-dən ayrılması; SSRİ-nin bir dövlət kimi varlığına son qoyulması və Qafqazda Azərbaycan Respublikası, Gürcüstan və Ermənistan da daxil olmaqla müstəqil dövlətlərin yaradılması; 1992-ci ildə keçmiş Yuqoslaviya Sosialist Federativ Respublikasının ərazisində müstəqil dövlətlər qismində Bosniya və Herseqovina, Makedoniya, Sloveniya, Xorvatiya, habelə Yuqoslaviya Respublikasında birləşmiş Serbiya və Monteneqro dövlətlərinin yaradılmasını; 1993-cü ildə Çexoslovakiyanın yerinə Çexiya və Slovakiyanın yaradılmasını göstərmək olar [3,s.218].

Hüquq varisliyi və eləcə də beynəlxalq hüquqi tanıma institutu ilə əlaqəli olan dövlətlərin birləşməsi, parçalanması, dövlətdən onun bir hissəsinin ayrılması hadisələrinə əvvəlki illərdə də, məsələn, II Dünya müharibəsinin sonundan başlayaraq: 1947-ci ildə Hindistanın tərkibindən Pakistan, 1971-ci ildə Pakistanın tərkibindən Banqladeşin çıxması; 1958-ci ildə Misir və Suriya Birləşmiş Ərəb Respublikasını yaratması; 1961-ci ildə Suriyanın müstəqil dövlət statusuna qayıtması; 1965-ci ildə Sinqapurun Malayziyanın tərkibindən ayrılması; 1990-ci ildə Yəmən və Demokratik Yəmənin vahid dövlət halında birləşmələri [3,s.218] də siyasi, sosial-iqtisadi hadisələrlə müşayiət olunmaqla geopolitik vəziyyətin də dəyişməsinə səbəb olmuşdur. I Dünya müharibəsindən sonra da bir neçə böyük imperiyaların, məsələn, Rusiyanın süqutu ilə Qafqazda 1918-ci ildə Gürcüstanın, Azərbaycan Xalq Cümhuriyyətinin və Ermənistanın yaradılması, 1920-ci ildə yeni yaranan Sovet Rusiyası tərəfindən bu dövlətlərin işğalı beynəlxalq münasibətlərdə də ciddi dəyişikliklərə səbəb olmuşdur [1].

Dövlətlərin yox olması və ya əksinə yaranması siyasi, ictimai və bu kimi digər faktlarla bağlıdır. Eyni zamanda varislik dövlətlərin tanınması kimi yeni problemləri gündəmə gətirir [6]. Belə hallarda beynəlxalq hüququn rolu baş vermiş dəyişiklərin əhəmiyyətini hüquqi nöqteyi-nəzərdən müəyyən etməkdən, müvafiq hüquqi nəticələri onlarla əlaqələndirməkdən ibarətdir. Bu proseslər öz ifadəsini dövlətlərin varisliyi institutunda, bu sahədə mövcud olan nəzəriyyələrdə, normativ tənzimetmədə tapır.

### Beynəlxalq hüquqda varisliyin anlayışı, yaranma şərti və nəzəriyyələr

Dövlətlərin varisliyi beynəlxalq hüquq institutu kimi müəyyən bir anlayışı da meydana gətirmişdir. Bu instituta münasibətdə normativ tənzimetmə XX əsrin 70-ci illərin sonu 80-ci illərin əvvəllərindən bərqərar olmağa başladığı üçün ilk növbədə doktrinal anlayış qəbul edilmişdir. Beynəlxalq hüquqda hüquq varisliyi dedikdə, hər hansı bir ərazinin beynəlxalq münasibətlərə görə məsuliyyət daşımasında bir dövlətin digəri ilə əvəzlənməsi nəticəsində hüquq və vəzifələrin bir dövlətdən digərinə keçməsi başa düşülür [14, s.322]. Yəni beynəlxalq hüquq münasibətinin yeni subyekti əvvəlkini əvəz edir. Bəzən təriflərdə "bir yox olan subyektin hüquq və vəzifələrinin yeni yaranan subyektə keçməsi" [13, s.175] ifadəsi də qeyd edilir. Eyni zamanda vurğulanır ki, hüquq varisliyi üçün köhnənin yerində yeninin yaranması ilə hüquqi varislik yetərli deyil. Bunun üçün yeni ilə sələf arasında çox mühüm şərt olan davamlılıq (kontinuitet) pozulmalıdır. Hüquq varisliyi hökumətlərin, rejimlərin dəyişilməsi halında yaranmır, eləcə də bu dəyişilmənin qeyri-konstitusiya qaydasında olub-olmamasından da asılı olmur. Beynəlxalq hüquq baxımından dövlət üç elementin-əhali, hakimiyyət və ərazinin məcmusunda qəbul edilir. Hakimiyyətin, əhalinin dəyişilməsi hüquq varisliyi üçün hər hansı bir nəticə yaratmır. Yalnız ərazinin dəyişməsi hüquq varisliyi problemini yaradır. Hüquq varisliyinin yaranması anı və hüquq varisliyinin obyekti hüquq varisliyi üçün mühüm əhəmiyyət kəsb edir. "Hüquq varisliyinin yaranması anı" anlayışı hüquq və vəzifələri daşımaqla bağlı varis-dövlətin əvvəlki dövləti əvəz etdiyi tarixi bildirir. Hüquq varisliyinin obyekti isə o ərazidir ki, həmin əraziyə müvafiq olaraq beynəlxalq münasibətlər üçün məsuliyyət daşıyan dövlət dəyişmiş olur.

Beləliklə, beynəlxalq hüquq varisliyi-müəyyən bir ərazidə beynəlxalq münasibətlərə görə sələf dövlətin hüquq və vəzifələrinin yeni yaranan dövlətin hüquq və vəzifələri ilə fasiləli qaydada əvəzlənməsidir.

Hüquq varisliyinin həyata keçirilməsində, bu prosesdə iştirak edən dövlətlərin sayından asılı olmayaraq iki tərəf fərqləndirilir: məsuliyyətin yeni daşıyıcısının tamamilə və ya ərazinin bir hissəsi barəsində əvəz etdiyi sələf-dövlət və bu məsuliyyətin yeni daşıyıcısı olan varis-dövlət. Hüquq varisliyi hüquq və öhdəliklərin bir dövlətdən digər dövlətə keçməsini ehtiva edir. Sələf-dövlətin sükuta yetməsi zamanı onun hüquq və öhdəliklərinin bitməsi yeni yaranan dövlətin hüquq və öhdəliklərinin gündəmə gəlməsi ilə müşahidə edilir. Sələf-dövlətin qaldığı zaman isə onun hüquq və öhdəlikləri saxlanılır və yeni yaranmış dövlət heç bir keçid olmadan hüquq və öhdəliklərin sahibi olur. Hüquqi varisliyin həcmi sələf-dövlətlə vərəsə-dövlətin iradəsindən asılı olaraq müəyyənləşdirilir [3, s.219].

Hüquq varisliyinin çoxsaylı hallarından, həcmindən irəli gələrək beynəlxalq hüquqda müxtəlif nəzəriyyələr:

-tabula rasa ("təmiz vərəq") nəzəriyyəsi;

- universal hüquq varisliyi nəzəriyyəsi;

- kontinuitet (davamlılıq, fasiləsizlik) nəzəriyyəsi;

- neqativ nəzəriyyə və s. irəli sürülmüşdür.

Tabula rasa nəzəriyyəsinə görə bir qayda olaraq, müstəmləkə asılılığından qurtarılmaq üçün milli azadlıq hərəkəti ilə yaranmış yeni dövlətin sələf-dövlətin beynəlxalq öhdəlikləri ilə bağlılığı olmur. Beynəlxalq münasibətlər bütün sahələr üzrə yenidən qurulur. Universal hüquqi varislik nəzəriyyəsi isə varis-dövlətə sələf-dövlətin bütün hüquq və öhdəliklərinin keçməsini əks etdirir. Bu halda (ərazi bütövlüyü, əhali, siyasi hakimiyyət saxlanılmaq şərti ilə) sələf-dövlət varis-dövlətdə tam təsbit olunur. Əksər halda bu vəziyyət fövqəldövlətlər üçün xarakterikdir. Bu nəzəriyyəyə görə yalnız beynəlxalq müqavilələr üçün varislik nəzərdə tutulur. Bütün beynəlxalq müqavilələr üzrə tərəfdaşlıq bəyan edilir. Eləcədə müqavilələr üzrə hüquq və öhdəliklər sələf-dövlətdən varis-dövlətə keçir. Qismən bu nəzəriyyənin

praktik realizəsi olaraq Rusiya Federasiyasının SSRİ-nin bütün hüquq və öhdəlikləri üzrə "davamçısı" kimi müəyyən edilməsini göstərmək olar. Kontinuitet nəzəriyyəsi universal hüquqi varislik nəzəriyyəsinə yaxındır. Lakin kontinuitetin özü haqqında mübahisəli fikirlər var. Beynəlxalq hüquq nəzəriyyəsində kontinuitetin və hüquq varisliyinin qarşılıqlı əlaqəsinə dair fərqli yanaşmalar üstünlük təşkil edir. Professor B.Çerniçenko doğru olaraq hesab edir ki, kontinuitet və hüquqi varislik fərqli anlayışlardır [17]. Professor J.Kroufordun fikrincə dövlətin hüquq varisliyi ilə dövlətin davamlılığında ciddi fərq var: birinci halda dövlətin yerinə yeni dövlət gəlir, digər halda isə hakimiyyətin, ərazinin, əhalinin dəyişməsinə baxmayaraq əvvəlki dövlətin mövcudluğu davam edir. Bəzi hallarda dövlətin dağılması və birləşməsi zamanı yeni yaranmış dövlətlərlə yanaşı sələf-dövlətin mövcudluğunun davam etməsi zamanı dövlətlərin statusunun müəyyən edilməsində çətinliklər yaranır. Kontinuitetin təsdiqlənməsi bəzi hallarda digər dövlətlərin tanımasından da irəli gəlir. Məsələn, Avstriya və Meksika Rusiya Federasiyasını SSRİ-nin davamçısı kimi yox, yeni dövlət kimi qəbul etmişlər [22, s.25-26].

Neqativ nəzəriyyə beynəlxalq müqavilələr saxlanılmadan bir dövlətin digər dövlətlə əvəz edilməsini əks etdirir [19, s.525-558]. Müəyyən mənada tabula rasa nəzəriyyəsinə yaxındır. Lakin bu halda yalnız beynəlxalq müqavilələrə münasibət müzakirə obyekti olur. Bu nəzəriyyələr dövlətin hüquqi varislik institutunun beynəlxalq hüquqda nisbətən gec məcəlləşdirilməsi ilə bərabər, həm də bu institutun tam məcəlləşdirilməməsi ilə bağlı olmuşdur.

### Dövlətlərin hüquq varisliyi üzrə beynəlxalq-hüquq normaları

Beynəlxalq hüquq institutu olaraq dövlətlərin hüquq varisliyi beynəlxalq-hüquqi nizamlama ilə müxtəlif sahələr üzrə dövlətlərin beynəlxalq müqavilələri, dövlət mülkiyyəti, dövlət arxivləri, dövlət borcları, dövlət ərazisi, dövlət sərhədləri, beynəlxalq təşkilatlara münasibətdə, həmçinin orqanlarda üzvlük üzrə həyata keçirilir [12; 20]. Hüquq varisliyi sahəsində praktika ziddiyyətli və fərqli olmaqla bərabər eyni zamanda maraqlı tərəflərin razılaşmaları və qüvvələr nisbətindən asılı olduğundan burada ümumi qaydanın formalaşdırılması da çətindir [18, s.59]. Dövlətlərin hüquq varisliyinə aid beynəlxalq-hüquq normaları əsasən adət hüquq xarakteri daşıyır. Beynəlxalq təcrübə və presedentlər, beynəlxalq orqanların qərarları, bəzi hallarda isə dövlətin milli-hüquqi aktları da az rol oynamır. Təsadüfi deyil ki, bu sahədə məcəlləşdirmə də xüsusi nailiyyətə nail olmamışdır. Müqavilələrə münasibətdə dövlətlərin varisliyi üzrə 22 avqust 1978-ci il Vyana Konvensiyası (23 dövlət imzalayıb, 15 dövlət ratifikasiya edib, 1996-cı ildən qüvvədədir) [32] və Dövlət mülkiyyəti, arxivləri və borclarına münasibətdə dövlətlərin varisliyi üzrə 8 aprel 1983-cü il Vyana Konvensiyası [27] qəbul edilmişdir. Sonuncu Konvensiyanın qüvvəyə minməməsi, bir sıra məsələlərin (məsələn, ciddi sosial dəyişikliklər zamanı onların həllinin) təsbit edilməməsi, praktika ilə uzlaşmanın olmaması kodifikasiyanın uğurlu olmadığını göstərir. Qeyd edilən problemə baxmayaraq konvensiyalar müəyyən bir mütərəqqi inkişafı da təmin etmiş oldular. Məsələn, hər iki konvensiyanın 2-ci maddəsinin 1(b) bəndində "dövlətlərin hüquq varisliyi"nin anlayışı verilib. Konvensiyalar ümumi praktikadan deyil "xüsusi hüquq varisliyi prinsipindən" çıxış edirlər [16, s.284]. 1978-ci il Konvensiyası müqavilə öhdəliklərinin varisliyi prinsipinə əsaslanır [23, s.6, 74-96]. Bundan istisna kimi yeni müstəqil dövlətlərin müstəmləkə müqavilələri təşkil edir. Həmin ölkələrin müqavilə öhdəlikləri tabula rasa prinsipinə əsaslanır və burada da xüsusi qaydalar tətbiq edilməkdədir. 1978-ci il Konvensiyasının 17-ci maddəsi müstəqillik əldə etmiş yeni dövlətlər üçün yeni imkanlar açaraq free choice doctrine əsasında çoxtərəfli müqavilələrə qoşulmaq imkanı verir. Dövlətlərin hüquq varisliyi sərhəd müqavilələrinə,

sərhəd rejimi, həmçinin tranzit hüququ üzrə müqavilələrə toxunmur [16, s.284]. Xüsusən, insan hüquqları üzrə müqavilələrin kontinuiteti konsepsiyası üstünlük təşkil edir.

İnsan hüquqları üzrə beynəlxalq müqavilələrin əsas əlaməti ondan ibarətdir ki, bu müqavilələr müddətsiz olmaqla yanaşı müəyyən bir ərazidəki əhaliyə, həmin əhalini formalaşdıran şəxslərin hüquqlarının müdafiəsinə yönəlməsidir. Şəxsi və siyasi hüquqlar üzrə beynəlxalq müqavilələr dövlətlərin hüquqi varisliyinə də təsir etməkdədir. Beynəlxalq hüquqa (Müqavilələrə münasibətdə dövlətlərin varisliyi üzrə 1978-ci il Konvensiyasına (m.34.2)) görə yeni yaranan dövlət beynəlxalq münasibətlərə "təmiz vərəq" (tabula rasa) prinsipi ilə daxil olur. Lakin öncə ifadə etdiyimiz kimi müəyyən kateqoriya müqavilələr var ki, onların müəyyən etdiyi öhdəliklər avtomatik olaraq yeni yaranmaqda olan dövlətlərə keçmiş olur [9, s.50]. Əgər ərazi rejimini müəyyən edən müqavilələr əraziyə bağlanmaqla ərazi ilə birlikdə varis-dövlətə keçirsə, insan hüquqları haqqında müqavilələr isə müvafiq ərazidə yaşayan əhaliyə bağlanmaqla varis-dövlətə keçmiş olur və bu zaman əhalinin kimin yurisdiksiyasına keçməsindən asılı olmayaraq onlar özlərinin beynəlxalq hüquqla tanınan hüquq və azadlıqlarının beynəlxalq hüquqi müdafiəsindən məhrum edilə bilməzlər [8, s.39-40]. Bu məsələ beynəlxalq hüquq doktrinasında və dövlətlərin təcrübəsində birmənalı qəbul edilməsə də insan hüquqlarına, onların müdafiəsinə marağın artması ilə özünə daha çox əsaslar tapmaqdadır. Dövlətlərin ziddiyyətli təcrübəsini də əsas götürərək bir çox müəlliflər insan hüquqları haqqında beynəlxalq müqavilələrin hüquqi varislik məsələsində üstün mövqeyə malik olduğunu qeyd edirlər. Keçmiş Yuqoslaviya, Sovetlər, Çexoslovakiya, Honkonq və d. ölkələrin timsalında beynəlxalq orqanların, məhkəmə qurumlarının bu sahədə pozitiv mövqeyi əsas götürülərək insan hüquqları haqqında beynəlxalq müqavilələrin kontinuitetinə istinad edilir [25, s.493; 28, s.84; 29, s.357; 26, s.190-191]. Hələ 1992-ci ildə İnsan Hüquqları Komitəsi keçmiş Yuqoslaviya ərazisində yeni yaranmış dövlətlərə - Xorvatiya, Bosniya-Herseqovina və (Serbiya və Monteneqrodan ibarət olan) Yuqoslaviya Federativ Respublikasına mülki və siyasi hüquqların gözlənilməsi səviyyəsilə bağlı hesabatlarını təqdim etmələri üçün müraciət etmişdi. İnsan Hüquqları Komitəsi Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt üzrə keçmiş Yuqoslaviyanın götürdüyü öhdəliyə istinad edərək bildirmişdir ki, varis dövlətlər tərəfindən insan hüquqları haqqında beynəlxalq müqavilələri tətbiq etməyəcəkləri, həmçinin keçmiş Yuqoslaviya ərazisindəki əhalinin insan hüquqları üzrə beynəlxalq sazişlərin üstünlüklərindən yararlana bilməyəcəkləri kimi təəssürat üçün əsas yoxdur [21, s.3]. Sonradan müvafiq dövlətlər Komitənin müraciətinə müsbət münasibət bildirməklə həyata keçirilmiş insan hüquqlarının kütləvi pozuntusunun təhqiqinə də razılıq vermişlər. Komitə tərəfindən oxşar mövqe postsovet dövlətlərinə münasibətdə də ifadə edilmişdir. Komitə bildirmişdir ki, bu dövlətlər müstəqillik əldə etdikləri andan Pakt müddəaları ilə öhdəlik daşıyırlar [31, s.49]. Postsovet dövlətlərindən Azərbaycan Respublikası Pakta 21 iyul 1992-ci ildə qoşulmuş və 1994-cü ildə özünün ilk hesabatını Komitəyə təqdim edərkən bildirmişdir ki, müstəqillik əldə etdikdən sonra Pakta qoşulma anına kimi ərazisində baş vermiş bütün hadisələrə görə məsuliyyət daşımağa hazırdır. Azərbaycan Respublikasının ilkin hesabatına dair yekun ümumiləşdirmədə narahatlıq doğuran hallardan biri də milli qanunvericilik və Paktın tələbləri arasında kolliziyaların olması idi [2]. Azərbaycan Respublikası öz qanunvericiliyini beynəlxalq öhdəliklərinə uyğunlaşdırmağa çalışması Komitə tərəfindən də qiymətləndirilmişdir.

Azərbaycan Respublikası bir tərəfdən insan hüquqları müqavilələrinin spesifik xüsusiyyətlərini qəbul etmiş, digər tərəfdən isə bu spesifikliyin hələ də ümumi təcrübəyə (adətə) çevrilmədiyini göstərmişdir. Məlum olduğu kimi Azərbaycan Sovet Sosialist Respublika-

sının da təsisçisi olduğu SSRİ Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Paktın iştirakçısı olmuşdur. Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Aktının 4-cü maddəsində qeyd edilirdi ki, SSRİ-nin iştirakçısı olduğu beynəlxalq müqavilələr onun müstəqilliyinə və suverenliyinə zidd olmadıq-ca Azərbaycan Respublikasında tətbiq edilə bilər [15, s.87]. Lakin professor L.Q.Hüseynov qeyd edir ki, müstəqillikdən sonra Azərbaycan Respublikasının Pakta qoşulana kimi ölkə ərazisində baş vermiş hadisələrə görə öhdəlik götürməsi aktını Pakt üzrə öhdəliyin "varislənməsi"ndən çox susmaqla tanınması kimi qiymətləndirilə bilər [8, s.47]. İnsan hüquqları haqqında beynəlxalq müqavilələrin kontinuitetindən bəhs edərkən qeyd etməliyik ki, bu sahədə nə qədər fərqli mövqelər olsa da inkişaf tendensiyaları insan hüquqlarına hörmət etmək prinsipinə doğru getməkdədir. Dövlət suverenliyi insan hüquqlarına hörmət etmək prinsipinə münasibətdə qəbul edilməkdədir. Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində deyildiyi kimi "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir" (I) fikri dövlət suverenliyin təyinatını göstərir [4, s.71-72; 7, s.18]. Həmin maddənin II hissəsində "Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilməsi" də Azərbaycan Respublikasının insan hüquqları üzrə beynəlxalq öhdəliklərə münasibətdə formal siyasi kursunu göstərir. Yəni burada söhbət "varislik"dən gedərsə yalnız sosial anlamda varislik mümkündür. Professor L.Hüseynovla razılaşaraq qeyd edilməlidir ki, işğal altında olmuş (Sovet Azərbaycanın) ərazinin beynəlxalq münasibətlərə görə hüquq və vəzifələri yeni yaranmış (Azərbaycan Respublikasının) ərazinin hüquq və vəzifələri ilə tam fərqli həcmdə olmuşdur. Buna görə də burada varislik şərti olaraq qəbul edilməlidir.

Mülki və siyasi hüquqlar üzrə beynəlxalq müqavilələrin adət hüquq norması kimi tanınması da qəbul edilməkdə olan faktdır. İnsan hüquqlarına hörmət etmək prinsipinin beynəlxalq hüququn ümumi prinsiplərindən ən əhəmiyyətlisi kimi tanınması [24, s.166], insan hüquqları və əsas azadlıqların təmin edilməsinin dövlətin ali məqsədi olaraq qəbul edilməsi digər dövlətlərin də hüquq sistemləri üçün xarakterik haldır. Prof. L.Hüseynov qeyd edir ki, hazırda insan hüquqları haqqında beynəlxalq müqavilələrə də spesifik kontinuitet (fasiləsizlik-müəll.) verən, onların xüsusi təbiətini nəzərə alan yeni beynəlxalq adət-hüquq normasının yaranmasının şahidinə çevrilirik [8, s.39]. İnsan hüquqları üzrə beynəlxalq müqavilə öhdəliklərinin sosial varislik qaydasında, yəni qarşılıqlı razılaşma əsasında deyil, birbaşa olaraq yeni yaranan "varis" dövlətə keçməsi beynəlxalq hüququn yeni inkişaf tendensiyasıdır.

İnsan hüquqları üzrə beynəlxalq müqavilələrin kontiuniteti "tabula rasa"nı üstələməkdədir. Dövlətlərin parçalanması, birləşməsi, yenidən yaranması insan hüquqları haqqında müqavilələrin kontinuitetinə, onların universallıq və təbii hüquq başlanğıcı konsepsiyasına xələl gətirməməlidir. Yeni yaranan dövlətlər ən azından universal beynəlxalq təşkilatlarda, məsələn BMT çərçivəsində Nizamnaməyə bağlılıqla insan hüquqlarına hörmət etmək kimi öhdəlik götürüblər [30, s.193]. BMT-nin əsas məqsədləri beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, xalqların hüquq bərabərliyi və öz müqəddəratını təyinetmə prinsiplərini rəhbər tutaraq millətlər arasında dostluq münasibətlərini inkişaf etdirmək, iqtisadi, sosial, mədəni və humanitar xarakterli problemlərin həllində beynəlxalq əməkdaşlığı həyata keçirməklə (m.1.1; 1.2) bərabər 1.3 maddəsinə görə Təşkilatın bütün üzvlərin üzərinə cinsindən, dilindən və dinindən asılı olmayaraq hamı üçün insan hüquqlarını və əsas azadlıqlarını təşviq və inkişaf etdirmək (kurs – müəll.) öhdəliyi qoyur [10, s.458; 11, s.99]. Bu maddə artıq adət normasıdır. Dövlətlərin necə yara-

dılmasından asılı olmayaraq fəaliyyətdədir. Yəni sosial və ya insani varislik (human succession) beynəlxalq ümumi hüququn qaydasını təşkil etməkdədir.

Dövlətlərin hüquq varisliyi ilə bağlı aktual məsələlərdən biri də vətəndaşlığın tənzimlənməsidir. Beynəlxalq hüquq Komissiyası 1993-cü ildən bu məsələ üzrə çalışmağa başlamışdır. 1999-cu ildə BMT Baş Məclisinə təqdim etdiyi "Dövlətlərin hüquq varisliyi ilə bağlı fiziki şəxslərin vətəndaşlığı üzrə" maddələr Layihəsində dövlətlərin dağılması, birləşməsi, ərazisinin bir hissəsinin verilməsi hallarında vətəndaşlığın tənzimlənməsi müddəaları əks olunur. Dövlətlərin varisliyi zamanı vətəndaşlığın tənzimlənməsində: hər kəsin vətəndaşlıq hüququ; vətəndaşsızlığın istisnası; vətəndaşlığın seçilməsində iradə azadlığına hörmət; ailənin vahidliyi və s. prinsiplərin gözlənilməsi öhdəliyi təsbit edilib.

Vətəndaşlıq haqqında 1997-ci il Avropa Konvensiyasında da dövlətlərin varisliyinin vətəndaşlığın əldə edilməsi və itirilməsi məsələlərində fundamental hüquqların gözlənilməsi tələbi əks olunub. Qeyd olunur ki, hər bir dövlət varislik zamanı vətəndaşlığın verilməsi və saxlanılması üzrə qərar qəbul edərkən: şəxsin müvafiq dövlətlə effektiv əlaqələrinin mövcudluğunu; varislik zamanı şəxsin daimi yaşayış yerini; şəxsin iradəsini və s. nəzərə almalıdır. Konvensiyada beynəlxalq hüquqi baxımdan yenilik qeyri-vətəndaşlarla bağlıdır. Varis-dövlətə keçən ərazidə daimi yaşayan sələf-dövlətin vətəndaşları, yeni vətəndaşlığı qəbul etmədikləri halda da varis-dövlətin ərazisində qalmaqla varis-dövlətin vətəndaşları ilə bərabər sosial-iqtisadi hüquqlar əldə edirlər.

**Nəticə**

Beynəlxalq hüquq institutu kimi dövlətlərin varisliyi dövlətlərin beynəlxalq müqavilələri, dövlət mülkiyyəti, dövlət arxivləri, dövlət borcları, dövlət ərazisi, beynəlxalq təşkilatlara münasibət üzrə beynəlxalq-hüquqi tənzimetməni təmin edir. Lakin bu sahədə praktika ziddiyyətli və fərqli olmaqla bərabər eyni zamanda maraqlı tərəflərin razılaşmaları və qüvvələr nisbətindən asılıdır. Buna görə də dövlətlərin hüquq varisliyində ümumi qaydanın formalaşdırılması qeyri-mümkün olmuşdur. Xüsusən də vətəndaşlıq, o cümlədən insan hüquqları üzrə beynəlxalq müqavilələrə münasibətdə kontiunitet konsepsiyası üstünlük təşkil etməkdədir. Buna baxmayaraq dövlətlərin varisliyi məsələlərinin həllində bu müqavilələr əhəmiyyətli yol formalaşdırmış, hamılıqla qəbul edilmiş təcrübəni əks etdirən bir sıra mühüm müddəalar bərqərar edilmişdir. Bu müqavilələrin kodifikasiya etdiyi əsas prinsipə görə varislik məsələləri maraqlı dövlətlər arasında konkret hallara uyğun razılaşmalarla həll edilə bilər. Müvafiq normalar adekvat tənzimetmə nəzərdə tutmadığı halda isə varislik ümumi beynəlxalq hüquq normaları ilə tənzim edilməlidir. Hər hansı ərazi təcavüzə və ya işğala məruz qalmışsa varislik problemi gündəmə gəlməyəcək.

**Ədəbiyyat:**


1. Azərbaycan tarixi,7 cilddə, V cild (1900-1920-ci illər). Bakı: Elm 2001, 672s.
2. Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti. 2004-cü il üzrə illik məruzənin qısa icmalı. Bakı. 2005, 174s.
3. Beynəlxalq hüquq. Dərslik /Ümumi hissə/ Bakı: Ləman Nəşriyyat Poliqrafiya MMC, 2018, 420s.
4. Əliyev Ə. İ. Azərbaycan Respublikasında Konstitusiya şikayəti institutu insan hüquq və azadlıqlarının təmin edilməsinin mühüm vasitəsi kimi / Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin məlumatı. Xüsusi buraxılış. Bakı, 2015, s.68-79
5. Rəhimli S. İnsan hüquqları komitəsi: nəzəri və praktiki problemlər. Dərs vəsaiti. Bakı: "Bakı Universiteti nəşriyyatı", 2019, 424 s.
6. Абашидзе А.Х., Гликман О.В. Международно-правовое признание и правопреемство государств //Международное право /под ред.А.Н. Вылегжанина. М.: Юрайт, 2015. 290 с.
7. Гусейнов Л. Г. Конституция Азербайджанской Республики, права человека и международное право // Beynəlxalq hüquq, 1998, №1, с.16-46
8. Гусейнов Л. Г. Международные обязательства государств в области прав человека. – Баку: издательство «Hüquq ədəbiyyatı», 1998. 188с.
9. Даниленко Г. М., Чарни Дж. И. Создание международного права и согласие государств // Вне конфронтации. Международное право в период после холодной войны: Сборник статей. / Отв. ред. Л. Демрот, Г. Даниленко. М.: Международные отношения. 1996. с.49-61
10. Зимненко Б. Л. Международное право и правовая система Российской Федерации. Особенная часть: Курс лекций. М.: Российская академия правосудия; Статут, 2010, 543с.
11. Зимненко Б.Л. Согласование норм внутригосударственного и международного права в правовой системе России /МЖМП. 2000, №4, с. 95-103
12. Коннова Е.В. Преждевременное признание нового государства. Некоторые теоретические аспекты // Журнал международного права и международных отношений.2007. № 4,elib.bsu.by
13. Курс международного права. Издание 2-е, переработанное и дополненное, отв.ред. Ф.И.Кожевников, М.: Международные отношения, 1966, 648 с.
14. Лукашук И.И. Международное право. Общая часть. Учебник, М.: Издательство БЕК.1996,371с.
15. Самедов М.Н. Имплементация международно-правовых норм в пределах юрисдикции государств. Баку. Елм ва Хаят 2002, 156с.
16. Хайльброннер Кай. Государство и индивид как субъекты международного права // Международное право. Völkeerecht/ Вольфганг Граф Витцтум и др. М.: Инфотропик Медиа. 2011, 992с.
17. Черниченко С.В. Является ли Россия продолжателем или правопреемником СССР?// Белый мир. www.whiteworld.ru
18. Черниченко С.В. Теория международного права. В 2-х томах. Том 2: Старые и новые теоретические проблемы, М.: Издательство «НИМП», 1999, 531 с.
19. Beato Andrew M. Newly Independent and separating States Succession to Treaties: Considerations on the Hybrid Dependency of the Republics of the Former Soviet Union. American University International Law Review 9, No.2 (1994). p.525-558
20. Brownlie I. Recognition in theory and practice // The British Yearbook of International law, Volume53, Issue 1, 1982, pages 197-211

21. CCPR/C/SR.1178/Add.1. p.3
22. Crawford James, The Creation of States in International Law, Oxford University Press. SECOND EDITION, (2006). 870 p.
23. Dumberry P. An Uncharted Question of State Succession//Are New States Automatically Bound by the BITs Concluded by Predecessor States Before Independence? Journal of International Dispute Settlement, 2015, p. 6,74-96
24. International Human Rights in Context: Law, Polities, Morals (H. J. Steiner and P. Alston eds.). Oxford. 2006, 779 p.
25. Mullerson R. The Continuity and Succession of States, by Reference to the Former USSR and Yugoslavia / International and Comparative Law Quarterly. 1993, vol.42, p.493-510
26. Mushkat R. Hong Kong and Succession of Treaties / International and Comparative Law Quarterly. 1997, vol.46, p.190-191
27. Official Records of the UN Conference on Succession of States in Respect of State property, Archives and Debts, vol. II (United Nations publication, Sales No.E.94.V.6
28. Shaw M.N. State Succession Revisited / Finnish Yearbook of International law.1994,vol.5, p.84-89
29. Simma B. From Bilateralism to Community Interest in International Law / Recueil des Cours, 1994-VI. Vol.250, 557 p.
30. Simma B. International Law and General International Law. A Comparative Analysis // Collected Courses of the Academy of European Law. – 2013. vol. IV. Book 2. p.155-236
31. UN Doc /A/49/40, vol. II, XI, Y, p.49
32. Vienna Convention on succession of States in respect of treaties. UN Treaty Series. 2013-07-26. Retrieved 2013-07-26.

***Açar sözlər:*** *hüquq varisliyi, beynəlxalq-hüquqi tənzimetmə sferası, beynəlxalq müqavilələr, insan hüquqları, beynəlxalq hüquq normaları*

**Saftar Rahimli**
*Baku State University,*
*Department of UNESCO for Human Rights and Information Law*
*Ph.D. in Law*

# THE LEGAL SUCCESSION OF THE STATE: THEORETICAL AND PRACTICAL ASPECTS

## ABSTRACT

The paper examines the concept, theories, and legal basis of the succession of states. It indicates the sphere of international legal regulation of the institution of the succession of states and the areas to which it does not apply. The author notes that the practice in this area is contradictory and different but, at the same time, depends on the stakeholders' agreements and the balance of power. Therefore, it was impossible to form a general rule in the legal succession of states. In particular, the concept of continuity prevails in relation to international treaties on citizenship, including human rights. Nevertheless, these agreements have formed an important way of resolving the issue of succession of states, and a number of important provisions have been established that reflect the generally accepted practice. According to the basic principle codified by these treaties, issues of succession can be resolved by agreements between the interested states in accordance with the specific circumstances. If the relevant norms do not provide for adequate regulation, the succession must be governed by the norms of general international law. Unless the relevant aspects provide for adequate regulation, succession must be governed by the norms of general international law.

***Keywords:*** *rule of law, sphere of international legal regulation, international treaties, human rights, norms of international law*

**Сафтар Рагимли**
*Преподаватель кафедры ЮНЕСКО по правам человека и информационному праву Бакинского Государственного Университета, доктор философии по праву*

## ПРАВОВОЕ ПРАВОПРЕЕМСТВО ГОСУДАРСТВА: ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ АСПЕКТЫ

### РЕЗЮМЕ

В статье исследуется понятие, теории и правовые основы правопреемственности государств. Указывается сфера международно-правового регулирования института правопреемства государств и сферы, на которые он не распространяется. Отмечается, что практика в этой сфере являясь противоречивой и разной, в то же время зависит от договоренностей заинтересованных сторон и баланса сил. Поэтому сформировать общее правило в правопреемстве государств было невозможно. В частности, продолжает преобладать концепция преемственности в отношении международных договоров о гражданстве, включая права человека. Тем не менее, эти соглашения сформировали важный путь в решении вопроса о правопреемстве государств, и был установлен ряд важных положений, отражающих общепринятую практику. Согласно основному принципу, закрепленному этими договорами, вопросы правопреемства могут решаться путем соглашений между заинтересованными государствами в соответствии с конкретными обстоятельствами. Если соответствующие нормы не предусматривают адекватного регулирования, правопреемство должно регулироваться нормами общего международного права.

***Ключевые слова:*** *правопреемство, сфера международно-правового регулирования, международные договоры, права человека, нормы международного права*

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR
# INTERNATIONAL RELATIONS

UOT 327(091); UOT 327(4/9)

**NƏSRİN SÜLEYMANLI**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının Beynəlxalq münasibətlər və**
**xarici siyasət kafedrasının dosent əvəzi, siyasi elmlər üzrə fəlsəfə doktoru**
*e-mail: nsdia.edu@gmail.com*

## ERMƏNİ MİLLƏTÇİLİYİNİN TARİXİ

Təxminən XIX əsrin sonlarından başlayaraq dövrümüzə qədər müxtəlif vaxtlarda Osmanlı Türkiyəsində və Cənubi Qafqazda baş verən erməni millətçi təcavüzkarlıq faktlarını nəzərdən keçirərkən onların arasında bir metodoloji oxşarlıq olduğunu görmək mümkündür. Başqa sözlə, uzun illər ərzində ermənilər tərəfindən həyata keçirilən təcavüzkarlıq aktlarının hansı niyyətlə başlanmasında, necə başlamasında və hansı vasitələrdən istifadə edilməsində açıq erməni dəsti-xətti vardır. Bir tərəfdən bu təbiidir. Çünki erməni millətçi təcavüzkarlığının mahiyyətində dayanan niyyətlər tarixən ifratlığı ilə seçilib və onların reallaşdırılmasında da bir tarixi təcrübə formalaşmışdır. Qarşıya qoyulan niyyətlərin ifratlığı və istisnalığı həmin təcrübənin əsasını təşkil edir və erməni millətçiləri həmin ifrat niyyətlərindən əl çəkməyincə bu tarixi təcrübənin inkişaf edəcəyi və tarixi ənənənin davam etdiriləcəyi də gözləniləndir.

İlkin təhlillər əsasında həmin tarixi ənənəçiliyin üç istiqamət üzərində qurulması qənaətinə gəlmək olar. Onlar: 1) erməni ifrat millətçiliyi; 2) erməni terroru və 3) erməni təbliğatıdır. Ola bilsin ki, tarixin qeyd olunan kəsiyində baş verən erməni təcavüzkarlığı zamanı bu məsələlər öz qoyuluşunun əhatə dairəsi, istifadə olunan vasitələrin miqyası və ümumən icrası zamanı müəyyən fərqliliklər özünü göstərə bilər. Lakin Dağlıq Qarabağ münaqişəsinin mənzərəsi bir daha göstərdi ki, erməni təcavüzkarlığı tarixi ənənəçiliyini qoruyub saxlamaqdadır.

Erməni təcavüzkarlığının aparıcı xətlərini təşkil edən ənənəvi məsələlərin öyrənilməsi ilə həm erməni təcavüzkarlığını əhatə dairəsini proqnozlaşdırmaq olar, həm də bu təcavüzün qarşısının alınması üçün müvafiq siyasət formalaşdırmaq olar.

Əslində, erməni təbliğatı erməni millətçiliyinin ifadəsinin əsas vasitələrindən biridir və ona görə də erməni millətçi-təcavüzkarlığının təşəkkül tapdığı ilk gündən uyğun informasiya-təbliğat işlərinin qurulmasına xüsusi diqqət yetirilir. Bunu XIX əsrin ikinci yarısında Avropada erməni məsələsinin gündəliyə gətirildiyi dövrdən də görmək mümkündür. Bu prosesdə erməni təbliğatının genişləndirilməsi erməni millətçi-təcavüzünün fəallaşmasının ilkin mərhələsi kimi özünü göstərir. Tarixdən məlumdur ki, hələ 1885-ci ildə, yəni Osmanlı Türkiyəsi ərazisində erməni millətçi təcavüzkarlığının qanlı səhifəsi açılmamışdan əvvəl Avropada və Amerikada erməni millətçi təbliğatının genişlənməsi baş verdi. Yerli ermənilər və eləcə də bura axışmaqda olan ermənilər Avropanın və Amerikanın diqqətini özlərinə cəlb etmək üçün orada təşkilatlar yaratdılar, qəzet və jurnallar təsis etdilər, müxtəlif tədbirlər keçirdilər. Təsis olunmuş mətbuat orqanları bir tərəfdən ermənilərin tarixi, digər tərəfdən də Osmanlı Türkiyəsinin ermənilərə qarşı "dözülməz" siyasəti haqqında yazılarla dolduruldu, Avropa və Amerikanın siyasi dairələrində, ictimai fikrində erməni məsələsinin şişirdilməsinə təkan verildi (1). Bu təbliğatın genişləndirilməsi ilə fəaliyyətin sonrakı mərhələsi üçün Avropada zəmin yaradılmaqla bərabər, həm də Avropanın dəstəyinin qazanılmasına cəhd göstərildi.

Dağlıq Qarabağ münaqişəsinin başlanğıcında da, gedişatında da, hətta 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə belə oxşar mərhələdən keçdiyi göz qarşısındadır. Məhz millətçi təbliğatın genişləndirilməsi Dağlıq Qarabağ ətrafında daha ciddi proseslərə keçilməsinin başlanğıcı oldu. Bunun nəticəsində problem kifayət qədər aktuallaşdırıldı, millətçi ruh ümumerməni psixozuna çevrildi, dünya erməni birliyi və bu birliyin havadarları hərəkətə gətirildi. Problem dərinləşdikcə təbliğat işlərinə diqqət xüsusilə artırıldı. Bu problem fonunda yaranmaqda olan millətçi erməni təşkilatları erməniliyi də səfərbər etmək üçün əl atdıqları əsas vasitə də məhz təbliğatının erməni maraqları üzərində qurulması oldu.

Birinci Dünya Müharibəsi illərində və Rusiyanın dağılması dövründə bölgədə və ətrafında yenidən partlayan erməni millətçi qırğınları da kifayət qədər informasiya-təbliğat təminatına malik idi. Bunun üçün erməni millətçiləri və konkret olaraq erməni millətçilərinin əsas təmsilçisi olan Daşnaksütyun partiyası tərəfindən konkret işlər görülürdü. Daşnaksütyun partiyasının 1907-ci ildə keçirilmiş 4-cü qurultayından sonra yerlərdə xüsusi təbliğatçılar xumbası təşkil edildi, böyük şəhərlərdə mədəni-təşviqat cəmiyyətləri, mətbuat təşkilatları yaradıldı. Adları çəkilən qurumlar ictimai-mədəni qurumlar adı altında hakimiyyət orqanlarının razılığı ilə açılsa da əsas məqsədləri məhz erməniləri türklərə və azərbaycanlılara qarşı milli qırğınlara hazırlamaq idi (2).

1905-ci ildə Qarabağda və Azərbaycanın digər ərazilərində başlamış erməni-müsəlman qırğınlarını araşdıran B.F.Mayevski yazırdı ki, erməni millətçi təcavüzkarlığının qızışdırılmasında erməni mətbuatının xüsusi rolu vardır. Bu mətbuatın qeyri-vicdani fəaliyyəti nəticəsində erməni xalqı erməni təbliğatçılarının oyunlarından baş aça bilmədilər. Məhz mətbuatın fəaliyyətinin nəticəsində ermənilərin əməlləri haqqında həqiqətlər qalın yalan qatı ilə örtüldü, mətbuat xalqın iradəsinin ifadəçisinə çevrilmədi. Müəllifə görə, bu və ya digər fikrin və ideyanın mətbuata çıxarılması və oxuculara çatdırılması elə də qorxulu deyildi. Lakin mətbuata həqiqətlə əlaqəsi olmayan faktlar, məqalələr və fikirlər çıxarılırsa və oxucuların da bu qondarma faktları qəbul etməkdən başqa bir seçimi qalmırsa, bu, təbliğat üçün qorxulu haldır. Cəmiyyət mütəmadi olaraq eyni fikir və ideyalarla qarşılaşmalı olursa və cəmiyyətin əhval-ruhiyyəsi də bu ruhda köklənməli olurdusa, onda yalan da həqiqət kimi qəbul oluna bilərdi. Erməni xalqı da məhz belə bir seçimlə üz-üzə qalaraq dezinformasiyaların ağırlığına dözməli olmuşdu. V.F.Mayevski daha sonra əlavə edirdi ki, son illər ərzində erməni mətbuatında erməni millətçilərinin proqramı ilə səsləşməyən yazılara rast gəlmək mümkün deyildi. Başqa sözlə erməni mətbuatı elə bir nəzarət altına alınmışdı ki, orada erməni təcavüzkar-millətçi ideyaları ilə səsləşməyən yazılar özünə yer tapa bilməzdi. Müəllifin fikrincə, erməni məsələsi haqqında erməni mətbuatında yalan və qızışdırıcı ideyaların geniş təbliğ edilməsi, bütünlükdə erməni xalqının düşüncəsini zəhərləmiş və erməniləri doğru yoldan azdırmışdı. Bu isə ermənilər arasında anarxiyaya, sonsuz bədbəxtliklərə yol açmışdı (3).

V.F.Mayevskinin sonrakı müxtəsər təsvirləri də Dağlıq Qarabağ ətrafında aparılan erməni millətçi təbliğatını çox xatırladır. Onun yazdığına görə, XIX əsrin sonlarında erməni təbliğatçılarının öz yurddaşlarının Osmanlı Türkiyəsində dözülməz şəraitdə olmaları barədə təbliğat aparmalarının nə dərəcədə doğru olmasından çoxlarının xəbəri yox idi. Bu halda ermənilərin milli təəssübkeşlik hissləri aparılan ermənipərəst təbliğata inanmağa sövq edirdi. Mövcud həqiqətlər haqqında məlumatların mətbuata çıxarılması imkanı isə yox idi. Gizli erməni təşkilatları onların niyyətlərinə uyğun gəlməyən yazıların və məlumatların açıqlanmasının qarşısını qə-tiyyətlə alırdılar. Bunun üçün onlar qətiyyətli addımlara da əl atırdılar. Erməni millət-çilərinin siyasəti və təbliğatı ilə razılaşmayanları və buna qarşı açıq etiraz edənlər ciddi cəzalar gözləyə bilərdi. Başqa sözlə, sadə ermənilərin

millətçi ideyalara qarşı çıxmaq hüququ yox idi. Ona görə, müəllif bu qənaətə gəlirdi ki, sadə erməni camaatı erməni millətçi təbliğat maşınının terroruna məruz qalmışdı (4).

1918-ci ildə Qarabağda baş verən erməni təcavüzkarlıqlarını yaxından izləyən ingilis jurnalisti Skotland Liddel də bildirirdi ki, ermənilər dünyada ən yaxşı təbliğatçıdırlar. Bu səviyyəyə onlar birdən-birə deyil, bir neçə illər ərzində əldə etdikləri təcrübə ilə gələ bilmişdilər. Düzdür, müəllif ermənilərin mənəvi keyfiyyətlərinin də qonşu xalqların nifrətinə səbəb olduğunu qeyd edirdi. O əlavə edirdi ki, Avropa və bütün dünya onların təbliğatına inanır. İngilis jurnalisti Qarabağda baş verən bütün bəlaların kökünün məhz erməni millətçi təbliğatının nəticələri ilə əlaqələndirirdi. Müəllifin fikrincə, ermənilər və azərbaycanlılar dinc həyatlarını davam etdirməyə hazırdırlar. Lakin erməni təbliğatçıları buna imkan vermirlər. Erməni təbliğatçılarının təxribatçı fəaliyyəti bu iki xalqın arasına qırğınlar salmışdır. Bu təxribatçı və qızışdırıcı təbliğatın genişləndirilməsində isə Liddel erməni qəzetlərinin saxta məlumatlarla qızışdırıcılıq fəaliyyəti aparmasının əsas rol oynadığını və belə təxribatların elə ermənilərin özlərinə də fayda gətirmədiyini yazırdı (5).

İstər XIX əsrin sonlarında, istərsə 1905–07-ci illərdə Qarabağda milli qırğınların başlanmasında, istərsə də Dağlıq Qarabağ münaqişəsinin başlanmasında və onun təbliğatının qurulmasında da oxşar ssenarini müşahidə etmək mümkündür. İlk növbədə antiazərbaycan və antitürk təbliğatının başlanmasının erməni klassik dəsti-xətti bu hadisələrdə də özünü göstərməkdədir. Bunu erməni təcavüzkarlığının mahiyyətini araşdıran tədqiqatçılar da təsdiq edirlər. Həmin klassik dəsti-xətt ondan ibarətdir ki, erməni millətçiləri geniş təbliğat hay-küyünün yaradılması üçün ilk növbədə öz soydaşlarını müəyyən şəraitdə qurban verirlər və bununla da əməli fəaliyyətə keçmək üçün bu erməni əzabkeş "qurbanlardan" təbliğat materialı kimi istifadə etməyə başlayırlar.

Amerikalı alimlər Castin Makkarti və Karolin Makkarti XIX əsrin sonlarında Osmanlı Türkiyəsi ərazisində baş verən erməni qırğınlarının tarixini araşdıraraq ermənilərin belə bir ssenariyə tez-tez əl atdıqlarını müəyyənləşdirmişdilər. Ermənilər anlayırdılar ki, avropalıların diqqətini özlərinə cəlb etmədən hər hansı bir nəticəyə nail ola bilməyəcəklər. Bunun üçün isə erməni millətçiləri ilkin olaraq erməni əhalisinin azlıq təşkil etdiyi məntəqələri seçir və həmin məntəqələrdə müsəlman əhalinin üzərinə hücum çəkir və çoxlu fəlakətlər törədirdilər. Bu zaman erməni millətçiləri bilirdilər ki, qəzəblənən yerli əhali qonşuluğunda olan ermənilərdən qisas almağa çalışacaq və azlıqda olan erməni əhali bu qisasın qarşısını almağa gücü çatmayacaqdı. Nəticədə yerli ermənilər itki verməli olacaqdı ki, erməni millətçilərinə də elə bu lazım idi. Bununla da erməni əhalisinə qarşı milli qırğınlar törədilməsi, ermənilərin təcavüzə məruz qalması, köməksiz ermənilərin qırılması və müsəlmanların vəhşilikləri haqqında informasiya təbliğat kampaniyası başlanırdı (6).

Ermənilərin bu dəsti-xəttə malik olmasını digər müəlliflər də təsdiq edirlər. Məsələn, bildirilir ki, XIX əsrin sonlarında və XX əsrin əvvəllərində erməni daşnakları tərəfindən həyata keçirilən qırğınlar zamanı erməni silahlıları bu və ya digər yaşayış məntəqəsinə daxil olaraq bombalar partladır, silahlarını işə salır, müsəlman əhalinin nümayəndələrini qətlə yetirir, sonra da aradan çıxırdılar. Erməni qiyamçılarının bu vəhşiliklərinin cəzasını isə yerli erməni əhalisi çəkməli olurdu. Qeyd olunurdu ki, oxşar dəst-xətt Zaqafqaziyada da təkrar olunurdu (7).

İngilis jurnalisti Skotland Liddel də qeyd edirdi ki, müsəlmanlar üzərinə hücum edən ermənilər onların qisas ilə rastlaşırdılar və sonra da təbliğat kampaniyasına başlamaqla "məzlum" ermənilərə dəstək və rəğbət qazanılmasına cəhd göstərirdilər (8).

1988-ci ilin fevral ayının sonlarında Sumqayıtda yaradılmış iğtişaşlar da yuxarıda haqqında danışılan klassik erməni dəst-xəttinin

təzahürüdür. Dağlıq Qarabağın Azərbaycandan qoparılması istiqamətində dünya ictimaiyyətinin, Avropa və Amerika siyasi qüvvələrinin diqqətini və dəstəyini cəlb etmək üçün erməni millətçiləri belə bir təxribata və ardınca da geniş antiazərbaycan təbliğatına əl atdılar.

Çirkin niyyətlərinə nail olmaq üçün erməni millətçiləri azərbaycanlılar arasında yaşayan öz soydaşlarını qurban verməkdən çəkinmədilər. Milləyyətcə erməni olan Eduard Qriqoryan Sumqayıtda həyata keçirilən qarışıqlıqlar zamanı şəxsən 5 ermənini qətlə yetirmiş, bir-neçə erməni xanımını isə kütlə qarşısında zorlamışdı (9).

Sumqayıt hadisələrinin baş verməsi ilə Azərbaycana qarşı total şəkildə informasiya-təbliğat müharibəsi başladı. Erməni millətçiləri, erməni kilsəsi və erməni diasporu bütün potensialını antiazərbaycan təbliğatının genişləndirilməsinə istiqamətləndirdi. Bu təbliğatın əsas məzmununu da "əzabkeş" ermənilərin Azərbaycanda qırğınlara məruz qalması, ermənilərin azərbaycanlılarla birgə yaşayışının mümkün olmaması, Dağlıq Qarabağın Azərbaycandan qoparılmasının zəruriliyi, Dağlıq Qarabağda erməni milli-azadlıq hərəkatının boğulması və s. kimi cəfəng fikirlər təşkil edirdilər Başqa sözlə böyük təbliğat kampaniyasına bəhanə əldə etmək üçün öz soydaşlarını qırğına vermək ənənəsi müasir dövrdə də erməni millətçilərinin güvəndiyi etibarlı metodlardan biri oldu.

Qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində Qarabağda milli zəmində qırğınların başlanması üçün də ermənilər bu metoddan istifadə etmişdilər. Məlumdur ki, 1905-ci ilin avqust ayının 16-da bir dəstə erməni silahlısı Şuşanın İrəvan darvazası həndəvərində bir ermənini qətlə yetirdilər. Sonra da onun meyitini erməni məhəlləsinə sürüyərək böyük hay-küy qaldırdılar, dad-fəryad qopararaq ermənilərə qarşı kütləvi hücumların başlandığını öz soydaşlarının beyninə yeritməyə başladılar. Bununla erməni millətçiləri Şuşanın erməni məhəlləsində aləmi bir-birinə vurdular və müsəlman əhaliyə qarşı qırğınlara başladılar (10).

Şuşa şəhərində erməni millətçiləri tərəfindən başlanan qırğınların ikinci mərhələsi 1906-cı ilin iyul ayına təsadüf edir. Yeni qırğınların başlanması üçün ermənilər hərtərəfli hazırlıq görsələr də, bəhanə kimi yenə sınanmış metoda əl atdılar. Bu dəfə də onlar bir ermənini qətlə yetirərək meyidini azərbaycanlılar yaşayan məhəlləyə atdılar. Sonra da məlum ssenari üzrə erməni təbliğatı, hay-küyü geniş vüsət aldı və azərbaycanlıların qırılması üçün ictimai-psixoloji fon yaradıldı (11).

Erməni millətçiləri öz klassik metodu ilə başladıqları milli qırğınları arzusunda olduqları nəticələrlə başa vurmadıqda belə, ondan məharətlə öz təbliğatları üçün istifadə edirdilər. İngilis jurnalisti S.Liddel haqlı olaraq qeyd edirdi ki, bu zaman ermənilər bir tərəfdən, ümumiyyətlə bir etnik toplum kimi təzyiqlərə, təqiblərə məruz qaldıqları haqqında hay-küy qaldırır, bir tərəfdən də öz millətçiliklərinin qurbanı olan erməni itkilərindən təbliğat kamnpaniyasının aparılmasında istifadə edirdilər. S.Liddel çox dəqiqliklə müşahidə edə bilmişdi ki, öldürülmüş erməni millətçi erməni təbliğatı üçün çox qiymətli təbliğat materialıdır. O əlavə edirdi ki, məsələyə lazım olan kimi yanaşıldığı təqdirdə erməni ölüsü erməni təbliğatının aparılmasına çox böyük fayda verə bilər. Onun bu qənaətini Qafqaz İslam Ordusunun komandanı olmuş Nuru paşa da bölüşürdü. Nuru paşa da qeyd edirdi ki, müxtəlif şəraitdə dünyasını dəyişmiş olan ermənidən az qala təzyiqlər nəticəsində öldürülmüş erməni kimi istifadə olunurdu (12).

Görmək çətin deyil ki, bu təcrübə bütünlüklə Dağlıq Qarabağ müstəvisinə də keçirilmişdir. 1988-ci ildən başlayaraq ermənilərin və onların havadarlarının kütləvi informasiya vasitələrində Dağlıq Qarabağ ermənilərinin sıxışdırılması, təzyiqlərə məruz qalması haqqında yüzlərlə material görmək mümkündür. Hadisələrin elə ilk günlərindən Dağlıq Qarabağ ermənilərinin silahlandırılması və azərbaycanlı əhaliyə qarşı zor işlədilməsi məlum faktdır. Lakin bu qeyri-qanuni silahlanmaya və qeyri-qanuni silahlı qurumların fəaliyyətinə qarşı göstərilən hər bir müqavimət

də ermənilərin sıxışdırılması, onların təqib edilməsi kimi dəyərləndirilirdi. Baxmayaraq ki, məhz qeyri-qanuni erməni silahlı dəstələrinin tərksilah edilməsi üçün 1990-cu il iyul ayının 25-də SSRİ prezidenti tərəfindən "SSRİ qanunvericiliyində nəzərdə tutulmamış silahlı dəstələrin yaradılmasını qadağan etmək və qanunsuz silah saxlandığı halda onu geri almaq haqqında" fərman imzaladı. Onun icrası ilə bağlı 1991-ci ilin aprelində Xanlar rayonunun Çaykənd kəndində həyata keçirilən təmizləmə əməliyyatı ermənilər qarşı təzyiq və təqib kimi böyük hay-küyə səbəb oldu. Yalnız internetdə "Koltso" əməliyyatı üçün axtarış verməklə erməni təbliğatının məhsulu olan yüzlərlə belə yazıya rast gəlmək mümkündür (13).

Hələ 1906-cı ildə V.Mayevski ötən 15-18 il ərzində erməni qəzetlərində, mətbuat səhifələrində, erməni təbliğatçılarının çıxışlarında səslənən mövzuları ümumiləşdirərək onların daha çox aşağıdakı istiqamətlərdə qruplaşdırılması qənaətinə gəlmişdi:

1) Ermənilər Türkiyə rejiminin ağır yükü altında zülm çəkməsi haqqında erməni təbliğatı;

2) Rusiya hakimiyyətinin dözülməz ədalətsizliyi nəticəsində ermənilərin Rusiyada da zülmə məruz qalması haqqında erməni təbliğatı. Guya məhz buna görə də ermənilərin öz mədəni həyat maraqlarını qorumaq məcburiyyətində qalıblar ki, heç olmasa hakimiyyətlə açıq mübarizədə özlərinə insan kimi yaşamaq hüququnu mətin etsinlər (14).

Bir əsrdən də çox bundan qabaq söylənmiş bu fikirlər erməni təbliğatının bugünkü mahiyyətini doğru əks etdirir. Həmin fikirlərdə Türkiyə və Rusiya yerinə Azərbaycan sözü yazılsa, onların hazırkı dövrdə erməni təbliğatının tarixi ənənələr üzərində qurulduğunu görmək mümkündür. Başqa sözlə erməni millətçi təbliğatının sınanmış ənənələri yeni şəraitdə də erməni millətçilərinin xidmətindədir.

V.Mayevski öz əsərində erməni təbliğatının yuxarıdakı iddialarının doğru olub-olmadığına da toxunur və bildirir ki, bu heç də belə deyildir. Çünki nədənsə yalnız erməni təbliğatçıları və onların çağırılmamış himayədarları ermənilərin sıxışdırılması, milli təzyiqlərə məruz qalması haqqında yazırlar. V.F.Mayevskinin çox dəqiqliklə müşahidə etdiyi bu mənzərə Dağlıq Qarabağ münaqişəsinin timsalında eynilə təkrar olunmaqdadır. Azərbaycan ərazisində nədənsə yalnız ermənilər etnik təcavüzə məruz qaldığı barədə hay-küy qaldırırlar, halbuki Ermənistan ərazisində yaşayan azərbaycanlıların da belə bir öz yurdlarında dinc yaşamağa haqları var idi. Amma ağlasığmaz vəhşiliklərlə onların yurdlarından qovulması nəticəsində Ermənistan hazırda monoetnik bir ölkəyə çevrilmişdir. Təəssüf ki, Ermənistanda yaranmış bu mənzərə dünya ictimaiyyəti tərəfindən müşahidə olunmur. Əvəzində isə Azərbaycan aparılmış erməni təbliğatlarından sonra haqsız təzyiqlərə məruz qalır. Bu istiqamətdə lazımi işlərin aparılması üçün ermənilərin kifayət qədər himayədarları da vardır. Məsələn, İngiltərədə Baronessa Koks kimi, Amerikada Barbara Bokser və Robert Menendez, Rusiyada Vladimir Kazimirov, Polşada Adam Mixnik və digərləri.

V.F.Mayevski əsərində erməni təbliğatı ilə bağlı öz fikirlərini davam etdirərək bildirir ki, erməni mətbuatının və təbliğatının belə bir mövqe tutmasının nə dərəcədə saxta və yalan olduğunu geniş araşdırmaq niyyəti yoxdur. Amma müəllif belə bir məqamı xüsusi olaraq vurğulayırdı ki, erməni məsələsi ətrafında yalanlar yaymaqla erməni milləti özü də bu yalanlara inanmalı olmuşdur, bu yalanlar ermənilərin zəkasını kütləşdirmiş, yüzlərlə və minlərlə ermənini faydalı işlərdən qoparılaraq anarxiya yoluna, erməni kəndliləri üçün bədbəxtlik gətirən ənənələrin girdabına atmasıdır.

Gürcü yazıçısı İ.Çavçavadze XX əsrin əvvəllərində qonşu xalqların tarixinin mənimsənilməsi üzərində qurulmuş erməni təbliğatını belə qiymətləndirirdi: "...Erməni tarixçiləri yenə də çərənləyir və heç vaxt yaşamadıqları yerin sakinləri olurdular. Məgər aydın deyil ki, dayaz alimlər dünyanı inandırmaq istəyirlər ki, guya bu yerləri tutmağa onların tarixi haqqı

var?... Bəlkə erməni alimlərinin gördükləri yuxular həqiqətdir və ola bilir ki, həmin ölkələr həqiqətən də onlara məxsus olub. Biz yalnız fikirlərini həyata keçirmək üçün erməni kitabsevərlərinin necə məharətlə və bicliklə yeritdiklkərini göstərmək istəyirik. Belə hallarda onlar hər şeyi özlərinə aid etməklə və özgəninkini gizlədəndə heç nədən iyrənmirlər. Əgər bütün bu Yeritsovları, Xudabaşovları, Eminiovları və onlar kimilərini təzədən oxusanız görərsiniz ki, onlar öz fikirlərini və tədqiqatlarını qızıl qiymətinə qiymətləndirirlər, başqalarınınkını isə onların xeyrinə deyilsə bir quruşa da almırlar. Həmin erməni dəstəsi tarixi faktları təhrif etməklə kifayətlənmir, onlar özgə həqiqətini gizlədir, öz yalanlarını isə həqiqət kimi car çəkirlər" (15).

Erməni təbliğatının bu ənənəsi bu gün erməni millətçiləri tərəfindən davam etdirilir. Bəlkə onun davam etdirilməsi üçün daha yeni və ciddi resurslar cəlb edilir. XX əsrin əvvəllərindən başlayaraq bu günə kimi Azərbaycanın və Cənubi Qafqazın digər bölgələrinə olan iddialar kimi, Dağlıq Qarabağa da olan iddiaların əsaslandırılması, onun dünya ictimai fikrinə yeridilməsi üçün saxtalaşdırılmış təbliğatın aparılması, erməni millətçilərinin fəaliyyətində geniş yer tutur. Bu məsələdə akademik tədqiqatçılıqla informasiya təbliğatı bir-birini tamamlayırlar və elektron informasiya vasitələrinin inkişaf etdiyi bir vaxtda bu sahələrin arasında bir sərhəd qoymaq da çətinləşir. Bütünlükdə isə bölgənin tarixinin özününküləşdirilməsi ilə erməni millətçiləri bir tərəfdən Dağlıq Qarabağın tarixi erməni torpağı olduğunu, digər tərəfdən də ermənilərin xeyli qədim bir etnos olduğunu və ona görə də onların Dağlıq Qarabağa tarixi haqqı olduğunu car çəkməyə çalışırlar. Son illərin kütləvi informasiya vasitələrində bu mövzuda erməni təbliğatçıların ictimai mühakiməyə çıxardıqları materialların sayını da müəyyənləşdirmək xeyli çətindir. Həqiqət naminə söyləmək lazımdır ki, erməni diasporu və ermənilərin havadarları tərəfindən də əməli şəkildə dəstəklənən bu kampaniyada erməni təbliğatçıları daha fəaldırlar.

Saxtalaşdırılmış tarixin təbliği ənənəsi hazırda ermənilərin həyatında elə bir əhəmiyyətə malikdir ki, ondan üz döndərilməsi erməniliyin mahiyyətini tamamilə dəyişə bilər. Əslində, saxtalaşdırılmış tarixin təbliği, o cümlədən həmin saxta təbliğatın məhsulu olan "Böyük Ermənistan", "soyqırım", türkçülüyə qarşı qan düşmənçiliyi erməniləri birləşdirən əsas dəyərlər olaraq özünü göstərməkdədir.

Vaxt ötdükcə Ermənistan nəinki bölgədə, hətta dünya miqyasında təklənməkdə davam edir. Bu isə o deməkdir ki, erməni separatçı-millətçiliyinin Azərbaycan xalqının haqlı ira-dəsi qarşısında işğalçılığından və millətçi-separatizmindən geri çəkilməli olduğu zaman erməni millətçiliyinin tarixi göstərir ki, bu qüvvələr başlarına gələnlərdən düzgün dərs çıxarmağı bacarmırlar. Ona görə, Dağlıq Qarabağ münaqişəsi ədalətli şəkildə həll olunandan sonra da bu məsələ ətrafında erməni təbliğatçılıq ənənələrinin yeni çalarlarının təzahürü özünü artıq göstərməkdədir.

**Ədəbiyyat:**


1. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990, s.154
2. Дашнаки. Баку, 1990, с.16-17
3. Маевский В.Ф. Армяно-татарская смута на Кавказе как один из фазисов Армянского вопроса. Баку, 1993, с.36-38.
4. Маевский В.Ф. Армяно-татарская смута на Кавказе как один из фазисов Армянского вопроса. Баку, 1993, с.36-38.
5. Скотланд Лиддел. Армяно-татарское соглашение. Наступление мира на Карабахе. http://karabakh-doc.azerall.info/ru/arxdoc/ ad020.htm
6. Маккарти Джастин, Маккарти Каролин. Тюрки и армяне. Баку,1996, с.56
7. Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı, 1990, s.156
8. Скотланд Лиддел. Война с мусуль-манами. Армяне опять нападают. http://karabakh-doc.azerall.info/ru/arxdoc/ad023.htm
9. Sumqayıt hadisələri. http://az.wikipedia.org/wiki/Sumqay%C4%B1t_hadis%C9%99l%C9%99ri_(1988)
10. Fəna M.R. 1905-ci il hadisəsi. Bakı, 2009, s.13
11. Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı, 1993, s.28
12. Скотланд Лиддел. Война с мусульманами. Армяне опять нападают. http://karabakh-doc.azerall.info/ru/arxdoc/ad023.htm
13. Операция "Кольцо". www.karabagh.am/GlavTom/110kolco.htm; Депортация населения армянских сел НКАО и прилегающих районов. Апрель-июнь 1991. http://sumgait.info/ring/seda-vermishheva/karabakh.deportation-1.htm ; Операция "Кольцо". http://artsakwebcombat.am/forum/forumdisplay.php?f=86 ;Операция "Кольцо". Ru.wikipedia.org/wiki/операция_колцо_1991
14. Маевский В.Ф. Армяно-татарская смута на Кавказе как один из фазисов Армянского вопроса. Баку, 1993, с.
15. Çavçavadze İlya. Erməni alimləri və fəryad edən daşlar. Bakı, 1995, s.12


***Açar sözlər:*** *erməni ifrat millətçiliyi, erməni terroru, erməni təbliğatı, Cənubi Qafqaz*

**Nasrin Suleymanlı**
*Associate Professor, Department of International Relations and Foreign Policy,*
*The Academy of Public Administration under the President of the Republic of Azerbaijan,*
*Ph.D. in Political Science*

## HISTORY OF ARMENIAN NATIONALISM

## ABSTRACT

Analyzing the facts of Armenian nationalist aggression in Ottoman Turkey and the South Caucasus at different times from the end of the 19th century to the present day, methodological similarities are observed. In other words, for many years there was an open trace of Armenians' intentions in how and by what means the acts of aggression were carried out. On the one hand, this is natural because the intentions at the heart of the Armenian nationalist aggression have historically

been characterized by extremism. A historical experience has been formed in their implementation. The extremeness and exclusivity of the intentions are the basis of this practice. It is expected that this historical practice will develop, and the historical tradition will continue until the Armenian nationalists give up these extreme intentions.

Based on the preliminary analysis, it can be concluded that this historical tradition is based on three directions: 1) Armenian extremism, 2) Armenian terror, and 3) Armenian propaganda. It is possible that during the Armenian aggression in the given historical period, these issues manifested differently in terms of the scope of their application, the scale of the means used, and the implementation in general. However, the picture of the Nagorno-Karabakh conflict once again showed that the Armenian aggression preserves its historical tradition.

***Keywords:*** *Armenian extremist nationalism, Armenian terror, Armenian propaganda, South Caucasus*

**Несрин Сулейманлы**
*И.о. доцента кафедры Международных отношений и внешней политики*
*Академии Государственного Управления*
*при Президенте Азербайджанской Республики,*
*доктор философии по политическим наукам*

## ИСТОРИЯ АРМЯНСКОГО НАЦИОНАЛИЗМА

## РЕЗЮМЕ

Рассматривая факты армянской националистической агрессии в Османской Турции и на Южном Кавказе в разное время, начиная с конца XIX века до наших дней, между ними можно увидеть методологическое сходство. Иными словами, имеется открытая армянская линия какими намерениями, как и какими средствами были инициированы осуществляемые армянами на протяжении многих лет акты агрессии. С одной стороны, это естественно. Потому что намерения, лежащие в основе армянской националистической агрессии, исторически характеризовались экстремизмом, и в их реализации сформировался исторический опыт. Чрезвычайность и исключительность намерений являются основой этой практики, и ожидается, что эта историческая практика будет развиваться и историческая традиция будет продолжаться до тех пор, пока армянские националисты не откажутся от этих крайних намерений.

На основе предварительного анализа можно сделать вывод, что в основе этой исторической традиции лежат три направления: крайний армянский национализм, армянский террор и армянская пропаганда. Не исключено, что во время армянской агрессии в этот исторический период данные вопросы могут показать некоторые различия в масштабах своего вложения, масштабах используемых средств и реализации в целом. Однако картина конфликта между Арменией и Азербайджаном ещё раз показала, что армянская агрессия сохраняет свою историческую традицию.

***Ключевые слова:*** *армянский экстремистский национализм, армянский террор, армянская пропаганда, Южный Кавказ*

# İ Q T İ S A D İ Y Y A T
# E C O N O M Y

UOT 336.77

**ZİVƏR ZEYNALOVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının İqtisadiyyatın dövlət tənzimlənməsi**
**kafedrasının dosent əvəzi, iqtisad üzrə fəlsəfə doktoru**
*e-mail: zivarzz@mail.ru*

## İQTİSADİYYATA KREDİT QOYULUŞLARINDA MÖVCUD VƏZİYYƏTİN TƏHLİLİ

**Giriş**

Kredit təşkilatları iqtisadiyyatda özünün əsas rollarını yerinə yetirərək, ictimaiyyətin vəsaitləri üçün təhlükəsiz sığınacaq təmin edir və bu vəsaitləri iqtisadiyyatı qurmaq, habelə inkişafını təmin etmək üçün kreditləri məhsuldar sahələrə yönəldir [4]. Davamlı iqtisadi artımın təmin edilməsi üçün sahibkarlıq fəaliyyəti ilə bağlı ehtiyaclarla yanaşı, istehlaka da kreditlərin ayrılması vacibdir [6]. İqtisadiyyatda kredit təşkilatları tərəfindən verilən kreditin ümumi həcmi, habelə onun sektorlar, sahələr, regionlar və s. üzrə bölgüsü ölkə iqtisadiyyatının inkişafı haqqında bir çox məlumat verir [3, 7].

Belə ki, bu göstərici həmin sektorun, regionun və ya sahənin ümumi iqtisadiyyatdakı əhəmiyyətini göstərir və inkişaf dinamikasını müəyyənləşdirməyə kömək edir. Başqa sözlə, bir sahədə nə qədər çox kreditdən istifadə edilərsə, o sektorun iqtisadi fəaliyyəti bir o qədər aktiv olar və investisiyalar həmin sahəyə daha çox axın edər. Bu dinamikanın analizi isə ölkə iqtisadiyyatının daha şaxəli inkişafı üçün optimal siyasətin formalaşmasına imkan yaradır. Bu məqsədlə məqalədə müxtəlif istiqamətlər üzrə Azərbaycan iqtisadiyyatına qoyulan kredit qoyuluşlarının dinamikası öyrənilmişdir.

**1. Bank sistemi bir xidmət sektoru kimi**

Azərbaycanda bank sistemi günümüzdə ən çox istifadə edilən xidmət sahələrindən biridir. Azərbaycanda 2019-cu ilin sonunda 30 bank fəaliyyət göstərmişdir, 2020-ci ilin sonundan etibarən onların sayı 26-ya enmişdir. 2020-ci ildə 4 bankın lisenziyası ləğv edilmişdir. Ölkədə olan ümumi bankların 2-si dövlət, 24-ü isə özəl bankdır [5].

31 dekabr 2021-ci il tarixinə ölkədə fəaliyyət göstərən 26 bankın sahib olduğu filialların sayı 479 olmuşdur. Onların 97 şöbəsi, 2907 ədəd ATM-lərin mövcud olmuşdur. Bu zaman fəaliyyətdə olmuş bankların ümumi aktivləri 38,462.2 mln. AZN təşkil etmişdir. Bankların cəmi öhdəlikləri isə 33,492.9 mln. AZN-ə çatmışdır. 4,969.3 mln. manat balans kapitalına çatmışdır. 2022-ci ilin əvvəlində bank sektorunda ümumi aktivlər, ümumi öhdəliklər, həmçinin də balans kapitalı uyğun olaraq 20 faiz, 22,4 faiz və 5,7 faiz yüksəlmişdir. Kredit portfelinə nəzər saldıqda ümumi aktivlərin 43,3 faizini bankların kredit portfeli təşkil etdiyi görülür. Ölkədə bankların kredit portfelinin dinamikasındakı artım cari dövrdə də müşahidə edilmişdir. Belə ki, 2022-ci ilin ilk ayında ölkədə əməliyyat aparan bankların sahib olduğu kredit portfelinin dəyəri 2,502.1 mln. manat həcmində yüksəlmiş, yəni 17.7% artmışdır və 16,659.1 mln. AZN-ə çatmışdır [1].

Azərbaycanda banklar iqtisadiyyata əhəmiyyətli dərəcədə kredit qoyurlar (Cədvəl 1). 2012-ci ildən kredit qoyuluşlarının cəmi dəyəri 12243.7 mln.manat olmuşdur. Bu rəqəm

**Cədvəl 1.** Kredit təşkilatları üzrə iqtisadiyyata kredit qoyuluşları

| İl | Cəmi kredit qoyuluşları | Dövlət bankları | | Özəl banklar | | Qeyri-bank kredit təşkilatları | |
|---|---|---|---|---|---|---|---|
| | | mln. manat | xüsusi çəkisi, % | mln. manat | xüsusi çəkisi, % | mln. manat | xüsusi çəkisi, % |
| 2012 | 12243.7 | 4137.1 | 33,8 | 7785.5 | 63,6 | 321.1 | 2,6 |
| 2013 | 15422.9 | 5300.4 | 34,4 | 9689.4 | 62,8 | 433.1 | 2,8 |
| 2014 | 18542.6 | 6143.8 | 33,1 | 11873.6 | 64,0 | 525.2 | 2,8 |
| 2015 | 21730.4 | 7289.3 | 33,6 | 13875.2 | 63,8 | 566.0 | 2,6 |
| 2016 | 16444.6 | 5749.2 | 35,0 | 10222.0 | 62,2 | 473.4 | 2,9 |
| 2017 | 11757.8 | 1916.2 | 16,3 | 9421.4 | 80,1 | 420.2 | 3,6 |
| 2018 | 13020.3 | 2098.4 | 16,1 | 10529.8 | 80,9 | 392.0 | 3,0 |
| 2019 | 15298.2 | 2561.5 | 16,7 | 12339.4 | 80,7 | 397.2 | 2,6 |
| 2020 | 14530.4 | 2776.5 | 19,1 | 11380.5 | 78,3 | 373.4 | 2,6 |
| 2021 | 17119.8 | 3333.0 | 19,5 | 13326.1 | 77,8 | 460.7 | 2,7 |

Mənbə: Statistik Bülleten 12/2021, Azərbaycan Respublikasının Mərkəzi Bankı, s.16

2021-ci ildə 17119.8 mln.manata çatmışdır. Ümumi artımın olmasına baxmayaraq, qeyd edilməlidir ki, bəzi bankların lisenziyasının ləğv edilməsi nəticəsində bankların təklif etdiyi kreditlərin həcmi də azalmışdır. İqtisadiyyata qoyulan kreditlərin 2012-ci ildə 33,8%-i dövlət banklarının və 63,6%-i isə özəl bankların, 2,6%-i qeyri-bank kredit təşkilatlarının hesabına təmin edilmişdir. Növbəti illərdə qeyri-bank kredit təşkilatlarının verilən kreditlərdə xüsusi çəkisi diqqətədəyər səviyyədə dəyişməsə də digər bankların çəkisində dəyişiklik müşahidə edilmişdir. Bu göstəricilər növbəti illərlə müqayisə edildikdə, 2017-ci ildən etibarən dövlət banklarının xüsusi çəkisinin azaldığı müşahidə edilmişdir. Belə ki, 2017-ci ildə kreditlərin 16,3%-i dövlət banklarının və 80,1%-i özəl bankların, 3,6% qeyri-bank kredit təşkilatlarının hesabına təmin edilmişdir.

Cədvəl 1 göstərir ki, 2021-ci ildə bu tendensiya davam etmiş, yəni özəl banklar öz əhəmiyyətini qoruyaraq, iqtisadiyyata daha çox kredit yönəltmişdir. 2021-ci ildə cəmi kreditlərin, yəni 17119.8 mln. manatın böyük hissəsini özəl banklar kredit olaraq vermişdir. 2021-ci ildə bu göstəricilər dövlət bankları üçün 19,5%, 77,8 özəl banklar üçün, 2,7% isə qeyri-bank kredit təşkilatları üçün qeydə alınmışdır. 2020-ci ildə bəzi bankların ("Atabank" ASC, "AGBank" ASC, "NBCBank" ASC və "Amrahbank") lisenziyasının bağlandığını nəzərə alaraq demək olar ki, bu göstərici bir qədər aşağı düşmüşdür. Belə ki, 2018-ci ildə özəl bankların verilən kreditlərdə xüsusi çəkisi 80,9%-ə yüksəldiyi halda, 2021-ci ildə 80%-in altına düşmüşdür. Digər tərəfdən, bankların özlərində tutmalı olduğu məcmu kapitalın həcmi qanunvericilik tərəfindən təyin edilmiş ən aşağı həddən daha az olduqda, onda bu bankların apardıqları cari fəaliyyətləri daha etibarlı və prudensial formada həyata keçirmədikləri düşünülür. Bu səbəbdən də "Atabank" ASC-nın və "Amrah Bank" ASC-nin lisenziyalarını əlindən alınmışdır. Çünki qeyd edilən banklar belə banklardan hesab edilmiş və onların bank sektorunda sahib olduqları aktivlərdə çəkisi 2,1% faiz

hesablanmışdır. Bu bankların kredit portfelində həcmi isə 3%-ə bərabər olmuşdur (https://www.bakupost.az/azerbaycanda-bu-banklar-baglandi-resmi-aciqlama).

**2. Sahələr üzrə kredit qoyuluşları**

Ölkədə kredit qoyuluşları sahələr üzrə həm illərə görə, həm də sahələr arasında fərqli olmuşdur. Belə ki, 2013-cü ildə 15422.9 mln. manat olan ümumi məbləğ 2017-ci ildə 11757.8 mln. manata düşmüşdür. Daha sonra 2019-cu ildə 15298.2 mln. manata yüksələn kredit məbləği, 2021-ci ildə isə 17119.8 mln. manata çatmışdır.

Real sektora kredit qoyuluşlarının həcmi hər sahə üzrə illərə görə dəyişmişdir. Ən böyük payı ev təsərrüfatlarına qoyuluşlar təşkil etmişdir. Məsələn, 2013-cü ildə 40.3%-lə ilk sırada olan ev təsərrüfatlarına qoyuluşlar, ikinci yeri 15.3%-lə inşaat və tikinti sektoru, 14.4%-lə ticarət və xidmət sektoru tutmuşdur. Digər sektorlarda fəaliyyət göstərən dövlət mülkiyyətində olan hüquqi şəxslər, bələdiyyələr və ictimai təşkilatlara isə heç kredit verilməmişdir (Cədvəl 2).

Cədvəl 2-dən görüldüyü kimi, 2013-cü ildən 2021-ci ilə qədər sahələrin payı

**Cədvəl 2.** Kredit qoyuluşlarının sahələr üzrə dinamikası

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Cəmi (mln.manat) | 15422,9 | 18542,6 | 21730,4 | 16444,6 | 11757,8 | 13020,3 | 15298,2 | 14530,4 | 17119,8 |
| Ticarət və xidmət sektoru, %-lə | 14,4 | 14,5 | 14,5 | 15 | 17,6 | 18,3 | 16,3 | 17,9 | 17,5 |
| Mədənçıxarma və elektrik enerjisi, qaz, buxar və su təsərrüfatı sektoru, %-lə | 1,9 | 1,1 | 1,5 | 3,6 | 2,7 | 3,2 | 4 | 3,6 | 4,4 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sektoru, %-lə | 4,8 | 4,6 | 2,3 | 2,7 | 3,7 | 3,6 | 3,6 | 3,9 | 3,5 |
In contrast to the Asian countries mentioned, the US has failed to take the lead in “global vaccine diplomacy” at the initial stages of the pandemic. Perhaps this is due to the fact that the US, like many other developed countries, including European ones, primarily focused on vaccinating its own population, rather than providing humanitarian aid to other countries. By the end of 2021, the US has also strengthened its position in donating vaccines. Thus, as of October 2021, the United States has donated more than 200 million doses [31].

On the one hand, the humanitarian component of the provision of vaccines (“vaccine diplomacy”) should be mentioned, on the other hand, the economic one. Thus, according to some estimates, the sale of vaccines brought more than $100 billion to manufacturing countries in 2020-2021. However, the geopolitical role should be also noted. For example, China actively used “vaccine diplomacy” within the Belt and Road Initiative (BRI) to strengthen bilateral economic and political cooperation with other countries [32, p. 5]. Moreover, China and the US had some competitive activity that was especially felt in Latin America, where both countries tried to develop diplomatic ties with countries of the region using “vaccine diplomacy”. It is obvious that both vaccine and GH diplomacy have political aspects, in particular, the strengthening of counties’ influence in the regions of interest.

Vaccines are the basis of modern health diplomacy. Although various non-communicable diseases are significant from the point of view of public health, they do not pose such a threat to the security of the state as infectious ones. In cases where there is no proven effective treatment for the disease, vaccines become the only control tool. Accordingly, obtaining vaccines and launching mass vaccination programs is becoming a matter of strategic importance from the point of view of national security and domestic policy of the state. First, from a political point of view, the population is one of the main attributes of statehood. Therefore, its protection is paramount. Secondly, at this stage of human development, we have not yet reached the scale of digitalization when society could exist without human control. The state cannot allow massive morbidity among the staff of public authorities - in the army, in police, among officials, etc. That is why, against the background of the coronavirus pandemic, vaccines have acquired such important political importance. Therefore, vaccines purchase can be considered a kind of basis for modern diplomacy in the field of medicine/healthcare. COVID-19 is an example of how precisely due to the timely steps of politicians and economic resources, some states (especially high-income ones) could provide their population with vaccines in a timely manner.

In the example of vaccines, the role of politics became obvious, since it is not the competence of doctors to conduct interstate negotiations on the purchase of vaccines (unless they serve as politicians), and in modern conditions, no matter how strange it may seem, global health is a sphere of politics and not of medicine. From a foreign policy point of view, states bounded by various treaties and obligations faced the need to balance them to ensure the protection of their population. In this regard, the example of a pandemic has shown the interdependence of policy and health issues also in the context of the discipline of international relations. Since in global issues, ensuring the safety of public health is possible only in conditions of political cooperation, mutual assistance, and dialogue. In this context, healthcare, or ensuring the safety of the nation's health, goes beyond the purely medical paradigm and begins to acquire a political sense. That is why in modern international relations, health can be considered “a political choice” [33].

**Differences between the COVID-19 and previous pandemics**

The coronavirus pandemic has had some distinguishing features from previous pandemics. If we compare the times of previous pandemics and the current time, then significant changes in life itself should be noted. For example, the "Spanish flu" (A(H1N1) virus) that occurred in the early 20th century is said to result in about 50 million deaths. As of October 2021, COVID-19 has claimed more than 4,9 million deaths. First is a significant difference in the level of scientific and medical development. Thus, vaccines against COVID-19 were developed in less than a year, which was impossible in the 20th century. Second, the availability of the Internet and other well-developed communications allowed countries to quickly exchange information, including regarding the virus itself and its treatment. Moreover, now each of us can buy masks, sanitizers and other means of protection in a pharmacy, which was not possible in the past century.

If we do not talk about purely medical, social or economic, we can also note political differences. The first difference is, for example, the creation of the global ACT (Access to COVID-19 Tools) Initiative, aimed at implementing the fastest, most coordinated and successful efforts to develop tools to combat the disease. ACT also launched another initiative, COVAX, created to ensure equal access to COVID-19 vaccines, led by the Vaccine Alliance, the Coalition for Epidemic Preparedness Innovations and the WHO.

For example, against the background of the 2003 epidemic, it was further decided to update and expand the International Health Regulations (IHR), which was implemented in 2005 [34]. As part of the updated document, the obligations of individual states and the leading role of WHO in the context of declaring emergencies of global significance were established. However, unfortunately, this document proved to be ineffective against the background of the COVID-19 pandemic, so now global leaders are faced with the question: is it worth improving the IHR? Creating new mechanisms for implementing its provisions? or adopting a new pandemic treaty? Another aspect worth noting is the scale of the involvement of political processes amid COVID-19. Issues related to the production and distribution of vaccines have previously been explored in the scientific literature, but have now received maximum political attention.

During the coronavirus pandemic, the world community faced global restrictions that have not been introduced before. Vaccination status or "COVID-19" passports appeared for the first time, and international meetings of organizations such as the UN and numerous other events were held online. For example, in Azerbaijan [35, p. 507], for the first time, a large proportion of working people were transferred to remote work (work from home via the Internet). Restrictive measures (lockdowns) on such a large/global scale have been never applied before, neither in Azerbaijan nor in other countries.

**Conclusion**

The pandemic, being a medical phenomenon, actually showed the shortcomings of international relations in the field of health. Intergovernmental organizations, including WHO, had to find balance. On the one hand, they are accountable to the states that are represented. On the other hand, they have an independent structure and to some extent are independent, which creates a contradiction in the implementation of practical tasks at the international level. WHO, as a specialized international organization, has shown a lack of leadership in coordinating the work of countries in extraordinary conditions, such as a pandemic. Thus, countries demanded from the WHO "an impartial, independent and comprehensive assessment" of the international response to the disease and investigation of its causes. However, the

organization did not take decisive and timely action in this regard.

From the point of view of the future, the pandemic has revealed many shortcomings in the system of international relations, and, in particular, the ability to quickly respond in the event of unforeseen large-scale situations. Thus, the well-known politician B. Franklin spoke about preventive measures in relation to fires: “An ounce of prevention is worth a pound of cure”. From the point of view of the stable functioning of the state, disease prevention is extremely important. Without decisive and swift government intervention, the consequences of a pandemic could be unpredictable.

The COVID-19 pandemic showed that global health in crisis situations can have significant economic consequences and become the subject of policy action. However, we believe that it is still too early to talk about an effective legal instrument since even if it is adopted, its implementation at this stage is hardly possible. First, even without a comparative analysis, the difference in the level of economic development between states is obvious. How will countries be financed to implement unified strategies? Will there be sanctions for non-compliance? Secondly, the various legislations of the countries, each of which has its own specifics. Without the unification of standards in the field of national health systems, it is difficult to implement uniform measures to prevent the spread of infections. In addition, the main factor, we believe, is the national interests of states, which are often contradictory. We have seen this in the case of vaccine distribution, when countries have sought to acquire vaccines, leaving many, especially low-income ones, without access to them.

Assessing the performance of governments and the international community is not only a subject of discussion, but also an important predictive tool. The timely development and equitable global access to diagnostics, medicines and vaccines, which emerged as the pandemic's most important ethical issues, revealed vulnerabilities in the global health system. The coronavirus pandemic, unprecedented in its scale, has clearly demonstrated the lack of readiness to confront such global challenges. The mentioned problems affect not only the issues of infectious diseases, but also other modern threats to humanity, such as the development of biotechnology, and so on. Governments can learn from the mistakes made during the pandemic and adjust domestic and global responses to potential threats to create better mechanisms of their solution.

**References:**


1. In face of global health crisis, “vaccine nationalism” is worrisome - Azerbaijani president: [Electronic resource] / Trend news agency, - July 13, 2021. URL: https://en.trend.az/azerbaijan/politics/3454647.html
2. High-level segment: ministerial meeting of the high-level political forum on sustainable development, convened under the auspices of the Economic and Social Council // 6-15 July 2021. - New York: UN Economic and Social Council, - 2021. - 18 p.
3. Drezner, D.W. The song remains the same: International relations after COVID-19 // International Organization, - 2020. 74 (S1), - pp. E18-E35.
4. Lipscy, P.Y. COVID-19 and the Politics of Crisis // International Organization, – 2020. 74 (S1), – p. E98-E127.
5. Daddow, O. International Relations Theory / O.Daddow. - London: SAGE, - 2017. - 336 p.
6. Spinder, M. International Relations / M.Spinder. - Berlin: Barbara Budrich Publishers, - 2013. - 232 p.
7. Regulation (EU) 2021/522 of the European Parliament and of the Council of 24 March 2021 establishing a Programme for the Union’s action in the field of health (‘EU4Health Programme’) for the period 2021-2027, and repealing Regulation (EU) No 282/2014 (Text with EEA relevance): [Electronic resource] / Official website of the European Union, - March 24, 2021. URL: https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=uriserv:OJ.L_.2021.107.01.0001.01.ENG
8. Commission welcomes entry into force of EU4Health programme: [Electronic resource] / European Commission. - 26 March 2021. URL: https://ec.europa.eu/commission/presscorner/detail/en/ip_21_1344
9. Interinstitutional File: 2020/0102(COD) // adopted 16 October 2020. - Brussels: Council of the European Union, - 2020. - 65 p.
10. Herszenhorn, D.M. Leaders join Charles Michel’s push for pandemic treaty: [Electronic resource] / Politico. - 30 March 2021. URL: https://www.politico.eu/article/leaders-join-charles-michels-push-for-pandemic-treaty/
11. Governance snapshot: whole-of-society approach / WHO Regional Office for Europe. - Copenhagen: WHO, - 2019. - 4p.
12. Zero Draft Report of the Member States Working Group on Strengthening WHO Preparedness for and Response to Health Emergencies to the special session of the World Health Assembly: [Electronic resource] / WHO. - 28 October 2021. URL: https://apps.who.int/gb/wgpr/pdf_files/wgpr4/A_WGPR4_3-en.pdf
13. G7 Carbis Bay Progress Report / G7 Accountability Working Group (AWG). - 2021. - 95 p.
14. Woo, G. Rapid Pandemic Risk Response: The Carbis Bay Declaration: [Electronic resource] / A Moody's Analytic Company, - June 09, 2021. URL: https://www.rms.com/blog/2021/07/09/rapid-pandemic-risk-response-the-carbis-bay-declaration
15. G7 Leaders to Agree Landmark Global Health Declaration: [Electronic resource] / Gov.uk, - June 12, 2021. URL: https://www.gov.uk/government/news/g7-leaders-to-agree-landmark-global-health-declaration-12-june-2021
16. 100 Days Mission to Respond to Future Pandemic Threats Assembly: [Electronic resource] / UK Cabinet Office. - 12 June 2021. URL: https://www.gov.uk/government/publications/100-days-mission-torespond-to-future-pandemic-threats
17. M8 Alliance Declaration: From Words to Action World Health Summit: [Electronic

resource] / World Health Summit. - 26 October 2021. URL: https://d1wjxwc5zmlmv4.cloudfront.net/fileadmin/user_upload/4_Documents/4.13_2021/4.13.1_M8_Alliance/M8_Alliance_Declaration_World_Health_Summit_2021.pdf
18. Boylan, B.M., McBeath J., Wang B. US–China relations: Nationalism, the trade war, and COVID-19 // Fudan Journal of the Humanities and Social Sciences. – 2021, 14 (1), – p. 23-40.
19. Fidler, D.P. The covid-19 Pandemic, Geopolitics, and International Law // Journal of International Humanitarian Legal Studies. – 2020, 11 (2), – p. 237-248.
20. Basrur, R., Kliem, F. Covid-19 and international cooperation: IR paradigms at odds // SN Social Sciences, – 2021. 1 (7), – p. 1-10.
21. A Qualitative Study of Pre-Vaccine Decrease of Mortality from COVID-19 (pre-print) / V.Mammadov, L..Jafarova. - London: IntechOpen, - 2021.
22. Berridge G.R. Diplomacy: theory and practice. Springer. 2015.
23. Divkolaye, N.S.H., Radfar, M.H., Seighali, F. [et al.] When health diplomacy serves foreign policy: use of soft power to quell conflict and crises // Disaster medicine and public health preparedness, - 2016. 10 (5), - pp. 724-727.
24. Kevany, S. Global health diplomacy, ‘smart power’, and the new world order // Global public health, - 2014. 9 (7), - pp. 787-807
25. Katz, R., Kornblet, S., Arnold, G. [et al.] Defining health diplomacy: changing demands in the era of globalization // The Milbank Quarterly, - 2011, 89 (3), - pp. 503-523
26. Fazal, T.M. Health diplomacy in pandemical times // International Organization, - 2020. 74 (S1), - pp. E78-E97
27. Brown, M.D., Bergmann, J.N., Novotny, T.E. [et al.] Applied global health diplomacy: profile of health diplomats accredited to the United States and foreign governments // Globalization and health, 14 (1), pp.1-11
28. Nunes, J. The COVID-19 pandemic: securitization, neoliberal crisis, and global vulnerabilization // Cadernos de saude publica, - 2020.
29. Connelly T. EU vaccine roll-out - the needle and the damage done: [Electronic resourse] / RTE. – 01 December 2021. URL: https://www.rte.ie/news/analysis-and-comment/2021/0327/1206394-europe-vaccine-analysis/
30. Sharun, K., Dhama, K. India’s role in COVID-19 vaccine diplomacy // Journal of Travel Medicine, – 2021, 28 (7), – p. 1-4.
31. Commemorating 200 million U.S.-donated covid-19 vaccines successfully delivered: [Electronic resource] / USAID, - October 21, 2021. URL: https://www.usaid.gov/news-information/press-releases/oct-21-2021-commemorating-200-million-us-donated-covid-19-vaccines-successfully
32. Rudolf, M. China's health diplomacy during Covid-19: the Belt and Road Initiative (BRI) in action. (SWP Comment, 9/2021) / M.Rudolf. - Berlin: Stiftung Wissenschaft und Politik -SWP-Deutsches Institut für Internationale Politik und Sicherheit, - 2021. - 9 p.
33. Barroso, J.M. Health is a political choice: [Electronic resource] / COVAX, - 29 November 2021. URL: https://www.gavi.org/vaccineswork/health-political-choice
35. International health regulations (2005) / World Health Organization. – Switzerland: WHO Library Cataloguing-in-Publication Data, - 2008. - 86 p.
35. Jafarova, L.A., Mammadov, V.G., Mammadova, L.E. Azerbaijan’s Healthcare Legislation: Major Developments Amid the COVID-19 Pandemic // - Brill|Nihof: European Journal of Health Law, – 2021, 28 (5), – p. 507-524.

***Keywords:*** *politics, international relations, diplomacy of global health, global health, foreign policy*

**Lalə Cəfərova**
*Azərbaycan Milli Elmlər Akademiyasının*
*Hüquq və İnsan Haqları İnstitutun dissertantı*

## COVID-19: BEYNƏLXALQ MÜNASİBƏTLƏR VƏ QLOBAL SƏHİYYƏ DİPLOMATİYASI

### XÜLASƏ

Məqalədə qlobal sağlamlıq (və ya səhiyyə) siyasəti "beynəlxalq münasibətlər" elm sahəsi baxımından təhlil edilir. İki sahə arasında qarşılıqlı əlaqə artır və COVID-19 pandemiyası bunu aydın şəkildə nümayiş etdirdi. Koronavirusla bağlı siyasətçilərin beynəlxalq səviyyədə qəbul etdiyi qərarlar müasir siyasətdə sağlamlığın vacibliyini sübut etdi. Ənənəvi olaraq tibb sahəsində alimlərin tədqiqat sahəsi hesab edilən qlobal sağlamlıq pandemiya fonunda özünün ilkin olaraq siyasi qərarlardan asılılığını sübut etdi. Qlobal sağlamlıq sahəsində siyasi aspektlərin tədqiqi beynəlxalq münasibətlər elm sahəsində, və beləliklə, qlobal siyasi tədqiqatın bir növ yeni "trend"inə çevrilir. Müəllif Qlobal Sağlamlıq Diplomatiyasını beynəlxalq münasibətlər kontekstində siyasət və qlobal sağlamlıq arasındakı əlaqənin öyrənilməsi kontekstində inkişaf edən bir elm sahəsi kimi nəzərdən keçirir.

***Açar sözlər:*** *siyasət, beynəlxalq münasibətlər, qlobal səhiyyə diplomatiyası, qlobal səhiyyə, xarici siyasət*

**Лала Джафарова**
*Диссертант Института Права и Прав Человека*
*Национальной Академии Наук Азербайджана*

# COVID-19: МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ И ГЛОБАЛЬНАЯ ДИПЛОМАТИЯ В ОБЛАСТИ ЗДРАВООХРАНЕНИЯ

## РЕЗЮМЕ

В статье политика глобального здоровья (или здравоохранения) анализируется с точки зрения дисциплины «международные отношения». Взаимодействие между двумя сферами усиливается, и пандемия COVID-19 наглядно это продемонстрировала. Решения, связанные с коронавирусом, принятые политиками на международном уровне, доказали важность здоровья в современной политике. Глобальное здоровье, традиционно считающееся областью изучения ученых в области медицины, на фоне пандемии доказало свою первичную зависимость от политических решений. Изучение политических аспектов в сфере глобального здравоохранения становится своего рода новым «направлением» исследований в дисциплине международных отношений, следовательно, и глобальных политических исследований. Автор рассматривает дипломатию глобального здравоохранения как дисциплину, развивающуюся в контексте изучения взаимосвязи между политикой и глобальным здоровьем в контексте международных отношений.

***Ключевые слова:*** *политика, международные отношения, дипломатия глобального здравоохранения, глобальное здоровье, внешняя политика*

G Ə N C T Ə D Q İ Q A T Ç I L A R
Y O U N G R E S E A R C H E R S

B E Y N Ə L X A L Q M Ü N A S İ B Ə T L Ə R
I N T E R N A T I O N A L R E L A T I O N S

UOT 327.930.22

**SƏMA RZAYEVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının sabiq dissertantı**
*e-mail: sema_rzayeva@hotmail.com*

# BEYNƏLXALQ TƏŞKİLATLARIN VƏ TƏHLÜKƏSİZLİK İNSTİTUTLARININ ANTİTERROR TƏŞƏBBÜSLƏRİ, METODLARI VƏ ONLARIN NƏTİCƏLƏRİ

Soyuq müharibənin başa çatmasından sonra dünya ictimaiyyəti beynəlxalq təhlükəsizliyi təhdid edən və daha öncə prioritet hesab edilməyən yeni təhdidlərlə üzləşdi. Bunlardan özünü ən bariz şəkildə büruzə verən, beynəlxalq sabitliyin pozulmasına gətirib çıxaran transmilli və ya beynəlxalq terrorçuluq oldu. 2001-ci ilin 11 sentyabr hadisələrindən əvvəl terrorçuluq və ona qarşı beynəlxalq səviyyədə mübarizə mövzusu daxili və beynəlxalq gündəmdə xüsusi çəkiyə malik deyildi və beynəlxalq strateji məzmun daşıyan bir məsələ olmadığına görə də mövcud beynəlxalq hüquq normalarına yenidən baxılmasını tələb etmirdi. 11 sentyabr hadisələri ilə transmilli terrorçuluq cəmiyyətdə mövcud olan və həyatın əsas sahələrinə şamil edilən ən müxtəlif ziddiyyətlərdən irəli gələn çox geniş və yayılmış sosial-siyasi fenomenə çevrildi.

Siyasi ədəbiyyatda terrorla beynəlxalq mübarizə dedikdə, terror təhlükəsinə qarşı beynəlxalq institutların dövlətlər ilə birgə şəkildə koordinasiya edilmiş taktika, strategiya və tədbirlərin məcmusu nəzərdə tutulur. (10, s.3) Buraya həyata keçirilən fəaliyyətin monitorinqi, kəşfiyyat məlumatlarının toplanması və təhlili, habelə terror fəaliyyətinin qarşısını almaq üçün güc tətbiqi də daxildir. Transmilli terrorçuluqla mübarizə ilk növbədə bu fəaliyyəti hər tərəfli şəkildə nəzarət altına almaqla zərərsizləşdirmək və nəhayi olaraq onun bütün dəstəkləyici mənbələrinin aradan qaldırılmaqla məhv edilməsi prosesidir. Əksər tədqiqatçıların və siyasətçilər hesab edirlər ki, müasir terrorçuluğun transmilli xarakterindən asılı olaraq terrorizmlə mübarizə dövlətlər və ya regional səviyyədə mübarizə aparılacaq bir məfhum deyildir. Ona görə də bu strategiya beynəlxalq şəkildə koordinasiya olunmuş siyasi, iqtisadi və hüquqi bazaya əsaslanmalıdır.

Ümumiyyətlə ümumdünya səviyyəsində terrorizm və xüsusilə beynəlxalq terrorizmlə mübarizə BMT və onun ixtisaslaşmış qurumları, regional səviyyədə isə BMT Nizamnaməsinin 8-ci fəsli və 51-ci maddəsinin müddəalarına uyğun olaraq yaradılan regional təhlükəsizlik təşkilatları və müxtəlif siyasi forumlar və təşkilatlar və  dövlətlərin qəbul etdiyi milli təhlükəsizlik doktrinaları əsasında tənzimlənir. 11 sentyabr hadisələrindən sonra müasir terrorçuluq asimmetrik bir təhdidə çevrildi, onunla mübarizə mövzusunda qlobal və regional təşkilatlar fəal bir yanaşma göstərməyə başlamışdılar. Dünya dövlətləri arasında beynəlxalq təşkilatlar çərçivəsində daha sıx əməkdaşlığı ehtiva edən müxtəlif strategiyaları dövrəyə gəlmişdi. Bu baxımdan transmilli terrorçuluqla mübarizə üçün ortaq bir yol xəritəsinin hazırlanması, strategiyanın müəyyənləşdirilməsi ilə bağlı əsas məsuliyyət Birləşmiş Millətlər

Təşkilatı, NATO, Aİ və s. kimi qlobal və regional təşkilatların öhdəsinə düşmüşdür.

Şəksiz ki, 2001-ci ildən sonrakı mərhələdə transmilli terrorçuluqla mübarizə sahəsində ən mühüm təşəbbüslər Birləşmiş Millətlər Təşkilatı çərçivəsində irəli sürülmüş, ən mühüm tədbirlər məhz bu təşkilatın qərar və qətnamələri əsasında həyata keçirilmişdir. Rabbat Paula görə Birləşmiş Millətlər Təşkilatının son onilliklər ərzində tədricən inkişaf etmiş terrorizmin qarşısının alınmasında və yatırılmasında rolu, 11 sentyabr 2001-ci il terror hücumlarından sonra əhəmiyyətli dərəcədə sürətlənmişdir (36, s.81).

Həm üzvlərinin sayına, həm də hüquqi miqyasına görə ən böyük təşkilat olan Birləşmiş Millətlər Təşkilatı fəaliyyətə başladığı gündən etibarən beynəlxalq sabitlik və təhlükəsizliyə maneə yaradan bir sıra məsələlərin həllində əsas rol oynamışdır. Soyuq müharibə illərində BMT ikinci Dünya müharibəsindən sonra yaranan iki fövqəlgüc arasında münasibətlərin təsirli mexanizmlərini təklif etmiş, kapitalizm və kommunizm cəbhəsi arasında böyük silahlı qarşıdurmanın baş verməsinin qarşısını almağa nail olmuş və beynəlxalq nizamı təmin etmişdir. XX əsrin 60-ci illərindən başlayaraq beynəlxalq qeyri-stabilliyin yeni təzahür formalarından biri olan terrorizm də müəyyən mənada BMT-nin gündəliyinə daxil olmağa başladı. 1960-ci illərdən indiyə qədər BMT tərəfindən qəbul edilmiş terrorizmin qarşısının alınması və mübarizə metodları ilə əlaqəli 19 universal sənəd mövcuddur. 50 il ərzində (1963-cü ildən başlayaraq) qəbul edilən bu sənədlər terrorizmə sektoral yanaşmanı özündə cəmləşdirmişdir. Çünki terrorizm müəyyən olunmuş bir sərhədi olmadığından onların hər biri terrorizmin müəyyən təzahür formalarına aiddir. Terrorizmlə bağlı BMT-nin ilkin münasibət bildirdiyi məsələ 1948-ci ildə Fələstində Folke Bernadot qətlə yetirilməsi məsələsi ilə bağlı olmuşdur. 1963-cü ildən başlayaraq günümüzədək, BMT-nin gündəliyində girov götürmə, müəyyən nəqliyyat vasitələrinə və ya individumlara qarşı yönəlmiş hərəkətlər və ya bəzi alətlərdən terror məqsədləri üçün istifadə kimi xüsusi terror aktlarını cinayət aktı kimi qəbul edən on altı beynəlxalq konvensiya müzakirə edilmişdir. Bunlarla birlikdə bu hüquqi baza ilkin qlobal antiterror normalarının qurulmasına və beynəlxalq antiterror əməkdaşlığı üçün bir zəmin yaratmasına kömək etmişdir. Təəssüf ki, terrorçuluğun müxtəlif təzahürlərinə qarşı konvensiyaların qəbul edilməsi səyləri nəinki hücumların sayında statistik cəhətdən əhəmiyyətli bir azalmaya gətirib çıxarmamış, əksinə terrorizmin forma dəyişdirərək yeni təzahürlərinin ortaya çıxmasına gətirib çıxarmışdır. Bunun səbəbi isə, üzv dövlətlərin terrorizmin tərifi və onunla mübarizə ilə bağlı məsələlərdə razılığa gələ bilməməsidir. Elman Nəsirov haqlı olaraq yazır ki, təkcə XX əsrin sonlarına qədər terrorizm fenomeni ilə bağlı 6 mindən çox elmi və siyasi ədəbiyyatın yazılmasına baxmayaraq terrorizm nədir sualına beynəlxalq birlik bitkin cavab tapa bilməmişdir (31, s.26).

1990-cı illərdə BMT Avropa, Afrika və keçmiş SSRİ-dəki daxili qarşıdurmalardan, habelə yeni bir formaya transformasiya olunmuş beynəlxalq terrorizm anlayışından yaranan bir sıra yeni təhlükələrə qarşı yeni mübarizə metodlarını təkmilləşdirməyə başladı. 90-cı illərdə, BMT, beynəlxalq əlaqələrin bipolyar dövründə təşkil olunmuş digər beynəlxalq təşkilatlar kimi post-bipolyar dünyanın yeni reallıqlarına uyğunlaşma problemi ilə üzləşdi. Xüsusilə, transmilli terror problemlərinə daha çox diqqət yetirməyə başladı. Ukraynalı tədqiqatçı Lyudmila Novoskoltseva yazır ki, terrorizmlə mübarizədə tədbirlərin hazırlanması üçün BMT ən müxtəlif beynəlxalq əməkdaşlıq formalarından istifadə etməyə başladı. Bu dövrdə beynəlxalq konqreslərin keçirilməsi ən təsirli təcrübə mübadiləsi vasitələrindən biri olmuşdur. 27 avqust - 7 Sentyabr 1990-cı il tarixlərində Havanada keçirilmiş Birləşmiş Millətlər Təşkilatının Cinayətlərin və cinayətkarlığın qarşısının alınması üzrə Səkkizinci Konqresi beynəlxalq terrorizmlə mübarizənin bu probleminə həsr olunmuşdu. Bu Konqresdə "Beynəlxalq terrorizmlə mübarizə tədbirləri“ adlı sənəd qəbul edilmişdi. (60, s.120) Qeyd

edək ki, qeyd olunanlardan əlavə BMT TŞ 1999-cu ilin oktyabrın 19-da beynəlxalq terrorizm aktlarını pisləyən 1269 saylı qətnamə ilə çıxış etmiş (37, s.1-2), həmin ilin dekabr 9-da isə BMT tərəfindən Terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə barədə konvensiya (12, s.113) qəbul edilmişdi.

2001-ci ilin sentyabr hadisələri BMT-ni antiterror mübarizə metodlarını kökündən yenidən nəzərdən keçirməyə məcbur etdi. Nyu-Yorkda baş vermiş hadisələrdən sonra, BMT və ABŞ beynəlxalq təhlükəsizlik məsələləri üzrə çox geniş miqyaslı əməkdaşlıq etməyə başladı. Transmilli terrorçuluğun artan potensialından narahat olan dünyanın əksər ölkələrinin daxil olduğu qlobal antiterror koalisiyası yaradıldı.

11 sentyabr hadisələrinin günü BMT Təhlükəsizlik Şurasının sədri, Fransanın BMT-dəki daimi nümayəndəsi Jan-David Levitt, bu terror hücumunu kəskin şəkildə pisləyən qətnamə layihəsini dərc etdi (59, s.77). Bir gün sonra isə 1368 saylı qətnamə Təhlükəsizlik Şurası tərəfindən yekdilliklə qəbul edildi (44, s.104). 28 sentyabr tarixində qəbul edilən 1373 saylı qətnamə BMT-nin bütün 191 ölkəsinə üzərinə beynəlxalq terrorçuluğun daha da geniş şəkildə təzahür etməsinin qarşısını almaq üçün müvafiq daxili qanunvericilik qəbul etmək öhdəçiliyi qoydu (62,  58, s.39). Qəbul olunmuş qətnamələrin hər ikisi terror aktlarına cavab olaraq həyata keçirilən hərbi əməliyyatların qanuniliyini tanımaq üçün standartları müəyyənləşdirdi. Bununla paralel onu da qeyd etmək lazımdır ki, hər bir dövlətin təcavüz aktlarından özünü müdafiə etmək hüququna əsaslanaraq, terror aktlarına cavab olaraq ona qarşı güc tətbiq etməsini qanuniləşdirən BMT Təhlükəsizlik Şurasının 1368 saylı qətnaməsi, BMT-nin Nizamnaməsində qeyd olunmuş güc istifadəsinə dair ümumi qadağanı şübhə altına alaraq ziddiyyətə səbəb oldu. Belə ki, bu terrorun ümumdünya tərəfindən tanınan bir tərifinin olmaması bir sıra dövlətlər tərəfindən gücün sui-istifadəsinə yol açdı. 1368 nömrəli qətnamənin qəbulunun nəticələri və hərbi gücdən istifadənin qanuniliyinə təsiri dövlətlər arasında qanuni münaqişələrə səbəb ola biləcək bir problem yaratdı.

1373 saylı qətnamənin müddəalarının icrasına nəzarət edilməsi üçün BMT Təhlükəsizlik Şurasının Terrorla Mübarizə Komitəsi (TMK) yaradıldı (27, s.173). TMK çox mərhələli bir proqram başlatdı. Birinci mərhələdə komitə 1373 nömrəli qətnamənin tələblərinə uyğun olaraq, qətnamənin qəbul edildiyi gündən üç ay ərzində BMT üzvü olan ölkələrin mövcud antiterror qanunvericiliyini təhlil etdi. İkinci mərhələdə institusional mexanizmlərin gücləndirilməsinə və dövlətlərin terror təhlükəsinə qarşı mübarizə qabiliyyətlərinin gücləndirilməsinə kömək edilməsinə xüsusi diqqət yetirildi.

BMT tərəfindən qəbul edilmiş, terrorizmə qarşı mübarizənin ümumdünya hüquqi bazasını təşkil edən məcburi tələblər və tövsiyələrin mənbələrini aşağıdakı qruplara bölmək olar:

### 1. BMT Baş Assambleyasının qərarları

Baş Assambleya terrorçuluğa qarşı mübarizədə beynəlxalq hüquqi bazanın yaradılmasında mühüm rol oynayır və dövlətləri bu təhlükəni aradan qaldırmaq üçün daha sıx əməkdaşlığa çağırır. BMT Baş Assambleyasının 1972-ci ildə keçirilən 27-ci yığıncağından etibarən terrorçuluq problemi demək olar hər yığıncaqda müzakirə edilmişdir (47, s.359). Bununla əlaqədar olaraq Assambleya 2001-ci ildən sonrakı mərhələdə transmilli terrorla əlaqəli bir sıra qətnamələr qəbul etmişdir.

2006-cı ilin sentyabrında Baş Assambleya milli, regional və beynəlxalq antiterror hərəkətlərinin gücləndirilməsinə yönəldilmiş qətnamə və müşayiət olunan Fəaliyyət Planından ibarət olan Birləşmiş Millətlər Təşkilatının Terrorçuluğa qarşı Qlobal Mübarizə Strategiyasını (A/RES/60/288) qəbul etmişdir (50, s.1-9). Strategiyanın qəbulu bütün üzv dövlətlərin həm fərdi, həm də kollektiv olaraq əməli addımlar atmaq əzminə əsaslanmışdır. Bunu transmilli terrorçuluğun qarşısının alınması üçün ortaq strateji yanaşma mövzusunda razılığı əks etdirən ilk uğurlu cəhd kimi də qiymətləndirmək mümkündür.

Strategiya Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsini (UNODC) və digər beynəlxalq qurumları onun həyata keçirilməsinə dəstək olmağa dəvət edir və üzv dövlətləri bu ümumi beynəlxalq təşkilatlarla əməkdaşlığını ortaq bir hissəsi olaraq gücləndirməyə çağırırdı (50, s.8). Terrorçuluğa qarşı Qlobal Mübarizə Strategiyası dörd əsas elementdən ibarətdir:

a) terrorizmin yayılmasına şərait yaradan mühitin aradan qaldırılması üçün tədbirlərin həyata keçirilməsi;

b) terrorizmin qarşısının alınması və mübarizə tədbirlərinin aparılması;

c) dövlətlərin terrorizmin qarşısını almaq və ona qarşı mübarizə imkanlarını gücləndirmək və bu sahədə BMT sisteminin rolunu gücləndirmək üçün tədbirlərin görülməsi;

d) terrorizmlə mübarizənin əsas təməli kimi insan hüquqlarına və qanunun aliliyinə hörmətin təmin edilməsi tədbirlərinin reallaşdırılması.

**2. BMT Təhlükəsizlik Şurasının qətnamələri**

Bu qətnamələrdə terrorizm müxtəlif formalarda və təzahürlərdə nəzərə alınır. Onlar tez-tez beynəlxalq sülhün və təhlükəsizliyin qorunması ilə məşğul olan Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin VII fəslinə əsaslanır. Bu qətnamələr çox vaxt bütün üzv dövlətlər üçün məcburi xarakter daşıyır və onlara bir sıra öhdəliklər yükləyir. 2001-ci ildən sonrakı mərhələdə də Təhlükəsizlik Şurasının Nizamnamənin VII fəslinə (39-51-ci maddələrə) uyğun olaraq bu günə qədər qəbul edilmiş terrorla bağlı bir sıra əsas qətnamələri olmuşdur.

TŞ-nın 2004-cü ildə qəbul etdiyi 1540 saylı qətnamə dövlətlərin üzərinə qeyri-dövlət aktorlarına nüvə, kimyəvi və ya bioloji silahların əldə edilməsi, istehsalı, daşınması, göndərilməsi istiqamətində hər hansı formada dəstək verməkdən imtina öhdəliyi qoyur. Sənəd bütün dövlətlərin bu məqsədlə müvafiq qanunları qəbul etmələrini tələb edir. Qeyd olunur ki, bu cür vasitələrin xüsusilə terror məqsədləri üçün istifadə edilməməsindən ötrü onların qeyri-dövlət aktorlarının əlinə keçməsinin qarşısını almaq üçün təsirli tədbirlər görülməlidir (52).

2014-cü il avqustun 15-də TŞ tərəfindən qəbul edilən 2170 saylı qətnamə əl-Qaidə, Əl-Nusra cəbhəsi və İraq Şam İslam Dövləti kimi fəaliyyəti transmilli xarakter daşıyan terror təşkilatları ilə bağlı olmuşdur (38). Burada diqqət yetirilən xüsusi məsələlərdən biri bu transmilli terror təşkilatlarının adam oğurluğu, insan qaçırma yolu ilə dövlətlərdən maliyyə vəsaitləri və ya güzəştlər əldə etmək istəməsi ilə bağlıdır.

BMT Təhlükəsizlik Şurasının sonrakı dövrlərdə qəbul edilmiş 2178 (2014), 2199 (2015) və 2253 (2015), 2309 (2016), 2354 (2017), 2368 (2017), 2370 (2017), 2379 (2017) saylı qətnamələri də birbaşa olaraq terrorçuluğa qarşı mübarizə məsələləri ilə bağlı olmuşdur. 2019-cu ildə TŞ-nın transmilli terrorçuluqla bağlı 2482 saylı qətnamə qəbul etmişdir (39, s.1). Sənəddə beynəlxalq təhlükəsizlik üçün ciddi bir təhdid təşkil edən, istər daxili, istərsə də transmilli beynəlxalq terrorizmlə mütəşəkkil cinayətkarlıq arasındakı əlaqələrə qlobal reaksiyanı gücləndirmək üçün bütün səviyyələrdə səylərin koordinasiyasını gücləndirilməsi üçün çağırış edilmişdir (39, s.3).

**3. Terrorla mübarizə ilə bağlı universal sənədlər**

Bu cür sənədlər terrorçuluqla əlaqəli 19 çoxtərəfli konvensiya və protokollardır ki, bu da iştirakçı dövlətlərdən terrorizmin xüsusi təzahürlərinə qarşı mübarizə aparmağı tələb edir və bu sahədə beynəlxalq əməkdaşlığın əsasını təşkil edir. Hazırda beynəlxalq terrorçuluğa qarşı mübarizədə dövlətlərin əsaslandığı Birləşmiş Millətlər Təşkilatının müxtəlif illərdə qəbul etdiyi ən mühüm sənədlər sırasında Hava gəmilərində törədilmiş cinayətlər və müvafiq digər əməllərə dair Tokio Konvensiyası (1963) (19, s.18-27), Haaqa Konvensiyası (1970) (19, s.27-37), Mülki Aviasiyanın Təhlükəsizliyinə qarşı qanunsuz əməllərin qarşısının alınmasına dair Monreal Konvensiyası (1971), Beynəlxalq Mülki Aviasiyaya xidmət edən

Hava limanlarında zorakılığa yönəlmiş qanunsuz əməllərin yatırtmasına dair Monreal Protokolu, Mülki Aviasiyanın Təhlükəsizliyinə qarşı qanunsuz əməllərin qarşısının alınmasına dair Konvensiyaya Monreal əlavəsi (1988), Girov götürməyə qarşı Beynəlxalq Konvensiya (1979), Nüvə Materialının Fiziki Mühafizəsinə dair Vyana Konvensiyası (1987), Dəniz Naviqasiyasının Təhlükəsizliyinə qarşı qanunsuz əməllərin yatırtmasına dair Roma Protokolu (1988), Terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair Beynəlxalq Konvensiya (1999), Nüvə Terrorizminə yönəlmiş Əməllərin qarşısının alınmasına dair Beynəlxalq Konvensiya (2005) xüsusi qeyd olunmalıdır (42, s.59-60). Bu sənədlər universal xarakterlidir. Onların dünyanın hər bir ayrı-ayrı ölkələri tərəfindən mütləq təsdiqlənməsini nəzərdə tutmur, lakin Birləşmiş Millətlər Təşkilatının bütün üzv dövlətlərinin üçün açıq hesab olunurlar.

Qəbul olunmuş hüquqi bazanı, atılan addımları nəzərə alsaq da günümüzədək BMT üzv ölkələri üçün dünyanın mövcud dövlət mərkəzli siyasi sistemini əvəz etmək istəyən müasir transmilli terrorizm təhlükəsi barədə aydın bir anlayış hazırlaya bilməmişdir. Təbii ki, praktiki baxımdan BMT-nin terrorizmlə mübarizədə rolu artan bir templə davam edir. Təşkilatın bütün antiterror konvensiyalarının icrası və Təhlükəsizlik Şurası yanında Terrorla Mübarizə Komitəsinin yaradılması ilə bağlı qərarının, terrorizmlə əlaqəli konvensiyaların və qətnamələrin müddəalarının ölkələr tərəfindən yerinə yetirilməsi öhdəçiliyini özündə cəmləşdirən qanun layihələri onun mövqeyini gücləndirir. Lakin transmilli terrorçuluqla mübarizədə ölkələrinin qanunvericiliklərindəki boşluqlar və dəyişikliklərə çevik adaptasiyanın təmin edən BMT mexanizmi yoxdur. Bu isə BMT-nin antiterror məsələlərinə təsirini ciddi şəkildə məhdudlaşdırır. Bütün bunlarla yanaşı inkar etmək olmaz ki, məhdudiyyətlərə baxmayaraq BMT tərəfindən həyata keçirilən beynəlxalq antiterror kampaniyası qloballaşan dünyada beynəlxalq sülh və təhlükəsizliklə təmin olunması məsələsində çox uzun bir yol qət etmişdir və mühüm nəticələr əldə etmişdir.

Beynəlxalq terrorizmlə mübarizədə xüsusi rolu olan digər təşkilat isə Şimali Atlantika Müqavilə Təşkilatı – NATO-dur. Əsas etibarilə bir müdafiə alyansı olan təşkilatın beynəlxalq terrorizmlə mübarizəsi, soyuq müharibə sonrası dəyişən beynəlxalq sistemin və yaranan yeni təhdid çağırışlarının təcəssüm formasıdır. 11 Sentyabr 2001-ci ildə ABŞ-ın məruz qaldığı terror hücumlardan sonra NATO Nazirlər Şurası üzv dövlətlərə kənardan yönəldiləcək terror hücumların NATO konvensiyasının 5-ci maddəsi çərçivəsində qiymətləndiriləcəyini elan etmişdir. Qeyd etmək lazımdır ki, qurumun nizamnaməsinin 5-ci maddəsinin tətbiqi təşkilatın əlli iki illik tarixində ilk dəfə idi (43, s.85-87). V maddədə yazılır ki, Şimali Atlantika Alyansı üzvlərindən birinə hücum NATO üzvlərindən hamısına hücum hesab olunur. Buna görə, hər bir üzv hücum olunmuş tərəfə və ya tərəflərə dərhal, ayrı-ayrılıqda və digər tərəflərlə birgə dəstək göstərərək, hətta lazım gələrsə silahlı qüvvələrdən istifadə edərək təhlükəni aradan qaldıracaq və Şimali Atlantika zonasında təhlükəsizliyi bərqərar edəcək (48). V maddəyə istinadən NATO baş katibi Corc Robertson 11 sentyabr hücumlarının səbəbkarlarının xarici vətəndaş olduğu halda onlarla mübarizə aparmaqda NATO-nun ABŞ-a hərbi yardım göstərəcəyini vurğulamışdı (45).

Aparılan təhlillər göstərir ki, 11 sentyabrdan sonra NATO-nun terrorçuluqla mübarizə metodlarında da dəyişikliklər və təkmilləşmələr baş vermiş, strategiyalar dərinləşdirilmiş, beynəlxalq terrorçuluğa qarşı kollektiv müdafiənin təmin olunması istiqamətində bir sıra addımlar atılmışdır. NATO-nun 2002-ci ildə keçirilən Praqa, 2004-cü ildə keçirilən İstanbul, 2010-cu ildə keçirilən Lisbon Zirvə Toplantılarında transmilli terrorçuluqla mübarizə strategiyalarının dərinləşdirilməsi, kəşfiyyat məlumatlarının üzv dövlətlər arasında mübadiləsi və paylaşılması, üzv ölkələrin terrorçuluqla mübarizə istiqamətində qabiliyyətlərinin inkişaf etdirilməsinə dəstək verilməsi, kollektiv müdafiənin təşkili məsələləri ətraflı şəkildə müzakirə edilmişdi (49, s.11-13, 22, s.55-57, 77-90, 26). Məhz bu sammitdə

NATO komandanlığının strukturunun dəyişməsi barədə qərar qəbul edilmiş, Sürətli Müdaxilə Qüvvələri formalaşdırılmış, Praqa Qabiliyyətlər Öhdəliyi (Prague Capabilities Commitment) üzv dövlətlər tərəfindən qəbul edilmişdir. Bu zirvə toplantısı zamanı terrorizm əleyhinə tərəfdaşlığa dair fəaliyyət planı (The Partnership Action Plan Against Terrorism) qəbul edilmişdi. Plan terror aktlarının törədilməsinə və terror qruplaşmalarının güclənməsinə adekvat olaraq üzv ölkələrin müdafiə potensialının və qabiliyyətlərinin təkmilləşdirilməsini, inkişaf etdirilməsini nəzərdə tuturdu.

Transmilli terrorçuluqla mübarizədə əhəmiyyətli sənədlərdən digər biri 2004-cü ildə qəbul edilmiş NATO-nun Terrorla Mübarizə Əməliyyatları Konsepsiyası olmuşdur. 2012-ci ildə qəbul edilmiş Terrorla Mübarizə Qaydalarına əsasən, məlumat mübadiləsinin daha da genişləndirilməsi, lazımi qüvvə və vasitələrin yaradılması, həmçinin tərəfdaş ölkələr və beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi nəzərdə tutulurdu (30).

2010-cu ilin iyulunda NATO-nun Beynəlxalq Katibliyinin tərkibində antiterror fəaliyyətlərinin tənzimlənməsini də nəzərdə tutan Yeni Təhlükəsizlik Təhdidləri İdarəsi yaradılmışdı (35). NATO çərçivəsində transmilli terrorçuluğa qarşı tədbirlərin həyata keçirilməsində NATO Mülki Fövqəladə Planlaşdırma Komitəsinin də mühüm rolu vardır. Onun səlahiyyətlərinə mülki şəxslərin terror hücumlarının və texnoloji fəlakətlərin nəticələrindən qorunması daxildir.

Terrorizmlə mübarizədə əməli fəaliyyət üçün əsas strategiya 2013-cü ildə qəbul edilmiş NATO-nun Böhranlara Qarşı Sistemidir. Bu sənəd siyasi və hərbi rəhbərliyin terror hücumu ehtimalını qiymətləndirməyə əsaslanan bir sıra tədbirlərin həyata keçirilməsini əhatə edir (8). Təhlillər göstərir ki, müxtəlif dövrlərdə alyansın rəhbər və işçi orqanlarının strukturundakı normativ baza ilə yanaşı, antiterror vəzifələrini həll edən ixtisaslaşdı-rılmış bölmələr yaradılmışdır.

Beynəlxalq terrorçuluğa qarşı NATO-nun 2015-ci ildən sonrakı dövrdə həyata keçirdiyi praktiki fəaliyyətə diqqət yetirdikdə alyansın 2015-2016-cı illərdə bütün səylərini "İraq Şam İslam Dövləti" (İŞİD) adlandırılan radikal təkfirçi terror təşkilat ilə mübarizəyə yönəltdiyini görmək mümkündür. Baxmayaraq ki, ABŞ prezidenti Donald Tramp tərəfindən bu cihadçı terror təşkilatına qarşı mübarizədə NATO-nun fəaliyyəti ləng və köhnəlmiş olaraq qiymətləndirilmişdi (53, s.14-18).

Yuxarıda göstərilənlərin hamısı NATO-nun terror təhlükəsinə qarşı təsirli vasitələrə sahib olmağı və Qərb ölkələrinin maraqlarına təhlükə yarandığı beynəlxalq terrorçuluqla mübarizədə aparıcı rol oynamağa çalışdığını göstərir. Ancaq reallıqda hər şey göründüyü qədər bəsit deyildir. Göründüyü kimi, reallaşdırılan tədbirlər kifayət qədər effektiv deyil. Bu son illikdə həyata keçirilən terror aktlarını nəzərə alarsaq NATO siyasətinin uğursuzluğunu görə bilərik. NATO-nun terrorçuluğa qarşı mübarizəsi birtərəfli xarakter daşıyır, bu mübarizə anlayışından terrorçuluqdan daha çox siyasi məqsədlərə çatma vasitəsi kimi istifadə olunur.

BMT və NATO ilə yanaşı bir sıra regional dövlətlərüstü və dövlətlərarası təşkilatlar da transmilli terrorçuluğa qarşı mübarizə məqsədi ilə strategiyalarını müəyyənləşdirir və antiterror təşəbbüsləri ilə çıxış edirlər. 11 sentyabr hadisələrinə qədər ümumi iqtisadi zonaya malik olmalarına baxmayaraq Avropa dövlətlərinin terrorçuluğa dair milli qanunvericilikləri bir-birindən kəskin şəkildə fərqlənirdi. Bu vəziyyətdə ümumi bir düşmənə qarşı mübarizə aparmaq müşkül məsələ idi və xaotik xarakter daşıyırdı. Daxili qanunvericilikdəki, bu fərqlilikləri aradan qaldırmaq üçün Avropa İttifaqı ölkələri, Dublin Konvensiyasını qəbul etdilər ki, bu da 1977-ci ildə Avropa Şurası tərəfindən qəbul edilmiş Terrorizmə Qarşı Mübarizə üzrə Avropa Konvensiyası bütün üzv ölkələrin ərazisində tətbiq edilməyi nəzərdə tuturdu (7, s.251; 4, s.92-93). Bununla yanaşı qeyd etmək lazımdır ki, həm Dublin Konvensiyasının, həm də Terrorizmə Qarşı Mübarizə Konvensiyasının praktiki icrası bəzi çətinliklərlə üzləşdi, çünki ayrı-ayrı ölkələr əsasən bunun terrorizmlə mübarizə qabiliyyətinin itirilməsinə səbəb

ola biləcəyindən çəkinərək ratifikasiya etməkdən imtina etdilər (55, s.292). Praktiki səviyyədə, 1976-cı ildə hüquq mühafizə orqanları əməkdaşlığını müzakirə etmək və kəşfiyyat məlumatlarını paylaşmaq üçün bir foruma çevrilən TREVI Qrupu (Terrorizm, Radikalizm, Ekstremizm və Zorakılıq) yaradıldı (59, s.130). Bu qrup daxilində ədliyyə nazirləri və Avropa Birliyinin Daxili İşlər Nazirləri kəşfiyyat məlumatları mübadiləsi, terrorçuların qara siyahıları tərtibi, xarici terror təhdidlərinin təhlili, eyni zamanda terrorçuların istintaqa cəlb edilməsi və mühakimə olunmasını nəzərdə tuturdu (47, s.393). 1980-ci illərin ortalarında Qərbi Avropada baş verən bir sıra terror hadisələrindən sonra TREVI qrupu, Avropa İttifaqının sərhədlərində sərhəd nəzarətini yaxşılaşdırmaq və əks-koordinasiya işlərini təşkil edən bir işçi qrupu yaratmaqla terrorçuluqla mübarizədə səylərini artırdı (4, s.93–94).

Hakimiyyət və daxili işlər qurumları arasındakı əməkdaşlıq sahəsində imzalanan Maastrix Müqaviləsi, 1994-cü ilin yanvar ayında Narkotiklərlə Mübarizə Birliyi olaraq məhdud fəaliyyətə başlayan Aİ ölkələrinin polis fəaliyyətlərini əlaqələndirici bir qurum olan Europol'un yaradılmasını təmin etdi (51). Yalnız 1999-cu ilin iyulunda bütün Aİ üzv dövlətləri Konvensiyanı təsdiqlədikdən sonra Europol tam fəaliyyətə başladı (59, s.131). Hazırda Europol Aİ üzv ölkələrində təhqiqat və axtarış fəaliyyətlərini həyata keçirən və eyni zamanda beynəlxalq cinayət təşkilatları haqqında məlumat toplamaq və mübadiləsi aparmaqla məşğul olan Avropa polis təşkilatıdır. Qurumun yaradılması məqsədi beynəlxalq cinayətlərə qarşı mübarizə aparmaqdır. Bunun xaricində, mühüm fəaliyyətləri arasında terrorizm, silah və narkotik qaçaqmalçılığı ilə mübarizə aparır (16, s.206).

Terrorçuların ekstradisiyası sahəsində hüquqi bazanın boşluğunu ardan qaldırmaq üçün 1990-cı illərdə iki mühüm hüquqi sənəd qəbul edilmişdir. Bunlardan biri 1995-ci ilin martında qəbul edilmiş Avropa İttifaqında üzv dövlətlər arasında Sadələşdirilmiş Ekstradisiya Qaydaları haqqında Konvensiya, digəri isə 1996-cı ilin sentyabrında qəbul edilmiş Avropa İttifaqında üzv dövlətlər arasında Ekstradisiya Konvensiyası olmuşdur (56, s.948-957). Hər iki konvensiyanın məqsədi həm Ekstradisiya haqqında Avropa Konvensiyasının (1957), həm də Terrorizmə Qarşı Mübarizə üzrə Avropa Konvensiyasının (1977) icrasını təkmilləşdirmək idi (15, s.21). 1997-ci ildə qüvvəyə minən Amsterdam müqaviləsində isə Aİ ölkələri daxili "azadlıq, təhlükəsizlik və ədalət zonası" yaratmağı öhdələrinə götürdülər (51).

Beləliklə, qəbul olunan qanun layihələrini nəzərdən keçirsək görərik ki, 2001-ci ilin sentyabrına qədər terror təhlükəsi Avropa İttifaqında əsas təhlükəsizlik məsələsi hesab edilmirdi. Aİ-na üzv olan 15 ölkədən yalnız yarısı öz qanunvericiliklərinə terrorçuluğu cinayət kimi tanıyan müddəalar daxil etmişdilər. Bir çox Avropa İttifaqı ölkələrinin terrorizmə qarşı BMT-nin ayrı-ayrı konvensiyalarını imzalamalarına baxmayaraq, əksəriyyəti hələ onları ratifikasiya etməyi planlaşdırdılar. Sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarına edilən terror hücumları Avropa İttifaqında vahid antiterror siyasətinin inkişafına təkan vermişdir.

2001-ci ilin 11 sentyabr hadisələrindən sonra antiterror siyasətinin formalaşdırılması prosesində Avropa İttifaqı bir sıra hüquqi aktlar, strategiyalar, fəaliyyət planları, institusional strukturların yaradılması, hüquq-mühafizə orqanları ilə milli polis xidmətləri arasında əməliyyat da daxil olmaqla, bir sıra tədbirlər planı hazırlamışdır. Terror hadisələrindən dərhal sonra Aİ-nın 15 ölkəsinin ədliyyə və daxili işlər nazirləri bütün antiterror tədbirlərini təsdiqləmişdilər (59, s.132). 21 sentyabr 2001-ci ildə Avropa Şurası fövqəladə iclas keçirmiş, burada əsas diqqət ABŞ-dakı terror hadisələrinə və Aİ-nin transmilli terror təhlükəsinə qarşı atacağı addımlar toplusu müzakirə olunmuşdu.

Nyu-Yorkdakı hadisələrdən sonra diqqəti İslam fundamentalist terrorizmi formasında beynəlxalq terrorizmə qarşı yönəldilmişdi. 11 sentyabr hadisələri Aİ ölkələri arasında daxili işlər və ədliyyə sahəsində əməkdaşlığın inkişafı üçün katalizator rolu oynadı. Qeyd et-

məliyik ki, Avropa daxili milli azadlıq hərəkatları XX əsrin 90-cı illərinin sonlarında terrorizmin ümumi tərifinin tətbiqi, xarici sərhədlərin birgə qorunmasının təşkili və birgə istintaq qruplarının təşkil olunması kimi məsələləri gündəmə gətirmişdi. 9/11 terror aktları planların həyata keçirilməsinə mane yaradan bir çox əngəli aradan qaldırdı. 2001-ci ilin payızında Avropa İttifaqının Brüsseldə keçirilən fövqəladə zirvə toplantısında qəbul edilmiş "Terrorizmə qarşı Fəaliyyət Planı"nda Aİ ölkələri Birləşmiş Millətlər Təşkilatının rəhbərliyi altında ABŞ, Rusiya Federasiyası, ərəb və müsəlman ölkələrinə terrorizmə qarşı mübarizə üçün daha geniş antiterror koalisiyasının yaradılması çağırışı etmişdilər (16, s.202).

ABŞ-dakı hücumlardan sonra ilk addım 32 cinayətin ətraflı siyahısını ehtiva edən Avropa Şurasının çərçivə qərarı əsasında terrorizmin ümumi tərifini qəbul etmək oldu. Aİ həmçinin 34 terror qrupu birləşməsi və 52 nəfərdən ibarət terror təşkilatlarının siyahısını tərtib etdi (11). Günümüzədək Aİ terror təşkilatlarının "qara siyahısı" daim yenilənir. Belə ki, 2007-ci ilin iyul ayında Yunan "Epanastaticos Agonas" (İnqilab mübarizəsi) qrupu bu siyahıya əlavə olunmuş, əksinə, üç italyan qrupu – "Anti-imperialist ərazi birliyi", "İnqilabi proletar təşəbbüsü üçün birlik" və "Proletar Təşəbbüsü üçün Birlik" siyahıdan çıxarılmışdı. 2009-cu ilin dekabr ayında İspaniya hökumətinin tələbi ilə iki separatçı bask partiyası - Bask Milli Fəaliyyəti və Bask Kommunist Partiyası, həmçinin ETA təşkilatının 13 üzvü siyahıya əlavə edilmişdi.

2003-cü ilin dekabrında Avropa Şurası Solananın rəhbərliyi ilə hazırlanan Avropa Təhlükəsizlik Strategiyasını (ATS) qəbul etdi. ATS ilk dəfə Aİ-nin terrorizm, kütləvi qırğın silahlarının yayılması, regional münaqişələr, habelə mütəşəkkil cinayətkarlığın əsas təhdidi kimi müəyyən edildiyi strateji siyasəti olaraq müəyyənləşdirdi (3).

11 mart 2004-cü ildə Madriddə baş verən terror aktı Avropa İttifaqını terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq sahəsinə qayıtmağa, Aİ ölkələrinin birgə hərəkətlərinin nəticələrini qiymətləndirməyə və yenidən nəzərdən keçirməyə, ikinci tədbirlər paketini - terrorizmə qarşı yeni alətlər qəbul etməyə məcbur etmişdi (59, s.135). Avropa İttifaqı ölkələri arasında qarşılıqlı fəaliyyətin qeyri-kafi effektivliyi məsələsi 2004-cü ilin martında Brüsseldə keçirilən Avropa Şurasının yaz sammitində diqqət mərkəzində olmuşdu.

Yuxarıda qeyd olunanları ümumiləşdirəsək, Aİ 11 sentyabr hadisələrindən daha əvvəl, hətta Maastrixt sazişinə qədər terrorizmlə mübarizə mövzusunda digər təşkilatlarla müqayisədə daha güclü bir ortaq strategiya müəyyənləşdirə və onu inkişaf etdirə bilmişdi. 1992-ci il Maastrixt sazişinin qüvvəyə minməsi, La Gomera Bəyannaməsi, Amsterdam müqaviləsi və Tampere Zirvə Toplantısı Qərarlarının qəbul edilməsi ilə birlikdə Avropa İttifaqı terrorçuluqla mübarizə mövzusunda üzv ölkələri əhatə edən ortaq terrorla mübarizə strategiyasının inkişaf etməsinə nail olmuşdu (4, s.28-29). 11 sentyabrdan sonra isə Avropa İttifaqı transmilli terrorçuluqla mübarizə istiqamətində olan cəhdlərini artırmış, 2001-ci ildə Terrorizmlə Mübarizə Tədbirlər Planını, 2003 və 2005-ci illərdə Terrorizmlə Mübarizə Strateji Sənədini, 2010-ci ildə isə Stokholm və Fəaliyyət halındakı Aİ Daxili Təhlükəsizlik Strategiyasını qüvvəyə minmişdir (54, s. 4-8).

Hazırda Avropa İttifaqında "terror cinayətləri" dedikdə bir neçə cinayət əməlləri xüsusən nəzərdən keçirilir. Avropa İttifaqında terrorçuluqla mübarizəyə dair qəbul edilmiş qanunların və qərarların təhlili göstərir ki, terror cinayətləri bir neçə kateqoriyaya bölünür:

- girov götürmə;
- təyyarələrin ələ keçirilməsi;
- silah təchizatı və ya istifadəsi;
- bir hökumət və ya ictimai obyektin, nəqliyyat, kommunikasiya sistemlərinin böyük bir hissəsinin məhvinə səbəb olan aktların həyata keçirilməsi;
- su tədarükünün və təchizatının sıradan çıxarılmasına yönəlmiş fəaliyyət;
- məlumat, maddi qaynaqlar və maliyyələşdirmə daxil olmaqla terror qrupunun

fəaliyyətində iştirak etmək, bu iştirakın qrupun cinayət fəaliyyətinə kömək edəcəyini bilmək və s. (2, s.70)

1975-ci il tarixli Helsinki Yekun Aktında bilavasitə terrorizmlə bağlı bir maddə olmasa da (20, s.62) Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) transmilli terrorçuluqla mübarizəyə əhəmiyyətli töhfələr verir. Təşkilatın terrorçuluq anlayışına ilk dəfə yer verdiyi sənəd 1983 tarixli Madrid ikinci nəzərdən keçirmə iclası yekun sənədi olmuşdur. Sənəddə yazılmışdı ki, iştirakçı dövlətlər terroru, o cümlədən beynəlxalq münasibətlərdə terroru günahsız insan həyatını təhlükəyə atmaq və ya insan hüquqlarını, əsas azadlıqlarını təhdid edən bir hadisə kimi qınayır, onunla mübarizə üçün qətiyyətli tədbirlərin görülməsinin vacibliyini vurğulayırlar. Terror aktlarının qarşısının alınması və onlara qarşı mübarizə üçün həm milli səviyyədə, həm də beynəlxalq əməkdaşlıq yolu ilə təsirli tədbirlər görmək əzmlərini ifadə edirlər (9, s.4). ATƏT üzv dövlətləri sənədin qəbulundan dövrümüzə qədər keçirdiyi bütün görüşlərində terrorizm məsələsini də müzakirə etmişlər (47, s.385). 1999-cu ilin noyabrında İstanbulda 54 ölkənin iştirakı ilə toplanan ATƏT-in Zirvə Görüşündə Avropa Təhlükəsizlik Xartiyası qəbul edilmiş, ATƏT-in qloballaşma dövründəki prioritetlərini və həyata keçirməyi hədəf seçdiyi çox tərəfli əməkdaşlığın dinamikalarını müəyyənləşdirilmişdir.

Transmilli terrorçuluqla mübarizədə ATƏT-in rolu ilə bağlı 2002-ci il aprelin 12-də ATƏT Daimi Şurasının iclası keçirilmişdi. İclasda terrorizmin qarşısının alınması və terrorizmə qarşı mübarizə üzrə ATƏT sədrinin şəxsi nümayəndəsi Yan Troyeborq (Danimarka), ATƏT təsisat və qurumlarının rəhbərləri çıxış etmişdilər. Müzakirələrdə Azərbaycan Respublikasının nümayəndəsi çıxış edərək ölkəsinin terrorizm-dən əziyyət çəkdiyini, terrorizmə qarşı mübarizəyə hazır olduğunu bildirmişdi (24, s.407). Məhz bu iclasda 2002-ci ilin dekabr ayında Porto şəhərində keçiriləcək ATƏT Nazirlər Şurasının növbəti iclasında terrorçuluqla bağlı xüsusi bir sənədin qəbul olunmasını məqsədəuyğun hesab edilmişdi. Terrorçuluğa qarşı mübarizə məsələləri ATƏT Xarici İşlər Nazirləri Şurasının 2002-ci il dekabrın 6-7-də Portoda keçirilmiş 10-cu görüşündə müzakirə edilmişdi (24, s.408).

Terrorçuluq və onun müxtəlif təzahürləri ilə mübarizə məsələsi Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı tərəfindən sonrakı illərdə qəbul edilmiş müxtəlif bəyanatlarda da əksini tapmışdır.

2002-ci ildə qəbul edilmiş Berlin bəyanatında terrorla mübarizə ilə bağlı bir sıra məqamlar əksini tapmışdır. Bu bəyanatda XXI əsrin çağırışlarına xüsusi diqqət yetirilmiş, terrorizmlə mübarizə və insan hüquqları məsələsinə toxunulmuşdu (1).

Sui-qəsd xarakterli terrorçuluqla mübarizə isə 2005-ci ildə qəbul edilmiş ATƏT-in Vaşinqton Bəyanatında öz əksini tapmışdı. Bu sənəddə də terrorçuluqla mübarizə və insan hüquqlarının qorunması məsələsi əsas diqqət yetirilən mövzulardan biri olmuşdu (57, s.44).

2006-cı ildə qəbul edilmiş ATƏT-in Brüssel Bəyanatında terrorizmlə mübarizənin gücləndirilməsi ilə bağlı qərar əksini tapmış (18, s.172), 2010-cu ildə qəbul edilmiş Osla Bəyanatında isə Əfqanıstanda terrorçuluqla mübarizə, narkotik vasitələrin istehsalı və ticarəti ilə bağlı məsələlər əksini tapmışdı. Məlumdur ki, bu cür fəaliyyətlər həm də transmilli terrorçuluğun maliyyələşdirilməsinə xidmət edirdi. Bu baxımdan bunun qarşısının alınması üçün addımların atılması zəruri hesab edilirdi. Məlumdur ki, transmilli terror təşkilatlarının fəaliyyəti üçün qeyri-qanuni mühacirət mühüm əhəmiyyətə malikdir. Osla Bəyanatında bu məsələnin qarşısının alınması istiqamətində də üzv dövlətlərin qətiyyəti ifadə edilmişdi (34, s.83).

2011-ci ildə keçirilən Belqrad toplantısı terrorizmə səbəb olan zorakı eksterizmə və radikallaşmaya qarşı mübarizə məsələlərinin müzakirəsi ilə yaddaqalan olmuş, bu məsələlər üzv dövlətlər tərəfindən qəbul edilən Belqrad Qətnaməsində də öz əksini tapmışdı (40, s.10-12).

2012-ci ildə ATƏT-in qəbul etdiyi Monako Bəyanatında terrorçuluğa səbəb olan zorakı ekstremizmə və radikallaşmaya qarşı mübarizə

məsələlərindən bəhs olunmuşdu. Bununla yanaşı təşkilat bu bəyanatında Birləşmiş Millətlər Təşkilatının Qlobal Antiterror Strategiyasına dəstəyini ifadə etmişdi (29, s. 46-48, 50-53).

2014-cü ildə qəbul edilən Bakı bəyannaməsində terrorizm və radikalizmlə mübarizənin önəmi, terrorçuların immiqrasiyası nəticəsində terrorizm və radikalizm təhlükələrinin artmasından narahatlıq ifadə olunmuş və ATƏT-ə üzv ölkələr bu təhlükələrin qarşısının alınmasında təşkilatın rolunun artırılması üçün əlavə tədbirlər görmək imkanlarını nəzərdən keçirmənin vacibliyi vurğulanmışdı. Həmçinin informasiya və kommunikasiya texnologiyalarının terror məqsədləri üçün, habelə terrorçuluğa çağırış, onun maliyyələşdirilməsi və terrorçuların ələ alınması üçün istifadə olunmasında artan tendensiyalardan narahatlıq bildirilir və bunun qarşısını almaq üçün bütün lazımi tədbirlər görməyə və üzv dövlətlərin bu tədbirləri milli qanunvericiliyə, beynəlxalq hüquqa və ATƏT çərçivəsində götürülən siyasi öhdəliklərə uyğun təmin etmələri üçün çağırış edilmişdi (5, s.25-27).

Terrorizmə qarşı mübarizədə ATƏT-in rolunun gücləndirilməsi ilə bağlı qərar ATƏT-in 2017-ci il Minsk Bəyanatında əskini tapmışdı (28, s.35-38). Bir il sonra qəbul edilən Berlin Bəyanatında isə terrorizm, zorakı ekstremizm və radikalizmə qarşı mübarizə məsələləri yenidən gündəmə gətirilmişdi (6, s.27-33). 2020-ci ilin dekabrında Albaniyanın paytaxtı Tiranada keçirilən ATƏT Nazirlər Şurasının toplantısında mütəşəkkil transmilli cinayətkarlığa qarşı mübarizə ilə bağlı xüsusi bəyanat qəbul edilmişdi (14).

Qəbul olunmuş bu bəyanatlarla yanaşı ATƏT-in 2012-ci ildə Terrorla mübarizə üzrə çərçivə sazişi imzalamışdır. Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına üzv dövlətlər 2012-ci il Dublin konfransının yekunu olaraq dekabr ayının 7-də ATƏT-in terrorizmə qarşı mübarizədə qlobal səylərə verdiyi töhfənin profilini kəskinləşdirmək üçün mühüm addım atmışdılar. 57 iştirakçı dövlətin hamısı 1063 nömrəli qərar ilə ATƏT-in Terrorizmə Qarşı Mübarizə üzrə Birləşdirilmiş Çərçivə sazişini imzalamış və sənəd sonrakı dövrdə ATƏT-in terrorizmə qarşı mübarizəyə töhfə vermək üçün bir yol xəritəsi rolunu oynamışdı (13). Birləşdirilmiş Çərçivə sazişi yalnız ATƏT-in icra orqanları üçün yeni bir istiqaməti müəyyənləşdirməmiş, eyni zamanda transmilli terrorçuluqla mübarizə siyasətinin gücləndirilməsi məqsədi ilə əsas tərəfdaşlar və təşkilatlarla daha diqqətli və möhkəmləndirilmiş əməkdaşlığa imkan yaratmışdı.

Terrorçuluğun transmilliləşməsi ilə paralel, terror anlayışının islam fundamentalizmi ilə əlaqələnməsi və ya əlaqələndirilməsi müsəlman ölkələrini narahat edən bir məsələyə çevrilmişdir. Müsəlman dövlətlərinin İslam Əməkdaşlıq Təşkilatı (əvvəlki adı: İslam Konfransı Təşkilatı – S.R.) çərçivəsində bu məsələ ilə bağlı rəsmi mövqeyi konvensiyalarda, qətnamələrdə və müxtəlif bəyannamələrdə, habelə təşkilatın baş katibinin bu məsələ ilə bağlı dəyişməz mövqeyində təsdiqlənmişdir ki, bu da ciddi narahatlığı və bu qurumun beynəlxalq terrorizmə qarşı mübarizədə iştirak etməyə hazır olduğunu göstərir.

Qeyd etmək lazımdır ki, 1969-cu ildə yaradılmış və ilk iclası 1970-ci ildə Səudiyyə Ərəbistanının Ciddə şəhərində keçirilmiş İKT/İƏT özünü transmilli bir ümmətin xeyrinə işləyən panislamist bir təşkilat elan etmişdi (21, s.321-326). Təşkilat, müsəlman ölkələrinin və BMT-də müşahidəçilərin rəsmi mövqeyini ifadə edən bir platformadır. Bu baxımdan İƏT-in transmilli terrorçuluqla mübarizədəki mövqeyinin öyrənilməsi, habelə bu fenomenin İslam hüququ və siyasi düşüncə çərçivəsində qiymətləndirilməsi müasir dövrün çox aktual mövzularından biridir. Terrorizm fenomeni, ona qarşı mübarizə metodları və üsulları İƏT qətnamələrində, bəyannamələrində və müxtəlif sənədlərində öz əksini tapmışdır. Günümüzə qədər İKT/İƏT-in transmilli terrorçuluqla mübarizə ilə bağlı qəbul etdiyi bir sıra mühüm sənədlər vardır. Təşkilatın Nazirlər Şurasının 1992-ci ildə qəbul etdiyi Kəraçi qətnaməsində antiterror komitəsi yaradılması, BMT-nin himayəsi altında antiterror konfransının çağırılması təklifləri irəli sürülmüşdü. Qətnamədə

nəzərdə tutulurdu ki, növbəti görüş üçün terrorla mübarizə haqqında qərar planı hazırlansın (60, s.53).

1994-cü ildə qəbul edilən Terrorizmə münasibətdə İKT-nin Davranış Kodeksində terrorizmi bütün təzahürlərini qınanması, terrorçulara hər hansı bir maliyyə dəstəyinin qeyri-qanuniliyinin qəbul edilməsi, terrorizmlə mübarizədə üzv dövlətlər arasında məlumat mübadiləsinin inkişafı məsələləri əksini tapmışdı (60, s.53). Bununla belə kodeks hüquqi baxımdan məcburi sənəd xarakteri daşımırdı. Lakin bu sənəd 1999-cu ilin iyul ayının 1-də Burkino-Fasoda qəbul edilmiş və 2002-ci ilin noyabrında qüvvəyə minmiş Beynəlxalq Terrorçuluqla Mübarizə üzrə İslam Konfransı Təşkilatının Konvensiyasının hazırlanmasına əhəmiyyətli təsir göstərmişdir (32). Qeyd olunduğu kimi, konvensiya 2002-ci ilin 7 noyabrında texniki cəhətdən qüvvəyə minmiş olsa da, buradakı bəzi müddəaların genişliyi onun təsirli bir vasitə kimi sonradan effektiv tətbiqinə mane olmuşdur. Buna baxmayaraq Konvensiya, təşkilatın terrorla mübarizə mövzusunda razılaşdırılmış institusional yanaşmasının ifadə edilməsi və regional terrorizmlə əlaqəli normaların inkişaf etdirilməsi baxımından vacib bir hüquqi mənbə rolunu oynamışdır.

1999-cu il Konvensiyası ilə əlaqədar rast gəlinən bu və digər problemləri nəzərə alaraq İƏT 2016-cı ildə mövcud əməkdaşlığın səviyyəsini yüksəltmək və gücləndirmək üçün əlavə protokollar qəbul etmiş, habelə 1999-cu il Konvensiyasının müddəalarına edilən dəyişikliklərə baxılacağını elan etmişdir.

2002-ci ildə Kuala Lumpurda İKT-nin Beynəlxalq Terrorçuluq haqqında Bəyannaməsi qəbul edilmişdi (33). Bu elə bir dövrə təsadüf edirdi ki, dünyada terrorçuluğu, xüsusən qlobal terrorçuluğu ciddi-cəhdlə islama bağlamaq cəhdləri müşahidə olunur, bu isə Qərbdə islamofobiyanın daha güclənməsinə rəvac verirdi. Kuala Lumpur bəyannaməsində terrorla İslam arasında hər hansı bir əlaqənin olmadığı vurğulanmış, BMT-nin himayəsi altında beynəlxalq birliyin terrorun bütün təzahürlərinə terrorizmə qarşı birgə strategiya hazırlamasının zəruriliyi qeyd olunmuş, və bu barədə təklif irəli sürülmüşdü. Sənəddə həmçinin beynəlxalq terrorizmlə mübarizədə İKT dövlətləri arasında əməkdaşlığın və koordinasiyalı fəaliyyətin gücləndirilməsi, müxtəlif sivilizasiyalar, mədəniyyətlər və inanclar arasında dialoq və anlaşmanın gücləndirilməsi məsələləri ilə məşğul olan 13 ölkədən ibarət İƏT Terror Komitəsinin yaradılması da nəzərdə tutulmuşdu (60, s.53).

İKT-nin fəal üzvü olaraq terrorçuluqla İslamın eyniləşdirilməsi məsələlərində Azərbaycan dövləti də zaman-zaman narahatlıqlarını ifadə etmiş, buna qarşı etiraz səsini ucaltmışdı. 2005-ci ilin dekabrında Məkkədə İslam Konfransı Təşkilatının üçüncü fövqəladə zirvə toplantısında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdi: "...biz beynəlxalq terrorizmi İslam dini ilə əlaqələndirənlərə qəti etirazımızı bildiririk. Belə bir tezis tamamilə səhvdir, əsassızdır və qəbuledilməzdir...". (17, s.186)

2006-cı ildə qəbul edilmiş Bakı Qətnaməsində terrorizmin müəyyənləşdirilməsi üçün BMT-nin himayəsi altında konfrans çağırılması təklifi irəli sürülmüşdü. Bu prosedurun sürətləndirilməsi barədə İƏT ölkələrinə müraciət ünvanlanmış, 1999-cu il Konvensiyasının üzv dövlətlər tərəfindən ratifikasiyası müzakirə edilmişdi. Azərbaycanlı tədqiqatçı Səidə Quliyeva yazır ki, İKT ölkələri turizm nazirlərinin 2006-cı il sentyabrın 12-də Bakıda keçirilən V konfransında da terrorizmin, separatizmin bütün təzahürlərinə qarşı mübarizə məsələlərinə toxunulmuş, onun pislənməsi qərara alınmışdı (25, s.360-365).

2014-cü ilin noyabrında Ciddədə keçirilən İƏT İnsan Hüquqları Komissiyasının 6-cı iclasında bir daha İslamın ekstremizm və zorakılıqla əlaqələndirilməsinin yanlış olduğu vurğulanmışdır. Qeyd olunmuşdu ki, ekstremizmin kökləri dini savadsızlıqda, siyasi və sosial ədalətsizlikdə təcəssüm olunmuşdur, onun İslamla heç bir əlaqəsi yoxdur. Burada həmçinin dünya mediasına İslam dünyasında baş verən hadisələri, müasir ekstremizm İslam dini ilə əlaqəsinin əsassızlığını obyektiv və

qərəzsiz şəkildə işıqlandırması üçün çağırış edilmişdi (60, s.53).

Sonrakı illərdə İƏT 2015-ci ildə yaradılmış Terrorizmə Qarşı İslam Hərbi İttifaqı ilə beynəlxalq sülh və təhlükəsizliyi təmin etmək üçün terrorla mübarizədə razılaşma əldə edilmişdi. İƏT-in bu barədə açıqlamasında bildirilirdi ki, razılaşma tərəflər arasında əməkdaşlığı artırmaq, beynəlxalq sülhə və təhlükəsizliyə töhfə vermək və terror səylərinə qarşı mübarizə məqsədi daşıyır. Qeyd etmək lazımdır ki, Terrorizmə Qarşı İslam Hərbi İttifaqı Səudiyyə Ərəbistanının rəhbərliyi ilə İslam ölkələrini təhdid edən "bütün terror qruplaşmaları" ilə mübarizə məqsədi ilə yaradılmışdı (23).

Aparılan təhlillər göstərir ki, müasir dünyada əhəmiyyətli terror təhlükəsi ilə üzləşən dövlətlərin əksəriyyəti məhz İƏT-ə üzv dövlətləridir. Bu ölkələrin bəzilərində terror qruplaşmalarının misli görünməmiş bir fəaliyyəti mövcuddur ki, bu da onların təhlükəsizliyini deyil, həm də dövlətçiliyin mövcudluğunu təhdid edir. Terror təhlükəsi barədə məlumatlı olmağa və bununla mübarizə aparmağın zəruriliyinə baxmayaraq İƏT-də fikir və mövqelərin vəhdəti problemi olduqca aktualdır. Üzv dövlətlərin geosiyasi ambisiyaları və təşkilatın terrorizmə ikili yanaşma mövqeyi sayəsində təşkilat hələ də təsirli kollektiv təsir mərkəzi və vacib beynəlxalq qərarların qəbul ediləcəyi bir qurum hesab edilmir.

Yuxarıda transmilli terrorçuluğa qarşı fəaliyyəti təhlil olunan qlobal və regional təşkilatlarla yanaşı, Müstəqil Dövlət Birliyi, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və bir sıra digər təşkilatlar çərçivəsində də transmilli terrorçuluqla mübarizə məsələləri müzakirə olunur, bəyannamə, qərar, qətnamə və digər sənədlər qəbul edilir.

Beynəlxalq təşkilatların və təhlükəsizlik institutlarının transmilli terrorçuluğa qarşı mübarizə təşəbbüslərinin, metodlarının tədqiqi, bu fəaliyyətlərin nəticələrinin təhlili bir sıra qənaətlərə gəlməyə imkan verir.

İlk növbədə aydın olur ki, terrorçuluqla mübarizə məsələləri XX əsrin 70-ci illərindən etibarən, transmilli terrorçuluqla mübarizə məsələləri isə 2001-ci ildən sonra beynəlxalq təşkilatların gündəminə daxil olmuşdur. Bu baxımdan transmilli terrorçuluq ayrı bir məhfum olmayıb terrorçuluğun yeni və daha təhlükəli bir fazası kimi qiymədləndirilmişdir.

İkincisi, dövlətlərin transmilli terrorçuluq və terror təşkilatları anlayışlarına yanaşması fərqli olduğu kimi, beynəlxalq təşkilatların, təhlükəsizlik institutlarının da bu anlayışlara yanaşması konkret deyildir, təşkilatların maraq və mənafelərinə uyğun olaraq dəyişkəndir. Ən böyük problemlərdən biri məhz ondan ibarətdir ki, dünyada transmilli terrorçuluğun hər kəs tərəfindən, bütün beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən vahid tərifi belə yoxdur.

Üçüncüsü, transmilli terrorçuluğa qarşı mübarizə məsələləri BMT toplantılarında, bu təşkilat tərəfindən qəbul edilən müxtəlif sənədlərdə, qərar və qətnamələrdə, konvensiyalarda öz əksini tapsa da, bir çox hallarda qərarların tətbiqetmə və məcburetmə mexanizmləri işləmir. Bəzi ölkələrə qarşı terror hücumlarına münasibətdə kəskin reaksiyalar verildiyi halda, digər ölkələr münasibətdə bu reaksiyalar gecikir, transmilli terrorçuluğun qarşısının alınması üçün əməli addımlar atılmır. Məhz bu səbəbdəndir ki, son dövrlərdə müxtəlif dövlətlər tərəfindən BMT-də islahatların zəruriliyi ilə bağlı çağırışlar edilir.

Dördüncüsü, dünyada transmilli terrorçuluğun Avropa və Atlantik məkana qarşı fəaliyyətlərinin qarşısının alınmasında NATO-nun danılmaz rolu vardır. Müəyyən maraq və məqsədlər uğrunda birləşmiş ölkələrin hərbi-siyasi təşkilatı olan NATO-nun transmilli terrorçuluğa qarşı mübarizəsi məhz bu cəhətdən məhdud xarakter daşıyır. Onun transmilli terrorçuluqla mübarizədə tətbiq etdiyi metodlar və vasitələr əsasən ABŞ və Avropa dövlətlərinin mənafelərinin müdafiəsinə yönəlmişdir. Hətta bəzi hallarda NATO öz üzvü olan Türkiyə kimi dövlətin belə transmilli terrorçuluqla mübarizəsinə yetərli dəstək vermir və ya buna ikili standartlardan yanaşır.

Beşincisi, Avropa məkanında təhlükəsizliyə və əməkdaşlığa cavabdeh olan bir

qurum kimi ATƏT-in çoxsaylı sənədlərində və bəyanatlarnda transmilli terrorçuluqla mübarizə məsələləri, metodları öz əksini tapmışdır.

Altıncısı, İslam Əməkdaşlıq Təşkilatı da transmilli terror təşkilatlarının fəaliyyətinin nəticələrindən ən çox əziyyət çəkən ölkələri birləşdirən təşkilat olaraq ona qarşı mübarizə aparır. Bu təşkilat həmçinin çalışır ki, dünyada terrorçuluq və İslam anlayışlarının eyniləşdirilməsi yönündə bəzi ölkələrin apardığı məqsədyönlü qara təbliğatın qarşısını alsın. Terrorçuluğun səbəbinin İslam dini deyil, savadsızlıq və cahilli olduğunu, terrorçuların dininin olmadığını göstərsin. Təhlillər özünü panislamist bir təşkilat elan etmiş İƏT-in də fəaliyyətində transmilli terrorçuluğa münasibətdə bəzi hallarda ikili standartların olduğunu deməyə əsas verir. Bu təşkilatın transmilli terrorçuluğa qarşı mübarizəsini digərlərindən fərqləndirən əsas məqamlardan biri isə qlobal bəlaya qarşı mübarizədə siyasi, hüquqi, hərbi vasitələrlə yanaşı mənəvi-təbliğati metodlardan da istifadəni zəruri hesab etməsindədir. Təhlillər göstərir ki, məhz bu cür metodlardan istifadə transmilli terrorçuluğun təzahürlərinin deyil, onun köklərinin aradan qaldırılmasına imkan verə bilər.

**Ədəbiyyat:**


1. 2002 Berlin declaration of the OSCE Parliamentary Assembly and resolutions adopted during the Eleventh annual session. –Berlin: Organization for Security and Co-operation in Europe, -2002. -30 p.
2. Aksoy, E. International terrorism in the age of globalization: / a master’s thesis/, -Ankara, -2002, -90 s.
3. A Secure Europe in a Better World - a European Security Strategy. Adopted by the European Council on December 12,2003. Brussels // European Council. -Mode of access:http://ue.eu.int/uedocs/crnsUpload/78367.pdf
4. Baker-Beall C. The European Union’s ‘Fight against Terrorism’: A Critical Discourse Analysis :/ Submitted in partial fulfilment of the requirements for the award of Doctor of Philosophy / Loughborough University, 2010. -259 p.
5. Baku declaration and resolutions adopted by the OSCE Parliamentary Assembly at the Twenty-third annual session. –Baku: Organization for Security and Co-operation in Europe, -2014. -62 p.,
6. Berlin declaration and resolutions adopted by the OSCE Parliamentary Assembly at the at the Twenty-seventh annual session. –Berlin: Organization for Security and Co-operation in Europe PA, -2018. -74 p.
7. Cardona, M. The European Response to Terrorism // Terrorism and Political Violence. - 1992. - Vol.4. , Iss.4. –p. 244-254
8. Civil Emergency Planning Crisis Management Arrangements: [Electronic resource] / PIIT.ORG.PL. -2013. URL: www.piit.org.pl/__data/assets/pdf_file/0021/13827/AC_98EAPCD20130005.pdf, -42 p.
9. Concluding Document of the Madrid Follow-Up Meeting of the CSCE. Madrid, 6 September 1983: [Electronic resource] / CVCE.EU. URL: www.cvce.eu/content/publication/2005/10/6/3303eb93-69f6-4f37-aa1c-dadac0ad6f11/publishable_en.pdf. -18 p
10. Cordesman, A.H., International Cooperation in Counterterrorism: Redefining the Threat and the Requirement /A.H.Cordesman. – Washington: CSIS, -2010. -44 s
11. Council Common Position 2002/402/CFSP // Official Journal of the European Union. - 2002. - L 139. - May 29th.
12. Dadaşova, R.B. Beynəlxalq münasibətlərin müasir problemləri və BMT / R.B.Dadaşova. –Bakı: Təknur, -2012. -183 s.
13. Decision No. 1063 OSCE Consolidated framework for the fight against terrorism: [Electronic resource] / The official site of the OSCE, -2012. URL: www.osce.org/files/f/documents/7/5/98008.pdf

14. Declaration on strengthening co-operation in countering transnational organized crime: [Electronic resource] / The official site of the OSCE, -2020. URL: www.osce.org/files/f/documents/e/5/479768.pdf
15. Den Boer, Monica and Monar, Jorg. Keynote Article: 11 September and the Challenges of Global Terrorism to the EU as Security Actor // The European Union: Annual Review of the EU 2001/2002. Ed. by Edwards, Geoffrey and Wiessala, Georg. - Oxford, UK: Blackwell Publishing, 2002. –pp. 11-28.
16. Demirci, S. Terörizme Karşı Mücadele Modelleri // Çankırı Karatekin Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi 2(2): 193-212
17. Əliyev, İ.H. İnkişaf məqsədimizdir: [104 cilddə]/ İ.H.Əliyev. 14-cü kitab. –Bakı: Azərnəşr, -2013. -408 s.
18. Fourteenth Meeting of the Ministerial Council 4 and 5 December 2006 Statements and declarations by the Ministerial Council Decisions of the Ministerial Council Rules of Procedure of the Organization for Security and Co-operation in Europe Statements by the Chairman-in-Office and delegations Reports to the Ministerial Council. –Brussels: Organization for Security and Co-operation in Europe, -2006
19. Hartmann, J. International instruments related to the prevention and suppression of international terrorism: /Theses/ - Durham University, -2006, - 153 p.
20. Helsinki Final Act. 1 August 1975. [Electronic resource]/ The official site of OSCE. – 2021. URL:www.osce.org/files/f/documents/5/c/39501.pdf.
21. İslam Konfransı Təşkilatının nizamnaməsi.– Heydər Əliyev və Şərq. 6 cilddə. İKT dövlətləri. V kitab
22. Istanbul summit reader’s guide/ NATO. - –Brussels, -2004. -136 p
23. Joint Statement on the Formation of the Islamic Military Alliance: [Electronic resource] / The official site of Embassy of the Kingdom of Saudi Arabia in USA, - 2017. URL: https://embassies.mofa.gov.sa/sites/usa/EN/PublicAffairs/Statements/Pages/Joint-Statement-on-the-Formation-of-the-Islamic-Military-Alliance.aspx
24. Qasımlı, M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): [İki cilddə] /M.C.Qasımlı. II hissə. –Bakı, -2015. -640 s.,
25. Quliyeva, S. Islam Konfransi Təşkilatı: yaranması və formalaşdirilması // “Dirçəliş-XXI əsr” - 2008. - № 124 - 125.
26. Lisbon Summit Declaration: [Electronic resource] / The Offical Site of NATO. - 2010. 20 November. URL: www.nato.int/cps/en/natolive/official_texts_68828.htm
27. Messmer, W. B., Yordan, C. The origins of United Nations’ global counter-terrorism system // Historia Actual Online, -2010. Núm. 22, -p. 173-182
28. Minsk declaration and resolutions adopted by the OSCE Parliamentary Assembly at the Twenty-sixth annual session. –Minsk: Organization for Security and Co-operation in Europe PA, -2017. -58 p
29. Monaco declaration and resolutions adopted by the OSCE Parliamentary Assembly at the Twenty-first annual session. -Monaco: Organization for Security and Co-operation in Europe PA, -2012. -75 p.
30. NATO’s policy guidelines on counter-terrorism: [Electronic resource] / The Offical Site of NATO. -2012, May 21. URL: www.nato.int/cps/en/natohq/official_texts_87905.htm
31. Nəsirov, E. X. ABŞ və beynəlxalq terrorizm problemi:/ siyasi elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş diss./ -Bakı: Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, -2010. -320 s.
32. Organization of the Islamic Conference (OIC), Convention of the Organisation of the Islamic Conference on Combating International Terrorism: [Electronic

resource] / Refworld, -1999, 1 July. URL: www.refworld.org/docid/3de5e6646.html. -17 p.

33. Organization of the Islamic Conference (OIC), Kuala Lumpur Declaration on International Terrorism: [Electronic resource] / The offfical site of the OİC, -2002, April 3. URL: www.oic-oci.org/english/conf/fm/11_extraordinary/declaration.htm.
34. OSLO declaration of the OSCE Parliamentary Assembly and resolutions adopted at the Nineteenth annual session. –Oslo: Organization for Security and Co-operation in Europe PA, -2010.
35. Puhl, D. Emerging Security Challenges: An Introduction // Connections, Vol. 15, No. 2, -2016, -pp. 5–7. J
36. Rabbat, P.J. The Role of the United Nations in the Prevention and Repression of International Terrorism // A War on Terror? The European Stance on a New Threat, Changing Laws and Human Rights Implications/ Ed. M. Wade, A. Maljevic. -New York: Springer, -2010. –p. 81-106.
37. Resolution 1269 (1999)/ Adopted by the Security Council at its 4053rd meeting, on 19 October 1999 [Electron resource] / United Nations Digital Library. -1999. URL: https://digitallibrary.un.org/record/287509. -2 p.,
38. Resolution 2170 (2014) // Adopted by the Security Council at its 7242nd meeting, on 15 August 2014. –New York: UN publications. -2014. -7 p.
39. Resolution 2482 (2019) // Adopted by the Security Council at its 8582nd meeting, on 19 July 2019. –New York: UN publications. -2019. – 7 p
40. Resolutions of the OSCE Parliamentary Assembly adopted at the twentieth annual session. –Belgrade: Organization for Security and Co-operation in Europe PA, -.2011. -54 p.
41. Saul, B. Definition of „Terrorism‟ in the UN Security Council: 1985–2004 // Chinese Journal of International Law , Vol. 4, No. 1, -2005,s.155-170., p. 164.
42. Scharf, M.P. Defınıng Terrorısm As The Peacetıme Equıvalent Of War Crımes: Problems And Prospects // Case Western Reserve Journal of International Law,Vol. 36, No.2; -2004
43. Schmitt, M. N., The North Atlantic Alliance and Collective Defense at 70: Confession and Response Revisited // 34 Emory Int'l L. Rev. 85, -2019. –p. 85-120.
44. Semercioğlu, H. Uluslararası terörizmde küresel işbirliği: bir ütopya // Hacettepe Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, Cilt 34, Sayı 2, -201. -s. 97-114
45. Statement by NATO Secretary General, Lord Robertson: [Electronic resource] /NATO Online Library. -2001, October 02. URL: www.nato.int/docu/speech/2001/s011002a.htm
46. Terrorism and the Emergence of New Threats: [Electron resource]/ NATO Handbook, -2002, Nobember 24. URL: www.nato.int/docu/handbook/2001/hb0106.htm.
47. Türkiye ve Terrörizm / Türkiye Barolar Birliği. Ankara: Şen matbaa. -2006. -634s.
48. The North Atlantic Treaty // Washington D.C. - 4 April 1949: [Electronic resource] / The Offical Site of NATO. -2019. 10 april. URL: www.nato.int/cps/en/natolive/official_texts_17120.htm.
49. The Prague summit and NATO’s transformation / NATO. –Brussels: Nato Public Diplomacy Division, -2003. -110 p.
50. The United Nations Global Counter-Terrorism Strategy // Resolution adopted by the General Assembly on 8 September 2006 . –New York: UN publications. -2006. – 9 p.
51. Treaty of Amsterdam Amending the Treaty on European Union, the Treaties Establishing the European Communities and Related Acts // Official Journal of the European Union. - 1997. - c 340. -November 10th.
52. UN Security Council Resolution 1540 (2004) : [Electronic resource] / The official

site of UN. – 2004. URL: www.un.org/disarmament/wmd/sc1540/
53. Van Leeuwen, M. NATO and the War on Terror // Atlantisch Perspectief, Vol. 41, No. 3, -2017.
54. Voronova, S. Understanding EU counter-terrorism policy // European Parliamentary Research Service, PE 659.446. – 2021, January. -p. 1-12, p. 4-8.
55. Zagari, M.P.M. Combating Terrorism: Report to the Committee of Legal Affairs and Citizens' Rights of the European Parliament // Terrorism and Political Violence. - 1992. - Vol.4. - lss.4. –p. 288-300
56. Warbrick, C., McGoldrick, D., Mackarel, M., & Nash, S. I. Extradition and the European Union // International and Comparative Law Quarterly, -1997. 46(4),
57. Washington DC declaration of the OSCE Parliamentary Assembly and resolutions adopted at the Fourteenth annual session. - Washington DC: Organization for Security and Co-operation in Europe, -2005.
58. Борьба с терроризмом и защита прав человека. Руководство /Джонатан Купер. –Warsaw: БДИПЧ ОБСЕ, -2009. - 312 с.
59. Веселовский, С. С. Многостороннее сотрудничество в борьбе с транснациональным терроризмом: / Дис. на соискание ученой степени кандидата политических наук/ - Москва: Московский государственный институт международных отношений (университет) МИД РФ, - 2007. -208 с.
60. Насир, Х. Дж. Отношение Исламских институтов к борьбе с международным терроризмом // Сравнительная политика . 2017 Т.8, №4, с. 42-59
61. Новосколцева, Л. Роль международных организаций в предотвращении и противодействии международному терроризму // ASO.A.5(1)/2015.-с. 116-132.
62. Резолюция Совета Безопасности ООН. S/RES/1373 (2001) // принятая Советом Безопасности на его 4385-м заседании 28 сентября 2001 года. -New-York, - 2001. URL: www.unodc.org/pdf/crime/terrorism/res_1373_russian.pdf//. -4 с.

***Açar sözlər:*** *terrorçuluq, antiterror, beynəlxalq təşkilatlar, BMT, NATOAnti-terrorist initiatives, methods and results of international organizations and security institutions*

**Sama Rzayeva**
*Former Ph.D. student of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

# ANTI-TERRORIST INITIATIVES AND METHODS OF INTERNATIONAL ORGANIZATIONS AND SECURITY INSTITUTES AND THEIR RESULTS

## ABSTRACT

Defining a strategy to combat terrorism and ensuring international security are shaped by norms based on cooperation and international organizations. Both states and international institutions combat this threat through cooperation within ratified bilateral agreements and international organizations. International organizations are one of the most important non-governmental actors in the fight against terrorism. Based on their experience in various areas of security, development, and international cooperation, they can exert a certain influence on states in the fight against terrorism. It should also be considered that the emergence of international organizations was directly related to the inability of national states to perform a single regulatory function in the regulation of regional and transnational processes. In this regard, international institutions' global action programs and multilateral mechanisms are the most effective tool in the fight against terrorism, although not complete.

***Keywords:*** *terrorism, anti-terrorism, international organizations, UN, NATO*

**Сяма Рзаева**
*Бывший диссертант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

# АНТИТЕРРОРИСТИЧЕСКИЕ ИНИЦИАТИВЫ, МЕТОДЫ И РЕЗУЛЬТАТЫ МЕЖДУНАРОДНЫХ ОРГАНИЗАЦИЙ И ИНСТИТУТОВ БЕЗОПАСНОСТИ

## РЕЗЮМЕ

Определение стратегии борьбы с терроризмом и обеспечение международного порядка формируются нормами, основанными на сотрудничестве, и международными организациями как государства, так и международные институты вместе ведут борьбу с этой угрозой посредством сотрудничества в рамках ратифицированных двусторонних соглашений и международных организаций. Международные организации являются одним из важнейших неправительственных акторов в борьбе с терроризмом, которые на основе своего опыта в различных сферах безопасности, развития и международного сотрудничества могут оказывать определенное влияние на государства в борьбе с терроризмом. Следует также учитывать, что появление международных организаций было напрямую связано с неспособностью национальных государств выполнять единую регулятивную функцию в регулировании региональных и международных процессов. В связи с этим глобальные программы действий и многосторонние механизмы международных институтов являются наиболее эффективным инструментом борьбы с терроризмом, хотя и не полным.

***Ключевые слова:*** *терроризм, антитерроризм, международные организации, ООН, НАТО*

GƏNC TƏDQİQATÇILAR
YOUNG RESEARCHERS

DÖVLƏT İDARƏÇİLİYİ
PUBLIC ADMINISTRATION

UOT 327(091)

**ANAR ŞÜKÜROV**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının doktorantı**
*e-mail: anar-shukurov2015@list.ru*

# QLOBALLAŞMA PROSESİNDƏ QURUMLARIN STRATEJİ FƏALİYYƏT SAHƏSİ KİMİ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR (PR)

Müasir dövrümüzdə sənayeləşmənin nəticəsi olaraq meydana çıxan ünsiyyət texnologiyalarındakı yeniliklər, iş həyatındakı və biznes idarəçiliyindəki dəyişikliklər, qloballaşma, istehlakçı meyllərinin müxtəlifləşməsi, rəqabətin artması və s. kimi təsirlər hədəf kütlələr ilə münasibətlərin düzgün qurulmasını zəruri edir. Məhz hədəf kütlələr ilə düzgün və səmərəli münasibətlərin qurulması ictimaiyyətlə əlaqələr fəaliyyəti ilə həyata keçirilir.

XX əsrdə ictimaiyyətlə əlaqələr öz kimliyini tapmış və qloballaşmanın hərəkətverici qüvvəsi kimi öz fəaliyyətini davam etdirməkdədir. XXI əsrdə İKT-nin inkişafı, dünyada genişlənən veb şəbəkəsinin təkmilləşdirilməsi xüsusilə də transmilli şirkətlərin öz hədəf kütlələri və ya ictimaiyyəti ilə qarşılıqlı münasibətlərini gücləndirmək istəkləri ictimaiyyətlə əlaqələr fəaliyyətini daha da təkmilləşdirmişdir. Bütün bunlar qurumların maliyyə yükünün azalmasına da səbəb olmuşdur. İctimaiyyətlə əlaqələr qloballaşma fenomeninin müxtəlif ölkələrdə yayılmasındakı əsas amillərdən biri olmuşdur. Həmçinin qloballaşma prosesi də ictimaiyyətlə əlaqələrin funksionallığının daha da inkişaf etməsinə səbəb olmuşdur.

## Qloballaşma və İnformasiya əsri

Qloballaşma – 1960-70-ci illərdə işçi hərəkatları mühitindən, 1980-90-cı illərdə əsas mahiyyəti ilə dövlətlərarası rəqabətin artdığı, iqtisadi səmərəliliyin əsas olduğu, məhsuldarlığın əhəmiyyət kəsb etdiyi bir zamana keçiddən sonra meydana çıxmışdır. Bu dövrdən sonra qloballaşma sözünə tez-tez təsadüf edilməyə başlanılmışdır.

Qloballaşma prosesi ölkələrin iqtisadiyyatlarından siyasətlərinə, mədəniyyətlərindən sosial həyatlarına qədər bir çox sahələrdə köklü dəyişikliklərin yaranmasına səbəb olmuşdur. Qloballaşma prosesinin köklü dəyişikliklərə məruz qoyduğu sahələrdən biri də rabitə kanalları və ya ünsiyyət vasitələridir. Həmçinin informasiya kommunikasiya texnologiyalarının inkişafı qloballaşma prosesini daha da sürətləndirərək ünsiyyət kanalları sektorundakı ənənəvi tətbiqləri geridə qoymuşdur. Bütün bunlar da inkişaf edən texnologiyaya əsaslanaraq yenidən strukturlaşmanı labüd etmişdir.

Müasir dövrümüzdə baş verən bu dəyişikliklər "İnformasiya əsri" olaraq adlandırılır. İnformasiya əsri mürəkkəb kommunikasiya infrastrukturuna və yüksək səviyyədə inkişafa əsaslanır. Qeyd olunan mürəkkəb infrastruktur əsasında dünyanın sərhədləri kiçilmiş, insanlar daha asan yolla ünsiyyət qurmaq imkanı əldə etmişlər. İnformasiya əsri özü ilə birlikdə informasiya iqtisadiyyatı konsepsiyasını meydana gətirmişdir. İnformasiya iqtisadiyyatı

konsepsiyası əsasında istehsal prosesindən tutmuş satışa qədər demək olar ki, hər sahədə məhsuldarlığın artırılması hədəflənmişdir [4, s.16].

Müasir dövrümüzdə uğurlu və effektiv fəaliyyət göstərən qurumlar qısa zaman ərzində inkişaf edən texnologiyalara daha tez reaksiya verən qurumlardır. İnkişaf edən informasiya texnologiyaları ünsiyyət kanallarına, müxtəlif kommunikasiya mühitlərinə, təşkilati sosial maraqlara, ünsiyyət prosesində əks əlaqəyə, qurumlar tərəfindən qəbul edilən və ötürülən mesajların məzmununa, formalarına, mesajların ümumi mənalarına, idarəetmə prosesindəki məlumatların saxlanmasına, təşkilati ünsiyyət rollarına, qurumların strateji məlumatlarının idarə edilməsinə və həmçinin də ümumi olaraq bir şəxsiyyət kimi düşünsək təşkilatların şəxsiyyətlərinə təsir edərək ən yeni kommunikasiya mühiti formalaşdırmaqdadır.

Qeyd edək ki, rabitə və informasiya texnologiyalarının inkişaf səviyyəsinin artması müasir strateji peşə sayılan ictimaiyyətlə əlaqələr peşəsinə də ciddi təsir göstərmiş və bu sahədə kompüterlər effektiv və əvəzolunmaz alət olmuşdur. Çünki kompüterlərdən istifadə edərək onlayn qaydada ünsiyyət qurmaq, ümumi məlumat banklarına daxil olmaq, xüsusi təqdimatlar hazırlamaq, qurumların strateji fəaliyyətləri üçün araşdırmalar aparmaq imkanları vardır. Bütün sadaladığımız yəni kompüterlərin verdiyi imkanlar PR mütəxəssisləri və menecerləri üçün yeni üfüqlər açmış, bu sahədə fəaliyyət göstərən mütəxəssislərin işini xeyli asanlaşdırmış və həmçinin də ictimaiyyətlə əlaqələr sahəsində görülən işlərin keyfiyyətini xeyli artırmışdır.

Həmçinin inkişaf edən kommunikasiya texnologiyaları vasitəsilə telekonfrans sisteminin yaradılması ictimaiyyətlə əlaqələr sahəsində də çox geniş formada istifadə edilməkdədir. Onlayn qaydada telekörpü rolunu oynayan bu sistem vasitəsilə qurum əməkdaşları başqa məkanlarda olsalar belə həmin əməkdaşlarla onlayn görüşlər keçirmək, müxtəlif saatlarda və günün müəyyən edilmiş vaxtlarında hədəf kütlələr ilə onlayn qaydada söhbətlər etmək, əgər lazım gələrsə jurnalistlər, media və mətbuat nümayəndələri ilə də mətbuat konfransları keçirmək mümkün olmuşdur. Çünki yeni ünsiyyət texnologiyaları kağız vasitəsilə həyata keçirilən işləri virtual məkana daşımışdır. Bunun da nəticəsində qurumlar öz fəaliyyətlərini və siyasətlərini internet üzərindən qurmağa başlamışlar. Belə olan təqdirdə də ünsiyyət daha sürətli və iqtisadi cəhətdən də daha qənaətcil olmuşdur.

**İctimaiyyətlə əlaqələr anlayışı**

İctimaiyyətlə əlaqələr funksional və konseptual olaraq həmişə iqtisadi, siyasi, tarixi, sosioloji və psixoloji proseslərlə əlaqəli olaraq inkişaf etmişdir. İctimaiyyətlə əlaqələr nələrisə mənimsətmə, qəbul etdirmə, razılıq yaratma kimi səylərin məcmusu olmuşdur. Müasir dövrdə ictimaiyyətlə əlaqələrdə istifadə edilən metod və vasitələr kapitalist-liberal sistemin qaydaları əsasında formalaşmışdır. Başqa sözlə ifadə etsək, ictimaiyyətlə əlaqələr istər-istəməz qloballaşma ideologiyasının qəbul edilməsində bir vasitə kimi istifadə edilməkdədir.

Həmçinin ictimaiyyətlə əlaqələr ictimai şüuru nəzarətdə saxlamaq məqsədinə xidmət edir, liberal-kapitalist sistemlərdə hökmranlığın saxlanılması üçün istifadə edilən bir metoddur və eyni zamanda beynəlxalq bazarlara çıxan böyük şirkətlərin həmin xarici ölkələrdəki mövqeyini və imicini möhkəmləndirmək vəzifəsini öz üzərinə götürməkdədir [5, s.23].

İctimaiyyətlə əlaqələr (ingiliscə - Public Relations qısaca olaraq PR) terminindən ilk dəfə Amerika Birləşmiş Ştatlarının üçüncü prezidenti Tomas Cefersonun istifadə etdiyi deyilir. O, 1807-ci ildə "Konqresə VII müraciəti"nin qaralamasında ilk dəfə olaraq ictimaiyyətlə əlaqələr - PR terminini işlətmişdir. Bu termin altında o, ölkə daxilində dövlət hakimiyyətinə inamın yaradılmasını və bu işdə siyasi qurumların cəhdlərinin artırılmasını anlayırdı [1, s.10].

İctimaiyyətlə əlaqələr idarəçiliyi ən çox demokratik ölkələrdə və mühitdə inkişaf edə

bilir. Çünki ünsiyyət və inandırmaq ictimaiyyətlə əlaqələrin əsasını təşkil edir. Bu iki anlayışın hər ikisi demokratik cəmiyyətlərdə özünə yer tapa bilir. Qeyd edək ki, avtoritar idarəçilik sistemi olan ölkələrdə əsas olan təbliğatdırsa, qarşılıqlı razılıq əsasında münasibətlərə və ünsiyyətə üstünlük verən, rəqabət mühitində təsirli ola bilmək üçün səmərəli ünsiyyət üsullarından istifadə edən ictimaiyyətlə əlaqələr anlayışı demokratik rejimlərdə ön plana çıxır.

İctimaiyyətlə əlaqələr praktikası tarixi inkişaf yolunda əsasən ictimaiyyətin dəstəyini qazanmaq və müsbət imic yaratmaq kimi əsas məqsədlərə xidmət etmişdir. Müasir dövrdə isə ictimaiyyətlə əlaqələr hədəf auditoriyaları ilə daha ciddi və planlaşdırılmış ünsiyyət prosesini idarə etməkdədir. Bu da əvvəlcədən təyin edilmiş məqsədlərə xidmət etmək üçün nəzərdə tutulmuşdur [6, s. 53-54]

İnkişaf prosesi dinamik olduğu üçün ictimaiyyətlə əlaqələrin tətbiq sahələrinə də daim təsir göstərməkdədir. Başqa sözlə ifadə etsək, ictimaiyyətlə əlaqələr mövcud zamana və şəraitə daha tez uyğunlaşır və özünü yeniləmək qabiliyyətinə malikdir. Hər hansı bir ünsiyyət texnologiyası meydana çıxan zaman dərhal bu texnologiyanı ictimaiyyətlə əlaqələr öz sahəsində istifadə etməyə başlayır. İctimaiyyətlə əlaqələr fəaliyyətində ən çox istifadə olunan vasitələrdən biri olan internet təxmini olaraq 10-15 il əvvəl ölkələrdə daha az yayılmağa başlanılmışdır. İyirmi il əvvəl sponsorluq anlayışı haqqında insanlar heç eşitməsə də bu gün sponsorluq fəaliyyəti ictimaiyyətlə əlaqələr sahəsinin ən çox istifadə etdiyi vacib sahələrdən biridir. Bunları yekunlaşdırsaq deyə bilərik ki, PR mütəxəssisləri və ictimaiyyətlə əlaqələr sektorunda işləyənlər daim özlərini təkmilləşdirməyə borcludurlar. Çünki özlərinin və qurumlarının daha səmərəli və effektiv fəaliyyət göstərmələri həmçinin qurumlarının ictimaiyyət arasında daha yaxşı imicə malik olmaları üçün müasir dövrdə baş verən cari dəyişiklikləri, inkişafı daim izləməli və daha dərindən təhlillər aparmalıdırlar.

**Qurumların strateji fəaliyyət sahəsi kimi ictimaiyyətlə əlaqələr siyasəti**

Kommunikasiya texnologiyalarının yaratdığı şərait ictimaiyyətlə əlaqələr peşəsinin araşdırma prosesində xüsusi yerə malikdir. Araşdırma və tədqiqat prosesi ictimaiyyətlə əlaqələr idarəçiliyi baxımından ən vacib və strateji əhəmiyyətli məsələlərdən biridir. Çünki qurumlar hədəf kütlələrini daha yaxından tanımaq, xarici mühit ilə səmərəli münasibət qurmaq, rəqiblərini daha yaxından tanımaq və onların nə etdiklərini izləmək üçün çoxşaxəli araşdırmaya ehtiyac duyur. Telekommunikasiya və internet şəbəkəsinin inkişaf etməsi nəticəsində əvvəllər çox çətin tapılan vacib verilənlər və məlumatlar indi daha tez və asanlıqla tapıla bilir.

İctimaiyyətlə əlaqələr fəaliyyəti müxtəlif sahələrdə fəaliyyət göstərir və həmçinin aşağıda adları sadalanan sahələr üzrə qurumların strateji idarəetmə və kommunikasiya ehtiyaclarını ödəyir:

- Qurumdaxili münasibətləri tənzimləyir;
- Müxtəlif qurumlar və təşkilatlararası ünsiyyət prosesini həyata keçirir;
- Korporativ ictimaiyyətlə əlaqələr prosesini həyata keçirir;
- Media ilə əlaqələri tənzimləyir;
- Strateji kommunikasiyanı yerinə yetirir;
- Sosial ünsiyyəti tənzimləyir;
- Böhranı idarə edir;
- Qurumun korporativ şəxsiyyətini formalaşdırır;
- Qurumların müsbət imicini formalaşdırır;
- Sponsorluq və lobbiçilik fəaliyyətini həyata keçirir;
- Müxtəlif tədbirləri idarə edir və s.

İctimaiyyətlə əlaqələr fəaliyyəti qurumların strukturundan və maliyyə ölçüsündən asılı olmayaraq qurumların strateji fəaliyyət istiqamətlərinə daxil edilməli və idarəetmə şöbələri ilə birlikdə fəaliyyət göstərməlidirlər. Müasir dövrümüzdə müxtəlif institutların ictimaiyyətlə əlaqələr fəaliyyətlərinin elmi əsasları və təcrübələri XX əsrin əvvəllərinə təsadüf edir. Əgər ənənəvi formada baxsaq

ictimaiyyətlə əlaqələr media ilə əlaqələri ön plana çıxaran və təbliğatı qarşısına məqsəd qoyan fəaliyyət növüdür. Son dövrlərdə ictimaiyyətlə əlaqələrin tətbiq sahələri genişləndikcə qurumların strateji idarəetmə funksiyasına çevrilmiş, qurumların strategiyalarını və planlarını istiqamətləndirmək qabiliyyətinə malik olmuşdur.

Qurumların strateji planlarının formalaşdırılmasında və həyata keçirilməsində ictimaiyyətlə əlaqələr fəaliyyəti mühüm rol oynayır. Əgər qurumlar strateji planlarını hazırlayarkən müəyyən edilmiş strateji planlarının institusional məqsəd və vəzifələrində, çatılması istənilən vizyon və yerinə yetirilməsi istənilən missiyalarında öz hədəf auditoriyalarını nəzərə almazlarsa çətin ki, bu strateji plan uğurlu nəticələr versin. Qurumların həyata keçirdikləri strateji planlarda əsas təsir gücünə malik olan hədəf qrupları olduğunu nəzərə alsaq görərik ki, bu sahədə hədəf qruplar üçün hazırlanan strateji planların formalaşdırılmasında ictimaiyyətlə əlaqələr şöbələrinin və mütəxəssislərinin üzərinə daha böyük məsuliyyət və yük düşür. Çünki ictimaiyyətlə əlaqələr qurumlar tərəfindən hazırlanan uğurlu strateji planların formalaşdırılması və uğurla həyata keçirilməsi zamanı rəhbərliyə məsləhət verə, xarici mühiti izləyərək əsas tendensiyaları proqnozlaşdıra və hədəf kütlənin perspektivini görə bilərək qurumlara böyük töhfələr verə bilər.

Qruniq və Repper qurumların daha səmərəli formada fəaliyyət göstərmələri üçün uzunmüddətli və strateji təcrübələrə əsaslanan ictimaiyyətlə əlaqələr fəaliyyətinin əhəmiyyətli olduğunu bildirmişlər. Tədqiqatçılar bildirmişlər ki, qurumun həyata keçirdiyi ünsiyyət proqramları strateji cəhətdən idarə olunmalıdır. Bu prosesdə qurum ilə ictimaiyyətlə əlaqələr arasında qurulan əlaqələr davamlı formada həyata keçirilməli və ictimaiyyətlə əlaqələr institutunun qurumların strateji planlarının planlaşdırılmasında iştirakı zəruri və vacib olmalıdır. Həmçinin Qruniq və Repper hədəf kütlələr ilə effektiv əlaqələrin qurulması üçün ictimaiyyətlə əlaqələr fəaliyyətinin strateji əhəmiyyətini də vurğulamışlar. Çünki bu vəzifə qurumun fəaliyyət davamlılığını təmin etməsi üçün strateji vəzifə sayılır [3, s.131].

İctimaiyyətlə əlaqələr qloballaşmanın yayılma ideologiyasına uyğun olaraq informasiya ötürməyə meylli olmuşdur. Burada əsas məqsəd cəmiyyətin istehlakını mümkün qədər artırmaq, əsas şərtləri istehlakın şərtlərinə uyğun etmək və hədəf kütlələri ən effektiv şəkildə bu vəziyyətə hazırlamaqdır" [3, s.116]. İnformasiya cəmiyyətində fərdlərə şəxsiyyət kimi baxılması, fərdin şəxsiyyəti ilə bağlı dəyərlərinin əsas götürülməsi ciddi məsələlərdəndir. Bu xüsusiyyətlərin öyrənilməsi də ictimaiyyətlə əlaqələr fəaliyyətinə və sahəsinə aiddir. Həmçinin ictimaiyyətlə əlaqələr sahəsi sosial məsuliyyət hissinin və sosial şüurun inkişaf etdirilməsində maraqlıdır.

İctimaiyyətlə əlaqələr dövlət qurumları ilə özəl sektor arasında əlaqələri yaratmalı və inkişaf etdirməlidir. Bu işlərdən sonra ictimaiyyət ilə qeyd olunan qurumlar arasında körpü funksiyasını yerinə yetirməlidir. Burada ictimaiyyətlə əlaqələr təkcə mülkiyyət sahiblərinin deyil, yoxsul əhalinin, adi işçilərin və işi olmayan insanların ehtiyaclarını qarşılayacaq hüquqi qanunvericilik bazasının bələdçisi olmalıdır. Burada iş şəraitini, imkanlarını, cəmiyyətin təhlükəsizliyini, ümumi nizam-intizamı pozmayan, azad sahibkarlığı qoruyan və dəstəkləyən iqtisadi nizamın inkişafında iştirakçı sahə olmalıdır. Dövlət qanunlarının ictimaiyyətə, özəl qurumlara və müxtəlif təşkilatlara çatdırılmasında maraqlı olmalı və ona əməl edilməsində iştirak etməlidir.

## Nəticə

Müasir dövrdə qurumların strateji cəhətdən idarə edilməsi ciddi zərurətə çevrilmişdir. Rəqabət mühitinin daha da intensivləşməsi qurumların fəaliyyətlərini davam etdirmələri və məqsədlərinə çatmaları üçün təhdidlər yaratmaqdadır. Buna görə də qurumlar strateji idarəetmə siyasətini və ictimaiyyətlə əlaqələr fəaliyyətlərini daha ciddi formada təşkil

etməlidirlər. Qurumlar strateji idarəetmə sahəsində gələcək fəaliyyətlərini istiqamətləndirmək, istədikləri vizyona çatmaq və missiyalarını tam formada yerinə yetirmək istəyirlərsə strateji planlaşdırmanı göz önündə saxlamalıdırlar. Çünki strateji planlaşdırma qurumların gələcəkləri üçün təməl və yol xəritəsi sayılır.

İndiki dövrdə qurumlara daha çox təsir edəcək və qurumların fəaliyyətindən təsirlənəcək hədəf kütləri nəzərə almadan gələcək fəaliyyətlərini və strateji planlarını formalaşdıra bilməzlər. Bu nüans ictimaiyyətlə əlaqələr ilə strateji planlaşdırma arasındakı əlaqəni aşkar və təhlil etməyə imkan verir. Qurumların hədəf kütləri ilə ünsiyyət prosesini tənzimləməkdən məsul və strateji idarəetmə funksiyası olan ictimaiyyətlə əlaqələr hal-hazırda dar mənada media ilə əlaqələrin də təmin edilməsi funksiyasını həyata keçirməkdədir. Qloballaşma prosesi ictimaiyyətlə əlaqələr fəaliyyətinə təsir edərək onun sərhədlərini genişləndirmişdir. Buna görə də yeni sahələrin və yeni texnologiyaların kəşf edilməsi ilə əhatəsini daha da genişləndirən ictimaiyyətlə əlaqələr fəaliyyəti strateji idarəçiliyin bir parçası kimi qəbul edilməkdədir.

Müasir dövrümüzdə ictimaiyyətlə əlaqələr fəaliyyəti ilə məşğul olan bütün ekspertlər ictimaiyyətlə əlaqələr fəaliyyətinin gələcəyi ilə bağlı verdikləri proqnozlarında bu peşənin çox parlaq gələcəyinin olacağını, ictimaiyyətlə əlaqələr idarəçiliyinə ehtiyacın daha da artacığını bildirirlər. Xüsusilə də demokratikləşmə prosesinə və meyllərinə KİV və informasiya texnologiyalarının inkişafının təsir etməsi ictimaiyyətlə əlaqələr idarəçiliyinə ehtiyacın olduğunu göstərir.

**Ədəbiyyat:**


1. Çamdereli, Mete, Ana Çizgileriyle Halkla İlişkiler, Salyangoz Yayınları ikinci basım, İstanbul, 2005.
2. Erkan, Hüsnü, Bilgi Toplumu ve Ekonomik Gelişme, İstanbul, Kültür Yayınları, 1998.
3. Grunig, J. E., Repper, F. C. "Stratejik Yönetim, Kamular ve Gündemleri, Halkla İlişkiler ve İletişim Yönetiminde Mükemmellik, Elif Özsayar (çev.), İstanbul: Rota Yayın Yapım Dağıtım, 2015
4. Stonier, Tom., İletişim Toplumu: İnsanlık Tarihinde Yeni Bir Çağ, Ra to Yayınları, İstanbul, 1998
5. Yıldırım Becerikli, S., Halkla İlişkiler ve Reklamın Anatomisi: Eleştirel Bir Kavrayış, Ütopya Yayınları, Ankara 2011, 427 s.
6. Zülfiye Şentürk, "Halkla ilişkiler ve uygulama alanları: yeni eğilimler", Eğitim Yayınevi, 2019., 384 s.


***Açar sözlər:*** *qloballaşma, informasiya, ictimaiyyətlə əlaqələr, ictimaiyyətlə əlaqələr fəaliyyətləri, kommunikasiya, ünsiyyət prosesi*

**Anar Shukurov**
*Ph.D. candidate, the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## PUBLIC RELATIONS AS THE MAIN STRATEGY OF INSTITUTIONS IN THE PROCESS OF GLOBALISATION

### ABSTRACT

Innovations in communication technologies that have emerged as a result of industrialization in modern times, changes in business life and business management, globalization, diversification of consumer trends have increased competition. Such influences make it necessary to build relationships with the target audience. It is the establishment of effective relations with the target audience through public relations activities. In the twentieth century, public relations has found its identity and continues to function as a driving force of globalization. The development of ICT in the 21st century, the improvement of the world's expanding web network, and in particular, the desire of transnational companies to strengthen their interactions with their target audiences or the public, have further improved their public relations activities. All this has reduced the financial burden on institutions. Public relations has been one of the main factors in the spread of the phenomenon of globalization in different countries. The process of globalization has also led to the further development of the functionality of public relations.

***Keywords:*** *globalization, information, public relations, public relations activities, communication, communication process*

**Анар Шюкюров**
*Докторант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## СВЯЗИ С ОБЩЕСТВЕННОСТЬЮ (PR) КАК ОСНОВНОЕ НАПРАВЛЕНИЕ СТРАТЕГИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ УЧРЕЖДЕНИЙ В ПРОЦЕССЕ ГЛОБАЛИЗАЦИИ

### РЕЗЮМЕ

На современном этапе развития общества в результате индустриализации, происходят изменения в управлении в сфере бизнеса и деловой жизни, диверсификация потребительских потребностей, усиление конкуренции вызывают необходимость выстраивать новые отношения с общественностью. В сложившихся обстоятельствах необходимо правильно и эффективно усовершенствовать деятельность учреждений по расширению связей и отношений с общественностью. В XXI веке связи с общественностью обрели свою идентичность и продолжают функционировать как движущая сила глобализации. Развитие ИКТ, совершенствование всемирной связи Интернета и в частности, стремление транснациональных компаний укрепить свое сотрудничество с общественностью и аудиторией, все более усиливает важность деятельности в этом направлении. Данное обстоятельство значительно снижает финансовую нагрузку на учреждения. Связи с общественностью стали одним из основных факторов и инструментов распространения процессов глобализации в различных странах. Процесс глобализации также привел к дальнейшему развитию функциональных связей с общественностью.

***Ключевые слова:*** *глобализация, информационно-коммуникационные технологии, связи с общественностью, коммуникация*

## G Ə N C  T Ə D Q İ Q A T Ç I L A R
## Y O U N G  R E S E A R C H E R S

## S İ Y A S İ  N Ə Z Ə R İ Y Y Ə
## P O L I T I C A L  T H E O R Y

UOT 327; 930.22; UOT 327.5

**TURAL ŞİRİN**
**Azərbaycan Respublikasının Prezidenti**
**yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı**
*email: shirin.tural@gmail.com*

# HİBRİD MÜHARİBƏNİN TƏHLÜKƏLİ SİLAHI: İNFORMASİYA CƏBHƏSİ

Ən qədim zamanlardan bəşər tarixinin cığırdaşına çevrilmiş müharibələrin aparılması texnologiyaları üzərində düşünərkən insanlar ən müxtəlif vasitələrə üz tutmalı olurdular. Doğrudur, canlı qüvvənin say çoxluğu, istifadə olunan hərbi silah və texnikanın keyfiyyəti daha çox diqqət yetirilən vasitələr idi. Amma müharibələrin aparılması, dövlətlər arasında qarşıdurmaların həll edilməsi zamanı qoşunla silah istifadəyə alınan yeganə vasitələr deyildi. Bu istiqamətdə səmərə verə biləcək ən müxtəlif vasitələrdən və yollardan istifadə olunurdu ki, onlardan biri də informasiya ilə bağlı idi. Bu da bilavasitə hibrid müharibənin bir elementinə çevrilmişdir. İnformasiya texnologiyasının sürətlə inkişaf etdiyi bir dövrdə informasiya silahı 7/24 hər bir vətəndaşa tuşlanmış vəziyyətdədir.

Əldə edilmiş təcrübədən qədim insanlara da məlum idi ki, düzgün döyüş planının qurulması üçün qarşı tərəf barəsində yetərli informasiyaya malik olmaq lazımdır. Və ya təsiredici informasiyanın yayılmasına nail olmaqla qarşı tərəfin qoşunları daxilində bir çaxnaşma, bir anlaşılmazlıq yaratmaq mümkün idi. Əslində, informasiyanın manipulyasiya edilməsi üçün geniş imkanlar var idi və təcrübəli tərəflər doğru və ya təxribata istiqamətlənmiş informasiyanın təsir gücünün istifadəsindən heç də imtina etmirdilər. Bu sahədə elə bir təcrübə toplanmışdı ki, hətta qədim dövrlərin mütəfəkkirləri bu məsələ ilə bağlı müəyyən ümumiləşdirmələr də aparmış və gəldikləri qənaətləri öz əsərlərində əks etdirmişdilər. Məsələn, qədim Çin sərkərdəsi və hərbi fikir mütəfəkkiri Sun-Szı bu gün də təbii maraq doğuran "Müharibə məharəti" əsərində əsərləri bizə məlum olan müəlliflər içərisində ilk dəfə olaraq informasiya ilə düşmən tərəf dağıdıcı təsir göstərilməsinin yollarına toxunmuş və onları ümumiləşdirmişdir. Məsələn, o belə yazırdı: "Döyüşlərdə yüzlərlə qələbə əldə etmək – hələ məharətin sonu demək deyil. Məharətin zirvəsi düşmənə silahsız üstün gəlməkdir". Daha sonra Çin mütəfəkkiri belə yazırdı: "Düşmənin ölkəsində yaxşı olan hər şeyi pozun, düşmən ölkənin əhalisi arasında mübahisələr və çaxnaşmalar salın" (1).

İnformasiya təxribatının həyata keçirilməsi ilə düşmən qoşunlarına dağıdıcı təsir göstərilməsi antik yunan müəlliflərinin əsərlərində də öz əksini tapmışdır. Yəni, antik dövrün müharibələrində də sözdən, informasiyadan bir silah kimi istifadə edilməsinə diqqət yetirilirdi. Belə informasiyaların yayılması ilə düşmən qoşunlarını qorxuya salmaq təcrübəsindən geniş istifadə edilirdi. Məsələn, antik müəlliflərin əsərlərindən məlum olur ki, yunan sərkərdəsi Femistokl fars qoşunlarına qarşı döyüşə çıxanda qaya üstü yazılar yazmaqla qarşı tərəfi tərksilah olmağa, silahı yerə qoymağa çağırır və bununla qarşı tərəfin qoşunlarında bir

mənəvi düşgünlük yaranmasına nail olurdu (1).

Antik yunan müəllifləri ölkənin öz qoşunları və əhalisi arasında da lazımi informasiyaların yayılması ilə onların müharibəyə hazırlaşdırılmasının zəruriliyini bildirirdilər. Məsələn, Platon birmənalı şəkildə bildirirdi ki, cəmiyyət üzvlərinə və hərbçilərə ölkənin müdafiəsinin zəruriliyi aşılanmalı və bununla da onlar müharibəyə hazırlaşdırılmalıdırlar (8).

İnformasiyadan məqsədyönlü şəkildə istifadə etməklə qarşı tərəfin qoşunlarına və əhalisinə psixoloji təsir göstərilməsinə orta əsrlərin müharibələrində də rast gəlmək mümkündür. Mövcud olan yazılı mənbələr əsasında belə bir qənaətə gəlmək mümkündür ki, XVII əsrin birinci yarısında (1618-1648) bütün Avropanı bürümüş olan Otuz illik müharibə dövründə informasiya manipulyasiyalarının yeni bir dövrü ilə qarşılaşmaq mümkündür. Həmin dövrdə informasiya təsirlərinin gücləndirilməsi üçün təbliğatın əyanı vasitələrinin tətbiqinə də başlanmışdı. Yəni, informasiya təsirlərinin gücləndirilməsi, təbliğatın səmərəliliyinin artırılması üçün artıq informasiya vərəqlərinin çapına və yayılmasına başlanmışdı. İnformasiya manipulyasıyalarını özündə əks etdirən "propaqanda" sözünün meydana gəlməsi də həmin müharibə dövrünə təsadüf edir. Belə ki, həmin dövrdə Roma papası məqsədyönlü şəkildə informasiyalar yaymaqla kilsənin maraqlarına xidmət edən təbliğat (propaqanda) aparırdı (4).

Sözsüz ki, informasiyadan bir təsir vasitəsi kimi istifadə edilməsi hər zaman ikili xarakter daşıyırdı. Bu da qarşıya qoyulan məqsədlə bağlı idi. Dövlətlər və onların hərbi rəhbərliyi informasiyadan istifadə etməklə qarşı tərəfin qoşunlarına və əhalisinə dağıdıcı təsir göstərə bilirdilər. Eyni zamanda, informasiyadan istifadə etməklə qaşı tərəfdən gələn dağıdıcı təsirlərin qarşısının alınmasına, qoşunların və əhalinin ölkənin müdafiəsinə və ya uğurlu müharibənin aparılmasına səfərbər edilirdi (16).

Birinci Dünya Müharibəsi illərində hərbi-siyasi məqsədlərə nail olunması üçün informasiyadan istifadə edilməsi müstəqil bir fəaliyyət sahəsi kimi daha da təkmilləşdi, daha miqyaslı və peşəkar xarakter aldı. Xüsusilə, istər radio-teleqraf vasitələrinin inkişafı, istər yazılı informasiya imkanlarının genişlənməsi informasiyanın təsir gücünü xeyli artırdı. Tarixdən məlumdur ki, Birinci Dünya Müharibəsi illərində Böyük Britaniya tərəfindən Almaniya qoşunları üzərində təbliğat vərəqlərinin kütləvi şəkildə yayılması ilə kütləvi təsir effekti əldə etmək mümkün oldu. İnformasiya təsirlərinin hərbi-siyasi məqsədlərin əldə edilməsindəki yeri və rolu nəzərə alınaraq, Londonda informasiya-təbliğat materiallarının hazırlanması üçün xüsusi bir orqan yaradılmışdı. Birinci Dünya müharibəsinin sonlarına yaxın isə Antanta tərəfindən Almaniya ordusunun mənəvi-psixoloji iflası üçün xüsusi bir qərargah təsis edilmişdi (11).

Bu müharibənin başa çatmasından sonra çoxlu sayda mütəxəssislər informasiya manipulyasiyasının və psixoloji müharibənin nəzəri bazasının hazırlanmasına da başladılar. Aparılan araşdırmalardan sonra belə bir qənaət də ortaya çıxdı ki, müharibənin məqsədi düşmənin ordunu məhv etmək deyil, düşmən dövlətin bütün əhalisinin mənəvi-psixoloji cəhətdən iflasa uğradılması və bununla da qarşı dövlətin hökumətin məğlubiyyətə məcbur edilməsidir (2). Bu məqsədə çatmağın ən səmərəli vasitələrindən biri isə məhz qarşı tərəfə informasiya təzyiqlərinin gücləndirilməsi idi.

Hərbi xarakterli vəzifələrin icrası zamanı informasiya fəaliyyətinin nə dərəcədə zəruri olmasının qabarıq nümunələrindən Birinci və İkinci Dünya Müharibəsi ərəfəsində, onun gedişində Hitler nümayiş etdirdi. Faşist Almaniyası informasiya təsirinin gücləndirilməsinə elə hərbi əməliyyatların tərkib hissəsi kimi baxırdı və bunu Hitler belə dəyərləndirirdi: "...Ordular hərbi fəaliyyətə başlamazdan əvvəl düşmən təbliğat yolu ilə psixoloji baxımdan tərksilah ediləcəkdir. O, (yəni təbliğat) mövqe müharibəsində piyadalar cəbhə boyu hücumundan qabaq aparılan artilleriya hazırlığına bənzəyir. Düşmən xalq mənəvi baxımdan iflasa uğradılmalı, məğlubiyyət astanasına

yaxınlaşdırılmalı, və yalnız bundan sonra silahlı mübarizə başlanmalıdır" (11).

Faşist Almaniyası hədəf seçdiyi dövlətlərə qarşı öz fəaliyyətini məhz bu prinsip üzərində qurdu və müharibənin ilk illərində informasiya fəaliyyətinin təsirliliyinə nail olmaqla hətta Avstriya və Çexoslovakiya kimi dövlətləri döyüş əməliyyatları aparmadan öz nəzarəti altına ala bildi. Bu nəticəni ona görə əldə etmək mümkün oldu ki, Almaniya öz təbliğatı ilə qarşı tərəfin qoşunlarında ruh düşgünlüyü yaratdı, bu qoşunlarda müdafiə qabiliyyətini xeyli zəiflətdi. Mütəxəssislərin fikrincə, Sovet İttifaqı üzərinə hücumun ilk aylarında sovet hərbçilərinin Almanlara əsir düşməsinin bir səbəbi də Almaniyanın informasiya-təbliğatının güclü olması ilə bağlı idi. Lakin sonradan sovet rəhbərliyi informasiyadan istifadə məsələsində öz strategiyasını hazırladı ki, bu da alman təbliğatının qarşısının alınmaısna öz təsirini göstərdi (11).

Hitler Almaniyasının təbliğat maşınına rəhbərlik edən Gebbelsin də informasiya ilə manipulyasiyaların aparılmasında özünəməxsus mövqeyi var idi. O bəyan edirdi ki, mənə kütləvi informasiya vasitəsi verin və mən istənilən xalqı donuz sürüsünə çevirim. Və ya onun belə bir ifadəsi də var idi ki, min dəfə təkrarlanan yalan həqiqət kimi qəbul edilir (5).

İkinci Dünya Müharibəsindən sonra, soyuq müharibə dövründə informasiya qarşıdurmasının yeni bir dövrü başlamışdır. Kütləvi informasiya vasitələri texnologiyasının inkişafı da bu qarşıdurmanın çevikliyinə, təsirliliyinə və daha da sərtləşməsinə bir zəmin yaradırdı. Silahların işləmədiyi bir vaxtda iki qütbli dünyada ideoloji savaş kifayət qədər geniş və strateji bir xarakter almışdı. Dünyanın ideoloji cəbhələrə bölünməsi də, əslində, elə informasiya qarşıdurmasının nəticəsi idi. O cümlədən, SSRİ-nin dağılması kimi böyük tarixi hadisənin baş verməsində qərbin informasiya fəallığının təsirini nəzərə almamaq olmaz.

XX əsrin sonu, XXI əsrin əvvəllərində dünyanın informasiyalaşmasının, insanların informasiya təsirləri qarşısında həssaslaşmasının yeni bir mərhələsi başlamışdır. Dünyanın vahid informasiya məkanına çevrilməsi informasiya silahının təsir və əhatə gücünü görünməmiş bir səviyyəyə qaldırmışdır. Hazırda informasiya ictimai fikrin formalaşdırılması, onun idarə edilməsi və istiqamətləndirilməsi üçün dövlətlərin əlində böyük imkanlar açmışdır. Ona görə də, informasiya qarşıdurması həqiqətdə informasiya müharibəsinə çevrilmişdir.

"İnformasiya müharibəsi" termininin siyasi leksikona gətirilməsinin tarixi elə də böyük deyildir. Bu terminin siyasi leksikona gətirilməsi bir tərəfdən informasiya texnologiyalarının inkişafı, digər tərəfdən də siyasi və başqa məqsədlərə çatmaq üçün informasiya manipulyasıyalarına verilən əhəmiyyətin miqyası ilə bağlı idi.

"İnformasiya müharibəsi" termininin nə zaman siyasi leksikona çıxması haqqında siyasi ədəbiyyatda fərqli məlumatlar mövcuddur. Bir məlumata görə, bu termin ilk dəfə amerikalı ekspert Tomas Rona tərəfindən dövriyyəyə gətirilmişdir. Bildirilir ki, o, 1976-cıildə Boing kompaniyası üçün hazırladığı hesabat "Silah sistemi və informasiya müharibəsi" adlanırdı. Bununla da "informasiya müharibəsi" termini siyasi leksikona gətirildi və ona bu gün qəbul edilmiş məzmun verildi (5).

Bir başqa məlumata görə isə "informasiya müharibəsi" termini ilk dəfə 1985-ci ildə Çində siyasi leksikona gətirilmiş (6) və bu termin altında informasiya qarşıdurmasının kəskinləşməsi məzmunu qəbul edilmişdir.

İstənilən halda, XX əsrin 80-ci illərindən etibarən informasiyadan qarşıya qoyulan məqsədə çatmaq üçün istifadə edilməsinə diqqət xüsusi ilə artdı. Amerikanın çoxsaylı mütəxəssisləri və hərbi ekspertləri informasiyanın təsir gücü ilə bağlı apardıqları araşdırmalardan sonra belə bir qənaətə gəldilər ki, informasiya yalnız hədəf deyil, həm də təsirli bir silahdır (7).

XX əsrin 90-cı illərindən etibarən isə "informasiya müharibəsi" termininin rəsmi sənədlərdə təsbit olunması özünü göstərdi. Sonra da bu termin kütləvi informasiya vasitələrinə yol tapdı. Xüsusilə, körfəz müharibəsinin aparılması zamanı informasiya

müharibəsi anlayışına diqqət artdı. Bu müharibənin gedişində Amerikanın hərbi komandanlığı qarşısında informasiya müharibəsinin aparılması tapşırıqları qoyuldu. Məqsəd də həm qarşı tərəfin mənəvi-psixoloji zərbəyə məruz qoyulması, həm də Amerikanın körfəz ətrafında başladığı hərbi əməliyyatlar haqqında dünya ictimaiyyətində Amerika maraqlarına cavab verən ictimai fikir yaradılması idi. İnformasiya hücumlarının, məqsədyönlü informasiya yayılmasının ayrıca bir fəaliyyət sahəsi və ayrıca bir tapşırıq kimi icra edilməsinin gözlənilən nəticələri verməsi bu sahəyə diqqətin rəsmiləşdirilməsi ilə nəticələndi. 1992-ci ildə Amerikanın rəsmi dövlət sənədlərində "informasiya müharibəsi" termini rəsmi şəkildə işlədilməyə başladı. Belə ki, həmin il dekabr ayının 21-də Amerika Müdafiə Nazirliyi TS 3600-1 nömrəsi altında "İnformasiya müharibəsi" adlanan xüsusi bir direktiv qəbul etdi (15). Bu direktiv informasiya müharibəsinin aparılmasının vacibliyini özündə əks etdirirdi. Direktivə əsasən müvafiq orqanlara, o cümlədən Qərargah Rəisləri Komitəsi qarşısında belə bir tapşırıq qoyulurdu ki, informasiya müharibəsini gələcək fəaliyyət sahəsi kimi qəbul etsin və onun konsepsiyasını müəyyənləşdirsin. Bu istiqamətdə dərhal lazımi işlərin aparılmasına başlandı və 1993-cü ilin sonunda Qərargah Rəisləri Komitəsi tərəfindən NİOP N-30-93 nömrəli direktiv qəbul edildi. Bu direktivdə Amerikanın maraqlarına cavab verən informasiya müharibəsinin aparılmasının prinsipləri və istiqamətləri öz əksini tapdı (10).

Beynəlxalq münasibətlərdə qarşıya qoyulan nəhəng hədəflərə nail olmaq üçün Amerika tərəfindən informasiya müharibəsinin aparılmasının konseptual sənədlərinin hazırlanması sonrakı illərdə də davam etdirildi. Məsələn, 1996-cı ildə Amerikanın Müdafiə Nazirliyi tərəfindən "Nəzarət və idarəetmə sistemləri ilə mübarizə doktrinası" adlı bir sənəd qəbul edildi. Bu sənədə hərbi əməliyyatlar zamanı informasiya müharibəsinin aparılmasının prinsipləri öz əksini tapmışdı. 1996-cı ilin sonlarında isə Amerika Müdafiə Nazirliyinin ekspertlərindən biri olan Robert Banker Amerikanın Silahlı Qüvvələrinin XXI əsr üçün yeni hərbi doktrinasının əsas istiqamətləri ilə bağlı iştirak etdiyi simpoziumlardan birində məruzə ilə çıxış etdi. Həmin məruzədə kibermüharibənin aparılmasına xüsusi yer ayrılmışdı. Amerika Müdafiə Nazirliyinin 1998-ci ildə qəbul etdiyi "İnformasiya əməliyyatlarının birləşmiş doktrinası" adlı sənəddə informasiya əməliyyatlarının və informasiya müharibəsinin aparılmasının əsasları öz əksini tapdı. Həmin sənədlərdə hərbi əməliyyatlar zonasına yer, dəniz, səma və kosmosdan əlavə informasiya arenası da müharibə zonası elan edildi. Mütəxəssislərin fikrincə, gələcək müharibələrin əsas istiqaməti məhz informasiya müharibəsi olacaq və bu zaman qarşı tərəfin informasiya infrastrukturası sıradan çıxarılmaqla düşmən tərəfin psixikası məqsədyönlü informasiya hücumuna məruz qalacaqdır. Bununla, həm də baş verənlər haqqında doğru-düzgün informasiyanın əldə edilməsi də çətinləşdiriləcəkdir (1).

Beləliklə, hazırda informasiya müharibəsi müasir dünyanın qarşılaşdığı qlobal təhdidlərdən birinə çevrilmişdir. İnformasiya axınlarından məqsədyönlü, çevik və kütləvi şəkildə istifadə etməklə çox asanlıqla ictimai şüuru formalaşdırmaq, ictimai şüura qarşıya qoyulan məqsədlərə uyğun olaraq təsir göstərmək mümkündür. İndi qlobal miqyasda baş verən hərbi-siyasi gərginlikləri informasiya manipulyasiyasından kənar təsəvvür etmək mümkün deyildir. Yaxın Şərqdə baş verən proseslər bunun əyani nümayişidir. XX əsrin sonlarında Azərbaycana qarşı erməni təcavüzünün geniş miqyas alması və təcavüzün dünya miqyasında obyektiv qınaqla rastlaşmaması da dünya miqyasında erməni millətçi-təcavüzkar dairələrinin apardıqları informasiya manipulyasıyalarının, informasiya müharibəsinin nəticəsi idi.

Məlumdur ki, 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələri Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında tarixi Zəfərə imza ataraq, 44 gün ərzində Qarabağı erməni işğalından azad etmiş, respublikamızın ərazi bütövlüyünü bərpa etmişdir. Lakin ikinci Qarabağ müharibəsi

təkcə döyüş meydanında deyil, hər bir Azərbaycan vətəndaşı, azərbaycanlı tərəfindən informasiya cəbhəsində də aparılmışdır. Cənab Prezident bu cəbhədə də Ermənistan faşizminin başını "Dəmir Yumruq" ilə əzmişdir. Ermənistanın yaydığı yalan xəbərlər vaxtında təkzib edilib, obyektiv məlumatlar dünya ictimaiyyətinin diqqətinə çatdırılıb. Kiberhücumlar qənaətbəxş şəkildə zərərsizləşdirilib.

Prezident İlham Əliyev öz dərin biliyi, dəmir məntiqi və təkzibedilməz arqumentləri ilə ermənipərəst medianın qarayaxma kampaniyalarını təkbaşına zərərsizləşdirmək, informasiya cəbhəsində səylərə dəstək verib. Bəzi Qərb müxbirlərinə Azərbaycan tərəfinin ünvanına əsassız ittihamlar irəli sürmək üçün saxta məlumatlara istinad edərək diqqəti yayındırmaq xüsusi olaraq tapşırılıb. Və hər dəfə də dövlət başçısı bu ittihamları təkzibolunmaz faktlarla, sübutlarla səbirlə pisləyir, sonra Qarabağın tarixindən, münaqişənin səbəblərindən danışır, fürsətdən istifadə edərək real həqiqətləri dünyaya çatdırırdı. Cənab Prezident media sahəsinin ermənipərəst məmurların nəzarətində olduğu ölkələrin media nümayəndələrinin rəğbətini uğurla qazanmış və bununla da bütün dünya insanlarının gözünü erməni faşizmi, Qarabağın qanunsuz işğalı və Azərbaycan xalqına qarşı törədilən soyqırımlarla bağlı həqiqətlərə açmışdır. Bundan əlavə, Azərbaycanlı hakerlər bir sıra erməni saytlarına daxil olaraq prezident İlham Əliyevin "Qarabağ Azərbaycandır, nida işarəsi", o cümlədən "Erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpaqlarından getsin" sözlərini yayıblar. Ermənistan saytlarında Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun şəkilləri də yerləşdirilib. Sentyabrın 27-də günorta saatlarında başlayan hücumlarda ümumilikdə 90 erməni internet saytı sındırılıb. Bu saytlara ölkənin ən məşhur xəbər və video portalları daxildir. Və sentyabrın 27-də axşam saatlarında başlayan hücumlarda azərbaycanlı hakerlər Ermənistanın dövlət strukturlarından çoxlu sayda məxfi sənədləri ələ keçiriblər. Bu sənədlərdə Dövlət Təhlükəsizlik Xidməti, Ermənistan prezidenti və Xarici İşlər Nazirliyi haqqında çoxlu məlumatlar var idi. Sadalananlar döyüş meydanında əsgərlərimizin şücaətini daha da gücləndirmiş oldu, belə ki, informasiya cəbhəsindəki uğurlu siyasət silahlı qüvvələrimiz üçün çox önəmli məxfi materialların alınması, təkcə erməni əsgərlərinin deyil, həm də geniş əhalinin ruh yüksəkliyinin qırılmasını təmin etdi. Xarici jurnalistlər, media nümayəndələri ritorikasını dəyişməyə, qərəzsiz xəbərlər yazmağa məcbur oldular. Nəticədə, hər iki cəbhədə göstərilən sarsılmaz liderlik və möhtəşəm siyasət Azərbaycanın ərazi bütövlüyünü bərpa etmiş, bölgədə yeni reallıqlar yaratmış, "məğlubolunmaz erməni əsgəri" mifini və dünya erməniliyinin əsassız ittihamlarını darmadağın etmişdir.

Təsir miqyasına görə, informasiya müharibələri bir sıra ekspertlər tərəfindən hərbi qüvvələrin iştiraklı ilə aparılan müharibələrlə bir sırada qoyulmaqdadır. Bildirilir ki, hər iki müharibənin məqsədi düşmən tərəfə tələfat yetirməklə qarşıya qoyulan hədəflərə doğru çatmaqdır (12).

Bəzi ekspertlər isə informasiya müharibəsinin tərifini K.F.Klauzevitsin klassik müharibəyə verdiyi tərif üzərində qurmağa çalışırlar. Həmin tərif elə indinin özündə də müharibə haqqında verilmiş ən təkmil təriflərdən biri kimi qalmaqdadır. K.Klauzevits bildirirdi ki, müharibə siyasətin başqa vasitələrlə davamıdır (9). Klauzevits başqa vasitələr deyəndə daha çox zorakılıq vasitələrini, silahları nəzərdə tuturdu. Mütəxəssislər bildirirlər ki, informasiya müharibəsi də siyasətin informasiya vasitələri ilə, informasiya zorakılığı texnologiyası ilə davam etdirilməsidir (10).

Siyasi ədəbiyyatda informasiya müharibəsi anlayışının mahiyyəti ilə bağlı müxtəlif fikirlərə rast gəlmək mümkündür. Bu fikirlər mahiyyət etibari ilə bir-birindən elə də çox fərqlənmir və daha çox biri digərini tamamlayır. Bəzi mütəxəssislərin fikrincə, informasiya müharibəsi – informasiya mühitində informasiya, psixoloji və ideoloji üstünlük əldə etmək, informasiya sistemlərinə, proseslərinə və ehtiyatlarına, infrastrukturuna zərbə vurmaq üçün davamlı qarşıdurmadır. Bu zaman öz

informasiya sisteminin və mühitinin qorunması üçün də müvafiq tədbirlər həyata keçirilməlidir (13).

Başqa bir fikrə görə isə informasiya müharibəsi – bir tərəfdən siyasətin informasiya vasitələri ilə davam etdirilməsi, bir tərəfdən informasiya qarşıdurması vasitəsilə qarşı tərəfə yeni maraqların, iradənin, dəyərlərin qəbul etdirilməsi və bununla onun informasiya müharibəsi aparan tərəfə cəlb edilməsi, digər tərəfdən də qarşı tərəfə informasiya təzyiqinin gücləndirilməsidir

Bir başqa fikrə görə isə, informasiya müharibəsi informasiya vasitəsi ilə milli maraqlara nail olunmasıdır (10).

Bu təriflərin hər birində informasiya müharibəsinin mahiyyətini əks etdirən fikirlər vardır. Bu proses kifayət qədər mürəkkəb bir prosesdir və ona görə də onun tərifini bir neçə cümlə ilə tamamilə əks etdirmək heç də asan deyil. Yuxarıdakı fikirlərə də istinad etməklə belə bir qənaətə gəlmək mümkündür ki, informasiya müharibəsi iki tərəfli bir prosesdir. Yəni, bu proses potensial düşmənə qarşı yönəldiyi kimi, həm də informasiya aparan tərəfin öz informasiya mühitinin formalaşmasına və qorunmasına istiqamətlənməlidir (14). İnformasiya müharibəsi geniş informasiya vasitələrinin səfərbər edilməsi ilə aparılan ideoloji və psixoloji təsir kampaniyasıdır. Bu kampaniyanın aparılmasında əsas məqsəd qarşı tərəfin iradəsini sındırmaq, qarşı tərəfdə bir anlaşılmazlıq yaratmaq, qarşı tərəfi mənəvi-psixoloji sarsıntıya məruz qoymaq və s. Eyni zamanda informasiya müharibəsi hansısa məqsəddən doğan ideyaların, inancların, qorxunun və s. lazım olan auditoriyaya qəbul etdirilməsi üçün həyata keçirilən məqsədyönlü fəaliyyətdir. Bu məqsədə çatmaq üçün bir tərəfdən geniş informasiya şəbəkəsi işə salınır, bir tərəfdən də bunun üçün xeyli vəsait ayrılır. Hətta bu və ya digər tərəfin ədalətli mövqeyinin qorunması da bəzən bu istiqamətdə informasiya müharibəsinə qoşulmağı tələb edir (3).

İnformasiya müharibəsi klassik müharibə kimi çox geniş texniki imkanların vasitəsilə, çox böyük sayda peşəkar hazırlıqlı kontingentin iştirakı ilə və dövlətin (və ya hər hansı bir aktorun/qurumun) müəyyənləşdirdiyi siyasət əsasında həyata keçirilən fəaliyyət sahəsidir. Ona görə də informasiya müharibəsinin səmərəliliyinə nail olunması üçün bu fəaliyyət sahəsinin prinsiplərinə, tələblərinə, əməl edilməlidir. Son illərin dünya təcrübəsi də göstərir ki, informasiya müharibəsi dövlətlər arasında yalnız siyasi məqsədlərə çatmaq üçün deyil, böyük geosiyasi məqsədələrə yetişmək üçün də ən güclü mexanizmlərdən biridir. İnformasiya texnologiyalarının sürətli inkişafı nəzərə alınarsa birmənalı şəkildə demək olar ki, informasiya müharibəsi dövlətlər arasındakı rəqabətin ən güclü perspektiv silahlarından biridir artıq. Ona görə informasiya müharibələrindən müdafiə olunmaq və informasiya təzyiqlərinə qarşı müdafiə müharibəsi aparmaq üçün müvafiq siyasətin həyata keçirilməsi hər bir dövlətin strateji fəaliyyət sahəsinə çevrilməlidir.

**Ədəbiyyat:**


1. Абдуллаева Р.А., Информационная война: прошлое и настоящее. https://applied-resarch.ru/ru/article/view?id=10880
2. Белозеров А., Информационные войны: история, сущность и методы https://militaryarms.ru/novye-texnologii/informazionnie-voiny/
3. Жуков В., Взгляды военного руководства США на ведение информационной войны.
4. Информационная война. http://lukmore.to/ Информационная_война
5. Информационная война – эффективность без оружия. https://topwar.ru/20000-informacionnaya-voyna-effektivnost-bez-oruzhiya.htm;
6. Информационные технологии: фазы обработки информации-источники, поиск, сбор, анализ и представление. Раздел 3. Технологии поиска новой информации. http://vladimir.sosio.msu.ru/1_KM/theme_13.htm
7. Клаузевиц К., О войне. Т.I, Москва, 1936, с. 34
8. Ковалев А.А., Развитие историко-политической мысли по военной безопасности. http://moluch.ru/archive/43/5228/
9. Лабуш Н. С., Информационная война как порождение нового времени и современных массмедиа технологий. Часть 1. Продолжение политики средствами информационного насилия. http://www.mediascope.ru/1738
10. Панарин И., СМИ, пропаганда и информационные войны. http://propoqandahistory.ru/books/İgor-Panarin_SMİ--propaqanda-i-informatsionnye-voynu/24
11. Почепцов Г., Информационная война: определения и базовые понятия. https://psyfactor.org/psyyops/infowar25/htm
12. Радиоэлектронная война . Информационная война. http://www.modernarmy.ru/article/282/informacionnaya-voina
13. Третьяков В., Информационная война — это тоже война на поражение. http://svpressa.ru/politic/article/162306/
14. George J. Stein. İnformation warfare. http://www.iwar.org.uk/iwar/resources/airchronicles/stein.htm
15. IWS- The Information warfare site. http://www.iwar.org.uk/iwar/resources/wikipedia/information-warfare.htm
16. "What is 'Strategic Information Warfare?" https://www.rand.org/content/dam/rand/pubs/monograph_reports/MR964/MR964.ch1.pdf


***Açar sözlər:*** *informasiya silahları, hibrid müharibə, informasiya hədəfləri, informasiya müharibəsi*

**Tural Shirin**
*Ph.D. student, the Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## DANGEROUS WEAPON OF HYBRID WAR: INFORMATION FRONT

### ABSTRACT

From time immemorial, people have had to resort to various means to think about warfare technologies, which have become the backbone of human history. Indeed, the number of manpower, the quality of military weapons, and the equipment used were the most important tools. However, wars and armies were not the only means of waging war and resolving conflicts between nations. Various tools and ways were used in this direction, one of which was related to information. This has become an element of direct hybrid warfare. At a time of rapid development of information technology, the information weapon is aimed at every citizen 24/7.

***Keywords:*** *information weapons, hybrid warfare, information targets, information warfare*

**Турал Ширин**
*Диссертант Академии Государственного Управления При Президенте Азербайджанской Республики*

## ОПАСНОЕ ОРУЖИЕ ГИБРИДНОЙ ВОЙНЫ: ИНФОРМАЦИОННЫЙ ФРОНТ

### РЕЗЮМЕ

С незапамятных времен людям приходилось прибегать к самым разным средствам, чтобы думать о технологиях ведения войны, которые стали основой человеческой истории. Верно, что численность живой силы, качество применяемого боевого оружия и снаряжения были самыми важными инструментами. Однако войны и армии не были единственными средствами ведения войн и разрешения конфликтов между народами. В этом направлении использовались различные инструменты и способы, один из которых был связан с информацией. Она стала элементом прямой гибридной войны. Во времена бурного развития инфор-мационных технологий информационное оружие нацелено на каждого гражданина 24/7.

***Ключевые слова:*** *информационное оружие, гибридная война, информационные цели, информационная война*

# GƏNC TƏDQİQATÇILAR
# YOUNG RESEARCHERS

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR TARİXİ
# HISTORY OF INTERNATIONAL RELATIONS

UOT 327(091)

**VÜSALƏ ŞƏRİFOVA**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrasının doktorantı**
*e-mail: vusala.asif@gmail.com*

## BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ MƏDƏNİYYƏT AMİLİNƏ ELMİ-NƏZƏRİ YANAŞMALAR

Diplomatiya tarixən dövlətlər arasında əlaqələrin qurulmasında vasitə kimi çox böyük rol oynayıb. Diplomatiya dövlətin xarakterik xüsusiyyətlərini və xalqın mental cizgilərini özündə ehtiva edir. Milli mədəniyyət modelini təqdim edir və digər tərəfdən də beynəlxalq normalara əməl etməklə beynəlxalq etiketi əks etdirir. Deməli, diplomatiya həm də tanıtım vasitəsidir. Dövlətin həyata keçirdiyi diplomatiyanın məzmunu ilə həmin xalqın xarakterini müəyyən etmək mümkündür.

XX yüzilin sonlarında mədəni proseslər və fəaliyyətlərlə bağlı irəli sürülən nəzəriyyə və tənqidlər xeyli artmış, bu sahə ilə bağlı maraqlı araşdırmalar aparılmışdır. Araşdırmaların artmasına müxtəlif amillər təsir edirdi. Əsas amillərdən biri irimiqyaslı miqrasiyalar, beynəlxalq səviyyədə əlaqələrin güclənməsi, bir sözlə, qloballaşmanın geniş vüsət alması idi. Digər bir amil isə Qərbdə ticarət, mədəniyyət və siyasətin vəhdətdə çıxış etməsi və nəticədə belə vəziyyətin xarici siyasətdə öz əksini tapması oldu. Nəhayət, dünya səviyyəsində kommunikasiya şəbəkələrinin inkişafı, müasir mədəniyyətin bu vasitələrlə yayılmasına əsaslı təsir göstərdi. 1970-ci illərdə kommunikasiya elmləri mədəniyyətlərarası əlaqələrə diqqət yetirmiş və onu davranış elmlərinin xüsusi çərçivəsindən xaric etmişdir.

Mədəni əlaqələr fərdlər, qruplar, müxtəlif təşkilatlar və ölkələr arasında bütün səviyyələrdə müvəffəqiyyətli əməkdaşlıq üçün vacib şərt olub, xalqların bir-birinə yaxınlaşmasına, onlar arasında inam və etimadın möhkəmlənməsinə xidmət edir. Mədəniyyətin beynəlxalq münasibətlərdə rolunun artmasını sübut edən göstəricilərdən biri də xarici mədəniyyət siyasəti, mədəni diplomatiya kimi terminlərin beynəlxalq münasibətlər nəzəriyyəsində vətəndaşlıq hüququnun qazanmasıdır. Mədəni diplomatiya (mədəniyyət diplomatiyası) isə diplomatiyanın ayrılmaz elementinə və istiqamətinə çevrilmişdir. (1, səh.14) Mədəni diplomatiya- fikir, bilik, adət-ənənə, incəsənət, eləcə də dini və dünyəvi dəyərlər mübadiləsinə, xalqlar, dövlətlər, sivilizasiyalar arasında əlaqələrin inkişafına, stabilliyin, sülhün bərqərar olmasına yardım edən vasitədir. Mütəxəssislər belə hesab edirlər ki, mədəni diplomatiya "yumşaq güc"ün gerçəkləşməsi üçün ən münasib alətdir və mədəniyyətin, ideyaların, dəyərlərin köməyilə başqa ölkəyə təsir göstərməyə imkan yaradır. "Mədəni diplomatiya" terminini ilk dəfə Amerika tədqiqatçısı F.Barqhorn, Sovetlər Birliyinin XX yüzilin 30-cu illərinə aid siyasətinin təhlili zamanı işlətmişdir. Onun təsnifatına görə, bu diplomatiya növü "mədəni irsdən və kadrlardan təbliğat məqsədlərində istifadə etmək" mənasını daşıyır və həmin dövrün dövlətlərinin həyata keçirdiyi siyasətin gizli ideologiyasını əks etdirir. (4, səh. 8)

Mədəni diplomatiya xaricində ölkənin mədəni irsinin, vacib nailiyyətlərin dünyada

təbliği xeyli çətindir. Bu siyasi istiqamət ölkələr haqqında müsbət fikrin formalaşması üçün nəhəng potensiala malikdir. Müəyyən vasitələrin düzgün və səmərəli istifadəsi həmin sahə üzrə çalışan peşəkarlardan da asılıdır. Qeyd olunan səbəblərdən irəli gələrək, dövlətlərin siyasətdə yeni ahəng qazanmış mədəniyyət faktoruna xüsusi diqqət yetirməsi təbiidir. Çünki qloballaşan dünyada ölkənin rəqabətə davamlılıq qabiliyyəti onun mədəniyyət siyasətindən, beynəlxalq arenada formalaşdırdığı imicindən çox asılıdır. BMT və YUNESKO-nun sənədlərində də mədəniyyət milli və beynəlxalq inkişaf siyasətlərinin, beynəlxalq inkişaf naminə əməkdaşlığın strateji tərkib hissəsi kimi qeyd olunur.

Qaçılmaz qloballaşma prosesləri müstəvisində milli identikliyin (eyniyyətin) başlıca göstəricisi və meyarı olan mədəniyyətin və mədəni təzahürlərin aktuallığı və əhəmiyyəti kəskin şəkildə artır. Odur ki, müasir dövrdə milli mədəniyyətin qorunması və inkişaf etdirilməsi kimi məsələlərə milli təhlükəsizliyin təmin olunması kontekstindən yanaşmaq olduqca vacibdir.

Qeyd olunanlar, eyni zamanda mədəniyyət siyasətinin qarşısında duran mürəkkəb və dövlət əhəmiyyətli məqsədlər sovet dövründə müşahidə olunan mədəniyyətin rəmzi kontekstindən imtina olunmasını zəruri edir. Mədəniyyət amili artıq bayramlar və yubiley tədbirlərinin təşkili ilə təcəssüm olunmur. Bu gün Azərbaycanın reallıqları (sürətli inkişafı və dünyaya inteqrasiyası), habelə aparılan informasiya mübarizəsi mədəniyyətin daha çox siyasi potensiallarına müraciəti aktuallaşdırır. Təsadüfi deyil ki, 2006-cı ildə yaradılmış Mədəniyyət və Turizm Nazirliyinin qarşısında duran əsas və prinsipial vəzifələrdən biri məhz Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasıdır. Başqa sözlə desək, Azərbaycanın siyasi sistemində yaradılmış yeni qurumun strateji məqsədi beynəlxalq təbliğatın aparılmasından ibarətdir. Aparılan təhlillər onu sübut edir ki, beynəlxalq təbliğat və bu sahənin mahiyyət etibarilə modernləşməsi Azərbaycanda həyata keçirilən mədəniyyət siyasətinin əsas vəzifələrindəndir.

Mədəniyyət amilinin dünya siyasətində müstəqil rolu və universal əhəmiyyəti bu gün heç kim tərəfindən şübhə altında alınmır. Ancaq bir neçə onilliklər bundan əvvəl beynəlxalq və dövlətdaxili proseslərin təhlili zamanı mədəniyyət ya ümumiyyətlə nəzərə alınmır, ya da ki, ona ikinci dərəcəli əhəmiyyət kəsb edən amil kimi baxırdılar. Dünya siyasi məkanının formalaşdırılmasının mühüm elementi kimi çıxış edən mədəniyyətin rolunun lazımınca qiymətləndirilməməsi çox ciddi nəticələrə gətirib çıxarmışdır. Qloballaşma, onun mədəni-siyasi aspektləri bəşər cəmiyyətinin bütün mərhələlərində mövcud olmuş, siyasi proseslərə ciddi təsir göstərmişdir. Sadəcə olaraq, qlobal hadisələri nəzərdən keçirərkən alimlər uzun müddət siyasətə və iqtisadiyyata üstünlük vermişlər, ancaq bu, mədəniyyətin təsirini heç də azaltmırdı (5, səh.11-12).

Konkret xalqın rifahında mədəniyyətin əvəzolunmaz rolunu isbat edən faktlar bəşər tarixində kifayət qədər çoxdur. Ancaq nəzəriyyədən uzaqlaşaraq daha çox təsiretmə və düşündürmə imkanına malik bir misalı da qeyd etmək olar. Belə ki, müxtəlif dövrlərdə ABŞ prezident administrasiyasının milli təhlükəsizlik məsələləri üzrə müşaviri olan Zbiqnev Bjezinskiy “Böyük şahmat lövhəsi” adlı əsərində açıq etiraf etmişdir ki, ABŞ-ın xarici siyasətinin uğurunu təmin edən amillərdən biri Ağ evin effektiv mədəniyyət siyasətidir.

Qlobal mədəni proseslər kontekstində mədəniyyət amilinin iqtisadi inkişafa təsiri məsələsinə də münasibət bildirilməsi zərurəti yaranmışdır. Bəzi qərb müəllifləri üçüncü dünya ölkələrinin iqtisadi geriliyini onların milli mədəniyyəti, ənənələri ilə əlaqələndirir və Latın Amerikası, Asiya, Afrikanın bir çox ölkələrində iqtisadi və siyasi modernləşmənin uğursuzluğunu onların öz ənənəvi mədəniyyətlərinə sadiqliyi ilə bağlamağa cəhd edirlər. Əslində açıq-aşkar irqçi mahiyyət kəsb edən bu konsepsiya, mədəniyyətlərin müstəsnalığı ideyasına əsaslanan və siyasi baxımdan çox təhlükəli mədəniyyətlərarası münaqişə mənbəyi hesab edilmişdir. Əksinə, bir sıra ölkələrin (Çin, Yaponiya, Çili, Türkiyə, “Asiya

pələngləri" və s.) iqtisadi sahədə qazandığı uğurlar ənənəviliklə müasirliyin sintezinin üstünlüyünü bariz nümayiş etdirir. Bu ölkələrdə hökumətin bazar prinsiplərinə əsaslanaraq həyata keçirdiyi islahatlar sübut edir ki, mədəni komponent, milli-mənəvi dəyərlərə sədaqət modernləşməyə nəinki mane olmur, əksinə, onun daha da uğurla həyata keçirilməsinə şərait yaradır.

Müasir dövrdə hər bir dövlətin beynəlxalq imicinin formalaşmasında, dövlətin beynəlxalq fəaliyyətində mədəniyyət amilinin rolu böyükdür. Mədəniyyət amili baxımından dövlətin imicinin formalaşdırılması mexanizmlərini fransız filosofu və sosioloqu Pyer Burdye "Mədəniyyətin simvolik kapitalı" konsepsiyasında, amerikalı politoloq Cosef Nay isə "yumşaq güc" nəzəriyyəsində açmağa çalışmışdır. (8) Ümumiyyətlə, qlobal inteqrasiya prosesində müasir dünyada beynəlxalq münasibətlərin həyata keçirilməsi ilə bağlı iki aparıcı yanaşma tərzi mövcuddur: "sərt güc" (hard power) və "yumşaq güc"(soft power). Cosef Nay "sərt güc" və "yumşaq güc"ü bir-birindən belə fərqləndirir: "yumşaq güc-mədəniyyət, dəyərlər və ideyalar vasitəsilə yola gətirmək qabiliyyətidir, "sərt güc" isə hərbi qüvvə vasitəsilə fəth etmək və ya məcbur etməkdir". C.Naya görə, "yumşaq güc" -sənin ölkənin istədiyini başqa ölkələrin istəməsinə nail olmaq, çəkindirmək və məcbur etmək əvəzinə onları cəlb etmək və onlarla əməkdaşlıq etmək bacarığıdır. Ənənəvi olaraq, beynəlxalq münasibətlərdə "sərt güc" dominant mövqeyə malik olmuşdur. Lakin soyuq müharibənin bitməsi, Sovet İttifaqının dağılması və dünyadakı kommunist rejimlərinin çökməsindən sonra, "yumşaq güc" yanaşması tədricən öz mövqeyini möhkəmləndirir. Xüsusən də, Avropa Birliyi və digər Avropa təşkilatları "yumşaq güc"ün təbliğatçıları kimi çıxış edirlər. Belə bir şəraitdə "yumşaq güc"ün bir forması kimi ictimai diplomatiya beynəlxalq münasibətlərdə önəmli rola malik vasitəyə çevrilir. Burada da məqsəd həm milli maraqların təbliği, münasibətlərin qurulması və həm də anlaşmaya nail olmaqdır. Fransa uzun zaman dünyada "yumşaq güc" tətbiq etmişdir. Uzun illər ərzində bu siyasəti həyata keçirən təsirli vasitələrdən biri kimi 1883-cü ildə təsis edilmiş "L'Alliance française" (Fransız Alyansı) təşkilatını qeyd etmək olar. Bu təşkilat öz uğurlu fəaliyyətini dünyanın 146 ölkəsindəki nümayəndəlikləri vasitəsilə davam etdirir. Həmin nümayəndəliklər öz işini Fransa Səfirliyi ilə əlaqəli şəkildə həyata keçirirlər. Fransa və onun mədəniyyətinin əsrlər boyu dünyanın bir çox yerlərində heyranı olmuşdur. ABŞ dövlət xadimi Tomas Cefferson "Hər bir insanın iki ölkəsi- öz ölkəsi və Fransası var" ifadəsi buna bariz nümunədir.

Adətən ölkənin "yumşaq güc" siyasətinə aid olan amillər dedikdə, onun dili, mədəniyyəti, elm və təhsil sahəsi, diplomatik aləmdə nüfuzu və xüsusilə də onun siyasi dəyərləri başa düşülür. Bu siyasətin həyata keçirilməsi üçün lazım olan vasitələrə isə müxtəlif dövlət və qeyri-dövlət qurumları, təşkilatlar, elm ocaqları, təhsil mərkəzləri, həmçinin kütləvi informasiya vasitələri də daxildir.

1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra öz dövlət siyasətində "yumşaq güc" amilindən istifadə etməyə başladı. Eyni zamanda Azərbaycan işğalçı Ermənistan ilə mübarizə aparmaq məqsədilə ölkədə hərbi qüvvəni getdikcə gücləndirirdi. Müstəqillik qazandıqdan sonra öz yerini tutmağa başlayan Azərbaycan, "yumşaq güc"ün mövcud imkanlarını tam şəkildə tətbiq etməyə çalışırdı. Bu gün də xalqın özünəməxsus milli-mənəvi dəyərləri "yumşaq güc"ə çevrilərək, Azərbaycanın dünyadakı nüfuzunu artırmağa kömək edir.

Mədəniyyət amili baxımından dövlətin imicinin formalaşdırılması mexanizmləri və ümumiyyətlə, dövlətin beynəlxalq fəaliyyətində mədəniyyətin rolu fransız filosofu və sosioloqu Pyer Burdyenin "Mədəniyyətin simvolik kapitalı" konsepsiyasında da öz əksini tapmışdır. Konsepsiyaya görə, bu kapitala kollektiv yaddaş, mədəni rəmzlər, obrazlar, cəmiyyətin mənəvi sferası aid edilir. Bu nöqteyi-nəzərdən dövlətin nüfuzu mədəniyyətin simvolik kapitalından çox asılıdır və bu kapital üzərində simvolik gücə malik olduğunu hesab

edən cəmiyyət, onu özü üçün çox dəyərli və qiymətli hesab edir. Əgər hər hansı bir ölkənin mədəni dəyərləri və ideologiyası cəlbedicidirsə, digər ölkələr də asanlıqla onun yolu ilə gedə bilir. Bu təkcə "yüksək" mədəniyyətə-incəsənət, ədəbiyyat, təhsil və s. yox, eyni zamanda kütləvi əyləncəyə istiqamətlənən pop mədəniyyətinə də şamil edilir. Məsələn, elə pop mədəniyyəti sayəsində Amerikanın obrazı digər ölkələr üçün çox cəlbedici və maraqlı görünməyə başlamışdı. Sanki bu mədəniyyət ABŞ-ı "ekzotik, zəngin, müasir və güclü bir dövlət kimi tanıdırdı". (6, səh. 123)

Konsepsiyaya görə, dövlətin mədəni amil əsasında nüfuzunun formalaşmasında milli ideya böyük rol oynayır. Bura xalqın mənlik şüurunun əks olunduğu cəmiyyətin dəyər münasibətləri sistemi daxildir. Məhz milli ideya mədəniyyətin simvolik kapitalının özəyini təşkil edir. Çünki informasiya məkanında dövlətin parlaq xarici siyasət imicinin formalaşmasında milli ideya böyük rol oynayır. Ölkənin beynəlxalq imici öz vətəndaşlarını ruhlandırmalı, dünya ictimai rəyində müsbət rezonans doğurmalıdır. (2)

Dövlətin fəaliyyətində mədəniyyət amilinin rolu və bu problemə dair nəzəri yanaşmalar sırasında məşhur italyan filosofu, nəzəriyyəçisi Antonio Qramşinin "Mədəni-ideoloji hegemoniya" konsepsiyası xüsusilə diqqəti çəkir. Konsepsiya cəmiyyətdəki idarəetmə mexanizmlərində dominantlığı nəzərdə tutur. Bu dominantlıqda mədəniyyət və ideologiyaya əsas yer verilir. Bununla da mədəni hegemonluq və ideoloji üstqurumda liderlik yeni siyasi nizamın formalaşmasına və bərqərar olmasına gətirib çıxarır. Qramşinin "Mədəni hegemoniya konsepsiyası"nda dövlətin fəaliyyət və məzmununa yeni baxış ifadə olunur və bu dövlətdə ideologiyaya önəmli yer verilir. Qramşi bildirir ki, cəmiyyətdə əsaslı harmoniyaya nail olmaq üçün müxtəlif sosial qruplar arasında meydana çıxan ziddiyyətlərin səviyyəsini azaltmaq çox önəmlidir. O, çıxış yolunu yalnız hər bir qrupun öz fərdiliyini və özünəməxsusluğunu qorumasında görür. Beləliklə, A.Qramşinin bu konsepsiyası müxtəlif sosial sferalara aid əxlaq normaları, ənənələr, simvollar və ümumi qəbul edilmiş təcrübələr toplusunu özündə birləşdirən sosial "mədəni nüvə"nin mövcudluğu ideyasına əsaslanır.

"Yumşaq güc" çox zaman diskurs təhlil mövqeyindən şərh olunur. Elə ilk dəfə "güc" anlayışını "diskurs" anlayışı ilə konseptual şəkildə birləşdirən şəxs XX əsrin ən böyük filosoflarından olan Mişel Fuko olmuşdur. Mədəniyyət və dövlət, cəmiyyətin mədəni mexanizmləri Fukonun nəzəriyyəsində öz əksini tapmışdır. Fukonun fikrincə, siyasi güc müxtəlif sosial qüvvələrin bir-birilə mübarizəsində yaranır və məhz diskurslar siyasi gücü təmin edən qüvvə kimi mühüm rol oynayır (7). Diskurs "eyni qrupa aid ifadələr toplusu" kimi izah olunur. Ümumiyyətlə, onun nəzəriyyəsində 4 söz xüsusi önəm daşıyır: bilik, güc, təcrübə, diskurs. Bütün yaradıcılığı boyu bu sözlər sanki bir-birini əvəz edir və qeyd edir ki, məhz bunlar sayəsində mədəniyyət mövcuddur, inkişaf edir və "yumşaq güc" kimi öz təsirini göstərir.

Bütün bunlarla yanaşı mədəni amilin dövlətin beynəlxalq fəaliyyətində rolu, təsiri artıqca, mədəni təhlükəsizlik məsələsi xüsusilə aktuallaşır. Bu da əsasən, milli azlıqların mədəni müxtəlifliyinin və ictimai inkişafın destruktiv meyllərdən qorunması kimi qəbul edilir. Xatırladaq ki, müxtəlif beynəlxalq təşkilatlar səviyyəsində dünya birliyi mədəni müxtəlifliyi cəmiyyətin inkişafı üçün dəyər və qeyri-bazar resursu kimi tanıyır. Onun azalması insan və cəmiyyətin inkişafının tərəqqisi üçün bir sıra mənfi nəticələrə gətirib çıxarır. "Mədəni təhlükəsizlik" konsepsiyasına ilk dəfə fransız politoloqu J.Bodenin əsərlərində rast gəlinir. Daha sonralar bu termin mədəni kapitalın əhəmiyyətini və onun dövlət tərəfindən qorunmasının vacibliyini irəli sürən P.Burdyenin tədqiqatlarında tez-tez istifadə edilmişdir. Təcrübədə mədəni təhlükəsizlik konsepsiyası XX əsrin 80-ci illərində Yeni Zellandiyada reallaşdırılmağa başlandı və belə qənaətə gəlindi ki, xalqların adət-ənənələri nəzərə alınmadan mədəni təhlükəsizliyin təmin edilməsində uğur əldə etmək qeyri-mümkündür (3).

Göründüyü kimi mədəni təhlükəsizlik yalnız mədəniyyətin təhlükəsizliyi ilə məhdudlaşmır. Ona bütövlükdə cəmiyyətin və dövlətin təhlükəsizliyini təmin edən amil kimi baxılır. (mədəniyyət abidələrinin və xalq adət-ənənələrinin qorunub saxlanması, incəsənətin və mədəni təşəbbüslərin dəstəklənməsi öz-özünə baş vermir və son nəticədə yalnız mədəniyyət sahəsi ilə məhdudlaşmır.) Beləliklə də mədəni müharibənin aparılması üsulları, mədəni aqressiya "yumşaq güc" aləti kimi hər bir dövləti ona xas olan ənənəvi mədəni dəyərləri qorumaq, habelə siyasi və iqtisadi sabitliyi və müstəqilliyi təmin etmək haqqında düşünməyə vadar edir. Bu müstəvidə isə siyasət, iqtisadiyyat və mədəniyyət bir-biri ilə sıx əlaqədə olur.

Məşhur amerikalı sosioloq və politoloq Samuel Hantinqtonun 1996-ci ildə nəşr edilmiş "Sivilizasiyaların toqquşması və yeni dünya düzəni" adlı kitabı mədəniyyətin müasir dünya proseslərində roluna yeni baxışları özündə əks etdirən mühüm hadisə oldu. Amerikalı politoloqa görə, "soyuq müharibə"nin başa çatmasından sonra ideoloji qarşıdurmanın yerini tutmuş sərt etnik mədəni və dini ziddiyyətlər dünyada gedən proseslərin əsasın-da dayanırdı. S.Hantinqtonun müasir sivilizasiya birliklərinin təşəkkül tapmasında mədəniyyət amilinə diqqəti cəlb etməsi maraq doğurur. Onun nəzərincə, uzun əsrlər boyu beynəlxalq münasibətlərin əsas prioriteti sayılan "millətlərarası - dövlətlərarası" münasibətlər öz yerini tədricən mədəniyyətlərarası və sivilizasiyalararası münasibətlərə güzəştə getməli olmuşdur. Əlbəttə, S.Hantinqton dünyada gedən siyasi dəyişikliklərin tam obyektiv, balanslaşdırılmış təhlilini verə bilməmiş, müasir sivilizasiyaların sərhədlərini müəyyənləşdirərkən dini-mədəni faktorları qabartmaqla, dünya siyasi proseslərinin geosiyasi, hərbi, iqtisadi tərəflərini nəzərə almamaqla subyektivliyə varmışdır. Ancaq ziddiyyətlərə baxmayaraq sivilizasiyalararası münaqişələr nəzəriyyəsi dünyada cərəyan edən proseslərin gələcək tədqiqi üçün yeni təkan verdi.

Beləliklə, beynəlxalq münasibətlər sahəsi ilə bağlı irəli sürülən müasir nəzəriyyələrdə beynəlxalq mövzular və problemlərin izah və təhlili zamanı mədəniyyətin əsaslı rol oynadığı aydın olur. Mütəxəssislər və sözügedən sahədə çalışan insanlar zaman keçdikcə başa düşdülər ki, yalnız hərbi, siyasi, iqtisadi, təhlükəsizlik kimi vacib amilləri diqqət mərkəzində saxlamaqla beynəlxalq münasibətləri dərinliklərinə qədər öyrənmək olmur. Eyni zamanda, bu sahələr beynəlxalq münasibətlərin tənzimlənməsi üçün yetərli deyil. Ona görə də beynəlxalq münasibətlərdə mədəniyyətin roluna, başqa sözlə, mədəni diplomatiyaya xüsusi diqqət ayrılmış, sosial həyatın bu mühüm aspekti sistemli tədqiqata cəlb edilmişdir. Beynəlxalq aləmdə etimad və rəğbətin qazanılması diplomatiya sənətinin əsas məqsədlərindəndir. Qarşıya qoyulan məqsədlərə nail olmaq üçün dostluq əlaqələrinin qurulmasında mədəniyyət və incəsənətin yaratdığı geniş imkanlardan istifadə etmək ən düzgün yoldur. Azərbaycan qısa müddət ərzində qlobal mədəni-informasiya məkanında özünəməxsus imici yarada bilib. Ölkənin birinci şəxslərinin timsalında layiqincə və yüksək səviyyədə həyata keçirilən mədəni siyasət "yumşaq güc"ün mühüm tərkib hissəsinə çevrilib. Müasir dövrdə heç bir dövlət mədəni diplomatiya və "yumşaq güc" olmadan beynəlxalq aləmdə inkişaf və inteqrasiya edə bilməz.

**Ədəbiyyat:**

1. Əhədova Sevda. Müasir dünyada mədəniyyətlərarası münasibətlər. Bakı: "Elm" 2014, 348 s.
2. Василенко И.А. Имидж России: концепция национального брендинга // Контуры глобальных трансформаций: политика, экономика, право. – №4(24), Т.5, 2012. – С. 66-78
3. Табаринцева-Романова К. М. Культура в международных отношениях: дипломатия, безопасность, конфликт. Журнал «Гуманитарная дипломатия:

личность, социум и мир» https://elar.urfu.ru/bitstream/10995/62855/1/iuro-2018-179-06.pdf)
4. Barghoorn F.C. The Soviet Cultural Offensive. The role of Cultural Diplomacy in Soviet Foreign Policy. Princeton, 1960, 353 p.
5. Hopkins A.G. Globalization in World History. Pulmica Publishing, 2002, 275 p.
6. Neal M, Rosendorf. Social and Cultural Globalization. Wash. 2000. p. 123
7. https://cyberleninka.ru/article/n/kontseptsiya-vlasti-m-fuko/viewer
8. http://theoryofculture.ru/issues/77/978/

***Açar sözlər:*** *mədəniyyət, amil, beynəlxalq, "yumşaq güc", konsepsiya*

**Vusala Sharifova**
*Ph.D. candidate, Department of International Relations and Foreign Affairs*
*Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

## CULTURAL FACTOR IN INTERNATIONAL RELATIONS SCIENTIFIC AND THEORETICAL APPROACHES

### ABSTRACT

Culture is a force that unites people regardless of language, religion, or nationality. Culture as a social institution can ensure social stability, uniting the state and society to address important national issues. The paper elaborates on these aspects and highly appreciates the role of the cultural factor in the formation of the international image of each state and international activity. All this is considered in relation to various scientists' scientific and theoretical approaches and concepts.

***Keywords:*** *culture, factor, international, soft power, concept*

**Вюсаля Шарифова**
*Докторант кафедры Международных отношений и внешней политики*
*Академии Государственного Управления при Президенте Азербайджанской Республики*

## НАУЧНО-ТЕОРЕТИЧЕСКИЕ ПОДХОДЫ К КУЛЬТУРНОМУ ФАКТОРУ В МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЯХ

### РЕЗЮМЕ

Культура – это сила, объединяющая людей независимо от языка, религии или национальности. Именно культура как социальный институт способна обеспечить социальную стабильность, объединить государство и общество для решения важных национальных вопросов. В статье проясняются эти моменты, высоко оценивается роль культурного фактора в формировании международного имиджа каждого государства и международной деятельность. Все это рассмотрено применительно к научно-теоретическим подходам и концепциям различных ученых.

***Ключевые слова:*** *культура, фактор, международный, "мягкая сила", концепция*

# DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASINDA

## *Dövlət İdarəçilik Akademiyasının komandası "Hüquq viktorinası" müsabiqəsində iştirak edib*

Azərbaycan Respublikası Prokurorluğunun işçilərinin peşə bayramı və Azərbaycan Prokurorluğunun yaranmasının 103-cü il dönümü ilə əlaqədar Baş Prokurorluğun Elm Tədris Mərkəzi tərəfindən ali təhsil müəssisələrinin hüquq fakültələrində təhsil alan tələbələr arasında "Hüquq viktorinası" müsabiqəsi keçirilmişdir. "Konstitusiya hüququ", "Cinayət hüququ", "Cinayət-prosessual hüquq" fənləri üzrə keçirilmiş müsabiqə bir neçə mərhələdə davam etmişdir. Müsabiqənin universitet komandalarının kapitanları arasında növbəti mərhələsində keçirilən fərdi yarışın qalibi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Siyasi İdarəetmə fakültəsinin IV kurs tələbəsi Maya Eyvazzadə olmuşdur.

Tədbirdə Baş Prokuror Kamran Əliyev qalibləri təbrik etmiş, onlara sertifikatlar təqdim etmişdir.

Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov qalıb olan tələbə Maya Eyvazzadəni qəbul edib, müsabiqədə yüksək nəticə göstərməsi münasibətilə təbrik edib, ona təhsilində uğurlar arzulayıb. Rektor gənc hüquqşünasların təhsili, ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində keçirilən səmərəli və ardıcıl tədbirlərin əhəmiyyətini qeyd edib. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Azərbaycan Respublikasının Baş Prokurorluğu arasında bağlanmış əməkdaşlıq sazişinə əsasən hər iki qurum arasında əməkdaşlığın uğurla davam etdiyini bildirib.

## *Dövlətlərarası sazişin icrasına başlanıldı*

Ankarada Türkiyə Prezidenti Administrasiyası yanında İnsan Resursları Ofisində "Azərbaycan Respublikasının dövlət idarəçiliyi və dövlət qulluğu sistemi" adlı təqdimat keçirilib. Türkiyə Prezidenti Administrasiyası yanında İnsan Resursları Ofisinin şöbə müdirləri, sektor müdirləri, layihə rəhbərləri, müxtəlif nazirliklərin məsul şəxslərinin qatıldığı tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasından Türkiyəyə ezam olunmuş "Dövlət qulluğu və kadr siyasəti kafedrası"nın müdiri, dosent Rəcəb Rəhimli məruzə ilə çıxış edib. Onlayn formatda keçirilən təqdimatda Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov da iştirak edib. Qeyd edək ki, daha öncə 2021-ci ilin 19 fevral tarixində Ankarada Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın doqquzuncu iclasında imzalanan protokol çərçivəsində iki ölkənin dövlət kadrlarının hazırlanması və inkişafı sahəsində işbirliyinə dair razılıq əldə olunub. Protokola əlavə edilmiş Fəaliyyət Planında həmçinin təhsil və insan resurslarının inkişafı ilə bağlı birgə fəaliyyətin qarşılıqlı münasibətlərə təkan verəcəyi vurğulanıb. Bu çərçivədə Türkiyə Prezidenti Administrasiyası yanında İnsan Resursları Ofisinin rəhbərliyinin dövlət qulluqçularının təlim və inkişafı üçün vasitələrin tanıdılmasına yönəlik Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə birgə fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulub və bu istiqamətdə ilkin tədbirlər görülüb, yol xəritəsi müəyyənləşdirilib. Qeyd edilən dövlətlərarası anlaşma çərçivəsində təşkil edilən tədbirdə təqdimatla çıxış edən dosent Rəcəb Rəhimli Türkiyə təmsilçilərinə ölkəmizin son illərdə iqtisadi, siyasi, humanitar, hərbi uğurları ilə bağlı məlumat

verib. Bildirilib ki, ölkənin hazırkı davamlı inkişafı dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində reallaşdırılan ardıcıl islahatlar və dəyişikliklərin nəticəsidir. R.Rəhimli Azərbaycan Respublikasının dövlət qulluğu sistemi, son illərdə dövlət idarəçiliyi sahəsində gerçəkləşdirilən islahatlar barədə iştirakçıları bilgiləndirib. Natiq Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatlar sayəsində ölkədə qlobal çağırışlara çevik reaksiya verə bilən dövlət qulluğu sisteminin formalaşdığını xüsusi vurğulayıb. O, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət qulluqçularının hazırlanması və yenidən hazırlanması sisteminin formalaşdırılmasında vacib həlqə olduğuna diqqət çəkib. Vurğulanıb ki, daimi dəyişikliklər şəraitində dövlət idarəçiliyi sisteminin modernləşdirilməsinə dair tövsiyələrin işlənməsi sahəsində aparıcı elm, təhsil və informasiya mərkəzi kimi müəyyənləşdirilən DİA-nın statusu və fəaliyyət sahəsi Prezident İlham Əliyevin 2014 və 2017-ci illərə aid sərəncamları ilə xeyli genişləndirilib. Natiq qeyd edib ki, Dövlət İdarəçilik Akademiyasında yeni tədris texnologiyalarının tətbiqi ilə ali təhsilin müxtəlif səviyyələrində və fərqli istiqamətlər üzrə ildə 3000-dən artıq dövlət qulluqçusu yenidən hazırlanır. Dosent R. Rəhimli diqqətə çatdırıb ki, dövlət qulluqçularının əlavə təhsilinin təşkili və peşə bacarıqlarının təkmilləşdirilməsi məqsədilə rəhbər vəzifəli və digər dövlət qulluqçularının fasiləsiz təhsilinin təşkili çərçivəsində müxtəlif müddətli fokus qruplar üçün ən son yeniliklər əsasında daim yenilənən və distant formada



təşkili mümkün olan təlimlər paketi formalaşdırılmışdır. Təlimlər fokus auditoriyasının xüsusiyyətləri nəzərə alınaraq distant, interaktiv formada, qısa və uzunmüddətli, tanınmış milli və xarici ekspertlərin iştirakı ilə keçirilməkdədir. Bildirilib ki, dövlət qulluqçularının hazırlanması prosesində ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ilk dəfə nəzəri cəhətdən əsaslandırılmış və tətbiq olunan, Azərbaycan Respublikasının davamlı inklüziv inkişaf sahəsində dünya liderliyini təmin edən və 44 günlük Vətən müharibəsi şəraitində də uğurla sınaqdan keçən yeni idarəetmə texnologiyalarının öyrənilməsinə xüsusi yer ayrılıb.

Toplantının sonunda tədbir iştirakçılarının sualları cavablandırılıb, gələcək birgə fəaliyyətə dair məsələlərlə bağlı fikir mübadiləsi aparılıb və perspektiv işbirliyi istiqamətləri müəyyənləşdirilib.

***Dövlət İdarəçilik Akademiyasında "Tarixi qələbəmiz ədalətin təntənəsidir" mövzusunda onlayn təlim keçirilib***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Tarixi qələbəmiz ədalətin təntənəsidir" mövzusunda onlayn təlim keçirilib.

Təlimin əsas məqsədi regionda baş verən siyasi proseslərin təhlili, müharibədən sonrakı dövrdə münasibətlər, regionun yeni siyasi vəziyyəti haqqında məlumat vermək və digər aktual məsələlər barədə fikir mübadiləsi aparmaqdan ibarət olub.

Əməkdaşlıq fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti arasında imzalanmış əməkdaşlıq memorandumunu əhatə edir.

Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin dövlət qulluqçularından ibarət əməkdaşları üçün Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında «Tarixi qələbəmiz ədalətin təntənəsidir» mövzusunda onlayn formada növbəti təlim təşkil edilib. Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrasının müdiri dosent Firdovsiyyə Əhmədova məruzə ilə çıxış edib. Təlimin əsas məqsədi 44 günlük Vətən müharibəsinin tarixi, hüquqi, siyasi tərəflərini dinləyicilərlə müzakirə etmək olub. Qarabağ savaşının tarixinə toxunan mühazirəçi Dosent F.Əhmədova Cümhuriyyət dövründə, 1990-ci və 2020-ci illərdə Azərbaycan xalqının öz torpaqlarını qorumasından, mənfur düşmənlə mübarizəsindən söhbət açıb. F.Əhmədova qeyd edib ki, 30 il ərzində Azərbaycan dövləti problemi diplomatik yolla həll etməyə çalışdılar. Ancaq Ermənistan hakimiyyətinin son dövrlərdə səsləndirdiyi şüarlar müharibəyə əsas verirdi. Natiq 30 il ərzində iqtisadiyyatımızın, ordumuzun, güclənməsi, müasir silahlarla silahlanması, hərbi əməkdaşlıq və s. məsələlərə də toxundu.

Sonda F.Əhmədova 44 günlük müharibə zamanı zəfəri şərtləndirən əsas amillərdən-Ali Baş Komandan, ordu və xalqın mütəşəkkilliyindən, Qarabağ torpaqlarında hal-hazırda uğurla aparılan quruculuq işlərindən söhbət açdı. İnteraktiv keçən təlimdə dinləyicilərin suallarını cavablandırdı.

***Dövlət İdarəçilik Akademiyasında18 oktyabr-Müstəqilliyin Bərpası Günü ilə əlaqədar konfrans keçirilib***

Oktyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 18 oktyabr-Müstəqilliyin Bərpası Günü ilə əlaqədar konfrans keçirilib.

Tədbirdə DİA-nın rektoru, akademik Urxan Ələkbərov ötən 30 il ərzində Azərbaycanda əldə edilən nailiyyətlərdən danışıb, ölkənin uğurlu inkişafı sayəsində dövlətçilik ənənələrimizin möhkəmləndiyini, iqtisadi və siyasi gücümüzün artdığını bildirib. Qeyd edib ki, müstəqil Azərbaycan Respublikası bu gün hər bir soydaşımız üçün əsl qürur mənbəyinə çevrilib.

U.Ələkbərov vurğulayıb ki, müstəqilliyin ilk illərində Azərbaycan dərin siyasi, iqtisadi və sosial böhranla yanaşı, Ermənistanın hərbi təcavüzü, xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə siyasəti ilə üzləşib. Xalqımızın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı və apardığı müdrik siyasət nəticəsində ölkəmiz parçalanma təhlükəsindən xilas etdi.

Akademik Urxan Ələkbərov 44 günlük Vətən müharibəsindən, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusunun düşmən üzərində

qazandığı parlaq qələbədən söz açıb. İkinci Qarabağ müharibəsində Azərbaycan ordusunun qəhrəmanlığını, mübarizliyini xüsusi qeyd edib. Rektor bildirib ki, qələbəmizin başlıca amili Prezident, Ali Baş Komandan İlham Əliyevin uzun müddət ərzində həyata keçirdiyi güclü dövlət, güclü xalq və güclü ordu strategiyası olmuşdur.

Konfransda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin dekanı professor Elçin Əhmədov, Tarix kafedrasının professoru Həvva Məmmədova, Politologiya və siyasi idarəetmə kafedrasının müəllimi Zaur Məmmədov, Hüquq kafedrasının müəllimi Fuad Süleymanov və digərləri çıxış edərək dövlət müstəqilliyimizin bərpası uğrunda gedən mübarizələrdən, əldə olunan uğurlardan bəhs edib. Çıxışçılar 30 il əvvəl Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsini xalqımızın tarixində böyük hadisə kimi qiymətləndirib, ölkənin əldə etdiyi uğurlar barədə fikirlərini bölüşüblər. Natiqlər bildiriblər ki, tarix dəfələrlə sübut edib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Azərbaycan xalqı bu il bu bayramı tam fərqli olaraq, öz ərazi bütövlüyünü bərpa etmiş qalib xalq kimi qeyd edir.

## *Dövlət İdarəçilik Akademiyasında "Cənubi Qafqaz: postmünaqişə vəziyyətinin siyasi-hüquqi aspektləri" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və AMEA Hüquq və İnsan Haqları İnstitutunun birgə təşkilatçılığı ilə 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının parlaq qələbəsinin birilliyinə həsr olunan "Cənubi Qafqaz: postmünaqişə vəziyyətinin siyasi-hüquqi aspektləri" mövzusunda beynəlxalq elmi-praktik onlayn konfrans keçirilib.

Beynəlxalq konfransı açılış nitqi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov və Azərbaycan Milli Elmlər Akademiyası Hüquq və İnsan Haqları İnstitutunun direktoru, professor Aytən Mustafazadə açıblar. Natiqlər, öz çıxışlarında 44 gün sürən və Azərbaycanın ərazi bütövlüyünün tam bərpası ilə nəticələnən bu Zəfəri ölkə Prezidentinin innovativ inkişaf strategiyasının təntənəli yekunu kimi dəyərləndiriblər.

Konfrans iştirakçılarını Suxumi (Gürcüstan) Dövlət Universitetinin rektoru, Gürcüstan Pedaqoji Elmlər Akademiyasının prezidenti professor, səfir Zurab Xonelidze salamlamışdır. O, Azərbaycan Respublikasının Prezidenti yanında DİA və AMEA-nın Hüquq və İnsan Haqları İnstitutu ilə həyata keçirilən əməkdaşlıq haqqında danışmışdır.

Konfransda iştirakçılarına professor Namiq Əliyevin elmi redaktəsi ilə "Elm və təhsil" nəşriyyatında Azərbaycan və rus dillərində çap olunmuş məqalələr toplusu təqdim olunmuşdur.

Daha sonra 9 ölkədən (Azərbaycan, Gürcüstan, İsrail, Litva, Moldova, Polşa, Rusiya, Qazaxıstan, Qırğızıstan) konfransa qatılan görkəmli alim və tədqiqatçılar hazırladıqları təqdimatlarla çıxış edərək, müzakirələr aparıblar. Müzakirələrdə Azərbaycanın 44 günlük parlaq qələbəsi, müharibənin geosiyasi nəticələri, erməni revanşizminin Cənubi Qafqazın təhlükəsizliyinə ciddi təhdid yaratması, müharibədən sonra Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri arasında əməkdaşlıq, azad edilmiş Qarabağ ərazilərinin bərpasının geoiqtisadi perspektivləri, Zəngəzur tranzit dəhlizinin əhəmiyyəti və s. mövzularda məruzələr təqdim ediblər.

***Azərbaycan nümayəndə heyəti Beynəlxalq konfransda iştirak etmişdir***

Avrasiya Tədqiqatları İnstitutunun təşəbbüsü ilə oktyabr ayında keçirilən "Tarixiliyin müddəti olmur: Nürnberq prosesinin bitməsinin 75 illiyinə" həsr olunmuş beynəlxalq konfransda Azərbaycan nümayəndə heyəti də iştirak etmişdir.

Azərbaycan nümayəndə heyətinin tərkibi "Baku Network" Ekspert Şurasının direktoru Gülnarə Məmmədzadə, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının müdiri, fövqəladə və səlahiyyətli səfir, professor Namiq Əliyev və "Avrasiya Tədqiqatları İnstitutu" İnkişaf Fondunun filial müdiri Rauf Həsənovdan ibarət olmuşdur.

Tədbir Rusiya Federasiyasının Kaliningrad şəhərində, İmmanuel Kant adına Baltik Federal Universitetində "Tarixiliyin müddəti olmur" layihəsi çərçivəsində baş tutmuşdur. Bu layihə, Böyük Vətən müharibəsi dövründə nasistlərin və onların əlaltılarının hərbi cinayətlərinin qurbanlarının, faşizm üzərində qələbə çalınmasında SSRİ xalqlarının verdiyi töhfələrin, ümumilikdə isə Böyük Vətən müharibəsinin reallıqlarına dair etibarlı faktların və tarixi yaddaşın qorunması məqsədini daşıyır.

Konfransın moderatoru, "Avrasiya Tədqiqatları İnstitutu" İnkişaf Fondunun prezidenti Valeri Tursunov öz çıxışında "Nürnberq dərsləri"ni və onların beynəlxalq hüquq sistemində əhəmiyyətini xatırlamağın və diqqətdə saxlamağın zəruriliyini vurğulamışdır.

İmmanuel Kant adına Baltik Federal Universitetinin rektoru Aleksandr Fyodorov 75 il bundan əvvəl baş verən hadisələri təhrif edərək oxumaq cəhdlərinin qarşısını almağın Rusiyanın elm və təhsil ictimaiyyəti üçün əsas vəzifə olduğuna əminliyini ifadə etmişdir.

Rusiya Federasiyası Prezidentinin Şimali Qərb federal dairəsi üzrə səlahiyyətli nümayəndəsinin müavini Roman Balaşov da öz növbəsində bildirmişdir ki, Rusiya Federasiyası İstintaq Komitəsi tərəfindən Böyük Vətən müharibəsi illərində alman-faşist işğalçılarının Sovet Ittifaqı xalqlarına qarşı soyqırımı ilə bağlı cinayət işi açıldığına dair qərar qəbul edilmişdir.

O.E. Kutafin adına Universitetin (MDHA) rektoru Viktor Blajeyev qeyd etmişdir ki, Nürnberq tribunalı – tarixdə müharibəni başladan insanların cinayət məsuliyyətinə cəlb olunduğu ilk haldır və bu hərbi tribunalın hökmü yeni dünya nizamının əsasını qoymuşdur.

Moskva Dövlət Hüquq Akademiyasının Cinayət hüququ kafedrasının professoru Lyudmila İnoqamova-Xegay təcavüzə səbəb olan fiziki və hüquqi şəxslərə qarşı cinayət məsuliyyətinin açılmasının vacibliyi məsələsini qaldırmışdır.

O.E. Kutafin adına Universitetin (MDHA) Beynəlxalq hüquq kafedrasının professoru Vyaçeslav Batır öz növbəsində vurğulamışdır ki, "Nürnberq dərsləri – faşizmin reabilitasiyasının, tribunalın prinsiplərinin və dəyərlərinin saxtalaşdırılmasının, elan olunmuş və mühakimə edilmiş faktların mahiyyətinin pozulmasının qarşısını almaqdır".

Konfrans iştirakçıları, həmçinin, Nürnberq prosesinin artıq keçmişdə qalması və faşist ideologiyasının yayılması vasitəsi kimi İkinci dünya müharibəsinin nasist cinayətkarlarının qəhrəmanlaş- dırılması məsələsini də müzakirə etmişlər.

Professor Namiq Əliyev "Faşist ideologiyasının yayılmasının vasitəsi kimi II dünya müharibəsi nasistlərinin qəhrəmanlaşdırılması" mövzusunda məruzə ilə çıxış edərək, İkinci dünya müharibəsi hadisələri ilə müasir dövrdə baş verən proseslər arasında müqayisələr aparmışdır. Ermənistanda Njde kimi nasist əlaltıları xatirəsini əbədiləşdirilməsi – faşist ideologiyasını yaşatmaq, gənc nəslin bu ideologiyada tərbiyə etmək deməkdir. Erməni təcavüzü, törədilmiş cinayətlər haqqında, 44-günlük Vətən müharibəsindən sonra Azərbaycan qarşısında dayanan vəzifələr haqqında konfrans iştirakçılarına məlumat verilmişdir.

### *Dövlət İdarəçilik Akademiyasının professorunun kitabı beynəlxalq elektron platformada dərc olunub*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Idarəçilik Akademiyasının Dövlət idarəetməsi və menecment kafedrasının müdiri, professor Xatirə Hüseynovanın həmmüəllifi olduğu "Kəmər və Yol təşəbbüsü Cinin qlobal iqtisadi izi" (Belt ans Road İnitiative Chinas qlobal bussines footprint) adlı kitab İngiltərədə "İqtisadiyyat və biznes araşdırmaları Mərkəzinin" (CBER) dəstəyi ilə 2021-ci ildə çapdan çıxmış və www.amazon.com saytında yerləşdirilmişdir.

Prof. X.M. Hüseynovanın "Kəmər və Yol təşəbbüsü və Mərkəzi Dəhliz: Çin, Xəzər, və Avropa arasında logistik körpü " ( Belt and Road İnitiative and the Central Corridor: Logistics bridge between China, the Caspian, and Europe) adlı yazı Cinin sürətlə böyüməsindən başlayaraq hökm sürən qlobal təkqütblü nizam, iki qütblü iqtisadi nizama doğru keçməyə başlaması, bu çərçivədə Çinin "Bir kəmər, bir yol" təşəbbüsü düşünülmüş ən iddialı layihələrdən biri sayıldığı qeyd edilir. Kitab Çinin bu təşəbbüsünün qlobal iqtisadiyyata təsirinin müxtəlif tərəflərini əhatə edir, perspektivlər təhlil olunur, iqtisadi təsirlərlə bağlı hər tərəfli baxışları təqdim edir.

"Kəmər və Yol təşəbbüsü və Mərkəzi Dəhliz: Çin, Xəzər, və Avropa arasında logistik körpü" bölməsində izah edilir ki, Azərbaycan müstəqillik qazandıqdan sonra yaxşı tanınmaqla və Avropa ilə Xəzər hövzəsi arasında enerji təhlükəsizliyi və nəqliyyat infrastrukturu daxil olmaqla bir çox sahələrdə müsbət bir nüfuz qazanıb. Bu cür müsbət nüfuz və Azərbaycanın regional və qlobal təcrübəsi ölkəni müasir İpək Yolu layihəsinin əsas ölkələrindən birinə çevirmişdir.

Çinin başlatdığı Kəmər və Yol Təşəbbüsü (BRİ) adlı iddialı iqtisadi layihədə Azərbaycan Respublikasının mühüm rolu açıqlanmışdır. Azərbaycan Respublikası, Cənubi Qafqaz bölgəsində, Şimali və Cənub, Şərq və Qərbin kəsişməsində yerləşən və Asiya ilə Avropa arasında körpü oynayan mühüm bir ölkədir.

Bu baxımdan Azərbaycanın "Bir kəmər, bir yol" layihəsində nəqliyyat və geosiyasi üstünlükləri var. Bölmədə qədim İpək Yolu və müasir Kəmər və Yol Təşəbbüsü strategiyasında mühüm rol oynayan Azərbaycanın nəqliyyat və logistika üstünlüklərini təqdim olunur.

### *Dövlət İdarəçilik Akademiyasında «Vətəndaş məmnunluğunun təmin olunmasının müasir texnologiyaları» layihəsi çərçivəsində növbəti təlim keçirilib*

Azərbaycan Respublikasının Prezidentinin 23 noyabr 2018-ci il tarixli 739 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın Fəaliyyət Planında dövlət qulluğu sisteminin inkişaf etdirilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar Fəaliyyət Planında göstərilən prioritet istiqamətlərindən biri kimi rəhbər vəzifəli və dövlət qulluğuna yeni qəbul olunan şəxslərin etik davranış qaydaları sahəsində bilik və bacarıqların inkişaf etdirilməsi məqsədi ilə "ASAN" xidmət mərkəzlərinin əməkdaşları üçün təlim keçirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ("ASAN" Xidmət) ilə imzalanan Əməkdaşlıq Memorandumuna əsasən birgə layihələrin, konfransların, ixtisasartırma kurslarının təşkili, dəyirmi masaların, seminarların və müzakirələrin keçirilməsi, müxtəlif elmi-tədqiqatların aparılması və analitik materialların hazırlanmasını əhatə edir. Mövcud

Əməkdaşlıq Memorandumu çərçivəsində Dövlət İdarəçilik Akademiyası fəaliyyətinin davamı olaraq 2021-ci ildə "ASAN" Xidmət mərkəzlərinin əməkdaşları üçün "Vətəndaş məmnunluğunun təmin olunmasının müasir texnologiyaları" mövzusunda təlimlərin keçirilməsinə başlanmışdır. Yeni tədris ilində növbəti təlim 2021-ci il oktyabr ayının 22-də və 29 tarixlərində keçirildi.

Təlimin "Azərbaycan Respublikasının Milli prioritetləri: planlaşdırma və idarəetmə" ilk mühazirəsi Dövlət İdarəçilik Akademiyasının rektoru akademik U.Ələkbərov təqdim etdi. Daha sonra təlim iştirakçıları Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi Anar Həsənovun "Vətəndaş məmnuniyyətinin təmin edilməsində xidmət mədəniyyətinin rolu", "Vətəndaş-məmur münasibətlərində ünsiyyət bacarıqları" adlı mühazirəsini dinlədilər.

Layihə 2021-ci ilin sonunadək davam edəcək və təlim iştirakçılarına sertifikatlar təqdim olunacaqdır.

***Dövlət İdarəçilik Akademiyasında "Qarabağa qayıdış: Vətən müharibəsindən Zəfərədək şərəfli yol" adlı tədbir keçirilib***

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında 8 Noyabr – Zəfər Günü ilə əlaqədar "Qarabağa qayıdış: Vətən müharibəsindən Zəfərədək şərəfli yol" adlı onlayn elmi konfrans keçirilib.

Əvvəlcə şəhidlərin əziz xatirəsi anılıb.

Akademiyada Şuşadan olan rəssam Rövşən Bayramovun Şuşanın 17 məhəlləsini kətan üzərində çəkdiyi rəsm əsərlərinin sərgisinə baxış olub.

Konfransda Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov ötən 30 il ərzində Azərbaycanda əldə edilən nailiyyətlərdən danışıb, ölkənin uğurlu inkişafı sayəsində dövlətçilik ənənələrimizin möhkəmləndiyini, iqtisadi və siyasi gücümüzün artdığını bildirib. Qeyd olunub ki, müstəqil Azərbaycan Respublikası bu gün hər bir soydaşımız üçün əsl qürur mənbəyinə çevrilib.





U.Ələkbərov diqqətə çatdırıb ki, müstəqilliyin ilk illərində Azərbaycan dərin siyasi, iqtisadi və sosial böhranla yanaşı, Ermənistanın hərbi təcavüzü, xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə siyasəti ilə üzləşib. Xalqımızın təkidli tələbi ilə ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı nəticəsində ölkəmiz parçalanma təhlükəsindən xilas oldu.

Akademik 44 günlük Vətən müharibəsindən, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuzun düşmən üzərində qazandığı parlaq Qələbədən söz açıb. O, Vətən müharibəsində əsgər və zabitlərimizin qəhrəmanlığını qeyd edib. Rektor bildirib ki, Qələbəmizin başlıca amili Prezident, Ali Baş Komandan İlham Əliyevin uzun müddət ərzində həyata keçirdiyi güclü dövlət idarəetməsi strategiyası olub.

Konfransda Dövlət İdarəçilik Akademiyasının Siyasi idarəetmə fakültəsinin dekanı professor Elçin Əhmədov, Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının müdiri professor Namiq Əliyev, Politologiya kafedrasının müdiri professor Nigar Ələkbərova, kafedranın müəllimi politoloq Zaur Məmmədov və başqaları Vətən müharibəsində qazandığımız tarixi Qələbənin əhəmiyyətini vurğulayıblar. Eyni zamanda, ötən il noyabrın 8-də Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tərəfindən Şuşanın işğalçılardan azad edilməsi, eləcə də 2021-ci ildə Qarabağın, o cümlədən Şuşa şəhərinin əsl tarixi siması, ənənələri və qədim mədəni abidələrinin bərpası istiqamətində aparılan işlərdən bəhs edilib.

Qeyd olunub ki, Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə qədim Şuşa şəhərinin rəşadətli Ordumuz tərəfindən işğaldan azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə həlledici təsir göstərərək Zəfər Günü kimi tariximizə yazıldı, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi.

### *DİA Tələbə Elmi Cəmiyyəti virtual elmi konfrans keçirmişdir*

DİA Tələbə Elmi Cəmiyyəti 05 noyabr 2021-ci il tarixində Azərbaycanın işğalçı Ermənistan üzərində tarixi Qələbəsinin birinci ildönümünə həsr olunmuş "Böyük Zəfər Azərbaycan dövlətinin qüdrətinin təntənəsidir" mövzusunda tələbə və magistrantların iştirakı ilə virtual elmi konfrans keçirmişdir.

Konfransı Akademiyanın rektoru, AMEA-nın Həqiqi üzvü Urxan Ələkbərov açaraq, 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın işğalçı Ermənistan üzərində misilsiz tarixi Qələbəsindən bir il keçdiyini göstərmiş, torpaqlarımız uğrunda şəhid olanlara Allahdan rəhmət diləmiş, qazilərimizə şəfa arzulamışdır. Natiq vürğulamışdır ki, xalqımız üçün taleyüklü günlərdə rəşadətli Ordumuzun döyüş meydanında misilsiz qələbələri ilə yanaşı, ölkə rəhbərinin sərkərdəlik məharəti, apardığı siyasi-diplomatik mübarizə, müdrik və qətiyyətli qərarları düşməni böyük məğlubiyyətə uğratmaqla, onu kapitulyasiya aktını imzalamağa məcbur etmişdir. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dünyanın nüfuzlu mətbuat orqanlarına verdiyi çoxsaylı müsahibələrin Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında böyük rolundan bəhs edilmiş, ölkəmizdə Qələbəyə aparan nəhəng işlərdən söz açılaraq, bu işlərin təməlində Ulu Öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə qələcəyə hesablanmış güclü dövlət strategiyasının uğurla reallaşması və bu strateji kursun onun layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ardıcıl şəkildə böyük müvəffəqiyyətlə davam etdirilməsinin, eləcə də sarsılmaz xalq-iqtidar birliyinin durduğu göstərilmişdir. Rektor işğal altında olan ərazilərimizdə Ermənistanın insanlığa sığmayan erməni faşizmi əməllərinə görə beynəlxalq hüquq çərçivəsində layiq olduğu cəza alacağına əminlik bildirmiş, postmüharibə reallıqları və Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında artıq uğurla reallaşmağa başlamış Qarabağın dirçəlişi strategiyasından geniş bəhs etmişdir. Sonda qeyd olunanlar baxımından Akademiyanın Tələbə Elmi Cəmiyyəti tərəfindən keçirilən konfransın əhəmiyyətli olduğunu vurğulamış və onun işinə uğurlar arzulamışdır.

Sonra DİA Tələbə Elmi Cəmiyyətinin sədri, siyasi elmlər doktoru, dosent Sevil Məmmədova müzakirəyə çıxarılan mövzu ilə bağlı ətraflı məruzə etmiş, məruzə ətrafında DİA-nın professoru Havva Məmmədova, "İnzibati idarəetmə" fakültəsinin dekanı dosent Elnur Əliyev, magistrant və tələbələrdən İlkin Rüstəmov, Arkan Adışlı, Gültac Abbaszadə Etibar Babayev, Hüseyn Hacıyev, Şahanə Məmmədova, Elyar Qarayev, Fuad Səfərov, Fariz Soltanzadə, Hacı Mayılov, Kəmaləxanım Ağazadə, Ağayeva Səfiyyə və b. maraqlı çıxışlar etmiş, geniş fikir mübadiləsi aparmışlar.

### *8 Noyabr – Zəfər Günü münasibətilə Azərbaycanın İtaliyadakı səfirliyi tərəfindən Romada "Azərbaycanın mədəniyyət paytaxtı Şuşa" kitabının təqdimatı və Şuşaya həsr olunmuş fotosərgi təşkil edilib*

Tədbirlərin keçirildiyi Piazza Spagna Roma Tədbirlər Konqres Mərkəzinin binasının üzərində "Azərbaycanın mədəniyyət paytaxtı Şuşa" yazılmış və Şuşa qalasının fotoşəkli əks olunmuş böyük baner yerləşdirilib, bina Azərbaycan bayrağının rəngləri ilə işıqlandırılıb.

Həmmüəllifləri italiyalı professor Daniel Pommier Vinçelli və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru Elçin Əhmədov olan "Azərbaycanın mədəniyyət paytaxtı Şuşa" kitabı UNESCO üzrə Azərbaycan Milli Ko-

missiyasının dəstəyi ilə İtaliyanın Sandro Teti Editore nəşriyyat evi tərəfindən italyan dilində nəşr olunub. Kitabın ön sözünün müəllifi tanınmış italyan alimi, tarixçi və publisisti Franko Kardini, son sözünün müəllifi isə İtaliyanın Azərbaycandakı sabiq səfiri, Genuya şəhərində Azərbaycanın fəxri konsulu Marqarita Kostadır. Son aylar ərzində Azərbaycan və İtaliya tədqiqatçılarının və ekspertlərinin birgə gərgin əməyinin bəhrəsi olan bu kitabda Şuşanın əsasının qoyulmasından indiyə qədər keçdiyi bütün tarixi mərhələlər geniş şəkildə əhatə edilir. Kitaba Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın zəngin maddi-mədəni, tarixi, memarlıq irsi və əslən Şuşadan olan Azərbaycanın çoxsaylı görkəmli şəxsiyyətləri haqqında məlumatlar və fotoşəkillərdən ibarət ayrıca fəsillər də daxil edilib. Şuşanın müxtəlif tarixi mərhələlərini, işğaldan əvvəl, işğal vaxtı, azad edilməsindən sonrakı dövrlərini əks etdirən çoxsaylı fotolar, o cümlədən ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Şuşaya səfərləri vaxtı çəkilmiş fotolar kitabı xüsusilə zənginləşdirir. Məzmununun və əks olunan materialların əhatəliliyinə görə unikallığı ilə seçilən və Şuşanın Azərbaycan tarixinin və mədəniyyətinin rəmzi olmasını təcəssüm etdirən bu kitab Şuşa haqqında beynəlxalq oxucuya təqdim olunan ilk əsərdir.

İtaliyanın dövlət qurumlarının, rəhbər-siyasi çevrələrinin, çoxsaylı parlamentarilərin, mədəniyyət, akademik, işgüzar dairələrin, kütləvi informasiya vasitələrinin, Romada akkreditə olunan diplomatik korpusun nümayəndələrinin iştirak etdiyi tədbir cari il Şuşada Cıdır düzündə təşkil olunmuş "Xarıbülbül" musiqi festivalında gənc xanəndə Kənan Bayramlının ifasında "Bayatı-şiraz" muğamının Şuşa şəhərinin möhtəşəm görüntülərinin əks olunduğu videoyazısının nümayişi ilə başlayıb. Ardınca tədbiri açan aparıcı, italiyalı aktrisası Silvia Salvatori bu musiqinin işğal vaxtı Şuşadan və Azərbaycanın işğal olunmuş digər ərazilərindən didərgin düşmüş azərbaycanlıların keçirdiyi iztirabları və öz torpaqlarına qayıtmaq arzusunu ifadə etdiyi üçün rəmzi məna daşıdığını bildirib.

İtaliya Senatının sədri Maria Elisabetta Alberti Kasellatinin tədbir münasibətilə Azərbaycanın İtaliyadakı səfirinə göndərdiyi məktubu səsləndirilib. İtaliya Senatının sədri məktubunda tədbirin Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin zəngin incəsənət və mədəni irsinin ən gözəl şəkildə dəyərləndirilməsinə imkan yaradacağını, Şuşanın yenidənqurma mərhələsinə qədəm qoymasının bütün bölgəyə davamlı sülh, sabitlik və firavanlıq gətirəcəyini arzuladığını bildirib.

Sonra nəşrin italiyalı həmmüəllifi professor Daniel Pommier kitabın əhəmiyyəti barədə danışıb və italyan oxucuya Şuşanın Azərbaycanın milli kimliyinin tərkib hissəsi olmasını nümayiş etdirən faktları əhatə etdiyini deyib.

Tədbir bu il "Xarıbülbül" musiqi festivalında dünya şöhrətli xanəndə Alim Qasımov və Fərqanə Qasımovanın ifasında "Qarabağ şikəstəsi" oratoriyasının videoyazısının təqdimatı ilə davam edib. Bundan sonra kitabın azərbaycanlı həmmüəllifi professor Elçin Əhmədovun tədbir iştirakçılarına videoyazısı nümayiş olunub. E.Əhmədov Şuşanın Azərbaycan üçün tarixi önəmi və işğaldan azad olunmasının Vətən müharibəsində Azərbaycanın şanlı Qələbəsindəki əhəmiyyəti barədə danışıb.

Sonra Azərbaycan Televiziyasının "Oxuyur Vətən" layihəsi çərçivəsində Füzuli şəhərinin dağıntıları üzərində çəkilmiş skripkaçı Nəsrin Mustafayevanın ifasında Con Uilliamsın "Şindlerin siyahısı" filmindən olan musiqisinin videoyazısı nümayiş olunub. Tədbirin aparıcısı bildirib ki, bu musiqi nömrəsindən göründüyü kimi işğal zamanı Qarabağ və Şərqi Zəngəzur dünyanın ən çox dağıdılmış, talan edilmiş və sivil dünyadan ayrılmış bölgələrindən birinə çevrilib, Azərbaycanın maddi-mədəni irsi soyqırıma məruz qalıb, bu gün Azərbaycan bütün dünyaya musiqinin dili ilə ərazilərinə həyatın yenidən qayıdışı mesajını verir.

Sandro Teti Editore nəşriyyat evinin rəhbəri Sandro Teti kitabın ərsəyə gəlməsi istiqamə-

tində aparılmış iş barədə danışıb, kitabın Şuşa və Qarabağ həqiqətlərinin dünyada, xüsusilə də İtaliyada tanıdılmasına verəcəyi töhfədən bəhs edib, habelə kitabın ön sözünün müəllifi professor F.Kardininin tədbir iştirakçılarına müraciəti səsləndirilib.

Ardınca Azərbaycan Televiziyasının "Oxuyur Vətən" layihəsi çərçivəsində Suqovuşanda çəkilmiş, xalq artisti, pianoçu Murad Hüseynovun ifa etdiyi "İthaf" kompozisiyasının videoyazısı təqdim olunub. Aparıcı vurğulayıb ki, bu musiqini müşayiət edən görüntülərdən göründüyü kimi işğal vaxtı bu ərazilər ekoloji terrora məruz qalıb və Azərbaycanın təbii ehtiyatları talan edilib.

Çıxış edən Azərbaycan Respublikası Milli Məclisində Azərbaycan-İtaliya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, deputat Azər Kərimli və İtaliya Parlamentində Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri, senator Stefano Luçidi Vətən müharibəsi günlərində İtaliyanın Azərbaycanın haqlı mövqeyinə dəstək verdiyini, müharibənin bitməsindən sonra Qərb ölkələrindən ilk parlament və hökumət nümayəndə heyətlərinin Azərbaycana məhz İtaliyadan gələrək işğaldan azad olunmuş əraziləri ziyarət etdiyini, bütün bunların iki ölkə arasında yaxın və möhkəm dostluğun bariz nümunəsi olduğunu bildiriblər. Azər Kərimli, habelə bu günlər ərzində Zəfər Günü münasibətilə çoxsaylı italyan parlamentarilərindən göndərilmiş təbrik məktublarına görə təşəkkür edib.

Sonra "Oxuyur Vətən" layihəsi çərçivəsində Qubadlı şəhərinin dağıntıları üzərində lentə alınmış, sözləri Leyla Əliyevaya, musiqisi Nigar Həbibovaya məxsus, müğənni Zabitə Əliyevanın ifasında "Sonsuz aləm" mahnısı nümayiş etdirilib. Aparıcı musiqidə səsləndirilən "İlahi, kömək et ayaq üstə dayanım yenə" sözlərinin rəmzi məna daşıdığını və Azərbaycanın bu gün əsas niyyətinin işğal vaxtı viran edilmiş torpaqlarını canlandırmaq, onlara həyat vermək, məcburi köçkünlərin geri qayıtmasını təmin etmək olduğunu deyib.

Tanınmış italiyalı memar Pietro Laureano son aylarda Şuşaya səfərləri ilə bağlı təəssüratlarını bölüşüb, şəhərin zəngin tarixi memarlıq irsinin işğal dövründə dağıdıldığından söhbət açıb, hazırda Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birgə aparılan bərpa işləri kontekstində öz təcrübəsini bölüşüb, Şuşa Dövlət Tarix-Memarlıq Qoruğunun UNESCO-nun ümumdünya irs siyahısına daxil edilməli olduğunu bildirib.

Tədbir "Oxuyur Vətən" layihəsi çərçivəsində Hadrutda çəkilmiş görkəmli bəstəkar Fərhad Bədəlbəylinin "Ave Maria" kompozisiyasının nümayişi ilə davam etdirilib. Aparıcı bu musiqi nömrəsinin rəmzi olaraq bütün Azərbaycanda olduğu kimi işğaldan azad olunmuş ərazilərdə də bütün dinlərə və mədəniyyətlərə hörmətlə yanaşıldığını və Azərbaycanın bölgədə daha təhlükəsiz gələcək qurmaq və sülh içində birgə yaşamaq istəyini dünyaya nümayiş etdirdiyini bildirib.

Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə natiqlərə, kitabın ərsəyə gəlməsinə və tədbirin təşkilinə əmək sərf etmiş hər kəsə, habelə Azərbaycan xalqı üçün mühüm əhəmiyyət kəsb edən belə bir günə qatıldıqları üçün bütün iştirakçılara təşəkkürünü bildirib. Diplomat Şuşanın Azərbaycan xalqı üçün önəmi, bu şəhərin azad olunmasının Vətən müharibəsində Azərbaycanın Qələbəsi üçün əhəmiyyətindən danışıb, Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi və Azərbaycan Ordusunun rəşadəti nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi və məcburi köçkünlərin vətən həsrətinə son qoyulması ilə Azərbaycan xalqının bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdiyini bildirib.

Tədbirin bədii hissəsi Şuşada "Xarıbülbül" musiqi festivalında səsləndirilmiş "Ey, Vətən" musiqisinin videoyazısının nümayişi ilə yekunlaşıb. Musiqi parçasının sonunda ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Şuşa ilə bağlı fikirlərinin səsləndiril-

məsi böyük alqışlara səbəb olub.

Tədbir "Azərbaycanın mədəniyyət paytaxtı Şuşa" kitabına daxil edilmiş fotoların nümayiş olunduğu sərgi ilə davam etdirilib.

### *"Qlobal dövlət idarəçiliyində insan resursları" adlı beynəlxalq konfransda ölkəmizi akademik Urxan Ələkbərov təmsil edib*

Noyabrın 8-11-də Cənubi Koreya Respublikası Milli İnsan Resurslarının İnkişafı İnstitutunun təşkilatçılığı ilə "Qlobal dövlət idarəçiliyində insan resursları" adlı onlayn beynəlxalq konfrans baş tutub.

50-dən artıq ölkədən dövlət idarəçiliyi məktəbləri rəhbərləri və mütəxəssislərin qatıldığı genişmiqyaslı dördgünlük konfransda ölkəmizi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov təmsil edib.

Konfransda çıxış edən akademik U.Ələkbərov Azərbaycanın son illərdə iqtisadi, siyasi, humanitar inkişafı ilə bağlı məlumat verib. Natiq qeyd olunan uğurların kökündə əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin yaradıcılıqla inkişaf etdirdiyi innovativ dövlət idarəçiliyi strategiyasının durduğunu xüsusi vurğulayıb.

Rektorun sözlərinə görə, Azərbaycan Respublikası postpandemiya dönəmində qlobal miqyasda prioritet kimi qəbul edilən davamlı inklüziv inkişaf siyasətini səmərəli şəkildə reallaşdıran dünya lideridir. Akademik U.Ələkbərov inklüziv inkişaf göstəriciləri Azərbaycandan aşağı olan ölkələr arasında ABŞ, Yaponiya, İsrail, İtaliya, İspaniya, Portuqaliya, Yunanıstan və sairlərinin olduğunu vurğulayıb. Rektor diqqətə çatdırıb ki, nisbətən məhdud maliyyə imkanları şəraitində Azərbaycanın inklüziv inkişaf indeksinin iqtisadi baxımdan daha inkişaf etmiş ölkələrdəkindən yüksək olması ölkənin iqtisadi potensialının hərtərəfli inkişafı və əhalinin rifah halının yüksəldilməsi üçün daha səmərəli istifadəsinin beynəlxalq təsdiqidir. İnklüziv inkişaf sahəsində Azərbaycanın dünya miqyasında 25-ci yerdə qərarlaşması və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilməsi Prezident İlham Əliyev tərəfindən işlənən yeni idarəetmə texnologiyalarının tətbiqinin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın inklüziv inkişafa yönəlik fəaliyyətinin məntiqi yekunudur. Eyni zamanda, bildirilib ki, ölkənin hazırkı inklüziv inkişafı dövlət idarəçiliyi və dövlət qulluğu sahəsində reallaşdırılan ardıcıl islahatlar və dəyişikliklərin nəticəsidir. U.Ələkbərov hazırkı pandemiya şəraitində də Azərbaycanda inklüziv cəmiyyətin qurulması istiqamətində genişmiqyaslı fəaliyyətin həyata keçirilməsini xüsusi vurğulayıb.

### *Dövlət Idarəçilik Akademiyasının əməkdaşı HORİZON 2020 layihəsi çərçivəsində keçirilən vebinarda çıxış edib*

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Idarəçilik Akademiyasının (DİA) İntellektual sistemlərin idarə olunması kafedrasının müdiri, dosent Elvin Əzizbəyov Avropa Komissiyası tərəfindən maliyyələşən HORIZON 2020 beynəlxalq qrant proqramının iştirakçısı kimi SOMPATY (Spectral Optimization: From Mathematics to Physics and Advanced Technology / Spektral Optimallaşdırma: Riyaziyyatdan fizika və yüksək texnologiyaya) adlı layihənin seminarında "Nonlinear inverse problem for the equation of propagation of longitudinal waves with non-self-adjoint boundary conditions" ("Uzununa dalğaların hərəkət tənliyi üçün öz-özünə qoşma olmayan sərhəd şərtli qeyri-xətti tərs

məsələ") adlı məruzə ilə çıxış etmişdir. Məruzədən sonra seminar diskussiya şəklində davam etmiş və məruzəçi Almaniyanın İlmenau Texniki Universitetinin professoru, layihənin direktoru Karsten Trunk, Lübek Universitetinin professoru Jürgen Prestin və Daşkənd Turin Politexnik Universitetinin professoru Davron Matrusulov tərəfindən verilən sualları cavablandırılmışdır.

Almaniyanın İlmenau Texniki Universitetinin koordinatorluğu ilə baş tutan layihədə Çex respublikası Elmlər Akademiyasının Nüvə Fizikası İnstitutu, Ukrayna Milli Elmlər Akademiyasının Riyaziyyat İnstitutu, Almaniyanın Lübeck Universiteti iştirakçılar, Qazaxıstan Respublikası Riyaziyyat və Riyazi Modelləşdirmə İnstitutu, Bakı Dövlət Universiteti, Belarus Milli Elmlər Akademiyasının Riyaziyyat İnstitutu, Daşkənd Turin Politexnik Universiteti isə tərəfdaş elmi müəssisələr qismində iştirak edir.

Qrant layihənin məqsədi Almaniya, Azərbaycan, Belarus, Çex Respublikası, Qazaxıstan, Özbəkistan, Ukrayna ölkələrinin universitetləri və elmi tədqiqat mərkəzləri arasında əməkdaş mübadiləsi, müştərək elmi tədqiqatların aparılması və təlimlərin təşkil olunmasıdır. Layihənin icra müddəti 1 aprel 2020 – 31 mart 2024, büdcəsi 883200 avrodur.

### *Dövlət İdarəçilik Akademiyasında Gənclər Fondunun rəhbərliyi ilə görüş keçirilib*

18 noyabr 2021-ci ildə Dövlət İdarəçilik Akademiyasında Gənclər Fondunun rəhbərliyi ilə görüş keçirib. Hər iki dövlət qurumu arasında gələcək əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov Azərbaycanın Respublikasının son illərdə iqtisadi, siyasi, humanitar inkişafı ilə bağlı fikirlərini bildirib. Rektor qeyd olunan uğurların kökündə əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyevin yaradıcılıqla inkişaf etdirdiyi innovativ dövlət idarəçiliyi strategiyasının durduğunu xüsusi vurğulayıb. Rektor vurğulayıb ki, inklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsi və sosial siyasətin reallaşdırılması baxımından dünya liderinə çevrilib. U.Ələkbərov qazanılan uğurların 44 günlük Vətən müharibəsindəki parlaq Qələbədə böyük payının olduğunu da xüsusi vurğulayıb. Bildirilib ki, ölkənin hazırkı davamlı inkişafı dövlət idarəçiliyi sahəsində reallaşdırılan ardıcıl islahatların nəticəsidir. Bu prosesdə gənclərin iştirakının əhəmiyyətini vurğulayıb.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov qeyd edib ki, hər iki dövlət qurumu arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi zəruridir. F.Cəfərov bildirib ki, Azərbaycan Ordusunun hərb tarixinə qızıl hərflərlə yazdığı şanlı qələbənin mahiyyətinin gənc nəsil arasında təbliğinə, Qarabağa qayıdış prosesində gənclərin və könüllülərin iştirakçılığının təmin edilməsinə, Qarabağın tarixi və mədəni irsi haqqında onların biliklərinin artırılmasına və digər müxtəlif sahələr üzrə gənclərin bilik və bacarıqlarının inkişafına, innovativ gəncliyin potensialının ortaya çıxarılmasına, sağlam düşüncəli gəncliyin yetişməsinə töhfəmizi verməliyik.

Görüşdə Dövlət İdarəçilik Akademiyasının prorektoru dosent Cəfər Eyvazlı, şöbə müdiri professor Ziyafət Həbibova, dekanlar professor Elçin Əhmədov, Elnur Əliyev və Zaur Məmmədov iştirak ediblər.

***Dövlət İdarəçilik Akademiyasında "Azərbaycanda kulturologiya və yüksək mədəniyyətin inkişafı» mövzusunda onlayn təlim keçirilib***

19 noyabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinin dövlət qulluqçularından ibarət əməkdaşları üçün "Azərbaycanda kulturologiya və yüksək mədəniyyətin inkişafı» mövzusunda onlayn təlim keçirilmişdir. Dinləyicilər qarşısında DİA-nın "Tarix" kafedrasının professor, tarix elmləri doktoru, "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının prezidenti, kulturoloq Fuad Məmmədov çıxış etmişdir. Təlimin əsas məqsədi Azərbaycanda kulturologiya və yüksək mədəniyyətin inkişafı haqda dinləyicilərə məlumat vermək olub. Professor F.Məmmədov qeyd edib ki, mədəniyyət elmi nöqteyi-nəzərdən insanın ağlı və qəlbi nəticəsində yarananların hamısıdır. Eyni zamanda natiq müasir dünya dövlətlərinin kulturoloji dəyərlərinin müqayisəsindən, meritokratiyanın dörd əsas amilindən, insanın bacarıqları və qabiliyyəti, biliyi və peşəkarlığı, insani keyfiyyətləri, konkret əməyin konkret nəticələri və bəşəriyyət qarşısında xidmətləri və s. kimi əhəmiyyətli məsələlərə də toxunub.

Təlimdə qeyd olunub ki, mədəniyyətin özü yaradıcı bir prosesdir. İnsan potensialının aparıcı qüvvəsi isə yüksək mədəniyyətli insandır. Azərbaycan Respublikasının məqsədi yüksək mədəniyyətli insanların formalaşmasına nail olmaq, insan potensialını inkişaf etdirməkdir. Təlim qarşılıqlı fikir mübadiləsi ilə davam edib.

***Dövlət İdarəçilik Akademiyasında növbəti təlim keçirilib***

Prezidenti İlham Əliyevin 2017-ci il 22 sentyabr tarixli Fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (DİA) dövlət idarəçiliyi və icra hakimiyyəti orqanları üçün müvafiq ixtisaslar üzrə mütəxəssis hazırlığını və əlavə təhsili həyata keçirən aparıcı tədris, metodik, elm və analitik informasiya mərkəzi kimi müəyyənləşdirilib. Bununla əlaqədar olaraq dekabrın 1-də ali təhsil ocağında onlayn formada "Prezident İlham Əliyevin innovativ idarəçilik texnologiyaları və Azərbaycan Respublikasının siyasi, iqtisadi, hərbi uğurları" adlı növbəti təlim təşkil edilib.

Yerli icra hakimiyyətlərinin "Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi"nin rəhbərləri və əməkdaşları üçün ilk mühazirəni Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov təqdim edib. Akademik Urxan Ələkbərov işğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq işlərindən, ölkəmizin müstəqillik əldə etdikdən bu günədək qazanılan siyasi, iqtisadi, hərbi uğurlarından, prioritetlərindən, inklüziv inkişafın idarəedilməsi sahəsindəki nailiyyətlər barədə geniş çıxış edib.

Rektor son 15 ildə ölkədə adambaşına düşən gəlirlərin artması, iqtisadi dirçəlişə nail olunması dövlət səviyyəsində elm, təhsil və səhiyyənin inkişafı üçün geniş şərait yaradıldığını diqqətə çatdırıb. O, aparılan elmi təhlillər əsasında ölkəmizin qazandığı uğurların əsasında Prezident İlham Əliyev tərəfindən hazırlanmış, nəzəri əsasları və tətbiq üsulları yeni olan innovativ idarəetmə texnologiyalarının dayandığını vurğulayıb.

Təlim fikir mübadiləsi ilə davam edib və uğurla başa çatıb.

***"Ümummilli Liderin irsinə əsaslanan Azərbaycanın inkişaf strategiyası" mövzusunda konfrans keçirilib***

Dekabrın 6-da Yeni Azərbaycan Partiyası Veteranlar Şurası, Mərkəzi Aparatı və Binəqədi rayon təşkilatının birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş "Ümummilli Liderin irsinə əsaslanan Azərbaycanın inkişaf strategiyası" mövzusunda konfrans keçirilib.

Konfransda YAP Veteranlar Şurasının üzvləri, YAP Mərkəzi Aparatının əməkdaşları və partiyanın Binəqədi rayon təşkilatının fəal gəncləri iştirak ediblər.

Əvvəlcə YAP Binəqədi rayon təşkilatının inzibati binasının qarşısında ulu öndər Heydər Əliyevin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Konfransda ulu öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Veteranlar Şurasının sədri Arif Rəhimzadə bildirib ki, ulu öndər Heydər Əliyevin iki dəfə respublikanın rəhbəri olduğu 30 ildən artıq bir dövr dövlətçiliyimizin və xalqımızın mənlik şüurunun formalaşmasında tarixi bir mərhələ təşkil edib. Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsinə, çiçəklənmə, cəmiyyətdə yeni dünyabaxışının formalaşması, insanların öz qüvvə və imkanlarını dərk etməsi dövrünə çevrilib. 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıdışı ilə xilaskarlıq missiyasını yerinə yetirdi, ölkəmiz məhv olmaq təhlükəsindən qurtardı. Ümummilli lider Heydər Əliyevin müasir və müstəqil Azərbaycana rəhbərliyinin əsas nəticəsi ondan ibarətdir ki, dağılmaq ərəfəsində olan ölkəmiz dinamik inkişaf edən bir ölkəyə çevrilib. Bu, heç də asan başa gəlməyib. Azərbaycanı inkişaf yoluna yönəltmək üçün böyük zəhmət sərf olunub. Odur ki, biz Heydər Əliyevin qurucusu olduğu bugünkü Azərbaycanı daim qorumalıyıq.

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev çıxış edərək bildirib ki, bu gün müstəqil Azərbaycan dövlətinin qazandığı hər bir uğurun təməlində ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyası dayanır. Bu strategiyanın tarixi Ulu Öndərin 1969-cu ildə Azərbaycana rəhbər seçilməsindən başlayır. Onun sözlərinə görə, görkəmli dövlət xadiminin respublikamızda rəhbərliyə gəlməsi bir çox sahədə ciddi inkişafa yol açıb, nəticədə xalqımızın gələcək müstəqilliyinə hədəflənən milli özünüdərkin əsası qoyulub.

Sonra YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətləri barədə məruzə ilə çıxış edib. Ulu Öndərin müstəsna xidmətlərinin hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacağını qeyd edən U.Ələkbərov müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsinin Azərbaycan yaşadıqca daim xalqımızın yaddaşında, ürəyində yaşayacağını vurğulayıb.

Məruzəçi Ümummilli Liderin ölkəmizin inkişafı istiqamətində başladığı nəhəng işlərin, möhtəşəm layihələrin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, bütün bu işlərin reallaşmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da xüsusi rolu var. U.Ələkbərov ötən dövr ərzində Azərbaycanın əldə etdiyi nailiyyətlər, dünya ölkələri arasında tutduğu yer barədə məlumatları slaydlar vasitəsilə konfrans iştirakçılarının diqqətinə çatdırıb.

YAP Veteranlar Şurasının üzvü professor Şahlar Əsgərov çıxışında bildirib ki, ulu öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişaf və tərəqqisinə həsr edib. Onun sözlə-

rinə görə, müstəqil Azərbaycan ulu öndərimizin şah əsəridir. Ş.Əsgərov hələ sovetlər hakimiyyəti dövründə Heydər Əliyev tərəfindən minlərlə gəncin keçmiş ittifaq respublikalarının ali məktəblərinə göndərilməsini, Naxçıvanski adına hərbi liseyin yaradılmasını, 1993-cü ildə respublikamızın məhv olmaq təhlükəsindən xilas edilməsini müasir tariximizin ən mühüm hadisələrindən biri kimi səciyyələndirib.

YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov da çıxışında ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib. O qeyd edib ki, Azərbaycanın inkişaf strategiyasının müəllifi ümummilli liderimiz Heydər Əliyevdir. Prezident İlham Əliyevin liderliyi ilə Heydər Əliyev siyasəti ölkəmizdə uğurla davam etdirilir. Bu siyasət davamlı olaraq Azərbaycana nailiyyətlər qazandırır.

Sonda konfrans iştirakçılarının sualları cavablandırılıb.

## *DİA-da "Dövlət idarəçiliyində yeni texnologiyalar: davamlı inkişaf və inklüziv cəmiyyətə doğru" mövzusunda beynəlxalq elmi-praktik konfrans*

Dekabrın 8-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "Dövlət idarəçiliyində yeni texnologiyalar: davamlı inkişaf və inklüziv cəmiyyətə doğru" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilib.

Tədbir Azərbaycanda yeni idarəetmə texnologiyaları və onların tətbiqi ilə qurulmuş səmərəli və çevik idarəetmə sistemi, həmçinin ölkəmizin bu sahədə qabaqcıl təcrübəsi və qazandığı uğurların müzakirəsinə həsr olunub. Bu gün Azərbaycan sürətlə inkişaf edir və respublikamız nəinki regionda, dünya miqyasında seçilən ölkələrdən biridir. Ölkənin siyasi, iqtisadi, sosial və təhlükəsizlik sahələrində uğurlarının kökündə Prezident İlham Əliyev tərəfindən işlənmiş, elmin ən müasir nailiyyətlərinə əsaslanan yeni idarəetmə texnologiyaları dayanır.

Onlayn konfransda azərbaycanlı alimlərlə yanaşı, Türkiyə, Rusiya, ABŞ, Çin, İsrail, Gürcüstan, Qazaxıstan, Türkmənistan və Tacikistanın milli dövlət idarəçilik akademiyaları və universitetlərinin rəhbərləri, nüfuzlu mütəxəssislər iştirak ediblər.

Tədbirdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Azərbaycan Respublikasında yeni idarəetmə texnologiyalarının səmərəliliyi: beynəlxalq qiymətləndirmə" mövzusunda məruzə ilə çıxış edib. Məruzədə Azərbaycanda işlənilmiş və dünyada ilk dəfə tətbiq edilən yeni idarəetmə texnologiyalarının inklüziv cəmiyyətin formalaşdırılmasında əhəmiyyəti vurğulanıb. Bildirilib ki, beynəlxalq təşkilatların rəsmi hesabatlarına görə, hazırda Azərbaycan Respublikası dünyada inklüziv inkişaf sahəsində maddi və insan resurslarından ən səmərəli istifadə edən ölkədir.

Rektor diqqətə çatdırıb ki, inklüziv inkişaf sahəsində Azərbaycan Respublikasının yüksək göstəricilər əldə etməsində və sosial siyasətin reallaşdırılmasında Birinci vitse-prezident Mehriban Əliyevanın müstəsna xidmətləri var.

U.Ələkbərov qazanılan uğurların 44 günlük Vətən müharibəsindəki parlaq Qələbədə böyük payı olduğunu xüsusi qeyd edib. Eyni zamanda, diqqətə çatdırılıb ki, məhz bəhs edilən idarəetmə texnologiyaları dünyanın iqtisadi nəhənglərini diz üstə qoyan pandemiya zamanı Azərbaycanın qələbəsini şərtləndirib.

Yeni dövlət idarəçiliyi və Davamlı İnkişaf Məqsədləri, qlobal pandemiya dönəmində dövlət, müasir dövrdə dövlət qulluğunun idarə olunması, "ağıllı" şəhər və kəndlərin idarə edilməsində süni intellektin rolu, dövlət idarəçiliyində dəyişikliklərin idarə olunması, ölkələrin sülh paradiqmaları konfransın əsas müzakirə mövzularından olub.

Konfrans iştirakçılarının çıxışları və aparılan müzakirələr gedişində Azərbaycanda işlənilmiş yeni idarəetmə texnologiyalarının tədqiqi, alınan nəticələrin tədris proqramlarına, xüsusilə də dövlət qulluqçularının hazırlığı və yenidən hazırlığı prosesinə daxil edilməsi, ümumiyyətlə bu sahədə qazanılan təcrübənin digər ölkələrdə də yayılmasının faydalı ola biləcəyi qənaətinə gəlinib.

***Dövlət İdarəçilik Akademiyasının tələbələri təltif ediliblər***

"ASAN xidmət"in, Azərbaycan Respublikasının Gənclər Fondunun, Gənclər və İdman Nazirliyinin, Azərbaycan Könüllü Təşkilatları İttifaqının birgə təşkilatçılığı ilə Azərbaycan Könüllülərinin IV Həmrəylik Forumu baş tutub.

Tədbir 5 Dekabr – Beynəlxalq Könüllülər Günü ilə əlaqədar təşkil olunub.

Bakı Konqres Mərkəzində keçirilən Forumda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, Gənclər Fondunun İcraçı direktoru Fərid Cəfərov, Gənclər və idman nazirinin müavini İndira Hacıyeva, DOST Agentliyinin İdarə Heyətinin sədri Fərid Məmmədov, könüllülər və digər şəxslər iştirak ediblər.

BMT-nin Könüllülər Təşkilatının icraçı koordinatoru Toyli Kurbanovun videomüraciəti nümayiş olunub.

Qonaqlar ölkəmizdə gənclərin müxtəlif istiqamətlərdə və hərtərəfli inkişafı üçün könüllülük fəaliyyətinin önəmindən bəhs ediblər. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin dəstəyi və tapşırığı əsasında bu hərəkatın son dövrlərdə bütün dövlət qurumlarında tətbiqi istiqamətində ciddi nailiyyətlər əldə olunub. Həmçinin 44 günlük Vətən müharibəsində qazandığımız qələbədə Azərbaycan könüllülərinin müstəsna fədakarlığı və əməyi ifadə olunub.

Tədbir çərçivəsində Azərbaycan Könüllü Təşkilatları İttifaqının hesabatı təqdim olunub, həmçinin müxtəlif nominasiyalar üzrə könüllülər təltif ediliblər. 2021-ci il ərzində könüllük fəaliyyəti sahəsində xüsusi fərqləndiklərinə görə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbələri Anar Musayev, Zəhra Məmmədli və Mirzaur Hüseynli də təltif edilənlər arasında olmuşdular.

Tələbələrimizi təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzu edirik!

***Dövlət İdarəçilik Akademiyasında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr edilmiş anım tədbiri keçirilmişdir***

10 dekabr 2021-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Heydər Əliyev irsi: müstəqil dövlətçilik və müasirlik" mövzusunda onlayn elmi-praktiki konfrans keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan rektor akademik Urxan Ələkbərov Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasının dövlətçilik prinsiplərinin yaranmasında müstəsna rolunun olduğunu vurğulamış, Ulu Öndərin uğurlu siyasi fəaliyyətindən bəhs etmişdir.

Həmçinin tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı Aydın Mirzəzadə, Dövlət İdarəçilik Akademiyası Siyasi idarəetmə fakültəsinin dekanı, professor Elçin Əhmədov, Tarix kafedrasının professoru Musa Quluzadə Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyəti barəsində məruzə ilə çıxış ediblər.

## *Yeni idarəetmə texnologiyası: Zəfərə aparan yol*

Dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında "Prezident İlham Əliyevin yeni idarəetmə texnologiyaları: Zəfərə aparan yol" mövzusu Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ilə birgə təşkil olunan elmi-praktik konfrans keçirilib.

Konfransda giriş sözü ilə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik, professor Urxan Ələkbərov Prezident İlham Əliyevin hakimiyyətinin ilk illərində imzaladığı dövlət sənədlərindən birinin ölkədə inklüziv inkişafla bağlı olduğunu xatırladaraq deyib ki, iqtisadi inkişaf prosesində iştirakçılar üçün faydalı və bərabər imkanlar yaradan konsepsiyanın praktik məcraya yönəldilməsi dövlətimizin başçısının cəsarətli addımı idi. Bildirib ki, nəticədə iqtisadi inkişafın ənənəvi modellərinin genişləndirilməsinə, səhiyyə sahəsində bərabərliyə, insan kapitalına, ətraf mühitə, sosial müdafiə və ərzaq təhlükəsizliyinə xüsusi diqqət yetirildi və iqtisadi inkişafda "İlham Əliyev modeli" bərqərar olundu.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın cəmiyyətimizin sosial həyatında əsaslı rol oynayan layihələrinin inklüziv inkişafdan bəhrələndiyini vurğulayan Urxan Ələkbərov bu xəttin davam etdirildiyini bildirib.

Rektor dünyanın yüksək inkişaf etmiş 30 ölkəsi içərisində 25-ci yerdə qərarlaşan Azərbaycanın olmasını ölkədə tətbiq edilən yeni idarəetmə texnologiyasının uğurlarından biri adlandırıb. Urxan Ələkbərov beynəlxalq təhlil mərkəzlərinin Azərbaycanda dövlətin sosial siyasətinin səviyyəsinin iqtisadi inkişaf səviyyəsindən yüksək olduğu ilə bağlı rəyini vurğulayaraq deyib: "Bu, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan yeni idarəetmə texnologiyasının Prezident İlham Əliyev tərəfindən uğurla tətbiq olunmasının nəticəsi kimi ibrətamizdir".

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri, tarix üzrə elmlər



doktoru Fərid Şəfiyev Azərbaycandakı yeni idarəetmə texnologiyalarının öz konstruktivliyinə görə diqqəti cəlb etdiyini vurğulayıb. Bu konstruktivliyin xüsusilə dövlətin daxili və xarici siyasətində əks olunduğundan danışan İdarə Heyətinin sədri deyib: "İndiki həssas məqamda o konstruktivlik özünü Cənubi Qafqazın başlıca aktoru olan ölkəmizin Azərbaycan–Türkiyə, Azərbaycan-Rusiya, Azərbaycan–İran, Azərbaycan-Qərb münasibətlərində əyani surətdə göstərdi".

Tarix elmləri doktoru, həmçinin bildirib: "Hesab edirik ki, bu, Prezident İlham Əliyevin yeni idarəetmə texnologiyalarında əks olunan xarici siyasət modeli kimi cəlbedicidir".

Konfrans Milli Məclisin üzvü, siyasi elmlər doktoru Elşad Mirbəşiroğlunun "İlham Əliyev: milli hədəflərə aparan praqmatizm və strateji baxış", BMTM-NİN şöbə müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Cavid Vəliyevin "Qarabağ zəfərindən sonra siyasi-diplomatik proseslər", Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri, hüquq elmləri doktoru, professor İsaxan Vəliyevin "Ermənistan dövlətinin məsuliyyətə cəlb edilməsinin beynəlxalq hüquqi mexanizmləri" mövzularında məruzələri ilə davam edib. Məruzələrdə postmünaqişə dövründə Azərbaycanın artan nüfuzunun onun iqtisadi siyasətlə sinxronlaşdırılacağına qəti əminlik ifadə olunub.

Daha sonra BMTM-nin şöbə müdiri Fuad Çıraqovun "Azərbaycanın xarici siyasəti: zəfərə aparan yol", Azərbaycan Respublikasının Yanında Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Rəcəb Rəhimlinin "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsində liderin rolu", BMTM-nin aparıcı məsləhətçisi Şahmar Hacıyevin "Azərbaycanın enerji siyasəti" mövzularında məruzələri təqdim edilib.

### *"Vətəndaş məmnunluğunun təmin olunmasının müasir texnologiyaları" layihəsi üzrə sonuncu təlim keçirilib*

Azərbaycan Respublikasının Prezidentinin 23 noyabr 2018-ci il tarixli 739 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"nın Fəaliyyət Planında dövlət qulluğu sisteminin inkişaf etdirilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar Fəaliyyət Planında göstərilən prioritet istiqamətlərindən biri kimi rəhbər vəzifəli və dövlət qulluğuna yeni qəbul olunan şəxslərin etik davranış qaydaları sahəsində bilik və bacarıqların inkişaf etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professor müəllim heyəti tərəfindən "ASAN" Xidmət mərkəzlərinin əməkdaşları üçün təlimlər keşirilib. Təlimlər Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnno-vasiyalar üzrə Dövlət Agentliyi (ASAN Xidmət) ilə imzalanan Əməkdaşlıq Memorandumu əhatə edir. Bu memorandum tərəflər arasında birgə layihələrin, konfransların, ixtisasartırma kurslarının təşkili, dəyirmi masaların, seminarların və müzakirələrin keçirilməsi, müxtəlif elmi-tədqiqatların aparılması və analitik materialların hazırlanmasını ehtiva edir. Mövcud Əməkdaşlıq Memorandumu çərçivəsində 2021-ci il üzrə "ASAN" Xidmət mərkəzlərinin əməkdaşları üçün "Vətəndaş məmnunluğunun təmin olunmasının müasir texnologiyaları" mövzusunda təlimlərin keçirilməsi həyata keçirilib. Təlimlərdə Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov "Azərbaycan Respublikasının Milli

prioritetləri: planlaşdırma və idarəetmə" mövzusunda mühazirə ilə çıxış edib. "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının müəllimi Anar Həsənovun "Vətəndaş məmnuniyyətinin təmin edilməsində xidmət mədəniyyətinin rolu", "Vətəndaş-məmur münasibətlərində ünsiyyət bacarıqları" adlı mühazirələri dinlənilib.

Təlimlər 2021-ci ilin aprel ayından dekabr ayınadək davam edib və təlim iştirakçılarına sertifikatlar təqdim olunub, 2021-ci il üçün nəzərdə tutulan təlimlər uğurla başa çatıb.

## MÜNDƏRİCAT

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyətinin qısa xronikası**...........7
.
**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qəbulları**.............................15

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səfərləri**.........................................29

Tərtər və Bərdə rayonlarına səfər ......................................................................................29
Cəbrayıl rayonuna səfər.....................................................................................................34
Xocavənd rayonuna səfər ..................................................................................................49
Füzuli rayonuna səfər ........................................................................................................58
Zəngilan rayonuna səfər ....................................................................................................68
Qubadlı rayonuna səfər .....................................................................................................74
Füzuli və Zəngilan rayonlarına səfər.................................................................................82
İsmayıllı və Şamaxı rayonlarına səfər ...............................................................................86
Şuşaya səfər........................................................................................................................95
Türkiyə Respublikasına səfər ...........................................................................................102
Rusiya Federasiyasına səfər .............................................................................................106
Türkmənistan Respublikasına səfər..................................................................................111
Quba rayonuna səfər.........................................................................................................116
Belçika Krallığına səfər....................................................................................................120
Xocavənd rayonuna və Şuşa şəhərinə səfər.....................................................................131

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri,**
**çıxışları və müsahibələri** ......................................................................................................135

İlham Əliyevin İspaniyanın EFE informasiya agentliyinə müsahibəsi ................................135
İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib.....................................138
İlham Əliyevin VIII Qlobal Bakı Forumunun açılış mərasimində nitqi ..............................140
İlham Əliyev Brüsseldə İspaniyanın "El Pais" qəzetinə müsahibə verib ..............................143
İlham Əliyev Brüsseldə İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibə verib......................148

**DAVAMLI İNKİŞAFIN İDARƏ EDİLMƏSİ**

**Pərviz Şahbazov.** Azərbaycan Respublikasının enerji təhlükəsizliyi siyasəti:
yaşıl artım ölkəsinə doğru .....................................................................................................153

**Фуад Мамедов.** Высококультурный азербайджанец, как возобновляемый
стратегический ресурс национального развития ..................................................................159

**TARİX**

**Намик Алиев.** Кюрекчайский трактат от 14 мая 1805 года
в процессе завоевания Азербайджана.......................................................................................171

**SİYASƏT**

**Elçin Əhmədov.** Şuşa – Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı .......189

**RESENZİYA**

**Əlikram Abdullayev.** Multikulturalizmin uğurlu sosial-fəlsəfi tədqiqi ....................................205

**HÜQUQ**

**Elmir Paşazadə.** Prokurorluğun mülki məhkəmə icraatında iştirakı....................................... 213

**Könül Qurbanova.** Cəza-icra münasibətlərinin tənzimlənməsi ilə bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun hüquqi mövqeləri ................221

**Səftər Rəhimli.** Dövlətin hüquq varisliyi: nəzəri və praktiki aspektlər ...................................229

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Nəsrin Süleymanlı.** Erməni millətçiliyinin tarixi ....................................................................239

**İQTİSADİYYAT**

**Zivər Zeynalova.** İqtisadiyyata kredit qoyuluşlarında mövcud vəziyyətin təhlili ....................247

**G Ə N C T Ə D Q İ Q A T Ç I L A R**

**HÜQUQ**

**Парвин Шарифов.** Некоторые вопросы правового статуса международного спортивного движения ..........................................................................................257

**BEYNƏLXALQ MÜNASİBƏTLƏR**

**Lala Jafarova.** Covid-19: International relations and global health diplomacy .......................261

**Səma Rzayeva.** Beynəlxalq təşkilatların və təhlükəsizlik institutlarının antiterror təşəbbüsləri, metodları və onların nəticələri .............................................................273

**DÖVLƏT İDARƏÇİLİYİ**

**Anar Şükürov.** Qloballaşma prosesində qurumların strateji fəaliyyət sahəsi kimi ictimaiyyətlə əlaqələr (PR) ..........................................................................................291

**SİYASİ NƏZƏRİYYƏ**

**Tural Şirin.** Hibrid müharibənin təhlükəli silahı: informasiya cəbhəsi ..................................297

**BEYNƏLXALQ MÜNASİİBƏTLƏR TARİXİ**

**Vüsalə Şərifova.** Beynəlxalq münasibətlərdə mədəniyyət amilinə elmi-nəzəri yanaşmalar .....305

**Dövlət İdarəçilik Akademiyasında**...........................................................................311

## «Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə» jurnalına məqalələrin təqdimolunma qaydası

1. Məqalə Azərbaycan, İngilis və Rus dillərində qəbul edilir.
2. Məqalənin adı, müəllif(lər)i, müəllif(lər)in elmi dərəcəsi, vəzifələri, ad və soyadları, çalışdıqları qurum və elektron poçt (e-posta) ünvanları yuxarıda sağ tərəfdə göstərilir.
3. Məqalənin həcmi 8 səhifədən az olmamalı (Microsoft Word formatında), 1,5 (bir tam onda beş) intervalla, Times New Roman 12 şriftilə yazılmalı, A4 formatında və elektron daşıyıcıda təqdim olunmalıdır.
4. Məqalədə xülasə (Azərbaycan, İngilis və Rus dillərində), açar söz (Azərbaycan, İngilis və Rus dillərində, ən çox 6 söz) qeyd olunmalıdır.
5. Məqalənin xülasəsi məqalənin məzmununa uyğun olmalı, 150–200 sözdən çox olmamalı, tədqiqatın məqsədini, əhəmiyyətini və elmi dövriyyədəki yerini, istifadə edilən metodları, tətbiq dairəsini göstərməlidir.
6. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. aydın şəkildə qeyd olunmalıdır.
7. Məqalədə elmi mənbələrə istinadlar olmalıdır. Son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və s. istinadlara üstünlük verilməlidir. Məqalədə istinad olunmuş mənbələr ədəbiyyat siyahısında əlifba sırası ilə yazılmalı və nömrələnməlidir. İstinad olunmuş mənbənin ədəbiyyat siyahısındakı nömrəsi və səhifə nömrəsi mətndəki istinaddan sonra kvadrat və ya adi mötərizədə göstərilir. Məsələn (39, s.127-128), [27, s.237] və s.
8. Məqalələr orijinal olmalı və əvvəllər başqa yerli və ya beynəlxalq jurnallara, konfranslara təqdim edilməməlidir.
9. Məqalələr gizli rəyçilərin rəyindən sonra redaksiya heyətinin qərarı ilə çapa tövsiyə edilir.

## Procedure for Submitting Articles to the Journal «Public Administration: Theory and Practice»

1. The article is accepted in Azerbaijani, English and Russian languages.
2. The title of the article, the author (s), author's (s') academic affiliation, titles, names and surnames, workplace and electronic mail address (e-mail) addresses should be displayed above on the right side.
3. The content of the article should be no less than 8 pages (in Microsoft Word format), 1,5 space, Times New Roman 12 fonts and must be submitted electronically in A4 format.
4. The article should contain summary, (English, Russian and Azerbaijani languages), keyword (English, Russian and Azerbaijani languages, no more than six words)
5. The summary of the article must be in line with the content of the article, should not exceed 150-200 words, must indicate the purpose and importance of the research, the methods that used as well as the scope of the study.
6. At the end of the scientific article, the scientific originality and the importance of the emprisicm should be clearly stated in accordance with the character of the scientific field and article.
7. The article should contain references to scientific sources. The scientific articles, monographs and etc.that have been written for the last 5-10 years should be preferred. The sources referred in the article must be listed in an alphabetical order in the reference list. The number and page number of the referred article in the reference list should be displayed in parantheses or brackets after the reference in the text. For instance, (39, p.127-128), [27, s.237] and etc.

8. The articles should be original and should not be previously submitted to other local or international journals and conferences.
9. The articles are recommended to publication by the decision of journal's editorial board after the opinion of peer reviewers.

**Правила предоставления статей для публикации в журнале «Государственное управление: теория и практика»**

1. Статья принимается на азербайджанском, английском и русском языках.
2. Название статьи, автор(ы), ученая степень автора(ов), занимаемая должность, имя и фамилия автора(ов), организация, где они работают, адрес электронной почты указываются в верхнем правом углу.
3. Объем статьи не должен быть менее 8 страниц (в формате Microsoft Word), с между-строчным интервалом –1,5 (полуторный), размером шрифта – 12 пт в формате А4 и должен предоставляться на электронном носителе.
4. В статье должны быть указаны резюме (азербайджанском, английском и русском языках), ключевые слова (на азербайджанском, английском и русском языках, не более 6-ти слов).
5. Резюме статьи должно соответствовать содержанию статьи, и не превышать 150-200 слов, должны быть указаны цель, значимость и место в научном обороте исследования, используемые методы, сфера применения.
6. В конце научной статьи в соответствии с областью науки и характером статьи должны быть чётко сформулированы научная новизна работы, значимость её внедрения и др.
7. В статье должны быть ссылки на научные источники, преимущественно на научные статьи, монографии и др. за последние 5–10 лет. Источники, на которых были ссылки в статье, должны быть пронумерованы и включены в список литературы в алфавитном порядке. Номер источника и страницу, на которую была сделана ссылка, в тексте следует указать в квадратных или обычных скобках. Например, (39, s.127–128), [27, s.237] и т.д.
8. Статья должна быть оригинальной и ранее непредставленной в местные или международные журналы, конференции.
9. Статья рекомендуется к публикации по решению редколлегии после получения отзыва от тайных (неразглашаемых) рецензентов.

# Dövlət idarəçiliyi:
## nəzəriyyə və təcrübə

***Elmi-nəzəri jurnal***

**2021, №4(76)**

Azərbaycan Respublikasının Prezidentinin fəaliyyətini əks etdirən bölməni *siyasi elmlər doktoru, professor E.Nəsirov, siyasi elmlər doktoru, professor E.Əhmədov*, *psixologiya üzrə fəlsəfə doktoru, dosent B.Haqverdiyev* və baş müəllim *F.Şammədov* AzərTAc-ın materialları əsasında hazırlamışlar.

İngilis dilində xülasələr *filologiya üzrə fəlsəfə foktoru, dosent Ülkər Şəfiyeva* tərəfindən redaktə edilmişdir.

Redaktoru *Günay Maqsudova*
Kompüter dizayneri *İradə Təhməzova*
Korrektoru *İradə Təhməzova*

*Lisenziya: AB № 022732,*
*Qeydiyyat № b 532, 08.04.2003-cü il.*
*Redaksiyanın ünvanı:*
*Bakı, Az-1001, Lermontov küç., 74*
*(Dövlət İdarəçilik Akademiyası).*
E-mail: publishing@dia.edu.az
*Telefonlar: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

**«Aspoliqraf LTD» MMC-nin**
mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Sifariş 18. Tiraj 500.

# Journal of Public Administration:
## Theory and Practice

***Scientific and theoretical journal***

**2021, №4(76)**

The section covering activities the President of the Republic of Azerbaijan
is prepared on the basis of AzərTAC materials and is compiled by
*E.Nasirov, Dr. of political sciences, professor;*
*E.Ahmadov, Dr. of political sciences, professor;*
*Dr. B. Hagverdiyev, Ph.D. in Psychology, assistant professor*
and *F.Shammedov,* senior lecturer, all from Academy of Public Administration.

The summaries of the articles were edited by *Ulker Shafiyeva, Ph.D., assistant professor*

Editor *Gunay Maqsudova*
Computer designers *Irada Tahmazova*
Correctors *Irada Tahmazova*

*License: AB No. 022732*
*Registration No. b 532, 08.04.2003*
*Address of Publisher:*
*Baku, Az-1001, Lermontov st., 74*
*(Academy of Public Administration)*
*E-mail: publishing@dia.edu.az*
*Phone: (012) 492-65-29; (012) 437-19-75; (012) 497-71-86*
*Fax: (012) 492-65-15*

Printed from ready made diapositives at the printing house of the
**«Aspoliqraf LTD»**
Order 18. Number of copies printed 500.